# VƏTƏN SİMURQLARI

## II Qarabağ Vətən Müharibəsinin Qəhrəmanları

**I cild**
**2-ci nəşr**



**Hazırladı: Almaz Ülvi**

**Bakı - 2022**

**Toplayıb nəşrə hazırlayan, redaktor və ön sözün müəllifi:**

**Almaz Ülvi (BİNNƏTOVA)**
*filologiya elmləri doktoru*

Rəyçilər: **Ələmdar CABBARLI**
*Filologiya üzrə fəlsəfə doktoru*

**Mübariz AĞALARLI**
*tarix üzrə fəlsəfə doktoru*

Məsul katib: **Şəbnəm BABAYEVA**

Korrektor: **Gülşən KƏNGƏRLİNSKAYA**

Kompyuter dizaynı**: Atilla SÜLEYMANLI**

I cildin 2-ci nəşri tərtibçi müəllif tərəfindən
yenidən işlənmiş, təkmilləşdirilmiş və redaktə olunmuşdur.

**VƏTƏN SİMURQLARI** (II Qarabağ Vətən Müharibəsinin Qəhrəmanları) /Toplayıb nəşrə hazırlayan, redaktor və ön sözün müəllifi: Almaz Ülvi (Binnətova) I cild, 2-ci kitab. – Bakı, 2022. – 840 səh.[şəkilli]

Bu kitab II Qarabağ Vətən Müharibəsinin Qəhrəmanlarından bəhs edir: onları tanıyaq və tanıdaq. Əslində kitab 2 bölmədə qruplaşdırılıb: Şəhidlər və Şahidlər (və ya "Hələ də Vətən keşiyindədirlər"). Şəhidlər bölməsindəki məqalələrdə Qarabağ uğrunda gənc ömürlərini qurban verən balaların tərcümeyi-halları, döyüş yolları, şəhidlik məqamları qələmə alınıb. Şahidlər bölməsində, həmin məqamları görənlərdən, dərk edənlərdən, göylərə ucalan ruhları baxışları ilə yolçu edənlərdən bəhs edilir. Şəhidlər bölməsində hansısa bir igidin tərcümeyi halı verilirsə, şahidlər bölümündə ucalıq məqamını dərk edənlər haqqında geniş məqalələrlə yanaşı, bir-iki cümləlik "məqalələr", ya da "Sözsüz" deyə sadəcə şəkillər "danışır". Şəhidlərin borcunu ödəməmiş bizdən nəsə yazılmasına qəlbimiz razı olmaz, – dedilər. Bu sözləri deyən şahidlərin də haqqını biz unuda bilmərik, – deyə poçtumuza daxil olan, sadəcə ana-bacılarının, döyüş dostlarının göndərdikləri yazıları, qəlb ağrılarını kitaba daxil etdik.

Kitabda şəkillər daha çox "söz deyib", anladılması, deyilməsi çətin olan fikirləri şəkillər, fotolar daha sərrast əks etdirib.

İSBN

*©Almaz Ülvi, 2022*

**27 sentyabr 2020-ci il**



**44 günlük hərbi əməliyyatın adı “Dəmir yumruq” olub.**



# 44 GÜNÜN ƏFSANƏSİ

*Həyat üçün doğulmuşuq,*
*Vətən üçün ölməliyik!*
*Ülvi Bünyadzadə*

Qarabağ Azərbaycandır və nida!

Dağlıq Qarabağı düşmən işğalından azad etmək üçün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev belə bir şüarla səfərbərlik elan etdi və Qarabağa doğru yola başladıq!

II Qarabağ Vətən Müharibəsinə başlamaq üçün 27 sentyabr 2020 günü qəflətən seçilmədi. Bu günə 30-32 ili arxada qoyan dərd-ələm dolu illəri ağır addımlarla gəlmişdik. Nə edəcəyimizi, necə edəcəyimizi düşünürdük. Tarix boyu türk sınan, əyilən, məğlub xalq olmayıb. Zaman fürsətini, məqamını gözləməyi də bilən, səbr sahibi olub, kəmfürsət olmayıb, haqq meydanına cəsarətlə Kişi kimi girib, qalib olaraq çıxıb.

Düşmən bir olsa idi, onun başını bir göz qırpımında əzmək azərbaycanlılar üçün çətin iş deyildi. Amma görünməyən düşmənləri, ilana ağı verən əqrəbləri, ağır hərbi texnikanı, raketləri, silah-sursat alıb-satanları, insanlığın nə olduğunu bilməyən kəs ləri dərdimizə bükülüb kənardan müşahidə edirdik. Çünki zamana ehtiyac vardı. 2016-cı il aprel ayının 1-dən 2-nə keçən gecədən başlayaraq tariximizin şərəfli səhifələrinə yazılacaq "Aprel döyüşləri" (Aprel müharibəsi və ya Dördgünlük müharibə) ağrılarını yaşadıq. Sonrauzaq yerdən gələn ağır təzyiqlər qarşımızı kəsdi. 2020-ci ilin may ayının 8-də Ermənistan baş naziri Nikol Paşinyanın qədim Xankəndimizə gələrək "Qarabağ Ermənistandır və nöqtə" deməsinin, bu azmış kimi qədim Şuşa şəhərimizdə yallı getməsinin cavabını vermək üçün zamanı

daha bir neçə il uzatmağa ehtiyac qalmamışdı. 2020-ci il 12 iyul tarixində Ermənistan – Azərbaycan dövlət sərhədində Tovuz rayonu əraziləri boyunca başlayan döyüşlər, hadisələrin ikinci günü general Polad Həşimovun düşmən gülləsinə tuş gələrək şəhid olması insanları bir nəfər kimi ayağa qaldırdı. Yəni, artıq öyrəşdiyimiz atəşkəs pozulmasından general da öldürülərmi? General Polad Həşimovun şəhid olması xəbəri ildırım sürəti ilə bütün Azərbaycana, bizi istəyən dost və istəməyən ölkələrə yayıldı. Az sonra Müdafiə Nazirliyi tərəfindən elan edildi: “2020-ci il 14 iyulda Tovuz istiqamətində gedən döyüşlərdə 11 şəhidimiz olmuşdu: General-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov, gizir İlqar Zeynallı, gizir Yaşar Babayev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elçin Mustafazadə, baş leytenant Rəşad Mahmudov, çavuş Vüqar Sadıqov, baş əsgər Elşad Məmmədov və əsgər Xəyyam Daşdəmirovdur. 14 iyul qanlı hadisələri hər kəsdə qəti olaraq səfərbərlik duyğusu oyatdı. İnsanları sakitləşdirmək mümkün deyildi. Hamı “Qarabağ! Qarabağ! Qarabağ!” deyərək intiqam hissinə bələnmişdi. Heç kimin gözü başqa şey görmürdü, könlü başqa şey duymurdu.




Budur, 27 sentyabr 2020-ci il. Səhər saat 11.00. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti oldu: “Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz ara-

sında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür ...".

Ali Baş Komandanın xalqa müraciətini insanlar ayaqüstə qarşıladı. Axır ki!Axır ki, o məqam çatmışdı. Çünki artıq xalqın səbr kasası daşıb yeri-göyü başına almışdı. Sanki qılıncı qınından sıyırıb düşmənin bağrına saplayacaq qədər ani məqam yaranmışdı. Ona görə də bu çağırış, bu müraciət bir udum su kimi ciyərlərə sərinlik gətirdi.

Baxmayaraq ki, adı Müharibə idi. Müharibə ölüm-itim, dağıntı, göydən od ələnmək deməkdir, İllahdakı indiki hərbi texnikaların şəklini qəzetlərdə, kitablarda görəndə adamın bağrı yarılır. Amma bu dəfə, artıq bıçaq sümüyə dirənmişdi. Qarabağ torpağı – ana torpaqlarımız uğrunda, ya qazı, ya da şəhid olmalıyıq. Başqa seçim yoxdur. Ali Baş Komandanın bu müraciətinə bütün Xalq ayağa qalxdı. Uşaqdan böyüyə, qız-qadınlarımız, oğullarımız... hamı könüllü olaraq Vətəni işğaldan qurtarmağa getmək istədi. Amma Ali Baş Komandanın əmri ilə yalnız müəyyən yaş həddi nəzərə alınan oğullarımız cəbhəyə yollandı. Minlərlə könüllü gənclərimiz geri qaytarıldı, "ehtiyac olarsa, sizi də cəbhəyə göndərəcəyik", – dedilər.

Sanki müharibəyə yox, müqəddəs bir ziyarətə gedirmiş kimi hərbi geyimli igidlərimizi yola saldıq, arxada isə yağış kimi dualarımızla onları Allaha amanatladıq. Şair Emin Piri yazır ki, "müharibəyə yola düşəndə anam başıma xına qoydu". 2-3 gün ötməmiş Müdafiə Nazirliyindən ilk xəbər gəldi, düşmən cəbhəboyu hücuma keçib. Ağır döyüşlər gedir. Ayıq- sayıq olmalı, yalnız rəsmi xəbərlərə inanmalı, ciddi duruş nümayiş etdirməli, düşmən dəyirmanına su tökməməliyik. Haqq bizimdir, qələbə bizimdir! Tanrı Ordumuzu Zəfərə yetirsin! İşğal altında olan bir sıra kəndlərimiz, hərbi əhəmiyyətli yüksək-

liklərimiz azad olunub. Füzuli və Cəbrayıl rayonlarının bir sıra kəndləri Ordumuzun rəşadətli hücumu ilə işğaldan qurtuldu. Tanrı, Ordumuzu müzəffər elə. Tökülən qanlar yerdə qalmasın. Əsir yurdlarımıza qovuşaq. Ümid sənədir ancaq, Azərbaycan – Türk əsgəri!

Müdafiə Nazirliyinin 2 oktyabr 2020-ci il: "Ağdərə istiqamətində qoşunlarımız Madagiz (sonra bu ad Suqovuşanla əvəz olundu) ətrafındakı hakim yüksəklikləri azad edib və bu məntəqəni nəzarətdə saxlayır. Cəbrayıl-Füzuli istiqamətində qoşunlarımız düşmənin müqavimətini qıraraq onu geri çəkilməyə məcbur edib və irəliləməyə nail olub".

Artıq Qələbə soraqlı xəbərləri Ali Baş Komandanın özündən eşitmək istəyirdik: Sonra, xalqla bir yumruq olan Prezident Tviter xəbərlərinə keçdi. Cana yaxın mənbədən gələn xəbərləri həsrətlə gözlədik: Prezidentdən dalbadal Tviter xəbərləri gəlir: Füzuli bizimdir! Cəbrayıl bizimdir! Zəngilan bizimdir! Qubadlı bizimdir! Qələbə xəbərlərinə o qədər alışdıq ki, bir gün ara verəndə darıxırdıq, hətta çəkinmədən sosial şəbəkə üzərindən Ali Baş Komandana mesaj yazırdıq ki, "cənab ali Baş Komandan, bir Tviter at, nə olar".

Və bilirdik ki, bu mesajlar oxunur. Axşamüstünə yeni xəbər gəlirdi. Bax, Rəşadətli əsgərlərimizin qanı-canı bahasına qazanılan bu qələbələr sayəsində Azərbaycan bütöv bir ailəyə, bir yumruğa dönmüşdü. Səmimi, mehriban, inam hissi, torpağa məhəbbət... bir sözlə, bizi ayıracaq bir şey yox idi. İqtidar-müxalifət yox idi, dünyanın hər yerindəki azərbaycanlılar – hamı bir idi. Hamının bir dərdi vardı: Torpaqlarımızı işğaldan azad etməliyik, vəssalam!

Pakistan Dövlət olaraq yanımızda olduğunu rəsmən bəyan etdi. Azərbaycandan köçüb İsrailə gedən yəhudilər səsimizə səs verdi, rəsmi olaraq bizimlə olduqlarını bəyan etdilər. Əfqanıstan hökumətindən "yanınızdayıq" – deyə səs gəldi.

Ali Baş Komandanın bir cavabı Müharibənin epiqrafı ol-

du: “Qarabağ Azərbaycandır və nida”. Qarabağ Azərbaycandır! Rəşad Məcidin nəvəsi balaca İpəyin şirin dillə söylədiyi “Pəpişyan, möhkəm gizlən səni tapmasınlar” atmacaları belə əhvalımızı xoş edirdi. Bu da İpəyin Tviteri idi. Bu ağır gündə, ölüm-itimli, qan-qadalı günlərdə gülüş dolu atmacalarımızdan qalmadıq, ağlamadıq-sızlamadıq, çünki haqq mübarizəsinə qalxmışdıq. Şuşada yaralı və üst geyimini güllə parçalamış bir gənc üzüyuxarı dağa çıxaraq “Ə, paşik, bəs deyirdin Cəbrayıla yol çəkirəm, hanı bəs!” – deməsi ilə o əsgərimizin dərdini bizə unutdururdu, ürək dolusu gülürdük, çünki qanı axa-axa o əsgərdə gülürdü.

Çünki torpaqlarımızı işğalçılardan təmizləyirdik.

Türkiyə isə arxamız, dayağımız idi. Sosial şəbəkələrdə paylaşan “Karabağ΄a birgə yürüyelim” devizi ilə Rəcəb Tayyub Ərdoğanla Prezidentimizin şəkilləri boyaboy yayımlanırdı. Səlcuq Bayraktarın “RUA”ları xızr kimi imdadımıza yetişmişdi. Deyirdilər ki, o PUA-ları alandan sonra şəhidlərimiz az oldu. Az sonra Səlcuq Bayraktar mətbuatda bildirdi ki, “Qələbədə Türkiyənin istehsalı olan milli texnologiyanın rol oynaması bizə qürur verir. Amma bu zəfərin əsl sahibləri isə şəhid olan əsgərlərdir”.

Bu birliyimiz ox olub düşmənin gözünə batırdı. Tərtəri, Bərdəni, Gəncəni, ətraf kəndləri erməni ağır hərbi texnikası atəşlə oda qalayırdı. Mülki əhalini gecə yarısı – yatdığı yerdə raket yağışına tuturdu. Bir andaca hər yeri, evləri, ailələri darmadağın edirdilər. Körpələr ölür, analar, ağsaqqallar, ağbirçəklər çarəsiz durumda qalırdılar. 100-dən artıq mülki əhali öldürüldü. Dağılmış evlərin altından çıxaraq üçrəngli bayrağını bağrına basıb hadisə yerindən uzaqlaşan insanlar vardı. Türkiyə TV müxbiri Fülya Öztürkün Gəncədəki hadisə zamanı “Bu ölümlərdən, hərbi raket yağışından qorxmursunuzmu?” – sualına cavab olaraq, “yox qorxmuruq, naoborot qızışıyoruq” dedilər. Bütün dünya Azərbaycan xalqının torpaq eşqinə heyran qalmışdı.

Erməni mənbələri cəbhədən xəbər yazdılar: “Biz onları güllə ilə vururuq, yıxılırlar, sonra durub qanları axa-axa üstümüzə gəlirlər və soldatlarımızı öldürürlər. Biz belə şey görməmişik; öldürürük, dirilib ayağa qalxırlar”.

Azərbaycan xalqı qələbəni belə qazanırdı. Can verə-verə, can ala-ala. Şəhid olurdular, amma daha da irəli addımlayırdılar. Şuşa qalasını qayalara dırmaşaraq əlbəyaxa döyüşlə qazandılar. Erməni daşnakları özləri belə bu mənzərələrdən vahiməyə düşmüşdülər.

“Bu müharibə xalqımız üçün Vətən Müharibəsidir. Biz Vətən torpaqlarını işğalçılardan azad edirik, döyüş meydanında tarixi ədaləti bərpa edirik” – Ali Baş Komandanın sözüdür.

Əmir Teymur: “Erməniləri bir millət kimi yer üzündən silmədiyim üçün gələcəkdə məni lənətləyəcəklər” – yazıb.

Axı erməni əslində kimdir ki? Gürcüstanın lider oğlu Mixail Saakaşvili onların adını çox düzgün yazıb: “Tarixən ermənilər türklərin və azərbaycanlıların qulu olublar”. Bir çox dünya liderlər ermənilər kimliyini dəqiq şərh ediblər:

Rus şairi A.Puşkin: “Sən köləsən, sən qorxaqsan, çünki sən ermənisən” – yazıb. Fransız A.Düma: “Ermənilər həmişə başqa dinə qulluq edən hökmdarların hakimiyyəti altında olmuşlar. Nəticədə öz fikir və duyğularını gizli saxlayan, hiyləgər və kələkbaz adamlara çevrilmişlər” – yazıb.

Fransız Qraf De Şole: “Ermənilərin yoxsulluq və əzab-əziyyət çəkməsi məndə onlara qarşı böyük rəhm oyatmasına baxmayaraq, onların haramzadalığı, kələkbazlığı o dərəcədə biabırçı, o qədər hiddətləndirici idi ki, mən heç vaxt onlara bağlana bilməzdim” – yazıb.

İsveç Adam Mets: “Dərisi ağ qulların pisi ermənilərdir. Abır-həyaları yoxdur, oğurluqları olduqca məşhurdur. Onlar yalnız dəyənək və qorxu altında yaxşı işləyirlər” – yazıb.

Baxın, ermənilər haqqında bütün dünya xalqlarının fikirləri belə məzmunda olub. Belə iyrənc məxluqlarla qonşuluq

etməyə məhkum olmuşuq, halbuki onların bizim Qafqazda yer-yurdları heç zaman olmayıb. Sentyabrın 27-sindən ta noyabrın 10-na kimi hər günü minlərlə qəhrəmanlıq səhifələri yazıldı.

Noyabrın 8-ində səhər saat 11-12 olardı, sosial şəbəkələrdən xəbər yayıldı ki, Ali Baş Komandann yeni xəbərini birbaşa yayımda deyəcək. Gözlədik, zaman da tez ötmür ki! Nəhayət, eşitmək istədiyimizi Şəhidlər Xiyabanından səsləndirdi:

Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir! Qarabağ bizimdir!

Qarabağ Azərbaycandır!

Bir gün sonra yeni bir Tviter xəbəri: bu gün noyabrın 9-u 72 kənd işğalçılardan azad olunub".

Məhz 72 rəqəmi. 72 min dərdin içindən sıyrılıb çıxdığımıza işarə rəqəm kimi qəbul etdim.

Daha sonrakı gün noyabrın 10-nugecə yarısı Azərbaycan ordusunun 44 günlük Vətən Müharibəsində düşmənə qalib gəlməsi, erməni tərəfin ağ bayraq qaldırması elan edildi!

Bu 44 günün hər dəqiqəsi bir tarix oldu. Bu 44 günün hər dəqiqəsində bir Azərbaycan Qəhrəmanı kəşf olundu.

Bu qəhrəmanlar 1992-ci ildə tərksilah olunmuş Azərbaycan əsgərlərinin balaları idi. 44 günlük İkinci Qarabağ Müharibəsində Qarabağı düşməndən xilas etməklə yanaşı, həm də atalarının intiqamını aldılar, Xocalının intiqamını aldılar, yüzlərlə kəndlərimizdə, Qarabağın hər addımında öldürülən insanlarımızın intiqamını aldılar.

Bu 44 gündə Ali Baş Komandan 40 xarici ölkə mətbuatına müsahibələr verdi, həqiqəti dünyaya birbaşa dedi. Hətta verilən suallar da düşmən niyyətli suallar idi. Lakin cavablar sərrast atılan güllə kimi onların niyyətlərini darmadağın edirdi.

Bu 44 gündə biz yenidən Simurq kimi doğulduq.

Bu qələbəni Azərbaycan xalqı bir yerdə qazandı: türk, rus, tat, ləzgi, talış, avar.... Azərbaycanda yaşayan bütün millətlər Azərbaycan Xalqı olaraq – qürurlu azərbaycanlı olaraq Qarabağımızı işğaldan azad etdik. Bu, Namus davası idi.

"Qarabağ Azərbaycandır!" zəfəri asan qazanılmadı. 44 günlük Vətən müharibəsinin yeni tarix yazan qəhrəmanları sırasında – 3 polkovnik, 23 polkovnik-leytenant, 49 mayor, 54 kapitan, 103 baş-leytenant, 147 leytenant, 5 kiçik-leytenant, 267 kiçikgizir, gizir, baş gizir, 696 MAHHXHQ-MAXE 1241 əsgər, 7 miçman – rəsmən elan olunan 2783 qəhrəman oğullarımız şəhid oldular, yüzlərlə yaralımız, o cümlədən itkinlərimiz, əsir düşənlərimiz oldu. Müharibə bu deməkdir.

Bura qədər yazdıqlarım Bakıdan müşahidə etdiyimiz, birbaşa hadisələrin içində olduğumuz və ya müşahidə etdiyimiz gerçəkliklərin bir anıdır. Amma əsil Müharibə Qarabağ torpaqlarında gedirdi. Oğullarımız orada vuruşurdu, oğullarımız orada yaralanıb, orada şəhid olur, orada əsir götürülürdü, orada min dərəcəlik temperaturada məhv edilirdi. Bunlar birbaşa gözləri qarşısında baş verirdi, iştirakçısı da özləri idi. Amma bir nəfər də fərari olmadı, bir nəfərdə satqın olmadı, bir nəfər də gileylənmədi, hamının bir hədəfi vardı: "Qarabağ şərəfsiz düşmən işğalından azad olmalıdır, vəssalam". Düşmən qoyub qaçdığı yerləri – kəndləri, şəhərləri oda qalayırdı. Bir tikili belə salamat qoymadılar, üstəlik hər yeri minaladılar. Çünki öz tikdikləri deyildi, öz torpaqları deyildi, öz dədə-baba yurdları deyildi. Zəhmət çəkib tikib-qurmamışdılar, ona görə də "uf" demədən bütün yurdlarımızı tonqallara çatdılar və kənardan durub seyr edirdilər. İnsan nə qədər quduzlaşar, nə qədər vəhşi olar ki, söz də tapa bilmirəm ki, müqayisə edim, ya da bənzədim. Qəbir daşlarına qədər qırıb dağıtmışdılar. Sanki buralardan bir vəhşi qəbilə sürüsü keçmişdi.

10 dekabr Bakıda Zəfər Paradı keçirdik. Milyonlarla insanımız küçələrə axışdı: Bu Zəfəri bizlərə bağışlayan qaziləri,

tərxis olunmuş əsgərləri, generalları yaxından görmək üçün. Cənab Ali Baş Komandanı, sayın Rəcəb Təyyub Ərdoğanı ya - xından görmək üçün. Dünyanı alan pandemiyanı (dünyada və o sıradan Azərbaycanda tüğyan edən korona virusu) belə unutduq. "Eşq hər şeyə qalib gəlir" libasını geyinib Azadlıq Meydanına axışdıq. Bəli, doğrudan da eşq hər şeyə qalib gələrmiş. 10 dekabr 2020-ci il. Bu gün səhər saat 10 tamamdan Zəfər Paradımızı qeyd edəcəyimiz Azadlıq Meydanına doğru getdim. Evimizə çatanda isə saat 18:00 idi. Dünyanın ən gözəl günü. Ömrümə ömür qatılan bir gün yaşadım, yorulmaq yadıma düşmədi, evə çatanda hiss etdim. Virus-zad yox idi, hamısı ölmüşdü. Şükürlər olsun, Uca Yaradana!

Parad çıxışında Ali Baş Komutanım elə müdrik bir söz dedi ki, sanki dünyaya yenidən gəldim: "Zəngəzur, Göyçə, İrəvan bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb".

Sayın Ərdoğan bizim milli tariximizi elə incəliklə xırdaladı ki! Meydanda uşaqlıqdan əzbər bildiyimiz bir Azərbaycan bayatısını dilə gətirdi:

*Arazı ayırdılar,*
*Qan ilə doyurdular,*
*Mən səndən ayrılmazdım,*
*Zülm ilə ayırdılar,*
*Ay Laçın, can Laçın!*
*Mən sənə qurban, Laçın!*

Bir sözlə, gözəl bir gün yaşadım! Şükürlər olsun. Bir facebook (üzkitab) statusuna sığası söhbət deyil". Küçələrimizdə boyaboy "8 noyabr - Zəfər bayramı" şüarları bəzəyirdi, üçrəngli bayraqlarımızla yanaşı. Məlumdur ki, 10 noyabr tarixi Zəfər Günü elan edilmişdi. Noyabrın 10-nu Türkiyədə Mustafa Kamal Atatürkün anım günü olduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Zəfər Günü

tarixinin dəyişdirilməsi barədə qərar qəbul edib. Dəyişikliyə əsasən hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək. Əziz Şuşamızın azad edildiyi tarixdə!

Cəbhədəki hadisələrin hər biri bir gəncin tərcümeyi-halından toxunurdu. Azadlıq meydanında düşündüm ki, bəs biz nə edək, bu mübarizədə hansı əməyi ortaya qoyaq. Sosial şəbəkədə belə bir elan verdim: "Qələbə Paradımızdan sonra hər kəs 1. Ən azı bir Qarabağ müharibəsi Şəhidindən və 2. Ən azı bir Qarabağ müharibəsi Qazisindən – Qəhrəmanından məqalə yazsın, sonra qısa vaxt ərzində kitab kimi nəşr edək (fotoları ilə). Kitabın nəşr maliyyəsinin müəlliflərə aiddiyyəti yoxdur. Kim neçə səhifə və neçə qəhrəman haqqında yazırsa yazsın. Kitab pulsuz paylanacaq. Belə kitablara ehtiyac var: həm Şəhidlərimizin, Qazilərimizin, Qəhrəmanlarımızın tanınması, həm valideynlərinin könlünü almaq, həm də dərslik kimi (sinifdənxaric oxu kitabı olaraq). e-mail: 2.qarabag.kitab @ mail.ru (məqalələrbu e-mailə göndərilsin)". Budur, cəmi 10 günə 350-dən artıq Qəhrəmanımız haqqında yazı – məqalə aldım – Şəhidlər, Qazilər, İgidlərimiz haqqında. Davamı isə daxil olur. Bu kitabdakı yazılar – məqalələr hərəsi bir igidin ömründən bəhs etsə də, əslində hər yazıda döyüş meydanı görünür, döyüş əhval-ruhiyyəsinə dolursan, özünü Qarabağda, işğaldan azad olmuş, bizdən ötrü qəribsəmiş Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Suqovuşanda, Ağdərədə, Şuşada, Ağdamda, Kəlbəcərdə, Laçında görürsən.

Körpə Züleyxanın atası Qəhrəmanımız Cəlal Akimovun cəbhədən gündəlik bir kəlmə məlumatı ilə oradakı mənzərəni təsəvvür edirdim. Axı I Qarabağ Müharibəsində özüm də jurnalist kimi bir çox bölgələrə getmişdim. Müharibənin nə demək olduğunu gözümlə cəbhədə görmüşdüm. Hər kəsə dualar edirdim, Cəlala da dua edirdim ki, üzügülər, heç nədən xəbəri olmayan körpə Züleyxa atalı-analı böyüsün, amin.

44 günlük Vətən Müharibəsindəki yaşantılarımızın ani bir məqamını qələmə aldıq. Halbuki 44 günün hər dəqiqəsi üçün 1000 səhifəlik dastan yazmaq olar, tarixi həqiqətləri yaddan çıxarmamaq üçün yazmağa borcluyuq.

I Qarabağ Müharibəsindən sonra "Müharibə ağrılarım" adlı 545 səhifəlik kitab yazmışdım.

"Vətən simurqları" (II Qarabağ Vətən Müharibəsi Qəhrəmanları) kitabını 2 bölmədə qruplaşdırdım: Şəhidlər və Şahinlər.Şəhidlər bölümündə poçtumuza daxil olan ilk yazıları təqdim edirik, bu yazılar ana qəlbi, bacı göynərtisi, dost məhəbbəti, qardaş qubarı ilə qələmə alınıb – cəbhədən bir çınqı, bir atəş görüntüsüdür. Can verən balaların torpaq eşqinə elə bağlanırsan ki, onların ölümə yox, ilahi qüdrətin hüzuruna ucaldığına şahid olursan. Şahidlər bölümündə, bax həmin məqamları görənlərdən, dərk edənlərdən göylərə ucalan ruhları baxışları ilə yolçu edənlərdən bəhs edilir. Şəhidlər bölümündə geniş həcmli yazılar, bir igidin tərcümeyi halı verilirsə, şahidlər bölümündə ucalıq məqamını dərk edənlər haqqında bir-iki cümlə, ya da "Sözsüz" deyə sadəcə şəkillər təqdim edirik. Bu 44 gündə ağır texnikanın, raketlərin od püskürən uçuşları, dronların vızıltı ilə hədəfinə tərəf uçuş səsini eşitdiksə, cəbhədən kənarda bir səssizliklə, dualı enerjilərlə bütün cəbhə boyu, Qarabağ sərhədləri boyunca asılı qaldıq. O zaman sözümüz "sözsüz" baxışlarımız oldu. Kitabımızın ikinci bölümündə bunları demək istədik. 90 yaşlı bir baba 2 saatlıq karantin qaydalarına uyğun olaraq SMS-lə izn alıb bayraq almağa gedir, eyni qayda ilə analar-bacılar yemək bağlamaları ilə yol kənarında gözləyir ki, cəbhəyə yola düşən maşınlarla göndərsinlər. "Ay anam-bacım, cəbhədən hər şey artıqlaması ilə var" – desələr də, "qurban olum, a bala, bu isti çörəyin xəmirinə dua üfürmüşəm, balalarımızı düşmən tətiyindən qoruyar". Etiraz edəcək söz qalmırdı. Bax o sözsüz məqamları kağıza köçürüb gələcəyə ötürmək istədik. Raket artilleriyasının zərbəsindən

dağılmış evlərin altından üzü-gözü qana bələnmiş Bəxtiyarın gülümsər çöhrəsini vermişik, 5 yaşlı uşaq düşmənə gülür ki, məni öldürə bilmədin ki, amma atalarımız Qarabağı, işğal etdiyin yurdumu səndən alır".

Bu kitab həm də psixoloji məqamları qabardıb. "İti qovan" Azərbaycan Ordusunun hünəri" (Samir Səttarov) könlümüzün qubar hissini yudu, belimizin kədər bükümünü açdı. "Bütün cəbhə xətti boyu irəliləyən müzəffər Azərbaycan ordusu həm Ermənistana həm də bütün dünyaya mükəmməl, indiyədək misli görünməmiş taktika və XXI əsr müharibəsini əyani şəkildə nümayiş etdirir" (Zakirə Əliyeva).

Bütün mətbuat orqanlarının üz səhifəsini Ali Baş Komandanın boyaboya fotoları bəzədi. Bu xalqla bir olan ölkə rəhbərinə inam, məhəbbət, bizləri gələcək nəslin qarşısında xar olmaqdan xilas edən şəxsə ehtiram idi.

Bu kitabın qəhrəmanları Qarabağ torpaqlarını işğaldan azad edən Şəhidlərimizdir, Ali Baş Komandandır, bütün Ordumuzdur, bütün Azərbaycan xalqıdır, Türkiyə-Azərbaycan dostluğudur, atalarını gözləyən körpələrimiz, əlləri göyə Allaha pənahlanan Analar, Atalar, Bacılardır.

Bütün qəhrəmanlarımıza ərmağan olsun deyə, bu kitabı hazırlamağı mənəvi borc bildik.

Allah millətimin, xalqımın başını uca edənləri qorusun!

Allah Qarabağımın xilaskarı, böyük sərkərdə deyə bu gün öyündüyümüz cənab Ali Baş Komandanımızı qorusun!

Yaşasın Azərbaycan - Türkiyə - Pakistan qardaşlığı!

Allah İgid Oğullarımızı, Rəşadətli, Şanlı Əsgərlərimizi Qorusun! Amin!

***Almaz Ülvi (Binnətova)***

*19 dekabr 2020-ci il*



# Ayaz ABBASOV

Abbasov Ayaz Mayıl oğlu 1979-cu il avqustun 28-də Tərtər rayon Təzəkənd kəndində dünyaya göz açmışdır. İlk təhsilini 1985-ci ildə Təzəkənd orta məktəbində almışdır. 1996-cı ildə təhsilini tamamladıqdan sonra Hərbi Akademiyaya oxumağa getmiş və hərbi xidmət sıralarında xidmətə başlamışdır. Aprel döyüşlərinin fəal iştirakçısı olub. SAT xüsusi təyinatlısında xidmət edib. Xidməti qüsursuzluğuna görə orden və medallarla təltif olnub. İkinci Qarabağ Vətən Müharibəsində fəal iştirak edib. Rəhmətlik Qazimiz Ayaz Abbasovun arzularını vaxtilə özünün dediyi sözlərlə diqqətinizə çatdırıram. Ayazın dedikləri: Arazboyu tapşırıqları komandir Zaur Quliyev və komandanın üzərinə düsmüşdü. Düşmənlə üzbəüz döyüş aparan igidimiz Cəbrayıl şəhərində (04.11.2020-ci ildə əsirlikdən azad olunub) Şükürbəyli kəndində qızğın döyüşlər zamanı ayağımdan güllə yarası aldım.



Ayaz xəstəxanadan buraxılsa da, hələ də yarası tam sağalmadan həkim nəzarətində yenidən döyüş bölgəsinə qayıdaraq xidmətini davam etdirirdi. İkinci dəfə düşmənin atdığı minamyotun partlaması nəticəsində yenidən xəsarət alır. Yenə də sağalar-sağalmaz xidmətinə davam edir. Son günlər səhhətində ciddi narahatlıq oldugunu bilsələr də Kəlbəcər istiqamətində erməni vandallarının Rusiya sülməramlılarının nəzarətindən çıxaraq sərhədləri pozduqları üçün SAT xüsusi təyinatlıları Kəlbəcərə növbəli şəkildə ezam olunurdu. Səhhətində olan ciddi problemlərə baxmayaraq Qazimiz Abbasov Ayaz öz təkidi ilə ora ezam edilib. Ayazın bir arzusu da var idi. Göyçədə üçrəngli bayrağımızı asmaq. Çox təəssüf ki, bayrağı

asmağa nail ola bilmədi. İnşallah, O Bayraq bir gün Göyçədə öz Uca səmasında dalğalanacaq.



Ezamiyyətdən avqust ayının 26-sında (2021) geri qayıdıb. Oğlu Mayılın Sərhəd Qoşunlarına qəbul olduğunu eşidib. Bu münasibətlə döyüş yoldaşları və qonşularının iştirakı ilə avqustun 28-də bir məclis təşkil etməyi qərarlaşdırıb. Hətta həmin gün üçün dəvətnamələr də paylayıb. Avqustun 28-si özünün də ad günü idi. Ayaz Abbasovun iki övladı var. 28



avqust səhər tezdən saat 07:00 radələrində hərbi hissəyə çağrılıb. Orada – Hərbi hissədə özünü narahat hiss edib və təcili olaraq hərbi hissənin özünün tibbi xidmət yerinə çatdırılıb. İlkin yardım göstərilib və təcili tibbi maşınla şəhərə Əfəndiyev adına xəstəxanaya aparıblar. Xəstəxanaya çatdırılsa da, Ayaz Abbasov ürək çatışmazlığından (infakt, beyn insult diaqnozu ilə) vəfat edib.

Allah səbr versin.

Amin.

*Füzuli Abbasov*

## Abbas QASIMOV



Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının mayoru və hərbi pilot, Vətən müharibəsinin şəhidi!

Abbas Qasımov 1986-cı il martın 17-də Zəngibasar rayonunun Rəhimabad kəndində anadan olub. 6 yaşı olanda atasını itirən Abbas Qasımov, ailəsi ilə birgə 1988-ci ilin noyabr ayında ermənilər tərəfindən doğma rayonunda deportasiya edilir və Qasımovlar ailəsi Binəqədi rayonunda yaşamağa başlayır. 1993-2003-cü illərdə Binəqədi rayonunda F. İsgəndərov adına 157 nömrəli tam orta məktəbdə təhsil alıb. 2003-2007-ci illərdə isə Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasında ali təhsil alıb.  Ailəli idi, 2 övladı yadigar qaldı.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının mayoru olan hərbi pilot Abbas Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Abbas Qasımov sentyabrın 27-də Füzuli döyüşləri zamanı baş leytenant Xalid Gözəlov ilə birgə şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub. Vətən müharibəsinin başladığı birinci dəqiqələrdə şəhid olan Abbas Qasımov və baş leytenant Xalid Gözəlov müharibənin birinci şəhidləri oldular.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən aşağıdakı medallarla təltif olunmuşdur:

26.06.2008 – “Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi” yubiley medalı;

18.08.2009 – “Azərbaycan Sərhəd Mühafizəsinin 90 illiyi” yubiley medalı;

26.06.2013 – “Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi” yubiley medalı;

18.08.2014 – “Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi” yubiley medalı;

26.06.2015 – “Qüsursuz xidmətə görə” 3-cü dərəcəli medalı;

18.08.2019 – “Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi” yubiley medalı;

26.06.2020 – “Qüsursuz xidmətə görə” 2-ci dərəcəli medalı;

15.12.2020 – “Vətən uğrunda” medalı (ölümündən sonra);

15.12.2020 – “Vətənə xidmətə görə” ordeni 3-cü dərəcəli (ölümündən sonra);

29.12.2020 – “Qubadlının azad olunmasına görə” medalı (ölümündən sonra).

*Şəbnəm Babayeva*



## Adil İBRAHİMLİ



Hər bir millət öz milli qəhrəmanları ilə daima qürur duymalıdır. Lakin təəssüflə qeyd etmək lazımdır ki, bu gün gənclərimizin əksəriyyəti şəhidlərimizi yaxşı tanımır və ya onlarla bağlı tam olaraq məlumatlı deyillər. Gənclər onların adlarını bilməli, onlarla qürur duymalı, həmin insanları örnək alaraq onlara bənzəməyə çalışmalı və onlar haqqında məlumatları gələcək nəsillərə ötürməlidirlər. Yazımızın qəhrəmanı İbrahimli Adil Asəm oğlu 1992-ci il sentyabr ayının 9-da Sumqayıt şəhərində anadan olmuşdur. O, 1999-cu ildə Sumqayıt şəhəri 14 nömrəli tam orta məktəbin I sinfinə qəbul olmuş və oxuduğu müddət ərzində məktəbin ən fəal şagirdləri sırasında yer almışdır. 2008-ci ildə Naxçıvanski adına hərbi liseyə qəbul olmuşdur. 2011-ci ildə AHM-ə qəbul olmuş və 2015-ci ildə bitirmişdir. 6 ay TTM-də olmuş ondan sonra ilk xidmət yeri Ağcabədi olmuşdur.

Daha sonra 3 ay Haramud düzündə xidmətdə olmuşdur. 2016-cı ilin iyun ayında Xüsusi təyinatlıların Giləzidə olan kursuna getmiş, oranı bitirmiş daha sonra Xüsusi Təyinatlılarda baş kəşfiyyatçı, quru komandirinin müavini vəzifəsində leytenant rütbəsində işə başlamışdır. Sonra Türkiyənin Sparta vilayətində 6 ay kursda olmuş, kursda dağçılıq, paraşütçülük, xizəkçilik, üzgüçülük kurslarını keçmiş sertifikata layiq gö-rülmüşdür. 27 sentyabr 2020-ci ildə başlayan 44 günlük döyüşlərdə Murovdağ silsiləsində, Hadrutda, Füzulidə 40 gün igidliklə döyüşmüş və göstərdiyi şücaətlərə görə fərqlənmə diplomu almışdır. Qəhrəmanımız Adil İbrahimli Şuşa uğrunda gedən şiddətli döyüşlərdə şəhidlik zirvəsinə ucalmışdır. Çox mömin bir insan idi. Döyüş yoldaşları deyir ki, o, müharibədə

belə ibadətindən qalmırdı. O, müharibədə öz qrupunda gizirin birinə namaz qılmağı öyrətmişdir. Bir dəfə maşınları vurulduqda yanıb, ancaq hospitala getməkdən imtina edib. Bir dəfə də travma alıb və yenə də hospitala getmək istəməyib. Şuşa uğrunda gedən döyüşlərdə ayağından 2 qəlpə yarası almasına baxmayaraq, geri çəkilməyərək döyüşməyə davam etmiş və 3 güllə yarası alaraq qəhrəmancasına şəhid olmuşdur.

Bütün yüksəkliklərdən ucada dayanan bir zirvə var: Şəhidlik zirvəsi! Bu zirvəyə qalxmaq hər kəsə nəsib olmur.

Allah vətən uğrunda canından keçən bütün şəhidlərimizə rəhmət eləsin!

*Zəminə Hüseynova*



## Aqil ƏLİYEV



Əliyev Aqil Faiq oğlu 1999-cu il yanvar ayının 10-da Tovuz rayonunun Pələkli kəndində anadan olub. 2005-ci il sentyabr ayında Pələkli kəndində şəhid Vaqif Rəhmanov adına tam orta məktəbinə daxil olmuşdur. 2013-cü ildə 9-cu sinifi bitirmişdir. 2017-ci il yanvar ayının 11-də hərbi xidmətə yola düşür. Əliyev hərbi çağırış üçün bildiriş gələndə sevincək günləri sayırdı. Və nəhayət o gün gəlib çatdı.

Aqil Əliyev 2017-ci il noyabr ayının 9-da hərbi hissə komandiri Polkovnik Leytenant Vilayət Quliyev tərəfindən "Fəxri Fərman"la təltif olunmuşdur. 2020-ci il yanvarın 21-də Mingəçevirdə kursa yollanmışdır. 17 mart doğma yurdu Tovuza qayıtmışdır. Aprelin 14-dən etibarən "N" saylı hərbi hissədə qulluq etmiş və Tovuz döyüşlərində də qəhrəmanlıqlar göstərmişdir. Şəhidimizin bacısı Aygün xanım qardaşı haqqında yazır: "Aqil haqqında danışılacaq o qədər gözəl sözlər var ki, insan bilmir hansından başlasın. Ən əsası insanlar, uşaqlar, böyüklər onu niyə çox istəyirdi? Niyə onu gördükdə sevinirdi hər kəs? Çünki uşaqla uşaq idi, böyüklə böyük. Sözü demədən öncə düşünərdi ki qarşısındakının xətrinə dəyərmi deyə. Aqil səmimi, mehriban, gülərüz biri idi. Buna görə də hər kəsin sevimlisi idi. Nə qədər problemi olsa da, heç vaxt özünü düşünməzdi. Hər zaman başqalarına dəstək olardı, onların problemlərini həll edərdi. Vətən hissi onun üçün çox başqa idi, hər şeydən öndə gəlirdi. Döyüş zamanı heç nəyi düşünmədən özünü təhlükənin içinə atar, hərbi əməliyyatlar zamanı ən öndə gedərdi. Vətənə olan bu sevgisi onu məqamların ən alisinə-

şəhidlik zirvəsinə ucaltdı. O, hər dəfə Dağlıq Qarabağ işğalı barədə söz düşəndə deyərdi ki biz uduzan xalq deyilik. İndi uşaqların dilində yalnız bir söz var "biz də böyüyüb Aqil kimi Vətənimizi qoruyub, mənfur düşməni məhv edəcəyik". Aqil həmişə yaşayacaq, biz onu yaddaşlardan silinməyə qoymayacağıq. Bizə verdiyi şəhid bacısı adını əmanətini layiqi ilə daşıyacağıq. Zaman çox tez keçir. Geridə qalanlar onun şəkilləri, səsləri, tək-tük videolarıdır. Nəfəsimiz kəsilir, gözümüzdə yaş quruyur, amma heç nə onu geri qaytarmır. Qardaşımızla fəxr edirik".

Aqil Əliyev 2020-ci il 15 oktyabr tarixində Suqovuşan, Talış ərazisi uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalmışdır. Allahdan şəhidimizə rəhmət, ailəsinə səbir diləyirik.

*Şərqiyyə Həsənova*



## Aqşin ƏNVƏRLİ



Aqşin Ənvərli 1994-cü il oktyabrın 10-da Qəbələ şəhərində anadan olub. 2001-2012-ci illərdə Qəbələ şəhərinin N.Apayev adına 4 nömrəli tam orta məktəbində təhsil alıb. Ali təhsilini isə 2012-2018-ci illərdə Azərbaycan Tibb Universitetində alıb. Subay idi.

Aqşin Ənvərli 2018-ci ildə tibbi xidməti leytenantı rütbəsi ilə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə başladı. Bir müddət sonra isə Xüsusi Təyinatlı Qüvvələrin Tibb



Xidmətinin rəisi vəzifəsinə təyin edildi. Azərbaycan Ordusunun leytenantı olan Aqşin Ənvərli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələrinin tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən Müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Qubadlının, Şuşanın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə yaralanan hərbçilərə yerindəcə yardım edib. Aqşin Ənvərli noyabrın 6-da Xocavənd döyüşləri zamanı şəhid olub. Döyüşlər zamanı səngərdə "baş leytenant" rütbəsi alıb. Qəbələdə dəfn olunub.

Aqşin Ənvərli ölümündən sonra "Vətən uğrunda" medalı- və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.

*Həqiqət B.*

## Aqşin İBADOV



2802 qəhrəmandan biri, Xüsusi Təyinatlı Qoşun komandiri Mayor Aqşin İbadov. Lənkəranın Boladi kəndində anadan olan, ordumuzun zabiti, mayor Aqşin İbadov düşmənlə gedən əks-hücum əməliyyatlarında qəhrəmancasına Şəhid olmuşdur. Şəhidimiz doğulduğu kənddə torpağa tapşırılıb. Anasına yazırdı: *"Ağlama, ya qayıdaram, ya da şəhid olaram, ölmərəm ki..."*

*Cavan ömrüm bu dağlarda gedibdir,*
*Mən bu ömrü kimin üçün yaşadım?*
*Həyat qısa, ömür qısa, gün qısa,*
*Mən bu ömrü sənin üçün yaşadım.*

Şəhid Aqşin İbadovun nəşi evinə gətirildikdə qızı üçün yazdığı məktubu da ailəyə verirlər. Məktubda: *"Gözəl qızım, sən həyatını Vətənimizin azad və müstəqil olması, ərazi bütövlüyümüzün qorunmasına həsr etmiş bir Azərbaycan Zabitinin qızısan. Hər zaman başını dik tut",* – deyə yazıb .

Boz XAN: "2011-2012-ci illərdə kəşfiyyat bölük komandirim olmuş Aqşin İbadovun hələdə inana bilmirəm şəhid olduğuna. O bu dünyadan deyildi sanki, həm bacarığı, insanlığı xasiyyəti ilə seçilirdi hər kəsdən. O fərqli zabit idi. Vətəni sevən zabit deyəndə, illər keçməsinə baxmayaraq ilk sən gəlirsən ağlıma komandir. Bundan sonra da sən gələcəksən. Sən xəstə halınla Murovun hər qarışın gəzən adam idin. Sən 39 dərəcə qızdırma ilə o dağlarda gəzərdin. Sən öz əskərin üçün cibinin pulu ilə qurban kəsən zabit idin. Sən heç bir əskərin valideynindən rüşvət almayan insan idin. Sən bizə Vətəni sevməyi öyrədirdin. Sən bizə insanlığı öyrədirdin. Əsl kəşfiyyatçı olmağı öyrədirdin. Bəzən elə vaxtlarda məni patrul

seçərdin ki,etiraz edərdim içimdə,sən bunu başa düşüb “Sənə güvəndiyim üçün bugün səni seçdim”, – deyərdin. Kaş ki, zaman geri qayıtsa günlərlə çıxaram verdiyin patrullara naryadlara. Sən başqa hərbi hissəyə təyin olub getsən belə öz əskərinin ad günün təbrik edən idin.Öz əskərlərinə qayğı



göstərərdin. Son dəfə 2012-ci il fevralın 23-ü zəng edib ad günümü təbrik etmişdin baxmayaraq ki, artıq başga hərbi hissədə işləyirdin. Mən yaralananda belə ilk səni axtarmışdım. Amma tapa bilmirdim bilmədim. Sənin öyrətdiklərin sayəsində sağ qalmağı bacarmışdım. O günləri yada saldıqca ağlamamaq mümkün deyil. Sən elə bir insan idin ki, ömür boyu yaşamalı idin buda sənə qismət oldu. Sən hər zaman yaşayacagsan komandir. Səni təsəvvür edə bilmirəm, səni heç çür anlada bilmirəm. Bilirəm ki, cənnətdəsən əgər bir gün ora yolum düşsə, ilk görmək istədiyim sən olacaqsan. Nur içində yat. Səni yaşadığım müddətdə heç vaxt unutmayacam komandir”.



Дата 09.09.2016
Страница

Cənab mayor!
Siz mənim kursantlıq həyatımda birinci və axırıncı tam səmimi dialog yaratdığım zabit oldunuz!
Mən bu qoşun təcrübəsində özümə yaxın bir dost və sirlərimi buraxmayacaq bir sirdaş tapdım. Bunun üçün çox sevinirəm.
İnşAllah yaxın zamanlarda sizi „Tarixi dəyişdirən əsgərlər" sırasında görəcəyəm!

Tam səmimi:
kursant Əliyev Alişan
09.09.2016.

*Həqiqət B.*

## Aqşin NOVRUZOV



Novruzov Aqşin Şahin oğlu 1998-ci il avqustun 15-də Bakı şəhərində anadan olub. Texniki-Humanitar liseyini bitirib. Ali təhsilini Əmək və Sosial Münasibətlər Akademiyasında alıb.

2020-ci ilin yayında həqiqi hərbi xidmətə çağırılıb, 2-ci Qarabağ müharibəsində iştirak edib. Döyüşlərin əvvəlində ayağından yaralanıb, müalicə olunduqdan sonra yenidən ön cəbhəyə yollanıb. Topçu olaraq



briqadası ilə birlikdə döyüşlər zamanı 2 düşmən tankını məhv edib. 13 oktyabr 2020-ci ildə Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən isə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə (ölümündən sonra) təltif edilib.

*Gülşən Kəngərlinskaya*

## Alı HƏSƏNLİ

Həsənli Alı Nofəl oğlu 22 iyun 1995-ci ildə Bakı şəhərində anadan olmuşdur. Alı Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Geofizika Mühəndisliyi ixtisası üzrə təhsil almış və 4 il idi ki, SOCAR-ın Təhlükəsizlik İdarəsində çalışırdı. Azərbaycanın ərazi bütövlüyü uğrunda Vətən Müharibəsi başlayanda ailənin tək oğul övladı olmasına baxmayaraq, cəbhəyə könüllü olaraq yollanır. O, Füzuli, Cəbrayıl, Hadrut istiqamətində əks-hücum əməliyyatında düşmənlə üz-üzə gəlir. Oktyabrın 21-də Cəbrayıl rayonu ərazisində şiddətli döyüşlərin birində düşmənin mövqelərimizə atdığı minamyot mərmisinin partlaması nəticəsində ağır yaralanaraq şəhidlik zirvəsinə ucalmışdır. Alı Həsənli döyüş yoldaşlarının yaddaşında qəhrəman əsgər, bizim yaddaşımızda isə doğma Vətəni olan Azərbaycanı canından çox sevən oğul kimi qalacaq. Ruhun şad olsun, şəhidim!




*Gülşən Kəngərlinskaya*

*Qəlbim duyur bu harayı,*
*Burda əmi, orda dayı.*
*Gecə-gündüz Araz çayı,*
*Ağlar çağlar, çağlar ağlar.*

*Gözlərindən qəm yaşını sil, yaşa.*
*Yaşa Vətən, milyon-milyon il yaşa.*
*Yaşamağın mənasını bil, yaşa.*

## Alim YOLDAŞOV



Alim Mirzə oğlu Yoldaşov 10 mart 1997-ci ildə Biləsuvar rayonunun Nəsimi kənd kəndində anadan olmuşdur. A.Yoldaşov Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixdən başlayan Vətən Müharibəsində iştirak etmiş və düşmən hücumunun qarşısını alarkən 28 oktyabr 2020-ci ildə qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycan Respublikasının Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Alim Mirzə oğlu Yoldaşov "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur.

Allah rəhmət eləsin!

*Firuzə Yunusova*

*Vətən Müharibəsinin zəfərini qanları ilə yazan*
*Biləsuvar şəhidləri:*

Müşfiq XANın təqdimatından:

1. Baş ley. Gözəlov Xalid Həsən (Biləsuvar, Aşağı Cürəli)
2. Aslanlı İqbal İlqar oğlu (Biləsuvar şəh., 8 Mart küçəsi)
3. MAXE Eynullayev Rövşən Elşən (Biləs, Nərimankənd)
4. Baş leytenant Mayılov Namiq Abuş (Biləsuvar şəh.
5. Quliyev Məhəmməd Cəlal oğlu (Biləsuvar, Bəydili)
6. Abıyev İlkin İslam oğlu (Biləsuvar, Əsgərabad kəndi)
7. Gizir Babayev Elməddin Cəfərağa (Biləsuvar, Çaylı)
8. Əsgər Bağırov Hikmət Qəhrəman (Biləsuvar, Bəydili)
9. Gizir Xosıyev Müşfiq Zakir oğlu (Biləsuvar, Günəşli)

10. Hüseynov İlqar Yaşar oğlu (Biləsuvar şəh.)
11. Əsgər Gözəlov Ceyhun Nazim oğlu (Biləsuvar, Bəydili)
12. MAXE İbadlı Ruslan Sakit (Biləsuvar, Nəsimikənd)
13. Məmmədzadə Kamran Füzuli oğlu (Biləsuvar, Çaylı)
14. Əliyev Amid İlham oğlu (Biləsuvar, Çaylı kəndi)
15. Vəliyev Seyran Nizami oğlu (Biləsuvar, Nəsimikənd)
16. Məmmədov Elvin Tərlan oğlu (Biləsuvar, Xırmandalı)
17. Qurbanov Ruslan Üzeyir (Biləsuvar, Yuxarı Ağalıkənd)
18. İsmayılov Amid Eldar oğlu (Biləsuvar, Təzəkənd)
19. Cəfərov Tehran Nadir oğlu (Biləsuvar, Günəşli kəndi)
20. Kapitan Mahmudov Cavid Hilal (Biləsuvar, Aşağı Cürəli)
21. Polkovnik-leytenant Əkbərov Orxan Nadir (Biləsuvar ş)
22. Hüseynov Fariz Dadaş oğlu (Biləsuvar, Əsgərabad)
23. Bayramov Osman Zeyqam oğlu (Biləsuvar, Ağalıkənd)
24. Gizir Əliyev Ruslan Arif oğlu (Biləsuvar,Bəydili)
25. Kərimov Elvin Mürşüd oğlu (Biləsuvar, Çaylı kəndi)
26. MAXE Sarıyev Vüqar Fikrət (Biləsuvar, Amankənd)
27. Məcidov Saleh Nəriman oğlu (Biləsuvar, Nəsimikənd)
28. Ağayev Sahil Nurəddin oğlu (Biləsuvar, Günəşli)
29. Qəniyev Cahid Şaiq oğlu (Biləsuvar, Çaylı kəndi)
30. Şahmarov Elvin Malik oğlu (Biləsuvar, Əliabad kəndi)
31. Bayramov Elmir Elməddin oğlu (Biləsuvar, Əsgərabad)
32. Sadıqov Surac Ədalət oğlu (Biləsuvar, Ağalıkənd)
33. Gizir Talıbov Asif Arif oğlu (Biləsuvar, Zəhmədabad)
34. Başleytenant Mirzəyev Elmar Şahin (Biləsuvar, Ağalıkənd)
35. Əsgər Abdullazadə Teymur Faiq (Biləsuvar, Günəşli)
36. Həsənov Telman Rafiq oğlu (Biləsuvar, Bağbanlar)
37. Gizir Əmənov Məhəmməd İntizam (Biləsuvar, Bağbanlar)
38. İbayev Nihad Üzeyir oğlu (Biləsuvar, İsmətli kəndi)
39. Əsgər Şəbiyev Xəyal Nurəddin (Biləsuvar, Zəhmətabad)
40. Əsgər Mirişov Şəhriyar Bəxtiyar oğlu (Biləsuvar şəh.)
41. Könüllü əsgər Qədirli İsmayıl Elçin oğlu (Biləsuvar ş.)
42. MAXE Yoldaşov Alim Qələmmirzə (Bilәs, Nəsimikənd)

43. MAXE Məmmədov Əlyar Elbəyi (Biləsuvar, Ağalıkənd)
44. Kapitan Babayev Nihad Akif oğlu (Biləsuvar, Günəşli)
45. Əsgər Rüstəmli Kənan Yalçın (Biləsuvar, Əsgərabad)
46. MAXE Məmmədov Natiq Sahib (Biləsuvar, A.Cürəli)
47. MAXE Mahmudov Babək Süleyman (Biləsuvar şəh.)
48. Əsgər Mirzəyev Orxan Əli (Biləsuvar, Aşağı Cürəli)
49. MAXE Nuruyev Xəyal Şakir oğlu (Biləsuvar, Ağayrı)
50. Məmmədli İlkin Fərhad oğlu (Biləsuvar şəh.)
51. MAXE Əbilov Sübhan Arif (Biləsuvar, Nərimankənd)
52. Kərimov Səməd İkram oğlu (Biləsuvar, Əliabad kəndi)
53. Əliyev Elməddin Səbuhi oğlu (Biləsuvar, Zəhmətabad)
54. MAXE Mirzəyev Orxan Mehman (Biləsu. Zəhmətabad)
55. Əsgər Allahverdiyev Elnur Kamil (Biləsuvar, Çaylı)
56. MAXE Əzizli Elnur Şahin oğlu (Biləsuvar şəhəri)
57. Əsgər Qasımov Nicat Höccət (Biləsuvar, Zəhmətabad)
58. MAXE Məmişli Sahil Ağaverdi oğlu (Biləsuvar, Çaylı)
59. Leytenant Nəcəfli Sadiq Nüsrət (Biləsuvar, Y. Cürəli)
60. Əsgər Baloğlanlı Elşad Elşən oğlu (Biləsuvar, Günəşli)
61. Əsgər İsayev Rahət Rafət oğlu (Biləsuvar, Əliabad)
62. MAXE Xanalıyev Ziyəddin Ariz (Biləsuvar, Ağalıkənd)
63. Əsgər Əhmədli Elməddin Gülverən (Biləsuvar,Təzəkənd)
64. Mirzəyev Sarvan Ümidvar oğlu (Biləsuvar şəhəri)
65. MAXE Abbaslı Turan Sulduz (Biləsuvar, Əsgərabad )
66. Kapitan Elçin Tağıyev (Biləsuvar, Zəhmətabad kəndi)
67. Könüllü Əsgər: Əlizadə Nəriman Nurəhməd (Biləsuvar)
68. MAXE Xəlilzadə Əmrah İnqilab oğlu (Biləsuvar şəh.)

Allah bütün şəhidlərimizə rəhmət eləsin!
#Qarabağ Azərbaycandır

## Amil RÜSTƏMOV



Vətən adlı sonsuz dəyər uğrunda canını sipər edən igidlərimizə bir ömür borcluyuq. İllərdir həsrətində olduğumuz torpaqlara qovuşmaq, video çarxlardan deyil, real görmək Uca Tanrının xalqımıza bəxş etdiyi xoşbəxtlikdir. İgidlərimizi tanımaq, tanıtdırmaq bizim borcumuzdur. Elə isə gəlin igidimiz Rüstəmov Amil Bədrəddin oğlunu tanıyaq:

2001-ci ildən Puşkin adına Tovuz məktəbində oxuyub. 2013-2014-cü ildə Beyləqan rayonunda əsgərliyini bitirib. 2015-ci ildə hərbi işə qəbul olunub. Vəzifəsi top komandiri olub. Tovuz rayonu Öysüzdü kəndində qulluq edib. Daha sonra Tovuz rayonu Ağdam kəndində Vətənə xidmətini davam etdirib.

Döyüş yoldaşları bildirirdilər ki, olduqca güclü topçu olub. Vətən Müharibəsində döyüşlərə qoşulmuş və mədəniyyət beşiyimiz Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Şəhidimizdən isə geriyə Mələk adlı qızı və dünyaya gələcək övladı qalıb. Yerin behişt olsun, igid əsgər! Sən və sənin timsalında bütün Şəhidlərimiz qürur yerimizdir. Rahat uyu! Gözün arxada qalmasın! Allah rəhmət eləsin!

*Bir yoxsul qürbətdə şah olsa əgər*
*Hər axşam o vətən deyib ah çəkər...*

*Rövşən Əlisoy*

## Amin GÜLMƏMMƏDOV



Vətən müharibəsində Azərbaycan Ordusu çətin hərbi tapşırıqları uğurla yerinə yetirdi. Bu zaman Naxçıvanımızın yüzlərlə vətənpərvər igidi də döyüşlərə atıldı, elə ilk günlərdən qələbənin coşqusunu yaşadıq, şükürlər etdik, hər duaya "Amin" söylədik. Onlardan biri də Culfa rayonunun Saltaq kəndindən olan şəhid baş leytenant Amin Gülməmmədovdur. 30 il xəyalını qurduğumuz, sonra isə şirinliyini daddığımız, qürurumuz olan



qələbəmizdən 7 ay ötür. Böyük zəfərin qazanılmasında digər şəhidlərimiz kimi, qələbə naminə əzmlə döyüşən Aminin də bu gün ruhu şaddır. 1995-ci il iyulun 31-də dünyaya göz açan Amin Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə üz tutur. Buranı bitirdikdən sonra Ali Hərbi Məktəbdə təhsilini davam etdirərək yüksək hərbi biliklərə yiyələnir. 2017-ci ildə gənc zabit kimi artıq nümunəvi xidmətinə başlayır. Silahlı Qüvvələrin baş leytenantı artıq illərdir gözlənilən o anın yetişdiyini eşidəndə sevincinin həddi-hüdudu olmur. Sentyabrın 27-də başlayan uğurlu əks-hücum əməliyyatı zamanı Füzulinin, Cəbrayılın, Xocavəndin, Hadrutun azadlığı uğrunda rəşadətlə vuruşur. Son döyüş nöqtəsi noyabrın 2-i Şuşanın Daşaltı kəndi olur. Amin müharibənin ilk günlərindən kənd və şəhərlərimizin işğaldan azadolunma sevincini ailəsilə bölüşürmüş, noyabrın 1-i atasına etdiyi sonuncu telefon zəngin-

də isə böyük qələbəmizə az qaldığı müjdəsini çatdırıb. Şəhid Amin Gülməmmədov ölümündən sonra 4 medala – "Cəsur döyüşçü", "Vətən uğrunda", "İgidliyə görə" və "Xocavəndin azad olunmasına görə" layiq görülür. İntizarında olduğu oğlunun igidliyini, cəsurluğunu duyduqca fəxarətlə dolur İntizar ananın ürəyi, ən böyük arzusu övladını jurnalist görmək idi, ancaq Amin ali məqama yüksəldi, özü boyda şan yazdı, torpağa dönüb vətənin torpağını çoxaltdı. Aminin nəşi 2020-ci il dekabrın 28-i doğma kəndində torpağa tapşırıldı. Bəlkə də bayrağı bu qədər sevdiyindən idi ki, bayraq qədər ucaya yüksəldi, nəşi bayrağa sarındı, bu gün Naxçıvanın alınmazlıq rəmzi sayılan Haçadağla üz-üzə dayanan məzarı başında da üçrəngli hilalımız dalğalanır.



*Elnurə Tahir*

*https://nuhcixan.az/news/cemiyyet/47872-veten-ugrunda-doyusub-ozu-veten-olan-sehid-amin-gulmemmedov*

## Anar ƏLİYEV



Əliyev Anar 1980-cı il avqustun 28-də Kəlbəcər rayonunun Boyaqlı kəndində anadan olub. 1988-ci ildə məcburi köçkün kimi Tərtər rayonunun Bəyimsarov kəndinə gəlib yaşayıblar. Orda təhsilini davam etdirib. Atası və anası ingilis dili müəllimi işləyib. Ağdərə rayonunun Göyarx kəndinə (Levonarx) təyinatla gəliblər. Orda yaşayıb, ilk təhsilini orda başlayıb.

2020-ci ilin oktyabr ayının 11-də müharibəyə gəlib. Füzuli, Cəbrayıl, Zəngilan, Hadrut, Xocavənd istiqamətində döyüşüb. Sonuncu dəfə Xocavənddə olub. Oktyabrın 21-i Xocavəndin Tuğ yüksəkliyi (yəni Şuşaya gedən yolun açarı) uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Anar Əliyevin iki övladı var. Bir qız, bir oğlan.

Haqqı nahaqdan ayıran, halalı haramdan ayıran, mömin, bütün insanlara qarşı sadiq, mərhəmətli, xeyirxah, mehriban, qayğıkeş, ədalətli, böyüklərə hörmət edən, şərəfi, namusu, mənliyi olan əvəzolunmaz bir insan olmuşdur. Əliyev Anar hərbi xidmətdə fərqlənməyə görə 2-ci, 3-cü dərəcəli medal, Silahlı qüvvələrin "90 illik", "95 illik" medalı, 2011-ci ildə xüsusi tapşırığa görə "Vətən uğrunda" medalı, 2018-ci ildə Naxçıvanda "Günnüt" əməliyyatında "Şücayətə görə medalı", ölümdən sonra 2020-ci ildə 2-ci Qarabağ Müharibəsində ikinci dəfə "Vətən uğrunda" medalı, "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Şuşanın işğaldan azad olunması" medalı ilə təltif edilib. Allah bütün şəhidlərimizə rəhmət etsin!

*Eyvaz Əyyub*

## Anar ƏMİROV



Anar Allahverdi oğlu Əmirov 29 dekabr 2000-ci ildə Sabirabad rayonunun Bulaqlı kəndində anadan olmuşdur. Əslən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən olan Anar Sabirabad rayon Şəhriyar qəsəbəsində 12 saylı Cəbrayıl tam orta məktəbində təhsil almışdır.

Hərbi xidmətini başa vurduqdan sonra yenidən müddətdən artıq hərbi qulluqçu kimi ordu sıralarına qoşulmuşdur. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixindən başlayan Vətən müharibəsində iştirak etmiş, oktyabrın 20-də Zəngilan istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.



Füzuli rayonunun Qazaxlar kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Anar Əmirov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

*Gülşən Kəngərlinskaya*

## Ağa Əmi HEYBƏTOV

Ruhun qarşısında baş əyirik, igid oğul!



Heybətov Ağa Əmi Elçin oğlu 06 iyun 1993-cü ildə Bakı şəhərinin Buzovna qəsəbəsində Heybətovlar ailəsində anadan olub. O, 2000-ci ildə Xəzər rayonu Buzovna qəsəbəsində yerləşən Əfqan Əliyev adına 125 nömrəli tam orta məktəbin I sinfinə qəbul olmuş və oxuduğu müddət ərzində məktəbin ən fəal şagirdləri sırasında yer almışdır. Ağa Əmi məktəb tədbirlərində, bilik yarışlarında iştirak etmiş, müəllimlərinin sevimlisi olmağı bacarmış və sertifikatlara layiq görülmüşdür. Ağa Əmi azyaşlarında Buzovna qəsəbəsinin Dini İcmasının nəzdində yerləşən İmam Hüseyn məscidinin mədrəsəsində "Qurani-Kərim"in tədris kursunu bitirmiş və şəhadətnamə ilə təltif olunmuşdur. Heybətov Ağa Əmi 2002-ci ildə Buzovna qəsəbəsində yerləşən 4 nömrəli Uşaq İncəsənət Məktəbinə qəbul olmuş, 2007-ci ildə qarmon kursunu bitirərək diplom almışdır.

Heybətov idmanın müxtəlif növləri ilə də məşğul olmuşdur. O, 2011-ci ildə 125 nömrəli tam orta məktəbin XI sinfini fəallıqla bitirmiş və həmin ildə də Azərbaycan Dövlət İqtisad Universitetinin "Turizm və otelçilik" (Türk Dünyası Araşdırma Vakfı) ixtisasına qəbul olmuşdur. Tələbəlik illərində də fəallıqlar göstərmiş, göstərdiyi diqqət və məsuliyyətə görə Qafqaz Resort Hotel tərəfindən sertifikatla təltif olunmuşdur. 2015-ci ildə universiteti bitirərək bakalavr dərəcəsi almışdır. Universiteti bitirdikdən sonra o, 2015-ci ildə hərbi xidmətdə olmuş, 2016-ci ildə isə hərbi xidmətini başa vurmuşdur.

Hərbi xidmətdə olduğu müddətdə "Aprel döyüşləri"ndə könüllü şəkildə iştirak etmişdir. Hərbi xidmətdən qayıtdıqdan

bir müddət sonra Ağa Əmi müsabiqədən keçərək "Veysəloğlu" MMC-də işləməyə başlamışdır. O, həmçinin Müdafiə Sənayesi Nazirliyi "Şərq" İstehsalat Birliyi "İqlim Elmi-İstehslat Müəssisəsi" MMC-də də fəaliyyət göstərmişdir.

Ağa Əmi 2020-ci il II Qarabağ müharibəsinin başlanması xəbərini eşidən kimi könüllü şəkildə cəbhəyə getmiş, döyüşlərdə iştirak edərək Goranboy rayonu istiqamətində gedən döyüşdə 16 oktyabr 2020-ci il tarixində "Şəhid"lik zirvəsinə ucalmış və 25.10.2020-ci il tarixində yaşadığı Buzovna kəndində yerləşən Şəhidlər Xiyabanında dəfn edilmişdir.

27 illik ömür yolunda adına layiq yaşamağı bacaran Ağa Əmi igidliyi ilə ürəylərdə ömürlük yaşayacaq!

*Vəliyəddin Süleymanov*

***

*Aman qardaş, doğrudurmu deyirlər,*
*Gecə-gündüz qan tökülür yurdumda.*
*Qarabağın tarixini danırlar,*
*Məscid uçur, dam sökülür yurdumda.*
*Qarabağdı mənim dinim –imanım,*
*O torpağın nişanəsi, iziyəm.*
*Məni beləaciz görmə qəbirdə,*
*Qəbirdə də Qarabağın özüyəm.*

## Ağəli AĞAYEV



Ağayev Ağəli Tağı oğlu 29 aprel 1995-ci ildə Siyəzən rayonunun Balaca Həmyə kəndində doğulmuşdur. 2001-ci il-də 4 saylı orta məktəbin 1-ci sinfinə qəbul olmuş, 2012-ci ildə isə həmin məktəbin 11-ci sinfini bitirmişdir. 2014-cü il oktyabr ayında Cəlilabad rayonundakı hərbi hissəyə yollanmışdır. Ağəli Ağayev 2016-ci ildə Silahlı Qüvvələrin təlim-tədris mərkəzində çavuşluq kursunu keçmişdir. 2017-ci il iyul ayında öz istəyi ilə Xüsusi Təyinatlı Qüvvələr kursunu keçmək üçün "N" saylı hərbi hissəyə ezam olunmuşdur. 2017-ci il noyabr ayından xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı vəzifəsində xidmət etmişdir. Ağəli Ağayev II Qarabağ müharibəsində iştirak etmiş və qəhrəmanlıq göstərmişdir. O, müharibəyə yollanarkən belə ailəsinə təlimə getdiyini bildirir və 2020-ci il 25 sentyabr ailəsi ilə vidalaşır. Qrup rəhbəri olduğu üçün lazımi məlumatları köməkçi ilə birlikdə topladıqdan sonra komandanlığa təhvil verir və döyüşə yollanır. Döyüş yolu Murov dağında başlayır. Şəhid Ağayev 11 nəfərlik qrupla birgə Murov dağında yüksəklikləri işğaldan azad edir. Daha sonra qrupla birgə Füzuli rayonuna yollanır.

Şəhidimiz ən ağır əməliyyatlarda iştirak edir. Çiynindən qəlpə yarası almağına baxmayaraq "mən bir qəlpə yarasından qorxan deyiləm" deyərək döyüşə davam edir. Hər bir Azərbaycan əsgəri kimi, Ağəli Ağayevin də bir arzusu var idi. O da Azərbaycan bayrağını işğaldan azad olunmuş ərazilərə sancmaq. 11 nəfərlik qrup 400-500 erməni əsgərinə qarşı döyüşüb-

lər. Üz-üzə döyüşdən çəkinən düşmən silah-sursatlarını döyüş meydanında qoyaraq qaçıblar. Ağəli Ağayev Füzuli, Cəbrayıl, Qubadlının azad edilməsində xüsusi qəhrəmanlıq göstərmişdir. O, çiyin-çiyinə döyüşdüyü yoldaşlarını onlar şəhid olduqdan sonra döyüş meydanında qoymamış, döyüş gedə-gedə ordan çıxarmışdır. Ailəsi ilə son dəfə 26 oktyabr tarixində səhər saatlarında əlaqə saxlamışdır. Anası ilə danışığında anasına “Allah nə səni peşman etsin, nə də məni” deyərək Xocavənd uğrunda gedən döyüşə girir və bu da şəhidimizin son döyüşü olur. Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. Ağəli Ağayevin dostu Elmar Dəmirov onun xatirəsini yaşatmaq məqsədilə instagram sosial şəbəkəsində şəhidimizin adına səhifə açıb və haqqında məlumatlar paylaşır.

Ağəli Ağayev haqqında düşüncələrini soruşduq və o qeyd edir: “O, çox gözəl insan, vətənpərvər, vətəni, milləti, xalqı üçün canını verəcək qədər cəsarətli biri idi. Vətən qeyrəti onun üçün hər şeydən üstün idi. Ailəsinə bağlı, hörmətcil, deyib gülən, yaxşı oynayan biri idi. Sentyabrın 22-də kəndə gəlmişdi, elə bil hər şeyi hiss etmişdi. Hər kəslə vidalaşan kimi görüşdü və getdi. Dedi ki, biz ölərik, heç vaxt torpağımızı düşmənə verməik. Allah qoysa, görüşərik, – dedi qardaşım. Qismət olmadı, çox heyif”. Bunu da qeyd etməliyik ki, şəhidimiz Zəngilan döyüşlərində də iştirak etmiş və qəhrəmanlıq göstərmişdir. Allahdan şəhidimizə rəhmət, valideynlərinə səbir diləyirik. Biz sizinlə və vətən sevgisilə böyütdüyünüz, bu sevgiylə cəsarətlənən, zərrə qədər qorxu duymadan döyüşən oğullarınızla fəxr edirik, şəhid anaları, başınızı dik tutun!

*Şərqiyyə Həsənova*

## Arəstə BAXIŞOVA



Arəstə Baxışova 1989-cu il mayın 4-də Xaçmaz rayonunun Qımılqışlaq kəndində anadan olub. Baxışovlar ailəsində 3 uşaq olub - 2 qardaş və 1 bacı. Onun atası - baş leytenant Kərim Baxışov Fövqəladə Hallar Nazirliyində Mühafizə İdarəsinin rəisi vəzifəsində çalışıb. Arəstə Baxışovanın dörd yaşı olanda atası vəfat edib. Arəstə Baxışova Azərbaycan Dövlət Pedaqoji Kollecində "İngilis dili" üzrə təhsil alıb.

Arəstə Baxışova ailəli idi, Mərdan adında bir oğul və Zəhra adında bir qız anası idi. Hərbi xidməti: Arəstə Baxışova Silahlı Qüvvələrin Hospitalında tibbi statistvəzifəsində, daha sonra isə Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində çalışıb. Azərbaycan Ordusunun çavuşu olan hərbi tibb qulluqçusu Arəstə Baxışova 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən Müharibəsi zamanı Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçiləri döyüş meydanından çıxarıb. Arəstə Baxışova oktyabrın 23-də Qu-

badlı döyüşləri zamanı - yaralı hərbçilərimizi döyüş meydanından şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Arəstə Baxışova ölümündən sonra "Vətən uğrunda" ilə təltif edildi.



Şəhidin anası Məktubə Baxışova qızının cəbhəyə könüllü olaraq getdiyini bildirib: "Dedi ki, "ana mən hərbiyə getmək istəyirəm. Uşaqlarım sənə əmanət. Hərənin bir qisməti var. Əgər mən gedib, Vətən uğrunda şəhid olacamsa, o mənim başımın ucalığıdır". O ölümdən qorxan qız deyildi". Xanım şəhidimizin 11 yaşlı oğlu Mərdan Məmmədli isə anası ilə son söhbətini belə xatırlayır:

"Hər dəfə zəng edərdi, soruşardı. Bir neçə dəfə zəng etdim, cavab vermədi. Daha sonra telefonu açdı, səsi bir təhər gəlirdi. Fikirləşdim ki, xəstələnib. Soruşdum nə olub? Dedi yaxşıyam, nənənin sözündən çıxmayın, dərslərinizi oxuyun, bacına da yaxşı bax".

Arəstənin 10 yaşlı qızı Zəhra isə anası ilə qürur duyduğunu deyib:

"Anam mənlə həmişə fəxr edirdi, mən də indi anamla fəxr edirəm ki, vətən uğrunda şəhid oldu".

*Elnur Eltürk*

## Arif SÜLEYMANOV



Arif Ramiz oğlu Süleymanov 1994-cü ilin yanvar ayının 5-də Goranboy şəhərində anadan olmuşdur. 2009-cu ildə Gəncə Texniki kollecinə daxil olmuşdur. 2013-cü ildə də bitirmişdir. 2013-cü ilin iyul ayının 16-da hərbi xidmətə yollandı. 2015-ci ilin yanvar ayında, hərbi xidməti bitirmişdir. Arif idmanı çox sevirdi. Güləş üzrə çoxlu fəxri-fərman almışdır. Arif Süleymanov hərbi xidmətdən gəldikdən sonra 3 ay içində gecə-gündüz çalışıb. Azərbaycan İqtisadiyyat Universitetinə qəbul olmuşdur. 2016-cı ildə sentyabr ayında 701 saylı hərbi hissədə müddətdən artıq hərbi qulluqçu kimi işə başladı. Bir müddətdən sonra kiçik çavuş hərbi rütbəsini almışdır. Rabitə manqa komandiri kimi işini davam etdirdi. Həm universitetdə oxuyub, həm də hərbidə işləyirdi. Hərbi işi ilə bağlı olaraq Arif Bakıya gedib-gələ bilmədiyi üçün Gəncə Dövlət Universitetinin İqtisadiyyat fakültəsinə dəyişdi. İşi ilə bağlı olaraq qiyabi təhsil aldı. Amma diplomunu almaq qismət olmadı.

2020-ci ilin 27 sentyabrında torpaqlarımızın azad olunması uğrunda müharibə başladı. Arif rabitədə işləməyinə baxmayaraq döyüşdə çox cəsarətlə iştirak edirdi. Arif neçə-neçə yoldaşını döyüş meydanından çıxarıb Allahın köməyilə yaşamasına səbəb olmuşdur bunu komandiri və döyüş yoldaşları deyir. Oktyabrın 8-i Talış Suqovuşan istiqamətində gedən ağır döyüşdə qəhrəmancasına şəhid oldu. O,ölümündən sonra “Cəsur döyüşcü”, “Vətən uğrunda” və “Suqovuşanın azad olunmasına görə” medallarıı ilə təltif olundu.

*Rübaba Şirinova*

## Aslan RZAYEV



Özünə şəhidlik arzu edərək haqqa qovuşan şəhid Aslan Süleyman oğlu Rzayev!

2783. Kim deyərdi ki, gün gələcək bu rəqəm səslənən də ürəyin sızlayacaq, gözlərin dolacaq? Necə ola bilər ki, bir rəqəm milyonlarla insanın ürəyində dağa çevrilib ona ağrı verə, eyni zamanda da qürur hissi yaşada? Axı niyə? Nədir bu rəqəmin sirri? Sirr deyil, bu 44 günlük haqq uğrun da gedən Vətən müharibəsi zamanı canından keçərək ən uca zirvəyə Şəhidlik zirvəsinə ucalan igidlərimizin sayıdır. Bəli, 2802 şəhid, qəhrəman, igid əsgər! Ölüm haqqdır, heç bir insan ölümsüz deyil. Hər kəs vaxtı gəldiyin də bu dünyadan köçüb gedəcəkdir. Bu məqam da şəhidlik bir insanın ən gözəl şəkil də bu dünya ilə vidalaşmağı deyilmi?

Bu gün sizə öz ölümü ilə əbədiyyətə qovuşan, torpaqlarımızı azad edən 2802 şəhiddən biri haqqın da danışmaq istəyirəm. Aslan Rzayev Süleyman oğlu – 1 yaşlı Altayın atası. On milyon azərbaycanlının fəxri. Yanvar ayında 25 yaşı olacaq idi. Maştağada yaşayıb. 108 saylı məktəb də təhsil alıb. Azərbaycan Texniki Universitetinin tələbəsi olub. Ali təhsil almasına baxmayaraq, 1 il 6 ay hərbi xidmət də vətənin keşiyində olmuşdu. Hərbi vəzifəsi baş atıcı idi. Sevdiyi xanımla ailə həyatı qurmuşdu. Həyatının ən xoşbəxt günlərini yaşayırdı. Lakin, Aslan artıq Allah qatında ən şərəfli zirvəyə seçilmiş insan idi. Həyatının ən gözəl çağın da yenidən vətən üçün hərbi xidmətə yollandı. Yoldaşına və bacısına oğlum daim adı kimi uca olsun deyən, Aslanın tək istəyi oğlunu onunla fəxr et-

məsi idi. “Mən onu digər uşaqlardan fərqləndirəcəm” – demişdi. Və dediyini də etdi. Füzuli uğrunda gedən döyüşlərdə düşmənə qarşı igidliklə, mərdliklə vuruşaraq şəhidlik zirvəsinə ucaldı. Aslan Rzayev sən dediyini etdin, nəinki, oğlun Altayın, bütün Azərbaycanın fəxri oldun. Oğlun Altay böyüyəcək, gələcək də tarix kitabların da atasının öz canı və qanı bahasına yazdığı qəhrəmanlıq dastanını oxuyacaq. O, illər, əsrlər, qərinələr keçsə də, adı qızıl hərflərlə tarixə həkk olunmuş bir atanın oğlu olduğu üçün fəxr edəcək başı daim adı kimi uca, dik olacaq.

Vətənin azadlığı uğurun da canından keçən, bizim rahatlığımız üçün bu dünyaya gözlərini əbədi yuman, haqq dünyasına qovuşan Aslan Rzayevin timsalında da bütün şəhidlərimizin qarşısın da baş əyirik. Siz bizim qürurumuz, fəxrimizsiniz. Biz sizi unutmayacağıq, unutdurmayacağıq! Şəhidlər ölməzdirlər, ölməz ağlamazlar!

*Şəhidlər şərəf, qeyrət, ucalıq zirvəsidir,*
*Şəhidlər azadlığın od-şimşək zərrəsidir.*
*Şəhidlər tarixləşən – istiqlal türbəsidir,*
*Şəhidlər şimşək kimi buludlar saxlamazlar.*
*Şəhidlər ölməzdirlər, ölməzi ağlamazlar!*

*Simranə Məmmədova*

## Aşur CƏMİYEV



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən Vətən Müharibəsi şəhidlərinin ailələrinə müntəzəm olaraq dövlət qayğısı göstərilir. Belə nümunələrdən biri də şəhid Aşur Cəmiyevin xatirəsi ilə bağlıdır. Belə ki, ölkə başçısının sərəncamı ilə şəhid kapitan Aşur Cəmiyevin ailəsinə ev verilmişdir. Sentabrın 18-də şəhidin xanımı Yeganə Cəmiyevə ailəyə verilmiş yeni evdə şəhid Aşurun adına xatirə mərasimi təşkil edib. Şəhidin həyat yoldaşının dəvəti ilə Azərbaycan Qaçqınlar Cəmiyyəti və QAİ-nın fəalları Leyla Abdullayeva və Lamiyə Əhmədova xatirə mərasimində iştirak ediblər.

Mərasimə qatılan fəallar şəhidlərimizin ruhuna dualar oxuyub, məclisdə iştirak edən digər şəhid ailələri, şəhid anaları ilə ünsiyyətdə olub, xalqımızın ümumi kədəri olan şəhidlərimizlə bağlı xatirələrini bölüşüblər. Tədbirdə yaddaqalan anlardan biri də Azərbaycanın Milli Qəhrəmanı şəhid general Polad Həşimovun anası Səmayə xanımla görüş olub. Fəallar Azərbaycan Qaçqınlar Cəmiyyəti və QAİ adından, cəmiyyətin Qadınlar Şurasının rəhbərliyi adından şəhid ailələrinə hörmət və ehtiramımı çatdırıblar. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Allah şəhidlərimizin xatirəsini əziz tutub, onların ailələrinin qayğısını çəkən Dövlətimizi qorusun.

Cəmiyev Aşur Bəybala oğlu 18 iyun 1989-cu ildə Naxçıvan Muxtar Respublikası Şahbuz rayonunun Kilis kəndində anadan olub. 2020-ci il 27 sentyabr tarixindən başlayan Vətən müharibəsinə ilk gündən cəlb olunan Aşur Bəybala oğlu Füzuli və Cəbrayıl istiqamətində həyata keçirilən uğurlu hərbi əmə-

liyyatlarda yaxından iştirak edərək 21 oktyabr 2020-ci il tarixində Zəngilan rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Naxçıvan şəhərində dəfn olunub.

Ailəli idi, 3 övladı yadigar qalıb.

2020-ci ilin sentyabr ayından isə Çevik Hərəkət Dəstəsində müxtəlif vəzifələrdə xidmət etmiş, bir sıra təlimlərə cəlb edilmişdir. Xidməti dövründə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi" və "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi" yubiley medalları ilə mükafatlandırılıb.

Azərbaycan Respublikasının ərazi bötüvlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamları ilə Aşur Cəmiyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" medalı, və "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edilib.

*Lamiyə Əhmədova*

## Ataməli MUSAOĞLU



“Aman Ayrılıq” ilə yaddaşlarda qalan şəhid!

Atamәli Musaoğlu Seyidməmməd oğlu 1995-ci il martın 5-də Qaradağ rayonunun Lökbatan qəsəbəsində anadan olmuşdur. 288 saylı Lökbatan tam orta məktəbini əla qiymətlərlə bitirib və 2012-ci ildə 530 balla BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin Psixologiya ixtisasına daxil olub. Ali təhsilini başa vurandan sonra vətənə borcunu ödəmək üçün hərbi xidmətə yollanır. Hərbi xidmətini sərhəd bölgəsində başa vuran Atamәli qayıtdıqdan sonra öz ixtisası üzrə işləməyə başlayır. Eyni zamanda təhsilinə də davam edir. O, Xəzər Universitetinin kliniki psixologiya fakültəsində magistr pilləsi üzrə dövlət sifarişi ilə ingilis dilində tədris alır. Həmçinin, 2017-ci ildə 5 il sevdiyi tələbə yoldaşı Eminova Firuzə ilə ailə həyatı qurur. Bu evlilikdən 2018-ci ildə qız övladı dünyaya gəlir. Qızına Gül adını verir, sanki yanında olub onun böyüdüyünü, məktəbə getdiyini görə bilməyəcəyini hiss edib və həmişə gülməsini istəyib.

Atası vətənə layiqli, ürəyi vətən sevgisi ilə döyünən bir oğul yetişdirmişdi. Elə o Vətən sevgisi Atamәlinin bütün arzularından, xəyallarından ayırdı. Sonuncu kursda olsa da, Vətəni ali təhsilindən, karyerasından, çalışdığı mərkəzdəki onlarla azyaşlı şagirdlərindən, ailəsindən, 2 yaşlı körpəsindən və canından üstün tutur və sentyabrın 27-dən başlayan döyüşlərə könüllü qatılmaq üçün müraciət edir. Atamәlini sentyabrın 28-də aparmasalar da, onun sabahısı o, öz arzusuna çatır. 30 sentyabrda xüsusi kəşfiyyat briqadasından nümayəndələr gələrək könüllü əsgərləri qeydiyyata alan zaman Atamәli də könüllü

bu qrupa qoşulur. Kəlbəcər istiqamətində döyüş əməliyyatlarına qatılan Ataməli Suqovuşanın alınmasında da böyük şücaət göstərmişdir. Döyüş yoldaşlarının sözlərinə görə, Atəməli cəbhədə belə psixoloqluğunu davam etdirərək hər kəsə ruh yüksəkliyi verirdi.

Suqovuşandan sonra Ağdərə istiqamətində döyüşə qatılıb. 7 böyük əhəmiyyətli yüksəklikləri azad ediblər. 15 oktyabr tarixində 8-ci yüksəkliyin alınması zamanı yaralı döyüş yoldaşını döyüş meydanından çıxararkən düşmən snayperinə tuş gəlir. Onun ailəsinə göndərdiyi sonuncu əmanət isə son nəfəsində barmağından çıxararaq döyüş yoldaşı ilə göndərdiyi nişan üzüyü olur.

16 oktyabrda Şəhidlər Xiyabanında dəfn edilib.

Evin tək oğlu olan Atamәlinin ən böyük xəyalı bitirdiyi universitetdə müəllim kimi işləmək idi. Cəbhəyə getməzdən bir həftə öncə, qızının 2 yaşını qeyd edərkən “Aman ayrılıq” mahnısını qızı ilə rəqs etdiyi video indi hər kəsi göz yaşına boğur. İndi iki yaşlı qızı Gül bundan sonra daha da məğrur, başı dik gəzəcək. Atasının ona qoyduğu “Şəhid qızı” adı onu daha da qürurlandıracaq. Çünki atası üçrəngli şanlı bayrağımızın vətənimizin hər qarışında dalğalanması üçün heç nəyi düşünmədən canını fəda etdi.

Ataməli şəhidliyi ilə anasına verdiyi: “Səni elə ucalara qaldıracam ki, mənimlə fəxr edəcəksən. Qəhrəman kimi gələcəm” – sözünü tutur. Atəməli qəhrəman kimi də qayıtdı. 30 il həsrətində qaldığımız torpaqlarımıza Atəməli kimi igidlərin sayəsində qovuşduq.Qovuşduq ki, bir daha ayrılmayaq. Unutmayaq, unutdurmayaq! Nə vətəni, nə də vətəni bütöv edən şəhidlərimizi!

*Gülnarə Rövşən Mirzəyeva*

## Azad ŞİRİNOV

Şəhid anası: “Oğlumun toyuna hazırlaşırdım. 20 yaşına çatmamış şəhid oldu”.

“Oğlumun cansız bədənini kəndə gətirdilər. Komandirinə dedim ki, üzünü açın, son dəfə baxım. Tərtəmiz, ağappaq pambığın içində idi. Öpdüm, yola saldım. Deyirdim ki, bircə əsir düşməsin” – şəhid anası oğlu ilə vidalaşmağından danışarkən qeyd edir". Birinci Qarabağ savaşının ən gənc şəhidlərindən biri də Tovuz rayonunun Yuxarı Öysüzlü kənd sakini Şirinov Azad Məmməd oğludur. 1976-cı il doğumlu Azad Şirinov 18 yaşında hərbi xidmətə yolanıb. Gənc yaşda – 1993-cü ildə özünü qızğın savaşın ortasında tapan Azad Şirinov müharibə dövründə böyük qəhrəmanlıq göstərib. O, hərbi xidmət boyu Gəncədə, Tərtərdə, Mingəçevirdə, Ağcabədidə xidmət keçib. Sonuncu dəfə isə Ağdamın Əfətli kəndində xidmətini davam etdirib və orada şəhid olub. 3 ilə yaxın döyüşlərdə iştirak edən Azad Şirinovu bu müddət ərzində bir neçə dəfə anası ziyarət edə bilib.

Şəhidimizin anası Sofiya Şirinova oğlu hərbi xidmətdə olan zaman sonuncu dəfə 1993-cü ildə onunla görüşə bilib.

Həmin görüşdə Azad Şirinov anasına söz verib ki, yaxın günlərdə evlərinə qayıdacaq: “Azad dedi ki, ana, 3 ilim tamam olanda məni buraxacaqlar. Söylədi ki, qayıdanda qoymayacaq ki, əziyyət çəkəsən. Məni çox istəyirdi. Necə əziyyətlə onu böyütmüşdüm. O da bunu bilirdi, dərk edirdi” – deyə şəhidimizin anası söyləyir. Amma Azad anasına verdiyi sözü tuta bilmir. O, 1996-cı ilin dekabr ayının 14-də şəhidlik zirvəsinə ucalır. Gənc yaşda böyük qəhrəmanlıq göstərən, Vətən uğrunda şəhid olan Azad atasını 4 yaşında itirib. Onun atası ürək tutmasında vəfat edib. Anası onu və 4 bacısını çətin şərtlərdə, əziyyətlə böyüdüb.

Şəhidimizin məzar daşını, bütün yas xərclərini anası Sofiya xanım özü çəkib. 84 yaşlı ana deyir ki, oğluna toy etmək üçün yığdığı qızılları, pulu onun dəfninə xərcləyib: “Hökumət-

dən bir qəpik də istəmədim. Qızıl almaq üçün pul yığmışdım. Oğlumun toyuna hazırlaşırdım. Amma 20 yaşına çatmamış şəhid oldu. Hamısını onun yasında xərclədim. Elə bildim ki, ona toy edirəm”.

Azad Şirinov kənd qəbiristanlığında dəfn olunub. Oğlu şəhid olduqdan sonra insult keçirən, uzun zamandır xəstəlikdən əziyyət çəkən şəhid anasının indi bir arzusu var:



“Vətən müharibəsindəki qələbədən sonra oğlumun məzarı üstə getdik. Ona göz aydınlığı verdik ki, sənin uğrunda şəhid olduğun torpaqlar azad edilib. İndi 84 yaşım var. Bu günə qədər hökumətdən heç nə istəmədim. İndi tək istəyim budur ki, oğlumun məzarı götürülsün, qəhrəman şəhidlərimiz kimi onun məzarı da yenilənsin. Bir ana kimi mən də baxım, fərəhlənim.

Azadın əmisi Qiyas Şirinov 1941-1945 müharibəsində itikin düşüb. Bu zamana qədər onu axtaran olmadı. Ona görə mən istəyərəm ki, oğlumun məzarı bərpa edilsin, mən bu dünyada olmasam da oğlumu itirib-axtaran olsun, məzarını görəndə onun da Vətən uğrunda şəhid olduğunu bilsinlər”.

*İlkin Muradov*
*Analoq.az*

## Azər MİKAYILOV



*Ruhu müqəddəs Qarabağda gəzən qəhrəman İgidlərimiz. Şəhid polkovnik-leytenant Azər Mikayılovun əziz xatirəsinə*

Vətən torpağını düşməndən azad etmək nə qədər çətindirsə, onu göz bəbəyi kimi qoruyub saxlamaq ondan da çətindir. Biz Azərbaycan xalqı olaraq 1990-cı illərdə 4 il müddətində müqəddəs torpaqlarımızı – Qarabağı erməni faşistlərindən və onların havadarlarından qorumaq üçün canımızı və qanımızı fəda etdik. Lakin müstəqilliyimizin qorunması fonunda baş verən bu ölüm-dirim müharibəsində erməni faşistləri, xüsusilə də onların himayəçiləri qarşısında məğlub olduq. Lakin 30 ildən sonar güclü dövlətimiz, şanlı ordumuz sayəsində 4 ildə itirdiyimiz torpaqlarımızı, 44 gündə azad etdik. Dünya hərb tarixinə nümunə olacaq böyük bir tarix yazdıq. Bu yaradılan tarixin öndə gələn müəllifəri sırasında, Şanlı Azərbaycan dövləti, dar gündə bir yumruq kimi birləşən Azərbaycan xalqı, xüsusilə də Qəhrəman Azərbaycan əsgərləri yer almaqdadır.

II Qarabağ Müharibəsində – Vətən Müharibəsində böyük qəhrəmanlıq göstərən, tarix yazan igidlərimizdən biri də polkovnik-leytenant Azər Mikayılov olmuşdur.

Azər Əmrah oğlu Mikayılov 1980-ci ilin avqust ayında Kəlbəcər rayonunun Quzeyçiкin кəndində anadan olmuşdur. 1997-ci ildə Naftalan şəhəri 33 saylı tam orta məktəbi bitirən Azər Mikayılov. 1998-2002-ci illərdə Ali Hərbi məktəbdə təhsil almışdır. 2002-2003-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin təlim-tədris mərkəzində təhsilini davam etdirmişdir. 2003-cü ildən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Silahlı

Qüvvələrinin Quru Qoşunlarında taqım komandiri kimi xidmətə başlamışdır. Hərbi xidməti dövründə müxtəlif vəzifələrdə çalışan Azər Mikayılov son hərbi fəaliyyəti dövründə Xüsusi Təyinatlı Hərbi hissənin qərargah rəisi və hərbi hissə komandiri vəzifələrini icra etmişdir. Polkovnik-ldeytenant rütbəli Azər Mikayılov II Qarabağ Müharibəsi başlayandan Cəbrayıl-Hadrut istiqamətində gedən döyüşlərdə ön cəbhədə iştirak etmişdir.

Polkovnik-leytenant Azər Mikayılov 27 sentyabr 2020-ci il tarixindən 11 oktyabr 2020-ci il tarixinədək hərbi hissə komandiri kimi Cəbrayıl-Hadrut istiqamətində gedən döyüşlərə birbaşa rəhbərlik etmiş, böyük qəhrəmanlıq nümunəsi göstərmiş, onun rəhbərlik etdiyi hərbi qüvvələr onlarla yaşayış məntəqəsinin azad olunmasında, yüzlərlə erməni faşistinin öldürülməsində iştirak etmişdir. 11 oktyabr 2020-ci il tarixində Cəbrayıl-Hadrud istiqamətində baş verən şiddətli döyüşlərdə böyük qəhrəmanlıq göstərən polkovnik – leytenant Azər Mikayılov qəhrəmancasına şəhid olmuşdur. Qəhrəman komandir Azər Mikayılov oğlunun doğum günündə – 12 oktyabr tarixində torpağa tapşırılmışdır. Polkovnik-leytenant Azər Mikayılov ailəli idi. İki övladı var. Son dəfə 07 oktyabr 2020-ci ildə atası Əmrah kişi ilə telefon əlaqəsi saxlayan Azər Mikayılov düşmən qüvvələrini məhv etdiklərini, qısa zamanda dogma Qarabağı düşmən tapdağından azad edəcəklərin söyləmiş, ona görə narahat olmamağı söyləmişdir. Polkovnik-leytenant Azər Mikayılov hərbi xidmət dövründə xüsusi hərbi keyfiyyətlərinə, müxtəlif dövrlərdə iştirak etdiyi hərbi əməliyyatlarda göstərdiyi qəhrəmanlıqlara və nümunəvi xidməti vəzifəsinə görə müxtəlif medallarla təltif olunmuşdur.

Ona müxtəlif dövrlərdə təqdim olunan III dərəcəli "Qüsursuz xidmətə görə" medalı, II dərəcəli "Qüsursuz xidmətə görə" medalı, I dərəcəli "Qüsursuz xidmətə görə" medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medal-

ları igid komandirin böyük rəşadətinin, qəhrəmanlığının bariz nümunəsidir. 44 günlük II Qarabağ Müharibəsində Azərbaycanın igid qəhrəmanları, yazılacaq müasir dövr hərb tariximizin əsaslarını yaratdılar. Bu tarix olduqca möhtəşəm, qəhrəmanlıq nümunələri ilə dolu, ədalətli və dünya hərb tarixinə bütün parametrlərinə görə nümunə olacaq bir tarixdir. Polkovnik-leytenat Azər Mikayılov Vətən müharibəsində böyük qəhrəmanlıq nümunəsi göstərməklə yanaşı, həmçinin Azərbaycanın müasir hərb tarixinin yaradılmasında da yaxından iştirak etdi.



Əziz İgid Qəhrəmanlarımız! Bu Vətən müharibəsinin əsas Qəhrəmanları – Şanlı Azərbaycan Ordusu və Siz Qəhrəmanlarsınız.

Azərbaycan milləti əbədiyyən Şah Əsərimiz olan Bütöv Azərbaycanın Şah Qəhrəmanları olan Sizlərlə qürur duyacaq, sizin adınız çəkiləndə sevinc göz yaşları ilə iftixar hissi keçirəcəkdir. Bir daha üçrəngli bayrağımızı qürurlandırdığınız üçün sizlərə minnətdarıq.

Vətən uğrunda ölən varsa, Vətəndir.

Siz Qəhrəmanlar bizim Vətənimiz, Bütöv Azərbaycanımızsınız. Sizin ruhlarınız müqəddəs Qarabağda, xalqımızın birlik, bütövlük simvolu olan müqəddəs Savalan dağında gəzir. Müqəddəs ziyarətləriniz mübarək olsun.

*Mübariz Ağalarlı*

## Azər MUSAZADƏ



“Məndən narahat olmayın, qələbə çalıb qayıdacağıq” – deyən 22 yaşlı şəhid, Azər Musazadə.

2783. Bu rəqəm, bizlərin heç bir zaman unutmayacağı, daim qəlblərdə yaşadacağı və qürur duyacağı, mənfur düşmənə dərsini verən, onlara kim olduğunu xatırladan, vətən uğrunda öz canından keçmiş şəhidlərimizin sayını göstərən rəqəmdir. 44 günlük müharibənin baş rollarına çevrilən bu igidləri unutmaq nə mümkün? Onların hər biri bizim üçün müqəddəsdir, əzizdir. Hər bir qarış torpağımızı onların qanı bahasına geri alan bizlər, bu gün, doğma yurdumuza qovuşmağın xoşbəxtliyini kədərlə birlikdə yaşayırıq.

Vətən uğrunda şəhid olmuş qəhrəmanlarımızı tanımaq hər birimizin insanlıq borcudur. Gəlin, igidlərimizdən biri olan, Ağdərə istiqamətində qəhrəmancasına şəhid olmuş 22 yaşlı Azər Musazadəni tanıyaq.

22 yaşlı şəhidimizin atası Çingiz Adilovun sözlərinə görə oğlu ali təhsilli idi. İlk olaraq Tərtərə çağırılan Azər, daha sonra 27 nəfər ilə birlikdə ön cəbhəyə yollandı. Döyüşdə altı post aldılar, lakin, sonuncusunda Azər mənfur ermənilər tərəfindən arxadan vurularaq şəhid oldu. Azərin oktyabrın 13-ü şəhid olmasına baxmayaraq, nəşi neytral zonada qaldığı üçün uzun müddət sonra tapılmışdı.

Çingiz Adilov oğlundan qürurla bəhs edir və “Vətən sağ olsun” – deyir. Kiçik yaşlarında ayağından ilan sancdığı üçün, tez-tez ayağı ilə bağlı problem yaşayan Azər, döyüş zamanı da ayağı ilə bağlı ağrılar yaşayıb, lakin onun sözləri belə olub: “Məni ilan öldürmədi, erməni kimdir ki, öldürsün”. Ailəsi ilə

əlaqə saxlayan zaman o: “narahat olmayın, biz qələbə çalacağıq” – deyib. Atasının sözlərinə görə Azər olduqca mehriban və mülayim biri idi:

“Ailəmizdə üç uşağımız olub. Azər getdi, geridə iki övladım qaldı. Gedəndə demişdi ki, Qarabağı alıb üçrəngli bayrağımızla geri qayıdacağam. Elə oğlum bayrağa bürünüb qayıtdı. Oktyabrın 11-nə qədər tez-tez telefonla əlaqə saxlayırdıq, amma 15-dən sonra oğlumdan heç bir xəbər gəlmədi. Bir neçə gün sonra Səfərbərlik Xidmətinə, Müdafiə Nazirliyinə müraciət etdik. Dedilər ki, oğlunuz döyüşdədir, olduğu yerdə dalğa yoxdur, ona görə əlaqə saxlaya bilmirsiniz. Müharibə bitəndən sonra yenə də axtarışlara başladıq, dedilər ki, itkin düşüb. Uzun müddət sonra vətən uğrunda şəhid olduğu xəbəri gəldi. Çox ümid edirdim ki, oğlum sağdır, amma olmadı. Çox şükür ki, əsir düşmədi. Azər şəhidlik zirvəsinə ucaldı. Hələ də tapılmayan oğullarımıza görə çox pis oluram”. Azərin nəşi oktyabrın 30-u tanınmaz bir halda tapılıb. Hər zaman özünü Polad Həşimova bənzədən Azər, qardaşı ilə son dəfə danışan zaman bildirib ki: “*Mən şəhid olsam belə ağlamayın*”.

Vətən uğrunda canından keçmiş bütün şəhidlərimizin ruhu qarşısında baş əyir, onlarla fəxr edir və qürur duyuruq.

*Fatimə Əlixanlı*

## Azər YUSİFLİ



Dünyaya oğul gətirən hər bir ana, gələcəkdə Vətənə dar gündə arxa-dayaq olacaq, sinəsini düşmən önündə sipər edəcək müdafiəçi, igid, cəsur əsgər yetişdirir. Mərd anaların xeyir-duasıyla savaşa atılan igid, ər oğullar bu gün Vətən qarşısında öz vəzifə borclarını layiqincə yerinə yetirərək elə bir ali məqama yüksəldilər ki. Haqq işi uğrunda açılan davanın yolçusu, bərpa edilən tarixi ədalətin təminatçısı, itirilmiş azadlığın carçısı, nəticədə isə qazanılan zəfərin müjdəçisi kimi.

Qarabağımızın 30 illik bağlı qalmış qara bağlarını, qara düyünlərini dişinizlə-dırnağınızla çözərək bu torpağı öz sahibinə qaytardınız. Vətən adlı toxunulmaz varlığın, müqəddəs qibləgahın qoruyucu mələklərisiniz, şəhadətiylə dastana çevrilən igidlər! Bəli, Vətən qorunarsa, əldən getməz. Vətən öz igidləri ilə yaşayarsa, var olar. Varlığınızla bu Vətəni də var etdiniz, əbədiyyət adlı dünyamızda varlığı sonsuz ünvanda qərar tutan Şəhidlər! 2020-ci ilin 27 sentyabrından başlayaraq Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 44 gün davam edən Vətən müharibəsində yüksək vətəndaşlıq və fədakarlıq nümunəsi göstərmiş mübariz oğullar qanları, canları bahasına xalqımızın qəhrəmanlıq tarixinə parlaq, şərəfli səhifə yazdılar. Belə mübariz oğullardan biri də azadlığını geri qazanmış yurd ərazilərimizdə Vətən torpağına sancdığı zəfər bayrağıyla qəlblərdə, yaddaşlarda əbədiləşən qəhrəmanımız, baş gizir Azər Yusiflidir. Azər Nazim oğlu Yusifli 1994-cü il martın 28-də Ağstafanın Böyük Kəsik kəndində ziyalı ailəsində anadan olmuşdur. Vətənpərvərlik hissləri Azərin şəxsiyyətində orta məktəb illərindən baş qaldırmışdı. Onu bu ruhda tərbiyələndirən ilk müəllimi də

anası olmuşdur. 2012-ci ildə hərbi xidmətə yollanan Azər Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin 11-ci bölüyündə xidmət edərkən kiçik çavuş rütbəsini qazanmışdır. Hərbi xidmətini Sərhəd Qoşunları üzrə Cəlilabad rayon Göytəpə hərbi hissəsində davam etdirmişdir. Azər dəfələrlə Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev tərəfindən fəxri fərmanlarla və medallarla təltif edilmişdir. 2020-ci ilin iyulunda Tovuz döyüşlərində kəşfiyyatçı kimi iştirak etmiş, düşmənin qərar tutduğu və yüksək strateji mövqelərə malik ərazilər barədə ətraflı məlumat əldə edərək hərbi vəzifəsini layiqincə yerinə yetirmişdir. 2020-ci il sentyabr ayının 27-də Vətən Müharibəsi başlayan andan Sərhəd qoşunlarına məxsus Xüsusi Təyinatlı Kəşfiyyat dəstəsinin üzvü kimi ön cəbhəyə yollanmışdır. İgid Azər Qarabağımızın azadlığı uğrunda Füzulidən Zəngilanacan çox mürəkkəb, ağır və şiddətli döyüş yolu keçmişdir. Belə ki, o, Füzuli, Cəbrayıl, Xocavəndin Ağoğlan (Hadrut) qəsəbəsi, Qubadlı və Zəngilanın işğaldan azad edilməsində mərdlik və şücaət göstərərək düşmənə sarsıdıcı zərbələr endirən qəhrəman oğullar sırasında öz yerini tutmuşdur. Azər ilk döyüş həftəsində yaralansa da, xəstəxanada müalicə almasına baxmayaraq, fikri yalnız cəbhədə çiyin-çiyinə mərdliklə döyüşən hərbçi yoldaşlarının yanında qalır. Hər vasitə ilə onların yanına qayıtmağa can atır. İlahi Vətən məhəbbəti yaralarını unutdurur ona. Özü yaralı ola-ola Vətənin sızlayan yaralarına məlhəm qoymağa tələsir. Yaraları sarğılı vəziyyətdə hələ tam sağalmayan igid yenidən döyüşə yollanır. Təkbaşına düşmənin 40-dan çox canlı qüvvəsini məhv edir. Qızğın, həlledici döyüşlərdə düşmənin ordusu dəfələrlə sarsıdıcı, dağıdıcı zərbələrə məruz qalsa da, Azərin xidmət etdiyi taqım da itkisiz, qurbansız ötüşmür. Azər əlini silahdan ayırmadan düşmən gülləsinə tuş gələn, yaralı hərbçi yoldaşlarını çiynində daşıyaraq döyüş meydanından çıxarmaqla onların həyatını xilas etməyə nail olur.

Cəbrayıl azadlığına qovuşan zaman düşmənə göz dağı verən cəsur əsgərim, müzəffər Ordum irəliləyir deyə, qürur hissi keçirmişdim. Vətənin bir addımlığındaykən Cəbrayıl dağlarının arxasında gurlayan toplar, mərmilər tarixi Xudafərin körpüsünün qarşıdakı zəfərindən xəbər verirdi. Nəhayət ki, qüdrətli ordumuz düşmənin hərbi mövqelərini darmadağın etməklə keçilməz sədləri aşaraq qalibiyyət əzmiylə mübarək qədəmini Arazın sahilinə qoydu. Bu mətin ürəkli igidlərin sırasında Vətən eşqiylə irəliləyən Azər də var idi. Fəxarət hissi ilə irəliləyirdi Araza doğru. Xudafərin körpüsünə üçrəngli bayrağımızı sancmaq üçün! 18 oktyabr 2020-ci il. Heç zaman unutmayacağım şərəfli və möhtəşəm bir gün. Cəbrayılın başucunda Xan Arazın sinəsi üstə məğrur dayağa dönmüş, əsrlər şahidi tarixi Xudafərin körpüsünə üçrəngli bayrağımızı sancdığın gün necə də qürurlanmışdım, Şəhidim!



Cəbrayılın zəfər günündə “Xudafərin körpüsünə bayraq sancan əsgərim! O mübarək əllərindən öpərək qarşında minnətdarlıq hissi ilə baş əyirəm” – deyə sonsuz qürur və sevinc göz yaşlarıyla adını bilməyə-bilməyə sənə səslənmişdim. Şəhidlik xəbərini duyunca isə dərin hüzn və kədər hissi ilə indi deyirəm ki, uğrunda can verib, baş qoyub uyuduğun o müqəddəs Vətən torpağının hər qarışından öpərək ruhun qarşısında dərin ehtiramla baş əyirəm, Şəhidim! Mübarək əllərinlə sancdığın o üçrəngli, şanlı bayraq Cəbrayılın zəfər tarixinə yeni bir ucalıq, qalibiyyət dastanı yazdı. Ucalığınla gözümüzdə daha da ucaltdın yaşı bilinməyən qədim Xudafərini. Necə də qürurvericidir qəhrəmanımızın xatirəyə dönmüş fotosu. Sınıq körpü üzərində

dalğalanan üçrəngli bayraq, qarşısında cərgə ilə düzülmüş cəsur Azərbaycan əsgərləri, öndə isə onların silahdaşı Azər Yusifli. Xudafərinin qurtuluş xəbərini Ali Baş Komandanımıza çatdıran müzəffər, qalib əsgər! Bir zamanlar bayraqsız seyr edərdik Xudafərini. İndi səni bayrağından ayrı təsəvvür edə bilmərik ey vüsal körpümüz, zəfər körpümüz, qalibiyyət körpümüz! Çünki qəhrəman əsgərimin zəfər və qalibiyyət müjdəli sonsuz harayı var sal daşlarında.

Zəngilan zəfər çalanda şəhərin mərkəzi hissəsində yerləşən Prokurorluq binasına erməni bayrağını çıxarıb yerində üçrəngli bayrağımızı ucaldanda da kövrəkcəsinə qürur hissləri dolmuşdu qəlbimə. “Bu gün Xan Arazla mən bəxtiyarlıqdan ağlayırıq. Zəngilanda bayrağımızı ucaldan igid, Allah səni dünyanın bəxtiyarı etsin!” – deyə onda da sənə səslənmişdim. Nə biləydim ki, bu şərəfə də sən layiq görülmüsən, bayraqdar igidim! Son dəfə sancdığın bayraq da Zəngilanda dalğalandı, son döyüş əməliyyatın da Zəngilanda başa çatdı. Lakin sənin şəhadətinlə, əbədiyyətinlə! Şəhadətini Zəngilan torpağının azadlığı uğrunda qazanan igid! Sənin zəfər anında sancdığın bayraqlar o mübarək torpaqlarımızda indi elə qürurla, elə məğrurcasına dalğalanır ki. Bu qürurun, bu məğrurluğun ünvanı isə sənin müqəddəs şəhadətindir, ey zəfər yolunun dönməz yolçusu!Sən bir elin igid oğlu, bir ananın ciyərinin parası, bir atanın arxa-dayağı, bir Azərbaycan gözəlinin nakam qalmış, əbədi məhəbbətisən, bu dünyadan toy-düyünsüz köçən nişanlı igid! Mənimsə adını iftixarla andığım bayraqlı Xudafərinimin qəhrəmanısan, ər qardaşım! Hər dəfə sənin kimi yüzlərlə Şəhid oğulların qanı, canı bahasına azad edilmiş yurd yerlərimizə yolumuz düşdükcə əziz xatirənizi kövrək hisslərlə yad edəcək,



şərəfli adınızı uca tutacağıq. Qarabağımızda ucaltdığınız üçrəngli şanlı bayrağımız kimi! Cənab Ali Baş Komandanımız, Prezident İlham Əliyevin Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adının verilməsi haqqında imzaladığı Sərəncama əsasən, "Vətən uğrunda" medalı ilə təltif edilmiş qəhrəman şəhidlərimiz sırasında Azər Nazim oğlu Yusiflinin də adı vardır. Bundan əlavə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev daha bir Sərəncam imzalayıb. Sərəncama əsasən, Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Silahlı Qüvvələrinin təltif olunmuş hərbi qulluqçularından biri də Azər Yusiflidir.

Ünvanın əbədiyyətdir, torpağın bağrına zəfər eşqi ilə bayraq sancaraq ali mərtəbəyə yüksələn qəhrəman Azər! Hünərinlə, əzminlə, rəşadətinlə Vətənimizin, xalqımızın, millətimizin başını ucaldan qeyrətli oğul! Məqamın uca, ruhun şad, şərəfli adın mübarək olsun, cənnətməkan Şəhidim!

*Sevinc Ədalətqızı*

## Beyrək FEZULLAYEV



“Şəhidlik hər kəsə qismət olmur, o zirvəyə hər kəs ucala bilmir”, – deyirlər. Şagirdlərim Beyrək və Rüfət də, görünür, Tanrı qatında seçilmişlərdən idi.

Bir zamanlar önümdə oturan bu şagirdlərim illər sonra şəhadət şərbətini içəcək, bir ananın oğlu yox, bütöv bir elin oğlu olacaqdılar. Vətən Müharibəsi başlanan gündən rəşadətli Ordumuzun qələbə xəbərlərini sevinclə izləyir, qürur hissi keçirirdim. Şəhərimizə gələn şəhid dəfnlərində iştirak edir, vətəndaşlıq borcumu yerinə yetirməyə çalışırdım. Şəhidlərimizə olan xalq məhəbbəti, sevgisi, küçələrdə şəhid tabutlarını qarşılayan ana-bacıların göz yaşları məni kövrəldirdi. Vətən müharibəsi günlərində bütün gecələrim oyaq keçir, bir an olsun yerimdə rahatlıq tapa bilmirdim. Narahat gecələrimin ağrısı, görünür, sonralar daha dərindən hiss olunacaq.

Oktyabrın 5-də sosial şəbəkəni izləyərkən qarşıma çıxan xəbər məndə sarsıntı yaratdı. Bir anlıq yerimdə donub qaldım, keçmiş şagirdim Beyrəkin şəhadət xəbərini oxuyanda məni qəhər boğdu. Gözlərimin qabağına ona dərs dediyim illər canlandı. Beyrəkə 2011-2014-cü illərdə Oğuz rayonu Malıx kənd ümumi orta məktəbində müəllimliyimin ilk təyinatında dil-ədəbiyyat fənnindən dərs demişdim. Elə məktəb illərində də o, vətənpərvərliyi ilə şagird yoldaşlarından seçilirdi. Vaxtilə işğal olunan torpaqlarımızın anım günlərini hər dəfə mənə yaxınlaşaraq bir az da kədərli halda “müəllim, bu gün Füzulinin işğal günüdür, görən nə zaman azad edəcəyik, nə zaman o yurdlara gedəcəyik” – deyirdi. Mən də ona bu nisgilin, əlbəttə, bir gün sona yetəcəyini əmin edirdim. Sən demə,

gün gələcək XTQ-nin giziri Beyrək Fezullayev misilsiz qəhrə-manlıq göstə-
rərək özü Füzulinin azad edilməsində qəhrəmancasına şəhid olacaq, özü bu nisgilə, həsrətə son qoyacaqdı. Həqiqətən, illər sonra Beyrək adı kimi döyüş meydanında dastan yazdı. 30-a yaxın erməni faşistini məhv etdi, hətta əlbəyaxa döyüşdə süngü-bıcaqla 5 nəfər düşməni öldürdü. Qarın nahiyəsindən güllə yarası almasına baxmayaraq, 1 saat igidliklə döyüşdü. Onu yaralayan ermənini məhv edib, öz qisasını alıb Vətən uğrunda canından, qanından keçərək şəhid oldu. Gizir Beyrək Fezullayev 4 oktyabr Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhadət şərbətini içdi. Bizim müqəddəs and yerimizə çevrildi. Ölümündən sonra “Vətən uğrunda”, “Hərbi xidmətlərə görə” medalı ilə təltif edildi. Sosial şəbəkələrdə Beyrəkin döyüş yolu,



şəkli hər dəfə qabağıma çıxanda qürur hissi keçirir, bir az da kövrəlirəm. Mən onunla fəxr edirəm. Fəxr edirəm həm də ona görə ki, ona Vətəni sevmək ruhunu aşılaya bilmişəm. Az da olsa, onun Vətənə layiq bir oğul kimi yetişməsində əməyim var. Adı dastandan götürülən, özü də dastan yazan şagirdim ruhun şad olsun. Əbədiyyətin ünvanın daima nurlu olsun!

*Tural Adışirin*

# BƏHRAM VƏ İMAN MƏMMƏDZADƏ QARDAŞLARI



Bəhram Məmmədzadə (18 aprel 2000; Azərbaycan – 1 noyabr 2020; Xocavənd, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

İman Məmmədzadə (14 sentyabr 1998; Azərbaycan –1 noyabr 2020; Xocavənd, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi.

Bəhram Məmmədzadə 2000-ci il aprelin 18-də anadan olub. Subay idi. Qardaşı İman Məmmədzadə də Vətən müharibəsində şəhid olub. Azərbaycan Ordusunun əsgəri olan Bəhram Məmmədzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. B.Məmmədzadə noyabrın 1-də Qırmızı Bazar döyüşləri zamanı şəhid olub.

Bəhram Məmmədzadə ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edildi.

İman Məmmədzadə 1998-ci il sentyabrın 13-də anadan olub. Subay idi. Qardaşı Bəhram Məmmədzadədə Vətən müharibəsində şəhid olub. Azərbaycan Ordusunun əsgəri olan İman Məmmədzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. İman Məmmədzadə no-

yabrın 1-də Qırmızı Bazar döyüşləri zamanı şəhid olub. İman Məmmədzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

II Qarabağ müharibəsi Ali Baş Komandanın siyasi addımları və vətən uğrunda canı, qanı bahasına vuruşan



Azərbaycan igidlərinin sayəsində qələbə ilə nəticələndi. 44 gün davam edən müharibədə xalqımızın əzmi və birliyi hər bir ölkəyə nümunə olacaq qədər böyük və dəyərlidir. Hər bir ailənin üzvü sevinci də, kədəri də bir qəbul etdi və yaşadı. Azərbaycan xalqı bir tərəfdən qələbəyə sevinir, digər tərəfdən şəhidlik zirvəsinə ucalan igidlər üçün kədərlənirdi. Azərbaycanın peşəkar heykəltaraş qardaşları, Müstəqil və Aqşin Balayev bir çox vətənpərvərlik əsərləri yaradıblar. Heykəltaraş qardaşlar bu dəfə eyni gündə müharibəyə gedən və eyni gündə şəhid olan iki qardaşın Bəhram və İman qardaşlarının heykəlini düzəldiblər. Heykəldə iki qardaşın yanaşı dayandığını, bir qardaşın əlinin digər qardaşın çiynində olduğu göstərilib. Görünür şəhid qardaşlar biri-birlərinə bağlı olublar. Bu da Allahın qismətidir. Heykəl böyük peşəkarlıq və zövqlə yaradılıb. Həmçinin heykəltaraş qardaşların vətəninə, millətinə bağlılığı və diqqəti böyük qürur hissi ilə qarşılanıb. Şəhidlik zirvəsinə yüksələn qardaşların atası onlar haqqinda deyir ki, qardaşlar şəhid olmağı qarşılarına məqsəd kimi qoymuşdular. İman və Bəhrəm uşaqlıqdan qardaş kimi, dost kimi çox yaxın olublar. Məktəbə, idmana bir yerdə gediblər, tələbə kimi bir yerdə oxuyub hərbi

xidmətə yollanıblar. Heykəldə göstərildiyi kimi həyatda da



onlar həmişə bir-birinə dəstək və dayaq olublar.

Müstəqil və Aqşin deyilər ki, bu sənətin sirrlərini atamız bizə öyrədib. Qəlbində daim Vətən məhəbbətini yaşadan və bu hissi hər şeydən üstün tutan gənc heykəltəraşlara yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

Allah bütün şəhidlərimizi rəhmət eləsin!

*Əminə Elaydin*



## Bəhruz TAĞIZADƏ



Qəhrəmanımız Bəhruz Azər oğlu Tağızadə 14 sentyabr 1999-cu ildə Qax rayonunda anadan olub. 27 sentyabr tarıxində başlayan Vətən müharibəsinə qatılan Bəhruz, şəxsi keyfiyyətlərinə görə hər zaman seçilib. Onu tanıyanlar haqqında o qədər danışırlar ki, insan saatlarla bu igidin həyatını dinləməkdən yorulmur. Tağızadə Bəhruz Cəbrayıl, Füzuli, Hadrut rayonlarının işğaldan azad edilməsi əməliyyatlarında iştirak etmiş, Vətən müharibəsinin Şuşa cəbhəsində düşmənlə əlbəyaxa döyüşlər zamanı aldığı bıçaq yarasından Şəhid olmuşdur.

Uzun müddət övladından xəbər ala bilməyən valideynləri bir ümid edirdilər ki, Bəhruz bəlkə yaşayar, lakin O, evinə uğrunda canından keçdiyi şanlı Bayrağına bükülü tabutunda gəldi. Dili, ağzı Vətən deyən qəhrəmanımız 16 noyabr tarixində doğulub, boya-başa çatdığı Qax rayonunda torpağına tapşırıldı.

*Firuzə Yunusova*

## Bəxtiyar ASLANOV



Naftalanın yeni şəhidi.4 ay öncə anası ilə danışanda son sözü "meşədəyik, ana, kimsə gəlir" – olmuşdu. O gündən bu günə Tünzalə müəllim nələr yaşadı, özü bilir. DNK analizi hər yeni şəhid tapılarkən yoxlandı. Xəbər çıxmırdı. Hamı gələcəyinə ümid edirdi.Nəhayət gəldi. Şuşanın azadlığından xəbərsiz şuşalı şəhidim, Bəxtiyar!

Naftalan şəhər Uşaq Musiqi Məktəbinin fortepiano müəllimi Tünzalə Zöhrabovanın oğlu 1998-ci il təvəllüdlü Naftalan şəhər 2 saylı tam orta məktəbin məzunu, 2016-cı ildə Gürcüstan Respublikasının Açıq Tədris Universitetinin İqtisadi Beynəlxalq Əlaqələr fakultəsinə daxil olmuş, 2019-cu ildə təhsili müvəqqəti dayandıraraq könüllü hərbi xidmətə getmiş, 2020-ci ilin iyulunda Tovuz döyüşlərinin iştirakçısı, 2020-ci ilin sentyabrın 27-də başlayan II Qarabağ Vətən Müharibəsində Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edərək itkin düşmüş hərbi qulluqçu Aslanov Bəxtiyar İlqar oğlu 140 gündən sonra Goranboy rayon Balakürd kənd qəbirstanlığında dəfn olunmuşdur.

Bəxtiyar anası Tünzalə xanımla son danışığında "22 il sonra oğlunuzla fəxr edin, mən Vətən uğrunda şəhid olmağa gedirəm" deyərək halallaşıb. Aslanov Bəxtiyar uzun müddət axtarışdan sonra şəhidliyi təsdiq olundu. Gözü yolda qalanlar səni al bayraqla qarşılayır. Şuşalı balası Şuşanın azad olunmasından xəbərsiz, Şuşa həsrətilə əbədiyyətə qovuşdu. Ailənin yeganə ümidi, bir bacının yeganə qardaşı, anasının ümid yeri. Məkanın cənnət olsun.

*Nigar Həmidli*

## Bəxtiyar İSLAMOV



Bəxtiyar Saleh oğlu İslamov 11 iyun 1997-ci ildə Şirvan şəhərində anadan olub. 2004-cu ildə A.Hüseynzadə adına Şirvan şəhər 4 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olub. 2012-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. 2015-ci ildə təhsilini Heydər Əliyev adına Ali Hərbi Məktəbdə davam etdirən Bəxtiyar 2019-cu ildə həmin məktəbi bitirərək leytenant rütbəsi alıb. Hərbi biliklərə daha dərindən yiyələnmək və yüksək ixtisaslı peşəkar hərbçi olmaq üçün XTQ-nin 6 aylıq kursunu müvəffəqiyyətlə bitirərək xəritəçi-kəşfiyyatçı ixtisasına yiyələnib.



Bəxtiyar İslamov 2018-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət edirdi.

2020-ci ilin yanvar ayından N saylı hərbi hissədə baş kəşfiyyatçı və qrup komandirinin müavini kimi hərbi xidmətə başlayıb. 2020-ci ilin sentyabrın 27-sindən başlanan Vətən müharibəsində Füzuli, Cəbrayıl, Hadrut istiqamətlərində gedən ağır döyüş əməliyyatlarında iştirak edib, xidməti borcunu şərəflə yerinə yetirib. Yaralanmış qrup komandirinə və döyüş yoldaşlarına kömək edərək onları döyüş meydanından çıxarıb. Ağır və həlledici əməliyyatdan yeni qayıtmasına baxmayaraq, Bəxtiyar başqa bir qrupla yenidən döyüşə yollanıb. Oktyabrın 12-də düşmənlə yaxın məsafədən üzbəüz döyüşdə böyük qəhrəmanlıq göstərib, xeyli sayda düşməni məhv edib və yara -

lansa da sona qədər döyüşərək şəhadətə yüksəlib. Bəxtiyar İslamov 12 oktyabr 2020-ci il tarixdə Şirvan şəhər Şəhidlər Xiyabanında izdihamla torpağa tapşırılıb.



Ləqəbi "Canavar" olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçünAzərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Bəxtiyar İslamov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

*Şəhla Məcidova*
*müəllimləsi*



## Bəxtiyar MAYILOV



*Kəramət Böyükçöl:* Şəhid Bəxtiyar İxtiyar oğlu Mayılov Sabirabad rayonunun Sırra kəndindəndir. İndi anası yaraşıqlı balasına baxıb nələr çəkir. Nə oğullar getdi! Bəxtiyar İxtiyar oğlu Sabirabadın 31-ci şəhididir



*Bu gecə bir şəhid yuxuma gəldi,*
*Qəzəblə, nifrətlə üzümə baxdı.*
*Bu gecə bir şəhid yuxuma gəldi,*
*Əlinin qanını sinəmə yaxdı.*

*Bu gecə bir şəhid yuxuma gəldi,*
*Ata olacaqdım, - dedi: a zalım,*
*Mən də sənin kimi körpə balamı,*
*İstərdim qollarım üstünə alım.*

*Bu gecə bir şəhid yuxuma gəldi,*
*"Hardasan?" - üstümə bağırdı bir az.*
*Sonra sakitləşib "ay ana" dedi,*
*Ağladı, anasın çağırdı bir az.*

*Bu gecə bir şəhid yuxuma gəldi,*
*Bir məktub uzatdı və uca tonla,*
*"Bunu sevgilimə verərsən" dedi.*
*"Əlvida" yazmışdı kağıza qanla.*

*Bu gecə bir şəhid yuxuma gəldi,*
*Bildim ki, bu mənim xəcalətimdir.*
*Görüşdük, danışdıq, gedəndə dedi:*
*"Vətənim sizlərə əmanətimdir".*

*Elşad Barat*

# Bilal RZAYEV




Daima yüksəlişə can atmaq insanın təbiətindəndir. O, doğulduğu andan tez boy atmaq, böyümək,öz bacarıq və qabiliyyətini göstərməyə səy edir. Bu yüksəlişin ən yüksək zirvəsi isə şəhidlikdir. Vətən yolunda canını fəda edən vətən övladı əslində ölmür,əksinə,ölümü ilə ölümsüzlük qazanır,şəhidlik adına yüksəlir. Bundan da böyük hünər, bundan da yüksək ucalıq ola bilərmi?!

Yazımızın qəhrəmanı Rzayev Bilal Novruz oğlu 1997-ci ildə Cəlilabad rayonunun Alar kəndində anadan olub. Yaxını onun haqqında məlumat verir:Ailəli idi.Bu yaxınlarda övladı dünyaya gəlməli idi.Övladını görmək qismət olmadı. Könüllü olaraq ordu sıralarına yazılmışdı.Müharibə başlayandan heç bir xəbər ala bilmədik. 10 gün olar ki, Rayon Mərkəzi Xəstəxanasından məlumat gəldi. Üzü tanınmaz halda olduğu üçün morqdan DNA analizi nəticəsində tapıldı Şəhidlər unudulmur! Biz bu dərdi, bu qəmi daim qəlbimizdə saxlayacağıq. Vətən yolunda canını fəda edən bu insanlar gənclər üçün bir vətənpərvərlik nümunəsinə çevrildilər. Vətəni bu cür ləyaqətli övladların varlığı Vətən edir.

*Zəminə Hüseynova*

## Cahangir QURBANOV



Ölüm əslində yoxluq və heçlik deyil. Əbədi diyara səfərdir. Əbədi diyara səfərdən sonra çoxları çox az müddətlik də olsa, dünyaya yenidən qayıtmaq və xeyirxah, saleh əməllər işləmək istəyəcəklər. Ancaq şəhidlər yenidən dünyaya qayıdaraq bir daha şəhid olmağı arzulayacaqlar. Vətən yolunda canını fəda edən vətən övladı əslində ölmür, əksinə, ölümü ilə ölümsüzlük qazanır, şəhidlik adına yüksəlir. Bundan da böyük hünər, bundan da yüksək ucalıq ola bilərmi?! Subay idi.

Yazımızın qəhrəmanı Qurbanov Cahangir 1994-cü il sentyabrın 23-də Goranboy rayonunun Borsunlu kəndində anadan olub. 2012-ci ildə müddətli hərbi xidmətə yollanan şəhidimiz Gədəbəy rayonunun “N” saylı hərbi hissəsində xidmət etmişdir. 2016-ci ildən yenidən Azərbaycan Silahlı Qüvvələrində xidmət etməyə başlamışdır. Xidmətini kəşfiyyatçı olaraq davam etdirmiş, Azərbaycan ordusunun əsgəri olan Cahangir Qurbanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Talış istiqamətində gedən döyüşlərdə savaşmışdır. Talış döyüşləri zamanı düşmənin iki postunun ələ keçirilməsində xidmətləri olmuşdur. Cahangir Qurbanov sentyabrın 27-də Talış döyüşləri zamanı şəhid olub. Sentyabrın 29-da Goranboy Rayon Borsunlu kənd qəbiristanlığının Şəhidlər Xiyabanında dəfn olunub. Allah rəhmət eləsin!

*Zəminə Hüseynova*

## Cavid HÜSEYNOV



Ən yaxşı snayper. Şəhid Cavid. 27 yaşında şəhadət şərbəti içmiş Cavid Hümbət oğlu Hüseynov!

1993-cü ilin 12-ci ayının 12-ci günündə Tovuzun Alakol kəndində doğulub. 2012-ci ilin birinci ayından 2013-cü ilin yeddinci ayınadək həqiqi hərbi xidmət keçib.

Cavid 2014-cü ildə müddətdən artıq hərbi qulluq keçmə ilə bağlı müvafiq qaydada yazılı müraciət edib, müraciəti qəbul olunub. Öz taleyini hərbi xidmətə bağlayan, hərb sənətini sevən və bu sevgisini peşəkarlıq müstəvisində parlaq şəkildə gerçəkləşdirən Cavid çoxsaylı sertifikatlar alıb. Müxtəlif silahlardan sərrast atəş açması ilə seçilib Cavid. Cavid snayper təlimatçısı olub; dəfələrlə "Ən yaxşı snayper" fəxri fərmanı ilə təltif edilib. Snayperçilik, sərrast atıcılıq Caviddə fitri istedad idi. 2019-cu ildə yenidən Belarusda hərbi idman oyunları üzrə snayper yarışında 21 ölkə iştirakçısı arasında komanda hesabında 2-ci, fərdi yarışda 1-ci yeri tutub. Cavid Hüseynov 26 iyun 2018-ci ildə "Azərbaycan Ordusu-100 (1918-2018)" yubiley medalı ilə təltif edilib (Bu medal Azərbaycan Prezidenti adından müdafiə naziri tərəfindən təqdim olunur). "Biz bir ölüb, min dirilərik" – Cavidin sevdiyi, məktublarında qeyd etdiyi kəlamdı…

Cavid qorxmaz, güclü Vətən oğullarından olub. Çox çətin təlimlərdən, məşqlərdən mətanətlə çıxmağı bacarıb Cavid. Təlimlərdə, məşqlərdə tər axıdan hərbçi yoldaşları ilə birgə işğalçılara qan uddura-uddura Qubadlı-Laçın istiqamətindək gedib çıxıb Cavid. Döyüşlərin birində yaralı tabor komandirini təhlükəli zonadan çıxartmaqla, necə deyərlər, adından söz

etdirməyi bacaran Cavid özü sonrakı döyüşlərin birində düşmən mərmisindən ağır yaralınıb; döyüşçülər onu həkimə çatdırmaqçün çalışsa da, həyatını xilas etmək mümkün olmayıb – yolda canını tapşırıb...

Ailəsi ilə sonuncu dəfə Qubadlıda olarkən danışıbmış. "Şəhid olmasam qazi kimi gələcəm" deyirmiş igidimiz...

Mehmet Əmin Yurdaqul necə deyirdi? –

*"Haydı yavrum! Mən səni bu gün üçün doğurdum,*
*Xəmirini igidlik duyğusuyla yoğurdum;*
*Türk övladı odur ki, yurdu olan torpağı*
*Ana namusu bilib yad ayağı basdırmaz;*
*Bu yabançı bayrağı*
*Azan səsi duyulan heç bir yerə asdırmaz.*
*Get, övladım, illərcə mən oğulsuz qalaram.*
*Bu yaralı bağrıma qara daşlar çalaram!*
*Haydı, oğlum, haydı get,*
*Ya qazi ol, ya şəhid!"*
*("Ya qazi ol, ya şəhid").*

27 oktyabrda şəhid olub Cavid; 28 oktyabrda doğma Alakolda torpağa tapşırılıb.

Vətən müharibəsinin qəhrəman şəhidi olan Cavidin atası Hümbət Hüseynov özü I Qarabağ müharibəsinin qazisidir. İki bacının tək qardaşı olan Cavid hələ subay idi.

Haqq dünyasında olanlar haqqında danışanda, yazanda "Ruhu şad olsun!" deyirik, yazırıq; şəhidlərin ölməzliyinə, ruhun əbədiliyinə inandığımız üçün, Cavidin timsalında şəhidlərimizə deyəcək bir sözümüz var:

Sağ əlini başıma çək, şəhidim!

*Qənirə Paşayeva*

## Ceyhun ŞALIYEV



Sizə insanlardan deyil, mövzulardan deyil də, kədərli bir tale, yarımçıq qalan bir ömür, bir həyat hekayəsi danışmaq və anlatmaq istəyirəm. Ölülərdən deyil, ölü sözlərlə heç deyil – Rusiya Federasiyasının Voronej şəhərində yaşayan və beş nəfər ailə üzvündən ibarət olan azərbaycanlı Şalıyevlər ailəsinin ortancıl övladı, 2015-ci il Bakı Dövlət Universitetinin məzunu olmuş hüquqşünas Ceyhunun həyat hekayəsini, onun portretini yaratmaq və yaddaşlarda yaşatmaq üçün ürək yanğısı ilə yazıram. Belə qısa ömrü yazmaqda qələm acizdir. Ancaq... nə isə yazmaq istəyirəm. Bu düşüncələri yazdıran ilk öncə Ananın çəkdiyi ağrının, sarsıntının, qəmin, kədərin böyüklüyü, çoxluğudur. Bir də Ceyhunun həyatında baş verən fırtınanın silləsi məni yazmağa vadar etdi.

Ceyhun Nüsrət oğlu Şalıyev 20 may 1994-cü ildə Gəncə şəhərində anadan olub. Atası Şalıyev Nüsrət Həsən oğlu 1992-93-cü illərdə I Qarabağ müharibəsində gedən ağır döyüşlərdə iştirak edib. Müharibədən sonra bəzi səbəblərdən ailə Rusiya Federasiyasının Voronej şəhərinə gedir. Ceyhun əvvəlcə Voronej şəhər 100 saylı uşaq bağçasına gedib və hələ bağçaya gedən zamandan bütün uşaqlardan fərqlənib və məktəb yaşı çatanda o dərəcədə savadlı, qabiliyyətli, hazırlıqlı, yazıb-oxumağı səlis bacaran olub ki, onu bağçadan 1-ci sinfə deyil də, birbaşa 2-ci sinfə götürüblər. Sonra Ceyhun Voronej şəhər 73 saylı orta məktəbində oxuyub. İlk dərs günü – sentyabrın 1-də, adətən, hər ilin bu günü keçirilən məktəb tədbirində məktəbin direktoru: – Şalıyevin anası kimdir? – deyə soruşub və Anaya

Sizin yeriniz buradır – Keçin başa! – deyib. Hələ 6 yaşında ikən
Ceyhun Anasına qürur, fəxr yaşatmışdı. Onu bütün valideynlərdən fərqləndirmiş, xüsusi hörmət və məhəbbət qazandırmışdı. Həmin gündən Ana oğluyla belə fəxr etməyə başlayıb. Ana sevinmişdi, gözləri yaşarmışdı. Balasını bağrına basmış, gözlərindən, alnından öpdükcə öpmüşdü. Bu diplomlar, fəxri fərmanlar Ceyhunun məktəb illərində müxtəlif şəhərlərdə keçirilən fənn yarışmalarında qazandığı uğur və nailiyyətlərdir. Onun elminin, zəkasının, zəhmətinin bəhrəsidir.

Hələ orta məktəbdə oxuyanda Ceyhun “əlbəyaxa döyüş” idman növüylə də məşğul olurdu. İdmana getdiyi müddətdə həmişə, hər yarışda qələbəylə evə dönürdü. Gördüyünüz bu fəxri fərmanlar və medallar isə Rusiya Federasiyasının müxtəlif şəhərlərində keçirilən idman yarışlarında iştirak etdiyinin göstəriciləri və qol gücüylə qazandığı qələbələridir.

Ceyhun uşaq yaşlarında nağıl, şer yazardı. Onun yazılarını toplamışdıq. Nəşr etdirmək istəyirdik. Ceyhun 7-ci sinifdən Bakı şəhəri 134 saylı məktəbdə oxuyur, sonra (məlum səbəbdən: məktəb təmir olunduğu üçün) isə Baxıxanov qəsəbəsi 94 saylı məktəbə gəlir və orta təhsilini bu məktəbdə bitirir. Ceyhun 16 yaşında ən yüksək balla BDU-nin hüquq fakültəsinə qəbul olundu (2011-2015-ci illər). Çox böyük uğurla, müvəffəqiyyətlə universiteti bitirdi. Ceyhun elə bir tələbə olub ki, bu gün də həmin gün kimi fakültənin professor-müəllim heyətinin, qrup və patok yoldaşlarının yaddaşında qalıb. Təsəvvür edə bilirsinizmi, Ceyhun 5 ildir universiteti bitirib. Fakültə onu necə xatırlayır, onunçün necə qəmlənir, kədərlənir, gözlərindən qan-yaş tökür?! Bir bilsəniz!

Ceyhun Ali məktəbi bitirdikdən sonra Vətənə ər borcunu yerinə yetirmək üçün 2016-cı il iyulunda həqiqi hərbi xidmətə yollanır. Bir ay qarantin müddətində Lənkəran şəhərində xidmətdə olur (yeri gəlmişkən, Ceyhun Hərbi xidmətdə olduğu

zaman əsgər yoldaşları ona "Prokuror" deyə müraciət edərdilər) və sonra Ağdam ərazisində Hərbi xidmət keşir və "Aprel döyüşləri" zamanı 4 gün Ağdam istiqamətində ağır döyüşlərdə iştirak edir. Ceyhun müddəti hərbi xidmətini bitirib sağ-salamat evə dönür. Ceyhun hərbi xidmətdən qayıtdıqdan sonra, əvvəlcə xarici ölkələrin birində magistratura oxumaq fikrinə düşür. Sonra bu fikrindən daşınır.

Elmini, savadını artırmaq üçün daima oxuyub, özəl kurslarda müxtəlif kompüter proqramlar öyrənib bitirir. Hər dəfə bitirdiyi kursların sertifikatlarını alanda çox böyük həvəslə bizlərə göstərirdi. İki dəfə dövlət qulluğunun müsabiqəsindən keçmək üçün imtahan verib və imtahanlardan yüzdə-yüz keçib. İlk zamanlar iş tapmaq onun üçün çətin olur. Bir neçə fərqli yerlərdə – "Kontakthome" şirkətində və ictimaiyyətlə əlaqə cəmiyyətində işləyir. Son iki il idi ki, "Azercell" şirkətində işləyirdi. İşlədiyi təşkilatlarda da hörmət qazanmış, uğurları ona yoldaş olmuşdur. Bu dövrdə valideynləri onu Rusiyaya – Voronej şəhərinə gəlməsini istəmişdilər. Getmədi. Deyirdi ki, mən 2-ci, 3-cü dərəcəli adam olmaq istəmirəm. Mən Vətənimdə – Bakıda qalacağam. Bakı çox xoşuma gəlir. Bakı gözəl şəhərdir, elə burada da işləyəcəyəm. Mən Vətənimə lazımam və bəlkə də, yaxın zamanlarda çox lazım olacağam.Ceyhun hər gün bir dəfə anasıyla S vasitəsilə danışardı. İstirahət günü (həftənin müxtəlif günləri olurdu) isə onlar 4-5 saat söhbət edərdilər. Bu dəfə bazar ertəsi onun istirahət günü idi. Ana S qarşısında çox gözləyir, ancaq oğlu əlaqəyə girmir, görüşləri baş tutmur. Sonra ana qardaşıyla danışır və agah olur ki, O, təlimdədir. Belə xəbər eşidən ana neyləsin, neyləməliydi? Ana deyir ki, pəncərəni açıb dizi üstə yerə çöküb, üzümü O Böyük Allaha tutub yalvarmağa başladım. Allahım, özün şahidsən ki, mən Ceyhunu çox böyük əziyyətlə, ancaq sevə-sevə, əzizləyə-əzizləyə, pifləyə-pifləyə göyərtdim, cücərtdim və bitirdim. Ceyhun hələ qönçəsi açılmayan çiçəkdi. Al-

lahım, balamı Sənə tapşırıram, Balama dəymə, qıyma, qıyma mənim Balama, mənim Ceyhunuma!!!

*Bütün ata-analar*
*Balaya qurban deyər.*
*Öküzdən-qoçdan olan*
*Qurbanı Sənə az bilib*
*Özümü qurban dedim.*

Həmin gün Ana ömrünün ən ağır gününü yaşadı. Bu təkcə ağır gün deyildi, həm də ağrılı gün idi. Düz deyiblər: can ağrısına dözmək olurmuş, ürək ağrısına dözmək olmurmuş. Ana oğluyla – Ceyhunla keçən ilin dekabr ayında görüşmüşdü. Keçən il dekabr ayında Ceyhun məzuniyyət alanda 15 günlük Rusiyaya – Voronej şəhərinə valideynlərinin yanına gedir və orada qalır. Ana deyir ki, O, burada olanda bir gün Ceyhun başını Anasının dizi üstünə qoyur, bir saat sakit-səssiz uzanır, Ana oğlunun başını sinəsinə bərk-bərk sıxıb sığallayır, öpür, Ceyhun isə nə dinir, nə də danışır. Ceyhun anasına deyirmiş ki, anacan (anasına belə müraciət edərdi) mənə bir il möhlət ver, sənə, ailəmizə istədiyiniz həyatı yaşadacağam. Ana, sən istədiyin, dediyin, məsləhət bildiyin üç imkansız, kasıb ailəyə kömək edəcəyəm. Onların insan kimi yaşamasını təmin edəcəyəm. Ən böyük arzusu bu idi. Sən darıxma, Anacan! Qul qurar, qədər pozar – bax buna deyiblər. Ana belə oğul itirib – mərd, əliaçıq, yardımsevər, bir qismət çörəyini bölə biləcək oğul! Ana gözünün nurunu itirdi.

Qürurlu, mətin, cəsur Ceyhun könüllü kimi cəbhəyə yazılmışdı. Bir zəngə Sabunçu rayonu Hərbi Komissarlığna getdi. Bu yolun sonunda ölüm olduğunu bilə-bilə, yenə də getdi. Dayısına, xalasına zəng elədi. Dostlarıyla, qonşularla halallaşıb, sağollaşdı. İlk gündən təlimə getdi. 21-26 sentyabr tarixlərində təlimdə oldu. Yeri gəlmişkən, burada bir haşiyəyə çıxım, əsgərlikdə olduğu kimi, hərbi təlimdə olduğu müddətdə də əsgərlər Ceyhuna “Alim” deyə müraciət edərdilər. Görün,

Ceyhun bir həftə ərzində insanlara – komandir və zabitlərə, əsgərlərə münasibətiylə, davranışıyla, ünsiyyətilə, söhbətlərilə, fikir və məsləhətlərilə necə fərqlənib ki, əsgərlər onu belə dəyərləndiriblər.

Sonralar bunu onunla birlikdə təlimdə olan əsgər yoldaşı danışırdı. Və müharibə başlayan gün – 27 sentyabr tarixində müharibəyə getdi. Üç nəfər əsgər yoldaşıyla video çəkiblər yol gedən zaman. Ceyhunun son sözü bu olub: "Döyüşə gedirik. Vətən müharibəsində (877-ci hərbi hissə, 8-ci bölük)". Füzuli cəbhəsində gedən ağır döyüşlərdə 4 gün vuruşub və fədakarlıq göstərərək həlak oldu. Ceyhun döyüş zamanı düşmən tərəfindən atılan mərmi yarası alan yaralı əsgər yoldaşına köməyə gedən zaman (yaralının köməyinə qaçan ilk O, olub) özü də gicgahından mərmi yarası alıb.

Hələ təlimə çağrılanda belə hər kəsə deyirdi ki, bir anama



deməyin, anam bilməsin, O, narahat olmasın. Hətta iş yerində də tapşırmışdı ki, anası zəng eləsə, ona bildirməsinlər. Sözü: "evdəkilərə deməyin" olmuşdu. Ceyhun həm təlimdə olduğu müddətdə, həm də müharibə zamanı hər gün Gəray dayısıyla (dayısı özü də 1992-2000-ci illərdə müharibə həyatı yaşayıb, Füzulu, Laçın, Qubadlı cəbhələrində olub – Qubadlıda 36 gün mühasirədə qalıb – müharibə veteranıdır. Dayı Ceyhunu özünə arxa bilirdi, Ceyhun da deyirdi ki, mənim arxam dayımdır. Mən ondan öyrənirəm. Hətta oxuduqları kitabları belə bölüşürdülər, biri oxuduğu kitabı o birinə göndərirdi) danışırdı, bir yolla əlaqə saxlayırdı. 30 senryabr tarixində Ceyhunla əlaqə olmadığı üçün dayısı oktyabrın 1-də səhər tezdən onun yanına – cəbhəyə – Füzuliyə yola düşür. Gedib Daşburuna çatanda Bakı şəhəri Sabunçu rayonu Hərbi Komissarlığında ona zəng edib Ceyhunun Şəhid

olması xəbərini verirlər. Dayının vəziyyətini təsəvvür edə bilirsinizmi?! Bu ailə üçün həyat çox acımasız oldu. 2020-ci il bu ailənin alnında, ürəyində, ömründə, taleyində qara hərflərlə yazıldı. Müharibənin qanlı fırçası ailənin ağlına gəlməyən acının rəsmini onlara göstərdi. Müharibə qara bulud kimi Şalıyevlər ailəsinin üstünə çökdü. Qədər Anayla balanı müharibədə ayırdı. Bu müharibədə Ceyhun Haqqın rəhmətinə qovuşdu, həyatına qara nöqtə qoyuldu. Taleyi yarım qaldı. Ceyhun müharibənin rüzgarına qarışdı getdi. Müharibə muradına çatmayan Ceyhunun ömrünü çaldı. Müharibə Ceyhunun qısa və nakam yazılmış həyatını Füzulidə söndürdü. Təzə başlayan, hələ qönçəsi çiçək açmayan həyat yolu burada bitdi. Ceyhun işıqlı dünyaya burada vida etdi, burada yaşadığı həyat yolunun sonuna gəldi. Ceyhun quş oldu uçdu göylərə. Müharibə Ananın ürəyindəki rəngləri qaraltdı. Müharibə Ananın sinəsinə dərin və çalın-çarpaz dağ çəkdi. Müharibə Ananın ürəyinin tellərini qopartdı. Müharibə Ananın əzizini, könlünün sevincini, qaranlıqdakı işığı olan Ceyhununu – övladını qollarının arasından çəkib apardı. Müharibə Ananın canından bir canı söküb aldı, apardı. Aldı çox, çox uzaqlara apardı. Ceyhun Ananın  gözündən gözünün yaşı kimi çıxdı getdi. Arzuları, ümidləri şaxta vurmuş meyvə kimi töküldü, kamına yetmədi. Ananın oğluyla bağlı xəyalları suya düşdü. Ceyhunun getməyilə bir ailənin işığı söndü, ailənin həyatı söndü. Dünya Ananın başına yıxıldı. Ana bircə gecədə qocaldı. 100 yaşındakı insan sinninə düşdü.

Ana qanlar içində boğulur, Ananın qəlbi alışıb yanır, Ana necə yanır, necə yanır: tüstüsü ərşə qalxır. Bu acıya səbəb qürurlu, mətin, cəsur Ceyhun Şalıyevin yoxluğudur. İnsan başına belə bir şey gələndə düşünür: İnsanları belə həyatı yaşamağı necə oldu qazandılar?! Necə oldu, bütün bunlar ailənin başına gəldi?! Necə oldu həyat Sənin üçün, ailən üçün bu qədər dəyişdi və çox sərt və amansız oldu? Niyə belə oldu?! Niyə fələyin çərxi belə qaraya sarı döndü?! Dünya niyə dur-

mur? Dünya niyə qaralarla doludur?! Dünya niyə qaralıb qalıb?! Ana düşünür: Allahım, yoxsa, Sənə Ceyhunum üçün azmı yalvardım, azmı dua etdim?! Ceyhunun Şəhid olmasını (adamın dili də gəlmir belə deməyə) – bu müdhiş, qorxunc xəbəri eşidəndə hər kəs ağladı – yaxınları, qohumları, dostları, orta və ali məktəb müəllimləri, iş yoldaşları, hakim və həkim yoldaşları, məhəllə dostları, qonşular... Ceyhunun vəfatından xəbər tutanlar axışıb başsağlığına gəldilər. Adam qalmadı bu oğlana heyifslənməsin. Ceyhun üçün hər kəs göz yaşı tökdü. Allahım bu necə sitəm, bu necə zülmdür?! Ceyhunun alnına belə qara yazı yazılıbmış. Allahın əlindəki qələm qaraymış. Ceyhunun ömrü qara rənglə boyanmış, rəsmi qara qələmlə çəkilibmiş. Bəxti də qara yazılıbmış. Əli aşa, ağzı çörəyə çatanda, başı daşa çatdı və Əzrayıl aldı apardı. Qaradan artıq rəng olmaz ki!? Qul neyləsin qədərin belə acı və dözülməz verilməsinə? Belə qədəri olmaz olsun, ay Ceyhun! Kimdir günahkar? – Talemi?! Müharibəmi?! Yoxsa Sənə fələkmi qarğadı, ay ağıllı Ceyhun?! Həyat ayrı şeymiş: onun öz qanuunları, öz hökmləri var. Onu da deyiblər ki, Olan qədər, olmayan kədərdi. Ana Ceyhunu təlimə yola sala bilmədiyi kimi, ona Ceyhunu son mənzilə yola salmaq da nəsib olmadı. Od düşdüyü yeri yandırar, deyiblər. Ananın ürəyinə od düşdü.

*Balam deyib hayqıran*
*Analardan olaydım*
*Dizin-dizin sürünüb*
*Səni (cənazəni, nəşini) qarşılayaydım.*

Ceyhun hər kəs kimi deyildi. Ceyhun bir möcüzəydi, Allah tərəfindən göndərilmiş bir möcüzə! Ceyhun yaşından böyük kimi ağıllıydı. Ceyhun nadir tapıntıydı: həm ailəsi üçün, həm də hər kəs üçün. O, qeyri-adi övlad – insan idi. Ceyhunu anlatmağa kəlmələr belə yetmir. Allah onu tam yaratmışdı. Allah ona hər şey vermişdi: ağıl, təmiz vicdan, mədəniyyət, ədəb-ərkan, abır-həya, bilik. Ceyhun yüksək intellektə malik idi. Güclü məntiq sahibi idi. Çox savadlıydı, elmliydi,

zəkalıydı Ceyhun. Ürəyi sevgiylə, məhəbbətlə doluydu. Çox mehriban və səmimi idi. Ceyhun mərhəmətli və anlayışlı idi. Böyük-kiçik yeri bilən idi. Hər sözünə, hər hərəkətinə diqqət yetirirdi. Yüksək dinləmə mədəniyyətinə malik idi. Müsahibini çox böyük səbrlə, təmkinlə sona qədər dinləyərdi və sonda öz fikrini deyərdi. Tanıdığı hər kəs onu çox sevirdi. Hamı onun xətrini istəyirdi. Hər kəsin ona xüsusi hörməti və məhəbbəti vardı. Ona hörmət eləməmək olmurdu. Ceyhun həmişə seçilib və sevilib. Ceyhun şəxsiyyət idi. Ceyhunun başının, elminin dəyəri yoxuydu. Ceyhun üç dildə – azərbaycan, rus və ingilis dillərində mükkəməl danışırdı, alman dilini kafi bilirdi, ərəb əlifbasını öyrənmişdi, təzə-təzə yazıb-oxuyurdu ərəbcə. Dili zəngin və axıcı idi, təmiz idi. At çapmağı da məharətlə bacarırdı. Ceyhun yaşamaq həvəsiylə çırpınırdı. Həyatda hər şeyi: hörməti, məhəbbəti, işi, pulu – dişiylə-dırnağıyla özü təkbaşına qazanmışdı. Ceyhun başdan-ayağa qanun idi, ancaq qanun onu qoruya bilmədi. Ceyhun yağışdan sonra çıxan Günəş kimi soyuq ürəkləri isidirdi, daş asılan ürəkləri yumşaldırdı. Ceyhun müqəddəs, möhkəm olan, sarsılmaz dostluğun ən bariz nümunəsi idi. Ceyhun əsil dost idi. Ceyhunun tərifi yoxdur. “Gör analar necə oğullar doğublar” – deyimi məhz Ceyhun üçün deyilibmiş. Ceyhun, Analar Səni kimi oğulları tək-tək doğar. Səndən bir də dünyaya gələrmi? – onu bilmirəm. Niyə gizlədək, ürəyimiz fərəh hissilə dolurdu, sevinirdik ki, Sən bizimsən, bizim Ceyhunsan! Ancaq bunları heç vaxt dilə gətirməmişik. Ceyhunum, sən ailəmizin baş biləni idin. Sən ailəmizin məsləhət yeri idin. Sən ailəmizin ümid çırağıydın, ailəmizin məşəliydin. Sən ailəmizin qüruruydun. Sən ailəmiz üçün hər kəs, hər şey idin, Ceyhunum mənim! Sən Ananın çəkdiyi zəhmətin, əməyin bəhrəsiydin, ay ağıllı Ceyhunnm! Sən mənim vuran ürəyim, gələn nəfəsimiz, danışan dilim, ağzımın şirin tikəsi, baldan da şirin sözümüz, gülən, güldürən üzümüydün; Səninlə birlikdə gülürdüm, Səninlə birlikdə də ağlayırdım. Xoş, xoşbəxt günlərimizin adı,

Ceyhunum! Ceyhunum, Sən düşünən beynimiz, ağlımız, görən gözümüz, yanan işığımız, evimizin çırağı, evimizin dirəyi, səsimiz, Bal balam idi. Şah balam, Şahbaz balam, Everest zirvəm mənim, dağlardan uca dağ balam, dağım mənim; balaların başı, xalıların naxışı, çiçəklərin qoxusu, güllərin ətriydi Ceyhunum! Adınnan çox olan, özündən olmayan Ceyhunum! Üzdə, göz qabağında olmağı sevməyən, xoşlamayan, indi adı, şəkli dünyaynan bir olan Ceyhunum mənim! Ceyhunum, gözümün nuru, işığıydın, qara giləsiydi mənim, indi gözümün yaşısan, ay Ceyhunum! Sevincim, şadlığımıydın, indi qəmim-kədərimsən ay Ceyhunum! Ceyhunum ürəyimə dərman idin, indi yara oldu. Sən Ananın əskiklərini dolduracaqdın, ay ağıllı Ceyhunnm! Ana deyir ki, Ceyhunum mənim rəngli dünyamıydı. Ona olan məhəbbətim, sevgim gizli, sirli bir dünyaydı. Ay Ceyhunum, yaşadığın müddətdə Sən mənim dilimdə şirin nağılıydın, hekayəydin, Ananın məhəbbət şeiriydin. İndi dilimdə bayatıya, ağıya çevrilmisən, ay ağıllı Ceyhunnm! Mən Səni tərif edə bilmirəm, Səni sözlə deyə bilmirəm, Ceyhunum! Ceyhunum, Sən dünyanın ən gözəl rəsmiydin! Bir rəssama desəm Ceyhunumun rəsmini çək, çəkə bilməz. Şairə desəm Ceyhunumu vəsf elə, vəsf edə bilməz. O, elə bir meyvəydi ki, onun rəngini də, dadını da, ətrini də tək mən bilirəm. O, meyvənin dadını yalnız mən dadmışam, rəngini yalnız mən görmüşəm. Onun ətrini yalnız və yalnız mən qoxlamışam, mənim burnumdadır o ətir, o qoxu, ondan yoxdur, ondan bir də olmaz! O meyvənin adı Ceyhundur! Ceyhunum yaşayan və yaradan, yaşadığı həyatın hər dəqiqəsini xatırladan bir əsər idi. Bu əsəri oxuduqca, varaqladıqca dərd, kədər, qəm-qüssə, göz yaşları həmdəmim olur. İndi uzun gecələr də dərd ortağım oldu. Dağ boyda dərdimlə baş-başa qalmışam. Mən sənin gözünlə dünyaya baxırdım. Məni bu dünyaya bağlayan, məni bu dünyada yaşadan Sən idin, Ceyhunum! İndi Sənsiz bu dünyada necə yaşayaram?! İndi gözümdə dünyalar söndü, qaraldı. Qulaqlarım

heç nə eşitmir, hansı tərəfə çevrilirəmsə, hara baxıramsa, hansı sözü eşidirəmsə, nəyə əl vururamsa – hər yan xatirədir – CEYHUN xatirəsi. Həyatda, evimizdə, ətrafda hər şey Səndən danışır, Səni anır, Səni xatırladır. Bu xatirələrin, xalı olub divardan asılan, bəzəkli, toxunulmaz, bahalı və dəyərli qablar əvəzinə şkafa düzülən şəkillərdən baxışın Səni əvəz eləmir, ay ağıllı Ceyhun! Mənə xatirələrdən də heç imdad olmur. Hər yerdə, hər kəsdə Ceyhunumu axtarıram. Gözlərim Ceyhunum gedən yola baxır. Ceyhunumun nəfəsini duymaq, səsini eşitmək, gizli sözü olan zaman göz vurduğu işarəni, Anacan sözünü eşitmək istəyir.

Ana Ceyhunsuzluğun içində yox olur. Ana içindəki səsi, acını, dərdi susdura – dindirə bilmir! Bu dərdin adı yoxdur. Ceyhun dərdi çox ağır dərddir. Bu dərdin rəngi çox qaradır, dadı da çox, lap çox acıdır. Bu dərd başqa dərdlərə bənzəməz. Oğul dərdi çəkən Ananın bağrı qana dönübdür. Ana bu dərdlə necə yaşayacaq?! Bu əbədi ayrılıq, həsrət kədəri Ana qəlbini qanadır, Ananın odlu kiprikləri arasında damla-damla yuvarlanan göz yaşları qəlbinin içinə axır. Ananın ürəyi göyüm-göyüm göynəyir, sızım-sızım sızıldayır, qorğa kimi qovrulur, ciyəri parçalanır, yanır, sinəsi acıyır. Ananın ürəyi qan ağlayır. Ananın səsi-ünü Allaha çatır. Ananın acısı çox acıdır. Ana danışır, danışdıqca Ananın ürəyi yanır, gözündən yaş sel kimi axır. Acıların, ağrıların ən acısını dadan Ananın qəlbinin ağlamadığı, gözündən yaş axıtmadığı gün yoxdur. Ananın dərdi ürəyindən gözünə qan olub axır. Ana dirigözlü yanır. Ana yanır, yandıqca da daha çox ağlayır. Ana ağlar qaldı. Nə deyim, nə söyləyim, nə söz verim ki, sən ağlama! Ana, ağlama, Sən ağlarsan bütün aləm ağlar, Sən ağlarsan, insanlıq ağlar. Sən ağlama! Allahım, bütün bunlara Ana necə sinə gərsin, necə dözsün?! Ana bu yaranı necə sağaldacağınl bilmir. Bu yaranın çarəsi varmı?! Allahım, Sən özün bu Anaya yol göstər! Ey insanlar, bu Ananın dərdinə, acısına məlhəm kim və nə ola bilər, deyə bilərsinizmi?! Yaxşıları öldürən dünya, sən yaman-

larınsanmış! Ceyhun cəmi 26 yaş yaşadı, sonra da göylərə uçdu, ulduz kimi söndü. 26 yaşında ölümə "xoş gəldin!" dedi, Ceyhun. Ana göz yaşlarını sıxır və deyir ki, Allah Səni mənə əmanət veribmiş, bala! Mən O, əmanəti qoruya bilmədim. İndi Mən Ceyhunumu Allaha əmanət edirəm! Ana deyir ki, Ceyhun mənim muradımıydı. Ana, Allah sənin muradını – Ceyhununu səndən daha çox sevirmiş. Ona görə də mərhəməti olmayan bu dünyadan qoparıb apardı yanına. Allah onu ailəsindən – anasından çox tez aldı. Ölüm Anayla-balanı ayırdı. Nə Ana balasından doydu, nə də Bala anasından! Ay Ceyhunum, indi biz Səninlə olduq illər ayrısı. Aydındır ki, hər bir həyatın əvvəli olduğu kimi, bir sonu da vardır. Bir gün doğulan, bir gün də gedəcək. Ancaq bu gediş, bu son çox tez oldu. Allahım, bu həyatı Sən bəxş etmişdin, Sən də aldın. Bəs, onda bu tez açılıb, tez də solan həyatın adını necə, nə qoymaq olar?! Bəlkə belə şərəfli, dolu, mənalı ömür yaşamaq üçün heç ömrün uzunluğu şərt deyilmiş?! Bəlkə Ceyhun yaşadığı illərin içində hər şeyi yaşayıb?! Ceyhun talelərə bənzəməyən tale yaşayıb. O, yaşadığı müddətdə də həmişə, hər daima yüksəklərdə olub, indi də daha yüksəyə ucaldı. O, tək özü deyil, ailəsinə də həmişə belə ucalığı yaşadıb. Ceyhun uşaq və yeniyetmə vaxtlarında – məktəb illərində həmişə şəkli şərəf lövhəsində olub. İndi də şəkli ən şərəfli güşələrdə qürurla boylanır, səsi ən uca yerdən gəlir. O, elə həmin o yüksəklikdən, ucalıqdan da bizə baxır. Səmadan bizləri seyr edir. Ceyhun zamanın, dövrün fövqünə yüksəldi. Seçmiş olduğu bu yolda Şəhidliyi, ölümsüzlüyü qazandı! Ceyhun Şəhidlik zirvəsinə yüksəldi. Şəhidlik ən yüksək – son rütbədir. Ondan o yana yüksəklik yoxdur.

Həyatda yollar çoxdur: məktəb yolu, iş yolu, şəhər yolu, kənd yolu, bir də həyatda heç bir yola bənzəməyən, çox uzun və ağır olan, qarşılarında sükutla baş əydiyimiz məzarlıq yolu. İndi Ana daha bir yol tanıdı – Şəhidlər Xiyabanı yolu. Bu yol Ceyhuna gedir. Burada oğlu Şəhidlik şəhadətinə yüksələn

Ceyhun uyuyur. Ana ev-eşiyi səliqə-səhmana salmaq, biş-düşlə məşğul olmaq, bazara-dükana getmək, həyətdə qonşularla söhbət etmək və bir maraqlı bədii kitan oxumaq əvəzinə bir yol tanıyır və bu yolu alır, bu yola üz tutur, Ceyhununu ziyarətə gedir. Bu məzarlıqda Ana oğlunun məzarı üstündə Ceyhunun buz kimi soyuq olan baş daşını qucaqlayır. Ceyhunun şəklinə baxmağı, şəkli ilə danışmağı sevməyən, istəməyən, barışmayan Ana indi bir soyuq, qara daşa sığınıb, daşla danışır. Ananın yanan yaralı ürəyi dilə gəlib, bayatı çağırır.

*Özünü oda atan*
*Ailədən gizlin gedən*
*Qanını daşlara tökən*
*Qürurum, Ceyhun balam!*
*Aprel döyüşlərində*
*Şücaətlə döyüşən*
*Düşmənə sinə gərən*
*İgidim, Ceyhun balam!*
*Müharibə sözünü*
*Tarixdən əzbər bilən*
*Vətənə qurban gedən*
*Şəhidim, Ceyhun balam!*
*Vətən deyib qışqıran*
*Bayrağı göyə qaldıran*
*Qanıyla tarix yazan*
*Qeyrətli Ceyhun balam!*
*Başımın tacı olan*
*Ürəyimin sevgisi olan*
*Fəxrim, fərmanım olan*
*Şərəfim Ceyhun balam!*
*Adından çox olan*
*Özündən (başından) tək olan*
*Hər bir yerdə seçilən*
*Qürurlu Ceyhun balam!*

Ay bala, deyib Ana balasını – Ceyhununu səsləyir: hardasan bala, hardasan? İgidim, qəhrəmanım, həmdəmim, sirdaşım, sözüm-söhbətim, atam-anam, qardaşım-bacım, dostum hardasan?! ... ay bundan əvvəl hardaydın, indi hardasan, ay Ceyhun, İndi Ceyhun torpağın altında Anasız qalıb, Ana torpağın üstündə Ceyhunsuz qalıb. Ceyhun torpağın altında yatır, Ana torpağın üstündə dil deyir: Bala, Sənsiz mən qala bilmirəm, Sənsiz mən nəfəs ala bilmirəm, Sənsiz mən yaşaya bilmirəm. Sənsiz mənə həyat olmaz! Məni belə zülmdə buraxma, ay Ceyhunum, mənim Sənə ehtiyacım var!! Mən də Sənin kimi qaranlıqda qalmışam. Yaman qaranlıqda çarəsiz, naçar, əli qoynunda qalmışam. Gəl, bala, məni bu qaranlıqdan çıxart! Məni də apar yanına, məni də apar getdiyin yerə. Ana gələnə, gedənə yalvarır, deyir ki, mənə Ceyhunun məzarının ayaq ucunda yer versinlər, mən buradaca yatım, qalım. Bir həqiqət də var: burada – Ceyhunun məzarı yanında Ana bir az rahatlayır. Ceyhunun məzarı başında Ana ağlayır, sızlayır, danışır, soruşur, ürəyini boşaldır. Ana Ceyhunlu günlərini elə gözəl xatirələrlə anır, xatırlayır, Sənli günlərinə dönmək istəyir və ürəyində günlərə qayıdır. Ancaq o itən günlər, ötən günlər, deyəsən çox uzaqlarda qaldı. Sənli olan ötən günlərin ən adisi belə geri dönməz, qayıtmaz, yaşanmaz. Ceyhun eşidir, duyur, ancaq Ana onunla dualoq qura bilmir. Ana burada hər gün ölür, dirilir.

Mən Ceyhunsuz yanıram. Ürəyim cız eləyir, heç kim eşitmir. Siz mənim necə yandığımı hardan biləcəksiniz?! Siz mənim nələr çəkdiyimi hardan biləcəksiniz?! Heç bilə də bilməzsiniz! Ancaq... Ananın qəhər boğazında düyünlənir, qəhər onu boğur. Ceyhunum, evim yıxılıb, altında qalmışam. Sən məni ən yüksək zirvədən lap dərənin dibinə saldın, belimi qırdın. Bir də ayağa qalxa bilərəmmi, bilmirəm, belimi düzəldə bilərəmmi, bilmirəm, bir normal insan kimi həyat yaşaya bilərəmmi, onu da bilmirəm, bilmirəm! Sənsiz mənə həyat olmaz, bir onu bilirəm. Bir Səninlə göz-gözə, üz-üzə oturub danış-

dığımız günləri istəyirəm, o günlərin həsrətindəyəm. Səni orda yox, dizimin dibində, gözümün önündə istəyirəm, Ceyhunum! Yanımda olmağını, əlindən tutmaq, başını sığallamaq, boynunu qucaqlamaq, dilindən qopan “Anacan” sözünü eşitmək istəyirəm. Səndən başqa heç nə istəmirəm. Allahım, çoxmu şey istəyirəm? Mən təkcə Ceyhunumu istəyirəm. Övlad acısıyla yamaq – oddan-atəşdən köynək geyinmək deməkdir. Mən Ceyhunumsuz yaşamaq istəmirəm. Ceyhunum, Mən Səni qaytara bilmirəm, barı Sən Məni yanına apar, oğlum! Bir Səni düşünürəm, Səni dinləmək istəyirən, Ceyhunum! Bütün bunların həsrətini çəkirəm. Ceyhunum, məni buraxıb getmək nə deməkdir?!, anlamıram. Kaş belə olmayaydı... Kaş Sən başqa dünyada yaşayaydın... Kaş bu qədər fərqli insan olmayaydın... Kaş bu yola baş vurmayaydın, Ceyhunum! Kaş..., kaş...

Torpağa əkilən hər toxum cücərir, bitir, böyüyür, həyata qayıdır. Min illərdir torpağa İNSAN əkilir, ancaq hələ biri də dönüb gəlməyib. Ceyhun da gəlməz oldu. Yox, ölüm yalandır. Sən ölə bilməzsən! Sən bu işıqlı dünyadan ayrılıb getməzsən! Anlamıram: Necə olar ki, Sən olmaz olarsan! Necə olar ki, Sənin nəfəsin gəlməz, səsin eşidilməz, telefonun çalmaz, qapını açıb içəri girməzsən, ay ağıllı Ceyhunum! Sən dünyaya artıqlıqmı elədin: hava çatmadımı Sənə, su yetmədimi Sənə?! Çörəyin – nemətinmi qurtardı, qismətinmi kəsildi, vaxtınmı çatdı, niyə?! Bu dünyanın insanı olmaqdanmı yoruldun, bezdin, torpağın altına getdin?! Böyümək istəmədinmi: Elə bu yaşda qalmaq Sənə yetdimi?! İncidinmi, küsdünmü bu dünyadan?! Darıxdınmı, bu dünyada?! Yoxsa Mən Sənin çiyninə ağır yük qoydum?! Sənə demişdim ki, mən öləndə məni təmtəraqlı dəfn edərsiniz. Ceyhunum, bax ha, Arzu Səndən böyükdür, yerinizi bilin, O, mənim tabutumun sağ tərəfimdə durar, Sənsə sol tərəfimdə. Sən bundan qorxdun, Ceyhunum? Axı Sən qorxaq deyildin, niyə bəs Məni qoyub getdin? Yaşamalı, gözəl ömür sürməli dövranı qoyub hara getdin?! Hələ Sənin yaşayacağın çox şey vardı, Ceyhunum! Xoşbəxtliyə ge-

dən yolun içində bədbəxt oldun, yolun qaranlıqmı oldu?! Niyə??? Sən niyə getdin, ay Ceyhun?! Sənin qabağına çıxan, yolunu kəsən, bu yoldan döndərən kimsə olmadımı?! Ailə qurmaq niyyətin də ürəyində qaldı. Gözün gözəllərdə, gözəlin Səni gözləyə-gözləyə evdə qaldı, ay Ceyhun! Sən bir gözələ yar olmadın. İndi torpağamı yar oldun, ay Ceyhun?! Getdin, evimiz, bu otaqlar Sənsiz qalıb, iş yerində masan boş qalıb, ay ağıllı Ceyhunum! Maşının sürücüsüz qaldı; telefon nömrən unudulub, ay Ceyhunum! Ruçkaların səndən küsüb, kitabların ağzıüstə qalıblar. Onları açıb vərəqləyən Ceyhunu gözləyirlər. Ceyhunum, həyatın şirinini, duzunu dadmadan getdin. Bu mərhəməti, ürəyi olmayan etibarsız, yalan dünyadan baş götürüb getdin. Arxana baxmadan, düşünmədən getdin. Heç özünüdəmi düşünmədin, getdin?! Selin burulğanınamı düşdün, fırtınayamı düşdün, bilmirəm, getdin. Sənin getməyin çox zamansız oldu. Ay Ceyhun, ailəni, Ananı, həyatı, insanları, əzizlərini, doğmalarını, sevdiklərini, Səni sevənləri tərk edib getmək, əbədiyyətə qovuşmaq beləmi asanmış?! Sən Ananı, ailəmizi yaşatmaq istəyirdin. Bəs nə oldu? Sən necə qıydın Anana, belə ağır dərdi yüklədin onun ürəyinə?! Ananın ürəyi tab gətirəcəkmi bu acıdan acı olan acıya, bu dərdə?! Niyə fikrindən, istəyindən, sözündən, verdiyin vədəndən döndün?! Heç düşünmədinmi Ananı, Sənsiz necə yaşayar?! Ananın hər şeyini Sən özünlə apardın, ay ağıllı Ceyhunum! Ananın ürəyində qanla dolu dərin və sağalmaz bir deşik (dəlik) açdın. Səndən sonra Anan bu dünyanın ədalətsizliyinə, vəfasızlığına necə dözər?! Sən gedəndən sonra Ananın dünyaya baxan gözləri qaraldı. Səninlə birlikdə dünyanın ən gözəl şəkli, rəsmi də getdi; insanlığın ən lətif, həzin, məlahətli səsi də getdi. Ölümə getdin, Səndən sonraya qalan ailənin sevincini, nəşəsini, xoşbəxtliyini əlindən aldın, özünlə apardın. Sən getdin, gedişinlə ailəyə acı günlər bəxş etdin. Allah dərd verəndə dərman da verir, deyirlər. Bu dərdin dərmanı varmı? Ana necə dözsün bu dərdinə çarə olmayan dərdə?! Bu acı heç keçərmi,

heç xəfifləyərmi?! Bu dəhşətli bir ağrıdır, dərddir, asılıb Ananın ürəyinin başından, heç bir zaman da keçib getməyəcək. Sənin dərdin qor kimi Ananın ürəyinə çökdü. Ananın ürəyində, ruhunda, ağlında və bədənində elə dərin yara açdın ki, bu yara heç sağalmaz. Bu dərdin, bəlanın adı olmaz, heç yoxdur da! Bu dərdin dərmanı Ceyhundur. Bu yara əsla sağalmayacaq! Allahım, açılan yaranın sağalması mümkündürmü?! Ceyhun gələrsə... Ceyhun, bu dünyadan belə erkən getməyin nə zamanı, nə də vaxtı deyildi. Sənin başqa yerə, başqa yurda, başqa dünyaya getməyinə lüzum yoxuydu, ay ağıllı Ceyhunum, Sənin yerin mənim ürəyim! Ay ağıllı Ceyhunum, deyirsənmi, Məni gözləməyin. Mən bir də gəlmərəm! Mən sonu gəlməz, sonu olmaz, dönüşü olmayan, sonu qaranlıq olan bir yola çıxmışam. Mən əcdadlarımızın torpaqdan gəldiyi yerə – torpağa dönüb özümə pəncərəsi-qapısı olmayan, günəş düşməyən, işığı yanmayan ev tikmişəm. Bu ev sizinçün əlçatmazdır. Anacan, kimin yaşayacağına, kimin öləcəyinə biz qərar verə bilmirik. Bizim elə bir gücümüz yoxdur. Buna Allah qərar verir. Anacan, bilirəm, içində qanayan yara açdım. Bilirəm, mən dalımca ağlayan bir cüt göz – bir gözüyaşlı Ana buraxdım, yolun sonuna gəldim. Anacan, bilirəm, Mənim üçün də, Sizə olan sevgim üçün də darıxacaqsan. Anacan darıxanda, Məni torpaqdan, daşdan, küləkdən, yağışdan-qardan soruş! Anacan, ömrünə, qəlbinə yaz məni! Anacan, Sənə verdiyim sözləri tuta bilmədim, Məni bağışla! Məni bağışla, Anacan! Mənə haqq verməsən də, haqqını halal eylə, Anacan!

Qırx qara gün gəlib keçdi. Getdi qohum-əqrəbalar, getdi dostlar-tanışlar, getdi qonşular. Ceyhun məclisi bitdi. Anan kədəriylə, dərdiylə baş-başa qaldı. Ananın Sənli günləri Sənsiz qaldı, ay ağıllı Ceyhunum! Bir həqiqət də var, onu Sən də bilirsən: Sənsiz olan həyat öz axarıynan davam edir, ay Ceyhunum! Yaz gəlib, yasəmən, bənövşə, nərgizgülü açıb. Bu yaz çağından da Sənin xəbərin yoxdur. Hər səhər günəş doğur, səsli-küylü həyat canlanır. Hər kəs öz işinə gedir, öz işiylə

məşğul olur. Bir Sən görünmürsən, Sən o qaranlıq olan əbədi mənzilində yatmısan. Sən yoxsan bu həyatda. Sən ağıllısan, ay Ceyhunum! Dünyanı da az-çox başa düşürdün. Heç bildinmi, bu lənətə gəlmiş müharibə nələr elədi?: top dağıtmayan xanimanları uçurtdu, yerlə yeksan elədi. Şəhərlər, kəndlər dağıldı, viran qaldı. Ər oğlanlarımız geri dönməz oldular. Ailələr başsız qaldı. Analar oğlunu, gəlinlər baş yoldaşını, gözəllər sevgililərini, körpə uşaqlar atasını itirdi. Nələr, nələr oldu... Hə, yeni yollar salacağıq, şəhərləri də, evləri də tikəcəyik, düzəldəcəyik, quracağıq, yenidən yaradacağıq. Yenidən oralarda həyat canlanacaq, həyat öz əvvəliki günlərinə geri dönəcək. Ancaq və ancaq iki şeyi eləmək mümükün olmayacaq: bir ölənləri – Şəhidlərimizi öz əzizlərinə geri qaytara bilməyəcəyik, bir də dərdinə dərman olmayan ürəklərə vurulan yaraları, sinələrə çəkilən çalın-çarpaz dağları sağalda bilməyəcəyik. İllər, çox uzun illər keçəcək, amma sinələrin göynərtisi keçməyəcək, oğlu ölmüş anaların göz yaşı qurumayacaq. Göz yaşları quruyub tükənsə də, o gözlər elə hey ağlayacaq, elə hey hər yerdə, hər kəsin üzündə, hər kəsin səsində bala axtaracaq. Ananın bu müharibədə qazandığı dərd, yara nə köhnəlməz, nə qaysaq bağlamaz, nə də sağalmaz. Ceyhunum, Ananı elə yaraladın ki, bu yara heç bağlanmaz. Ana, bu torpaq, bu müharibə səndən alacağını aldı. Deyirlər ki, hər dərd, acı zamanla azalır, yaşa gör! Ancaq necə düşünürsən? Sənin dərdin Anan üçün azalacaqmı, əsla! Ananın ürəyindəki bu alova necəsə, nəyləsə su tökmək olarsa da, közü oradaca közərə-közərə qalacaq. Bu dərd Ananla birlikdə məzara qədər gedəcək. Allahdan bir ricamız var: o qədər istərdik ki, ölümdən dönənlərdən biri də Sən olaydın, ay Ceyhunum!!! Adam inanmır ki, Sən yoxsan, ay ağıllı Ceyhunum! Sənsiz həyat sönüb, ay ağıllı Ceyhuum! Sənsiz həyat olmaz! Səni Anançün kim əvəz edəcək? Varmı belə birisi, beləsi?! Sənin yerini dolduran olmaz, ay ağıllı Ceyhunum! Həyatda insanlar hər şeyə alışır deyirlər, hətta ölümə belə. Bu doğru deyil: Analar övladlarının

ölümünü qəbul etmirlər və onların yoxluğuna inanmırlar. Sənin ölümünlə barışmaq olmur. Ölümünlə barışmaq heç olarmı, ay ağıllı Ceyhunum?! Bir də, deyirlər ölənlə ölmək olmur, ancaq yalan deyil, Sənsiz yaşamaq da asan olmayacaq və olmur, ay Ceyhunum! Necə?! Sənsiz günlərimizə əlvidamı dedik? Əsla, Əlvida demirəm Sənə, biz görüşəcəyik! Sultan Süleymana qalmayan bu dünya kimsəyə qalmayacaq, hamı Sənin yanına gələcək, ay Ceyhunum! Onda Sən də Ananı anlayacaqsan. Səbrlə gözlə bizi! Ancaq, inan, kimsə bilməyəcək və kimsələr görməyəcək Səni! Anan Səni yaşadacaq: yazdığı şeirlərində, ağlında, fikrində, yaralı ürəyində, qəlbində, sənin sevginlə dolu olan könlündə, gözlərində – gözlərində saxlayacaq, Səni tam anlatmaq üçün dediyi sözlərində yaşayacaqsan; oyanacaqsan, duyacaqsan, parıldayan günəş kimi parıldayacaqsan; baxacaqsan, görəcəksən: gələn günlər bənzəmir keçən günlərə; bir övlada olan Ana məhəbbətini anlamaq, hiss etmək üçün yaşayacaqsan! Ananın Səni görməyə, duymağa, eşitməyə, sevməyə ehtiyacı var, ay ağıllı Ceyhunum! Anan Səni yaşadacaq və bir gün gözlərini qapayıb Sənin yanına gələcək. Səni gözləməkdən, halına ağlamaqdan bezib usanmayacağam, yorulmayacağam, ay ağıllı Ceyhunum! Hər gün Sənə şeirlər yazıram və göz yaşlarım sənə şeirlər yazdığım, ürəyimi açdığım ağ kağızın üstünə düşür. Ancaq onu da deyim ki, gedən bilməz qalanlar necə dərd çəkir! Ölüm – ölüb gedənlər üçün deyil, sağ qalanlar, yaşayanlar üçündür, onlar üçün bədbəxtlikdir. Bax, Sən məni bədbəxt elədin, yazıq elədin! Kiminsə əzizinin həyatdan getməsi elə də böyük itki deyil, əsil itki, acı itki yaşayarkən ürəyimizdə ölənlərdir. Müdriklərimiz də belə deyib: hamı öləcək – kimilər torpaqda, kimilərsə ürəklərdə yaşayacaq. Ömrü boyunca biz bir də Səni görməyəcəyik. İllər keçəcək Ceyhun taleyi heç vaxt unudulmayacaq – nə ailəsi tərəfindən, nə qohumları, nə dostları, nə də onu tanıyanları tərəfindən. Biz hər gün Səninlə danışacağıq, ağıllı Ceyhunum! Sən həmişə bizim qəlbimizdə, ürəyimizin

özəl bir guşəsində yaşayacaqsan, Ceyhunum! Sən bizim könlümüzün yaddaşında yaşayacaqsan! Ceyhunum, vədəsiz köç eylədin, ancaq əfsanəyə dönən ömrün bu gün ruhən bu həyatda bizimlə yaşayır və yaşayacaqdır. Sən varsan və daima var olacaqsan, ay ağıllı Ceyhunum! Analar televizor və ya kompüter qarşısında oturub övladlarının nişan-toy məclislərinin çəkilişlərinə sevinclə baxır, fərəhlənirlər. Allaha şükr edirlər ki, övlad toyu onlara qismət olub. Valideyin borclarını qismən də olsa, yerinə yetiriblər, arzularına çatıblar. Mən isə Ceyhunumun dəfn mərasiminə, tabutuna ağlaya-ağlaya, yana-yana baxıram. Sənin video və şəkillərinə baxır, ağlayıram. Anana belə şirin qayğıları yaşamaq nəsib olmadı, bu arzularım gözümdə qaldı, yarım qaldı, yorulub yolda qaldı, suya düşdü. Bu kadrlara baxanda Mənə elə gəlir ki, Ceyhunum mənə canlı-canlı baxır, danışır və dinləyir. Anan Sənin üçün yaman çox darıxıb, ay ağıllı Ceyhunum! Anan Ceyhunlu dünyasının həsrətindədir. O, şirin balamın həsrətindəyəm.




Həyatda hər şeyin dəyişməsi an məsələsidir. Həyat budur: bir baxanda görürsən ki, hər şey bircə anda sona çatır, olmaz olur, yox olur; bir də baxıb görürsən ki, hər şey yenidən canlanır. Allahım, belə bir möcüzə ola bilərmi, hər şey tərsinə ola bilərmi, bu yaşadığımız gerçəklər yalan ola bilərmi?! İnsan elə bir varlıqdır ki, hər şeydən vaz keçər, bir ümid etməkdən vaz keçməz, ümid etməkdən yorulnaz, qalmaz, əlini üzməz.

Ceyhun Azərbaycan Respublikası Prezidentinin sərəncamı (15 dekabr 2020-ci il)  ilə "Vətən uğrunda" və "Füzulinin azad olunması uğrunda" medalları ilə təltif olunub (ölümündən sonra).

*Rəna Məmmədova,*
*Şəhidin xalası*

## Cəbrayıl DÖVLƏTZADƏ



Cəbrayıl Dövlət oğlu Dövlətzadə (11 sentyabr 2001, Corat, Sumqayıt - 29 sentyabr 2020, Cəbrayıl rayonu) - Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi. Cəbrayıl Dövlət oğlu Dövlətzadə 11 sentyabr 2001-ci il tarixində Sumqayıtda anadan olmuşdur. O, əslən Zəngilan rayonundan idi. Subay idi. Hərbi qulluqçusu olan Cəbrayıl Dövlətzadə bir ildən bir qədər çox idi ki, Cəlilabad rayonunda hərbi xidmət keçmişdir. O, 27 sentyabr 2020-ci il tarixində Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı könüllü formada ordu sıralarına qoşulmuş, Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşmışdır. O, 10-a yaxın erməni hərbçisi ilə təkbaşına əlbəyaxa döyüşə girmişdir. Dövlətzadə bir polkovnik və generalı əlləri ilə boğaraq öldürərək general-mayor Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin qisasını alaraq sentyabrın 28-də şəhid olmuşdur. O, şəhid olarkən 19 yaşında idi. Cəbrayıl Dövlətzadə İkinci Fəxri Xiyabanda, general Polad Həşimovun məzarının yanında dəfn olunmuşdur. Hücuma keçən onlarla zabitin arasında tək əsgər olaraq gedib erməni general və polkovnikini əlbəyaxa döyüşdə boğaraq öldürən, general Polad Həşimovun qisasını almağa and içib bunu bacaran, prezidentin tapşırığı ilə general Həşimovun yanında dəfn olunan şəhid Cəbrayıl Dövlətzadəni hörmətlə anırıq.

*Erməni generalını boğaraq öldürən cəsur ƏSGƏR*

Qarabağ savaşı tarixinə general Polad Həşimovun qisasını alan qəhrəman kimi düşdü. Bu ikisini çox sevdi, bir anasını, bir də Vətənini. İkisini də canı bahasına qorudu. Birincisi üçün təhsilini, karyerasını, ikincisi üçün bütün həyatını, ömrünü qurban etdi. Ona fəxrlə "oğul" desinlər deyə, bir anası, bir də Vətən.

İkinci Fəxri Xiyaban... Bu aralar qapısında hər gün qələbəlik olur. Məzarların birinin başında başdan-ayağa qaraya bürünən qadın var. Həzin bir nalə çəkir. "Məni tək qoyma, gəl", deyir. Elə hey çağırır, çağırır...



Bu səs sentyabrın 27-dən başlayan Vətən Müharibəsinin ilk şəhidlərindən birinin - Cəbrayıl Dövlətzadənin anasının səsidir. Cəbrayılı çağırır. Arxasını, dayağını, tək güvən yerini gözləyir dizini yerə qoyub. Niyə də gəlməsin. Dostu Yalçının yuxusuna gəlib, anasının çağırışınamı gəlməyəcək? Yalçın onu evə dəvət etsə də, rədd edib. Gedəcəyi yer varmış. "Naxçıvana şəhid aparıblar, gedib kömək edəcəm", - deyib.

Cəbrayılın anası Məleykə xanım 40 gündür ki, günə "II Fəxri Xiyaban"dan, balasının yeni mənzilindən başlayır. Onsuz harda olmağından asılı olmayaraq, hər an Cəbrayılla danışır, onun səsini eşidir, darıxdıqca onu görür. İstəyəndə düyməyə basıb səsini eşidir, istəyəndə şəklinə baxır, istəyəndə danışdığına, güldüyünə, söhbətinə, əl işlərinə. Cəbrayıl gedəli onun dünyasını telefonuna köçürüb. İndi Cəbrayıl onun telefonunda, telefonu isə başucundadı.

*Ana balası haqqında...* Mərd, döyüşkən, haqsızlığa qarşı susmayan, dostu üçün savaşan, özündən zəifləri qoruyan... Nə

müsbət keyfiyyət axtarsan, tapardın onda. Tanıyanlar elə deyir. Bəs, anası?

Anası Məleykə Məmmədzadə sentyabrın 11-də hərbi xidmətdə olan oğlunun 19 yaşını qeyd etdi. Heç ağlına da gəlmədi ki, bundan sonra elə həmişə belə olacaq. Doğulduğu günü o olmadan qeyd edəcək. Hardan bilsin axı. Oktyabrın 2-də hərbi xidmətə başlamağının bir ili tamam olacaq, məzuniyyətə anasını görməyə gələcəkdi. Anaya bəlli olan plan bu idi.

Ancaq elə olmadı. 19 illik ömrünə bir dastana sığmayacaq qədər böyük qəhrəmanlıq yerləşdirən, Vətən müharibəsinin ilk günlərində millətinin qəlbində özünə əbədi yer tutan şəhid Cəbrayıl Dövlətzadə. İndi İkinci Fəxri Xiyabanda ən mərkəzi yerlərdən birinin sahibidir. Bu yerə çatana qədər keçdiyi 19 illik qısa yolu anasından öyrənməyə çalışırıq. Ana danışır, görünən odur ki, həmin 19 ilin hər biri bir ömrə bərabər olub. O, Cəbrayılı böyüdərkən tək olub, himayəsində 3 uşaqla birlikdə savaşıb həyatın qarşısına çıxartdığı çətinliklərlə.

*Dərsə gedən bir...*

Məleykə Məmmədzadənin sözlərinə görə, bacısı, sonra Cəbrayıl dünyaya gəlib. Ancaq bacısının tamamilə əksi olub Cəbrayıl. Utancaq, üzüyola, cavab qaytarmayan, mehriban, bir sözlə, canayatan bir uşaq. O anadan olanda ailəsi Sumqayıtda yaşayırdı. Sumqayıtda da əlinə çanta alıb məktəbə gedib. Birinci sinfə “Təfəkkür” liseyində rus dilində başlayıb. Elə başlayan kimi də uğur dalınca uğur qazanıb. Məktəbdə ilk ilini uğurla başa vurub. İkinci sinfə B.Mehdiyev adına Qubadlı şəhər 2 nömrəli tam orta məktəbində davam edib. Bu keçid balaca Cəbrayıl üçün bəlkə asan olmayıb, ancaq müəllimi Afilə xanımın köməyi ilə öhdəsindən gəlib. Qısa müddət içərisində sinif yoldaşları ilə arasındakı birillik geriliyi aradan qaldıraraq onlara çatıb və sinfin ən yaxşı şagirdlərindən birinə çevrilib. Afilə Ağayarova həmin mərhələdə şagirdinin ən yaxın köməkçisi olub: “Sinfimə II sinifdən daxil oldu. Azərbaycan dilində

danışırdı, ancaq yazıb oxuya bilmirdi. Onunla əlavə məşğul olurdum. Qısa müddət ərzində sinif yoldaşlarına çatdı və sinfin əlaçılarından biri oldu. Sadəcə təhsili ilə yox, xasiyyəti ilə də sevimlimizə çevrildi. Çox gözəl rəsmlər çəkirdi. Çox bacarıqlıydı. Tez qavrayır, qısa müddətdə öyrənirdi". Arifə müəllim Cəbrayıl şəhid olandan bəri özünə yer tapa bilmir: "Cəbrayılı sevirdim, ona görə ona ölümü yaraşdıra bilmirəm. Bu xəbər mənə çox pis təsir etdi. Qardaşım da I Qarabağ savaşında şəhid olub. Cəbrayıl mənə qardaşımın şəhid olduğu o günü xatırlatdı". Çinarə İbrahimli isə Cəbrayılın sinif yoldaşı olub: "Sinfimizə sonradan gəlmişdi. Çox yaxşı oğlan idi. Yaxşı əl qabiliyyəti vardı. Çox gözəl rəsm çəkirdi. Rəsmlərimi mən də ona çəkdirirdim. Etiraz etmədən çəkirdi. Zarafatcıl idi. Bir yerdə olanda həmişə gülürdük. Bizi hər zaman güldürən o oğlanın bu son ağlatmağı çox sarsıdıcı oldu". Çinarə deyir ki, onunla sonuncu dəfə "Son zəng"də bir yerdə olublar. VIII-IX sinfi başqa məktəbdə oxusa da, məzuniyyət gecəsini onlarla bir yerdə olmağa üstünlük verib: "Başqa məktəbə getsə də, əlaqəmiz kəsilməmişdi. "Son zəng"də də bir yerdəydik. Çox əyləndik. Nə yaxşı ki, o günü video çəkilişlə əbədiləşdirmişdik. Videoda Cəbrayılın danışığı, gülüşü bizə xatirə olaraq qaldı". Cəbrayılın sinif yoldaşı olan oğlanların hamısı hazırda onun yarımçıq qoyduğu yolu davam etdirir. Hər biri ön cəbhədə savaşır.

*Mahnı bəstələyir, rep oxuyur, gitara çalırdı..*

Bir sözlə, məktəbli Cəbrayıl çox bacarıqlıydı. Ərəb əlifbasını bir neçə günə öyrənmişdi. Əl işləri, rəsmləri görənləri heyrətə salırdı. Mahnı bəstələyir, rep oxuyur, gitara çalırdı. Riyazi bacarığı çox yüksək səviyyədə idi. Hələ idmanı demirəm. 9 il cüdo ilə məşğul olmuşdu. Yaxşı üzür, dəqiqələrlə suyun altında nəfəssiz qala bilirdi. Ev boyayır, sınan, qırılan əşyaları təmir edirdi. Əlindən gəlməyən heç nə yox idi. Bir çox bacarıqları marağından, həvəsindən, istedadından qaynaqlanırdısa, bir çoxu da həyatın uşaq yaşlarında qarşısına çıxardığı çətinlikləri

dəf edərkən əldə etdiyi, qazandığı bacarıqlar idi. Günlərin birində baş verən bir qəza Cəbrayılı balaca çiyinlərini anasının üzərinə düşən yükün altına verməyə məcbur edib: "VIII sinfə kimi yaxşı qiymətlərlə oxumuşdu, əlaçı idi. Ancaq VIII sinfi bitirdiyi yay günlərindən birində mən iş yerində qəza keçirdim. Ayağımdan aldığım ağır travma nəticəsində uzun müddət yataqdan qalxa bilmədim. Məndən başqa qazananın olmaması yatağa düşməyimlə mövcud çətinliyimizi daha da artırdı. Cəbrayıl işləyib evə çörək pulu gətirmək məcburiyyətində qaldı".

*Cəbrayılın arzuları*

Nəhayət, hərbi çağırış yaşı çatdır. "VƏTƏN çağırır", - deyib hərbi xidmətə Sərhəd Xidmətində xüsusi təyinatlı batalyonda başlayır. Beləliklə, o qədər də uzun olmayan hərb yolu 2019-cu ilin oktyabrında həqiqi hərbi xidmətə çağırışçı olaraq qatılması ilə start götürür. Xidmət dövründə hərb sənətinə marağı daha da böyüyür. Həqiqi hərbi xidməti başa çatandan sonra müddətli hərbi xidmətə başlamaq arzusu baş qaldırır. Bu məqsədlə razılaşma da əldə olunur. Planı bu idi ki, başladığı bu yol davam etsin. Ancaq onun planı fələyin planı ilə üst-üstə düşmədi. Anası Məleykə xanım deyir: "Cəbrayıl hərbiçi olmaq istəyirdi. Xüsusi təyinatlı dəstədə qulluq etməyi arzulayırdı". Artıq bu arzusuna çatmışdı. Özündən kiçik qardaşına işi olduğuna dair söz də vurmuşdu. Böyük arzularını anasından gizlətməmişdi: "Ən sevdiyi, arzuladığı motoskilet idi. Ev və motoskilet alacağını deyirdi. Planı bu idi ki, Cəlilabadda işləyib orada qalsın. "Burdan ev alsam, sən də gələrsənmi?", – deyə soruşmuşdu məndən. Mən də gələcəyimi söyləmişdim. Ancaq özü gəldi".

*Qəfil zəng*

Bu gəliş 16 yaşında ana olan, 40 yaşına çatmamış "şəhid anası" statusu qazanan Məleykə xanımın ömründən ömür alıb: "O gün ömrümdən azı 10 il getdi. Keşkə getsin. Xatırlamaq istəmədiyim, ancaq unuda da bilmədiyim bir gün oldu o gün.

Gündüz özümü yaxşı hiss etmirdim. Çox narahat idim. Ömrümdə ilk dəfə məni ağlamaq tutmuşdu. Cəbrayılın ona zəng etməyimdən xoşu gəlmirdi. Ona görə zəng etmək istəmədim. Onunla əlaqəsi olan uşaqlara zəng elədim ki, bəlkə bir xəbər alam. Heç kimdən heç nə öyrənə bilmədim. Sentyabrın 28-də axşam saat 10-a işləyirdi. Zəng gəldi. Hərbi komissarlığa gəlməyimi istədilər. Anladım ki nəsə olub.

*"Onu da bir gün itirəcəyimdən çox qorxurdum"*

Onsuz özünü tənha hiss edən ana üçün dünya bir yana, Cəbrayıl bir yanadır: "Dünyada təkəm elə bil. Halbuki hamı var, bir o yoxdu. Bacısının, qardaşının, hamımızın qoruyucu mələyi kimiydi. Arxamda dağıydı el bil. Ona güvənir, güvəndiyim qədər də qorxurdum. Qardaşım Yadullaya bənzədirdim onu. Dayısına çox oxşayırdı. Belə yaxşı oğul, yaxşı insan olmasını istəyirdim. Qardaşım kimi, onu da bir gün itirəcəyimdən çox qorxurdum". Ən böyük qorxusu başına gəldi ananın. Ancaq təsəllisi də var: "O elə-belə səbəblərdən ölə bilməzdi. Az yaşasa da, o qədər çox yaxşı işləri vardı ki, Allah Taala onu mükafatlandırdı, şərəfli ölüm verdi. Qadınlarımızın, qızlarımızın, general Polad Həşimovun qisasını aldı".

Döyüş tapşırığı yerinə yetirildi, cənab Ali Baş Komandan! Murovda strateji əhəmiyyətə malik düşmən postunun alınması tapşırığı verilmişdi. Bu tapşırığı yerinə yetirəcək şəxslər xüsusi seçildi. 28 sentyabrda əks-hücum əməliyyatında 11 zabitlə birlikdə komanda məntəqəsi uğrunda döyüşdə əsgər Cəbrayıl Dövlətzadə də vardı. Bir neçə saat çəkən həmin döyüşdə əllərindən gələni etmişdilər. İrəlidə erməni generalı və polkovniki öldürüb ürəyində alovlanan qisasını almaq imkanı vardı. O, bu fürsəti əldən verə bilməzdi. Zabit yoldaşlarına "Siz gəlməyin, yolunuzu gözləyəniniz var. Subayam, mən gedəcəyəm", deyərək irəli atılıb. Düşmənlə əlbəyaxa döyüşə girərək erməni generalını və polkovnikini boğaraq öldürüb. Beləliklə, qəhrəman əsgər Dövlətzadənin yolunun sonu Vətən

müharibəsinin ilk günlərinə təsadüf etdi. 27 sentyabrda başlayan döyüşlərə o da xüsusi təyinatlı kimi qatıldı və Qarabağ savaşı tarixinə general Polad Həşimovun qisasını alan əsgər kimi düşdü. O gündən adı dillərdədir döyüşçü Cəbrayıl Dövlətzadənin. Hər azərbaycanlı ailəsində onu tanıyır, sevir, barəsində qürurla danışırlar. Cəbrayılın qohumu Zöhrə Bayramova: "Qızım onu daha yaxşı tanıyır. Bir yerdə çox olurdular. Onu axırıncı dəfə hərbi xidmətə getmədən gördüm. Bizimlə görüşməyə gəldi. Heyif ondan. Çox bacarıqlı, qabiliyyətli, tərbiyəli, düşüncəli oğlan idi. Deyirdi ki, anasının onunla fəxr etməyini istəyir. Artıq 1 il idi ayrılmışdıq ondan. Hərbi xidmətə getməyinin bir ili tamam olurdu. Sevinclə onun məzuniyyətə gələcəyi günü gözləyirdik. 2 günə gəlməliydi. Düzdü, daha tez gəldi, ancaq bizim gözlədiyimiz şəkildə yox. Şanla-şöhrətlə qayıtdı".



Şəhidliyin mübarək, döyüşçü Cəbrayıl Dövlətzadə.

*Ruhiyyə Daşsalahlı*

# Cəlil XEYRULLAYEV



Cəlil Mürvət oğlu Xeyrullayev 17 may 1989-cu ildə Quba rayonunun ikinci Nügədi kəndində doğulub. Uşaqlıq illərindən hərbiyə böyük həvəs göstərən Cəlil məktəbdə keçirilən "Gənc şahinlər" müsabiqəsində mükafata layiq görülmüşdür. Böyük vətən sevgisi, 30 illik həsrətə son qoymaq arzusu Cəlili hərbiyə gətirmişdir.O, 2012-ci ildən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Xüsusi Təyinatlı Dəstəsində çavuş rütbəsində xidmət etmiş, müharibənin ilk günlərindən ön cəbhədə yer almışdır. Cəlil Murovdağ Zirvəsi, Cəbrayıl, Füzuli, Hadrut uğrunda gedən şiddətli döyüşlərdə iştirak etmiş, işğal altında olan bir sıra rayonların, dağ kəndlərinin, eləcə də bir sıra yüksəkliklərin azad olunmasında xüsusi şücaət göstərmişdir. Döyüş yoldaşları qeyd edir ki, oktyabrın 13-də Cəlilin də yer aldığı dəstəyə Füzuli rayonunda mühüm strateji əhəmiyyətə malik yüksəkliyin ələ keçirilməsi üçün xüsusi tapşırıq verilmi, on nəfərlik heyətlə mənfur düşmənin 60 nəfərədək xüsusi təyinatlısı üz-üzə gəlmiş, şiddətli döyüşdə Cəlilgilin qrupundan bir döyüşçü şəhid düşmüş, iki nəfər yaralanmış, düşmənin 60 nəfərlik heyəti isə tamamilə məhv edilmişdir. Cəlil oktyabrın 15-i Füzuli şəhərinin azad olunması uğrunda gedən döyüşlərdə, xüsusi qəhrəmanlıqlar göstərərək vuruşmuş, bu döyüşdə ağır yaralansa da, yaralarını bağlayıb, böyük əzmlə yenidən döyüş meydanına atılmış, şəhidlik məqamına yüksəlmişdir. Cəlil Xeyrullayev Füzuli azad olunan gün dəfn olunmuş, ölümü ilə ölümsüzlük qazanmışdır. Cəlil Xeyrullayev göstərdiyi qəhrəmanlıqlara görə, şəhid olduqdan sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

*Eşqanə Babayeva*

## Coşqun SƏFƏROV



Şəhidlik insanın Allaha, Vətənə, xalqına, millətinə olan sevgisinin həyat-ölüm astanasında qeyd-şərtsiz şəhadət tapdığı ali məqamdır. Şəhidlər Vətən-Allah, xalq-haqqsavaşından məğrurluqla çıxıb, bir anın içində milyonların əzizinə, Vətən oğluna çevrilib ölümü ilə də bu torpağı şərəfləndirənlərdir. Buna görə də onlar and yerimiz, qürur mənbəyimizdir! Ona görə qürur mənbəyimizdir ki, bu Vətən sevdalıları, bu Vətən aşiqləri göz qırpmadan, ölümün üzünə dik baxa-baxa, kəfənlərini əyinlərinə geyinib şüurlu şəkildə, qələbə naminə ölümün ağuşuna atılıblar. Dövlət-ordu-xalq birliyinin nələrə qadir ola biləcəyini, Azərbaycanın hərbi qüdrətini öz qəhrəmanlıqları ilə bütün dünyaya sübut ediblər. Öz cəsarətləri ilə hər zaman düşmənə sübut ediblər ki, Vətən torpağının bir qarışı belə onlar üçün həmişə qiymətli olub. Belə şəhidlərimizdən biri də Səfərov Coşqundur.

Səfərov Coşqun Əhməd oğlu 1997-ci il may ayının 2-də Salyan rayonunda anadan olmuşdur. Coşqun 2003-cu ildə Salyan şəhərinin Plastik massivindəki məktəbin 1-ci sinfinə getmiş, 2014-cu ildə isə Nizami Gəncəvi adına 2 saylı tam orta məktəbin məzunu olmusdur. O, Salyan rayonunda qaz idarəsində isləyirdi. Musiqini də cox sevərdi,  sintizator ifacısı idi. Coşqun Səfərov "Aprel döyüşləri"ndə də istirak etmis, amma düşmənə guc gələrək sag-salamat oz ailəsinin yanına qayıtmışdır. İkinci Qarabağ müharibəsində səfərbərlik zamanı Coşqun yenidən hərbi xidmətə çağrılır. O ürəkdən çox istəyərək döyüşə gedir. Bu döyüşdə də çox böyük qəhrəmanlıqlar göstərmişdir.

Coşqun Səfərov Füzuli rayonu uğrunda gedən

qəhrəmancasına şəhid olmuşdur. Noyabr ayının 25-də doğulub böyüdüyü Salyan rayonunda torpağa tapşırılmışdır. Ruhun şad olsun, Azərbaycanın igid oğlu!

Onlar Allahın öz mərhəmətindən onlara bəxş etdiyi nemətə (şəhidlik rütbəsinə) sevinir, arxalarınca gəlib hələ özlərinə çatmamış (şəhidlik səadətinə hələ nail olmamış) kəslərin (axirətdə) heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər (Ali imran surəsi 170-ci ayə).

*Səkinə Zeynalova*

***

*Aman, qardaş,*
*Qədirə de oxusun.*
*Alışıram, "Sona bülbül" dedikcə.*
*Mən də ona göndərəcəm ərmağan,*
*Qəbrim üstə "Xarı bülbül" bitdikcə.*
*Sevincimiz başdan aşıb-daşırdı.*
*Doğrudan da igid oğlan imiş o.*
*Yerimizi görən hardan bilmişdi.*
*"Topxana"da xoş günlərim keçibdi.*
*Danış görüm, "Cıdır düzü" dururmu?*
*"Qarabağın bülbülləri" yenə də*
*Arif kimi zəngulələr vururmu?*
*Vətən deyib bura gələn oğullar.*

# Denis ƏLİYEV
# (Денис Александрович ПРОНИН)



Denis Aleksandr oğlu Əliyev (doğum adı: Denis Aleksandroviç Pronin) 1989-cu il mayın 26-da Xətai rayonunda anadan olub. Milliyyətcə rus idi. 1995-2006-cı illərdə Xətai rayonunda T.Bağırov adına 59 nömrəli tam orta məktəbində təhsil alıb. Ailəli idi. 8 yaşlı bir qızı yadigar qaldı.

Azərbaycan Ordusunun əsgəri olan Denis Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Denis Əliyev oktyabrın 6-da Cəbrayıl döyüşləri zama nı şəhid olub. Xətai rayonunda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Denis Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

*Gülşən Kəngərlinskaya*

## Dmitriy A. SOLNSEV



Vətən anlayışının milliyyəti olmur. Bu elə bir anlayışdır ki, kim ki, sülh, xoşbəxtlik, ailə, övlad istəyən kəslərə həyat verən torpaqdır. Öz canını Vətən uğrunda qurban verən şəhidlərin xatirəsi təkcə bizim ürəklərimizdə yaşamır, həm də onların adları tariximizə qızıl hərflərlə yazılıb.

Dmitrinin bütün qohumları və yaxınlarına dərin hüznlə baş sağlığı veririk. O qəhrəmandır! Azərbaycanın oğludur! Bizim azadlığımız və müstəqilliyimiz uğrunda həlak olanların əziz xatirəsi və ruhu qarşısında baş əyirik!

*Qorumaq üçün Vətəni*
*Cavanlığını sipər etdin,*
*Qələbə uğrunda tək verə biləcəyin*
*Ürəyini, canını qurban verdin.*
*Amma öz ölümünlə*
*Ölümə zəfər çaldın,*
*Əbədiyyət qazandın.*

Dmitriy Solnsev 1995-ci il aprelin 15-də Bakı şəhərində anadan olub. Milliyyətcə rus idi. Uşaq yaşlarında həm anasını, həm də atasını itirib. Bir bacısı var idi. 2001-2012-ci illərdə Nəsimi rayonunda 240 nömrəli tam orta məktəbdə təhsil alıb. 2012-2016-cı illərdə isə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) ali təhsil alıb. Subay idi.

Dmitriy Solnsev 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin Tovuz döyüşləri zamanı general-mayorPolad Həşimovun şəhid olmasından sonra öz istəyi ilə Nəsimi Rayon

Hərbi Komissarlığına müraciət edib və Azərbaycan Ordusu sıralarına yazılıb.

Azərbaycan Ordusunun əsgəri olan Dmitriy Solnsev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı al-tında olan ərazilərin azad edilməsi vəAzərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin, Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə döyüşüb.

Dmitriy Solnsev oktyabrın 25-də Qubadlı döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyev Sərəncamına əsasən Dmitriy Solnsev ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltifedildi.

*Gülşən Kəngərlinskaya*
*Gülnarə Hüseynova*
*Rus dilindən tərcümə edəni: Camalə İbrahimova*

# Elçin İSMAYILOV



Şəhid Elçin Mikayıl oğlu İsmayılov 7 fevral 1991-ci ildə İmişli şəhərində dünyaya göz açmış, ailənin son beşiyi olduğu üçün xüsusi sevgi qazanmışdır. 1997-ci ildə 7 saylı tam orta məktəbin 1-ci sinfində təhsil almağa başlayır, 2008-ci ildə 11-ci sinfi bitirir. Bütün bu illər ərzində müəllimlərinin və məktəb kollektivinin sevimli şagirdinə çevrilir. Müəllimləri onun vətənpərvərliyini, vətənə olan sevgisini ilk günlərdən hiss edirdi. Ürəyi vətən üçün atan şəhidimiz uşaq yaşlarından Qarabağ hadisələri haqqında müzakirələrdə odlu-alovlu çıxışları ilə diqqət çəkirdi. Və dediyi sözlər sadəcə söz olaraq qalmadı, o öz qanı ilə sözünü əməldə də isbat etdi. Sinif yoldaşları, dostları onu çox sevirdi. Heç kim ağlına belə gətirmirdi ki, Elçin bu vəfasız dünyada çox qısa ömür sürəcək. Lakin bu qısa ömrə bir qəhrəmanlıq tarixçəsi sığdırdı Elçin. Öz şəhidliyi ilə vətən səmasında azadlığa qovuşan ruhu, bəlkə də, bu gün Qarabağ səmasında bizdən öncə gəzişir. Vətən sənindir! Vətən sənin döyüş yoldaşlarının, qəhrəman şəhid qardaşlarınındır, Elçin!

Uşaq yaşlarından güləş, boks kimi idman növləri ilə məşğul olan Elçin müxtəlif yarışlarda iştirak edib. O, idman sahəsində də döyüş meydanında olduğu kimi şücaət göstərmiş, mükafatlar, fəxri diplom və fərmanlarla təltif olunmuş, medallar qazanmışdır. Ailəsinin və bütün tanışlarını fəxrinə çevrilən Elçinin ürəyi Qarabağın qisasını almaq üçün nə qədər alışıb yansa da, hər nə qədər qəlbində düşmənə qarşı kini sönməz olsa da, mülayim və mehriban bir insan kimi yaddaşlarda dərin və hüznlü iz buraxdı. Heç kimi incitməyən, qəlb qırmaqdan qorxan,

münaqişələrdən uzaq duran, gördüyü davaları sakitliklə ayıran şəhidimiz öz xal-
qının övladlarını, millətini dərin bir sevgi ilə sevirdi. Onun ruhu, bütün varlığı doğulduğu andan Vətəninə bağlı idi. Məşhur bir deyim var: "Oğul Vətənə qurban doğulur!". Elçin də bu Vətən oğullarından idi.

Yaş artır, vədə yetişir. Elçin Vətənə olan borcunu ödəmək üçün 2009-cu ilin aprel ayında hərbi xidmətə yollanır. Xidmət göstərdiyi hərbi hissənin ən seçilən əsgərlərindən birinə çevrilən Elçin snayperçi idi. Tovuzun Ağdam kəndində xidmət edir, komandirlərin tapşırığını yüksək səviyyədə, məsuliyyətlə və can başla yerinə yetirir, bütün işlərdə fəallıq göstərir. Bu səbəblə hərbi kollektivdə hörmət və sevgi qazanır. Əsgər yoldaşları onun hərbi sənətinə olan sevgisindən, məhəbbətindən bəhs edərkən qeyd edirlər ki, ən böyük arzusu Qarabağın havasını udmaq, xalqının bu torpaqlarda azad və qorxusuz gəzəcəyi günlərin yetişdiyini görmək olub. O arzusunu şəhidlik mərtəbəsinə ucalaraq həyata keçirdi. Şəhidliyi ilə Qarabağı azadlığa qovuşdurdu!

Hərbi xidməti 2010-cu ilin oktyabrında başa vuran Elçin hələ də özünü Vətənə borclu hiss edirdi. Çünki hələ də Qarabağ düşmən əlində əsir idi. Təxris olunduqdan sonra İmişliyə qayıdan şəhidimiz bu böyük şəhərdə özünə yer tapa bilmirdi. Çünki onun varlığının mayası Vətən idi. Bu səbəblə 2018-ci il dekabr ayında könüllü olaraq müddətdən artıq xidmət üçün Azərbaycan Silahlı Qüvvələrinə ərizə ilə müraciət edir. PDM (Piyadanın Döyüş Maşını) tuşlayıcısı olaraq xidmətə davam edir.

2020-ci il düşmənin təxribatlar törətməsi ilə II Qarabağ müharibəsinin başlanması və Ali Baş Komandanın əmri Elçini ruhlandırır və o illərdir gözlədiyi anın çatdığı üçün Tanrıya dəfələrlə şükr edir. Artıq vaxt yetişmişdi. O bu anı çoxdan gözləyirdi. Qəfəsdən buraxılmış bir aslan kimi cəbhəyə, döyüşə can atırdı. Könüllü olaraq ön cəbhəyə yollanır. Füzuli, Cəbrayıl,

Zəngilan və Qubadlı uğrunda gedən döyüşlərdə misilsiz qəhrəmanlıq göstərir, düşmənə göz dağı verir. Döyüş yoldaşları onun əzmini görüb daha da ruhlanır. Nə qəribədir, sanki ruhu şəhidliyə can atır Elçinin. Döyüş vaxtı yaralanan, şəhidliyi dadan əsgər yoldaşlarını döyüş meydanından çıxarır, onları meydanda buraxmır.

Ailəsi ilə telefonla danışarkən narahat olmamalarını, tezliklə müjdəli xəbərlər verəcəyini bildirir. Bu müjdə onun şəhidliyi olur. Ailəsinə son zəngində sözləri bu olub: "Narahat olmayın, danışmaq olmur. Görsəniz bir ay zəng etmədim, onda məni axtarın. Haqqınızı halal edin. Ağlamayın!"

Daima önə can atan şəhidimiz qardaşı ilə də əlaqə saxlayırdı. Bir ailənin iki igid övladı – biri şəhid, biri qazi. Mərd atanın, mərd ananın yetişdirdiyi, Vətənə qurban dediyi 2 igid övlad. Müşfiq kəşfiyyatçıdır, o da orduya könüllü qoşulmuşdu. Elçin Müşfiqə tez-tez zəng vurub deyərmiş: "Ehtiyatlı ol! Səni gözləyən uşaqların var! Məndən narahat olma!" Ən çətin anda belə özünü yox, başqalarını düşünən mərhəmətli, bir o qədər də düşmənə qarşı nifrətə bürünmüş qəhrəmanımız arzusuna çatmaq üçün dayanmadan döyüşür, irəli, daha irəli can atırdı.Elçinin həyat hekəyəsinin bizim üçün ən hüznlü, onun üçün ən möhtəşəm anları burda başlayır.

Laçın uğrunda gedən döyüşlərdə iştirak etmək üçün əsgərlər seçilir. Elçin adının çəkilmədiyini görüb narahat olur, komandirə yaxınlaşır: "Cənab komandir, bəs mən?" Komandir kifayət qədər əsgər toplandığını və ehtiyac qalmadığını söyləyəndə Elçin etiraz edir. Uzun sürən mübahisədən sonra Elçinin qarşısını ala bilməyəcəklərini anlayan heyət onu da döyüşlərə aparır. Sanki son döyüşündə olduğunu hiss edən şəhid bambaşqa bir şövqlə vuruşurdu. Düşmən dəstəsi vəsvəsəyə düşmüş, hücumun hardan olduğunu anlamaqda çətinlik çəkirdi. Xain düşmən, nəhayət, Elçinin idarə etdiyi tankın yerini müəyyənləşdirir və

ağır artileriyadan atəşə tutur. Son nəfəsinə qədər dayanmadan mübarizə aparan şəhidimiz arzusuna burda qovuşur. Tale onun xahişini qəbul edir. Şəhidlik bulağının abi-həyat suyunu o da dadır. Bununla da Elçin ölümsüzlük qazanır.

Bu gün Elçin və minlərlə Elçin kimi qəhrəmanlar sayəsində Qarabağ Azərbaycanındır! Xalqımız 30 ildir həsrətində olduğu torpaqlara qayıdır, Qarabağ şəhidlərinin qanı bu günkü şəhidlərimizin qanı ilə alınır, xalqımız 30 ilin töhmətindən yaxa qurtarır. Bu gün Elçinin və bütün şəhidlərimizin ruhu şaddır, çünki Qarabağ azaddır, Qarabağ bizimdir! İndi orda Elçinin qanı ilə qırmızı boyasını daha da canlandırdığı üç rəngli bayrağımız dalğalanır. Azərbaycan bayrağı! O bayraq ki, Elçin düşünmədən uğrunda canını qurban verdi! Qurban verdi ki,bu xalq əbədi yaşasın! Qurban verdi ki, gələcək nəsillər üçün bütöv Azərbaycanı miras qoysun! Qurban verdi ki, bir kərə yüksələn bayraq bir daha enməsin!

*Dünya Şəmilova*



## Elçin MANSUROV



Mayor Elçin Elşən oğlu Mansurov – 25 noyabr 1984-cü ildə Bakı şəhəri Binə qəsəbəsində anadan olmuşdur. 2003-cü ildə AAHM-ə qəbul olmuşdur. Ali təhsilini başa vurduqdan sonra hərbi xidmətə yollanmışdır. Goranboy, Tovuz, Göygöl, Murov və ən sonunda da Füzuli bölgəsində xidmət etmişdir. Xidməti müddətində cəsarəti və qorxmazlığı ilə yanaşı, insanlığı, səmimiliyi, zarafatları, ən əsası da əsgərlərinə qarşı qayğıkeşliyi ilə tanınmış, sevilmişdir. Mayor Mansurov vətənin keşiyində durmağı özünə şərəf, vəzifə borcu hesab edirdi. O, 35 illik həyatının 20 ilini hərbiyə həsr etmişdir.

Elçinin tək arzusu Vətənə layiq oğul olmaq, onun neçə illik həsrətini sonlandırmaq, ən əsası da yaxın dostu olan, çoxumuzun da yaxşı tanıdığı Fərid Əhmədovun qisasını almaq idi. Senytabrda 27-si səhər saat 09:30-a qədər Elçin və onun komandanlığı altında olan qrup 3 erməni postunu azad edir. Orda möhkəmləndikdən sonra Elçin təkbaşına erməni postuna girərək, 22 erməninini məhv edir və yaralanır. Buna baxmayaraq, döyüş meydanını tərk etməyərək yaralı-yaralı axıra qədər vuruşur, eyni zamanda yaralı əsgərlərini döyüş meydanından çıxararaq 12 can xilas edir. Bu vaxt ikinci dəfə arxadan snayperlə yaralanaraq, 27 sentyabrda şəhidlik məqamına yüksəlir. Elçin 11.10.2020 tarixində nazirliyin əmrinə əsasən İkinci Fəxri Xiyabanda dəfn olunur.

Elçin Mansurov xidməti müddətində göstərdiyi fəaliyyətlərinə, "Aprel döyüşləri"ndəki igidliklərinə və Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlara görə Azərbaycan Respub

likasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüşdür.

Elçin Mansurov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı ilə də təltif edilmişdir.

*Eşqanə Babayeva*

*Kəndimizin ovçusu*
*Bir qartalı vurmuşdu.*
*Quşun cəsədini qoyub ortaya*
*Bir kənarda çox fikirli durmuşdu.*

*Ora gələn əvvəlcə*
*Tez ovçuya baxırdı.*
*Qartalın ölümünə*
*Gördüm baxmaq ağırdı.*
*Beş dəqiqə keçməmiş,*
*Qartalın vurulması*
*Bütün kəndə hay saldı.*
*Onda bildim bu ölən*
*Adi quş yox, qartaldı.*

## Elfaq NAĞIYEV



Elfaq Nağıyev 1996-cı il dekabrın 26-da Gədəbəy rayonunun Parakənd kəndində anadan olub. 2003-2011-ci illərdə kəndin tam orta məktəbində təhsil alıb. Şamaxı rayonu Humanitar Kollecində 2012-2016-cı illərdə "Bədən tərbiyəsi müəllimliyi" ixtisası üzrə ali təhsil alıb. Nişanlı idi.

Elfaq Nağıyev 2016-cı ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Gədəbəy rayonunda yerləşən "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmətdə olub. Azərbaycan Ordusunun giziri Elfaq Nağıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən Müharibəsinə qoşulub.

Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı, Hadrut əraziləri və bir neçə strateji yüksəkliklərin azad olunması uğrunda gedən döyüşlərdə şücaət göstərib. Oktyabrın 9-da Hadrut qəsəbəsinə bayraq sancan əsgərlərdən biri olub.

Elfaq Nağıyev oktyabrın 21-də Xocavənd rayonu ərazisində gedən döyüşlərdə şəhid olub. Oktyabrın 23-də Gədəbəy rayonu Parakənd kəndində torpağa tapşırılıb.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Elfaq Nağıyev ölümündən sonra "Vətən uğrunda" və "İgidliyə görə" medalı ilə təltif edildi.

*Səkinə Zeynalova*

# Elxan RAMAZANOV



“Torpaq suyla qarışanda palçıq, qanla qarışanda Vətən olur” deyiblər. Tariximizin şanlı səhifələrinə baxdıqda görürük ki, zəfərlərimizdə əvəzsiz rolu olan şəhidlərimiz barədə bir çox sözlər deyilmiş, şeirlər yazılmış, mahnılar bəstələnmişdir. Bütün yazılar isəməhz şəhidlərimizin şücaətindən, onların igidliyindən, qorxmaz olmasından, cəsarətindən bəhs edirdi. Bəli, bu gün dünyaya səs salan II Qarabağ müharibəsində əldə etdiyimiz zəfəri, tarixi torpaqlarımızın işğaldan azad olmasını ordumuza, xüsusilə şəhidlərimizə borcluyuq. 44 günlük, müharibə ərzində 2783 nəfər şəhid olmuş, hər insanın layiq olmadığı o möhtəşəm zirvəyə ucalmışdırlar.

Qanı bahasına olsa da, Vətənin dar günündə onu qoruma-ğı özünə borc bilən igidlərimizdən biri Ramazanov Elxandır. 25 yanvar 2000-ci ildə Zaqatalada dünyaya göz açan Elxan ailənin son beşiyi olmuşdur. O, orta ixtisas təhsilini başa vurduqdan sonra hərbi xidmətə yollanmış, müharibə başladıqdan sonra isə könüllü şəkildəcəbhəyə yollanmışdır . O da hər bir azərbaycanlı kimi Qarabağın işğal altında olmasını qəbul edə bilməmiş, məqam yetişdiyində isə müharibədə iştirak etmişdir. Haqqında danışılan zaman dostları onun barədə yalnız xoş xatirələri yada salırlar. Elxan istər ailəsi ilə, istərsə də dostları ilə həmişə mehriban, səmimi, sadiq biri olmuşdur. Dostları ilə vaxt keçirməyi sevmiş, ailəsinə isə bağlı idi. Yaxınları deyir ki, onun haqqında danışan zamam yaxşı olan bütün sözləri istifadə etmək mümkündür. Bütün gənclər kimi yaxşı işdə çalışmaq, ailəsinə baxmağı, vətənə və ailəsinə layiqli övlad olmağı ar-

zulamışdır. Elxan yaxşı işdə çalışmaq arzusunu gerçəkləşdirə bilmədi. Lakin bu gün,
bütün azərbaycanlıların qəlbində silinməyən iz qoymağı bacarmışdır.




Onun şəhidlik zirvəsinə qalxmazdan əvvəl dediyi son sözü bilinməsə də, döyüş yoldaşları Elxanın gecələr yata bilmədiyini, tez-tez özü ilə birlikdə yoldaşlarının partlayış zamanı yanmış halınıın göz qabağına gətirdiyini deyirlər. Ramazanov Elxan 23 oktyabrda Tərtər-Ağdam istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, əbədi olaraq bu həyata gözlərini yummuşdur. Biz müharibədə zəfər çalmışıqsa, Qarabağı işğaldan azad etməyi bacarmışıqsa? bunu Elxan kimi neçə-neçəcanlarını qurban verən şəhidlərimizə borcluyuq. Bu gün bütün azərbaycanlılar onlarla fəxr edir. İnanırıq ki, bütün şəhidlərimizin ruhu şaddır .

*“Torpağa qoyulan şəhid kürəyi,*
*Şəkli könüllərin aynasındadır”*

– deyib İlyas Tapdıq. Şəkillərinizi əbədi olaraq daşıyacağıq, əziz şəhidlər! Allah hər birinizə rəhmət eləsin!

*Fidan Əhmədli*

## Elxan RZAYEV



*Ağanisə Sultan:* Sabirabad rayonu Qaraqışlaq kənd məktəbinin informatika müəllimi,

Könüllü döyüşlərə qoşulmuşdu. Nişanlı olan Elxanın müharibədən sonra toyu olacaqdı. Amma Şəhidlik qisməti oldu.

Qəzli kənd sakini Vətən Müharibəsində şəhid olub.

*Qarabağ uğrunda müqəddəs savaş,*
*Biz qalib gəlmişik baha qiymətə.*
*Üç min şəhid verdik aman, ay Allah,*
*Ey ana torpağım, Azərbaycanım,*
*Səninlə əbədi var olacaqlar,*
*Öz şirin canından keçən oğullar.*
*El içində deyərlər, sönməyən ulduzlardır*
*Şəhidlər.*
*Kəhkəşanda seyr edərik*
*Şəhid ulduzlarını.*
*İnsanlar heç zaman unutmazlar,*
*Sizləri itirən anaların göz yaşlarını.*
*Buna yol verməz sizin qəhrəmanlığınız!*

*Gülşən Kəngərlinskaya*
*Gülnarə Hüseynova*
*Rus dilindən tərcümə edəni: Camalə İbrahimova*

## Elxan RZAYEV

Rzayev Elxan Qəzənfər oğlu 1970-ci ilin avqust ayının 7-də Qərbi Azərbaycanın Basarkeçər rayonunun Böyük Məzrə kəndində anadan olmuşdur. 1977-ci ildə Böyük Məzrə kənd orta məktəbinin 1-ci sinifinə daxil olmuş, 1987-ci ildə məktəbi bitirmişdir. Oxuduğu müddətdə çox çalışqan nümunəvi şagird kimi daim fərqlənmişdir. 1988-ci ildə məlum Dağlıq Qarabağ hadisələrinə görə doğma yurd-yuvasından didərgin düşərək valideynləri ilə birlikdə Şamaxı rayonunun Mədrəsə qəsəbəsində məskunlaşmışdır.1989-cu ilin mayında Rusiya Federasiyasının Buryat Muxtar Respublikasının Ulan-Ude şəhərinə hərbi xidmətə yola düşüb, 1991-ci ilin may ayında hərbi xidmətini başa vurub qayıtmışdır.



1992-ci ilin sentyabr ayında könüllü şəkildə Qarabağdöyüşlərində iştirak etmək üçün Hərbi Komissarlığa müraciət edir. 1993-cü ilin yanvar ayının 15-də Ağdərə rayonunun Sırxavənd kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Dəfn mərasimi Şamaxı rayon Şəhidlər Xiyabanında təşkil olunmuşdur. Mərasimdə Şamaxı rayon İHB-sı, şəhidimizin sinif yoldaşları, qohumlar, qonşular, dostları, hərbi hissənin zabit heyəti iştirak etmişdirlər. Şamaxı rayonu Mədrəsə qəsəbə tam orta məktəbi şəhidimizin adını daşıyır.

*Qərbi Azərbaycan TV*
*Həqiqət B.*

## Elgün SƏMƏDOV



Elgün Səmədov 2001-ci il avqustun 28-də Şəmkir rayonunun Mehrili kəndində anadan olub. 2008–2019-cu illərdə İ. Mehdixanov adına Yuxarı Seyfəli kənd tam orta məktəbində təhsil alıb. Subay idi. Elgün Səmədov 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə idi.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Elgün Səmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindənErmənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elgün Səmədov oktyabrın 6-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Şəmkir rayonunun Mehrili kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elgün Səmədov ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edildi.

*Şəbnəm Babayeva*

## Elmar İBRAHİMOV



İbrahimov Elmar Nəriman oğlu 02 sentyabr 1998-ci ildə Mingəçevir şəhərində anadan olub orada 2 saylı məktəbi bitirmişdir. Atası İbrahimov Nəriman Qərbi Azərbaycandan idi. 1988-ci ildə ermənilər tərəfindən öz dogma yurdundan didərgin salınmışdı, anası isə 1993-cü ildə Ağdam şəhərindən. Mingəçevirdə məskunlaşmışdılar.

Hər iki valideynin ağrılı xatirələri, yurdsuzluq haqqındakı söhbətləri, mənəvi sıxıntıları Elmarın yaddaşına, canına-qanına hopmuşdur. Didərgin valideynlərin yeganə böyük qazancı isə məhz yeganə övladları olan Elmar idi. Kiçik yaşlarından atasını itirir, anası onu ürəyi əsə-əsə böyüdür. Tənha ana bütün gələcəyini, bütün arzularını və sevinclərini sanki Elmarın böyüyüb ailə qurması, oğul-uşaq sahibi olması zamanına saxlayır. Daş üstə qoyulan daş, ev üçün alınan hər bir ləvazimat, qorunub saxlanılan hər bir əşya Elmarın adı ilə bağlı olur. Elmar evlənib anasının acılarını unutdurmalı, gəncliyini əziyyətlər içərisində keçirmiş qadını nəvə-nəticə sahibi etməli idi. Sevdiyi, ailə quracağı qız da bəlli idi. Müharibə bitəndən sonra toyu olacaqdı…

Elmar təkcə əzab verən xatirələrlə deyil, həm də bütün gənclərimiz kimi kədərli Qarabağ xəbərlərinin səsi ilə böyümüşdü. Məktəbdə Qarabağ rayonlarının itirilməsi ilə bağlı az qala hər ay keçirilən matəm ovqatlı tədbirlərin nisgilli nidası onun gələcək taleyinin şüarı oldu. 21 sentyabr 2020-ci ildə könüllü olaraq orduya yazıldı. 06 oktyabr 2020-ci ildə, 22 yaşında Tərtərin Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid oldu. Ölümündən dərhal sonra youtubda Elmar İbrahimovun səs

yazısı yayıldı: "Bu gün səhər radələrində atışma zamanı şəhid olan İbrahimov Elmar. Mingəçevir şəhəri. İkinci Mübariz İbrahimov gəlir, gözləyin! Vətənə canım qurban!"

Elmar Mübariz İbrahimovla eyni soyadı daşıyırdı. Eyni ağrı ilə böyümüş Azərbaycan gənclərinin, əsgərlərinin taleyi də çox zaman eyni cür olurmuş. Qisasın alınma zamanını fövtə vermək istəməmişdi Elmar, Mübariz İbrahimovun, Polad Həşimovun yarımçıq qalmış mübarizəsinə qoşularaq bu mübarizəni qəhrəman döyüşçülərlə birlikdə sonlandırmaq, Zəfər tarixi yazmaq istəmişdi. Hər iki şəhid qəhrəman onun idealı idi.

Qısa bir zamanda cəsarəti, məsuliyyəti və nümunəvi davranışları ilə hər kəsin hörmətini qazanmış, Fəxri Fərmanla təltif edilmişdi. 651 saylı hərbi hissənin komandiri Əflatun Nuraliyev onun haqqında yazmışdır: "İbrahimov Elmar Nəriman oğlu hərbi xidmət dövründə döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə, nümunəvi hərbi intizamına, yüksək mənəvi, işgüzar keyfiyyətlərinə və vəzifə borclarının layiqincə yerinə yetirilməsində fərqləndiyinə görə təltif olunur".

Vətən Müharibəsində şəhid olmuş hərbi qulluqçular siyahısında 1186-cıdır. Elmar anasını, sevdiyi qızı gözüyaşlı qoydu, amma Vətən Müharibəsində, Azərbaycanın Zəfər tarixində izi qaldı, ad qoyub getdi. Şərəfli xidməti, mərdliyi ilə sevdiklərinin başını uca etdi. Deyirlər ki, xəyalları puç olan gənc qız onun məzarı ilə söhbətə gəlir tez-tez. Və bəlkə də Elmarı əvvəlkindən də çox sevir. Cəsarəti, ləyaqət və mənəviyyatı ilə Elmar onu tanıyanlara özünü bir daha tanıtdı. Ruhun şad olsun, Elmar! Nə gözəl anılırsan.

Dayım qızının yeganə övladının şəhid olduğu gündür bu gün. Ruhu şad olsun!

*İradə Musayeva*

## Elməddin VƏKİLOV



Elməddin Nizami oğlu Vəkilov 1988-cu il avqustun 21-də Daşkəsən şəhərində anadan olub.

Azərbaycan Ordusunun baş əsgəri olan Elməddin Vəkilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Elməddin Vəkilov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı itgin düşüb. Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu baş əsgər Vəkilov Elməddin Nizami oğlunun nəşi tapılıb.



Mayın 8-də Vətən müharibəsi zamanı itkin düşən və bir neçə aydan sonra şəhid olduğu məlum olan Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş MAXE, baş əsgər 1988-ci il təvəllüdlü Daşkəsən rayon sakini Vəkilov Elməddin Nizami oğlunun nəşi şəhidin doğulduğu Daşkəsən şəhərinə gətirilib.

*Şəbnəm Babayeva*

## Elnur BƏYLƏROV



Qarabağ döyüşlərində vətənini qəhrəmancasına qoruyarkən şəhid olan vətən oğullarından biri də Bəylərov Elnur Etibar oğludur. Elnur 1998-ci ildə İmişli rayonu Ağaməmmədli kəndində anadan olmuş və 2005-ci ildə Ağaməmmədli kəndində yerləşən Elçin Heydərov adına tam orta məktəbdə təhsil almış və hələ məktəbdə oxuduğu zamanlarda o cəsarəti, mərdliyi və çalışqanlığı ilə digər sinif yoldaşlarından seçilmişdir. O, vətənimizin azadlığı uğrunda gedən döyüşə könüllü şəkildə qatılmış və ailəsi onun döyüşə gedişi zamanı əhval-ruhiyyəsinin çox yaxşı olduğunu və valideyinlərinə vətənini layiqincə müdafiə edəcəyini söyləmişdi. O, döyüşdə xüsusi şücaət göstərmiş və bir neçə əsgər yoldaşının həyatını xilas edərək onları çiynində daşıya-daşıya düşmənlə vuruşmuşdu. O, işğaldan azad olunan mövqələrimizə bayraq sancan igidlərdən biri olub. Elnurun döyüş yoldaşları və komandiri onun cəsarət və qorxmazlığı ilə xüsusi seçildiyini qeyd etmişdi. Cəbrayıl və Qubadlı istiqamətində qəhrəmancasına döyüşmüş və öz qanı ilə vətən torpağını sulamışdır. Onun döyüş yoldaşlarından biri öz xatirələrində qeyd edir ki, mən yaralanmışdım və dedim ki, məni atın gedin, lakin Elnur məni tək buraxmadı və həyatımı xilas etdi. Şəhidimiz qorxmazlığı ilə döyüşlərdə şücaət göstərmiş və düşmənə layiqli şəkildə cavab vermişdir. Lakin, Qubadlı döyüşlərində mübarizliyi ilə seçilmiş və noyabrın 3-nə keçən gecə ürəyindən vurularaq şəhid olmuşdur. Allah rəhmət eləsin!

*Nuray Bəbirli*

## Elnur CABBAROV



Torpaq-əgər uğrunda ölən varsa, vətəndir! Vətən sadəcə müəyyən sərhədləri olan coğrafi bir məkan deyildir. Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaqdır. Vətən uğrunda ölən isə Şəhiddir. Şəhidlik Vətən naminə ölümə qənşər getməkdi. Şair Əli Səngərli yazmışdı: "Ölüm nədi, kül ələyim gözünə"; şəhidlər ölümün gözlərinə kül ələyənlərdi, ölümü gözündən güllələyənlərdi.

Bu zirvəyə ucalanlardan biri də Şəhid Elnur Şahmurad oğlu Cabbarovdur. Əslən Laçın rayon Qarakeçdi kəndindən olan Elnur Cabbarov 1994-cü il sentyabr ayının 15-i Ağcabədi rayonu, Taxta körpü (Laçın rayonunun məcburi köçkünlərinin yerləşdiyi ərazi) qəsəbəsində doğulmuşdur. 2001-ci ildən Taxta körpü tam orta məktəbində təhsil almağa başlamış, 2012-ci ildə həmin məktəbin məzunu olmuşdur. Cəsurluğu, vətənpərvərliyi, mərdliyi, mehribanlığı qayğıkeşliyi ilə gənclərə nümunə olaraq elin hörmətini və məhəbbətini qısa müddət ərzində qazanmışdı. Müəllimləri, qohumları, qonşuları, yoldaşlıq və dostluq etdiyi həmyaşıdlarının valideynləri Elnuru doğma övladı qədər çox istəyər və onlardan ayırmazdılar. Uşaqlıq illərindən idmana olan marağı onun pəhləvan cüssəli döyüşçü kimi yetişməsinə səbəb olmuşdur. Onun ürəyi daim vətən həsrəti ilə döyünmüş, hər zaman doğma ata-baba yurduna qayıtmağı istəmişdi. Ata-anasına: "Sizi Laçına aparacam" – deyən Elnur məktəbi bitirdiyi il hərbi xidmətə yollanmış və hərbi xidməti bitirdikdən sonra Daxili İşlər Nazirliyi tərəfindən polis orqanlarında işləmək üçün seçilmişdir. Ancaq 27 sentyabr 2020-ci il

tarixində başlayan 2-ci Qarabağ müharibəsi zamanı heç vaxt torpağına ayaq basmadığı, suyun içmədiyi Laçınını görmək, ora Azərbaycan bayrağını sancmaq və ata anasının 27 illik həsrətinə son qoymaq üçün könüllü olaraq MAXE kimi yenidən "N" saylı hərbi hissəyə daxil olur və oradan da vətən uğrunda döyüşmək üçün şərəfli bir yol alır. Şəhidimiz döyüşlərə yollanarkən: "Öldürmədən ölmək istəmirəm, öldürdükdən sonra şəhid olsam da, olar" – demişdi. Elnur döyüşlər zamanı XTD-də yer almış və düşmənin çoxlu sayda canlı qüvvəsini və hərbi texnikasını məhv etmişdir. 44 günlük Vətən Müharibəsində ağır döyüşlərdə iştirak edən Elnur Cabbarovun Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Hadrut qəsəbəsi və Şuşa şəhərinin alınmasında böyük payı olub. Elnur döyüşlərin birində yaralansa da, sona qədər savaşıb. 5 noyabr Şuşa şəhəri uğrunda gedən döyüşlər zamanı bir sıra igidlik göstərmiş, düşmənə bir daha ciddi zərbələn endirmişdir. Ancaq düşmən artilleriyasının atəşi nəticəsində Elnur ağır yaralanmışdır. XTD-nin döyüşçüsü onu qolları üzərinə götürüb xeyli yolu piyada qət etmişdir. Yaralılarla əvvəl Hadrutdakı qospitala, oradan Füzuli xəstəxanasına çatanadək Elnurun bədənində demək olar ki, qan qalmamışdı. Vəziyyəti ağır olduğundan Bakıya gətirilmişdir. Həkimlərin zəhmətinə baxmayaraq noyabrın 5-dən 12-dək ağır vəziyyətdən çıxmaq Elnura qismət olmadı. Şəhidlik adı aldıqdan sonra gostərdiyi şücaətə görə generallara yanaşı təltif olunan 3 əsgərdən biri olmuşdur. O, ölümündən sonra "Qarabağ" ordeni, "Vətən Uğrunda" medalı daha sonra isə "Füzuli uğrunda", "Cəbrayıl uğrunda" və "Xocavənd uğrunda" medalları ilə təltif olunub.12.11.2020-ci il tarixində şanlı tarix yazan ordumuzun 26 yaşlı qəhrəmanı üzünü görə bilmədiyi körpə qızını və həyat yoldaşını doğmalarına əmanət edib bu vəfasız dünyadan könüllərdə əbədi yaşayacaq dünyadan köç edərək şəhidlik zirvəsinə ucaldı. Nur üzlü şəhidimizə mələk qızının dilindən yazılmış şeir:

***Atam***

*Ay üzünü görmədiyim,*
*Ay üzü nur saçan atam!*
*Vətən üçün, torpaq üçün*
*Canından da keçən Atam*

*Tökülməyib qanın boşa,*
*Arzuların gəldi başa.*
*Alınıbdı cənnət Şuşa,*
*Ay cənnətə köçən Atam.*

*Bir tarixdi yolun, izin*
*Öz qanınla yazdın özün.*
*Ölümlərin ölümsüzün,*
*Şəhidliyi seçən Atam !*
*Ay üzünü görmədiyim,*
*Ay üzü nur saçan atam!*

Xatırladım ki, Elnurun babası Cabbar Cabbarov Rusiya-da pexota 4 il layiqli hərbi xidmətlərinə görə müxtəlif mükafatlarla dəfələrlə təltif edilmişdir. Cabbar Cabbarov uzun illər səmərəli fəaliyyətilə əlaqədar "SSRİ dövlət mükafatı laureatı" fəxri adına, "Xalqlar dostluğu", "Qırmızı əmək bayrağı", "Əməkdə şöhrət 1, 2, 3-cü dərəcə" (Sosialist əməyi qəhrəmanına bərabər tutulurdu) və digər mükafatlara layiq görülərək SSRİ-də tanınmışdı. 56 yaşında Laçında vəfat edib.

İgidliyi ilə elimizin yaddaşında qalan Şahmurad əmimiz isə Böyük Vətən Müharibəsində şəhid olmuşdur.

*Şücaət Qənbərov*

## Elnur QAFAROV



Doğma yurdumuz – Azərbaycanımızın minillik qəhrəmanlıq salnaməsinə daha bir şanlı zəfər yazıldı. Vətənimizin igid, qəhrəman oğulları illərdir gözü yollarda qalan, işğal edilmiş torpaqlarımızı - Qarabağımızı canlarından, qanlarından, çox sevdikləri ailələrindən, övladlarından keçərək azad etdi. Vətənə canını könül xoşluğu ilə fəda edən igidlərdən biri də şəhid Qafarov Elnurdur. Qafarov Elnur Mirzəxan oğlu 1981-ci il 21 dekabrda Siyəzən şəhərində anadan olub. 1988-ci ildə Siyəzən şəhər 2 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olub. 1997-ci ildə həmin məktəbin 9-cu sinfini bitirərək sürücülük məktəbinə daxil olur. 2001-ci ildə Vətənə olan borcunu ödəmək üçün hərbi xidmətə yollanır və 2002-ci ilin oktyabr ayında nümunəvi əsgər olaraq hərbi xidmətini tamamlayaraq Siyəzən şəhərinə qayıdır. Hərbi xidmətdən geri döndükdən sonra bir müddət sürücü olaraq çalışsa da, Vətənə olan sevgisi onu dayandıra bilmir. Elə bu səbəbdən də Elnur 2010-cu ildə müddətdən artıq hərbi xidmətə başlayır. İgid qardaşımız şanlı zəfərimizin ilk müjdəçisi olan "Aprel döyüşləri"ndə qəhrəmancasına iştirak edib. Artıq "Aprel döyüşləri"ndə Elnurun igidliyi, vətənə bağlılığı hər kəsə məlum olmuşdu. Bu döyüşlərdə öz vətənpərvərliyi ilə komandirlərinin və döyüş yoldaşlarının böyük hörmətini, sevgisini qazanmışdı. Vətənə, işinə sevgisi şəhid Elnur Qafarovun qəhrəmanlıq yolunu Qarabağ zəfərinə doğru aparır. Belə ki, sentyabr ayının 27-də başlayan döyüşlərdə Elnur ön cəbhəyə silah-sursat daşıyan sürücü kimi çalışsa da, bu onun vətən sevgisi ilə alışıb yanan qəlbini tətmin edə bilmir və komandirlərindən dəfələrlə xahiş

edir ki, onu ön cəbhəyə döyüşmək üçün göndərsinlər. Artıq ön cəbhədə düşmənlə üz-üzə vuruşan Elnur öz arzusuna qovuşur. "Aprel döyüşləri"ndə olduğu kimi burada da, öz igidliyi, qorxmazlığı ilə səs salmağı bacarır. Onlarla düşmən əsgərini əlləri ilə məhv edən Elnur oktyabr ayının 16-da Suqovuşan qəsəbəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalır. Şəhidimizdən geriyə isə 11 və 8 yaşlarında 2 gül oğul və qız əmanəti qalıb. Balaca qəlbləri bu kiçik yaşda ata itkisi ilə yanan əmanətlərimizin tək təsəlliləri isə atalarının qəhrəmancasına, ölümün gözünə dimdik baxaraq şəhidliyə ucalmasıdır. Onların məsum qəlblərinə çox ağır olan bu ağrını sakitləşdirən yeganə həqiqət isə atalarının əbədi olaraq yaşayacağıdır. Axı müqəddəs kitabımız olan Qurani-Kərimdə də yazıldığı kimi - "Allah yolunda öldürülənlərə (şəhid olanlara) ölü deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz" (Bəqərə surəsi 154).

*Fatimə Adgözəlli*



## Elnur QARAYEV




İşğal altında olan torpaqlarımızın azad olunması üçün başlayan Vətən Müharibəsi vaxtı döyüşərək, qəhrəmancasına şəhid olanlardan biri də Elnur Qarayevdir. Qarayev Elnur Qalib oğlu Azərbaycan Silahlı Qüvvələrinin tərkibində leytenant rütbəsində düşmənə qarşı döyüşüb.

O, 13 noyabr 1996-cı ildə Şirvan şəhərində anadan olub. Orta təhsilini böyüyüb boya-başa çatdığı Şirvan şəhərində yerləşən S.Hüseynov adına 1 nömrəli tam orta məktəbində alıb. Evli olub, 6 aylıq qız övladı var.

Elnur İkinci Qarabağ Müharibəsi başlamadan əvvəl könüllü olaraq ordu sıralarına yazılıb. Müharibə başladıqdan sonra çağırışla cəbhəyə yollanıb. Xocavənd istiqamətində döyüşüb. Noyabrın 2-si ermənilər tərəfindən mühasirəyə alınıb. Düşmənlərə əsir düşməmək üçün 4 erməni əsgərini qumbara ilə partladıb. Arxa tərəfdən gələn ermənilər tərəfindən hədəf alınaraq Xocavənd uğrunda gedən döyüşlərdə şəhid olub.

Elnur şəhid olsa belə, daima Azərbaycan xalqının qəlbində yaşacayaq. Tarix boyu inanan millətləri zəfərdən zəfərə aparan səbəb də vətənə xidmət etmək və şəhid olmaq arzusu olmuşdu. Elnur bu arzusuna böyük şücaətlə çatmışdır.

Ölümündən sonra Prezident İlham Əliyevin əmri ilə Elnur Qarayev “Vətən Uğrunda” medalı ilə təltif olunub.

Allah rəhmət eləsin !

*Elşən Məmmədov*

## Elnur MUSTAFAYEV



Vətən Savaşında kəndimizdən də şəhidlik zirvəsinə ucalan oldu. Savaşın ilk günündən döyüşə atılan pulomyotçu Elnur Mustafayev təkcə son döyüşdə bir maşın ermənini məhv edib. Şücaətinlə kəndimizin ən qürurlu, ən böyük insanı sən oldun, nur üzlü insan. Elnur məşhur şair, vətənpərvərinsan Dəmirçi Abbasın nəvəsidir. Kəlbəcərin ən gənc şəhidi – Elnur Mustafayev.




Sərbəst güləşçi olub, 7 ölkədən qızıl medal qazanıb. İki erməni maşını partlatmış və şəhid dostunun nəşini götürüb qayıdanda şəhid olmuşdur. Yaralananda dostuna deyib ki, *"Anama söz vermişdim ki, səni görməmiş şəhid olmayacağam. Amma sözümü tuta bilmədim, alınmadı"*– deyib, gülə-gülə şəhadətə çatıb.

Ruhun şad olsun, Elnur!

*Ələmdar Cabbarlı*

# Elnur VƏLİYEV

Şəhid Vəliyev Elnur Əli oğlu 1997-ci il aprelin 14-ü Ucar rayonunda doğulub, 2003-cü ildə Ucar rayonu 5 saylı orta məktəbinin 1-ci sinfinə daxil olmuşdur. Daha sonra 4 saylı orta məktəbdə təhsilini davam etdirmişdir. Elnur Vəliyev 2014-2018-ci illərdə Heydər Əliyev adına Ali Hərbi məktəbdə təhsil almışdır. 2018-ci ildə Heydər Əliyev adına Ali Hərbi məktəbi bitirdikdən sonra 4 ay Xüsusi Təyinatlı Qüvvələrin dözümlülük kursunu keçib. Təhsilini başa vurduqdan sonra isə hərbi xidmətini Xüsusi Təyinatlılar bölüyündə davam etdirmişdir. Xüsusi Təyinatlı Qüvvələrin kursunu uğurla bitirdikdən sonra işə qəbul olunmuş və komandir vəzifəsinə layiq görülmüşdür. XTQ-nin leytenant komandiri Elnur Vəliyev 2-ci Qarabağ müharibəsində iştirak etmiş və düşmənin xeyli sayda silah-sursat texnikasını məhv etmişdir.



Şəhidimizin bacısı Mehparə xanım qardaşı haqqında məlumatları bizimlə paylaşdı: "Elnur çox fədakar uşaq idi, çox əziyyət çəkərdi. Xüsusi Təyinatlı olmaq asan deyil amma bizə heç bir çətinliyini bəlli etmirdi. Müharibəyə gedəndə belə təlim adıyla getmişdi ki, narahat olmayaq, anam-atam narahat olmasın. Hər şeyimiz o idi, üç bacının bir qardaşı. Aldığımız nəfəs, qolumuz-qanadımız... O qədər ürəyi yumuşaq insan idi ki, şəhid olduğu xəbərini eşidəndə, nəinki biz, bütün Ucar eyni hissləri keçirirdi. Özünün çox qəhrəmanlığı olub, bizə demirdi.

İstəyiblər vəzifəsini daha da qaldırsınlar, deyiblər yaşı azdı. Özünün 70 əsgəri var idi. Döyüş yoldaşları deyirdilər ki, çox qorxmaz, mərd uşaq idi, ona çox ehtiyacımız olan vaxtda itirdik onu. Əsgərinin atası gəlmişdi, o danışırdı. Elnurgilin dəstəsini 2

snayperçi erməni qadın izləyirmiş, qardaşımgilin dəstəsi 3 gün həmin snayperçilərin hədəfində olub. Elnur isə 8 saat pusquda duraraq onları tapıb və snayperlə zərərsizləşdirib. Biri yerindəcə ölüb, biri isə sağ imiş. Onların cibindən 7 Azərbaycanlı əsgərin şəkli çıxıb. Şəkillərin içində Elnurun da şəkli var imiş. Az deyil 185 erməni əsgəri. Demək onlar necə qorxurlarmış ki Elnurdan, əsas vurmaq istədikləri 7 nəfərin içində Elnur da olub. Əsgərin atası oğlunun dediklərinə əsasən onu da qeyd elədi ki, Elnur şəhid olandan sonra sanki bölük sönmüşdü, hamı Elnurun xətrini çox istəyirdi".

Mehparə xanım qardaşı ilə bağlı xatirələrindən danışır: "Hərbiçilərin həyatı o qədər çətindir ki, kənardan baxıb yaratdıqları şəraitə paxıllıq etmək, hansısa bir söz demək o qədər cılızdır ki. Uşaqlıqdan min bir əziyyətlə böyümüş igid oğullar uşaqlıqlarını son zəngdə – 11il oxuduqları məktəbdə qoyub çıxırlar. Hərbi məktəbə daxil olandan sonra çəkdikləri əziyyətlər sözlə izah olunası deyil. XTQ kursuna daxil olmaq və başa vurmaq isə, bəlkə də, həyatınızda görmədiyiniz çətinliklərdən ibarət, gördüklərinizin isə ən pik nöqtəsidir. Yadıma gəlir qış ayları idi, Elnur məzuniyyətə gəlmişdi, kursu başa vurmuşdu.

Ümumiyyətlə Elnur həyatı boyu çəkdiyi əziyyətləri danışan biri olmayıb, hərbidən heç danışmazdı. Sadəcə bir cümlə dedi: "Heç kimə demə, anagil bilmir, dizimdən çox pis zədə aldım kursda, davam etməyim çox çətin idi amma verdiyim söz yadıma düşdü, dözdüm, kursa davam etdim". Bunu oxuyub keçirdiyiniz hiss mənim canlı keçirdiyim hissin yanında heç bir şeydir. Bunu da qeyd edək ki leytenant Elnur Vəliyev 2 ildir ki Cəlilabad rayonunun "N" saylı hərbi hissəsində çalışırdı. Elnur Vəliyev xarakteri, igidliyi, cəsarəti ilə ilə yalnız ailəsinin deyil bütün Azərbaycan xalqının qəlbində böyük bir iz qoydu. Unutmadıq, unutdurmarıq.

*Şərqiyyə Həsənova*

# Elşən ORUCOV



Vətən uğrunda ölən varsa, Vətəndir. Həqiqətən də, Ana dediyimiz Vətən, qəhrəmanların canı, qanı hesabına qurulur və daima yaşayır. Biz zaman-zaman doğma vətənimiz Azərbaycanın müqəddəs torpağı uğrunda minlərlə şəhid vermiş, şəhid verdikcə millətləşmiş, millətləşdikcə dövlətləşmiş, sivil toplumlar sırasında öndə gedən millətlərdənik. Bu gün də İkinci Qarabağ savaşında döyüş meydanında döyüşən minlərlə igid qəhrəmanlarımız vardır. Onların qismətinə iki seçim düşür – ya Qazi, ya Şəhid olmaq. Bu günlərdə Vətən uğrunda, Qarabağ uğrundakı döyüşlərdə böyük rəşadət göstərərək şəhidlik zirvəsinə ucalmış igidlərimizdən biri də tabor komandiri mayor Elşən Orucovdur.

Orucov Elşən Yavər oğlu 1985-ci ilin avqust ayında Naxçıvan MR Şahbuz rayonu Ayrınc kəndində anadan olub. 1991-2001-ci illərdə Şahbuz rayonu Ayrınc kənd orta məktəbində təhsil almışdır. 2001-2004-cü illərdə Naxçıvan MR Heydər Əliyev adına Hərbi Liseydə təhsilini davam etdirmişdir. 2004 - 2008-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirmişdir. 2008-2009-cu illərdə Hərbi Akademiya təlim tədris mərkəzində təhsilini davam etdirmiş və leytenant rütbəsi almışdır.

2011-2020-ci illərdə Azərbaycanın cəbhə bölgələrindəki "N" saylı hərbi hissələrdə mayor rütbəsi ilə taqım komandiri vəzifəsində xidmət etmişdir. 2016-cı il aprel döyüşlərində böyük rəşadət göstərmiş və Prezident İlham Əliyevin sərəncamı əsasında döyüş medalı ilə təltif edilmişdir. Mayor Elşən Orucov ailəli idi. Aygün və Günəş adında iki qız övladı var.

2020-ci ilin sentyabrında Azərbaycan ordusu tərəfindən erməni işğalçılarına qarşı başlayan Vətən Müharibəsində tabor komandiri Mayor Elşən Orucov Füzuli-Cəbrayıl-Zəngilan-Qubadlı istiqamətində aparılan döyüşlərdə öz əsgərləri ilə böyük qəhrəmanlıq göstərərək düşmənin xeyli canlı qüvvəsini məhv etmiş, düşmənin onlarla döyüş texnikasını ələ keçirmiş, bu ərazilərdə yerləşən 4 strateji yüşksəkliyi öz hərbi məharətindən istifadə edərək təkbaşına düşməndən azad etmişdir. 22 oktyabr 2020-ci ildə Qubadlı rayonunun Muradbəyli kəndinin azad olunmasında xüsusi rəşadət göstərmiş, erməni ordusunun 137 nəfər canlı qüvvəsini məhv etmişdir. Bu döyüşdə Muradbəyli kəndi düşməndən azad olunsa da mayor Elşən Orucov qəhrəmancasına şəhid olmuşdur. Böyük qızı Aygünün atası haqqında xatirələri:



– Atam evdə həmişə deyərdi ki, Allahdan arzum budur ki, məni Şəhidlik zirvəsinə ucaltsın. Bundan böyük zirvə yoxdur. Deyirdi ki, əgər şəhid olsam möhkəm olun. Çünki siz komandir qızısınız.

– Həmişə deyirdi ki, müharibə olsun Polad Həşimovun qısasını alacam, Şəhidlərimizin qisasını alacam. Deyirdi əziz qızlarım, sizi aparıb azad olunmuş Qarabağda gəzdirəcəyəm.

– 27 sentyabrda müharibə başladı. 29 sentyabrda atam bizi görməyə gəldi. Amma Füzuliyə döyüşə getməyini demədi. Səhər zəng etdi və dedi ki, biz Füzuliyə döyüşə gedirik.

– 10 oktyabr 2020-ci ildə atama tabor komandiri olaraq 200 əsgəri ilə Cəbrayıl istiqamətində xüsusi döyüş tapşırığı verilmişdi. Oktyabrın 13-də evə zəng etdi ki, gözünüz aydın Cəbrayılda olduqca əhəmiyyətli strateji yüksəkliyi azad etmişik, bayrağımızı yüksəkliyə sancmışıq. Qarşımızda 60 erməni leşi var. Biz də atam kimi sevinirdik. O bizim qəhrəmanımız idi.

– 15 oktyabrda anamla danışarkən telefonda top səsi eşidildi. Telefon kəsildi. 10 dəqiqə sonar atam özü zəng etdi. Dedi ki bizi vurdular. Yaralı idi. Dedi ki, qarnımdan qəlpə yarası almışam, qulağım da zədələnibdir. Anam təkidlə qospitala getməsini istədi. Lakin atam dedi ki, əsgərlərimi qoyub gedə bilmərəm.

– Bir neçə gün sonar zəng etdi bizim hal-əhvalını soruşdu. Dedi ki, Zəngilana keçirik.

– Oktyabrın 18-i zəng etdi dedi ki, bu gün 4 strateji yüksəklik azad etmişik. 137 erməni məhv etmişik. Bizə dedi ki, artıq bizim tabor Kəlbəcərə gedəcək. Sizə Kəlbəcərdən zəng edəcəyəm.

– Oktyabrın 22-si xəbər gəldi ki, Elşən şəhid olubdur. İnanmadıq. Çünki atam bizə demişdir ki, Kəlbəcərə gedirik. Atam isə Qubadlının Muradbəyli kəndində qəhrəmancasına şəhid olmuşdu. Allah Atamıza, Qəhrəmanımıza rəhmət etsin.

Hərbçi yoldaşının dedikləri:

– Oktyabrın 22-si gecə Muradbəyli kəndi istiqamətində çox ağır döyüş gedirdi. Mayor Elşən Orucov 22 nəfər seçmə əsgərlə hücuma keçmişdir. Biz isə nisbətən arxada döyüş tapşırığını yerinə yetirirdik. Təəssüf ki, hücum əməliyyatı zamanı düşmən tərəfindən pusquya düşdülər. Düşmənlə ölüm – dirim savaşı zamanı Elşən Orucov və 22 əsgəri qəhrəmancasına şəhid oldular.

– İgid komandirimiz Mayor Elşən Orucov heç zaman düşməndən qorxmurdu. Hücum əmri verir və biz əsgərləri ilə birlikdə rəşadətlə döyüşə atılırdı. Döyüşün sonunda baxırdıq ki, komandir yoxdur. Baxırdıq ki, qarşıdakı yüksəklikdə üçrəngli bayrağımızı yüksəkliyə sancaraq qələbə sevincini özünəməxsus şəkildə qeyd edir. Bizə minaya düşməmək üçün yolu göstərib öz yanına çağırırdı. Elşən bir komandir olaraq bizim üçün bir ölməzlik, qəhrəmanlıq, qorxmazlıq simvolu idi. Onun ölümünə hələ də inanmırıq. Bu gün müqəddəs Qarabağın erməni faşistlərindən azad edilməsində şəhid olan mayor Elşən Orucov kimi

igid qəhrəmanlarımız tək torpaqlarımızı azad etmir, həm də Azərbaycanın, doğma Qarabağımızın gerçək tarixini yaradırlar. Yaradılan bu tarixiin baş qəhrəmanları da məhz igid döyüşçülərimizdir. Qəhrəman igidlərimizin yaratdığı bu şanlı tarix qızıl hərflərlə yazılacaq Qarabağ tarixinin ən şanlı səhifələrini bəzəyəcəkdi.



Məqamın mübarək olsun igid Komandir. Qanınız, canınız hesabına bizə yaşatdığınız bu qürur, bu zəfər üçün, yazdığınız şərəfli tarix üçün sizə əbədiyyən minnətdarıq. Haqqınız heç nə ilə ödənə bilməz.

*Mübariz Zahid oğlu Ağalarlı*

## A N D

*Mən, Bünyadzadə Ülvi Yusif oğlu, həyatımda ilk və son dəfə öz vicdanım qarşısında and içirəm; bir elin, bir millətin adını təmsil etdiyimi heç zaman unutmayacağam; Azərbaycan torpağımın qürurdan, qeyrətdən yoğrulmuş adını müqəddəs tutacaq, bu ada ləkə vurmaq istəyən bütün ünsürlərə qarşı duracağam; öz azərbaycanlı varlığıma, vicdanıma, məsləkimə, əsl-nəcabətimə, damarlarımda axan azərbaycanlı qanına layiq oğul olacaq, qorxaqlığı, alçaqlığı, yaltaqlığı özümə yaxın buraxmayacaq, nəyin bahasına olursa-olsun öz azərbaycanlı "mən"imi təsdiq edəcəyəm.*

*Əgər vədimə xilaf çıxsam, qoy anamın südü, elimin çörəyi mənə haram olsun, Vətən üzü görməyim.*

*İmza: B. Ülvi. 10.09.89*

## Elsevər ƏHƏDZADƏ



Əsl xoşbəxtliyin nə olduğunu indi anladıq. Ən böyük xoşbəxtlik doğma torpaqların işğaldan azad olunması imiş. Doğma yurdlarından, evlərindən-eşiklərindən didərgin düşmüş insanlarımız necə sevinirdilərsə, Qarabağı görməyən, Qarabağ haqqında ekrandan, qəzetdən, internetdən eşidən gənclərimiz də o qədər sevinirdilər. Qarabağlı olmayan yaşlılar da, orta nəslin nümayəndələri də bu payız sevincdən çox göz yaşı tökdülər. Düşmənin xarabazarlığa çevirdiyi şəhərləri, kəndləri ekranda görəndə də sevincdən hamımız ağladıq. Cəbrayıllılar, füzulililər, zəngilanlılar, şuşalılar, ağdamlılar, kəlbəcərlilər dedilər ki, yudumuza, torpağımıza dizin-dizin, ayaqyalın gedəcəklər, otuz il yuxularına girən torpağı qucaqlayıb öpəcəklər. Hansımızın ürəyindən o hisslər keçmədi, hansımız ürəyimizdə demədik ki, biz də Cəbrayılın girişində diz çökəcəyik, Zəngilanın daşını-kəsəyini, Ağdamın adı yazılan lövhəni, Şuşa qalasının ətəyini, Kəlbəcərin kösöv olmuş torpağını öpəcəyik. Nə böyük xoşbəxtlik, nə böyük səadət... İndiyədək doğulduğumuz şəhərin, kəndin, qəsəbənin torpağını niyə öpməmişik? Niyə çörəyini yeyib, suyunu içdiyimiz doğma yurdu abadlaşdırmaq ağlımıza gəlməyib? Amma indi hamımız işğaldan qurtulmuş şəhərlərimiz, kəndlərimiz üçün nə isə bir iş görmək üçün əldən-ayaqdan gedirik. Qocamız-cavanımız düşmənin xaraba qoyduğu yerləri abadlaşdırmaq üçün səfərbər olub. Daş qalaqlarını təmizləmək, qurumuş ağacları çıxarıb, yerinə fidanlar əkmək bu gün milyonlarla insanımızın şirin arzusudur. Otuz ilin əvəzini bir ildə çıxmaq istəyirik. Otuz ildə dünyanın ən dəhşətli olaylarına şahid olmuş, oğulları ölmüş, qızları intihar etmiş, körpələri çarmıxa çəkilmiş, qısırlaşmış, övladsız

qalmış, çayları tərsinə axıdılmış, bağları göz dağı olmuş torpaqlarımızı bir göz qırpımında cənnətə çevirmək istəyirik. Bu torpaqlara şəhidlərimizin qanı tökülüb, bu torpaqlar bundan belə səcdəgahımızdır. Birinci də deyirik, ikinci də deyirik, amma Qarabağ Müharibəsi otuzillik müharibədir. Xalqımız otuz il yatıb-durub “Qarabağ” deyib. Toyunda Qarabağı arzulayıb, yasında şəhidlərinə ağlayıb. Dil açan körpəmiz də “Qarabağ bizimdir” – deyib. Gəncimiz “Ya Qarabağ, ya ölüm!” – deyib. Qocalarımız “Prezidentimiz əmr etsə, oğlumla bərabər özüm də döyüşə gedərəm” – deyib. Otuz il halal loxmamız boğazımızdan keçməyib, otuz il xəcalət çəkmişik, otuz il düşmən bizə gülüb, otuz il dişimiz bağırsağımızı kəsib. Bəzən səbrimiz daşıb, çığırmışıq-bağırmışıq, gileylənmişik, “nəyi gözləyirik, niyə hücum etmirik?” demişik. O gün gəldi... Bir bazar günü yuxudan oyandıq ki, müharibə başlayıb. Ölkəmizin başçısı bilirmiş nəyi nə vaxt və necə etmək lazımdır. Xalqımız bu günü necə həsrətlə gözləyirdi. Əli silah tutanlarımız bir gündə səfərbər oldular. Atalar oğulları ilə könüllü oldular, analar oğullarını qoşalayıb döyüşə göndərdilər, qardaş qardaşı ilə çiyin-çiyinə verib Qarabağa üz tutdu. Xalq bir yumruq olub gürz kimi düşmənin başının üstünü kəsdi. Ağacan kişinin, Dilbər ananın ocağında iki oğul böyümüşdü. Evin böyük oğlu Elsevər atəşkəsdən bir il sonra dünyaya gəlmişdi, Fərid isə qardaşından iki yaş kiçikdi. Tale elə gətirmişdi ki, qardaşlar eyni vaxtda əsgərlik çəkmişdilər. Tariximizin şərəfli səhifələrindən biri olan 2016-cı ildə iki qardaş Tovuzun Əlibəyli kəndində xidməti borclarını yerinə yetirirdilər. Hərbi xidmətə daha əvvəl deyil, iyul ayında çağırıldıqlarına, “Aprel döyüşləri”ndə iştirak edə bilmədiklərinə çox təəssüflənmişdilər. Ordudan tərxis olunan qardaşlar bir gün Vətən uğrunda silaha sarılacaqlarına inanırdılar. Bu ilin iyulunda general Polad Həşimovun və hərbçi yoldaşlarının şəhid olması xəbəri iki qardaşa da çox təsir etmişdi. Bütün vətənpərvər, qoçaq gənclərimiz kimi, qardaşlar da Qarabağ uğrunda müharibə

istəyirdilər. Elsevər böyük qardaş olduğu üçün kiçik qardaşına qıymadı, həm də valideynlərinin onlardan başqa övladları yox idi, özü könüllü olaraq Səfərbərlik Xidmətinə ərizə ilə müraciət etdi. 30 illik həsrətimizin bir gün bitəcəyini, ağrı-acımızın dinəcəyini bilmirdi, amma inanıb yola çıxmışdı. Arzusu ürəyində qalmadı. Sentyabır 21-də onu hərbi təlimə çağırdılar. 27-də müharibə başladı. Bir gün keçdi. Sentyabrın 28-də Fəridə də çağırış vərəqəsi gəldi. Böyük qardaşın kiçik qardaşdan xəbəri olmadı. Elsevər Füzulidə, Fərid Hadrud-Xocavənd istiqamətində döyüşürdü. Ordumuzun qəhrəmanlıq dastanı yazdığı günlərdə xalqımız nəfəsini dərmədən ekranlara bağlanmışdı. Cəbhə xəbərlərini həyəcanla izləyir, Prezidentimizin çıxışlarını intizarla gözləyirdi. Qələbə xəbərləri gəldikcə xalqımızın qəddi düzəlməyə başladı, Cəbrayıl işğaldan azad ediləndə əmin olduq ki, qələbə bizimlədir. Azərbaycan öz tarixinin ən şərəfli günlərini yaşayırdı. Dünyanın hər yerində azərbaycanlılar qürur hissindən yerə-göyə sığmırdılar. 30 ildən sonra böyük bir  millət ilk dəfə ürəkdolusu sevinirdi. Bu iftixarı, bu sevinci, bu səadəti bizə yaşatmaq üçün əsgər və zabitlərimiz döyüş meydanında canlarından-qanlarından keçirdilər. Qarabağ müharibəsinin, ayrı-ayrı döyüşlərin təfərrüatı vaxt keçdikcə qələmə alınacaq. Gənc yaşlarına baxmayaraq Vətən uğrunda canından keçməyə hazır olan, gözünü qırpmadan düşmənin üstünə gedən iki qardaşın da şücaəti Qələbə salnaməsinin şanlı səhifələrində yer alacaq. Bizim bildiyimiz budur ki, bir-birlərindən xəbər ala bilməyən qardaşlardan kiçik olan Fərid oktyabrın 16-dəağır yaralanıb. Oktyabrın 21-də Elsevər sonuncu dəfə valideynlərilə telefonla danışıb, 3 gün sonra isə Füzuli uğrunda döyüşlərdə şəhid olub. Elsevər Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin məzunu idi. Böyük arzuları var idi. Gələcək üçün planlar qururdu. Amma vətənpərvər gəncin ən böyük arzusu torpaqlarımızın işğaldan azad olması idi. Bu arzu gerçəkləşmədikcə bütün arzuları həyata keçsəydi də, yarım olardı. Elsevər də, Fərid də

xalqımızın ən böyük arzusunu çin etmək üçün döyüşdülər. Fərid hospitalda yatdığı üçün Elsevərin şəhid olduğunu ona deməmişdilər, o, noyabrın 17-də xəstəxanadan evə buraxılanda qardaşının bayraqlı şəkli ilə göz-gözə gəldi.

Vətəni işğaldan qurtarmaq ən böyük qəhrəmanlıqdır, bir xalqa dünyanın ən böyük xoşbəxtliyini yaşatmaq ən böyük savabdır. Elsevərə bu adı kim verib, bilmirəm, bu, təsadüf deyil. Bu bir işarədir, bu bir öhdəlikdir, bu bir məsuliyyətdir. Elsevər öz adını doğrultdu, adına layiq oldu. Tərbiyəli, sakit, təmkinli bir gənc kimi qohumlarının, dostlarının hörmətini qazanmışdı, indi o, bir xalqın and yeridir. Onu böyüdən, vətəndaş kimi tərbiyə edən valideynlərin qarşısında xalq baş əyir. İki oğlunu "Vətən Müharibəsi"nə göndərən ana, iki oğlunu kişi kimi böyüdən ata, xalq sizə minnətdardır. Bakıda dünyaya gələn iki oğlan Qarabağ üçün canını-qanını əsirgəmədi, Vətən tarixinin şanlı səhifəsi onların qanı ilə yazıldı. Bir gözümüz gülərkən, bir gözümüz ağladı. Yaramız istidir, bir gün köz bağlayacaq, amma Qarabağ deyəndə şəhidlərimiz yada düşəcək, qazilərimiz, əsgərlərimiz, zabitlərimiz fikrimizdən keçəcək, ürəyimizdəki yerləri daim onlara məxsus olacaq. Vaxt gələcək qəhrəman şəhidlərimizin əziz xatirəsinə cild-cild kitablar yazılacaq, qazilərimiz, əsgərlərimiz bədii əsərlərin də qəhrəmanlarına çevriləcəklər.

*Çinarə Nüsrətli*

## Ərini və qardaşını şəhid verən Azərbaycan XANIMI
## Elton QƏNBƏRLİ 🇦🇿Adil İBRAHİMLİ



*Alqış Musayev:* Məğlubedilməz, məğrur Azərbaycan Xanımı! Şərurun Ələkli kəndindən olan Nargül xanımın qardaşı Elton Qənbərli və həyat yoldaşı Adil İbrahimli (haqqında bu kitabda verilmiş ilk şəhid) II Qarabağ müharibəsində şəhid olub. Allah rəhmət eləsin! Həyat yoldaşının tabutunu daşımış bu məğrur bacımıza Allah səbr versin! Elton Qənbərli Şərurda, Adil İbrahimli Bakıda dəfn olunub.

Bu şəkilə baxın, sözlər aciz qalır... Məğrur Azərbaycan qadını ən yaxın insanının tabutu altında necə məğrur dayanıb... Biz sağ qalanların borcu Nargül xanımın başının həmişə məğrur durmasına şərait yaratmaqdır. Vətən sağ olsun!!!

*Rasəd Miriyev:* Bu hadisə xanəndə Gülüstan Əliyevanın da həyatında baş verib, I Qarabağ döyüşlərində həyat yoldaşı və qardaşı şəhid olub.

*Şəbnəm Babayeva*

# Elton QƏNBƏRLİ



Elton Qənbərli Baba oğlu 1997-ci il fevralın biri Şərur rayonunun Ələkli kəndində anadan olmuşdur. 2003-ci ildə Ələkli kəndində 1-ci sinfə başlayıb. Orta məktəbdə oxuyarkən nağarada ifa edirmiş. Əlavə olaraq yallı qrupunda rəqslə məşğul olub. On iki Naxçıvan yallısını bilirdi. 23 yaşında musiqi məktəbini bitirmişdir. Ən çox sevdiyi yazar Dostoyevski idi. "Cinayət və cəza" əsərini iki dəfə oxumuşdur. Şəhidimiz təbiətcə sakit insan olsa da, zarafatlaşıb, deyib-gülməyi çox sevirdi.

2011-ci ildə Heydər Əliyev adına hərbi liseyə, 2014-cü ildə isə Azərbaycan Hərbi Akademiyasına qəbul olur. 2018-ci ildə Akademiyadan məzun olur və iyul ayında leytenant rütbəsinə yüksələrək Goranboyda xidmət etməyə başlayır. 2018-ci ilin avqustunda 9 ay Sad kursuna getmiş, burada 176 nəfərin içində ən azyaşlısı Elton olmuşdur. Nəhayət, 2019-cu ilin aprel ayında 176 nəfərlə başlayan kursu yalnız 8 nəfər diplom alaraq bitirmişdir. Onlardan biri də Elton olmuşdur. 2019-cu ilin may ayında yenidən Goranboyda xidməti davam etdirmiş, 2019-cu ilin oktyabrına qədər Tərtərdə xidmətdə olmuşdur. 2019-cu ilin noyabrında Giləzidə xüsusi təyinatlılarda kursa başlayan Elton Qənbərli kursu birinciliklə bitirib bir sıra sertifikatlar və mükafatlarla təltif olunmuşdur. 2020-ci il aprel ayından xüsusi təyinatlı qüvvələrdə baş kəşfiyyatçı, quru qoşunlarının müavini vəzifəsində, leytenant rütbəsində işləmişdir. 27 sentyabrda başlayan döyüşlərdə 20 oktyabra qədər ağır döyüş yolu keçmiş, Füzulidə, Hadrudda, Cəbrayılda, Zəngilanda, Qubadlıda

gedən döyüşlərdə fəal iştirak etmişdir. Döyüşlərin birində yaralanmasına baxmayaraq, hospitala getməkdən imtina edən şəhidimiz“ sona qədər döyüşmək istəyirəm”, – deyib. Qubadlıda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. 24 oktyabrda Şərur rayonunun Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Müzəffər ordumuzla həmrəy olan, ona güvənib, arxalanan xalqımızın qəlbinin döyündüyü tək məbəd Qarabağdır. Vətən torpaqları addım-addım, qarış-qarış şəhid qanı ilə öz azadlığına qovuşdu.

Şəhid adı ucadan-uca addır, vətənpərvərlik, cəsurluq, qəhrəmanlıq, igidlik, ölməzlik, əbədilik zirvəsidir. Bu zirvədə Vətən, torpaq, xalq üçün canından keçən cəsur, qəhrəman, igid oğullarımız dayanır.

Bunlardan biri də Elton Qənbərli idi.

Haqqınızı necə ödəyəcəyik...?

*Ülviyyə Novruzova*



## Eltun ƏLİYEV



2001-ci ildə anadan oldu. Ailəyə sevgi dolu bir sülh quşu gəldi. Amma bu sülh quşu uzun yol getmədi. İkinci Qarabağ müharibəsində Suqovuşan uğrunda döyüşdə şəhid oldu. Şəhadətin mübarək, 19 yaşlı qanı ilə tarixi yazan qəhrəman!

Eltun Elnur oğlu Əliyev (Göyçə mahalının Kəsəmən kənd müəllimimiz Heydər Məşədi Cəliloğlunun nəvəsi).

19 yaşlı şəhidin atası: “Döyüş yoldaşları deyirlər ki, Eltun düşmənə qan uddururdu”. 44 günlük Vətən müharibəsində şəhid olan əsgər və zabitlərimiz adlarını ən yeni tariximizə qızıl hərflərlə yazdılar. Onların sırasında Sumqayıt şəhərindən olan Əliyev Eltun Elnur oğlu da var. Eltun Əliyev 2001-ci il avqustun 29-da Sumqayıt şəhərində anadan olub. O, 2019-cu ildə Sumqayıt şəhəri 24 saylı orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə yola düşüb. Eltun cəbhənin Tərtər istiqamətində yerləşən “N” saylı hərbi hissədə - ön xətdə baş atıcı olaraq xidmət edib.



Sərrast atıcılığına görə onun şəkli hərbi hissədə şərəf lövhəsinə vurulmuşdur. Sentyabrın 27-də Vətən müharibəsinə qatılıb. O, ən şiddətli döyüşlərin getdiyi Füzuli, Cəbrayıl və Suqovuşanda vuruşub. Hamı kimi Eltunun da bir amalı var idi – işğal altında olan torpaqlarımızı yağı düşmənin tapdağından azad etmək! Döyüş yoldaşları deyir ki, təbiətcə sakit insan olan Eltun döyüşlərdə böyük cəsarət, qəhrəmanlıqlar göstərib. Anası Rima Əliyevanın sözlərinə görə, Eltun uşaqlıqdan zəhmətkeş olub. Özü və həyat yoldaşı xəstə olduqlarına görə, ailəni, demək olar ki, dolandıran balaca Eltun imiş: "Sonuncu dəfə danışanda məndən halallıq istədi. Dedim, oğul, ancaq qələbə ilə geri dön. Mənə dedi ki, sağ-salamat qayıdım, o balaca evimizi qardaşım və mən işləyib böyüdəcəyik". Atası Elnur Əliyev bildirir ki, dəfn mərasimində Eltunun səngər yoldaşları da iştirak ediblər, onun şücaətindən danışıblar: "Dəfn mərasimində döyüş yoldaşları, komandiri dedi ki, Eltun balaca canı ilə erməniyə qan uddururdu, sərrast atışı hesabına Ordumuz daha da irəliləyirdi. Mən də bundan böyük fəxr duydum. Allah heç bir valideynə bala dağı göstərməsin, Vətən sağ olsun, Eltun kimi şəhid oğullarımızın, qazilərimizin hesabına bu qara ləkəni millətin üstündən silə bildik". Qardaşı Fərid isə deyir ki, Eltunla yalnız qardaş deyil, həm də dost-sirdaş olublar: "Onunla aramızda cəmi 1 yaş fərqimiz olsa da, demək olar ki, mənə böyüklük edib. Bu balaca evimizi də Eltun alıb. Evi dolandıran ancaq Eltun idi. Telefon dükanında satıcı işləyirdi. Məndən də halallıq istəyəndə sözünü kəsdim. Şəhidlik xəbərini eşidəndə arxam-dayağımın yox olduğunu hiss etdim. İtkisi ağırdır, amma fəxr edirəm ki, mən şəhid Eltunun qardaşıyam". 19 yaşlı Eltun Əliyev oktyabrın 16-da



Suqovuşanda namərd düşmənin gülləsinə tuş gələrək şəhidlik zirvəsinə yüksəlib. Oktyabrın 23-də Sumqayıt şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilib. Prezident İlham Əliyev dekabrın 15-də Azərbaycan Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. Təltif olunanlar arasında Eltun Əliyev də var.

Allah rəhmət eləsin!

Eltunun atası:

*Atanın gözünün nuru Eltunum,*
*Düşündünmü,*
*çəkə biləcəkmi Ata bu ağır yükü*
*Atan heç istəməz əksilsin başının bir tükü*
*Sənin ciyərinə dəyən o güllə*
*Mənim ürəyimi parçaladı o güllə*
*Məkanın O gözəl cənnətdə uca zirvədə!*

*Həqiqət B.*
*Report.az*

## Elvin ABDURAHMANOV



Elvin Əbülfəz oğlu Abdurahmanov 1996-cı il oktyabr ayının 1-i dünyaya gəlib. 2003-cü il Qəbələ rayon Əmirvan kənd tam orta məktəbinin birinci sinfinə daxil olmuş 2014-cü ildə həmin məktəbi bitirmişdir. Elə həmin il oktyabr ayında hərbi xidmətə yollanmış, Naxçıvan "N" saylı hərbi hissədə qulluq etmişdir. 2017-ci ilin iyul ayında gizirlik kursuna başlamış və sentyabr ayında kursu bitirərək Qusar rayonunda xidmətə başlamışdır. Bir ay yarım orda işlədikdən sonra noyabr ayında Xüsusi Təyinatlı Qüvvələrin 6 aylıq kursuna başlamış və çətin sınaqlardan sonra 500 nəfərin qatıldığı yalnız 42 nəfərin bitirə bildiyi kursu 3-cülük ilə bitirmişdir. Elvin Abdurahmanov II Qarabağ müharibəsində qəhrəmancasına döyüşmüş və Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Şəhid Elvin Abdurahmanov "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

*Şərqiyyə Həsənova*

## Elvin İSKƏNDƏROV



Salam, mən Vətən uğrunda şəhid olmuş xüsusi təyinatlı zabit Elvin İskəndərovun həyat yoldaşıyam. Onun fotosunu paylaşın və insanlara ərim haqqında məlumat verin. Bəlkə də mənim təsəllim olacaq. Iki qızım və bir oğlum var. Onları göz bəbəyi kimi saxlayacağam".

Elvin Akif oğlu İsgəndərov- 1998-ci il 14 avqustda Şabran rayonunda anadan olub.

Ailəli idi. 3 övladı yadigar qaldı.

Elvin İsgəndərov 2016-cı ilin 2-5 aprelində baş verən döyüşlərdə iştirak etmişdir. Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin giziri olan Elvin İsgəndərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindənErmənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağın, Füzulinin vəCəbrayıl rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elvin İsgəndərov oktyabr 5-də Cəbrayıl döyüşləri zamanı şəhid olub.

- (26.06.2013) "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley; (26.06.2018) "Azərbaycan Ordusunun 100 illiyi" yubiley, III dərəcəli 2Qüsursuz xidmətə görə" medalları
- (15.12.2020) "Vətən uğrunda" medalı (ölümündən sonra); (24.12.2020) "Cəbrayılın azad olunmasına görə" medalı-(ölümündən sonra) və (25.12.2020) "Füzulinin azad olunmasına görə" medalı (ölümündən sonra).

*Şəbnəm Babayeva*

## Elvin İSLAMOV

Vətənə sevginin, cəsarətin nümunəsidir, bir tək cümlə. "Ölümü gözə almaq, Vətən, torpaq uğrunda şəhidliyə hazır olmaq hər kişinin işi deyil, ər igidin işidir". Şəhid Elvin İslamovdan qalan tək və yeganə səs yazısıdır. Savaşdan az əvvəl dostuna göndərib: "Şəhid olmağa gedirəm, qardaş!" deyib. O, bir qazi övladı idi. Atası Elçin İslamov birinci Qarabağ savaşında tarix yazanların sırasında olmuşdu. Atasının vətənpərvərlik yolunu şəhadəti ilə tamamladı Elvin. Ölümü ilə ölümsüzlüyə qovuşdu!



Elvin 1995-ci ildə Yasamal rayonu X.Dadaşov küçəsi 23 nömrəli evdə dünyaya gəlmiş, 158 nömrəli tam orta məktəbi bitirmişdir. 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrin Xüsusi Təyinatlılar bölümündə Kəşfiyyatçı kimi hərbi xidmət keçmişdir. Bakı şəhəri Bulvar İdarəsində çalışırdı. "Aprel hadisələri"ndən sonra özünə yer tapmayan şəhidimiz "Müharibə başlayan kimi könüllü olaraq gedəcəm" – deyirdi. Tovuz hadisələrindən sonra isə intiqam hissi ilə yaşayırdı. "Polad Həşimov kimi igidlərin qanı yerdə qala bilməz, torpaqlarımızı yağıların tapdağından xilas etməliyik. Axırıncı nəfərimiz Şəhid olsa da, savaşa qalxmalıyıq" – deyirdi.

2020-ci il sentyabrın 21-də Yasamal rayon Hərbi Komissarlığından çağırış vərəqi gələndə anası Sevinc xanıma, atası Elçin bəyə tək bir cümlə söyləyib: "Vətən bizimdir, onu biz qorumalıyıq, lazım gəlsə Şəhid olmalıyıq!" Səhəri gün çağırış məntəqəsinə yollanıb. Gizir rütbəsi ilə Xüsusi Təyinatlıların Həmlə qurupunda öz yerini alıb. Şiddətli döyüşlərin ilk günün-

dən – sentyabrın 27-dən oktyabrın 7-dək Cəbrayıl və Füzuli istiqamətlərində gedən döyüşlərdə sinəsini düşmənə sipər edib. Son döyüşü Füzuli rayonunun Qorqan kəndində olub, yağı düşmənlə ölüm-dirim savaşında silahdaşları ilə mühasirəyə düşüb. 23 gün sonra oktyabrın 29-da cənazəsi Bakıya gətirilib, səhəri gün torpağa tapşırılıb.

Bakının Qaradağ rayonunda bir dərə var – Qurt Dərəsi bayrağı çiyninə alıb səngərə gedən, Vətənin çiynində gələn Şəhidimiz Yasamal rayonunun Şəhidləri ilə birlikdə orada haqqa qovuşub. Ondan doğmalarına bir dünya kədər, Şəhid müqəddəsliyi, bir də bükülüb gəldiyi bayraq qaldı. Vətən vətən deməklə, Vətən olmur, onu sevməklə, yolunda ölməklə, ölümsüzlüyə qovuşmaqla Vətən olur!

Dekabrın 8-i Elvinin doğmaları ilə əbədi həsrətinin 40-cı günüdür!

Aylar, illər keçəcək, Elvinin doğmaları, yaxınları yaşa dolacaq, gəlib gedəcək tək bir şey əbədi qalacaq: o da, "Şəhid olmağa gedirəm, qardaş!" nidası ilə tarix yazan Elvin Elçin oğlu İslamovun Vətən sevgisi!

Adına çox abidələr ucaldılacaq, amma özünün ucaltdığı abidədən olmayacaq: Şəhid Elvin İslamov!

*Mətanət Ağamirli*

## Elvin MƏLİKOV



*Gülər Bəxtiyarqızı:* Şəhid Elvin Məlikov İlham oğlu 2001-ci ildə anadan olmuşdur. 24 saylı məktəbdə orta təhsilini aldıqdan sonra vətən borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollanan Bakılı Elvin sərrast atıcı idi. Döyüş zamanı 12 ermənini şəxsən məhv etmişdir. Ailəsinəçatan məlumata görə, o, Füzulidə yaralı yoldaşını xilas etməyə gedərkən minamiyot üzərinə düşüb və şəhid olmuşdur. Şəhadətin mübarək, Azərbaycan əsgəri, vətən sağ olsun!

*Şəbnəm Babayeva*

## Elvin MƏMMƏDOV



Məmmədov Elvin Beyləqanın Milabad qəsəbəsindəndir. İgidimiz atəşkəsdən cəmi bir gün öncə, yəni 2020-ci il noyabr ayının 9-u şəhidlik zirvəsinə yüksəldi. Şəhadətin mübarək, şəhidim!

*Şəbnəm Babayeva*

## Elvin İSMAYILOV



İsmayılov Elvin Tələt oğlu 09 mart 1989-cu ildə Beyləqan rayonu İkinci Əlinəzərli kəndində anadan olmuşdur. 1995-ci ildə Kərəm Əliyev adına Əlinəzərli kənd 2 nömrəli orta məktəbin birinci sinfinə daxil olmuşdur. Məktəb tədbirlərində fəal iştirak edib. 2006-cı ildə məktəbi uğurla bitirib. 2007-ci ildə Tərtər rayon N saylı hərbi hissəsində həqiqi hərbi xidmətinə başlayıb. Nümunəvi əsgər kimi hamının hörmətin qazanıb. Hərbi xidməti bitirib gəldikdən sonra hərbiçi kimi işləmək qərarına gəlir. Beləliklə, 2011-ci ildən Qazax rayon N saylı hərbi hissədə hərbiçi kimi işləyir. 10 il düşmənlə üzbəüz posta xidmət edir. 2016-cı il aprel döyüşlərində də iştirak edib. 2019-cu ilin aprelindən Beyləqan rayon "N" saylı hərbi hissəsində çavuş kimi hərbi xidmətin davam etdirib. Elvin İsmayılov işlədiyi müddətdə bir çox fəxri fərmanlar, medallarla təltif olunub. 2019-cu ilin dekabrın 29-da çox sevdiyi Şəhla xanımla ailə həyatı qurur. 27 sentyabr 2020-ci ildə başlayan döyüşlərdə Elvin Füzuli Cəbrayıl istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olur. 03 oktyabr 2020-ci ildə böyük izdihamla Beyləqan şəhər Şəhidlər Xiyabanında dəfn edilib.

Cənab Prezident İlham Əliyevin sərəncamı ilə Vətən uğrunda, Füzulinin azad olunması, Cəbrayılın azad olunması uğrunda, İgidliyə görə medalları ilə təltif olunub.

*Həqiqət Binnətova*

## Elşad YƏHYAYEV



5 may 1966-cı ildə Şəki şəhərində doğulmuşdur. 1973-cü ildə Şəkidəki 12 saylı məktəbə getmişdi. 1977-ci ildə ailələri ilə Bakıya köçürlər. 1983-cü ildə Xətai rayonundakı 56 saylı orta məktəbi bitirir. 1984-1986-cı illərdə hərbi xidmətdə olmuşdur. 1987-ci ildə Saratov Ali Hərbi Komandirlər Məktəbinə daxil olur. 1991-ci ildə leytenant rütbəsi ilə Vətənə dönür. Bu zaman artıq Qarabağ müharibəsi başlamışdı.

Elşad könüllü olaraq DİN-ə müraciət edir və onu "N" saylı hissəyə taqım komandiri təyin edirlər. Cəsur komandir Sırxavənd, Naxçıvanlı, Papravənd kəndlərində gedən döyüşlərdə iştirak edir. Ermənilərə öz şücaətini göstərən döyüşçü xeyli qulduru məhv etmişdi. Naxçıvanlı kəndində qaynar döyüşlər gedirdi ermənilər ağır itki verdilər və geri çəkildilər...

Elşad bu döyüşdə xeyli düşməni məhv etmişdi lakin qəfil snayper gülləsi onun gənc ömrünü qırdı 20 iyun 1992-ci il o, qəhrəmancasına şəhid oldu. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Yəhyayev Elşad Məmmədhənifə oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilib. Şəki rayonundakı 12 saylı məktəb qəhrəmanımızın adını daşıyır. Bakı şəhərindəki 56 saylı orta məktəbdə isə onun büstü qoyulub.

1990-cı il. Şər qarışmışdı. Şəhidkər Xiyabanında idim. Xeyli vaxt dayandım. Şaxta adamı qılınc kimi kəsirdi. Ülvinin qəbrinin ayaqucunda oturub qalmışdım. Kimsə qolumdan tutub

məni qaldırmaq istədi: “Soyuqdur. Narahat olmayın biz onların qisasını alacağıq”. O qədər canıyananlıqla dedi ki, hətta adımı da çəkdi. Təkid etmədim, ayağa qalxdım. Sən kimsən:



- Hüseyn əmini də, sizi də tanıyıram. Akif doxturun bacısı oğluyam.

O görüşdən nə qədər ötdü bilmirəm, xatırlamıram, həmin oğlanın şəhid olduğunu qardaşım Hüseyn doktordan eşitdim. Şəklini görəndə tanımışdım.

*Faciələr serialı və ya haqsız qınaq:* Proloq əvəzi.

Cəmi 44 gün davam edən II Vətən müharibəsi Azərbaycan xalqının birliyini, qəhrəmanlığını, əzmkarlığını üzə çıxardı. Müharibədən sonra Respublikamızın sayılıb-seçilən ziyalılarından belə bir təklif paylaşıldı ki, müharibə ilə bağlı hər hansı bir təəssüratları olan qələm sahibləri öz fikirlərini qələmə alsınlar və bunlar bir kitabda dərc olunsun. Bu təklifdən sonra məndə belə bir maraq yarandı ki, 2-ci yox 1-ci vətən müharibəsi adlanan dövrdə ailəmizin yaşadığı faciələri qeyd edim.

Yəqin ki, ilk baxışda elə bir təəssürat yaranacaq ki, bu yazılanlar bədii təxəyyülün məhsuludur, hadisələrə yaradıcılıq donu geydirilib, ancaq, səmimiyyətlə qeyd edirəm ki, hadisələri olduğu kimi diqqətinizə çatdıracağam, bəzəksiz-düzəksiz. Mənə elə gəlir ki, elə hadisələr var ki, onlara bədii don geydirmək, hətta, bədiiləşdirmə bu sahədə kifayət qədər tanınmış qələm sahibi tərəfindən aparılsa belə, həmin hadisənin təsir qüvvəsini zəiflədir. 1992-ci ilin uyun ayının ortalarında telefonuma gələn qəfil zəng 8 il qabaq böyük qardaşımın qərib ölkədə günahsız qətlə yetirilməsi faciəsini bizim ailəyə yenidən yaşatdı. Bacım oğlu Elşad Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olmuşdu. Dəfn mərasimində iştirak etmək üçün elliklə Bakı şəhərinə yollandıq. Böyük həyəcanla bacıoğlunun nəşinin rota ko-

mandiri işlədiyi daxili qoşunların hərbi hissəsinə gətirilməyini gözləyirdik. Bakı şəhərində 2 bacımın evi yan-yana yerləşirdi. Kiçik kürəkənimin iş yeri də evin yaxınlığında idi. Kiçik bacımın 13 yaşlı oğlu Şirəli-məhəllədə hamı onu Şurik deyə çağırırdı. Elşadı çox istəyirdi. Səhərdən 2 dəfə dözməyib atasının iş maşını ilə hərbi hissəyə dəyib qayıtmışdı. Düzü hələ də ümidimiz var idi ki, bəlkə də bu xəbər yanlış olacaq. Qohumların bəziləri səbrsizlikdən, bəziləri isə vacib işləri olduğu üçün üzrxahlıq edib gedirdilər, o cümlədən, kiçik kürəkənimin Şüvəlan qəsəbəsində yaşayan bir qohumu da getmək üçün icazə istədi. Şirəli atasına müraciət edərək dedi:

- Papa, mən meyitdən qorxmuram sən icazə ver mən də onlarla Şüvəlana gedim.

Atası da etiraz eləmədi. Elə bu məqamda məlumat verildi ki, Elşadın nəşi artıq hərbi hissədədir. Hamımız o cümlədən Şirəli də tələm-tələsik maşınlara doluşub hərbi hissəyə yön aldıq. Hərbi hissədə dərin hüzn abi-havası yaranmaqla bərabər bəzi əskər və zabitlərin göz yaşları axıtmasının də şahidi olduq. Elşadın çalışdığı kollektivin əsgər və zabitləri arasında yüksək nüfuz sahibi olmasına əminliyimizi artıran bir də o oldu ki, onun nəşini birbaşa maşına qoyub evə aparmağımıza razılıq vermədilər. Yolun müəyyən hissəsini çiyinlərində aparıb sonra maşına qoyulmasına icazə verməyimizi xahiş etdilər. Əsgərlər Azərbaycanın 3 rəngli bayrağına bürünmüş tabutu çiyinlərinə götürdülər, bizlər qohum, qonşu, dostlar və hərbi hissənin şəxsi heyəti sıralanaraq müəyyən məsafədə dayandırılmış maşına tərəf yeriməyə başladıq. Müşayiət eləyənlərin sayı 100-dən artıq olardı. Bizim qət edəcəyimiz məsafədə başqa yollarla kəsişmə yerləri olduğu üçün əsgərlərdən bir neçəsi həmin kəsişmələrdə dayanaraq maşınların hərəkətini dayandırmışdılar. Həmin yol kəsişmələrindən birini keçib bir az aralanmışdıq ki, arxa hissədən qəfil, anlaşılmaz haray, qışqırıq səsləri eşitdik, sanki, hamı bir-birinə dəydi. Tələsik hamımız ora qaçdıq, məlum oldu ki,

qırmızı rəngli 2107 markalı bir maşın yolu əskərlərin bağladığını görüb yüksək sürətlə maşın yolundan piyada yoluna çıxaraq insan axınının üzərinə yeriyib. Hərə bir tərəfə qaçıb canını qurtara bilsə də Şirəli və yanında olan xalası oğlu imkan tapa bilməyiblər. Xalası oğluna yüngül xəsarət yetirsə də, Şirəlini maşının qabağına alıb xeyli məsafəni sürüdükdən sonra aradan çıxa bilib. Həmin vaxt elə çaş-baş vəziyyətdə qaldıq ki, Şirəlinin kim tərəfindən hara aparıldığını da sonradan öyrənə bildik. Şirəli yaralı vəziyyətdə böyük qardaşı tərəfindən yaxınlıqdakı xəstəxanaya aparılıb, xəstəxanaya çatınca dünyasını dəyişibmiş.

Şirəlinin ölümü təkcə bizi yox onu tanıyan qohum-qonşuların hamısını sanki şoka salmışdı. Şirəli zahirən çox yaraşıqlı olmaqla bərabər şirin ünsiyyəyli, tədbirli, xeyirxah bir uşaq idi. Çox vaxt səhərlər qonşuları gəzibdolanar kimin hansı ərzaqa ehtiyacı olardısa atasından alıb aparıb verərdi. Davranışına görə onu tanıyanlar deyərdilər ki, Şurik 70 yaşına çatıb sonra yenidən uşaqlaşıb. Biz eyni gündə 2 əzizimizi torpağa tapşırmaq məcburiyyətini yaşadıq, Elşadı Şəhidlər xiyabanına Şirəlini isə şəhər qəbristanlığına. Dəfndən sonra yaşadıqlarımı 1-2 cümlə ilə bildirsəm yəqin ki, hər şey aydın olar. Hadisə elə məcrada baş vermişdi ki, hər dəqiqə bacılarımın ailələri arasında inciklik, narazılıq, əsassız ittihamlar baş verə bilərdi.Əlbəttə ki, bunu daha çox dərinləşdirən əsas verən hüzrdə iştirak edən insanların ehtiyatsız və yaxud məqsədli söhbətləri ola bilərdi. Ona görə də tez-tez yerimi dəyişir, insanların danışığına diqqətlə qulaq asırdım ki, belə danışıqlar olarsa müdaxilə edim. Söz yox ki, ona görə də çox yorulurdum. Elşadla bağlı xatirələrim məni tərk eləmirdi. Elşadla müəyyən qədər dostluğumuz da var idi. Onunla uzun müddətli yol-yoldaşlıqlarımız olmuşdu. Yadıma salırdım ki, onu necə Leninqrad (indiki Sankt-Peterburq) şəhərinə universitetə qəbul üçün aparmışdım. Elə birinci imtahandaca özünə “2” yazdırıb gəldi ki, dayı, gəl gedək. Səbəbini soruşanda izah elədi ki, ona “4” yazmaq istəyiblər o da razılaşmayıb

ki, elə “2” yazın gedim. Mən təəccüblənəndə bildirdi ki, onsuz da onu universitetə qəbul etməyəcəklər. Məlum oldu ki, imtahan ərəfəsində dəfələrlə ona deyiblər ki, bəs nəyə görə Azərbaycanda oxumayıb qəbul üçün Leninqrada gəlib. Elşad həm savadlı həm də çox cəsarətli oğul idi. Bir qədər sonra heç kimin xəbəri olmadan Saratov şəhərinə gedib orda Ali Hərbi komandirlər məktəbinə daxil olmuşdu. Elşadla bağlı daha çox xatırladığım isə onunla aramızda olan axırıncı söhbətimiz idi. Mən ona demişdim:

- Elşad, sən bilirsən ki, atan da, anan da xəstədir yaşları da çoxdur. Sən hər dəfə əsgərləri cəbhəyə özün aparırsan onlar da bilirsən ki, nə qədər narahat olub xəstəlikləri bir az da kəskinləşir. Heç olmasa arada bir az fasilələrlə get. Elşad heç bir tərəddüd etmədən cavabımı belə verdi:

- Dayı, mən səni yaxşı başa düşürəm, ancaq, bilməlisiniz ki, mənim əskərlərim dünən-srağagün anasının balağının yanından ayrılıb gələn təcrübəsiz gənclərdi. Mən onların yanında olmasam biz daha çox itkilər verərik. Düzü onun bu cavabından sonra artıq mən heç nə deyə bilmədim. Təsadüfi deyil ki, Elşad cəbhədə olarkən başından yaralanır və onu qospitala aparırlar. Yardım göstərildikdən sonra məsləhət bilirlər ki, heç olmasa 1-2 gün qospitalda qalıb müalicə davam etdirilsin, ancaq, Elşad qətiyyətlə etiraz edir, əsgərlərinin yanına qayıdır və həmin gün şəhid olur.Bütün mərasim günlərini belə xatirələrlə üzüntülü keçirirdim. Mərasimin 7-ci günü mənə xəbər verdilər ki, bir nəfər cavan oğlan mənimlə görüşmək istəyir. Görüşümüzün elə ilk anından cavan oğlan özünü çox qəribə apardı, yüksək tonla, sanki, hücuma keçdi:

- Elşad çox dikbaş idi, özünə fikir vermirdi, heç nədən ehtiyat eləmirdi. Doğrusu, hazırlaşdım ki, kobud ifadələrlə omun sözünü yarımçıq kəsim. Yəqin ki cavan oğlan bunu hiss elədiyi üçün söhbətin davamını belə apardı:

- Dayı, siz məndən inciməyin mən Elşadın zabit dostuyam o mənə qardaş qədər əziz idi. Mən onun yoxluğu ilə heç cürə barışa bilmirəm, sadəcə onu bildirmək istəyirəm ki, o heç nədən qorxan, ehtiyat edən insan deyildi. Mən ona qədər nəsihət eləyirdimsə də qulaq asmırdı. Mən dünən cəbhədən qayıtmışam özümə borc bildim ki, bura gəlim və sizinlə görüşüm çünki, sizin haqqınızda Elşad mənə çox şeylər danışıb. Bu gündən sonra artıq siz mənim də dayımsınız, mən bura tez-rez gələcəyəm. Doğrusunu deyim ki, heç adını da soruşub bilmədiyim bu cavan oğlan mənim fikrimdə elə bacıoğlum qədər təəssürat yaratdı və sevindim ki, Elşadı əvəz edən insan var.

O gündən mənim xatirələrimin sırasına həmin cavan oğlandan aldığım təəssüratlar da qoşuldu, onu tez-tez xatırlamağa başladım. Hər gün, xüsusilə də cümə axşamları onun gəlməsini gözləyir, gözüm onu axtarırdı. Ancaq mənə bacıoğlu olmaq istəyən həmin cavan oğlan bir dəfə də olsun bizə baş çəkmədi. Fikirləşdim ki, yəqin həmin gün müəyyən təəssüratların təsiri altında o xoş sozləri deyib getdikcə də yadından çıxarıb. Az olmur ki, belə şeylər. Açığını deyim ki, onu çox qınasam da fikrimdən çıxara bilmirdim. Hər cümə axşamında olduğu kimi axırıncı cümə axsamında da şəhidlər xiyabanına Elşadı ziyarət etmək üçün getdik. Mən adətən cümə axşamlarında ziyarətin sonunda bir az ləngiyir tək qalıb, sanki, Elşadla danışır, kövrəlir və bununla təsəlli tapırdım. Bu dəfə də köhnə ənənəmə sadiq qalaraq müəyyən hissləri yaşadım onunla salamatlaşıb hamıdan arxada başıaşağı kövrək halda yeriməyə başladım. Bir neçə addım atdıqdan sonra hiss elədim ki, mən ziyarətçilərdən çox geri qalıram başımı qaldırıb addımlarımı yeyinlətmək istədim. Başımı azacıq qaldırmışdım ki, məni dəhşət bürüdü ayaqlarım yerimədi əllərim sanki qurumuşdu göz yaşlarımı silə də bilmədim. Qarşımda üzərində həmin cavan oğlanın şəkli əks olunan qəbir daşı ucalırdı, soyadı da Pələngov.

*Epiloq əvəzi:* Bu faciələri yaşayan Elşadın atası 54, Şirəlinin atası isə 52 yaşında dünyasını dəyişdi. Şirəlinin atası oğlu-

nun facəsinə cəmi 3 il dözə bildi. Əslində onun ölümünə səbəb təkcə Şirəli kimi evladı itirməsi yox,  həm də onun qanının batırılması oldu.  Məlum oldu ki, Şirəlinin ölümünə səbəb olan qatil o vaxtlar həmin işlərin açılması üçün məsul olan yüksək çinli məmurlardan birinin narkoman evladıdır.




Mən bu faciələr serialını qələmə aldığım dövrdə növbəti itkimiz də oldu. Şirəlinin anası heç nədən şikayətləmədiyi halda 2 gün ərzində xəstəlik aşkar olunaraq 65 yaşında dünyasını dəyişdi, hansı ki ölümündən 3 gün əvvəl üzərində Şirəlinin şəkli əks olunan böyük bir gül qabını qucağına götürdüyü şəkli paylaşmışdı.

*Akif  Əsədullayev,*
*dayısı*

## Emil ƏHMƏDOV



"Şəhid gəlir!" Hər dəfə bu sözləri eşidəndə ölümün xofunu unuduruq. Hansısa bir məqamda ana ağılarına, laylalarına köklənib kövrəlsək də, bir an sonra köksümüz qabarır, qürur bürüyür daxilimizi: Şəhidimiz var!

Şəhid gizir Emil Əhmədovun cənazəsinin gətirilməsi xəbəri Xırdalana axşam yayıldı. Şəhərin rəsmi nümayəndələri ilə birgə eşidən-bilən vida mərasiminə toplandı.

Örtüyü üçrəngli bayrağımızdan olan şəhid tabutu nəhəng izdihamın müşayiəti ilə yola salındı. Tabut çiyinlərdə deyil, əl üstündə aparılırdı. Yoldan ötən hər kəs "Şəhid gəlir!" deyib ayaq saxlayırdı. Bu, teatral mənzərəyə tamaşa deyildi, Ali Varlığın bizə hədiyyə etdiyi Şərəf Lövhəsi idi! O lövhəyə Azərbaycan Respublikası Prezidentinin adından Müdafiə Nazirliyinin 19 iyul 2008-ci il tarixli əmri ilə "Silahlı Qüvvələrin 90 illiyi", 24 iyun 2013-cü il tarixli əmri ilə "95 illiyi", 26 iyun 2018-ci il tarixli qərarı ilə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları həkk olunmuşdu. Bu tabloda səmavi mesajı olan bir təltif diqqətimizi cəlb etdi: 26 iyun 2016-cı ildə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı. Məqamın mübarək, Emil oğlumuz! Ulu göylərdə mələklər Uca Dərgahı müjdələyirdilər: Şəhid gəlir!

*Mən atamın vətənindəyəm!* Şəhidin anası Esmira Əhmədova: Həyat yoldaşım Bahadur Əhmədovla biz vətəndən kənarda yaşayırdıq. Bahadur Polşada hərbi xidmətdə ikən I Qarabağ Müharibəsi başlandı. Bahadur dedi: "Mən evə qayıtmalıyam!" İki övladımız vardı. Vətənə qayıtdıq. 1993-cü ildə Bahadur Zəngilan uğrunda gedən döyüşlərdə ağır yaralandı, sonra itkin düşdü. Onda Emilin 13 vardı. Uşaq hamının qabağında and içdi ki, atamın intiqamını alacağam. Orta məktəbi bitirdikdən sonra Emil başqa sənət sahəsində çalışsa da, sonra verdiyi vəd həyat yolunu dəyişdi. Altı ay hərbi təhsildən sonra üç il tank alayında xidmət etdi. Sonra gizir olmaq üçün təhsil aldı. Tankçı kimi xidmətə başlayan oğlum tank alayının komandiri oldu. Müdafiə Nazirinin iştirakı ilə keçirilən hərbi təlimlərdə yüksək nəticələr göstərdiyinə görə ona təşəkkür elan olundu və "Xəzər" TV-də göstərildi. Oğlumuz aprel (2016), iyul (2020) döyüşlərində fəal iştirak etmişdi. Sentyabrın 27-də əks-hücum əməliyyatı başlayanda Bakı qarnizonu cəbhəyə göndərildi, sözsüz ki, bizim Emilimiz də...

Emil Əhmədov oktaybrın 31-də səhər 6.30-da zəng vurub anası Esmira xanımla danışır. Deyir: - Ana, məni təbrik elə, mən atamın vətənindəyəm. Yuxarı gedirik!

Bu, o demək idi ki, Zəngilan işğaldan azad edilib. Əhmədovlar ailəsi də zəngilanlıdır! Lakin elə həmin axşam, yəni oktyabrın 31-də axşam əvvəlcə şəhid olması haqqında məlumat, sonra isə cənazəsi gətirildi.

*Canımızı qurban verməyə hazırıq!*

Şəhidin böyük əmisi Əhmədov Əli Qadir oğlu: Emil İkinci Qarabağ müharibəsi başlayandan tank alayının komandiri kimi cəbhə bölgələrində – Zəngilanda, Cəbrayılda, Qubadlıda, Füzulidə əks-hücum mübarizəsində iştirak etdi. Çox mədəni oğlan idi. Hamıya çox xoş münasibət bəsləyirdi. 15 gün qabaq mənə bir şad xəbər verdi. Dedim ki, babanın evini tanıyırsansa, get, həyətimizdə bulaq var, onun suyundan iç. Nəslimizdə

hərbçi çoxdur. Biz hamımız canımızı Vətənimizə, Ali Baş Komandanımıza qurban verməyə hazırıq.

*Belə sərkərdə olmayıb!*

Şəhidin yaxın qohumu Namiq Əliyev (təqaüddə olan polis polkovnik-leytenantı): Oktyabrın 23-də ad günümdə Emil zəng vurub məni təbrik etdi.

– Emil, tezliklə qələbə çal, məhəlləmizə tankınla gəl.

– Mənim tankım məhəlləyə sığmaz, - dedi.

– Hasarları söküb tankına yol açarıq.

Lakin tank deyil, Milli Bayraq örtüklü tabutu gəldi. İzdihamın çoxluğundan əsl-həqiqətdə az qala hasarlar dağılacaqdı.

Gecə saat 2-də şəhidimiz qapımıza gəldi. Onu rəsmi dövlət təşkilatlarının nümayəndələri müşayiət edirdilər. Onlar gecə 4-ə qədər bizimlə bir yerdə oldular.

Gündüz 1-ə on beş dəqiqə işləmiş meyit namazı qılındı, sonra götürdük.

Rəhbərlik xiyabanda toplaşmışdı, çünki hərbçilərin Fəxri Xiyabanına Novxanıdan da bir şəhid gətirilirdi.

Tabut yarım kiometr məsafəyə qədər əl üstündə aparıldı. YPX-nin müşayiəti ilə Fəxri Xiyabana gəldik. Tabutu əsgərlər maşından düşürdülər. Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova, Müdafiə Nazirliyinin yüksək rütbəli zabitləri çıxış etdilər. Sonra tabutun üstündəki bayrağı bükdülər, icra başçısı şəhidin böyük oğlu, babasının adını daşıyan Bahadura verdi. Bahadur bayrağı öpüb qoydu gözləri üstünə: “Vətən sağ olsun!” – dedi. İradə xanım hörmətlə bildirdi ki, “biz sizi tək qoymayacağıq. Şəhidlər bizim şəhidlərdir”.

Şəhidlər uğrunda canlarını fəda etdikləri torpağa əmanət verildi, onların ruhlarına ehtiramla yaylım atəşi açıldı.

Bu müharibə olmalı idi. Bizim millətə başıaşağı gəzmək yaraşmır. Müharibədə şəhid olmasa, qələbə də olmaz. Analarımız çox dəyanətlidirlər. Evindən iki şəhid yola salan analarımız var ki, başı dik gəzirlər. Bu qürur və fərəhin başında da-

yanmaqla başımızı uca edən Ali Baş Komandanımızdır. Hələ belə sərkərdə olmayıb! Allah onu bizə çox görməsin!

*Şəhid məclisində Nuru Paşa yad edildi!*

Sosial məsafə gözlənilməklə keçirilən Şəhid Emil Əhmədovun taziyə mərasimini Hacı Yunus Xudaverdiyev idarə edirdi. O, tarixi bir moizə etdi. Dedi ki, XX əsrin əvvəllərində babam Qobuda anbardar olub. Bir gün o, tarixi bir hadisəni danışdı:



1918-ci ildə bolşeviklərlə ermənilər birləşib Bakı əhalisini qırğına verən günlərdə gecənin sakitliyini atların ayaq səsləri pozmağa başladı. Kəndə vəlvələ düşdü. Xalq bu səsi düşmən atlarının ayaq səsi bildi, hər kəs evində gizləndi. Az sonra qapılar döyülməyə başladı. Eşiyə çıxanda məlum oldu ki, Nuru Paşanın rəhbərliyi ilə türk ordusu gəlib. Nuru paşa bildirdi ki, Bakıda camaatınızı qırırlar, biz də sizə köməyə gəlmişik. Gəlin, bizə qoşulun, birlikdə vuruşaq. Dedik, ay paşa, axı, ov tüfənginə qədər əlimizdən alıblar, yalın əl ilə necə vuruşaq? Dedi ki, silahın olması vacib deyil, yemək bişirərsiniz, silah daşıyarsınız, başqaköməkçi işlər görərsiniz, bu, bizim bəsimizdir. Bizi Qurd qapısı ilə üzbəüz dağın üstünə gətirdilər. Paşa binoklu mənə verib soruşdu ki, Qurd qapısı tərəfdən nə görürsən? Dedim ki, toplar bizə tərəf tuşlanıb. Dedi ki, yarım saatdan sonra onları görməyəcəksən. Qobidə kimin evində nə vardısa, bişirib gətirdi. Ordu qidalandıqdan sonra komanda verildi. Ordu ayağa qalxdı. Bununla da Bakı qırğını yatırıldı. Halbuki ordu iki gün geciksəydi Bakıda insan

qalmayacaqdı. Bunu danışmaqda məqsədim budur ki, türk qardaşlarımız bu gün də bizim yanımızdadırlar, bizə mənəvi dayaqdırlar. Bu gün güclü ordumuz var, kimsəyə ehtiyacımız yoxdur. Unutmayaq ki, bu hörməti Prezidentimiz ağlı, mədəniyyəti ilə qazanıb. Türk qardaşlarımızın şəhidləri üçün rəhmət oxuyaq, qalanlarına cansağlığı diləyək. Allahtaala türk xalqlarının birliyini əbədi eləsin. Allah dünyamızı ayıltsın! Bizi anlamayan xalqlara ağıl, zəka versin ki, baş verənlərin həqiqətini anlasınlar. Haqq işində haqqın yanında olsunlar, Ali Baş Komandanımızın haqq çağırışını eşitsinlər.

Görüşümüzün sonunda müsahibədə iştirak edən Şəhidimizin əzizlərinə sual verdik ki, bu gün Emil sizin üçün kimdir? Sualımız ehsan süfrəsinə göz yaşları səpələdi, amma hər kəs qürurla dedi:

Şəhid anası Esmira xanım: Emil mənim oğlum idi, indi xalqın oğludu. O, atasının simasında ataların, anasının simasında anaların intiqamını aldı. Ürəyimdə hər an onunla danışıram. Sevinirəm ki, vətənimiz uğrunda şəhidim var! Fəxr edirəm ki, şəhid xanımı, şəhid anasıyam!

Şəhid bacısı Elnarə xanım: Qardaşımla, məhz torpaqlarımız uğrunda şəhid olması ilə fəxr edirəm. O, hər an mənimlədir. Bəli, biz prezidentimizə heyranıq. Hər çıxışını səbirsizliklə gözləyirik. Yeganə prezidentdir ki, torpaqlarını bu cür mərdliklə alır. Ana Esmira xanım: Allah qoysa hamısını alacaq. Şəhidin xalası qızı Məryəmxanım Əliyeva: Deməyə söz çoxdur, demək olmur. Mən də xalam oğlu ilə fəxr edirəm! Biz gənclər gələcəkdə kimin haqqında nə danışacağımızı yaxşı bilirik. Şəhidin əmisi Əli müəllim, yaxın qohumları Namiq müəllim fikirlərini belə yekunlaşdırdılar: Ali baş Komandanımız əsl-həqiqətdə tarix içində yeni bir tarix yazır. Onun kimi sərkərdə olmayıb. Emil ABK-ımızın əmri ilə əks-hücum əməliyyatına getmiş bir əsgərdir. Şəhiddir. Bütün şəhidlər Emil qədər əzizdilər. Şəhidi olmayan vətəndən Vətən olmaz!

O vaxt küçələrdən, mağazalardan, məktəblərin qabağından yığıb əsgər aparırdılar. İndi isə yüksək təhsil və təlim görmüş güclü ordumuz var. Bu, rəhmətlik Ümummilli lider Heydər Əliyevin, ağıllı davamçısı Prezidentimiz cənab İlham Əliyevin bacarığı, uzaqgörənliyi sayəsindədir. O, bizi valeh edir.

*"Qarabağ – Azərbaycandır!"*

Müdafiə Nazirliyinin zabitləri və əsgərləri, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova, Başçının Xırdalan Şəhər İnzibati ərazi dairəsi üzrə nümayəndəsi Rafiq Yusubov, Abşeron Rayon Polis İdarəsinin rəisi pols polkovniki Şəhriyar Şəmşirli, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Abşeron rayon şöbəsinin rəisi polkovnik-leytenant Hüseyn Quliyev, Səfərbərlik Hazırlıq və Səfərbərlik bölməsinin zabiti kapitan Murad Əhmədov, Yol Patrul Xidmətinin əməkdaşları! Əsgər-şəhid ailəsinə Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin necə həssaslıqla yanaşmasının Sizin simanızda da təcəssüm və təzahürünü görüb, bir vətəndaş kimi dəyərləndirdik. Sizə dərin təşəkkürümüzü bildiririk. İradə xanımın söylədiyi kimi, Şəhid təkcə Əhmədovlar ailəsinin deyil, bizimdir – bütün Azərbaycanındır. Qarabağ – Azərbaycandır!

*Şəhidlərə öldü deməyin!*

Bütün deyilənlərin sonunda lirik ovqat yarandı. Haqlı idilər: axı, Müqəddəs Kitabımızda da Buyurulur ki, şəhidlərə öldü deməyin, onlar Allah Dərgahında sağdırlar!Bu səbəbdən hər an yolunuzu gözləyirik. Elə bilirik, işə getmisiniz, axşam evə qayıdacaqsınız. Ölümünüzü hiss etmirik. Şəhidlərimizin mübarək cərgəsinə yeni qoşulan Emil oğlumuz!

*Rafiq Rəhimli*

# Emil KƏRİMOV



Şəhid Kərimov Emil İlqar oğlu. 1993-cü il 7 sentyabr tarixində Qazax rayonunun İkinci Şıxlı kəndində anadan olub. 2000-ci ildə Valeh Musayev adına İkinci Şıxlı kənd tam orta məktəbinin 1-ci sinfinə daxil olub və 2011-ci ildə həmin məktəbin məzunu olub. Elə həmin ilin 19 oktyabr tarixində həqiqi hərbi xidmətə yollanmışdır. Əsgər Kərimov Emil İlqar oğlu 2011-ci ildən 702 saylı hərbi hissənin 4-cü taborun 11-ci bölük 2-ci tağım 2-ci manqa komandiri vəzifəsində xidmət etmişdir. Xidmət etdiyi müddət ərzində özünü bacarıqlı, savadlı, çalışqan əsgər kimi göstərmişdir. Vətənimizin müdafiəsi naminə öz müqəddəs əsgəri borcunu vicdanla yerinə yetirmişdir. Qısa müddət ərzində o, hərb elminin öyrənilməsində, təhkim olunmuş silah və döyüş texnikasına tam yiyələnməsində yüksək nəticələr əldə etmişdir. Əsgər Kərimov Emil İlqar oğlu hərbi hissənin ictimai və idman tədbirlərində fəal iştirak etmişdir. Komandirlərin (rəislərin) əmrlərini düz-gün və bacarıqla yerinə yetirmişdir. Komandir və rəislərinin, həmçinin, əsgər yoldaşlarının hörmətini qazanmışdır. Tutduğu vəzifəsinin icrasına məsuliyyətlə yanaşıb, ona həvalə olunmuş silahın daim saz vəziyyətdə olması üçün layiqincə çalışmışdır. Hərbi nizamnamələrin tələblərini bilir və gündəlik xidmətində tətbiq etməyi bacarırdı. Öz əsgəri borcuna məsuliyyətlə yanaşdığına və nümunəvi xidmətinə görə o, komandanlıq tərəfindən dəfələrlə həvəsləndirilmişdir. Yoldaşları ilə münasibətdə səmimi və mehriban, özünə qarşı tələbkar olmuşdur. 2013-cü il aprel ayının 1-də hərbi xidmətdən təxris olunmuşdur. 18 aylıq həqiqi hərbi xidməti dövrün-

də tornaçı, baş elektrik, akkumlyatorçu, manqa komandiri vəzifələrini yerinə yetirmiş və təşəkkürnamə almışdır. 21 sentyabr 2020-ci il tarixində 707 nömrəli hərbi hissədə təlimə çağırılmışdır. Təlim müddətində 4 gün Gəncədə olub, buradan Şəmkir poliqonuna gedib və 4 gün də orada olub. Daha sonra Daşkəsənə göndərilib və 1 həftə orada olub. 1 günlük Ağstafaya gətiriblər və həmin gün ailəsi ilə görüşüb. 2020-ci il 11 oktyabr tarixindən Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarında Füzuli rayonu istiqamətində iştirak etmişdir. Oradan isə Cəbrayıla yollanmışdır. Cəbrayılda bir postun təmizlənməsində iştirak edib və yenidən Füzuliyə qayıdıb. Oktyabrın 25-i gündüz ailəsi ilə sonucu dəfə danışıb və elə həmin günün axşamı Füzuli rayonu uğrunda gedən döyüşlərdə "qəlpələrlə zədələnmələr, başbeynin diffuz travması" səbəbindən qəhrəmancasına şəhid olmuşdur. 27 oktyabr tarixində Qazax rayonu İkinci Şıxlı kəndində dəfn olunmuşdur.

Bu arada xatırladım ki, şəhidimiz Emil Kərimov ailəli idi, Nazənin və Amin adlı 2 övladı var. İgidliyi ilə dillərə dastan olan şəhidimiz, Emil, sən heç zaman unudulmayacaqsan! Şəhidlər bizim həm nisgilimiz, kədərimiz, ürək ağrımız, həm də qürurumuz, vüqarımız, fəxrimiz, ölməzliyimiz, örnəyimizdir. Şəhidlər ölməz, unudulmaz! İllər keçsə də, gələcək nəsillər onları hər zaman böyük minnətdarlıq duyğusu ilə yad edəcəklər. Şəhidlərin davamçısı varsa, xatirələri hər yerdə anılırsa, deməli, onlar ölməyib, ürəklərdə daim yaşayırlar. Hər birimizin vətəndaşlıq borcudur ki, şəhidlikləri ilə bizə qələbə sevinci yaşadan bu oğullarımızı daim qəlbimizdə yaşadaq.

*Nənəxanım Nəsibova*

## Emil ŞAMİLOV





Emil Şamilov 1996-cı ildə Bakı şəhəri Sabunçu rayonunun Ramana kəndində anadan olub.

Türk dünyasının milli döyüş sənəti olan Alpaqut döyüş sənətinin sirlərini dərindən öyrənən Emil həm bu idman növündə, həm də karate idmanında ard-arda uğurlar əldə edib. 12 dəfə Azərbaycan çempionu, 1 dəfə Avropa və 1 dəfə dünya çempionu adını qazanan Emil Şamilov Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edib. İkinci Qarabağ savaşına könüllü yollanıb və Xüsusi Təyinatlı Qüvvələrin əsgərləri ilə birlikdə döyüşüb. Hadrut uğrunda döyüşdə şəhid olub. Emilin atası Rafiq Şamilov da Birinci Qarabağ Savaşının veteranıdır. Ailə üzvləri deyib ki, Emilin ən böyük arzusu Şuşanı işğaldan azad görmək olub. Allah rəhmət eləsin!

Azərbaycan Alpaqut Federasiyası Sabunçu Filialının rəhbəri, təcrübəli məşqçisi, bir çox yeniyetmə Alpların müəllimi Emil Şamilov işğal olunmuş torpaqların azadlığı uğrunda snayper atəşindən şəhid olub.

*Şəbnəm Babayeva*

# Emil QURBANOV



*Şərəflə yaşadığı müəllim ömrünün Şəhidlik zirvəsi.*

Qubadlı uğrunda gedən döyüşlərdə Lənkəran şəhər A.Məhərrəmov adına 7 nömrəli tam orta məktəbin müəllimi Emil Qurbanov 5 güllə yarası alaraq şəhadət şərbətini içdi. Ondan geriyə hər birinin həyatında dərin iz buraxdığı yetirmələri, xatirələrində gözəl anlarla yaşayacağı dost-tanışı, bir də vətən əmanəti qızı qaldı. III kursda oxuyan tələbə qızı Emilyaxanım deyir, atasının yeri yaman görünür. Xüsusən, axşam düşüb şər qarışanda qapıdan girən atasının sevgi dolu öpüşü üçün çox darıxır.İxtisasca müəllim olan həyat yoldaşı Vüsalə Qurbanova üçün bu boşluğu doldurmaq asan olmayacaq. Lənkəran şəhər 17 saylı Körpələr evi - Uşaq bağçasında metodist vəzifəsində çalışan Vüsalə müəllim  indi Emil müəllimlə Girdəni kəndində birgə qurduqları yuvalarında yeganə balası, Emil müəllimin yadigarı ilə yarım qalan həyatlarını tək davam etdirir: "25 ildir Emili tanıyıram. Uşaqlığım, gəncliyim onunla keçib. Əvvəlcə sinif yoldaşı, sonra tələbə yoldaşı, daha sonra da ömür-gün yoldaşı olduq. Oktyabrın 27-də evliliyimizin 19-cu ildönümünü qeyd etdik. Ondan 2 gün sonra şəhid oldu. Bundan sonra da birgə olacaqdıq. Elə xəyallar qururduq. Hələ məktəbi bitirməyimizin 25, 30 illiklərini qeyd edəcəkdik". Emil müəllim Lənkəran şəhər 7 nömrəli tam orta məktəbdə gənclərin çağırışaqədər hərbi hazırlığı müəllimi, təlim-tərbiyə işləri üzrə direktor müavini idi. Hərbi xidmətdən sonra bir müddət hərbçi kimi fəaliyyətini davam etdirib taqım komandiri olmuşdu. Ancaq sonradan ailəsini yanına apara bilmədiyindən özü hərbi hissədə fəaliyyətini dayandıraraq rayona, ailəsinin ya-

nına qayıdıb. Həm məzunu olduğu 7 nömrəli tam orta məktəbdə gənclərin çağırışaqədər hərbi hazırlıq müəllimi, həm də "Zirvə" İdman Kompleksində məşqçi kimi işə başlayıb. 2006-cı ildən bu yana yetişdirdiyi idmançılarla böyük uğurlara imza atıb: "Məktəbdə "Xəzər" komandasını yaradıb. Komandanın üzvləri dəyişirdi, amma uğurları yox. Diplomlar, fəxri fərmanlar qazanırdılar". "Pis vərdişləri olan uşaqların həyat tərzini dəyişirdi". Emil Qurbanovun müəllimi olduğu məktəbdə də onun yoxluğu hiss olunacaq. Məktəbin direktoru Səadət Kazımova Emil müəllimi cəsarəti, mərdliyi ilə xatırlayır: "Sözünə bütöv, mərd biri idi. Cəngavər kimi bir insan idi.Məktəbimizin keçmiş direktoru ona "Koroğlu" deyirdi. Əsl insan idi. Müəllim, şagird, valideyn – fərqi yoxdur, yolda gördüyü hər kəsi maşınına götürür, evinə qədər aparıb düşürürdü. Məktəbimizdə çətin tərbiyə olunan uşaqları məşqçisi olduğu "Zirvə" İdman Kompleksinə cəlb edir, pis vərdişləri olan uşaqlara yeni həyat verir, uşaqların həyat tərzini dəyişirdi".

Məktəb direktoru Emil Qurbanovun dəfnindəki izdihamı Vətən müharibəsi şəhidinə olan son borc olmaqdan əlavə Emil müəllimə olan sevginin də təzahürü hesab edir. Şagirdi: "Qazandığım çox şeyi Emil müəllimin sayəsində əldə etmişəm". Şagirdi olmuş Pərvin Hüseynzadə isə 10 ildir onu tanıyırdı. Dediyinə görə, Emil müəllim yüzlərlə başqa şagird kimi, onun da həyatını dəyişib: "Mən onu hələ bizə dərs demədən əvvəl tanıyırdım, amma o məni 7 nömrəli məktəbdə bizə dərs deməyə başlayandan sonra tanıdı. X-XI sinifdə mənə dərs deyib. Əvvəllər onun özündən razı olduğunu düşünürdüm. Amma tanıdıqca mehriban, canayatan, qayğıkeş biri olduğunu gördüm". Beləcə şagirdlərin sadəcə biri – Pərvin Hüseynzadə ilə müəlliminin yol yoldaşlığı başlayır: "Məni idmanla məşğul olmaq üçün özünün məşqçi kimi çalışdığı "Zirvə"yə dəvət etdi. "Gəl bizlə bir yerdə məşq edək", – dedi. Həyatımda mənim böyük qardaşım oldu. Onun xətrin dünyalar qədər istədim". Bu yoldaşlıq Pərvin

məzun olandan sonra da davam edib: “Məni hərbi xidmətə yola saldı, qayıdanda arıqlamışdım. Mənimlə özü məşğul olurdu. Bir də onda gördüm ki, yaşıdlarımdan böyük görünürəm. Sonra atam avtoqəza keçirdi, həyatımda birdən-birə çoxlu problemlər yarandı. 12 günün içində 15 kilo arıqladım. Emil müəllim mənə ürək-dirək verdi, həmişə yanımda oldu. Danışıb-gülən adam idi. Bu gün qazandığım bir çox şeyi, o cümlədən işimi Emil müəllim sayəsində əldə etmişəm. Təsəvvür edin, 10 il hər gün onun yanında olmuşam. Ən əziz insan idi mənim üçün”.

Pərvin bir də ona təəssüflənir ki, həyatının ən çətin məqamlarında yanında olan müəllimini Vətən müharibəsinə yollanarkən yola sala bilməyib: “Kursa getmişdim. Rayona qayıdanda öyrəndim ki, Emil müəllim gedib. Müharibəyə getməyindən sonradan xəbər tutsam da, şəhid olduğunu hamıdan əvvəl öyrənmişdim. Bizim könüllü olaraq müharibəyə gedən uşaqlardan biri qardaşına zəng edəndə demisdi Emil müəllimin şəhid olduğunu. Emil müəllim döyüşə gedəndə görüşüblər, hamı qayıdıb, o yox. Ona demişdilər ki, Emil məllim başından yaralanıb”.

Pərvin deyir, Emil müəllimlə dəfələrlə yarışa qatılıb, nailiyyətlər qazanıblar: “Şahinlər yarışında iştirak edib III yeri tutmuşduq. Hərbi yarışlarda uğur qazanırdıq. Emil müəllim “Bench press” üzrə 212 kiloqram çəki dərəcəsində Azərbaycan rekordçusu idi”. “Bench press” rekordçusu savaşda da öndəydi. Öncə tabor komandiri, sonra müəllim və məşqçi arxada necə qala bilərdi?! Qalmadı və şərəflə yaşadığı müəllim ömrünü şəhid olaraq başa vurdu o da.

*Ruhiyyə Daşsalahlı*

## Emin MƏMMƏDOV



Vətən müharibəsi zamanı xüsusi qəhrəmanlıq göstərən hərbçilərimizdən biri  Xüsusi Təyinatlı Qüvvələrin giziri şəhid Emin Məmmədovdur.

Şəhid Emin Vətən oğlu Məmmədov 1992-ci ilin avqustun 15-də Beyləqan rayonunun Qəhrəmanlı kəndində anadan olub. 1998-2009-cu illərdə şəhid Tağı Məmmədov adına tam orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılmış və hərbi xidməti başa vurduqdan sonra elə orada işləməyə qərar vermişdir.

Türkiyədə MAMAK snayper kurslarında iştirak etmişdir. Türkiyədən gələndən sonra Xüsusi Təyinatlı Kəşfiyyatın snayperçisi olur. Hərbi xidmətdə olduğu dövrlərdə bir çox fərqlənmə mükafatlarına layiq görülür.

Snayper fəaliyyətində göstərdiyi şücaətə görə, ona 2016-cı ildə "Aprel döyüşləri" zamanı kiçik gizir rütbəsi verilmişdir. Emin Məmmədov 2018-ci ildə SAT kursu keçmişdir. O, Xüsusi Təyinatlı bölüyün 3-cü qrupunda snayper ixtisasında fəaliyyət göstərirdi. Xüsusi Təyinatlı bölmədə kəşfiyyatçı-atıcı olan Emin Məmmədov Füzuli istiqamətində gedən döyüşlərdə düşmənin mövqelərinin darmadağın edilməsində xüsusi rol oynayıb. Döyüş yoldaşlarının verdiyi məlumata görə, hərbçimiz müharibə başlanan zaman ön cəbhəyə yollanıb. 27 sentyabr tarixində Məmmədov Eminin atəş dəstəyi altında qrup düşmən postuna daha tez daxil olmuşdur.

Füzuli istiqamətində gedən döyüşlərdə düşmənin bir neçə postu və bölüyünün alınmasında iştirak etmişdir.

Emin Məmmədov İkinci Qarabağ müharibəsində 27 sentyabr tarixində Füzuli uğrunda gedən döyüşlərdə Füzulinin Qaraxanbəyli kəndinin Yastı təpə adlanan ərazisində döyüş zamanı səngərdə mənfur düşmənin açdığı atəş nəticəsində qəhrəmancasına Şəhid olmuşdur.

Atası və anası övladları ilə qürur duyurlar. Eminin şəhid olması ürəklərini ağrıtsa da, vətən torpaqlarının azad olunmasında oğullarının da payının olması onlar üçün böyük fəxrdir. Valideynləri deyirlər ki, Emini evləndirmək niyyətləri olub. Axırıncı dəfə onunla danışanda bildiriblər ki, müharibə qurtaran kimi onu istədiyi qızla nişanlayacaqlar. Emin Məmmədov kimi şəhidlərimiz, qazilərimiz bir tarix yazdılar. Emin doğulduğu qəsəbənin adı kimi Vətənimizin qəhrəmanına çevrildi.

Ruhun qarşısında baş əyirik Vətən oğlu!

Allah rəhmət eləsin!

*Gülnarə Kazımova*



## Əbdülrza RƏFİBƏYLİ



Şəhid Rəfibəyli Əbdülrza Şamməd oğlu 2 iyun 1998-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, əslən Masallı rayonundan idi. 2004-2015-ci illərdə Tahir İmanov adına Bakı şəhər 57 nömrəli orta məktəbdə təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra xidməti borcunu yerinə yetirmək üçün hərbi xidmətə gedir. 27 iyul 2016-cı ildən etibarən Naxçıvan "N" saylı hərbi hissədə xidmət edmişdir. 4 yanvar 2018-ci ildə təxris olunmuş və ehtiyata buraxılmışdır.

Əsgərliyini bitirdikdən sonra "Fres qida şirkəti"ndə işləmişdir. 21 sentyabr 2020-ci il tarixindən etibarən 877 nömrəli hərbi hissədə təlimə qatılmışdır. Sonra, 27 sentyabr 2020-ci il tarixindən Füzulidə "N" saylı hərbi hissədə II Qarabağ müharibəsində torpaqlarımızın azadlığı uğrunda döyüşlərəqatılıb. O, torpaqlarımızın azad edilməsi uğrunda döyüşlərdə olduqca fəal iştirak etmişdir.

Oktyabr ayının axırlarında Şuşa istiqamətində olan döyüşlərdə Şəhidlik zirvəsinə ucalıb. Şəhid Rəfibəyli Əbdülrza ailənin son beşiyi idi və subay idi. İndi Bütün ailəsi, eləcə də hər kəs onunla qürur duyur. Şəhidlər ölmür!

*Zəhra Nəzərli*

# Əbdülməcid AXUNDOV



Bir yerdə oxudular, birlikdə əsgərlik çəkdilər, bərabər şəhid oldular

*“Əbdülməcid Elvinin yaralandığını görüb, ona tərəf sürünüb, sonra yanına mərmi düşüb”.*

Qələbə heç bir zaman asanlıqla əldə olunmur. Xüsusən də, döyüş meydanındakı qələbə şəhid, qazi istəyir. 2016-cı ilin aprel ayında olduğu kimi.

Aprel döyüşlərində düşmənin hücumunun qarşısını alan hərbçilərimiz bir addım belə, geri çəkilmədilər. Əksinə, düşmənə ciddi zərbə endirib, işğal altında olan ərazilərimizin bir hissəsini azad etdilər. Ən əsası isə odur ki, bütün dünya, ilk növbədə işğalçı Ermənistan Azərbaycan əsgərinin gücünü, döyüş ruhunu gördü və dərs çıxardı. Amma nə yazıq ki, bu döyüşlərdə onlarla oğlumuz şəhid oldu, yaralandı. Onlardan biri də şəhid Əbdülməcid Axundov idi…

Onun şəhidlik xəbərini belə xatırlayıram: “Azərbaycanda məmur oğlu şəhid oldu”. Çox çəkmişdi bu başlıq məni özünə. Oxuyanda isə aydın oldu ki, şəhid Əbdülməcid Axundovun anası Sumqayıt Regional Mədəniyyət və Turizm İdarəsində çalışır. Şəhidin doğum günü yaxınlaşdığı üçün Ceyran Axundova ilə görüşüb, Əbdülməcidin 23 illik həyat hekayəsini yazmaq istədim. Ceyran xanım məni iş yerinə dəvət etdi. Ağrılı-acılı olsa da, Əbdülməcidi yad etdik.

*“Hərbçilərin şəxsi həyatı olmur”*

Əbdülməcid Axundov 1993-cü il oktyabrın 15-də Sumqayıtda dünyaya gəlib. Ailədə iki qardaşın kiçiyi olan Əbdülməcid, hələ uşaqlıqdan həmyaşıdlarından dürüstlüyü, cəsarəti ilə seçilərmiş. Dostları üçün canını qurban verməyə belə, hazır

olan Əbdülməcidin bu xasiyyəti anasını da narahat edirmiş. Şəhidin anası Ceyran Axundova Əbdülməcid haqqında danışarkən göz yaşlarını saxlaya bilmir, amma özünü ələ almağa çalışırdı. Deyir ki, bundan sonra Əbdülməcidi yaşatmaq üçün yaşayacaq: "İki övladım var idi – Elçin və Əbdülməcid. Aralarında 1,5 il fərq vardı. Onların dünyaya gəlməsi 90-cı illərə təsadüf etmişdi. Özünüz də bilirsiniz ki, həmin illər necə çətin illər idi. Amma biz onlara elə baxırdıq ki, heç bir çətinlik görməsinlər".



"Həmin dövr bağçalarda işığın, istilik sisteminin olmadığı bir dövr idi. Özüm də işləyirdim. Məcbur olub, onları gecə-gündüz bağçasına qoymuşdum. Çox mehriban uşaq idilər. Əbdülməcid çox istiqanlı, yaraşıqlı və şirin uşaq olduğu üçün hamı onu sevirdi. Orta məktəbə də onu tez qoydum. O, 2000-ci ildə məktəbə başlamalı idi, biz isə 1999-cu ildə məktəbə qoyduq. Mən uşağın gələcəyini düşündüyüm üçün onu tez qoydum məktəbə. Düşünürdüm ki, birdən yaxşı oxumaz, birinci il ali məktəbə daxil ola bilməz. Belə edib, öz uşağımın taleyi ilə oynadım" – ana danışır.

Ceyran xanımın sözlərinə görə, Əbdülməcidin uşaqlıqdan arzusu hərbçi olmaq imiş, amma Ceyran xanım onun bu arzusunu həyata keçirməsinə icazə vermir, oğlunu bu sənətdən uzaqlaşdırmağa çalışır: "Hərbçi sənətini heç vaxt sevməmişəm. Hərbçilərin şəxsi həyatı olmur. Ömür boyu sərgərdan olurlar. Buna görə də, mən onu texniki fənlərə yönləndirdim". Hər zaman olduğu kimi bu dəfə də Əbdülməcid anasına qulaq asır

və sənədlərini birinci qrupa verir. Ceyran xanımın sözlərinə görə, birinci qrupun fənləri ağır olsa da, Əbdülməcid universitetin fəal tələbələrindən olur: “O, məktəb illərində də müəllimlərinin sevimlisi olub. Dostlarına görə hər zaman özünü önə atardı. Əgər kimsə bir pəncərə şüşəsini sındırsaydı, Əbdülməcid özünü qabağa verib, “mən etdim”, – deyərdi”.



“Bir gün gəlib mənə dedi ki, “10 manat ver, məktəbin şüşəsini sındırmışam”. Düzü, bir qədər əsəbiləşdim, “sən məktəbə dərs oxumağa gedirsən, yoxsa şüşə sındırmağa”, – deyə soruşdum. Dedi uşaqlarla zarafatlaşırdım, qolum dəydi, sındı. Amma o, şəhid olandan sonra bildim ki, şüşəni o sındırmayıbmış, sadəcə yoldaşının səhvini boynuna götürübmüş. Belə uşaq idi. Dostları hər zaman mənə deyirdilər ki, “Ceyran xala, çalışın, onu əsgər getməyə qoymayın”. Dostları onun xarakterini bilirdilər. Canını dostları üçün qurban verərdi” – deyir C. Axundova.

*“Mən də şəhid olacağam…”*

Əbdülməcid hər zaman işğal altında olan torpaqlarımız haqqında danışarmış. Ceyran xanım deyir ki, Əbdülməcid Mübariz İbrahimovun dəfn mərasiminə dəfələrlə baxır, ona qibtə edirmiş: “Deyirdi, “ay ana, bax bütün Azərbaycan onu dəfn edir. Mən də deyərdim ki, "nə olsun, o öldü, onunla ata-anası da öldü”. Elə oğulu itirəndən sonra özün də ölü kimi olursan. Deyirdi ki, nə olsun, “onu dəfn etməyə prezident gəlib, necə gözəl ölümdür”.

Əbdülməcid hərbi xidmətə gedənə qədər qəhrəmanlarımız, şəhidlərimiz haqqında videogörüntüləri böyük həvəslə izləyirmiş: "Bəzən mənə də deyirdi ki, "mən də şəhid olacağam". Buna görə də çox qorxurdum, acığıma da gəlirdi. İstəmirdim ki, o, hərbi xidmətə getsin. Dəfələrlə onu hərbi xidmətdən saxlamağı təklif etmişdim. Bu barədə çox düşünürdüm. Amma deyirdi ki, "mən əsgər gedəcəyəm, sənin pulun batacaq". "Qardaşım hər zaman deyirdi ki, "alın yazısı nədirsə, o da olacaq". Mən çalışırdım ki, pis olan hər şeyin qarşısını alım. 2015-ci ilin iyulun 20-də Əbdülməcid hərbi xidmətə yola düşdü. İyulun 19-u iş yoldaşlarımla birlikdə yığılıb, Qubaya getdik. Gecəni də orda qaldıq. Hava çox soyuq idi. Orda adyala bürünüb bir şəkil çəkdirdik. Elə həmin şəkli də telefonuma qoydu, dedi, "ana mən gələnə qədər bu şəkli telefonundan çıxarma", – ana danışır.

Qadın bu sözləri deyib telefonunu göstərir. Bir neçə dəqiqəlik sükutdan sonra yenidən söhbətə davam edir: "Əbdülməcid Gəncəyə düşmüşdü. Andiçməsinə də getmişdim. Sonra sentyabrın 10-da bir də yanına getdim. Bilirdim ki, bölünəcəklər. Bölünmə olanda Əbdülməcid Tərtərə, Marquşavana düşdü. Tərtər adını eşidəndə bədənimdən üşütmə keçdi, gözümdən yaş axdı. Bir Tərtərə, bir də Goranboya, Tapqaraqoyunluya düşməsini arzulamırdım".

O, hərbi xidmətdə olan zaman anasının yanına gəlməyə qoymurmuş: "Məni qoymurdu yanına gedim. Deyirdi, "lazım olsa, Elçin gəlsin". Sonra bir yaxın tapdıq, nə olurdusa, onunla Əbdülməcidə göndərərdik. Yerindən də şikayətlənmirdi. Tez-tez zəng etməzdi. Narahat olurdum, amma deyirdi ki, zəng edim nə danışım?".

Yanvarın 22-si Əbdülməcid məzuniyyətə gəlir. Ceyran xanım oğlunu görəndə gözlərinə inanmır. Əbdülməcid bu aylar ərzində həqiqətən dəyişib, sözün əsl mənasında böyüyübmüş. Boyu 1,90 sm olan gənci əsgərlik həyatı tamamilə dəyişibmiş. Ev-

dəki geyimləri də ona olmurmuş: “O, mənim gözümdə həmişə uşaq idi. Düşüncələri uşaq kimi idi. Amma əsgərlikdən gələndə gördüm ki, Əbdülməcid əsl kişi olub”.

*Son dəfə dedi ki, “qəfil gələcəyəm”, qəfil gətirdilər…*

Ceyran xanım deyir ki, o, hər zaman Əbdülməciddən narahat olurmuş: “Mən böyük oğlum üçün əsməmişəm. Bunun üçün əsirdim. Dənizə gedəndə qorxurdum, batar, dostları ilə avtomobillə harasa gedəndə düşünürdüm qəza olar, başına nəsə gələr. Sonuncu dəfə gələndə də taksi ilə gəldiyi üçün narahat olmuşdum. Dedim, gələn dəfə avtobusla gəl, taksilər yaxşı sürmür. Cavab verdi ki, gələn dəfə xəbərsiz gələcəm. Qayıtdım ki, elə etmə xəbər et ki, hazırlıqlı olum. Dedi yox qəfil gələcəyəm”. Ana sonuncu dəfə oğlunun yanına mart ayının 13-də gedir. Oğluna bayram payı aparan ana ona dönə-dönə tapşırır ki, xidməti bitirməsinə 3 ay qalıb, özünü yaxşı aparsın, mübahisələrə qoşulmasın ki, hərbi xidməti başa çatan kimi ilk buraxılanlardan olsun: “Sonuncu dəfə yorğun görünürdü. Dedi ki, yatmayıb gecəni. Əmr verilib ki, ayıq-sayıq olsunlar. Yarpaq dolmasını çox sevirdi. Bişirib aparmışdım, amma bu dəfə yemək istəmirdi. Güclə yedirtdim”.




“Əbdülməcid manqa komandiri idi. Həmin gün mən ona telefonunu da verdim. Amma heç istifadə edə bilmədi ki… Sonra öyrəndim ki, bayram günlərində telefonunu əlindən alıblar. Nə isə problem olmuşdu. Məcid tapşırmışdı ki, ona zəng etməyim. Amma ürəyim dözmürdü. Rəisimizin yaxını orda xidmətdə idi. Ondan xahiş etdim, dedim ki, Məciddən nigaranam. Danışıb dedi ki, zəng elə. Etdim. Məcid telefona gəlib

elə qışqırdı ki... Dedi, "sənə deməmişəm bura zəng eləmə?" O, mənə demişdi ki, ora zəng etməyim. Qışqırıb telefonu üzümə bağladı. Və mən bunu bu günə qədər özümə bağışlaya bilmirəm", – gözü yaşlı ana deyir.

Aprelin 1-də qardaşı Elçinin ad günüdə onu təbrik üçün zəng edən Əbdülməcid anası ilə də danışır. Deyir ki, vəziyyəti yaxşıdır, narahat olmasınlar. Ayın 2-si isə eşitdiyi xəbərdən Ceyran xanım üçün həyat dayanır. Yaxınları, qardaşı, atası Əbdülməcidi axtarmağa başlayır.

Ceyran xanım deyir ki, əslində hamı Əbdülməcidin həlak olduğunu bilirmiş. Amma heç kimin ürəyi gəlmirmiş ki, bu xəbəri ona desin: "Elçin Məcidin arxasınca gedəndə Məcidin əşyalarını – qol saatını, 41 manat pulunu və telefon nömrəsini ona vermişdilər. Elçin bunu da məndən gizlədibmiş. Məcid döyüşə gedəndə əşyalarını verib deyibmiş ki, "mən gedirəm, ola bilsin ki, sağ qayıtmadım, qardaşım dalımca gələcək, əşyalarımı ona verərsiniz". Elə də olur. Məcid qayıtmır".

"Ayın 8-i Qırmızı Xaç Komitəsi məsələyə qarışdı. Bütün gün televizor qarşısında oturub xəbərləri izləyirdim. Əvvəlcə belə xəbər dedilər: "Ərazidə sağ qalan yaralıların və meyitlərin çıxarılması üçün işlər gedir". Bu xəbər mənə ümid vermişdi, düşünürdüm ki, yaralılar arasındadır Məcid. Çünki mənə demişdilər ki, sağdır. Axşam isə "meyitlərin çıxarılması davam etdirilir" xəbəri verildi. Onda ümidim qırıldı. Anladım ki, deyəsən… O qədər nəzir ayırmışdım ki, Məcid sağ qayıtsın. Deyirdim qolu-qıçı olmasın, amma sağ gəlsin…" – qadın bildirir. Ceyran xanım göz yaşlarını saxlaya bilmir. Amma özünü toparlayıb, söhbətinə davam edir. Deyir ki, Əbdülməcidin cənazəsini ayın 9-u səhər saatlarında gətiriblər: "Elçin qapıdan içəri girəndə rəngini gördüm, saralmışdı. Anladım ki, Əbdülməcid daha yoxdur. Qəfil gətirdilər cənazəsini. Heç xəbərim yox idi. Bir də gördüm qapı açıldı və cənazə içəri gətirildi. Dediyi kimi oldu, qəfil gəldi. Tabutu açdım, kimsə mane olmadı. Kəfəni aç-

maq istəyəndə əlimdən tutdular, dedilər açma Ceyran, sonuncu dəfə necə görmüsən, elə xatırla. Kəfənin ipini də açmışdım. Amma üzünü görə bilmədim. Kaş açaydım, kaş görəydim sonuncu dəfə, kaş sonuncu dəfə öpüb oxşaya biləydim balamı…"

*Sağ böyrü tamamilə dağılıbmış…* Ceyran xanımın sözlərinə görə, sonradan Əbdülməcidin necə yaralandığı, hansı yara ilə dünyasını dəyişməsi ilə maraqlanıb. Oğlu Elçinlə Hərbi Prokurorluğa gedib və oğlunun şəkillərini istəyib. Şəkilləri verən müstəntiq Ceyran xanıma baxmamağı məsləhət görüb. Elçin də anasına Əbdülməcidin son şəkillərinə baxmağa icazə verməyib.

Amma ürəyi ilə bacara bilməyən ana, oğlunun necə yaralandığını öyrənə bilib: "Deyirlər, sağ böyründən yaralanıbmış, sağ böyrü tamamilə dağılıbmış, bir də çoxlu sayda qəlpə yaraları olub. Qəlpə parçalayıbmış onu. Elçin deyir, aşağı hissəsi – ayaqları bütün qəlpə yarası ilə dolu imiş. Bir də boynunda bir dəlik varmış".

C. Axundovanın sözləriniə görə, Əbdülməcid, dostu, institut yoldaşı Elvin Mirzəyevlə birlikdə şəhid olub: "Mənə deyirdi ki, "bir tələbə yoldaşım da mənimlədir". Əbdülməcid şəhid olandan sonra mən Elvin Mirzəyevin ailəsini tapdım, Xaçmaza getdim. Şəhidlərin döyüş meydanından çıxarılması zamanı onların yaxını olan bir hərbçi danışırmış ki, şəhidlər bir-bir çıxarılsa da, Elvini tapa bilmirlərmiş. Sonradan bir erməni zabiti deyib ki, sizinkilərdən orda qalan var. Həmin hərbçi danışmış ki, Elvin üzü üstə düşübmüş. Güllə ona sağdan dəyib, ürəyindən çıxıbmış. Əbdülməcid də ayağından yaralanıbmış, "jqutla" ayağını sıxıbmış. Hərbçi belə təsəvvür edib ki, yəqin, Əbdülməcid Elvinin yaralandığını görüb, ona tərəf sürünüb. Çünki kənarda Məcidin ayaq izləri varmış. Sonra yanına mərmi düşüb. Əbdülməcid Elvinin ayağından tutub həlak olub. Bir yerdə oxudular, bir yerdə əsgərlik çəkdilər və bir yerdə də şəhid oldular".

Bu yükü daşımaq nə qədər çətin olsa da, Ceyran ana bu alın yazısı ilə barışıb. "Kaş ki" dediyi zamanlar çox olsa da, həyatda qarşılaşdığı başqa hadisələr ona yaşamağa ümid verir: "Bir oğlan var idi, yaxınlıqda yaşayırdı. Bir dəfə məni maşınla da vurmuşdu. Əbdülməcid, hətta onun üstünə də getmişdi. Sonradan bizim yaxınlığımız oldu. Evin tək oğlu idi. Atası hər şey etmişdi onun üçün. Oğlan avtomobildə qazdan zəhərlənib ölmüşdü. Mən də getdim 40 mərasiminə. Anası məni tanıdı, dedi Əbdülməcidin yas mərasiminə də gəlibmiş. Anası deyirdi ki, oğlu iyun ayında ali məktəbi bitirib, yay olduğu üçün 3 aylıq saxlayıblar ki, üzü payıza gedəndə hərbi xidmətə gedər. Deyirdi ki, "kaş onu hərbidən saxlamazdım, kaş gedərdi, kaş elə sənin oğlun kimi şəhid olardı, belə ölməzdi". Analar var ki, bizə qibtə edir. Hərdən düşünürəm ki, valideynlərinə başucalığı gətirərək getdi, şöhrətlə getdi".

Ceyran xanım bu həyatda Əbdülməciddən sonra yaşamağı bacarmaq üçün, onun haqqında öz vəsaiti hesabına film çəkdirib, kitab çap etdirib, xalçalar toxudub və tez-tez ona həsr edilmiş gecələr keçirir. Deyir ki, Məcidini yaşatmaq üçün yaşamalıdır: "Mən yaşamalıyam ki, balamı yaşadım. Yaxşı, mən indi özümü öldürüm, bəs onu kim yaşadacaq?"

*İradə Cəlil*

**Əbdülməcid AXUNDOV**
**Elvin MİRZƏYEV**
**Mahir MİRZƏYEV**



Aprel döyüşlərimizin Qəhrəmanları
Üç dost, üç Qəhrəman...
**Əbdülməcid, Elvin və Mahir**
Nur içində yatın qəhrəman Şəhidlərimiz
Haqqınız ödənməz. Unutmarıq Unutdurmarıq

## Əbülfəz RƏHMƏTOV



Əbülfəz Rəhmətov 3 iyul 1989-cu ildə Lerik rayonunun Anbu kəndində anadan olmuşdur. Hərbi xidmət müddətində Əbülfəz Rəhmətov 44 günlük müharibədə iştirak etmişdir.

Həmçinin, 2020-ci ilin Tovuz döyüşlərində general-mayor Polad Həşimov ilə bir sırada döyüşmüşdür.

Azərbaycan Ordusunun kapitanı olan Əbülfəz Rəhmətov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində kəşfiyyatçı iştirak etmişdir. Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 15 oktyabr 2020-ci ildə Cəbrayıl istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Uzun müddət nəşi tapıla bilməyən Rəhmətovun nəşi 7 aydan sonra – 6 may 2021-ci ildə Cəbrayıl rayonunda tapılmışdır. 7 may 2021-ci ildə Lerik rayonunda dəfn edilib.

Ailəli idi, 2 övladı yadigar qaldı.

Allah rəhmət eləsin!

*Şəbnəm Babayeva*

# Əhməd ABDULLAYEV



Abdullayev Əhməd Hüseynağa oğlu 30 iyul 1976-cı ildə Cəlilabad rayonunda, ziyalı ailəsində anadan olub.

1983-cü ildə Cəlilabad rayon, 8 saylı orta məktəbin birinci sinfinə gedib. 1991-ci ildə Cəmşid Naxçıvanski adına hərbi məktəbə daxil olub və həmin məktəbi müvəffəqiyyətlə bitirib.1992-ci ildə İstanbul şəhər hərbi məktəbinə daxil olub. 1996-cı ildən Ankara Hərbi



Akademiyasında təhsilini davam etdirib. Dünyanın bir çox ölkələrində (Almaniya, İsveçrə) keçirilən hərbi təlimlərdə iştirak edib. 2001-ci ildən 2010-cu ilədək Azərbaycan Respublikasının Xüsusi Təyinatlı dəstəsində qrup komandiri vəzifəsində çalışıb. Azərbaycan Ordusunun mayoru Ə.Abdullayev 2010-cu ilin sentyabr 4-də erməni qəsibkarlarının hücumunun qarşısını almaq məqsədilə xüsusi döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına həlak olub. Evlidir, iki oğlu var. Əhməd Abdullayev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilmişdir.

*Şəbnəm Babayeva*

## Əkbər HÜSEYNLİ



Əkbər Azər oğlu Hüseynli 15 oktyabr 2001-ci ildə Cəlilabad rayonunun Alar kəndində dünyaya göz açıb. İlk təhsilini H.Əliyev adına 1 saylı orta məktəbdə alan Əkbər, orta təhsilini Bakı Sosial İqtisad Kollecində davam etdirmişdir.O, təhsilini yarımçıq qoyub könüllü olaraq 15 oktyabr 2019-cu ildə həqiqi hərbi xidmətə yollanmışdır. Vətən Müharibəsinin ilk günlərindən isə ön cəbhədə qəhrəmancasına vuruşmuş, Murov yüksəkliyinin alınmasında xüsusi igidliklər göstərmişdir. O, şiddətli döyüşlərdə yaralansa da, qısa müddət sonra yenidən ön cəbhəyə, yoldaşlarının yanına qayıtmış, Goranboy-Tərtər istiqamətində gedən şiddətli döyüşlərdə iştirak etmiş, işğal altında qalan torpaqlarımızın alınmasında şücaət göstərərək şəhidlik məqamına yüksəlmişdir.

Evin tək oğul övladı olan Əkbər vətənpərvərliyi, cəsarəti, nümunəviliyi ilə yoldaşları arasında böyük rəğbət qazanmış, neçə yaralı əsgər yoldaşını döyüş meydanından xilas etmişdir. Onun yeganə arzusu canı-qanı bahasına olsa belə vətəni mənfur düşmənlərdən azad etmək idi.

Qeyd edək ki, qızğın döyüşlərdə şəhidlik zirvəsinə ucalan Əkbərdən ailəsi uzun müddət idi ki, heç bir məlumat ala bilmirdi.

Ölümü ilə ölümsüzlük qazanan Əkbər 17 dekabr 2020-ci ildə doğulduğu Alar kəndində torpağa tapşırıldı.

*Eşqanə Babayeva*

## Əkbər HÜSEYNOV

*Şəhidin qardaşı:Mən onunla həmişə fəxr etmişəm,*
*Əkbər Hüseynov mənim qardaşımdır.*

30 sentyabr...



İzdiham... Əkbər! Əkbər! Əkbər! Şəhidlər ölməz! Vətən bölünməz! Son 15 ildən sonra Bakıxanov qəsəbəsinə ilk şəhid gəlirdi... Allah Təalanın dərgahına bu dəfə Əkbər gedirdi... Şəhadətə yetişmiş bu igid 11 iyul 2001-ci ildə Bakı şəhərində dünyaya göz açmışdır. O, öz cəsurluğu ilə daima tanışları içində seçilirdi. Hüseynov Əkbər Bahadur oğlu 2007-ci ildə Bakı şəhəri Tahir Əliyev adına 252 nömrəli tam orta məktəbə ilk qədəmlərini qoymuşdur. O, kiçik yaşlarından idman sahəsinə xüsusi meyl göstərmiş, 2012-ci ildən Kikboks idman növü ilə məşğul olmağa başlamışdır. İdman sahəsində xeyli uğur və nailiyyətlər əldə edən Əkbər 2018-ci ildə oxuduğu məktəbi başa vurmuşdur. İdman sahəsindən savayı, Əkbərin ədəbiyyat sahəsinə, əsasən də, meyxana və şeirə marağı olmuşdur. O, hətta qələmini lirik janrda belə sınamışdır. Zəhmət və əziyyətlə əldə edilən nemətə üstünlük verən və şükür edən qəhrəmanımız müxtəlif işlərdə (trenajor zalında, çay evində) çalışmışdır. 2019-cu ildə hərbi xidmətlə bağlı çağırış gəlmiş, beləliklə, Əkbər 18 aylıq vətənin keşiyinə çəkməyə yollanmışdır. Amma o, işğal altında olan torpaqların azad olunmasında özünün bilavasitə iştirak edəcəyini və sonunda bu torpaq uğrunda canından keçəcəyini bilməyirdi. Sözsüz, Əkbərin

qorxmazlığı hər iki halda onun mənəvi qələbə çalacağına, adını zəfər tariximizə yazacağına inanmağımıza əl verir. Hərbi xidmətə başladıqdan sonra Əkbər öz nizam-intizamı, fiziki hazırlığı, nümunəviliyi ilə seçilmiş, and içmə mərasimində "Fəxri fərmanla" təltif olunmuşdur. Əkbərin xitməti dönəmi, yəni 1 il 3 ay müddətində fərman və təltiflərin ardı-arası kəsilmir. O, əsgəri xidmət müddətində kiçik çavuş rütbəsinə layiq görülür. Əkbərin xarakteri, çevik və hazırlıqlı olması onun kəşviyyat divisiyasında xidmətinə gətirib çıxarır. Əkbər Hüseynov hətta "Aprel döyüşləri" adlı qısa metrajlı filmdə də rol alır. Belə ki, bu mərd oğlanın həyatının çiçəyi hələ təzə açmışdı ki, Azərbaycan tarixində II Qarabağ müharibəsi başladı. 27 sentyabrda hərbi hissələrə müharibənin başlanması həyəcan siqnal verildi. Komandirlərə əsgərlərini səfərbər etmələri tapşırıldı. Əkbər və onun əsgər yoldaş İqbal hazırlıqlı olduqları üçün UAZ markalı maşına mindirilərək Talış kəndi istiqamətinə aparıldılar. 27, 28, 29 sentyabr tarixində Əkbər və onun dostu düşmən postlarının alınmasında iştirak etmişlər. 29 sentyabr tarixində düşmən tərəfin atdığı minamiyot nəticəsində hər iki dost qəlpə yarasından şəhid olmuşdur. Əkbər Hüseynov 30 sentyabrda yaşadığı Bakıxanov qəsəbəsinin Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır. Şəhadətiniz qəbul, məqamınız uca olsun! Beləliklə, Vətən uğrunda düşünmədən canını fəda edən, şəhadət şərbətini içərək Allahın rəhmət qapısına çevrilən qəhrəmanlarımızın ruhu qarşısında baş əyir, ailələrinə baş sağlığı veririk! Onlar həmişə bizimlədir, onları heç zaman unutmayacaq və unutdurmayacağıq!

*Sevinc Əliyeva*

## Ələkbər ƏLƏSGƏROV



Ələkbər İskəndər oğlu Ələsgərov 1998-ci il 3 sentyabrda dünyaya göz açıb. Yaşayış yeri Kubinka adlanan yer olan Ələkbər Bakı şəhər M.Müşviq adına 18 nömrəli orta məktəbin 2015-ci il məzunu idi. Məktəbi bitirdikdən sonra əsgər gedir, orada "Top komandiri" vəzifəsini icra edir. Tərxis olunduqdan sonra Azərbaycan Dövlət Dənizçilik Akademiyası nəzdində Dənizçilik kollecinə daxil olur və təhsilini davam etdirir. 2020-ci il iyun ayında oradan məzun olur.

Çox gülərüz və zarafatcıl biri idi. Amma asi hallarıda çox olurdu, bəlkə də bu yaşının verdiyi xüsusiyyət kimi dəliqanlı olması ilə bağlı idi. Nişanlı idi, amma daha əvvəl Covid-19, sonra isə hərbi vəziyyət ilə bağlı bu evlilik ona qismət olmadı. Ələkbər müharibə xəbərini alan kimi könüllü olaraq hərbi xidmətə yazılır və sentyabrın 21-də xidmətə üçün çağırılır. Çox keçmədən Füzuliyə göndərilir. Elə bununla da şəhadət şərbəti nəsib olur. Oktyabr ayının 1-i 2020-ci ildə Ələkbər Füzulidə şəhid olur. Ailəsi, yaxınları, tanışları iki duyğunu eyni anda yaşamağa başladı: həm onun yoxluğunun verdiyi ağrı-acı, həm də Şəhidlik zirvəsinin verdiyi fəxr və qürur hissi. Qeyd edim ki, Ələkbər Nəsimi rayonunun ilk şəhidi oldu. Uşaqlıqdan ən böyük arzusu idi Qarabağı geri qaytarmaq. Anasına tez-tez deyərdi: - "Mən şəhid olacam, ana. Mən öləndən sonra hər gün Çingiz Mustafayevin "Ana mən şəhid oldum mahnısına qulaq asarsan". Belə də oldu, indi şəhidimizin anası oğlunun xatirəsinə hər gün o mahnını dinləyir. Şəhidlər ölməz, Vətən bölünməz deyiblər. Bugün bu deyim təsdiqin tapır.

Onun və onunla yanaşı şəhid olan başda Mübariz, davamçısı Milli Qəhrəman Dövlətzadə Cəbrayıl olmaqla, digər bütün şəhid olmuş əsgərlərimizin adı dilimizdə yaşayır və yaşamağa davam edəcək. Şəhidlər ölmür, sadəcə artıq ürəyimizdə və dilimizdə yaşamı davam etdirirlər. İgid əsgərimiz Ələkbərin qisası alındı. Füzuli geri qaytarıldı, Qarabağda zəfər qazandıq. Çox



istərdik ki, Füzuli ilə birgə Ələkbər də qayıtsın... Ən gözəl məqam şəhidlikdir deyirlər. Mənim fikrimcə, ən gözəl şey uğrunda döyüşdüyün torpağı düşməndən geri almaq və səngərdə çəkdiyin əziyyətinin bəhrəsini öz gözlərinlə görməkdir. Şuşa Qarabağın incisi ola bilər, amma mənim üçün Füzuli ən dəyərli torpaqdır. Çünki ora sənin qanın qarışıb.

Ruhun şad olsun, Şəhidimiz! Unudulmayacaqsan!

*Jalə Hacıyeva*

## Əfqan AXUNDOV



Vətən, torpaq, xalqının, dövlətinin azadlığı uğrunda canından keçməyə qadir olan insanlardır şəhidlər. Şəhidlik ən yüksək, şərəfli zirvədir. Əsla unudulmayan insanlardır şəhidlər! Onlar canlarından keçməklə qəhrəmanlıq dastanın öz qanları ilə yazanlardır. Şəhidimiz Əfqan da belə oğullardandır.

Şəhadətin mübarək, Əfqan!

# Ələddin SƏİDOV




Ələddin Azər oğlu Səidov 17 iyun 1992-ci ildə Bakı şəhərinin Nərimanov rayonunda anadan olub. 1998-2009-cu illərdə 193 nömrəli tam orta məktəbində təhsil almışdır. 2009-2013-cü illərdə isə Azərbaycan Texniki Universitetinin Maşınqayırma və Robototexnika fakültəsində təhsil almışdır. Nişanlı idi.

Azərbaycan Ordusunun əsgəri olan Ələddin Səidov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə fəal iştirak edərək şücaət göstərmişdir. Ələddin Səidov noyabrın 3-də Şuşa döyüşləri zamanı şəhid olub.

Ələddin Səidov evin yeganə oğlu idi.

Şəhid Bakı şəhərində dəfn olunub.

*Gülşən Kəngərlinskaya*





# Əli İBRAHİMOV




Azərbaycanın Xınalıq xalqının qəhrəman nümayəndəsi İbrahimov Əli Bəxtiyar oğlu 11 fevral 2002-ci ildə Quba rayonunda anadan olmuşdur. Evin böyük övladı idi. Əlinin ən böyük arzusu hərbiçi olmaq idi. 2019-cu ildə Dövlət Daxili Qoşunlarına sənəd təqdim etmişdir. Qabiliyyət imtahanından çox gözəl keçmişdir. Təəssüf ki, balı yetmədiyindən daxil ola bilmədi. 2020-ci il mayın 4 hərbi xidmətə yollanıb. 27 sentyabr başlanan Vətən müharibəsinin ilk günü Talış dağlarında qəlpə yarası almışdır. Şəmkir rayon mərkəzi xəstəxanasından bir həftədən sonra yaralı olduğuna baxmayaraq könüllü yenidən döyüşlərə qatılmışdır. 14 oktyabr Suqovuşan ərazisində gedən qızğın döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Son dəfə ailəsi ilə 12 oktyabr əlaqə qurmuşdu. Əli İbrahimovdan 9 gün xəbər olmadığından ailəsi tərəfindən axtarılışa çıxmışdır. Ailəsinin axtarışı nəticəsində Əli İbrahimov Yevlax rayonunun morqunda tapılmışdır. Oktyabrın 23-ü Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Əli məktəbdə oxuduğu illərdə nizam intizamlı, sinif yoldaşları ilə ünsiyyətdə mehriban olub. Müəllimlərdə Əlinin xətrini çox istəyirdilər. Əli səmimi mehriban qayğıkeş bir o qədərdə zarafatcıl idi. Heç vaxt heç kəsin xətrinə dəyməzdi, hamıya qayğı ilə yanaşardı. Hərbi qulluqda əsgər yoldaşlarının və zabitlərinində hörmətini qazanmışdır. İbrahimov Əli 2011-ci ildə Quba Uşaq İncəsənət Məktəbinə (UİM) daxil olmuş və

2016-cı ildə qarmon ixtisası üzrə bitirmişdir. Çox gözəl qarmon çalma istedadı və hətta gözəl məlahətli səsi və rəssamlıq qabiliyyəti var idi. Boş zamanlarında qarmon çalar, gözəl səsi ilə mahnı oxuyar və gözəl rəsmlər çəkərdi.

Ölümündən sonra 3 medal ilə təltif edilmişdir: "Vətən uğrunda!", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü".

*Gülşən Kəngərlinskaya*

## Əsəd ƏSƏDLİ



## Əli QULİYEV



Əli Quliyev 20 oktyabr 2001-ci ildə İraqın Kərbəla şəhərində ilahiyyatçı ailəsində anadan olmuşdur. 12 yaşına kimi



Kərbəla şəhərində yaşamış və təhsil almışdır. 2013-cü ildə ailəsi ilə birlikdə Azərbaycanın Masallı rayon Kolatan kəndinin Bağıroba qəsəbəsinə yerləşmişdir. Elə həmin ildə də Birinci Qarabağ Müharibəsi kənd şəhidi Simran Rzayevadına məktəbin VI sinfinə daxil olmuşdur. Məktəbi başa vuran Əli ali təhsil olmaq üçün imtahan verir, lakin müvəffəqiyətli olmur. 2020-ci ildə hərbi xidmətə yollanır. Dislokasiyası Cocuq Mərcanlı olan “N” saylı hərbi hissədə xidmətə başladı. İkinci Qarabağ Müharibəsinə qatılaraq düşmənin Azərbaycan torpaqlarından qovulmasında iştirak etdi. Oktyabrın 26-dan 27-ə keçən gecə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. 29 oktyabr 2020-ci ildə Kolatan kəndinə gətirilərək torpağa tapşırıldı. Ölümündən sonra “Vətən uğrunda” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edildi.

*Şəbnəm Babayeva*

# Əli QULİYEV

 

Şəhid Xüsusi təyinatlı kəşfiyyatçı, gizir Əli Quliyev Təbrik oğlu 1984-cü ildə İmişli rayonu, Otuziki kəndində anadan olub. Şəhidimizin iki oğul övladı Vətənə əmanət qalıb. II Qarabağ döyüşlərində önəmli xidmət göstərən olan Xüsusi təyinatlıların sırasında şəhidimiz Əli Quliyevin adını çəkə bilərik. Döyüşlərdə Xüsusi təyinatlıların rolu böyük olmuşdur və bugünkü qələbəyə görə biz xalqımızın qəhrəman övladlarına, igid oğullarımıza borcluyuq. Allah rəhmət eləsin!

*Həqiqət B.*



# Əli YUSİFOV



Əli Süləddin oğlu Yusifov son dəfə 3 oktyabrda nişanlısı ilə danışıb, ondan sonra heç bir xəbər yoxdu. Atası hər yerdə oğlunu axtarır, Naxçıvanda, Füzulidə, Beyləqanda - xəstəxanalarda, hərbi hissələrdə... Sosial şəbəkələrdə... Adı itkinlər siyahısındadı. Atası hələ ümidini üzməyib: "oğlum yuxuma gəlir, əsirəm, ata, qurtar məni - deyir..."

***



Əli Yusifov 1997-ci il avqustun 14-də Şərur rayonunun Oğuz kəndində anadan olub. Nişanlı idi.

Azərbaycan Ordusunun leytenantı olan Əli Yusifov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə döyüşüb Əli Yusifov oktyabrın 3-də Füzuli döyüşləri zamanı şəhid olub.

Onun nəşi uzun müddət tapıla bilməyib. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itgin düşən hərbi qulluqçu hesab olunub.

2021-ci il aprelin 29-da nəşi tapılıb və Şərur rayonunun Oğuz kəndində dəfn olunub.

*https://az.wikipedia.org/wiki/%C6%8Fli_Yusifov*

## Əlizamin MUSTAFAYEV



Mustafayev Əlizamin Baxış oğlu 17 yanvar 2001-ci il tarixində Tərtər rayon Bəyimsarov kəndində anadan olub. Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərkən şəhid olmuşdur. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir. Allah rəhmət eləsin!

*Xatirəsinə ağı (elegiya)*

Özü ciddi, sözü ciddi, mətanətli bir igiddi, bu dağların gerçək oğlu, ana yurdun dar günündə peyda olan Qaçaq Nəbi, qoç Koroğlu, sadə bir gənc, mərd insandı Əlizamin, özü boyda bir dastandı Əlizamin, nağıllardan günümüzə gəlib çıxan qəhrəmandı Əlizamin, bir alp idi, pəhləvandı Əlizamin. Onda olan rəşadətə, iradəyə özü həzrət Əlizamin.

Əsli-nəsli Kəlbəcərdə doğulmuşdu, 1993-də ana yurddan qovulmuşdu, qan içində boğulmuşdu. Sığınmışdı Tərtərimin Bəyimsarov bucağına, isti ana qucağına. Elə burda gözləyirdi əsas günü, bilirdi ki, uzaq deyil qisas günü. Baxış ilə Səliqənin övladları demə azdı, Nazim, Rizvan, Akif, Saday, Müşkünazdı, Məhəmməddi, Variyyətdi, Məzahirdi. Ailənin oğlu səkkiz, qızı birdi.

1999-da göz açmışdı bu dünyaya Əlizamin, o bir türkdü, o bir oğuz. O, mərd idi, mətin idi, ona asan olan şeylər başqasına çətin idi. Bir sinifdə yoldaşları, qardaşları, sirdaşları Çəmən idi, Əkbər idi, Nəcməddinlə Yasin idi. Neçə əziz müəllimi dərs demişdi, öyüd, nəsihət vermişdi: ey bu yurdun şanlı

oğlu, gözəl qızı, gəl qoruyaq xalqımızı, el-obanı, dağı-daşı! Qorumasaq ola bilməz bizdən ölkə vətəndaşı!

Əlizamin əskər oldu, əldə silah keşik çəkdi bu vətənə, xidmətini başa vurub öz evinə döndü yenə. Ürəyində nələr vardı, nələr yoxdu: arzu çoxdu, dilək çoxdu. Kəlbəcəri yağıların caynağından qoparmalı, tapdağından qurtarmalı, köhnə yurdda yurd salmalı, dədə-baba ocağımız gur yanmalı, bir gözəllə o ocağın keşiyində dayanmalı...

*Saydığını sayan oğlan, daha sayma, dayan, oğlan.*
*Gör nə sayır çərxi-fələk, işi-gücü yalan, kələk.*
*Yağıların beyni çöndü,*
*Əlizamin əldə silah cəbhələrə geri döndü.*
*Yenə azdı ermənilər, dayanmadı hapı-gopu!*
*Əlizamin məhv elədi neçə tankı, neçə topu!*

Düşmənlərin ürəyinə dağlar qoydu, qırx daşnakın anasını ağlar qoydu! Dolaşaraq səngərləri, çıxarırdı od içindən yaralanmış əsgərləri. Altısını çıxarmışdı, sakit yerə aparmışdı, yeddinciyə çatdı sıra, yeddincidə yeddi yara, elə bu dəm ayağının altındaca partladı bir nəhs qumbara.Yeddi gündü cəbhədəydi, gənc ömrünə qəlpə dəydi.

Yandı, yandı Bəyimsarov, tüstü-tüstü, alov-alov. Aldı doğma qucağına təzə qəbri, bu igidi sevənlərin varmı səbri? O dünyada qovuşdumu atasına, anasına? Yetişdimi Kəlbəcərdə öz elinə-obasına, ocağına, yuvasına?

İndi artıq ruhu şaddı, çünki Vətən, Ana torpaq tam azaddı! Allah sənə cənnətində yer eləsin, Əlizamin, Amin!

*Ramiz Əskər*

## Əmrah ƏKBƏROV



Əmrah Şahid oğlu Əkbərov (21 fevral 1998; Lerik, Azərbaycan - 12 oktyabr 2020; Xocavənd, Azərbaycan) – Xüsusi Təyinatlı Qüvvələrin leytenantı, Vətən Müharibəsinin şəhidi.

Əmrah Əkbərov 1998-ci il Fevralın 21-də Lerik rayonunun Livədirqə kəndində anadan olub. 2004-cü ildə Livədirqə kənd orta məktəbinin 1-ci sinifinə gedir. 2005-ci ildə təhsilini Xəzər rayonunda yerləşən 322 saylı tam orta maktəbdə davam etdirir. O, 2013-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olmuşdur. 2016-cı ildə həmin liseyi bitirmişdir.

Əmrah Əkbərov 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbə daxil olmuşdur. 2020-ci ildə məktəbi bitirib Azərbaycan Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələrində leytenant rütbəsi alaraq baş kəşfiyyatçı kimi xidmət etməyə başlamışdır. Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin leytenantı olan Əmrah Əkbərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Əmrah Əkbərov oktyabr 12-də Hadrut döyüşləri zamanı şəhid olmuşdur.

Əmrah Əkbərov ölümündən sonra "Vətən uğrunda", “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Hərbi xidmətlərə görə” medallarıı ilə təltif edildi.

*Şəbnəm Babayeva*

## Əmrah HƏMİDOV

Həmidov Əmrah Salyan rayonunun Kürsəngi kəndindəndir. Xüsusi Təyinatlı Dəstədə kəşfiyyatçı kimi döyüşüb.



Həmidov Əmrah 05 oktyabr 2020-ci il tarixində Murov uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. XTQ-rin giziri düşmənin baza və sığınacağlarına partlayıcılar yerləşdirib geri qayıdarkən namərd snayper güləsi ilə Şəhadət mərtəbəsinə ucalıb.

Salyan rayonu Kürsəngi kəndində Şəhid dəfn olunarkən  Anası oğlunun məzarı üstündə oğluna son sözlərini belə demişdir: “Oğlum, sənə südümü halal edirəm, başımızı uca etdin, bir Ana kimi səninlə fəxr edirəm, oğlum”.

Əziz Ana, sənin əllərindən öpürəm, sənə qurban, Ana!

*Şəbnəm Babayeva*



*İncimə, qardaşım, sən incimə ki,*
*Dünyanın qəm üzü sənə düşübdür.*
*İncimə dünyadan, küsmə dünyadan,*
*Baxma ki, bu dünya səndən küsübdür.*

## Əmrah RƏCƏBOV



Vətən Sənsən!

Şəklinə tez tez rast gəldiyim bir qəhrəman var Əmrah Rəcəbov. Hər kəs onu kimsəsiz şəhid kimi təqdim edir. Şəhid olarkən onun nəşini tanımaq üçün yaxınını axtarırdılar, təəssüf ki, kimsə yaxınlaşmadı deyirlər. Bu insana çox pis təsir edir, necə yəni kimsəsiz? Bəyəm biz ölmüşük ki, ona kimsəsiz deyirlər? Onun on milyonluq ailəsi var. Hər birimiz onun anası-atası, bacı-qardaşıyıq. Doğma biri kimi onun haqqında məlumat vermək istəyirəm.

Əmrah Rəcəbov – 11 dekabr 2000-ci ildə Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olmuşdur. Kiçik yaşlarında atasını itirmişdir. Anası tərəfindən Gəncə şəhərində yerləşən internat tipli məktəbə verilmişdir. Orta təhsilini Gəncə şəhər Samir Vəliyev adına 34 nömrəli tam orta məktəbində alır. Gəncə İnternat məktəbindən məzun olduqdan sonra, dövlət tərəfindən Masazır məzunlar evindən ev hədiyyə olunur. 2019-cu ilin oktyabr ayında Azərbaycan Silahlı Qüvvələrinin sıralarında həqiqi hərbi xidmət keçmək üçün orduya çağırılmışdır.

Xidməti fəaliyyətini Beyləqan rayonunu “N” saylı hərbi hissəsində icra etmişdir. 2020-ci ilin 27 sentyabr tarixində İkinci Qarabağ müharibəsinin başlamasından sonra Füzuli əməliyyatına cəlb olunmuş və Füzuli rayon mərkəzinin azad edilməsi uğrunda aparılan şiddətli döyüşlərdə iştirak etmişdir.

Əmrah Rəcəbov 2020-ci ilin 8 oktyabr tarixində Füzuli əməliyyatının gedişatında yaralanmış əsgər yoldaşını, döyüş mövqeyindən çıxartmağa çalışarkən yaxınlığına düşən mərmi nəticəsində şəhid olmuşdur. Şəhidim, bu gün sənin sayəndə tam

bütöv Vətənim var. Sənin hesabına övladlarımız firavan, xoşbəxt yaşayacaq. Ona görə də sənin üçün dualar oxuyuruq. Əmrah, sənin simanda bütün şəhid və qazi qardaşlarıma səslənirəm: "Siz tarix yazmadınız, tarixin özü oldunuz. Sizdən çox şey öyrənəcəyik". Qardaşım, Vətən səni 18 il bəslədi, böyütdü, sən, Vətənə qanınla, canınla həyat verdin. Hamımız sizə sığındıq, sizə arxalandıq. Güvənimizi boşa çıxarmadınız:

*Vətən daşı olmayandan*
*Olmaz ölkə vətəndaşı*

Qanınızla, canınızla bu yurdu diriltdiniz. Bu torpaq nə qədər ki, var, sizlər də var olacaqsınız. Vətən daşı olmağı bacardınız. Nahaq demirik ki, Vətənin hər bir daşı bizə doğmadır, əzizdir çünki onlar sizlərsiniz. Qarşınızda baş əyirik!

Bundan sonra onun xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq, haqqında qəhrəmanlıq dastanları yazılacaq, bəlkə, bir gün adına küçələr, parklar salınacaq. Necə ki bugün artıq Bakı şəhəri 20 nömrəli məktəb-liseyin 8ç sinifi Həmidağa Hüseynzadənin şanlı adını daşıyır.

*Nigar Babaxanova*

*(Bakı şəhəri 20 nömrəli məktəb-liseyin*
*8ç sinfi adından)*

**P.S.** Şəkildə: İnternat məktəbinin 2 şəhid məzunu: Solda Salahov Nicat, sağda Rəcəbov Əmrah...

# Faiq QASIMOV



Faiq Qasımov 1974-cü il fevralın 10-da Qubadlı rayonunun Qayalı kəndində anadan olub. Faiq Qasımovun ailədə bir bacısı və beş qardaşı olmuşdur. Uşaq yaşlarında Əliyar Əliyevin məşqçiliyi altında idmanın güləş mövü ilə məşğul olmuşdur. 1993-cü il avqustun 31-də Qubadlı rayonunun ermənilər tərəfindən işğal edilməsindən sonra Qasımovlar ailəsi Sumqayıt şəhərinə gəlirlər və burada yaşamağa başlayırlar.

Faiq Qasımov 1981-ci ildə Qubadlı rayonunun Qayalı kənd tam orta mətəbinin birinci sinfinə qəbul olmuşdur və 1990-cı ilə qədər orada təhsil almışdır.

80-cı illərin sonları, 90-cı illərin əvvəlində Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları Birinci Qarabağ müharibəsinin başlamasına səbəb olmuşdur. Faiq Qasımov 1991-ci ildə Birinci Qarabağ müharibəsində savaşmaq üçün müraciət eləsə də, ancaq 1992-ci ilin fevralında 18 yaşı tamam olduqdan sonra Azərbaycan Milli Ordusunun sıralarına çağırılmışdır və Qubadlı rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə Əliyar Əliyevin rəhbəri olduğu taborda topçu olaraq savaşmışdır. 1992-ci ildə Yuxarı Cibikli istiqamətində gedən döyüşlər zamanı Faiq Qasımovun qardaşı – “Qorxmazçılar” Batalyonunun Komandiri Həsənqulu Qasımov (Həsən Qorxmaz) 23 yaşında şəhid olmuşdur. O gündən sonra Faiq Qasımov qardaşının qisasını almaq üçün hərbçi olmağı qərara almışdır. Faiq Qasımov 1993-cü il avqustun 1-də Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə qəbul olmuşdur və 1995-ci ildə oranı “Motoatıcı” ixtisası üzrə bitirmişdir.Faiq Qasımov ailəli idi. Bir oğlu və bir

qızı yadigar qalmışdır. *1-ci Qarabağ müharibəsi:* Faiq Qasımov 1991-ci ildə Qarabağ müharibəsində savaşmaq müraciət eləsə də, 1992-ci ilin fevralında 18 yaşı tamam olduqdan sonra Azərbaycan Ordusunun sıralarına çağırılır. 1992-ci ildən Qubadlı rayonunun Yuxarı Cibikli kəndinin müdafiəsi uğrunda döyüşlərdə topçu olaraq xidmət edib. 1992-ci ildə Yuxarı Cibiklinin müdafiəsi uğrunda gedən döyüşlərdə Faiq Qasımovun "Qorxmazçılar" Batalyonunun Komandiri olan qardaşı Həsənqulu Qasımov 23 yaşında şəhid olur. O gündən sonra Faiq Qasımov qardaşının qisasını almaq üçün hərbçi olmağı qərara alır. 1993-1995-ci illərdə Ali Birləşmiş Komandalıq Məktəbində (BABKM) hərbi təhsil alıb. Faiq Qasımov 1995-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində, 2010-2012-ci illərdə Balakən rayonunda yerləşən "N" saylı hərbi hissəsində, 2012-2013-cü illərdə Mingəçevir şəhərində yerləşən "N" saylı hərbi hissəsində, 2013-cü ildən isə Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət edirdi.



*Aprel döyüşləri:* 2016-cı il aprelin 1-dən 2-nə ötən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında cəbhənin Tərtər və Cəbrayıl-Füzuliistiqamətlərində şiddətli döyüşlər başladı. Tarixə Aprel döyüşləri olaraq yazılan hərbi əməliyyatlar zamanı Faiq Qasımov cəbhənin Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərdə savaşmışdır. Gecə döyüşləri zamanı Cəbrayıl rayonunun Lələtəpə istiqamətində olan əlverişli mövqelər, strateji nöqtələr, o cümlədən Lələtəpə zirvəsi Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunmuşdur. Həmin döyüşlərdə Ermənistanın müdafiə naziri-Seyran Ohanyan tərəfindən qurulan və Ermənistan Ordusu-

nun “yenilməz Ohanyan xətti” olaraq tanınan müdafiə xətti 40 dəqiqə ərzində darmadağın edilmişdir. *2-ci Qarabağ müharibəsi:* 2020-ci il sentyabrın 27-də səhər saat 06:00 radələrində Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən geniş miqyaslı təxribat törədilmişdir və cəbhə boyu zonada yerləşən Azərbaycan Ordusunun mövqeləri və yaşayış məntəqələri iriçaplı silahlar, minaatnalar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutulmuşdur, nəticədə ölənlər və yaralananlar olmuşdur[3]. Bu barədə məlumat Azərbaycan Prezidenti İlham Əliyevə bildiriləndən sonra günorta saatlarında Ermənistan Silahlı Qüvvələrinin döyüş fəaliyyətinin qarşısını almaq məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin Komandanlığı tərəfindən cəbhəboyu zonada hücum əməliyyatlarının başlaması barədə qərar verilmişdir. Azərbaycan Ordusunun polkovnik-leytenantı olan Faiq Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Faiq Qasımov sentyabrın 27-də Füzuli döyüşləri zamanı istiqamətində şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən Faiq Qasımova “Vətən Müharibəsi Qəhrəmanı” adı verildi. Ölümündən sonra “Vətən uğrunda”, “Xocavəndin azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalı ilə təltif edildi.

*Almaz Ülvi*

## Famil ƏLİZADƏ




Ən böyük arzusu Şəhidlik olan igid əsgər!

Böyük Vətən Müharibəsi!

Çətinliklə, həyəcanla, şərəflə başa vurduğumuz 44 gün. Bu müddət ərzində tarix yazan igid oğullarımız!

Onlar təxminən 28 ildən bəri işğal altında olan torpaqlarımızı azad etdilər. Qışın şaxtasında, gecənin ayazında yoruldum demədən isti ürəklə, qəlblərində Vətən sevgisi inamla irəlilədilər. İllərlə yol gözləyən doğma torpaqlarımızı bizə qaytardılar. Hər kənd, hər rayon müzəffər Ordumuz tərəfindən işğaldan azad edildikcə bütün xalq bayram edirdi. Şuşanın işğaldan azad edilməsi günü isə sevincimizin həddi-hüdudu yox idi. Həmin gün yazmışdım:

*Qanımızdan qutsal toprağa qatdıq,*
*Biz qələbə dolu tarix yaratdıq,*
*Çatdıq evimizə, Şuşaya çatdıq,*
*Vətən, gözün aydın, El, gözün aydın!*

Doğrudur, Böyük Vətən Müharibəsində Şəhidlərimiz də oldu, yaralılarımız da. Lakin:

*Bayraqları bayraq yapan üstündəki qandır.*
*Torpaq uğrunda ölən varsa, Vatandır!*

44 gün ərzində heç həyə baxmayaraq hamı bir ağızdan "yalnız irəli" hayqırdı. Nə bəzi ölkələrin təhdidləri, nə də mənfur düşmənin işğal dövründə qurduğu istehkamlar igid oğullarımızı qorxuda bilmədi. Böyük Vətən Müharibəsində bütün Azərbaycan bir yumruq kimi birləşdi.

Biz 44 gün ərzində dünyaya:

- Vətən sevgisinin hər şeydən əzəl olduğunu;

- Ən çətin anlarda birliyin gücünü;

- Şəhidinin tabutunu çiynində daşımaq qüdrətinə malik olan Analarımızın, bacılarımızın varlığını sübut etdik.

Bu sətirləri yazarkən sinəmdəki ağrıya qürürun zəfər çaldığını hiss edirəm...

İndi isə Sizə qürur mənbəyimiz olan igid əsgərlərimizdən biri haqqında məlumat verəcəyəm. Şəhid Famil Əlizadə! Eyni qəsəbədə doğulsaq da, düzünü deyim ki, onu II Qarabağ Savaşı zamanı göstərdiyi rəşadətlərdən dolayı tanıdım. Famil 3 may 1999-cu ildə Masallı rayonunun Ərkivan qəsəbəsində dünyaya göz açıb. Ailədə 3 övlad olublar. İki qardaş, bir bacı. Famil Ərkivan qəsəbə 3 saylı tam orta məktəbini bitirib. O, hələ məktəbdə oxuyarkən öz tərbiyəsi, çalışqanlığı ilə müəllimlərinin və məktəb yoldaşlarının rəğbətini qazanıb. Sonradan təhsilini peşə məktəbində davam etdirib.

2017-ci ilin iyul ayında Vətən qarşısında borcunu ödəmək üçün hərbi xidmətə çağırılıb. 2018-ci ilin yanvar ayında ordu sıralarından tərxis olunub.

Famil II Qarabağ Savaşında könüllü olaraq iştirak edib. O, Füzulinin Aşağı Əbdürrəhmanlı kəndində düşmən postunun və anbarının alınmasında xüsusilə fərqlənib. Döyüş yoldaşları ilə birlikdə düşmənin mühasirəsini dəfələrlə yarmağa müvəffəq olub. Lakin oktyabr ayının 21-də mənfur düşmənin təxribatına qarşı keçirilən əks-hücum əməliyyatları zamanı Famil snayper gülləsinə tuş gəlib. O, son nəfəsində: *“Arzuma çatdım”,* - deyib.

Necə igidlər böyüdüb Ana-Atalarımız... Bu cür oğulları Vətənə bəxş edən Ana-Ataların qarşısında baş əyirik!

*Rəsmiyyə Sabir*

## Fədail NADİROV

Fədail Fərhad oğlu Nadirov 1999-cu il iyulun 23-də Qobustan rayonunun Bədəlli kəndində anadan olub. Subay idi.



Azərbaycan Ordusunun əsgəri olan Fədail Nadirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Fədail Nadirov oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub. Qobustanın Bədəlli kəndində dəfn olunub.



Fədail Nadirov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi. Həmin günlərdə sosial şəbəkələrdə paylaşılan kəşfiyyatçı Nadirov Fədail son video-görüntüsü izləyənləri göz yaşlarına boğdu. Şəhidin qardaşı deyib ki, Fədail döyüş bölgəsinə gedərkən qardaşından maşını saxlamağı istəyib. Qardaşı maşını saxlayıb, Fədail maşından düşüb oynamağa başlayıb. Həmin video isə onun son görüntüsüdür...

*Sevil Qurbanova*

## Fərid ƏHMƏDOV



Fərid Əhmədov 1986-cı il yanvarın 19-da Cəlilabad rayonunda anadan olub. 1992-cı ildə N.Gəncəvi adına Cəlilabad rayon 1 saylı orta məktəbinin birinci sinfinə gedib. 2003-cü ildə məktəbi bitirən Fərid Heydər Əliyev adına Ali Hərbi Akademiyaya qəbul olub. 2007-ci ildə oranı əla qiymətlərlə bitirən müdavim Fərid Əhmədov rütbə almaq üçün Təlim-Tədris Mərkəzinə göndərilir. Kursu uğurla başa vuraraq leytenant rütbəsi alır və Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə tağım komandiri vəzifəsinə təyin edilir.

Xidmətə başlayandan sonra Türkiyəyə göndərilir. Orada 6 ay yüksək təlim kurslarını başa vurur və fərqlənmə nişanı və diplomla təltif olunur. Sonra Gəncədəki "N" saylı hərbi hissəyə xidmətə qayıdır. 2009-cu ildə Gəncədəki xidmətini başa vuran Fərid öz ərizəsi ilə Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətə başlayır. Qısa müddət ərzində hərbi hissədə hörmət və etimad qazanan Fərid Əhmədov kəşfiyyat bölüyünün komandiri təyin edilir.

2010-cu il sentyabrın 3-dən 4-nə keçən gecə Tərtərin Çiləbürt kəndi yaxınlığında erməni qəsbkarlarına qarşı vuruşan Fərid qəhrəmancasına şəhid olur. Birbaşa döyüş xəttində həlak olduğu üçün Fərid Əhmədovun meyidi düşmən tərəfdə qalıb və yalnız noyabrın 6-da Ermənistan və Azərbaycan tərəflərinin razılaşmaları nəticəsində qaytarılıb. 2010-cu il noyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev baş leytenant Fərid Güloğlan oğlu Əhmədovun "İgidliyə görə" medalı

ilə təltif edilməsi (ölümündən sonra) haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, şəhid Fərid Əhmədov bu medala hərbi borcunu həyatı təhlükə altında yerinə yetirərkən igidlik göstərdiyinə görə layiq görülüb.

Fərid Əhmədov Azərbaycanın qəhrəmanlıq tarixinə əbədi imzanı atmış oldu. Anası Nərgiz xanımın Fərid haqqında "El" jurnalında dərc olunmuş məqalə dedikləri:



"Fərid uşaqlıqdan qeyrətli idi. Çox istedadlı, qeyri-adi uşaq idi. Uşaq vaxtlarında gözəl şəkillər çəkərdi. Həmin şəkillərdə də vətənpərvərlik hissləri vardı. Hələ altıncı sinifdə oxuyanda mərhum prezident Heydər Əliyevin şəklini çəkmişdi. Rəsmlərində cəngavərlik səhnələrini təsvir etməyi xoşlayırdı. Bir dəfə də şirlə pələngin döyüş səhnəsini canlandırmışdı. Həmişə mənə deyərdi ki, bunları elə-belə çəkirəm. Bir dəfə oturarsan, sənin şəklini də çəkərəm. Yas məclisinə gələn kurs yoldaşı mənə danışdı ki, bir dəfə dərsdə müəllim danışdıqca Fərid də şəkil çəkirmiş. Birdən müəllim soruşur ki, sən orda neyləyirsən? Fərid şəkli müəllimə göstərir. Müəllim heyranlığını gizlədə bilməyib deyr: "Fərid, sənin ki belə istedadın vardı, hərbiyə niyə gəlirdin, gərək rəssam olaydın". Dediyim kimi, Fərid həm də gözəl şeirlər yazardı. Uşaqlıqdan mərd, sözübütöv idi. Məktəb illərində öz yoldaşlarını müdafiə edərdi. Hər işini özü həll edər, narahat olmayım deyə, çox şeyləri mənə deməzdi. Hərbi Akademiyada oxuduğu müddətdə iki dəfə əməliyyat keçirmişdi. Bir dəfə qırcadan, bir dəfə də əlindən. Amma mənə 3-4 ay keçəndən sonra bildirməmişdi. Hərbi məktəbdə çavuş idi. İki kursant dalaşanda onları

ayıran zaman əlindən zədələnmişdi. Ona görə də əməliyyat etmişdilər. İstəmirdi ki, mən narahat olum.

Yadımdadır, Fəridin 8 yaşı vardı, evimiz tikilən zaman idi, bir dəfə oynayanda dəmir qolunu kəsdi. Həkim tikiş qoymalı oldu. Həmin tikişin izləri qalmışdı. Həmişə zarafatla mənə deyərdi ki, itsəm məni bu çapıqla taparsınız. Elə bil hər şeyi bilirdi. Onun bu uşaq zarafatı kədərli gerçək oldu. Sonradan xəstəxanada biz Fəridi əlində və qolundakı həmin çapıqla tanıdıq. Fərid haqqında danışmaq mənə çox ağırdır.



Onu da deyim ki, Fərid Türkiyədən qayıdandan sonra özü ərizə yazıb döyüş bölgəsinə – Tərtər rayonuna xidmətə gedib. İstəmirdi ki, fikir çəkim, ona görə çox şeyi mənə bildirmirdi. Hər dəfə zəng edəndə deyirdi ki, Gəncədə işlərim yaxşı gedir, narahat olma. Sonradan bilmişəm ki, Fərid Gəncədə yox, düz bir il iki ay imiş Tərtərdə qulluq edirmiş. Dediyim kimi, könüllü getmişdi ora. Sonradan hərbi hissənin rəisi, zabitlər bildirdilər ki, Fərid necə işlər görüb, hərbi hissədə hamının hörmətini qazanıb, bir komandir kimi orda necə nizam-intizam yaradıb. Onun bacarıqlı olduğunu diqqətdən yayınmır. Fəridə leytenant rütbəsi verilir və qərargah rəisi onu rota komandiri təyin edir. O vaxt Fərid çox gənc idi, cəmi 23 yaşı vardı. General şəxsən özü Fəridə demişdi ki, sən yeganə zabitsən 23 yaşında bu rütbəni qazanmısan. Mənə deməmişdi, amma sonradan bildim ki, Fərid kəşfiyyat bölməsinin də rəisi olubmuş. İyul ayında məzuniyyət götürüb Bakıya bacımgilə getmişdim. Fərid zəng etdi ki, ana, gəlmək istəyirəm, üçgünlük məzuniyyət götürəcəyəm. Mən də

dedim onda Bakıya gəl. Cavabında Fərid bildirdi ki, ana, sən qal istirahət elə, mən gedim rayona, Cəlilabada getmək istəyirəm. Balam ildə iki-üç dəfə mənim əziz qonağım olurdu. Ürəyim necə dözərdi? Beləliklə, mən də getdim rayona. İyulun 14-15-i olardı. Əhvalı mənə xoş gəlmədi Fəridimin. Narahat oldum. "Oğul, sənə nə olub axı?" – deyə soruşanda: "Narahat olma, ana, havalar isti keçir, yemək olmur. Ona görə beləyəm".



Hələ də bilmirəm ki, o nə üçgünlük məzuniyyət idi? Elə bil vidalaşmağa gəlmişdi. Gələn kimi bacısını görməyə getdi. Çox fikirli, qəmli görünürdü. Sanki məndən qaçmağa çalışırdı. Gedəndə də mənimlə pilləkəndə görüşdü, onu darvazaya qədər ötürməyə qoymadı. Mən evdə olmayanda mobil telefonunda Mübariz İbrahimovun şəkillərini nənəsinə göstərib, deyib ki, gör necə oğuldur? Vaxt gələcək, mən də şəhid olacağam.

Mübarizin cəsədinin düşmən tərəfdə qalması onu çox üzürdü, buna görə çox narahat idi. Mənə deyilənlərə görə, Fərid Mübarizin meyiti ilə dəyişdirilməsi üçün erməni zabiti ələ keçirmək istəyirmiş. Ona görə də tez-tez kəşfiyyata gedirmiş. Həmişə əsgər və zabitlərə deyirmiş ki, görərsiniz, bu oğul (özünü göstərib) gedib Mübarizi gətirəcək! Mübarizlə fəxr edirdi. Həmişə də deyirmiş ki, biz necə hərbçiyik ki, onun cəsədini qaytara bilmirik. Telefonunda Mübarizin şəkillərinin üstündən yazıbmış ki, biz səninlə fəxr edirik. Bunu yoldaşları da görübmüş. Birinci kursda oxuyanda Ramil Səfərov Fəridə dərs demişdi. Sonradan Ramil Macarıstanda həbs olunanda Fərid

özünə yer tapa bilmirdi. Fərid mənim ona ehtiyacım olan vaxtda, vətənə lazım olan zamanda getdi. Amma bir şeylə təsəlli tapıram ki, Vətən üçün, torpaq uğrunda canını qurban verdi. Sentyabrın 3-də kapitan Əhməd Abdullayevlə birlikdə (o da bizim rayondan idi) kəşfiyyata gediblər. Əhməd yaralananda Fərid rabitəçi və əsgərlərə əmr edib ki, Əhmədi götürüb geri çəkilsinlər. Özünü ermənilərin səngərinə ataraq Əhmədə deyib ki, "Sən ailəlisən, balaların var, mən isə subayam, səni qoruyacağam!".

Fəridin kəşfiyyatdan qayıtmadığını eşidəndə yoldaşları da sərhədi keçmək istəyiblər… İndi də yuxularımda məndən halallıq istəyir… Onun telefonunu özümdə yadigar saxlayıram".

*Almaz Ülvi*

**Fəqan ZALOV**
**Vüsal MƏMMƏDOV**
**Zaur ƏLƏSGƏRLİ**



*Rövşən Məmmədov:*
3 dost, 3 iş yoldaşı, 3 şəhid! Öndə Məmmədov Vüsal Qüdrət oğlu oktyabrın 10-da, ortada Ələsgərli Zaur Mübariz oğlu oktyabrın 31-də, üçüncü dost Zalov Fəqan Amil oğlu isə noyabrın 9-da Şəhidlik zirvəsinə yüksəliblər. Bu üç igid, şəhid olan 7 miçmandan 3-dür.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

## Fərman YAQUBLU

**(Vətən şəhidləri: Ata və Oğul)**



Gizir Fərman Telman oğlu Yaqublu 1993-cü ildə Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində anadan olub.

Vətən müharibəsində iştirak etmiş Fərman Yaqublu göstərdiyi qəhrəmanlıqlara görə hələ sağlığında ikən "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunmuşdu. Azərbaycan Ordusunun Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu sahəsindəki mövqelərini atəşə tutması nəticəsində Kəlbəcər rayonunda xidmətdə olan gizir Yaqublu Fərman Telman oğlu şəhid olub (23.07.2021 tarixdə Basarkeçər rayonu ərazisindəki mövqelərindən açılan snayper atəşi ilə). Fərman Yaqublu Beyləqan rayonu Qəhrəmanlı kəndində dəfn edilib.

Şəhid Fərmanın atası Telman Yaqubov da Birinci Qarabağ müharibəsi şəhididir. O, 1994-cü ildə Füzuli istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Telman Yaqubov Beyləqanın Birinci Şahsevən kəndində dəfn olunub.

Fərman Yaqublu da atası kimi 27 yaşında şəhid olub.

*Şəbnəm Babayeva*

## Fərrux ABBASOV



Abbasov Fərrux Azər oğlu 17 iyun 1994-cü ildə Ağstafa rayonunun Zəlimxan kəndində dünyaya göz açmışdır. Kiçikliyindən bəri qəlbi kiçik amma vətən sevgisi böyük olan Fərrux daim vətən sevgisi ilə alovlanmışdır. Yaşadığı qısa, lakin mənalı ömür yolunda hər kəsə hörmət qoymuş, can yandırmış özü isə çox böyük hörmət qazanmışdır. Ailəsində anası Dünya xanım, atası Azər bəy, qardaşları: Fərid və az yaşlı Fahin onunla daima qürur duymuşdur. Yeniyetməlik yaşlarından bəri çox acınacaqlı günlər keçirmiş, hər zaman ailənin böyük oğlu olduğu üçün ailəsini dolandırmağa çalışmışdır. Bir müddət Bakı şəhərində əmisi Səyavuşgildə qalan Fərrux evlərini dolandırmaq üçün fəhləlik etmiş, bir az zaman keçdikdən sonra evlərinə Ağstafa rayonun Zəlimxan kəndinə geri dönmüşdür. Həmyaşıdları arasında böyük sevgi ilə yanaşı, yaxşı dostluqlar qurmuş və daima hər kəslə mehriban, heç kəsin qəlbini qırmamaq üçün ehtiyyat edən şəxs olmuşdur. 20 oktyabr 2012-ci il tarixində hərbi xidmətdə olmuş, xidmətini manqa komandiri olaraq başa vurmuşdur. Hərbidən qayıtdıqdan sonra işləmək məqsədi ilə Bakı şəhərinə üz tutmuş bir müddət bibisi Qərənfil xanımın evində qalmış, ailəsinə və özünə yaxşı şərait yaratmağa çalışmışdır. İyun ayının 19-u 2018-ci ildə xanımı Gülnarla dünya evinə girmiş və qızı Səma dünyaya gəlmişdir. Hal-hazırda Səmamızın 1 yaşı var. Atasına, qardaşına o qədər oxşayır ki, indi sadəcə tutunduğumuz onun qızının ona bu qədər bənzərliyidir.

27 sentyabr II Qarabağ müharibəsində 1 ay 6 gün düşmənlə üz-üzə döyüşür, hətta əlbəyaxa döyüşlərdə belə iştirak edir. Oktyabrın 27-si Qubadlı istiqamətində başından aldığı minamiyot qəlpə yarası ilə çökmüş, yoldaşları onu oradan xilas etməyə çalışsa belə, o izin verməmiş: “Siz döyüşün, mənfurların, xainlərin cavabını verin, məni boş verin. Onsuzda mən Şəhid olacam demişdi”. Və gözlərini yumaraq əbədiyyətə qovuşub, Şəhidlik zirvəsinə ucalmışdır.

İndi onunla yalnız ailəsi deyil, bütün Azərbaycan qürur duyur və fəxr edir.

Şəhadətin mübarək, qardaşım!
Şəhadətin mübarək, şəhidim!

*Jasmin Abbasova*

***




*Sən mənim yolumda bir məşəl kimi,*
*Yanırsan, məni də yandırmaq üçün.*
*Döyünən qəlbimin yatan səsini*
*Yuxudan oyatmaq, çaxdırmaq üçün.*

*Bilirəm: qığılcım alovtək deyil,*
*Alovun peşəsi şəfəq saçmaqdır.*
*Düz yolda çarpışmaq igidlik deyil,*
*İgidlik balaca cığır açmaqdır.*

## Fərrux HƏŞİMOV



Həşimov Fərrux Mirzəmməd oğlu 24 mart 1988-ci ildə Sumqayıt şəhərində anadan olub. Evin tək oğludur. 7 yaşında Təbiət elmləri gimnaziyasına qəbul olur, daha sonra təhsilini 11nömrəli məktəbdə davam etdirir. 2001-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseydə, 3 il sonra isə Heydər Əliyev adına Ali hərbi məktəbdə təhsil alır. Ali hərbi məktəbi bitirdikdən sonra Hərbi Dəniz Qüvvələrində xidmətə başlayır.

2016-cı ildə HDQ Xüsusi Təyinatlı Qüvvələrində kursa qatılır, oranı müvəffəqiyyətlə bitirib XTQ-nin SAT-da xidmətinə davam edir.

Xarici ölkələrdə bir sıra təlimlərdə iştirak edir və sertifikatlar alır. “Aprel döyüşləri”ndə iştirak edir. 2-ci Qarabağ müharibəsi başlayan zaman sentyabr ayının 27-də səhər saatlarında evdən çıxır, oğlunu bağrına basıb qoxusunu içinə çəkir. O zamanlar balaca Hüseyn 6 aylıq olur və mən sizi inandırım ki o şəhid olduğu günə qədər Hüseyndən hər birimizin “körpə qoxusu” adlandırdığı o qoxu gəlmir.

1 ay 3 gün Fərrux vuruşur. Füzuli, Cəbrayıl, Qubadlı və Xocavənd istiqamətində gedən döyüşlərdə fəal iştirak edir. Buna görə ölümündən sonra həmin torpaqların alınmasında xidmətlərinə görə medallarla təltif olunur.

Bundan əlavə **“**Qarabağ ordeni” və “Vətən uğrunda” medalları ilə təltif olunan Fərrux Həşimov 31 oktyabr 2020-ci il tarixində Xocavənddə “Qırmızı Bazar” adlanan yüksəkliyin alınması uğrunda gedən döyüşlərdə düşmənin snayper güllәsindən

şəhidlik zirvəsinə ucalır. 1 noyabr 2020-ci il tarixində Sumqayıtda Şəhidlər Xiyabanında dəfn olunur. Ailəlidir, Hüseyn adlı bir oğlu var. Onunla bağlı çox arzuları vardı. Həmişə oynadanda deyərdi: Sən çox böyük sərkərdə olacaqsan! Gəzməyə aparanda həmişə Şəhidlər Xiyabanının yanından keçəndə: "Atanı gəlib burda görəcəksən, burda atanın qardaşları yatıb. İnşallah müharibə olacaq və mən də şəhid olacam. Qubadlını alacam, onun Milli qəhrəmanı olacam", – deyərdi.



"10 illik qusursuz xidmətə" görə medalı vardı. 15 illiyə hazırlaşırdı. Bütün paradların gözü idi Fərruxum. Buna görə də "90 illik", "95 illik", "100 illik" paradların hamısının medalları ilə təltif olunub. Bir Zəfər paradını görmədi. Çox heyif. Amma inanın əgər ki elə bir möcüzə olsaydı, Fərruxum sağ olsaydı və o paradda iştirak etsəydi, o, yürüyüş boyu fərəhdən ağlayardı. Hər kəs Vətənini sevir, amma Fərruxumda bu sevgi hədsiz çox idi. Hər kəsdən, hər şeydən artıq idi Vətən. Anasına "incimə, ana, öncə Vətən, sonra sən; oğluna bəlkə səni böyütmək mənə nəsib olmayacaq, amma bir ömür mənlə fəxr edəcəksən" – deyəcək qədər sevirdi vətənini!

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

*Fərqiyyə Həşimova*

## Fuad ƏLİZADƏ



Şəhid baş leytenant Fuad Əlizadənin üzündən heç zaman gülüş əskik olmazdı. 26 illik həyatında saf təbəssümü ilə iz qoydu. Bu izi müharibədə də itirmədi, döyüşərkən, şəhidliyə ucalarkən belə yox olmadı onun simasından o təbəssüm. Fuad 1994-cü ildə Şahbuz rayonunun Kolanı kəndində doğulub, Naxçıvan şəhərində böyüyüb başa çatıb. Hərbə, hərbi formaya, ən başlıca isə Vətənə olan bağlılığı onu 2008-ci ildə Naxçıvan şəhərindəki hərbi liseyə gətirir. 2015-ci ildə Ali hərbi məktəbdə təhsilini başa vurub leytenant rütbəsi alır. Hələ gənc leytenant olmasına baxmayaraq, zəfər yolumuzun başlanğıcı olan Aprel döyüşlərinin fəal iştirakçısı olur.



Qəhrəman şəhidimiz oktyabrın 12-sinə qədər Murov dağın müdafiəsində, 12-sindən sonra isə Füzuli, Cəbrayıl, Qubadlının azad olunmasında misilsiz şücaətlər göstərir. Şuşa qalasının fəthinə, ən əsası Böyük Qələbəmizə yol açan oğullardan olan Əlizadə qələbəmizdən cəmi 2 gün əvvəl-noyabrın 7-də Laçın dəhlizi uğrunda gedən döyüşlərdə şəhadətə qovuşur. Nəşi

noyabrın 30-u doğma torpağımıza gətirilir. Onun qollarında can verən döyüş yoldaşının dilindən eşitdikdə Fuadın necə igid, fədakar, vətənpərvər, özündən çox əsgərlərini duşunən zabit olduğunun bir daha şahidi oluruq.



Fuad hər zaman fərqlənməyi sevərmiş. O, istər xidməti, istərsə də haqq savaşımızda fərqlənməyi bacardı.

Ölümündən sonra Ali Baş Komandan tərəfindən "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda", Cəbrayılın, Laçının, Qubadlının azad olunmasına görə medalları, şəhadətindən əvvəl isə "Azərbaycan Ordusunun yaranmasının 100 illiyi" medalı ilə təltif olunub.

Bu gün hər birimiz baş əyirik Şəhid məzarları önündə. Hər biri bir Azərbaycan olan Vətən Şəhidləri ilə fəxr edirik! Fuad isə indi şəhadətdən baxır azadlığı üçün döyüşdüyü Vətənin hər qarışına, nurlu təbəssümü ilə...

*Elnurə Tahir*
*"Nuhçixan" İnformasiya Agentliyi*

## Fuad MƏMMƏDOV



Fuad Məmmədov Valeriyeviç 1 avqust-1998-ci ildə Bakışəhərində hərbçi ailəsində anadan olub. 2004-cü ildə Bakı şəhəri 221 nömrəli tam orta məktəbdə təhsil almağa başlayıb. 2015-ci ildə orta məktəbi bitirdikdən sonra Milli Aviasiya Akademiyasına daxil olub. 2020-ci ildə "Helikopter pilotu" ixtisası üzrə təhsilini tamamlayıb. Həmin ilin may ayında hərbi xidmətə çağrılıb və motoatıcı hissəsində qulluq etməyə başlayıb. "Səma" ansamblında rəqslə məşğul idi. Təhsil müddətində Türkiyə, Gürcüstan və Rusiya kimi ölkələrdə rəqs turlarında iştirak edib. Bakıda "Jara" filminin çəkilişlərində iştirak edib və əsas aktyorlardan birinin dublyoru olub.

21 oktyabr 2020-ci ildə işğal olunmuş ərazilərin azad edilməsi üçün mübarizə apararkən cəbhənin Xocavənd istiqamətindəki döyüşdə snayper gülləsi ilə şəhid olub.

Atası – Valeri Nikolayeviç Dışin, ehtiyatda olan polkovnik, Azərbaycan Silahlı Qüvvələrində xidmət edib.

Anası – Mətanət Ərəstun qızı Məmmədova, ali təhsili bitirdikdən sonra könüllü olaraq Azərbaycan Silahlı Qüvvələrində xidmət edib.

*Nigar Hüseynova*

# Fuad NƏCƏFOV



Nəcəfov Fuad Taleh oğlu 1 oktyabr 1990-cı ildə İsmayıllı rayonunun Qalınçaq kəndində anadan olub. 1996-ci ildə həmin kəndin Zaman Qarayev adına Qalınçaq kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olmuş, 2007-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 2008-ci ildə vətənə olan borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollanır. Xidmətini Hərbi Dəniz Qüvvələrində başa vurduqdan sonra, müddətdən artıq hərbi qulluqçu kimi qalıb xidmət etməyə qərar verir. 1 il orda xidmət etdikdən sonra 052 Xüsusi Təyinatı Yaşma kursunu keçir və gizir rütbəsi ilə geri dönüb Hərbi Dəniz Qüvvələrinin, Dəniz Pişikləri dəstəsində sualtı hücum (SAH-SAT) xüsusi təyinatlı olaraq işə başladı. Fəaliyyəti dövründə özünü daha da təkmilləşdirmək üçün, suda, quruda, havada təlimlərə qatıldı. Bir neçə dəfə Türkiyədə yarışlarda Azərbaycanı təmsil edərək



iştirak edib və 14 ölkə arasında 2-ci yerə sahib olub. 2014-cü ildə Türkiyənin "Bordo Berelilər" kursunu keçib. Amerikada da bir neçə kurslarda iştirak edib. Vətənini hər şeydən çox sevən və hər şeydən üstün tutan bir insan idi. Onun bu həyatdakı tək amalı vətəninə namus və şərəflə xidmət etmək idi, hər bir Azərbaycanlı kimi oda doğma torpaqlarımızın tezliklə azad olunacağı günü səbirsizliklə gözləyir və bu müqəddəs işdə onun da payı olma-

sını istəyirdi. 2020-ci il sentyabrın 27-si xalqımızın səbirsizliklə gözlədiyi o gün gəldi.  Artıq 28 ildir işğal altında olan torpaqların  azad olunması üçün orduya əks-hücum əmri verildi. "Vətən Müharibəsi" başladı. Fuad da müharibədə Xüsusi Təyinatlı kimi ən öndə gedənlərdən idi.

Həm rabitəçi, həmdə kəşfiyyatçı kimi vətən müharibəsində öz sözlərini demiş, Madagiz, Suqovuşan, Cəbrayıl, Füzuli, Hadrutda ağır döyüşlərdə iştrak etmişdir. "Vətən müharibəsinin" 12-ci günü 7 oktyabrda, döyüş tapşırığını yerinəyetirərkən, ermənilərin onların dəstəsini minaatanlardan atəşə tutması nəticəsində Nəcəfov Fuad Taleh oğlu qəhrəmancasına şəhid olur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamı ilə Nəcəfov Fuad Taleh oğlu "Vətən Müharibəsində" göstərdiyi rəşadət və igidliyə görə ölümündən sonra, "Vətən uğrunda" medalı, "Qarabağ" ordeni və "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur. Fuad ailəli idi, ölümündən sonra bir qız övladı bizlərə əmanət qaldı.

*Zeynəb Fərhadlı*

## General Polad HƏŞİMOV



Əsgərin könlündə taxt quran general – Polad Həşimovla bağlı xatirələr.

2016-cı ilin “Aprel döyüşləri”ndə göstərdiyi şücaətə görə dövlətin ona bağışladığı evi özü kirayədə qala-qala, şəhid ailəsinə bağışlayan general... Sosial şəbəkədə hamı ondan yazır, tanıyan da tanımayan da... İyulun 14-də cəbhənin Tovuz rayonu istiqamətindəki qanlı döyüşlərdə qəhrəmancasına şəhid olan generaldan... O general ki, öz əməlləri ilə əsgərlərinin könlündə taxt qurubmuş...

Şəhid general-mayor Polad Həşimov... Qarabağ müharibəsi başlayandan bəri döyüş şəraitində şəhid olan ilk general... Döyüş zamanı müdafiənin ön xəttində olan Polad Həşimov sübut etdi ki,Azərbaycan Ordusunda generallar da əsgərlərlə bir çərgədə, ön sırada düşmənə qarşı vuruşur...

Əslən Qəbələnin Vəndam kəndindən olan general-mayor Polad İsrayıl oğlu Həşimov 1975-ci ildə Sumqayıtda doğulub. Orta məktəbi də elə həmin şəhərdə bitirib. Ali hərbi məktəbi Azərbaycanda, hərbi akademiyanı isə Türkiyədə oxuyub. 2003-cü ildə “Hərbi xidmətlərə görə” medalı ilə təltif edilib. 2009-cu ildə isə “Vətən uğrunda” medalına layiq görülüb. 2014-cü ildə III dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilib. 2016-cı ildə “Aprel döyüşləri” zamanı göstərdiyi qəhrəmanlığa görə, II dərəcəli “Vətənə xidmətə görə” ordeninə layiq görülüb. 2019-cu ilin 24 iyununda Polad Həşimova general-mayor rütbəsi verilib. İki oğlu və bir qızı var.

Keçmiş əsgərləri onunla bağlı öz xatirələrini bölüşüblər.

*Ramil Cabbarov:* "Şəhid olan general-mayor Polad Həşimov mənim komandirim idi. Duruşu ilə, danışığı ilə, peşəkarlığı və Vətənə sevgisi ilə igid kimi igid idi. Elə bir komandir idi ki, hərbi heyət qarşısında çıxış edəndə içimizdəki vətənpərvərlik hissini elə alovlandırırdı ki, əliyalın düşmən üzərinə qaçmağa hazır idik.Tabura gələndə "Öncə Vətən!" kəlməsini elə içdən söyləmişdi ki, indiyə qədər səsli xatırlayıram.Vətən səni heç vaxt unutmayacaq, Cənab Komandir!".

*Nicat Həşimzadə:* "Yatmağa yerimiz yox idi. Daha doğrusu bərbad halda idi. Göy rəngli palatkaları birləşdirib özümüzə yer düzəltmişdik. Bir dəfə dəhşətli küləkdən dam başımıza uçdu. Sonra gözlənilmədən dağda kazarma tikintisi başladı. Elə bildik ki, nazirlik bizim üçün kazarma tikir. Ancaq kazarmanı hərbi hissə komandiri Polad Həşimov öz hesabına tikdirdi. Öz evi olmayan komandirimiz bizim üçün ev düzəldirdi. Bizim komandirimiz Polad Həşimov dövlətin şücaətə görə ona verdiyi evi şəhid ailəsinə bağışlamışdı. (vacib bir postu azad etmişdi). Daim əsgərinin yanında olan, əsgərinin haqqını qoruyan zabit idi. Biz dağa, maşın qalxmayan yerlərə un, qida, odun daşıyanda, o da çiyinlərində yük bizimlə bərabər dağa qalxırdı. Həmin vaxt polkovnik idi. İndi Azərbaycan sizsiz, komandir".

*Seymur Kazımov:* "General-mayor Polad Həşimov mənim komandirim olub. Mərd zabit idi. Cəsur zabit idi. Əminliklə deyirəm, həm cəmiyyətimiz, həm də ordumuz üçün çox böyük itkidir. Təpədən-dırnağa zabit idi, nizamnamədən kənara çıxmazdı, amma bəzi hallarda əsgərin salamatı üçün güzəştə getməyi də vardı. Ünsiyyətimiz çox olub, amma 2 dəfə cəzasına da məruz qalmışam – bir dəfə yayın istisində stadionu 10 dairə qaçırtdı mənə, özü də otağının pəncərəsindən seyr edirdi. İkinci dəfə də, hərbi andı 100 dəfə əzbər dedirtdi. Nə deyim, xəta məndə idi, cəzamı çəkməliydim. 2006-cı ilin yay ayı idi, mənim də hərb xidməti başa vurmağıma günlər qalırdı, axşam yoxlanışında kazarmanın yanından keçəndə nə üçün yatma-

dığımı soruşdu, mən də futbola baxmaq istədiyimi bildirdim. Apardı məni otağına, birlikdı futbola baxdıq, doğrusu, hansı oyun idi, yadımda qalmayıb. Hərbi xidməti başa vurduğum gün qərargaha getdim ki, sağollaşam. Bayırda gözləməyi tapşırdı. 10 dəqiqədən sonra əlində bu xidməti xasiyyətnamə ilə gəldi və mənə uzatdı. Gözucu baxdım, təşəkkür etdim. İstədim əlini sıxam, amma bacarmadım, zabit zəhmi gözlərində idi. Hərbi salam verdim, o da jestimə qarşılıq verdi. Əsgər və zabit kimi sağollaşdıq. Bir daha görüşmədik. Onun haqqında çox şey danışa, yaza bilərəm. Qalanları məndə qalsın... 2018-ci ildə Talışdakı “Polad postu”nda oldum. Həmin postu 2016-cı ilin aprelində polkovnik Polad Həşimov azad etmişdi və onun şərəfinə adını vermişdilər. Təşəkkür edirəm, 2006-ci ildəki mayor, 2020-ci ildəki general-mayor Həşimov! Allah rəhmət eləsin, qəbrin nurla dolsun, mənim generalım!”.



*Ramazan Səmədov:* “2010-2011-ci illərdə komandirim olmuş Polad Həşimovun xatirəsinə…Yanvar ayı idi, qar dizə çatırdı. Hərbi hissəyə çatdım. 2-3 gün sonra komandirim Həşimov məni yanına çağırdı. Dedi ki, nə problemin olsa, heç kəsə yox, birbaşa özümə de. Sənin dostların çoxdur, bilirəm, amma ən yaxın dostun mənəm burada. Tez-tez çağırırdı yanına. Dərdləşirdik, söhbət eləyirdik. Hər mövzuda. Həqiqətən sözdə yox, əməldə cəsur, vətənini sevən bir insan idi. Əsgərlərin yeməyinə, sağlamlığına fikir verirdi. Tualetimizə kimi öz hesabına təmir elətdirirdi. O vaxtki rəhbərliyin yardımını gözləmirdi. Briqada qarşısında həmişə mikrofonsuz, əsl natiq kimi danışardı. Ən savadsız insan belə onun nə demək istədiyini anlayırdı. Fikirlərini

hərbçilərə rahatlıqla ötürürdü.Briqadanın həyətində erməni traktoru var idi. Özü şəxsən kəşfiyyatda olanda sürüb gətirmişdi. Traktorun arxa şüşəsində gullə yerləri var idi. Amma ölümdən qorxmadan briqadaya kimi sürmüşdü traktoru. Polad idi axı adı. Polad güllə keçirməz…

İyun ayında Aztv məndən müsahibə götürməyə gəlmişdi. Məqsəd hərbi xidmətdən yayınıb türməyə gedən bir aktivistə qarşı müsahibə almaq idi. Elə komandirin otağında ikən jurnalistə dedim ki, bunu eləyəsi deyiləm. Komandir məni kazarmaya göndərdi. Jurnalistləri götürüb harasa getdilər. Gecə yarısı növbətçi mənə təcili komandirin yanına getmək göstərişini verdi. Komandir Həşimovla çay içdik, otağında mənə dedi ki, narahat olma, danışdım jurnalistlərlə. Sənə siyasi suallar verilməyəcək. Zarafatca, həm də ciddi şəkildə komandirə qayıtdım ki, sizi efirdə tərifləməyəcəm ha, cünkü buna ehtiyacınız yoxdu. Güldü, dedi ki, düz eləyirsən. Ürəyin nə istəyir, o haqda da danış. Sonra məni nümunəvi xidmətə görə 10 günlük məzuniyyətə göndərdi. Tapşırıqsız, tərifsiz.

Qayıdandan sonra Briqada düzülüşü idi. Minlərlə əsgərin qabağında məni çağırdı, dedi ki doktor (hərbi xidmətə doktoranturanı yarımçıq buraxıb getmişdim, ona görə doktor deyə çağırırdı məni), gedirik posta odun daşımağa. Əsgərlərlə çiyin-çiyinə postlara odun, yemək daşıyırdı Həşimov.

Yanvarın 1-i evə yola düşmək vaxtı çatdı. Özü mənə bir geribilim forması verdi. Dedi, nə düşünürsən, onu da yaz. Problemlərdən danışmağa çəkinmə, təkliflər ver. Yenə zarafatından qalamayaraq əlavə elədi ki, yaz doktor, yaz, bəlkə oxuyan oldu… İndi isə, bu yazını yazıram. Özü oxumayacaq komandirim. Amma bəlkə başqaları oxudu, qəhrəmanımızın qiymətini öləndən sonra yox, vaxtında verə bildik".

*Rza Rzayev:* "2011-12 ci ildə "N" saylı hərbi hissədə əsgərlik xidmətinə yollandım. Bizim xidmət elədiyimiz hərbi hissə düşmənlə məsafə baxımından o qədər də uzaq deyildi.

Artıq xidmət olaraq altı ayı başa vururduq. Bir gün növbətçi hissənin əsgəri “Ali təhsillilər, plasda düzül” çağrışını elan etdi. Dərhal bütün ali təhsilli olan əsgərlər öz yerlərini tuttular. Az keçmədi ki, yerişi, duruşu və əsl zabit ciddiyyəti ilə bütün əsgərlərin həqiqi sevgisini qazanmış Komandir önümüzdə dayandı. Bir-bir əsgərlərdən hansı universiteti bitirdiyilə maraqlanırdı. Əsgərlərdən bəziləri Briqadada manqa komandiri (çavuş) qalmalı idi. Sıra mənə çatdığı zaman hansı universiteti bitirdiyimi soruşdu, mən də Baki İslam Universitetini bitirdi-



yimi söylədiyim. Bir neçə saniyə gözlərimin içinə baxaraq sükut etdi. Daha sonra “Sən də qal, bizim din xadimlərinə də ehtiyacımız var” dedi... Allah ruhunu şad, Cənnətdə məqamını uca eləsin Generalım! Biz inanırıq ki, bu millətin vicdanlı, vətəninə, bayrağına bağlı əsl qəhrəman oğulları hələ də var. Onlar bu qanın intiqamını çox ağır alacaqlar”.

*Vüqar Ədilov:* “Əsgərliyimin ilk günləri Ramazan ayına təsadüf etmişdi. 2 gün idi ki gizlincə oruc tuturdum. Namaz qılmağıma icazə alsam da, oruc tutmağıma icazə almağa çəkinmişdim, düşünmüşdüm ki, icazə verməzlər. 2-ci günün axşamı təcili olaraq şəxsi heyəti düzdülər. Bölük komandirimiz içəri girdi və soruşdu: “İçərinizdə neçə nəfər oruc tutur?”. Heç kim dillən-

mədi. Əslində məndən başqa oruc tutan yox idi. Yanımdaki əsgər yoldaşım dedi "niyə səsini çıxarmırsan?". Xahiş etdim ki, deməsin. O da yazığı gəlmişdi, nə idisə, dedi "yoldaş kapitan, Ədilov orucludur". Komandir məni çıxardı ön cərgəyə, fikirləşdim indi dişinin dibindən çıxanı deyəcək. Amma əksi oldu. Tağım komandirlərinə tapşırıq verdi ki, oruc tutan əsgərlər bütün xidmətlərdən ayrılsın. Təsəvvür edin Ramazan ayı boyunca rahat şəkildə orucumu tutub, namazımı qıldım.

Azərbaycan Ordusunda neçə belə hərbi hissə var??? Bəli, Cənab Şəhid Polad Həşimovun hərbi hissəsində xidmət etdiyim müddətcə əksər namaz vaxtlarım şəxsi heyətin düzülüş vaxtı ilə üst-üstə düşürdü. Ancaq heç vaxt buna görə mənə heç bir söz deyilməyib. Sözümün canı, Cənab Şəhidin rəhbərlik etdiyi hərbi hissədə bütünlüklə mənəvi ruh yüksəkliyi hökm sürürdü. Allah məqamını uca etsin".

*Qorxmaz A.*
*Modern.az saytı*

## Həmid ABBASBƏYLİ



Xüsusi Təyinatlı Qüvvələrin Baş leytenantı Abbasbəyli Həmid Cavanşir oğlu 11 noyabr 1991-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almışdır. Həmid Heydər Əliyev adına Ali Hərbi məktəbdə təhsilini daha da təkmilləşdirmiş şəhidimiz "Aprel döyüşləri"ndə də yaxından iştirak etmişdir. Eyni zamanda, Həmid Abbasbəyli Türkiyədə və Çində hərbi təlimlər keçmişdir.



İkinci Qarabağ Müharibəsində Laçın dəhlizinin yüksəkliyini və oradakı Hərbi hissəni Xüsusi Təyinatlı Qüvvələrinin 16 əsgəri ilə fəth edən Abbasbəyli Həmid 20 oktyabrın 2020-ci ildə şəhid olmuşdur. Allah rəhmət eləsin!

*Sevil Qurbanova*

*"Həyat quran nə yorular, nə durar",*
*Budur mənə öyrətdiyin ilk şüar:*
*Budur mənim idealım, inamım:*
*"Qığılcım alışar alov doğurar".*

## Həmidağa HÜSEYNZADƏ

*Tarixi dəyişənlər:*



Şəhid sözü 30 il əvvəl bizə elə anladıldı, elə təqdim olundu ki, şəhadət şərbətini iç-mək vətənini canı qədər sevən hər kəsin arzusu oldu. Tökülən hər şəhid qanı bu torpağa bağlılığımızı daha da möhkəmləndirdi. Hər şəhid verəndə gözümüz ağlasa da, qəlbimizdə şükür edirik, nə yaxşı ki, Vətən, sən varsan! Vətəni uğurunda ölmək istəyən çox sayda xalqlar var. Lakin onların özlərinə aid vətəni yoxdur. Şükür, uğrunda şəhid olacaq qədər sevdiyimiz Vətənimiz var. Vətəni sevmək azdır, onu qorumağı bacarmalı, yeri gələndə canımızı düşünmədən fəda etməliyik. Ömrünüz yetdiyi qədər ölümsüz oğlullarımızdan, onların igidliklərindən danışmalı, tarixin yaddaşına həkk etməliyik.

Tarixinə yaxından bələd olan, tariximizin qara səhifələrini dəyişən oğullarımızdan biri haqqında danışmaq istəyirəm, "Xallı" haqqında danışmaq istəyirəm. Xallı adı sizə qəribə gəlir. Amma bu ad düşmənin qorxulu yuxusu idi. Görkəminə xüsusi xarizma verən yanağındakı xalı düşməndən soruşsaq, yəqin ki, deyərlər ki, "Xal yox, qəlbimizə çəkilən dağdır o". Düşmən qənimlərinin kimliyini xalından tanıyırdılar, bilirdilər. Ona görə də Xallını ilk fürsətdə aradan götürmək istəyirdilər. Bu xallı oğlan, Həmidağa Hüseynzadə xalq olaraq istiqlal savaşımızı verdiyimiz dönəmdə, 1990-cı ildə Bakıda dünyaya gəlib. Düşünürəm ki, Vətəninə sevgi də məhz bununla bağlı idi. 54 saylı orta məktəbi bitirib Hərbi akademiyada təhsil almış, həyatını bir dəfəlik hərblə bağlamışdı. Bu bağlılıq onu qısa, lakin şərəfli həyat yolunu  döyüşlərdən müharibədən saldı. 2016-cı ildə 4

günlük müharibədə Lələtəpənin azad olunmasında yaxından iştirak edərək qəhrəmanlığı ilə fərqləndi. O müharibədə igidlik göstərən qəhrəmanımızın yolu növbəti dəfə 2020-ci ilin 4 günlük iyul döyüşlərindən keçdi. Artıq bu müharibədə hər kəs Həmidağanın şücaətinə bələd idi. Xüsusi Təyinatlı dəstənin üzvü kimi hər kəs ona güvənir, komandirlik etdiyi dəstə onun bacarığı sayəsində 44 günlük Vətən müharibəsinin ilk günü ən çətin şəraitdə – Murovdağ silsiləsində yerləşən bir neçə düşmən postunu dağıtmış və ələ keçirmişdir. Ali Baş Komandanının kapitan Həmidağa Hüseynzadə ona olan güvənini boşa çıxarmayaraq ən çətin şəraitdə ölümü gözə alaraq qızğın döyüşə atılmışdır. Onun üçün həyat, ailə, ata-ana, 5 aylıq qızı Həmidə belə ikinci plana keçmişdi. Vətən sevgisi o qədər güclü idi ki, gələcək planlarını, xoşbəxt həyatını "sonra" deyə ertələmişdi. Bilirdi ki, Vətəninin yaraları sarılmasa, balaca "Həmidə"lər tam xoşbəxt yaşaya bilməyəcək. Gələcəkdə doğulacaq övladların Vətən sarıdan boynubükük qalmamaları üçün, alnıaçıq, üzüağ yaşamaları üçün ona ötürülən qisas savaşını canı bahasına olsa belə bitirməlidir. Bəli, 27 sentyabrda başlayan Vətən müharibəsi 44 gün sonra – 10 noyabrda qələbəmizlə bitdi. Lakin Həmidağa bunu görmədi, çünki "Xallı" artıq 28 sentyabrda şəhadət şərbətini içmişdi. Şükürlər olsun ki, onun əsgər yoldaşları Həmidağanın başladığı işi yarımçıq qoymadılar və onun ruhunu şad etdilər. Necə ki, bugün artıq Bakı şəhəri 20 nömrəli məktəb-liseyin 3x sinfi Həmidağa Hüseynzadənin şanlı adını daşıyır. "Şəhidlərə ölü deməyin, onlar diridirlər" kimi müqəddəs bir kəlam var. Elə isə, Həmidağanın ruhu bu sətirlərdən doğan sədanı eşidir: "Şəhidlər xiyabanında rahat uyu, şəhid qardaşımız, qisasın alındı".

*Nigar Babaxanova*
*(Bakı şəhəri 20 nömrəli*
*məktəb-liseyin 3x sinfi adından)*

## Həndi ƏLİYEV




Əliyev Həndi Elbrus oğlu 19 iyun 1992-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Həndi 14 oktyabr 2020-ci il tarixində Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Allah rəhmət eləsin!

## Hikmət SƏFƏROV



Komadan ayılmayan baş leytenantımız Hikmət Səfərov şəhid oldu. Vətən müharibəsində yaralanan əsgərlərdən biri şəhid olub. Suqovuşan uğrunda gedən döyüşlərdə ağır yaralanan baş leytenant Hikmət Səfərov uzun müddət komada qalmış, dekabrın 8-də isə komadan ayılmayaraq şəhadətə qovuşmuşdur.

Hikmət Səfərov əslən Ağdam rayonunun Yusifcanlı kəndindəndir. Şəhidlik zirvəsinə yüksələn zabit Səfərov II Fəxri Xiyabanda dəfn edilib.

## Həsən MƏMMƏDLİ

Müstəqillik əldə etdikdən sonra dilimizdə yaşam hüququ qazanan, 20 Yanvar faciəsindən başlamış Xocalıya doğru uzanan, hazırki dövrümüzə qədər gedən Dağlıq Qarabağ müharibəsinin ağrı-acısını ifadə edən şəhid sözü qəhrəmanlıq simvolu kimi hər kəsdə qürur hissi oyadır. Sentyabrın 27-dən etibarən başlanan II Qarabağ müharibəsi nəhayətki, sona çatdı. Qüdrətli Azərbaycan Ordusunun şücaəti nəticəsində, biz qələbə qazandıq. Ermənistanın Azərbaycana hərbi təcavüzü zamanı müstəqilliyimiz, ərazi bütövlüyü uğrunda qurban gedənlər hər qarış yurd yeri üçün canlarından keçərək müasir qəhrəmanlıq tariximizin səhifələrini dönməzlikləri, ölümün gözünə dik baxmaq bacarıqları ilə yazdılar. Həmin qəhrəmanlarımızdan biri də Məmmədli Həsəndir.



Məmmədli Həsən Qəhrəman oğlu 1995-ci il iyul ayının 8-də Samux rayonunun Çobanabdallı kəndində anadan olmuşdur. 2001-ci ildə 1-ci sinifə qədəm qoyan Həsən dərslərinə qarşı ciddi məsuliyyətlə yanaşmağa başlayır. 2012-ci ildə orta məktəbi yaxşı qiymətlərlə bitirərək Odlar Yurdu Universitetinin Beynəlxalq münasibətlər fakültəsinə qəbul olmuşdur. Həsən 2016-cı ildə ali təhsilini başa vurub hərbi xidmətə çağırılmışdır. Əsgər Məmmədli 1 il hərbi hissədə ona düşən vəzifəni layiqincə yerinə yetirərək geri qayıtmışdır. Hərbi his-sədən qayıtdıqdan bir müddət sonra o, 2018-ci ildə Samux rayonu Çobanabdallı kəndində yerləşən orta məktəbdə direktor müavi-

ni vəzifəsinə təyin olunaraq işləməyə başlayır. Karyerasının uğurlu addımlarını atarkən Həsəni sentyabrın 21-də səfərbərliyə çağırırlar. Hərbi hissəyə gəldiyi gündən etibarən bütün əsgər yoldaşlarının, eləcə də komandirlərinin böyük hörmətini qazanmışdır. Hətta, ona öz aralarında "müəllim" ləqəbi ilə müraciət edirdilər. Həsən iştirak etdiyi müharibədə böyük şücaət göstərmişdir.

Belə ki, o, Cəbrayıl, Qubadlı, Laçında ermənilərin səngərinə daxil olaraq, bir neçə erməni öldürmüşdür. Sonuncu dəfə Həsən 5 noyabr tarixində Laçın istiqamətində gedən döyüşdə, heç vaxt ayrılmadığı dostu Xalidlə birgə şəhid olmuşdur. Qəhrəmanımız Həsən və onun timsalında Vətən uğrunda canından keçən bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik. Şəhidlik uca bir zirvədir. Həsən də məhz mərdliklə düşmənlə üz-üzə döyüşərək torpaqlarımızın azadlığı uğrunda gedən döyüşdə şəhidlik zirvəsinə ucalmışdır. Həsənin ailəsi, qohumları, sinif yoldaşları, qrup yoldaşları, müəllim kollektivi, yaxın dostları, şagirdləri böyük bir ürək yanğısı ilə vaxtsız şəkildə bu dünyadan köçdüyünə çox üzüldüklərini dilə gətirirlər. Mən, eləcə də bütün xalqımız səninlə fəxr edirik, oğul! Qohumu Nuranə tərəfindən Həsənin əziz xatirəsinə:

*Toy mağarı yasa bürünən igid,*
*Getdiyin o yollar çoxmu gözəldi?!*
*Dünyanı cənnətə dəyişən igid*
*Şəhadət zirvəsi çoxmu özəldi?!*
*Həsənim vətənə canını verdin!*
*Sən canından da çox vətəni sevdin!*
*Düşməndən qorxmayıb irəli getdin,*
*Şəhadət şərbətin səndəmi içdin?!*

*Ülviyyə Novruzova*

## Həsən HƏSƏNOV




Həsənov Həsən Səfər oğlu haqqında danışım sizə. Kür çayının sağ sahilində yerləşən Sabirabadın yetirməsi, ağlı kəsən gündən vətən sevgisini, torpaq yanğısını canında gəzdirən bir oğuldan...

Ailənin dörd övladından biri olan Həsən 3 iyun 1996-cı ildə Sabirabad rayonunun Quruzma kəndində dünyaya gəlmişdi. Yıxıla-dura böyümüş, ilk addımları ilə valideynlərinə sevinc bəxş etmişdi.

Ayla-günlə böy atan Həsən 2002-ci ildə Z.Əliyev adına Qəzli kənd tam orta məktəbin birinci sinfinə getmiş, 2014-cü ildə məktəbi bitirib vətən borcunu vermək üçün həqiqi hərbi xidmətə yollanmışdı. Xidmətini Mingəçevir "N" saylı hərbi hissədə, Quru Qoşunlarının sıralarında kəşfiyyatçı kimi kimi yerinə yetirən Həsən, vaxtaşırı komandanlığın tapşırıqlarına əsasən düşmən tərəfə keçərək lazımi hərbi məlumatları əldə edərək geri qayıdırdı. Qəlbində düşmənə sonsuz nifrəti, vətənə məhəbbət hissi yaşayan Həsən, daim qaynar nöqtələrdə olmağa can atırdı. Bu istəyi onu hətta qanunları pozmağa da vadar etmişdi. 2016-cı ildə o, məlum Aprel döyüşlərində iştirak etmək üçün xidməti hissədən icazəsiz çıxaraq ordu kəşfiyyatı qrupundan olan MAXE hərbi qulluqçularla birgə cəbhəyə getmiş, lakin komandanlıq tərəfindən geri qaytarılaraq Goranboyda bir ay əlavə xidmətlə cəzalandırırlmışdı... 2016-cı ilin may ayında ordu sıralarından tərxis olunaraq doğma kəndinə qayıdan Həsən Həsənov müxtəlif işlərdə çalışsa da, fikri cəbhədə idi, hər gün baş verən hadisələri izləyir və orda olmaq, düşmənə həddini

göstərmək üçün fürsət axtarırdı. Bu fikirlə o,Tovuz hadisələri zamanı çağırırş gözləmədən döyüş zonasına gedir, üç gün sonra isə geri dönərək könüllü cəbhəyə getmək üçün Hərbi Komissarlığa ərizə ilə müraciət edir. 2020-ci il sentyabr ayının ortalarında Müdafiə Nazirliyindən telefonuna daxil olan zənglə arzusu qismən reallaşır və 21 sentyabr günü Prezident İlham Əliyevin ilk çağırışı ilə cəbhəyə yollanır...

Beyləqanda yerləşən "N" saylı hərbi hissədə təlimlərə qoşulan Həsən, müharibənin ilk başlandığı 27 sentyabr günündən etibarən Ordu Kəşfiyyatı Qrupu ilə döyüşlərə qatılmışdır. Kəşfiyyatçı döyüşçü Füzuli, Cəbrayıl, Hadrut, Tərtər rayonunun Talış və Suqovuşan kəndləri, Zəngilanın dörd, Qubadlının isə üç kəndi uğrunda gedən ağır və şiddətli döyüşlərdə iştirak etmiş, düşmənin çoxlu sayda canlı qüvvəsinin, hərbi zirehli texnikasının məhv edilməsində, yaralı yoldaşlarının vaxtında təxliyyə olunmasında xüsusi igidlik göstərmiş, döyüşlərin birində düşmən mühasirəsinə düşən döyüşçülərin sağ-salamat mühasirədən çıxarılmasını təmin etmişdir.

Cəsur döyüşçü oktyabr ayının 20-də, Qubadlının Bala Soltanlı kəndi uğrunda gedən çətin və qanlı döyüşlərdə ağır qəlpə yarası alaraq şəhidlik zirvəsinə ucalmış və doğulduğu Qəzli kəndində torpağa tapşırılmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin verdiyi sərəncamla Həsən Həsənov ölümündən sonra "Vətən Uğrunda" medalı ilə təltif edilmişdir...

**P.S.** Həsən Ailəsindən xəbərsiz Vətən müharibəsinə könüllü yazılmışdı Qubadlı, Hadrut, Suqovuşan və Laçının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Qəhrəmanımızın şəhadətindən sonra oğul övladı dünyaya gəlib.

*Şahnaz Şahin*

## **Həsən QULİYEV**

*Bir amalın iki qəhrəmanı*



Naxçıvanda – bu ulu yurdda dünyaya göz açıb, böyüyüb boya-başa çatan, iki mərd, vətənsevər, igid oğulun yolu 44 günlük Vətən müharibəsində kəsişdi. Bu yolun yolçularının taleyi, sanki eyni yazılmışdı. Ömürlərinin bahar çağında payız fəslini də bahara çevirdilər, igidikləri ilə Vətən torpağında əzizlərinin isti nəfəsini duymadığı üçün solan, illərdir, imdad diləyən xarı bülbülü öz qızıl qanları ilə suvardılar. Onların babaları da adaş idi, özləri də. İki igid oğul qədim Naxçıvanın igidlər yurdu Şərur rayonunun Qarahəsənli kəndində dünyaya ayrı-ayrı vaxtlarda göz açsalar da, eyni yolun yolçusu oldular. Vətən müharibəsində ölümsüzlüyə qovuşdular. Vətənsevər, qəlbi torpaq sevgisiylə dolu, qanına vətənpərvərlik hopan iki cəsur, nər oğul həyatlarını uf deməmədən qurban verdi Vətən torpağına. Onlar Qarahəsənli kəndinin Qarabağda öz canından keçən ilk igidi deyillər. Azərbaycanın Milli Qəhrəmanı Kərim Kərimov da bu yurd yerində dünyaya göz açmışdı. Elə üçünün də məzarı yan-yanadır kənd məzarlığında. Bu iki igid Kərimin xain düşmənin gülləsinə tuş gəldiyi üçün tamamlaya bilmədiyi bir missiyanı yerinə yetirdi. Onlar Milli Qəhrəmanımıza qələbə müjdəsini çatdırdılar. Kənddə ilk ziyarət etdiyim ünvan Həsən Quliyevin ocağı oldu. Anası İradə xala oğlu üçün bəzədiyi, muzeyə çevirdiyi otaqda qarşılayır bizi. Bu



Azərbaycanın Milli Qəhrəmanı
Kərim Kərimov

otaqda nələr yoxdur? Həsənin hərbi formaları, xidmət etdiyi və təhsil aldığı illərdə təltifləri, fotoları, mütaliə etdiyi kitablar. Şəkillərdəki gülən gözlərə, gənc çöhrəyə baxanda insanı biranlıq kədər bürüsə də, az sonra bu kədəri qürur əvəz edir. İradə xala deyir ki, Həsən dünyaya gələndə ona babasının adını verdik. Babası hərbçi olub, İkinci Dünya müharibəsi veteranı idi. Adı ilə bərabər babasının sevdiyi sənətin də yaşadıcısı oldu. Hələ balaca ikən qohum uşaqlarından kimdə hərbi forma görsə, mütləq onun papağını başına qoyub, hərbçi olacam deyərdi. Üç oğlumun sonbeşiyi idi Həsən... O, istəyinə çatmaq üçün mübarizə aparmaqdan heç vaxt yorulmazdı. Heydər Əliyev adına Hərbi Liseyə də, Azərbaycan Ali Hərbi Məktəbinə də öz istəyi ilə getmişdi. Təhsilini bitirib leytenant rütbəsi alanda çox sevinmişdi. İlk xidmətə cəbhə bölgəsi olan Goranboy rayonunun Ballıqaya kəndində başlamışdı. Vətən müharibəsi başlayan gündən ürəyim yanırdı, özümə yer tapa bilmirdim. Gecə-gündüz fikrim oradakı övladlarımızın yanında idi. Üç gün idi ki, şiddətli döyüşlər gedirdi. Həsənin şəhid xəbəri gələn günü onun 24 yaşı tamam olacaqdı. Oktyabrın 1-də balamı o çox sevdiyi, uğrunda canından keçdiyi Vətən torpağına tapşırdıq. Hər gün gedirəm o müqəddəs məzarına... İgid oğlum, sənin qisasını hərbçi yoldaşların aldı. Arzusunda olduğun qələbə xəbərini sən gətirdin, özün də bilmədən qələbə müjdəçisi, sülh göyərçini oldun. Döyüşlərdə göstərdiyin igidliyə görə cənab Prezident səni "Vətən uğrunda", "III dərəcəli Vətənə xidmətə görə" medalları ilə təltif etdi deyirəm.

Fazil Səfərov – dostu, tələbə yoldaşı: – Həsənlə həm kursant, həm də tələbə yoldaşı olmuşam. Təhsilimizi bitirdikdən sonra ayrı-ayrı yerlərdə xidmətə başlamışıq. Həsənin ürəyi ancaq Vətənlə döyünürdü. O, cəsur, igid bir zabit idi. Xidmətini cəbhə bölgəsində keçirir, hər an döyüşə girməyə can atırdı. Vətən müharibəsi başlayanda o, Murovdağ, mən isə Cəbrayıl-Füzuli istiqamətində idim. Mən hərbçi olmağı dayım – Birinci

Qarabağ müharibəsi zamanı şəhid olan Azərbaycan Respublikasının Milli Qəhrəmanı Kərim Kərimovun qisasını almaq üçün seçmişdim. Onun yarımçıq qoyduğu işi tamamlamaq üçün... Müharibə başlanandan iki gün sonra Həsənin şəhid olduğu xəbərini alanda qəlbimdəki intiqam, qisas məşəli daha da alovlandı. Qubadlıya kimi şəhidlərimizin qisasını almaq üçün düşməni məhv etdim, döyüşlərdən birində ağır yaralandım.



Vətən uğrunda ya şəhid, ya da qazi olmaq damarında azərbaycanlı qanı axan hər bir hərbçinin arzusudur. Müharibə qələbə ilə bitəndə onları itirdiyimizə görə heyifsilənsək də, qürurumuz daha çox idi. Çünki Həsən kimi oğullar xalqımızı illərdir, həsrətini çəkdiyi yurd-yuvalarına qovuşdurdu.

Şəhid qanı tökülən yerlərə, "Şəhid qanı yuyulmaz. Şəhidliyə necə yetibsə, eləcə dəfn olunar" – ulular deyib. Bir də deyiblər, yazıblar ki, "Şəhidi ağlamazlar". Şəhid ucalığına yüksəlmək hər insana nəsib olmur.

Dahi Nizami Gəncəvi şəhid müqəddəsliyini belə tərənnüm edib: –

*Şəhidəm, qan rəngli olsun kəfənim,*
*Qoy belə bəzənsin, bayramım mənim.*

Həsənin ailəsi və yaxın dostu ilə həmsöhbət olduqdan sonra kəndin digər qəhrəmanı Həsən Cəlilovun ocağına üz tuturuq.

*Ramiyyə Əkbərova*

## Həsən CƏLİLOV



İki bacının bir qardaşı, Cəlilovlar soyunun tək davamçısı, üç ay idi ki, bir gözəlin adaxlısı idi. Nişanlısı ilə üzbəüz əyləşmək, onun gözlərindəki kədər qarışıq qüruru izləmək qədər  çətin heç nə ola bilməzdi mənim üçün.

"Ailəmizin tək çırağı Həsən sönmədi, məşələ döndü", – deyir atası Məhərrəm dayı. İgid bir övlad böyütdük, o bizim sönməyən ocağımızdı. Qapımızda dalğalanan bayrağı o gətirdi. Bu gün Füzulinin, Qubadlının, Şuşanın, Kəlbəcərin, Ağdamın – vüsalına qovuşduğumuz digər torpaqlarımızın azad səmalarında da dalğalanır o bayraq. Oğlumun döyüşlərdəki qəhrəmanlıqları haqqında məlumat alanda fəxr hissi keçirdim. Kaş ki daha çox döyüşüb, daha çox torpağın işğaldan azad edilməsində əməyi olardı deyirəm. Amma taleyi yazan Tanrıdı, uca Allah kimin qismətinə nə yazıbsa, onu da yaşayır. Həsən şəhidlik məqamına yüksəldikdən sonra bütün el evimizə axışdı, dərdimizə şərik oldu. Cənazəsini gətirən döyüş yoldaşları Həsənin igidliyindən söz açdıqca yanan ürəyimizə az da olsa, su səpildi. Oğlumun Prezident cənab İlham Əliyev tərəfindən "Vətən uğrunda" medalı ilə təltif edilməsi isə bizi daha da qürurlandırdı. Bu gün onları yaşadan Vətənə sonsuz sevgiləri, şücaətləri, həm də xalqımızın böyük ehtiramı, dövlətimizin biz şəhid ailələrinə qayğısıdır.

Kifayət xanım – anası: – Bir neçə ay idi ki, getmişdi orduya. Təzəcə nişanlanmışdı. Cəmi üç ay idi. Tək oğlum, gözümün işığı həmişə, hər işdə özünü irəli verərdi. Elə bu dəfə də elə oldu. Səhər tezdən qalxıb işə yola salmışdım, heç bir az keçməmiş evə qayıtdı ki, gedirəm Qarabağa. Tələm-tələsik yuyunub formasını dəyişdi, dedim ki, ay bala, heç olmazsa, bir az

yemək ye, sonra get. O isə tələsirəm deyib məni qucaqladı. Demək bu son görüşməmiz imiş, son dəfə ətrini duyurmuşam balamın. O, torpağı hamıdan çox sevirmiş deme. Cənnət ətrini almağa gedirmiş. O, qapıdan çıxanda üzüağ, alnıaçıq qayıt dedim. Balam kimi onlarla oğul getdi ocaqlardan, kimi canını, kimisi isə gözünün nurunu, qolunu, ayağını qurban verdi Qarabağ uğrunda. Təki Vətən sağ olsun. Onlar illərdir, üstümüzdəki qara ləkəni öz qanları ilə sildilər. Bacımoğlu Vərməziyar kənd sakini Elməddin Meydanov da döyüşlərdə şəhid oldu.



İki igidin ailəsində olub, onların əzizləri ilə söhbətləşdikdən sonra kənd məzarlığına üz tutur, Vətən oğullarının məzarını ziyarət edirik. Düşünürəm ki, illər keçəcək, hamımız dünyadan köçəcəyik. Onlar isə əbədi yaşayacaqlar bu xalqın ürəyinin başında. Anaların göz yaşında, ataların həsrət dolu baxışlarında, bəzənməyən xonçalarda, yarımçıq qalan "Vağzalı" sədalarında, düşməndən azad etdikləri torpaqların hər qarışında. Tarixin zəfər dastanında.

*Ramiyyə Əkbərova*

**Həsən RZAZADƏ**



Şəhid Rzazadə Həsən Vüqar oğlu 1994-cü il 15 iyunda Sumqayıt şəhərində anadan olmuşdur. O, 2001-ci ildə Qusar rayonu Yuxarı Zeyxur kənd tam orta məktəbinin 1-ci sinifinə qəbul olmuşdur və 2011-ci il 31 may tarixində həmin məktəbdən məzun olmuşdur. 2011-ci ilin sentyabr ayında Həsən AAHM-nə qəbul olmuşdur. O, 2015-ci il iyun ayında həmin məktəbi bitirib, leytenant hərbi rütbəsi ilə Təlim Tədris Mərkəzində təhsilini davam etdirmiş və elə həmin ilin dekabr ayının 25-də təhsilini başa çatdırmış, Nasosnu qəsəbəsində "N" saylı hərbi hissədə hərbi xidmətə başlamışdır. Xidməti zərurətlə bağlı olaraq xidməti yerini 2017-ci ildə Sülhməramlı qüvvələrdə taqım komandiri vəzifəsində davam etdirmişdir. Rzazadə Həsənə 2018-ci ilin 26 iyun Silahlı Qüvvələr günündə növbəti hərbi rütbəsi (baş leytenant) təqdim olunmuşdur. 2019-cu ilin yanvar ayından 6 ay müddətliyinə Əfqanıstana ezam olunan R.Həsən, ezamiyyət bitdikdən sonra yenidən həmin hərbi hissəyə qayıdaraq xidmətini davam etdirmişdir. 2020-ci il II Qarabağ Vətən müharibəsi zamanı könüllü olaraq müharibəyə qatılmış, Zəngilan, Qubadlı və Laçın rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Həsən çox vətənpərvər oğul idi. Müharibə müddətində saysız düşmən texnikasını və canlı qüvvəsini məhv etmişdir. Baş leytenant Rzazadə Həsən 29 oktyabr 2020-ci il Laçın dəhlizi uğrunda gedən döyüşdə Şəhid olmuşdur.Allah Rəhmət eləsin!

*Zəhra Nəzərli*

## Hüseyn İSMAYILOV



İsmayılov Hüseyn Fərman oğlu 1991-ci il iyulun 27-də Şəki rayonunun Qayabaşı kəndində anadan olub. 21 yaşından Beyləqan rayonunda müddətdən artıq həqiqi hərbi qulluqçu idi. Hüseyn, döyüşdə böyük qəhrəmanlıqlar göstərmiş, düşmənin texniki və canlı qüvvəsini məhv etmiş, bir neçə tankın və iki BMP-nin qənimət kimi götürülməsində iştirak etmişdir.



Oktyabrın 20-də bir dəfə yaralanan şəhidimiz yaralı olmasına baxmayaraq ayağa qalxar-qalxmaz, noyabrın 4-də yenidən döyüşə yollanaraq, noyabrın 5-i gedən ağır döyüşlərdə düşmənə yenidən çox sayda itkilər qazandırır, özü isə şəhidlik zirvəsinə ucalır. Şəhidimizin Vətənə əmanət bir qız və bir oğlan övladı qaldı. Şəhidimiz böyüyüb boya-başa çatdığı Şəkinin Qayabaşı kəndində dəfn olunub.

Məkanın cənnət olsun, şəhidim!

*Şəbnəm Babayeva*

# İbrahim HÜSEYNLİ




Şəhid Hüseynli İbrahim İsa oğlu 30 may 1992-ci ildə Yevlax rayonunda anadan olmuşdur. 1999-cu ildə Yevlax rayon Qoyunbinəsi kəndində 1-ci sinifə daxil olub. 2010-cu ildə 11 illik təhsilini başa vurduqdan sonra Naxçıvan Muxtar Respublikasında Hərbi Xidmətə yollanır. Xidmət dövründə uşaqlıq arzusu olan hərbiçi olmaq qərarını alır. Hərbi xidməti-ni başa vurduqdan sonra 2014-cü il aprel ayının 10-undan etibarən xidmətini Müddətdən artıq hərbi qulluqçu kimi davam etdirmək üçün Aran qəsəbəsində yerləşən hərbi hissəyə təyinat alır. Həmişə vətənpərvərliyi, igidliyi ilə seçilən İbrahim xidmətinə ön xətdə davam etdirmək istəyir və düşməndən qisas almaq, torpaqların azadlığı və suverenliyinin bərpa edilməsində səy göstərmək, şəhidlik zirvəsinə ucalmaq ən böyük amalı olur.

2016-cı ildə 4 günlük davam edən "Aprel döyüşləri"nə yollanır. Əsas vəzifəsi yaralılara ilkin tibbi yardım olsa da, o, həm döyüşür həmdə öz xidməti vəzifəsini həyata keçirirdi. Döyüş yoldaşlarının xatirəsində həmişə igidliyi mərdliyi və qorxmazlığı ilə seçilən, yaddaşlarda qalan İbrahim 4 günlük "Aprel döyüşləri" başa çatdıqdan sonra öz xidmətini Tərtər rayonunda yerləşən ön xətdə "N" saylı hərbi hissədə davam etdirir.

22 noyabr 2019-cu ildə uğrunda hər şeyi qurban verdiyi və 7 il onun yolunu gözləyən Surfanə adlı xanımla ailə qurur. Ailə qurduqdan sonra təyinatı Bakı şəhəri Preküşkül qəsəbəsində yerləşən "N" saylı hərbi hissəyə verilir. Xidmət üçün İbrahim oraya ailəsi ilə birlikdə yollanır. Hərbi xidmət dövründə qüsursuz xidmətlərinə görə bir sıra diplom və təltifnamələrlə

təltif olunur. Bir sıra hərbi təlimlərdə yaxından iştirak edərək hərbi biliklərə yiyələnib. 27 sentyabr 2020-ci il tarixdə 2-ci Qarabağ müharibəsinə həm döyüşçü həmdə tibb qardaşı olaraq yollanır. O, döyüşlərdə şücaətlə döyüşür, döyüş meydanından öz komandiri və döyüş yoldaşlarını çıxarır, ağır yaralılara ilkin tibbi yardım göstərir. Bütün bunları İbrahimin döyüş yoldaşları, komandiri və hərbi heyətin üzvləri ailəsi ilə bölüşüblər. İbrahim öz döyüş yoldaşlarının xatirəsində, yaddaşında cəsur döyüşçü, etibarlı silahdaş kimi qalır. İbrahim özünün və bütün döyüş yoldaşlarının, düşmən tapdağı altında olan torpaqlarımızın qisasını mərdliklə alır. Füzuli uğrunda döyüşlərdə iştirak edir. Və şücaətlə döyüşərək 19 oktyabr 2020-ci il tarixdə ən uca zirvəyə Şəhidlik zirvəsinə ucalır. Kiçik çavuş vəzifəsində çalışan Hüseynli İbrahim İsa oğlu ölümündən sonra Vətən uğrunda medalı ilə təltif olunur.

Hal-hazırda onun geriyə vətənə əmanət etdiyi yenicə dünyaya göz açmış və üzünü belə görmədiyi oğul övladı qalıb. Hələ dünyaya göz açmamışdan öncə İbrahim övladının adını Alituran qoymağı qərara alır. Müharibəyə yollandığı zaman həyat yoldaşına son sözü o olur ki, sənin yanına qayıdacağam ya qazi kimi, ya da qismət olsa, şəhid kimi. Şəhid olsam, övladımıza bu adı qoymağı sənə vəsiyyət edirəm. Məqsədi övladını kəşfiyyatçı olaraq görmək və övladının hərbiçi olaraq onun yolunu davam etdirməsi olub. 30 dekabr 2020-ci ildə üzünü görə bilmədiyi oğul övladı Alituran dünyaya göz açır. Alituranı qarşılamağa İbrahimin bütün döyüş yoldaşları, hərbiçi, əsgər və zabit heyəti gəlib. Alituran 10 milyon azərbaycanlının qəlbində yer alan şəhid İbrahimin yadigarı bütün Azərbaycanın övladıdır. Allah rəhmət eləsin!

## İbrahim SADIQLI



*İbrahimin ürəyində bir arzusu da olub. Hər zaman deyirmiş ki, "əgər şəhid olsam, məni tanıdın".*

Uşaqlıqdan hərbi sahəyə marağı olan İbrahim 2016-cı ildə Xüsusi Təyinatlı Qüvvələrdə xidmətə başlayıb. Xidmət etdiyi dövrdə dəfələrlə müxtəlif fəxri fərmanlar və medallarla təltif edilib. 44 günlük müharibə... Qələbə... Şəhidlər... Bu gün şəhid ailələri övladlarının torpaq uğrunda şəhid olduğu üçün fəxr edir. Çünki biz onların şəhidliyi ilə qələbə qazandıq...

Şəhid Sadıqlı İbrahim Şahin oğlu 1993-cü ildə iyunun 28-də Bakı şəhərində anadan olub.

İbrahimin qardaşı Vüqar Sputnik Azərbaycan-a danışarkən bildirib ki, İbrahim 2018-ci ilin sentyabr ayından 2019-cu ilin yanvar ayının sonuna kimi Çin Xalq Respublikasinda snayper kursu keçib. Bu zaman o, 50 ölkə arasında ikinci yer tutaraq Azərbaycan bayrağını yüksəklərdə dalğalandırıb. “Sentyabrda II Qarabağ müharibəsi başlayan zaman İbrahim Kəlbəcər, Cəbrayıl, rayonları istiqamətində gedən döyüşlərdə fəal iştirak edib. İbrahim Cəbrayıl istiqmətində gedən döyüşlərdə adsız yüksəkliklərdə düşmən üçün döyüş çəkilişi apararaq koordinatları verən şəxsi yaxalaya və əsgər yoldaşlarını xilas edə bilmişdi”, – deyə qardaşı danışır. Onun sözlərinə görə, İbrahim oktyabrın 3-də Cəbrayıl istiqamətində gedən döyüşlər zamanı yaralı döyüş yoldaşlarını döyüş meydanından çıxaran zaman şəhid olub: “Ölümündən sonra Ali Baş Komandan qardaşımı “Qarabağ” ordeni ilə təltif etdi. Döyüş yoldaşları danışırlar ki, qardaşım döyüşlər zamanı 60-a yaxın ermənini məhv edib. Onlar danışır-

lar ki, İbrahim Ağdərədə, Kəlbəcərin strateji yüksəkliklərinin azad olunmasında, Füzuli və Cəbrayıl istiqamətində döyüşlərdə qəhrəmanlıq göstərib".

Vüqar bildirir ki, İbrahim mərd, təmiz ürəkli, dinə bağlı insan olub. "Zəhmətkeş idi. Çalışırdı hamının əlindən tutsun, yardım etsin. Ailə həyatı qurmurdu ki, "Qarabağ işğaldan azad edilsin, sonra evlənəcəyəm". Hər zaman ailəmizə dayaq idi. Həm mənəvi, həm maddi cəhətdən dəstəyimiz idi. Hər zaman da şəhid olmağı arzulayırdı". Tanı Azərbaycan, şəhidini. O, səni sevdiyi üçün canını fəda etdi.

*İradə Cəlilova*

*Təltifləri:* (ölümündən sonra)

(26.06.2018) – "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı (sağlığında)

(09.12.2020) – "Qarabağ" ordeni

(15.12.2020) – "Vətən uğrunda" medalı

(24.12.2020) – "Cəbrayılın azad olunmasına görə" medalı

(25.12.2020) – "Füzulinin azad olunmasına görə" medalı

***

*Donub qaldım, 27 il keçsə də, bunu unutmayıb...*

Xalqımızın qələbəyə inamı gün keçdikcə artmaqdadır. Qüdrətli Ordumuzun Ali Baş Komandanının, Prezidentimizin qətiyyəti və mahir diplomatik gedişləri sayəsində artıq "işğalçı erməni" adlı virus təsir gücünü itirib. Bütün xalq yumruq kimi birləşib, xilaskarlıq missiyasını ləyaqətlə yerinə yetirən Rəhbərinə, onun yaratdığı güclü Qələbə Ordusuna dəstək verir. Kimi canı-qanıyla, kimi mənəvi və maddi dəstəyi ilə!

Cavan canını torpaqlarımızın işğaldan azad edilməsində əsirgəməyən qonşum Sadıqlı Şahinin oğlu İbrahim Sadıqlı tariximizin ən şərəfli səhifəsinə düşməklə nəinki ata-anasının, həm də qardaşlarının, qohum-əqrəbasının, eləcə də Binəqədi rayonu, 6-cı mikrorayonda yaşayan qonşularının üzünü ağ etdi. İbrahim gözümüzün qabağında böyüyüb başa çatmışdı. Atası

Şahin müəllimlə uzun illər Mətbuat və İnformasiya Nazirliyi sistemində bir binada işləmişik. O, ən böyük mətbəədə, mən ən böyük nəşriyyatda.Şahin müəllim prinsipial, mərd, sözü həmişə birbaşa deyən adam, övladlarını halallığa öyrədən, vətənpərvər ruhda yetişdirən qayğıkeş, mehriban, eyni zamanda sərt və tələbkar ata kimi hər birimizin rəğbətini qazanıb. İndi sonbeşik oğlu İbrahim şəhidlik zirvəsinə ucalanda bu gözəl insanı başqa rakursdan tanıdım. Adam o qədər təmkinli, səbrlidir ki, ailə üzvlərindən başqa, hüzrə gələnlərə də təsəlli verir, sanki ömrü hesabına böyütdüyü ciyərparası onun yox, başqalarınındır.



Mənə xitabən dediyi sözləri olduğu kimi yazıram: "Əlövsət müəllim, 1993-cü ildə bax bu məhlədə şəhid qardaşın Mahiri son mənzilə yola salanda atan İbrahim dayı dedi ki, "qalan dörd oğlum da şəhid olsun, təki Vətən basılmasın".

Donub qaldım: bu boyda faciənin içində olasan, 27 il əvvəlki hadisəni sözbəsöz təkrar edəsən. Bax, milləti Millət edən belə kişilərdir. Şahin müəllim heç kimin ona təsəlli dolu sözlər deməyinə imkan vermir, "İbrahim bugündən təkcə mənim yox, hamınızın balasıdır!" – deyirdi.Bəli, Şahin müəllim, İbrahim dünənə kimi sənin oğlun idi, indən sonra bütün millətin şərəfli övladı oldu!Adı xalqımızın Zəfər Panteonuna qızıl hərflərlə həkk olunacaq və gələcək nəsillərin qürur yeri olacaq! Bu xalq heç vaxt öz xilaskarlarını unutmur. Necə ki Şahin müəllim 27 il bundan əvvəlki olayı unutmayıb. İndi hər iki İbrahim haqq dünyasındadır, biz də onları unutmayacağıq. Başını həmişə olduğu kimi dik tut, əziz qardaşım Şahin müəllim! İbrahimlər bu haqqı bizə qazandırdı!

*Əlövsət Ağalarov*

# İlkin AĞAQULİYEV



Keçirdiyimiz hər gün tarixə dönür. Tarixə yazılan günlərin hamısı yaddaqalan olmur. Elə günlər var onlar unudulub gedir, elələri də var ki, onlar heç vaxt unudulmur, yaddan çıxmır. Belə günləri unudulmaz edən qəhrəmanlardandır şəhidlər. Tarix boyu inanan millətləri zəfərdən zəfərə aparan səbəb də vətənə xidmət etmək və şəhid olmaq arzusu olmuşdur. Canlarından keçməklə xalqın qəhrəmanlıq dastanını, azadlığını canı ilə qazanıb qanı ilə yazanlardır şəhidlər. Məhz onların canı və qanı hesabına qazandıqları azadlıq və müstəqillik xalq tərəfindən heç vaxt unudulmur. Ona görə ki, şəhidlər xalqın kimliyini, mənliyini qoruyan insanlardır.

Vətən uğrunda gözünü qırpmadan, ölümün gözünə dik baxan oğul və qızlarımızı yad etmək, xatirəsini əziz tutmaq isə hər birimizin ən müqəddəs borcudur.

Belə mərd oğullarımızdan biri də 4 oktyabr 2000-ci ildə Şabran rayonunda dünyaya göz açmış Ağaquliyev İlkin Saməddin oğludur.

İlkin 2017-cı ildə Şabran rayon Tofiq Abbasov adına 1 saylı tam orta məktəbi bitirib. 2018-ci ildə Azərbaycan Dövlət Pedoqoji Kollecinə, Fiziki tərbiyə müəllimliyi ixtisasına daxil olur və həmin il hərbi xidmət vəzifəsini yerinə yetirmək üçün Şabran rayon hərbi komisarlığı tərfindən çağırılır. 2020-ci ildə Hərbi xidmət müddəti bitdikdən sonra orda qalaraq MAXE vəzifəsində çalışmışdır. Böyük Vətən müharibəsi uğrunda gedən

döyüşlərdə 18 oktaybr 2020-ci ildə Suqovuşan uğrunda gedən döyüşlərdə öz şücaətini göstərərək qəhrəmancasına şəhid olmuşdur. Qeyd etmək istərdim ki, İlkin ailənin tək övladı idi. O bütün bunları, gələcək arzularını, xəyəllarını gözə alaraq Vətənimiz uğrunda savaşıb. Belə qəhrəman oğullarımız olduqca, nə bu Vətənin qolu bükülər, nə də kiminsə bunu etməyə cəsarəti çatar. İlkin, biz səninlə fəxr edirik, bütün Azərbaycan sənin kimi oğullarımızla fəxr edir. Bugün sevinc hissini yaşayırıqsa bunların hamsını sizə borcluyuq.

*Jalə Hacıyeva*

## Əkbər MƏSİMOV

44 günlük Vətən müharibəsində Murovdağda itkin düşmüş daha bir hərbçimizin nəşi tapılıb. Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu, Ağdaş rayon Qaradeyin kənd sakini əsgər Məsimov Əkbər Yunis oğlunun şəhid olduğunu məlum olub. - "İtkinlər" adlı vatsap qrupumuzda düz 9 aydır ki, "mənim Əkbərim də itkindir, Əkbərimi görən, xəbəri olan varsa, bizə desin", – deyə ağlaya-ağlaya səs atırdı anası.



Nişanlıydı.

# İlkin RZAYEV




Mayor Rzayev İlkin Cəfər oğlu 1984-cü ildə Şərur rayonu Ələkli kəndində anadan olub. O, orta təhsilini 1990-1995-ci illərdə Suraxanı rayonu 270 nömrəli məktəbdə, 1995-2001-ci ildə isə Nizami rayonu 250 nömrəli məktəbdə alıb. İlkinin uşaq vaxtından hərbiyə və Vətənə sevgisi çox böyük olub. 1993-cü illərdə onun atası, əmisi I Qarabağ Müharibəsində könüllü şəkildə fəal iştirak ediblər. İlkin hələ kiçik ikən onun atasının Vətən haqqında dediyi sözlər daim qulağında cingildəmiş və içində hərbiyə qarşı sevgi oyatmışdır. Bu sevgi ilə də o hərbi məktəbə sənəd vermişdir. Hətta o hərbi məktəbə sənəd verən il sağlamlığının yaratdığı problemə görə qəbul ola bilmir, lakin içindəki böyük şövq buna mane olur. O, bir il sonra, 2002-ci ildə yenidən sənəd verir və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. 2006-cı ildə hərbi məktəbi bitirərək "Leytenant" rütbəsini alır. 2006-2007-ci ildə isə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində zabitlik kursu keçir.

2009-cu ildə "Baş Leytenant", 2013-cü ildə "Kapitan", 2017-ci ildə isə "Mayor" rütbəsinə yüksəlir. İlkin Rzayev hərbi xidməti zamanı daim yüksək hərbi bacarıqlarına görə fərqlənmişdir. Sağ ikən aldığı 6 medal bunun göstəricisidir. "Silahlı Qüvvələrin yaranmasının 90 illiyi" medalı, "Hərbi xidmətdə fərqlənməyə görə 3-cü dərəcəli" medalı, "Qüsursuz xidmətə görə 3-cü dərəcəli" medalı, "Silahlı Qüvvələrin yaranmasının 95 illiyi" medalı, "Qüsursuz xidmətə görə 2-ci dərəcəli" medalı kimi nailiyyətləri onun necə zabit olduğunu göstərir. Onun son vəzifəsi "Döyüş hazırlığı bölmə rəisi" olmuşdur.

O, xidməti zamanı daim çətin mövqelərdə olmuş və işini

sevərək etmişdir. İlkin üçün qorxu deyilən bir hiss yox idi. Silah yoldaşları ilə, əsgərləri ilə hər zaman qardaş kimi olub. Hətta 2016-cı ildə "Aprel döyüşləri" zamanı məzuniyyətdə olsa da, döyüş yoldaşının şəhid olması xəbərini eşitdikdən sonra yenidən cəbhəyə yollanıb.

Şəhidimiz hər yerdə "Murov aslanı" deyə anılır. Yoldaşı Zeynəb xanım onun tarixçəsinin belə danışır: "Aprel döyüşləri zamanı şəhid olan Elnur Əliyev onun yaxın silah yoldaşlarından idi. Bir dəfə onunla danışanda eşitdim ki, İlkinə "Murov aslanı" dedi. Soruşdum ki, İlkin sənə niyə belə ad qoyublar? Gülümsündü və bu adın tarixçəsini danışdı: "Bir gün Murovda olanda qarşıma məqsəd qoydum ki, tabeliyimdə olan əsgərlərlə bu gecə ermənilərin olduğu istiqamətə gedib qum torbalarını doldurub ora tikəcəm və ermənilər qorxub geriyə çəkiləcək". İlkin, həqiqətən də, qorxmadan dediyinə əməl edib. Gecə ilə həmin əraziyə gedib orada səngər qazıb və qum torbaları qoyublar. Səhəri gün belə bir mənzərə ilə qarşılaşan düşmən qorxusundan geri çəkilmək məcburiyyətində qalıb. Silah yoldaşları ondan "Ay İlkin, heç qorxmadınmı bu hərəkəti edəndə?" deyə soruşublar. İlkin isə: "Əgər aslan sürüyə hücum etmək istəyirsə, çobanın ona nə edəcəyi aslan üçün önəmli deyil" - deyib. Bu vaxtdan sonra ona həmişə "Murov aslanı" deyiblər. Komandirlərinin bu cür cəsurluğu və qorxmazlığı isə əsgərlərinə dəhəmişə dayaq olub.

Sanki İlkinin taleyi Murovda yazılıbmış. Onun təyinatı veriləndə ailəsi dədə-baba yurdu olan Naxçıvanı seçməyini istəyib. O isə bunu qəbul etməyib, Murovu seçib. Ailəsinin təkidinə qarşı cavabı belə olub: "Biz zabitlərin ayaq basdığı hər yer Vətənimizin torpağıdır. Fərqi yoxdur hara olur, olsun". İlkinin işinə sevgisi onun ailəsinə olan sevgisindən belə ötədə imiş. Hətta övladı dünyaya gələndə bir neçə kəşfiyyatçı döyüş yoldaşının şəhid olduğuna görə evinə gəlib şadlıq keçirməyib. Komandiri İlkinə "Bəlkə, qızın olub deyə getmirsən evə?" deyib,

İlkin isə “Xeyr, komandir, oğlum dünyaya gəlib, lakin indiki halda mən buranı tərk edə bilmərəm” deyib. Və oğlunu üç aydan sonra məzuniyyətdə görüb. İlkin övladlarını da özü kimi vətənpərvər ruhda böyüdürmüş. Evdə övladlarına nağıl danışanda belə daim qəhrəmanlıqla bağlı nağıllar danışarmış, özünün və döyüş yoldaşlarının başına gələnləri nağıl formasında onlara söyləyərmiş. Qızının birinci sinfə hazırlıq qrupuna qeydiyyatını da özü etmişdi, çox sevinirdi onun məktəbə gedəcəyinə görə. Qızı Nur bir dəfə onun yaxasında Heydər Əliyevin şəkli olan sancaqdan istəyir. Söz verir ki, sən də məktəbə gedəndə sənə alacağam. Və elə qızına son aldığı hədiyyə də həmin yaxa sancağı olur.

İlkin son dəfə sentyabrın 27-i evdə olub, ailəsi ilə halallaşmaq üçün evə gəlib. O, evdən çıxanda həyat yoldaşına “Mənə bir şey olsa, dik dur. Biz zabitlər bu günü illərlə gözləmişik. Bu gün artıq gəlib çatıb” demişdi. Onun bir şüarı var imiş, daima deyirmiş ki, “İnsan anasının, atasının da qatilini unudar, ancaq insan şərəf və ləyaqətinin qatilini əsla unuda bilməz”. Unutmadı da, bunu özünə amal etdi. Mənfur düşməndən qisasını aldı. Noyabrın 8-də həyat yoldaşının ad günündə evə qayıdacağını, qayıda bilməsə də ona hədiyyə yollayacağını demişdi. Yoldaşı Zeynəb xanım deyir ki, noyabrın 8-i o mənə həqiqətən hədiyyə verdi, Qələbəni mənə hədiyyə etdi.

İlkin müharibə başlanandan Murovdağ uğrunda döyüşlərə girir. Onun başçılığı altında hərbçilərimizin əks-hücumu nəticəsində Murovdağ işğaldan azad edilir. Hərbi hissənin döyüş hazırlığına rəhbərlik edən İlkin həmin döyüşlər əsnasında özünə tapşırılan istiqamətdə vəziyyəti tam ələ alıb, qəhrəmancasına döyüşür. Digər istiqamətdə də qızğın döyüşlərin getdiyi vaxtda İlkindən 2-3 km məsafə uzaqlıqda döyüşən əsgərlərinin mühasirəyə düşəcəyini, pis vəziyyətdə olduqlarını müşahidə məntəqəsindən görür. Və öz postunu təhvil verdikdən sonra silahını götürüb təkbaşına həmin yerə köməyə gedir. Bunu onun

döyüş yoldaşları danışır. Hələ də bu günə kimi onların olduğu hərbi hissədə Mayor Rzayevin igidliyindən və dediyi sözlərdən ağız dolusu danışılır. Əsgərləri deyirlər ki, o bizim yanımıza yetişəndə zabit heyətindən heç kimin sağ qalmadığını gördü. “Mən bu postu ya özümüzdə saxlayacam, ya da elə burdaca qanımı tökəcəm. Amma sizin birinizi də düşmən gülləsinə qurban verməyəcəm” – deyir. Və silahına sarılaraq çox sayda düşmən qüvvəsini məhv edir, 30-40 nəfərdən ibarət şəxsi heyəti isə xilas edir. Mayor Rzayevin döyüş bacarığından təlaşa düşən düşmən snayperçiləri həmin mövqeni dayanmadan atəşə tuturlar və sonda bir mərmi İlkinin boğazına tuş gəlir. Baş verən güclü qanaxmaya baxmayaraq özündə güc toplayaraq yanına yetişən döyüş yoldaşlarına “Övladlarımdan muğayat olun. Komandanlıq üzrümü qəbul etsin. Döyüş tapşırığını sona kimi davam etdirə bilmədim. Vətən, məni bağışla!” – deyərək əbədiyyətə qədər gözünü yumur...

Onun şəhid olduğu yer sıldırımlar və çətin relyef olduğuna görə cənazəsinə götürmək də asan olmur. Hətta onu götürməyə cəhd edən bir döyüş yoldaşı da snayperlə qolundan vurulur. Oktyabrın 2-də şəhidlik məqamına ucalsa da,üzərinə yağan qar altında qalır, sonra onu tapmaq mümkün olmur. Beləcə, iki ay Murovun bəyaz qarına sarılıb uyuyur. İkin bir çox yerlərdə xidmət etmişdi, ancaq ən çox Murovu sevirdi. Tanrının ona yazdığı alın yazısına da Murovdağda yekun vurdu. Dekabr ayının 18-də İkinci Şəhidlər Xiyabanında dəfn edilən Murov Aslanı Mayor İlkin Rzayevdən Vətənə əmanət iki balası – qızı Nur və oğlu Əli qaldı. Bir də onun öz canı və qanı bahasına yazdığı tarix!İlkin ər meydanında, döyüş meydanında mərdliyi, igidliyi, qorxmazlığı ilə çiynində daşıdığı ay-ulduzun haqqını verdi. İlkinin yoldaşı Zeynəb xanım da onun dəfnində verilən bayrağı başına örpək bilib, şəhidinin ay və ulduzunu yenidən göylərə qaldırdı.

*Məleykə Mirzəli*

# İlqar BÜRCƏLİYEV



Torpaq suyla qarışanda palçıq olur, qanla qarışanda Vətən - deyiblər. Öz canından, qanından keçərək Vətəni Vətən edən necə igid, cəsarətli oğullarımız, qardaşlarımız var bunun bir daha şahidi olduq II Qarabağ müharibəsində. Nə yazsaq, nə desək, nə etsək onların borcundan çıxa bilərik ki? - hec nə. Onlar silahı əllərinə alanda geridə qoyduqları ailələrini yox, Vətənin gələcəyini düşündülər və zərrə qorxu duymadan ölümün gözünə baxdılar. Belə igidlərdən biri də şəhid İlqar Bürcəliyevdir. Əslən Gəncəli olan Bürcəliyev 2001-ci il mart ayının 11-də Moskva şəhərində doğulub. 2007-ci ildə Xırdalan şəhəri 2saylı orta məktəbin 1-ci sinfinə qəbul olmuş, daha sonra 3-cü sinifdə məktəbini Yeni Yasamal rayonu Əsəd Əhmədov adına 308 nömrəli məktəblə dəyişmiş, 2017-ci ildə orta təhsilini Gəncə şəhər 38 nömrəli tam orta məktəbdə davam etdirmişdir, 2018-ci ildə isə yenidən 308 nomrəli tam orta məktəbə qayıdaraq həmin məktəbin məzunu olmuşdur. İlqar 13 yaşında ikən Vətən FK-da oynamağa başlayır və 16 yaşında ikən 1 il Kəpəz FK-da oynayır. Uğurlu nəticələrinə görə, Zirə FK-a transfer olunur. Zirədə oynadığı dövrdə də fərqləndiyinə görə, Milli komandaya dəvət olunur. Daha sonra isə U-18 Milli komandasında oynayır.

İlqar Bürcəliyev 2019-cu il iyul ayının 22-də hərbi xidmətə yollanır, andiçmə mərasimindən sonra Vətənə xidmət üçün Tərtərə gedir və Tərtərin Sarov kəndində hərbi xidmətə başlayır. İlqar Bürcəliyev 2-ci Qarabağ müharibəsində də iştirak etmiş və qəhrəmanlıq göstərmişdir. 2020-ci il sentyabr ayında isə Tərtərin Talış yüksəkliyinin alınmasında uğrunda gedən

döyüşlərdə düşmənin canlı qüvvəsini məhv etmiş və şəhidlik zirvəsinə yüksəlmişdir. Şəhid İlqar Bürcəliyevin qardaşı Tamerlan Bürcəliyevdən ona nə qədər çətin olsa da, qardaşı haqqında danışmasını, şəhidimizi daha yaxından tanımağımız üçün bizi məlumatlandırmasını istədik.

*Tamerlan Burcəliyev:* "Qardaşımı hər zaman mərd, qorxmaz, hər zaman irəli addım atan, geri çəkilməyən biri kimi tanımışam. Tək mən yox, ətrafında olan hər kəs. Yasamalda olan böyük hörməti İlqar şəhid olmamışdan əvvəl də var idi. Şəhidlik böyük zirvədir, hər kəs hörmət edir, ancaq qardaşımız hər zaman böyük hörməti olub. Yaşda məndən böyüklər də hər zaman İlqarın qardaşısan deyib salamlaşıb, görüşüblər. İlqarın da, mənim də uşaqlıqdan futbola marağımız olub. Mən 11, İlqar 13 yaşında Vətən futbol məktəbində futbola başlamışıq. İlqar Milli komandanın yeniyetmələrində də oynayıb. Qardaşım Barcelona və Messi azarkeşi idi, həmişə oyunlara bir yerdə baxardıq. Hətta rəqib komanda olduğundan mübahisələrimiz də olurdu (gülümsəyir). İlqarın öz bloknotu var idi, Bakıya gələndə bizə vermişdi, indi evdədi. Biz içinə baxmamışdıq ki şəxsidi, şəhid olandan sonra baxdıq və belə bir yazı var idi: "Əgər işdi qalsam və cəbhəyə düşsəm bir Mübariz də mən olacam inşallah. Elə bir hiss var içimdə… 02.08.2019" .

Biz müharibədə İlqarın yanında olan, birlikdə vuruşan əsgər yoldaşları ilə danışdıq. Döyüş yoldaşlarından Əvəz Qasımov İlqarın onun qucağında şəhid olduğunu dedi. Hətta İlqar yoldaşının geriyə qayıtmasını istəsə də, Qasımov İlqarın başından ayrılmamış, sona kimi İlqarın yanında dayanmışdır. İlqar yaralandıqdan sonra yoldaşından su istəmiş və cibindəkiləri (cibindən 1manat çıxıb, bizdə, evdədi) əsgər Qasımova vermiş, son olaraq da "Atama-anama hec nə demə, yazıq oldular" cümləsini işlədib. Daha sonra bizə İlqarın döyüş yoldaşı Fərid Hüseynov yazdı. O qeyd elədi ki, İlqar yaralanmamışdan qabaq mən yaralanmışdım və həmin əraziyə heç kim yaxınlaşa bil-

mirdi. İlqar sürünə-sürünə gəldi, məni ordan çıxardı.” Mən qardaşımın bölük komandiri Əhməd Əhmədzadə ilə danışdım. O dedi ki, əgər İlqar sağ qalıb döyüşə davam etsəydi döyüşdə çox böyük işlər görüb fərqlənmə alardı. Həm də o hər şeyi İlqara tapşırırmış. Həm İlqarı, həm yanındakı əsgərləri çox təriflədi. Döyüşə gedəndə də hərəsi bir tankda imiş. İlqar başını çıxarıb komandirə əli ilə işarə edib ki hər şey qaydasındadır. İlqargilin önündəki maşına roketlə vurublar, həmin maşın partlayıb, ondan sonra döyüşməyə başlayıblar. İlqar və əsgər yoldaşları şəhidləri dərədən çıxarıblar. Komandiri deyirdi ki, mən ona əsgərləri yığ de-yəndə o, 45 əsgəri yığıb mənə məruzə edərdi. İlqar və yanındakı əsgərlərin yoxluğuna hələ də inana bilmir. Deyir hələ də elə bilirəm burdadılar, yadıma düşəndə ki artıq yoxdular mənə çox pis təsir edir.



İlqar Bürcəliyevin əmisi qızı Nəzrin xanım da şəhidimiz haqqında düşüncələrini bizimlə paylaşdı: “İlqar oynamağı sevən biri idi, toylarımızda ən cox oynayan insan idi, həmişə seçilirdi və seçilməyi də sevirdi. Uşaqla, böyüklə, hər kəslə əlaqəsi var idi, elə ona gorə də hər kəsin qəlbində yer almışdı. Çox mehriban biri idi. 2016-cı ildən arzusu imiş şəhid olmaq və bacardı da. Vətənə özəl bir sevgisi var idi. Hətta gedərkən deyibmiş ki, mən gedirəm, ancaq qayıtmayacam. 2016-cı ildə dostunun qardaşı şəhid olarkən onu yola salanda demişdi: “mən şəhid olsam, məni də belə yola salarsız”, sanki bilirmiş.

İlqar Bürcəliyev görkəmli teatr və kino xadimləri Azərbaycan SSR xalq artistləri Məmməd Bürcəliyevin və Sədayə Mustafayevanın nəticəsidir. Subay idi. Şəhid İlqar Bürcəliyev 29 sentyabr 2020-ci il Gəncə şəhərində böyük izdiham və qürur

hissi ilə son mənzilə yola salınmışdır. Dəfn mərasiminin sonunda
yaylım atəşi açılmış, əsgər Bürcəliyev torpağa tapşırılmışdır.

Bürcəliyev İlqar Vüqar oğlu Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda" (ölümündən sonra) və Azərbaycan Prezidenti İlham Əliyevin 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Laçının azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif edilmişdir

Allahdan şəhidimizə rəhmət eləsin. İlqar təkcə ailəsinin və yaxınlarının yox, bütün Azərbaycanın fəxridir.

*Şərqiyyə Həsənova*
*Fəridə Qədimova*

***

*Mən qorxmuram uzaq yola çıxmaqdan,*
*Bu yolun şaxtasından, soyuğundan mən qorxmuram.*
*Mən qorxmuram uzaq yola çıxmaqdan,*
*Bu yolun,acısından, ağrısından,*
*"Ölüm" adlı yuxusundan mən qorxmuram.*
*Yollar saysız, Yollar sonsuz, Yollar ötür,*
*Dünənimdən,bu günümdən,*
*Sabahımdan ötür keçir.*
*Mən qorxmuram uzaq yola çıxmaqdan,*
*Çünki,dünyadakı bütün yollar,*
*Anamın təndir evinin qabağından*
*ötür keçir.*

## İlyas NƏSİROV



Aprel döyüşlərində yaralı komandirini mühasirədən xilas etmişdi qəhrəman Nəsirov İlyas.

4 iyul 1985-ci ildə Beyləqan rayonunun Milabad kəndində anadan olan Nəsirov İlyas Vilayət Cəfərov adına Milabad kənd orta məktəbini bitirib. 2002-ci ildə hərbi xidmətə yollanmış, kəşfiyyat bölüyündə xüsusi təlim keçmişdi. O illər ərzində intizamı ilə seçilən İlyas 2007-ci ildə hərbi xidməti başa vurmuşdur.

Daha sonra "N" saylı hərbi hissədə kəşfiyyatçı vəzifəsindəçalışmış. İşlədiyi müddətdə kiçik çavuş rütbəsinə yiyələnmişdir. Nəsirov İlyas vaxtının çox hissəsini gecə kəşfiyyatı təlimlərinə sərf edərmiş. Həmyaşıdları, özündən yaşca böyük yoldaşları ona "dayı" deyə müraciət edirdilər.

Daha sonra "N" saylı hərbi hissədə kəşfiyyatçı vəzifəsində çalışmış, işlədiyi müddətdə kiçik çavuş rütbəsinə yiyələnmişdir. Gizir İlyas Nəsirov 2012-ci ildə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunub. 2013-cü il 7 mart tarixində "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi", 2013-cü il 24 iyunda "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi", 2018-ci il 26 iyunda "Azərbaycan Ordusunun 100 illiyi" ilə əlaqədar yubiley medalları ilə mükafatlandırılıb. 2016-cı ildə "Qüsursuz hərbi xidmətə görə" 3-cü dərəcəli medala layiq görülüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüş zamanı ona Prezident tərəfindən qızıl saat hədiyyə olunub. O, "Aprel döyüşləri"ndə göstərdiyi şücaətə görə, Azərbay-

can Respublikasının Prezidentinin 2016-cı il 19 aprel tarixli 1967-ci nömrəli sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif olunmuşdur və bu mükafatı ona İlham Əliyev şəxsən özü təqdim etmişdir.

İkinci Qarabağ müharibəsində də Nəsirov İlyas bir an belə geri çəkilməmiş, həmişə peşəkar bir kəşfiyyatçı kimi ön sıralarda döyüşlərdə iştirak etmişdir. İlyas Füzuli, Hadrut, Qubadlı istiqamətlərində gedən döyüşlərdə qəhrəmancasına iştirak etmiş, Qubadlı uğrunda gedən döyüşlər zamanı 21 oktyabr tarixində  şəhidlik zirvəsinə ucalıb. O, 3 övlad atası idi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 15 dekabr 2020-ci il tarixində İlyas Nəsirov "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur.

Ruhunuz qarşısında baş əyirik, şəhid qardaşımız!

Allah rəhmət eləsin!

*Gülnarə Kazımova*

## İmran ƏLİYEV



Əliyev İmran Əli oğlu 7 aprel 1993-cü il Göyçay şəhərində anadan olub. Uşaqlığı və gəncliyi Bakıda keçən İmran Bakıda 54 nömrəli məktəbdə təhsil alıb və məktəbi bitirdikdən sonra Azərbaycan Texniki Universitetinin kompyuter mühəndisliyi fakültəsinə daxil olub. Oranı bitirdikdən sonra Naxçıvan Muxtar Respublikasının FövqəladəHallar Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. Oranı bitirdikdən sonra Təlim Tədris Mərkəzində kursa getmiş və leytenant kimi Bərdə şəhərinin "N" saylı hərbi hissəsində fəaliyyətə başlamışdır (2020-ci il yanvar).

Bir müddət orada qaldıqdan sonra Tərtərə ezam olunur və orada leytenant kimi fəaliyyətini davam etdirir. 27 sentyabrdan etibarən başlayan müharibələrdə bir çox ərazidə böyük şücaət göstərmiş və Suqovuşan ərazisində qəhrəmancasına şəhid olmuşdur.

Allah bütün şəhidlərimizin məqamını ucaltsın!

*Səkinə Zeynalova*

## İntiqam ABDULLAYEV



İntiqam Abdullayev 12 avqust 1998-ci ildə Ordubad rayonunun Düylün kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun leytenantı olan İntiqam Abdullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələritərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Murovdağ döyüşlərində iştirak etmişdir. 2 oktyabr 2020-ci il Murovdağ uğrundə gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. İntiqam Abdullayevin cənazəsi uzun müddət düşmən tərəfdə qalır. O uzun müddət itkin düşmüş sayılır. Şəhadətindən 165 gün sonra – martın 16-da onun şəhid olması dəqiqləşib.

Şəhid Ordubad rayonunun Düylün kəndində dəfn olunub.

*Əsmər Abbasova*

*Gedirsən... Amandı bir az da səbr et,*
*Qoy baxsın son dəfə qəlbim özünə.*
*Gedirsən, gəl barı yavaş-yavaş get,*
*Dözəmməz ürəyim - inan sözümə.*

*Bağışla, ürəyim, bağışla məni,*
*Əmanətin əlimdən uçub getdi.*
*Haqqın var - gəl öldür, qarğışla məni,*
*E'tibarım yanında düşüb itdi.*

## İsmayıl İRAPOV



Kəsilən qoca ermənінin dərdini çəkəndə İsmayılın gözləri gəlsin gözlərinizin önünə. İsmayıl İrapov İngiloy-azərbaycanlı oğludu bu vətənin. Cəmi 18 yaşı var idi və Sərhəd Qoşunlarında xidmət edirdi. Qeyri-döyüş şəraitində, bulaqdan su gətirərkən ermənilər tərəfindən qaçırılıb. Əli-ayağı bağlı halda ağzına corab salınıb və gözünün içinə baxa-baxa bıçağı asta-asta boğazına salıb kəsiblər və lentə alıblar. İbrahimin İsmayılına son anda rəhmi gələn Tanrı bizim İsmayılımıza rəhm etmədi. Biz də bunu edən erməniyə rəhm etməməliyik. Ruhun uca olsun!

*Mahirə İsmayılova*

## İsmayıl QƏDİRLİ



*Nigar Hüseynova:* Şəhid İsmayıl Elçin oğlu Qədirli Biləsuvar rayonunda 16 sentyabr 1998-ci ildə anadan olmuşdur. O, könüllü olaraq Vətən müharibəsinə yollanmış, 27 oktyabr 2020-ci ildə Şəhidlik zirvəsinə ucalmışdır.

## İsmət QURBANOV



Qurbanov İsmət Firuz oğlu 22 aprel 1998-ci ildə anadan olmuşdur. Əsgəri xidmətini Naxçıvan şəhərində xidmətdə olmuşdur. Ali Baş Komandanın səfərbərlik çağırışı olan zaman hərbi komissarlıqdan çağırış gəldi və şəhidimiz İsmət Qurbanov sentyabrın 21-də çağırış yerində oldu. İsmət və digər çağırışçıları Gəncəyə apardılar, 1 həftə sonra Daşkəsənə getdilər, 15 gündən sonra Füzuli rayonu ilə Beyləqan arasında Haram düzü deyilən yerdə döyüş bölgəsində olmuşlar. İsmət Qurbanov oktyabrın 25-dən 26-na keçən gecə Füzulidə uğrunda gedən ağır döyüşlər zamanı şəhadətə ucalmışdır. Bacısının verdiyi məlumatda qeyd olunur: “Bir həftədə qardaşım haqqında məlumat ala bilmədik və nəhayət, Füzulidən şəhid olduğunu bildik”. Nur üzlü şəhidimiz İsmət bəzən şeir də yazarmış. Onun bu misralarını da yazımıza əlavə etməyimizi bacısı xahiş edib:

*Nə günah işlədim mən bu dünyada,*
*Sevgidən bəxtimi kəm yazıb Allah*
*Çoxunun ömrünə qəm yazıb Allah,*
*Ömrüm boyu xoş gün nədir bilmədim.*

*Həqiqət B.*

# İsrafil İBRAHİMOV



I Qarabağ müharibəsinin könüllüləri arasında İbrahimov qardaşları da vuruşurdu. Ağdamın İmamqulubəyli kəndindən olan İsrafil kişinin 7 oğlundan 5-i torpağı uğrunda mücadilədə qəhrəmanlıqla döyüşüb. 3-ü qazi, 2-si veteran olan qardaşlar indi də döyüşlərdə iştirak etməyə hazırdırlar.

Qazi qardaşlardan biri Zülfüqar İbrahimovun oğlu İsrafil hazırkı Vətən müharibəsinin ilk günündən döyüşlərdə cəsurluğu ilə fərqlənirdi. Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edən İsrafil 4 rayonun işğaldan azad edilməsində dillərdə dastan olacaq igidliklər göstərmişdir.

Babasının adını daşıyan İsrafil bu ay 23 yaşını elə döyüşlər zamanı tamamladı. Qələbəyə çox inanırdı və bu döyüşlərdə iştirakı ilə fəxr edirdi. Qarabağ qazisi olan atası Zülfüqarın, əmiləri Mahir və İlqarın, eləcə də bütün şəhid və qazilərin qisasını düşməndən alacağına and içən İsrafil hər döyüşə atılanda birdəfəyə dəstə-dəstə erməni əsgər və zabitlərini məhv edirdi. Bunu həm döyüş yoldaşları, həm də gələcəkdə yayımlayacağımız videogörüntülər də təsdiq edir.

İsrafil döyüşlərin 1 ayının tamamlanmağına 1 gün qalmış Laçın uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid oldu. O bu gün Ağdamın Quzanlıdakı Şəhidlər Xiyabanında dəfn edildi. Gələcək materiallarımızda İsrafilin qəhrəmanlıqlarından bəhs edəcəyik. Allah rəhmət etsin! Bir şəhid haqqında danışmaq və yazmaq nə qədər ağır olsa da, İsrafil haqqında bunları mütləq qeyd etmək lazımdır. İsrafilin əmisi Qarabağ əlili Mahir İbrahimov Qarabağ Əlillərinə Qayğı İB-nin idarə

heyətinin üzvü olmaqla, sədr müavini vəzifəsini də icra edir. İsrafil həm də xanəndə, xalq artisti Mənsum İbrahimovun da qardaşı oğludur. Bütün İbrahimovlara səbr diləyib, Vətən sağ olsun deyirik.Hər bir igid qanı torpağa töküldükcə, 30 ildir boynu bükülmüş torpaq dirçəlir, başını qaldırır, qürurlanır və bərəkəti artır. İsrafil və onun kimi cəngavərlərin qəhrəmanlıqları illər, əsrlər ötsə də unudulmayacaq, dillərdə dastan olub, tariximizin şanlı səhifəsinə yazılacaq. Zəfər sizindir, Azərbaycan əsgəri!

Başını dik tut, Şəhid atası, Qazi qardaşımız!



P.S. Bu yazını 27 oktyabrda, İsrafilin torpağa tapşırıldığı gün yazmışdım. Bilirəm ki, valideynlərinin, əzizlərinin yarası sağalmayıb və sağalan da deyil. Lakin onlar İsrafillə fəxr etməlidirlər, onun etdiyi qəhrəmanlıqlar dillərdə dolaşdıqca İsrafil də yaşayacaq, ruhu şad olacaq, ucaldığı zirvədən baxıb sevinəcəkdir. İsrafil sizin başınızı uca etdi, siz də hər zaman başınızı dik tutun, əziz qazi qardaşlarımız Zülfüqar, Mahir və İsrafilin bütün yaxınları, əzizləri!

İsrafil layiq olduğu məqama yüksəldi, bu gün dövlətimiz, Ali Baş Komandan da onu göstərdiyi şücaətlərə görə 2 təltifə layiq gördü. Vətənimizin başını uca edən hər bir qəhrəmanla fəxr edirik. Ruhunuz şad olsun, Şəhidlər! Vətən sağ olsun!

*Xuraman Etibarlı*

## Kamal MƏMMƏDOV



Kamal Şamil oğlu Məmmədov- 1998-ci il iyulun 30-da Balakən rayonunun Qullar kəndində anadan olub. 2004-2015-cı illərdə S.Vurğun adına Qullar kənd tam orta məktəbində, 2015-2019-cu illərdə Azərbaycan Texniki Universitetinin (Az TU) “Maşınqayırma və robototexnika” fakültəsində təhsil alıb.

Subay idi.

Kamal Məmmədov 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2019-2020-ci illərdə Sərhəd Qoşunlarının“N” saylı hərbi hissəsində xidmət edib.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Kamal Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Talış kəndi və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə istirak edib.

Kamal Məmmədov oktyabrın 16-da Talış kəndi istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Balakən Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin - 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Kamal Məmmədov ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edildi.

*Almaz Ülvi*

## Kamil MƏMMƏDOV



Bu şeiri xüsusi təyinatlı, kəşfiyyatçı, Şuşa fatehi, şəhid Kamil Məmmədova həsr edirəm. Kamil nişanlı idi, öz əlləri ilə bəzəyib getdiyi bəy otağına şəhid kimi qayıtdı. Bu vətənə zəfər sevinci yaşadan qəhrəmanlarımız, ruhunuz şad olsun. Bu şeirləri yazanda hər birinizin həyatı, döyüş yolu haqqında ətraflı oxuyuram, dəhşətə gəlirəm, çünki göstərdiyiniz igidlik tarixdir, sizlər tarix yazmısız, bu vətən, bu millət üçün etdiklərinizə görə sadəcə bunu deyirəm: ruhunuz qarşısında baş əyirəm.

İgid kimi getmişdin,
İgid kimi qayıtdın,
Sən öz bəy otağına,
Şəhid kimi qayıtdın.
Qayıtdın savaşlardan,
Evinə-eşiyinə,
Qoy anan lay-lay desin,
O tabut-beşiyinə.
Şəhidin yeri bəlli,
Şəhidin taxtı bəlli,
Bəzənib bəy otağın,
Toyunun vaxtı bəlli.
Elə bil ki, toyundu,
Hamı yığışıb gəlib,
Gözlər bulağa dönüb,
Qəlblər alışıb gəlib.
Bir gecədə qar yağıb,
Ananın saçlarına,
Çıxıbdır qabağına,
Nişanlın qara geyib,
Gəlibdir otağına.
Sən də bəylik yerinə,
Bayrağı geyinmisən,
Vətənə bürünmüsən,
Torpağı geyinmisən,
Geyinmisən əyninə,
Qəhrəmanlıq libası,
Bayraq, vətən boydadır,
Şəhidliyin mənası,
Şəhidlər ölməzdilər, -

Hamının bir sözü var,
Şuşa qayalarında,
Ayağının izi var.
Sənin kimi oğullar,
Vətənə can dedilər,
93-də tökülən,
Qanlara qan dedilər.
Başımızın tacısız,
Nə qədər ki, varıq biz.
And olsun o Bayrağa.
Sizi unutmarıq biz.

Elşad Barat

***

Düzünü deyim, həmin otağa baxmaq istəmirdim. Sadəcə, ürəyim gəlmirdi. Ona görə də oğlum Əlisultandan xahiş etdim ki, həmin otağın şəklini çəksin. Lakin iş elə gətirdi ki, şəhidin əmisi qoluma girərək məni ora apardı. Bəy otağında qadınlar oturmuşdu. Şəhid Kamilin anası Validə xanım və yaxınları. Şəhidin hərbi geyimlərinə, bəylik kostyumuna və ayaqqabısına, nişan mərasimi zamanı çəkdirdiyi fotolarla diqqətlə baxdım. Qadınlar ağladılar, mənim də içimdən ağlamaq keçdi. Zorla, zorla özümü ələ aldım. Bir neçə dəqiqə donub qaldım. Otaqdakılar hamı mənimlə görüşdü, gözləri yaşlı idi. Bu qəlbimi ağrıdan dəqiqələrdə ANA stolun üstünə sərilmiş Azərbaycan bayrağını sığallayaraq dedi:

“Oğlum bu bayrağı çox istəyirdi, bu bayrağa and içmişdi, bu bayraq uğrunda da şəhid oldu! Vətənin başı sağ olsun!”. (Baxın, sadə bir kənd qadını beləcə dedi). Yenidən otağı hıçqırıq səsləri bürüdü. Sonra Şəhidin atası Şamil gəldi. Gözləri yaşlı, donmuş vəziyyətdə... Mən bir qədər dayandıqdan sonra başsağlığı verib otağı tərk etdim. Pilləkənlərdən düşəndə artıq göz yaşlarımı saxlaya bilmədim...

Həmkəndlim-Xaçmaz rayonunun Köhnə Xudat kənd sakini, yanvarın 15-də hərbi tapşırığı yerinə yetirərkən qəzaya düşərək ağır xəsarət alan, iki həftəyə yaxın komada qalan, üç gün əvvəl dünyasını dəyişən xüsusi təyinatlı gizir Kamil Şamil

oğlu Məmmədov haqqında yazıram. Yuxarıda təsvir etdiyim həmin otağı-bəy otağını isə öz əlləri ilə hazırlamışdı. Halal qazancı və zəhməti ilə. Aztəminatlı valideynlərinin- atası Şamilin və anası Validə xanımın alın təri və qabarlı əlləri ilə bir neçə ilə ərsəyə gələn bu evdə bəy otağı yaratmışdı, toyuna hazırlaşırdı. Anasına isə belə demişdi: "Sən çox zəhmət çəkmisən, daha işləməyə qoymayacağam".

44 günlük Vətən müharibəsi zamanı daim səksəkə içində olan valideynlər sonradan çox seviniblər. Kamil müharibədən qayıdıb onlara baş çəkmişdi. Tam sağlam deyildi. İşğal altında olan rayonlarda qəhrəmancasına döyüşən Kamil Qubadlıda yaralanıb. Onu Biləsuvardakı hospitala aparıblar. Yarasının qanı qurumayan və bədənində qəlpə olan xüsusi təyinatlı bir balaca özünə gələn kimi Şuşa uğrundakı döyüşlərdə iştirak edib.

Yas mərasimində Kamilin qrup komandiri (obyektiv səbəblərə görə adını çəkmirəm) olan həmyerlimiz də onun şücaətlərindən danışdı (başqa bir yazımda Kamilin döyüş yolu haqqında yazacağam). Onu da bildirim ki, Kamilin üç mərasimini də döyüş yoldaşları təşkil etmişdilər... Dəstə-dəstə gəlib-gedirdilər.

Xüsusi təyinatlı Kamil Məmmədov çox vətənpərvər olub. Yaxınları deyir ki, Şəhid gizir üçrəngli Bayrağımızın vurğunu idi. Əynindəki hərbi geyimlə daim qürur duyub. MAXE kimi xidmət etdiyi dövrdə bütün qazancını ailəsinə sərf edib. Bircə arzusu olub ki, valideynlərini çətin vəziyyətdən çıxarsın...

Mənə dedilər ki, bəy otağında Kamilin nişanlısı da var. İstədim ki, ona ayrılıqda başsağlığı verim. Bunu da bacarmadım. Çünki sözün bitdiyi yerdə idim...

Azərbaycanın qədim adət-ənənələrinə görə ailə quran oğlan üçün evdə bəy otağı hazırlanır. Evlənən cütlüyə bəy və gəlin deyə müraciət edirlər. İllər ötür, toy günü, bəy otağı bir ailənin tarixçəsinə çevrilir. Şəhidlər isə bir xalqın və dövlətin

tarixidir! Kamil öz əli ilə yaratdığı bəy otağına Şəhid kimi girdi. Adını bilmədiyim nakam nişanlısını isə bu otaqda Şəhid Kamilin bəylik kostyumu, bir cüt ayaqqabısı və artıq xatirəyə çevrilən nişan mərasimindən olan şəkillər qarşıladı...

Otaqdan çıxmağıma bir neçə dəqiqə qalmış Şəhid Kamilin stolun üstündəki çərçivədə olan şəkli qəflətən yıxıldı, digər şəkillər də biri-birinə qarışdı. Anası Validə xanım dedi ki, üçüncü dəfədir bu şəkil özü-özünə yıxılır... Birdən mənə elə gəldi ki, Kamilin ruhu otaqdadır...

Sonda şəhid anası Validə xanıma bir sözüm var: Şəhidlər Allahın bəxş etdiyi ən yüksək mərtəbədə – cənnətdədirlər! Indi Kamilin bəy otağı həmin məkandır! Orada vətən uğrunda canından keçən şəhid qardaşlarına qovuşub. O insanlara ki, 44 günlük müharibədə Azərbaycan üçün bir qələbə tarixi yazdılar!

*Müqəddəs Mehdiyev*

**Kənan ƏHMƏDOV**



Qaraqoyunlu mahalı Çaykənd.

Qarabağın azad olunması uğrunda qəhrəmancasına şəhid olan Kənan Ləzim oğlu Əhmədov

**Kamil ŞİRİNOV**



Kamil Əliş oğlu Şirinov 1991-ci il aprelin 9-da Salyan rayonunun Çuxanlı kəndində anadan olub. 1997-2006-cı illərdə Z.Həmidov adına Çuxanlı kənd tam orta məktəbində, 2006-2009-cu illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2009-2013-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil alıb. 2 övladı yadigar qaldı. Kamil Şirinov 2013-cü ildən Azərbaycan Ordusunun XTQ-də xidmət edirdi. Kamil Şirinov 2016-cı ilin 2-5 aprelində baş verən döyüşlərdə savaşıb və fərqlənib.

Azərbaycan Ordusunun kapitanı olan Kamil Şirinov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kamil Şirinov sentyabrın 29-da Füzuli döyüşləri zamanı snayper gülləsi nəticəsində şəhid olub. Kamil Şirinov "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı (2018) və ölümündən sonra "Qarabağ" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edildi.

*Fəridə Qədimova*

## Kəlbəcər rayonunun AĞCAKƏND ŞƏHİDLƏRİ







*Ələmdar Cabbarlı:*
Kəndimizin şəhidləri. O kənddə yaşayacağımız hər günü, alacağımız hər nəfəsi sizlərə borcluyuq.
Şükür, ruhunuz şad oldu!








# Mahmud CAVADOV



*Məleykə Alıoğlu:*
Gözlərinə qurban, Şəhidim!

***

*Əvəzsiz günlər yaşadıq. Əsir torpaqların azadlığı elə böyük sevincdi ki!*

Azadlığına qəsd edən varsa, ölümü gözə alacaqsan. Azadlıq uğruna savaşarlar.

Bu savaşdan qalib çıxanlar – hər yaralı, hər itkin, hər şəhid sevinc dünyamızda özünə yer elədi. Hər biri haqqında danışmaq, yazmaq, hər birini tanımaq istəyirik... Bir-birimizi onları unutmamağa çağırırıq günlərdi. Amma Onlara olan borcumuz ödənməz ki!..Onların arasında bir tərəfdə dayanıb utancaq-utancaq gülümsəyən Mahmuda da.

Mahmud yaddaşımda iz buraxan məzunlardandı. Mahmud haqqında əmin fikrim vardı: Burda dayansan, sənə çətin olacaq, hətta həyatını itirə bilərsən, amma başqalarına yaxşı olacaq. Məcbur deyilsən, gedə bilərsən, amma başqaları əziyyət çəkəcək. Seçim sənindi. Üzündəki utancaq təbəssümü “olsun” deyərdi. Mahmud tərəddüd etmədən ölümünə razı olardı. Ailənin sonbeşiyi və iki bacının tək qardaşı idi Mahmud. İkinci Qarabağ savaşı başlayanda hərbi xidmətdə idi. Suqovuşan uğrunda döyüşlərə qatıldı. “Torpaqlarımızı azad edəcəyik. İnanıram. Bunda mənim də payım olacaq” – dedi son dəfə. Ata-ana yurdu Cəbrayılı görmək oldu son arzusu.

Sonra... Günlərlə ondan xəbər ala bilmədilər. Əslən Cəbrayıldan olan Birinci Qarabağ savaşının zabiti Heydər Cavadov 90-cı illərdə 6 il hərbi xidmətdə olub. Döyüşçü kimi bu xəbər-

sizlikdən xəbəri vardı, həyəcanını gizlətməyə çalışsa da, nə olduğunu bilirdi əslində. O, həm də ümidini gözlərinə sıxan Ata idi. Vurnuxurdu, bir neçə dəfə cəbhə bölgəsinə getdi xəbər ümidiylə. Olmadı... İgidlərimizin, Şəhidlərimizin hamısının üzündə bir işıq, nur var... Bu işığı qaranlığımıza verib gedənlərdən biridi Mahmud.

Hardan biləydim ki, bir gün çox sevdiyim şagirdim Vətən yolunda Şəhid olacaq, onun haqqında yazı yazacağam. Hardan biləydim? Utancaq, sakit, ağıllı baxışları ilə gözlərimin önündədi. Elə bil, heç yerə getməyib, hələ şagirddi. Qiymətləri 4 və 5 idi. Oxuduğu sinfin uşaqları da savadlıydı. Hay-küylü idilər. Böyüdükcə bir az da dəcəlləşdilər. Elə uşaqlar vardı müəllimləri bezdirirdi. O isə dəyişmirdi. Hərdən bəzilərinin yersiz hərəkətlərindən onların əvəzinə utanardı. Dəyərli idi. Utanmaq hissi olmayanların dəyəri olmur.

Dəqiq elmləri sevərdi. Arada “Bu gün Mahmud 5 alır. Bu, təkcə biliyinə verilən qiymət deyil. Davranışına, məsuliyyətinə, özünə və ətrafına hörmətinə verilən qiymətdi” – deyərdim. Üzündə yenə utancaq təbəssümü görünərdi. Fərqliydi Mahmud.Texniki Universitetin bakalavr pilləsini bitirib magistraturada oxumaq arzusu vardı. Amma “hərbi xidmətə gedəcəm” dedi. Anası Səkinə xanımın “Bəs magistratura?” sualına 2Vətənə borcum var” – deyə cavab verdi. Ana bilirdi ki, Mahmud boşuna danışmaz, qərar veribsə, gedəcək. Ona görə də heç nə demədi. Borcunu verməyə getdi Mahmud. Anası Səkinə xanım deyir ki, onu hərbi xidmətə yola salmağa getmişdik, uşaq elə sevinirdi, elə sevinirdi. Sonra kövrəlir: Mən ona hələ uşağım deyirdim, bir də baxdım ki, o, artıq böyükdü – əsgərdi. Dostlarının gətirdiyi bayrağı gah başına tutdu, gah öpüb əzizlədi, gah sinəsinə sıxdı... Bir də, “Hərbi Komissarlığın qarşısında vüqarla dostlarıyla dolaşan oğluma baxanda mənə elə gəldi ki, onu son dəfə görürəm... Bilmirəm niyə. Ana ürəyidi” – söylədi ana.

Ah, ana... Möhtəşəm ANAlar! “Vətən sağ olsun!” – deyən Ana ürəkləri. Sevinclə, qürurla, fəxrlə getdi. Vətən bayrağını sinəsinə sıxıb getdi və bayrağa sığınıb gəldi. Qubadlıda, Xankəndində, Xocalıda dalğalanmaq üçün bayrağa dönüb gəldi. İndi O, İkinci Fəxri Xiyabanda ən böyük amalları Vətən azadlığı olan, hər biri Vətən olan igidlərimizlə birlikdədi. Onların arzuları Vətən torpağında boy verəcək. Mahmudların düşüncəsi, mənəvi dünyası, Vətən sevgisi... keçmiş olmur. Bu gün də yaşayır, sabaha gedir.

Hər şəhid sarsıdır adamı. Onun da şəhid olduğunu eşidəndə sarsıldım. İnanmaq istəmədim.

Oxuduğu məktəbin Tədris hissə müdiri Naibə müəllimlə, sinif rəhbəri Aidə xanımla xeyli söhbətləşdim. “Çox gözəl şagird idi. Ağıllı, təmkinli, savadlı. Öz dünyası vardı. Hər kəsi də o dünyaya buraxmazdı” – dedilər.

Bakının Yasamal rayonundakı Aslan Ağaverdiyev adına 31 nömrəli məktəbin məzunuydu Mahmud Heydər oğlu Cavadov. Ölməzliyə qovuşan 21 illik ömrünün 11 ilinin şahidi olan məktəb divarlarına, pillələrə, sinif otaqlarına baxmaq keçdi ürəyimdən. Mənə elə gəldi ki, həmişə oturduğu ikinci partada oturub yenə Mahmud. Əlbəttə, oturub. Çünki onun dünəninin arzuları bu gün həqiqətə çevrilib, sabah Ağdamda, Füzulidə, Kəlbəcərdə, Laçında, Şuşada yaşayacaq. Xocalıda çiçəkləyəcək. Bu arzular heç vaxt bitməyəcək. Həmişə yaşayacaq, bu doğma yurdu – Azərbaycanı yaşadacaq Mahmud kimi. Mahmudlar kimi.

*Kamalə Abiyeva*

## Mansur TEYMUROV

Şəhidliyin ünvanı Əbədiyyətdir.



Şəhidlər – qəlblərdə azadlıq, istiqlal işığı yandıraraq əsarət buxovlarını qırıb dağıdan mərd igidlər, elimizin-obamızın ən qeyrətli ərləri, xalqımızın vüqarıdırlar. Zaman-zaman xalqımız müharibələr, ixtişaşlar, faciələr yaşayıb. Hər zaman da bu çətinliklərdən, faciələrdən bizi öz canı, qanı bahasına qurtaran, mərd igidlərimiz olub. Onlar qəhrəmanlıq rütbəsinə, ölməzlik zirvəsinə yüksəliblər.

Qarabağ torpaqlarının illərlə düşmən tapdağında qalması bizim üçün çox utancverici idi. Qürurumuz qırılır, ruhumuz öləziyirdi. Bu gün canını Vətənin azadlığı və bütövlüyü uğrunda qurban verən Şəhidlərimiz al qanları ilə qəlbimizi fəxarət hissi ilə döyündürdülər. Bizim başımızı ucadan uca etdilər, kaşki qan tökülməsəydi, kaşki dünyada müharibə sözü lüğətlərdən silinsəydi, amma nə yazıq ki, qansız, qurbansız azadlıq olmur. "Torpaq üzərində ölən varsa, Vətəndir".

Torpaqlarımızın azadlığı, bütövlüyü uğrunda canından keçən şəhidlərimizdən biri də Beyləqan rayonu, ikinci Şahsevən kəndində dünyaya göz açan, 21 yaşlı şəhidimiz Teymurov Mansur Elnur oğludur. Mansur haqqında yazmaq, onun igidliyindən bəhs etmək mənim üçün şərəfdi. Amma, necə məlumat əldə edim deyə düşündüm. Telefon etməyə ürəyim gəlmirdi. Birdən telefona atası çıxar – Şəhid atası. Şəhid atası ilə oğlu haqqında danışmaq məni yandırıb, yaxar. Yaralı yerimdi. Şəhid atası ifadəsini belə işlədəndə gözlərimin yaşı içimə ələnir. Hər dəfə bu ifadədən qəlbim parça-parça olur. Ağlıma

gələn oldu, şəhid Mansurun atası Elnur telefona cavab verdi. Güclə başsağlığı verdim, qəhərdən səsim qırıldı. Xəttin o tərəfində həm oğlu ilə qürur duyan, həm də Mansur deyəndə qəddi ikiqat olub, ürəyi cadar verən bir ata vardı. Mən onu görür, mən onu duyurdum və mən onunla 21 yaşlı şəhid Mansur haqqında heç nə soruşacaq gücündə deyildim. İstəyimlə o ailənin elə qardaşı qədər cəsur, məğrur qızı, özü demiş "şəhid Mansurun bacısı" ilə telefonla danışdım. Qəhər dolu səsi məni də kövrəltdi. Bu qəhər, qüssə dolu səsdə bir qürur, fəxarət da var idi.

Teymurov Mansur Elnur oğlu 1999-cu il iyun ayında Beyləqan rayonunun İkinci Şahsevən kəndində dünyaya göz açıb. Mansur kəndlərində qəhrəman Dayandur Əliyevin adını daşıyan orta məktəbdə təhsil alıb. Ailədə böyük oğlan olub, baxmayaraq bacısı ondan böyük olsa da, evdə onun sözü keçib, bir oğul övladı kimi atasının arxası, dayağı olub. Kənddə hər kəs onun həm evdə, həm də dost-yoldaş arasında hörmət, sevgi qazanmasından ağız dolusu danışır. Müəllimləri Mansuru ən numunəvi və tərbiyyəli şagird kimi sevir, qiymətləndirirdilər. Orta məktəb illərindən sonra Mansur 18 yaşında Vətənə borcunu vermək üçün ordu sıralarına yollanır. Azərbaycanın gözəl şəhərlərindən birinə – Naxçıvan Muxtar Respublikasına hərbi xidmətə yollanmışdır. Hərbi xidmətini hünərlə yerinə yetirən igid oğlumuz Mansur Günnüt əməliyyatında iştirak edib və Müdafiə naziri tərəfindən şəxsən mükafatlandırılıb. Mansur Elnuroğlunun Vətən sevgisi onu hər zaman hərbi hissələrə, cəbhə bölğələrinə çəkirdi. O, 2019-cu ildə doğma rayonunda yerləşən "N" saylı hərbi hissələrin bi-rində müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi işə başlamışdı. Vətənimizin igid oğlu Mansur hər zaman işğal altında olan torpaqlarımızın azad olması arzusu ilə yaşayırdı. Sentyabrın 27-dən etibarən 2-ci Qarabağ müharibəsində hünərlə iştirak edən Mansur hərbi tibbi yardım maşını ilə ən ağır

nöqtələrdən yaralı əsgər və zabitlərimizi xəstəxanalara çatdı-rırdı. Eyni zamanda yaralı əsgərlərimizi döyüş meydanından bəzən döyüşərək çıxarmağa nail olurdu. Döyüşdə olduğu üçün valideynləri Mansurdan narahat olurdular, lakin Man-sur ailəsi ilə telefonda danışdığı zaman yüksək əhval-ruhiyyə ilə söhbət edər, hətta zarafatından belə qalmazdı. Yeri gəl-mişkən Mansur çox şən, mehriban, gülərüz və zarafatcıl biri idi. Bütün kənd onun mehribançılığından danışardı. Mansu-run da bütün qəhrəman dostları kimi böyük arzu və istəkləri vardı. Ən əvvəl torpaqlarımızı azad etmək və... Mansurun sonrakı arzusu sevdiyi qızla qurduğu xəyalların həyata keçməsi idi. Lakin şəhidimiz digər gənc dostları kimi bu arzusunu həyata keçirə bilmədi. Anasına, bacısına verdiyi sirri Mansurumuz özü ilə cənnətə apardı. Çiçək açmayan sevgisi ana-bacı ürəyində bir ağrıya döndü. Mansur 18 oktyabr Xocavənd rayonunda gedən ağır döyüşlərdə sinəsindən aldığı güllə yarası ilə ən müqəddəs zirvə olan Şəhidlik zirvəsinə ucaldı. Şəhid Mansur minlərcə Azərbaycanın qəhrəman oğlu kimi onu sevənlərin gözlərin yaşlı qoydu. Bəlkə də sevdiyi qıza belə sevgi etirafı edə bilmədi. Amma, sevginin ən alisini, ən müqədəsini səsi gəldikcə, gücü yetdikcə Vətəninə etiraf etdi. Sevdiyi gözəl, qoy Mansuruna qırılmasın, qoy ondan inciməsin, belə bir igid oğlanın ürəyində yuva salmış sevgisi ilə fəxr etsin, qürur duysun. Qəhrəman Mansurun dəfn günü bütün Şahsevən kəndi onun ziyarətinə yığışmışdı. Hər kəs Mansurun ölümünə üzülsə də, bir tərəfdən də gözləri önündə böyümüş bu igidlə fəxr edirdilər. Onun mehribançılığından danışır, göz yaşlarını tut bilmirdilər. Dəfndə iştirak edən cəbhə dostları Mansurun qorxmazlığından, hünərindən ağız dolusu danışırdılar. Hamıyla ünsiyyət qura bilən, səmimimiyyəti ilə yadda qalan, qohum-qardaş ürəyində taxt quran Mansur ölümü ilə hər kəsə ağır zərbə vurdu. Anasına hədsiz bağlı olan bu yaraşıqlı oğul ananın toy edib, bir gün evinə gəlin gətirəcəyi arzusunu

gözündə qoydu. Nə etməli, görünür, yüzlərcə şəhidlərimiz kimi, Mənsur da ana Vətəni azad etmək arzusunu yeganə ananın arzusundan daha üstün tutdu. Mansurdan ata-anasına dəcəl nəvələr deyil, qəhrəmanın nəşin bəzəyən, şəhidlərimizin al qanından yaranan Azərbaycan bayrağı qaldı. Və birdə Mansurdan yadigar qalan onun gözlər önündən getməyən gülərüzü və səmimi zarafatları oldu. Mansurun ailəsi onunla fəxr edir, bu acının nə qədər dözülməz olduğuna baxmayaraq oğullarının qəhrəmancasına vətən torpaqları naminə şəhid olduğu ilə qürur duyurlar. Uğrunda şə-hid olduğu torpaqlar artıq düşmən tapdağı altında deyil, Mansurun və minlərcə şəhidlərimizin ruhu şaddır. Şəhidlərimiz gözəl bilirdilər ki, onlar öz qanları ilə tarix yazırlar, əsirlər ötəcək, gələcək nəsillər Mansurlarımızın qəhramanlığını unutmayacaq, şəhidlərimizin qəlbimizdə kök saldıqları sevgini – Vətən sevgisini qoruyub gələcəyimizə ərmağan edəcəklər. Biz tarixə yazılan günləri şəhidlərimizin sayəsində əldə etdik. 2020-ci il tariximizin qanla yazılıb zəfərlə yaddaşlara köçdüyü il, 30 illik həsrətin vüsal ili və bu iftixar, qürur ilimizi bizə yaşadan şəhidlərimiz, Ali Baş komandanımız və döyüşçü zabit heyəti oldu. Və bu qürurverici tariximizə minlərcə şəhid imzasını ataraq əbədiyyətə qovuşdu. Və əbədiyyətə qovuşan imzalar içərisində bizim elin - Şahsevən elinin qəhrəman balası Mansur Elnur oğlunun da imzası yaşayacaq, unudulmayacaq, tarixin şanlı səhifələrində qırmızı xətlə qalacaq. Əbədiyyətə qovuşan ömür hər kəsə nəsib olmur, ancaq bu şərəf Mansura qismət oldu, o əbədiyyətə qovuşdu. Mənsur kimi minlərcə oğul yetişdirib Vətənimizə qurban verən analara, o anaların simasında Mansur kimi qeyrətli, cəsur, mərd bir oğul yetişdirən Yeganə anaya əsgərlərimizin dilindən yazdığım misraları bölüşmək istəyirəm.

*Bu zəfər günlərində,*
*Qara yaylıq bağlama.*

*Ana, qurbanın olum,*
*Oğul deyib ağlama.*
*Şəhidlərin qanını,*
*Biz hünərlə alırıq.*
*Bu gün zəfər günüdü,*
*Biz qələbə çalırıq.*
*Bu gün ayağa qalxıb,*
*Şanlı-şərəfli ordum,*
*İgidlərin gücüylə,*
*Azad olubdur yurdum.*

Azad olan hər qarış torpaqlarımızdan minlərcə Şəhid ürəyinin sevgi döyününtüləri duyulur. Ruhu azad olmuş torpaqlarımızda yaşayan Şəhidliyimiz ölməzdir!

*Mərziyyə Nəcəfova (Səlahəddin)*

***

*Yox, deyəsən bir ulduz parıldadı,*
*Lap uzaqdan, buludlardan o yanda.*
*Hə… Özüdür… Odur yenə boylandı,*
*Tufanların, çovğunların ardında.*

*Ah, necə də alicənab ulduzdur,*
*İstəmir ki, bu tufanda tək qalam.*
*Buludlara sinə gərib alışır,*
*İstəmir yolumda azam, yorulam.*

## Mehdi ŞIXƏLİYEV



Şuşada ermənilərlə əlbəyaxa döyüşən şəhidimiz – Vətən müharibəsi zamanı xüsusi qəhrəmanlıq göstərən hərbçilərimizdən biri də Xüsusi Təyinatlı Qüvvələrin giziri şəhid Mehdi Şıxəliyevdir.

Şıxəliyev Mehdi Yalçın oğlu 1996-cı il fevralın 16-da Hacıqabul rayonunda anadan olub. O, 2014-cü ildə həqiqi hərbi xidmətə çağırılıb. Daha sonra Xüsusi Təyinatlı Qüvvələrin hərbçisi olub. 2016-cı ildə “Aprel döyüşləri”ndə iştirak edib. İkinci Qarabağ müharibəsi zamanı ön cəbhədə döyüşən Mehdi düşmənin xeyli tankını, zirehli maşınını, 70-dən çox canlı qüvvəsini məhv edib. O, Şuşaya qədər döyüşə-döyüşə gəlib, ermənilərə ağır zərbələr vurub, onların kolonlarını dağıdıb.

Mehdi Şuşada əlbəyaxa döyüşlər zamanı bir neçə erməni hərbçisini məhv edib və sonda qəhrəmancasına şəhid olub. Allah rəhmət eləsin!

*“Bu şəkli paylaşın” deyən şəhid anası…*

Sosial şəbəkələrdə bir az ürəyi titrədən, bir az qəhər yaradan, bir az da qürurverici statuslar paylaşılır: Şəhid anası oğlunun fotosunu yaymağı xahiş edib, deyib, qoy hamı tanısın oğlumu… Və o ana tək deyilmiş – şəhid analarının böyük əksəriyyəti bunu kimdənsə xahiş edibmiş…

Baxıram onların fotosuna: şir biləkli, düşmən çəpəri, yağı bağrı yaran… “Analarımız elə bir oğul böyüdüb ki, gur, çatmaqaş, gensinə. Analarımız elə bir oğul böyüdüb ki, oğul deyirəm

sənə…" İndi mən deyim, sən eşit, Ana: biz bu igidləri, bu oğul kimi oğulları o qədər gözəl tanıyırıq ki!

Ana, onlar bizim ürəyimizdir, canımızdır, qanımızdır;

Onlar bizim qürurumuzdur, şərəfimizdir, şanımızdır;

Onlar bizim müqəddəs bildiyimiz torpaqdır, arxasına sığındığımız Vətən sərhədidir.



Heç cür onları unutmarıq; heç bir dəqiqəmiz onlarsız deyil; ən azı, biz var olduqca onlar bizimlə yaşayacaq.

Sən bir oğul vermisən, min oğul qazanmısan!

Sən bir igid göndərmisən, bir Ordu – həm də bir Qalib Ordu qazanmısan!

Sən bir ev kiçilmisən, amma bir Yurd Böyümüsən!

Biz də sənin balanıq, qardaşınıq, atanıq…

Yox, elə anamızsan: yaşlısından, gəncindən asılı olmayaraq – Şəhid Anası hamımızın anasıdır!

Ancaq, bilirsənmi, əziz Ana!

Hamımız öləcəyik – bu dünyada qalan olmayacaq: ya hansısa bir qəzada, ya bir masa arxasında, ya da qocalıb-qartımış halda yorğan döşəkdə.

Biz öləndə yaddaşlarda son şəklimizlə qalacağıq. O son şəkil necə olacaq? Bilmirik!

Ancaq şəhidlərimiz hər zaman yaddaşlarda bu cür cəngavər, əsl kişi paltarında, boy-buxunlu, qamətli, yaraşıqlı qalacaq.

Hamı onları son şəkillərində – igid olaraq, kişi olaraq, qəhrəman olaraq xatırlayacaq. Bir daha kimə, hansı nəsilə qismət olacaq bu cür şərəfli ömür?

"Mixaylo" ləqəbli döyüşçü Şuşada 5 saat yaralı halda döyüşüb. "Boyevik" filmlərdə gördüyümüz qəhrəmanlardan

heç nəyi ilə fərqlənməyən Mehdi, heçnəsiz dik təpəyə dırmaşmağı bacarıb, qida bitəndə çiy qurbağanı yeməklə doyub. Gölün içində də 5-6 saata qədər qala bilib... Qorxmaz ürəyə sahib olan bu şəxs, əməliyyatların birində 5 silahdaşı ilə, yüksəkliyi ələ alır, lakin güllə yarası alır. Yarasına bint sarıyaraq vuruşur. Digər yaralanmış dostunu da qaynar "xətt"dən götürməyi bacarır. Ermənilər yüksəkliyi qoyub qaçanda, arxadan kömək gəlir. Lakin çoxlu qan itirdiyinə görə, Mehdi həyata gözünü əbədi yumur.



*Şeyx Teymur*





## Mehrab NİFTƏLİYEV



Şəhid baş gizir Mehrab Söhrab oğlu Niftəliyev 1985 - ci ildə Qubanın Qam-Qam kəndində anadan olmuşdur. Elə yaşadığı kəndə də təhsil almışdır. Məktəbdə müəllimləri tərəfindən çox sevilirdi. Ailəsi onunla qürur duymağa elə kiçik yaşlarından başlamışdır. O hələ uşaq ikən bacarıqlı və istedadlı biri olmuşdur. O, vətənini hədsiz dərəcədə sevirdi. Vətənin düşmən tapdağı altında olması Mehrabı həmişə narahat edirdi. Mehrab hələ məktəb zamanlarından hərbiyə böyük marağı olmuşdur. Onun hərbi müəlimi onunla bağlı xatirələrində deyir: "Mehrab hərbi oyunlarda həmişə birinci yerə çıxmağı bacarırdı. Hətta o bir dəfə avtomatın silahını 5 saniyəyə boşaldıb-yığmağı bacarmışdır".

Mehrab məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanır. Hərbi xidmətini bitirdikdən sonra isə o hərbidə qalmağa və güclü ordumuzun hərbi sıralırnda xidmət etməyə davam edir. Mehrab 17 il Müdafiə Nazirliyinin Baş Qərargahının tabeçiliyində olan Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edir. Xarici ölkələrdə təşkil edilən hərbi təlimlərdə Azərbaycanı təmsil edərək uğurlara imza atır. O xüsusən çətin hərbi təlim sayılan "Qafqaz qartalı" və "EFES" təlimlərini keçir.

Mehrab 2016-cı ildə baş verən "Aprel döyüşləri"ndə də iştirak etmişdir. Buna görə o, Ali Baş Komandan tərəfindən "Baş gizir" medalına layiq görülmüşdür.

Vətən müharibəsinin başladığı ilk günlərdə Mehrab cəbhəyə yollanıb, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edir. Bu döyüşlərdə o, düşmənin 70-ə

yaxın hərbi qulluqçusunu və hərbi texnikasını məhv edir. Döyüş yoldaşları onun bu şücaətlərinə görə, ona "Terminator" ləqəbi vermişdilər.

Onun ən böyük arzusu Şuşaya Azərbaycan bayrağını sancmaq idi. Həyat yoldaşı onunla olan xatirələrində deyir: "Mehrab müharibəyə gedərkən 2 bayraq almışdır. Bayraqlardan birini qızana vermiş, digərini isə özü ilə cəbhəyə aparmış və həmin bayrağı Şuşada asacağını demişdir". Döyüşçülərimiz Şuşaya yollandığı zaman Mehrab yaralı olmasına baxmayaq müalicəsini yarımçıq qoyaraq cəbhəyə yollanır. Beləliklə,o, illərlə qurduğu arzusuna nail olur və Şuşanı görür lakin o, elə burada noyabın 8-i dünyaya gözlərini həmişəlik yumur. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 9 dekabr tarixli sərəncamına əsasən ölümündən sonra Mehraba "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı verilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli sərəncamına əsasən isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda" medalı ilə təltif edilir

Mehrab 10 dekabrda keçirilən Qələbə paradında iştirak edə bilməsə də, onun adı tariximizin qızıl səhifələrində olacaq və həmişə xatırlanacaqdır.

*Zeynəb Əliyeva*

## Mədət QƏNBƏROV



Hər il mənə sən təbrik yazırdın, bu il əksini etdik, mən sənin cənnətdəki ilk bayramını təbrik edirəm. Bayramın mübarək Şəhidim. Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasının Şəhidlik zirvəsinə ucalan məzunu Mədət. Allah rəhmət eləsin.

Otuz ilə yaxın işğal altında qalan torpaqlarımız müzəffər ordumuzun, əsgər və zabitlərimizin şücaəti, qəhrəmanlığı sayəsində azad edildi. Bu müqəddəs yolda zabit və əsgərlərimizin bir qismi şəhid, bir qismi isə qazi oldu. Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanlardan biri də Ağdam rayon sakini Qənbərov Mədət Əzim oğludur.

Mədət Qənbərovun ailəsi Ağdam rayonunun Mollalar kəndindən məcburi köçkün düşüb. Mədət ata-baba yurdu Mollalarda doğulmasa da, hər zaman doğma torpaqların həsrəti ilə yaşayıb. Gəncə Dövlət Universitetinin Filologiya fakültəsinin məzunu olan Mədət Qənbərov 2020-ci ilin iyulunda Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribatı zamanı könüllü olaraq cəbhə bölgəsinə getmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon bölməsinə müraciət edib. 2020-ci il sentyabrın 27-də cəbhədə düşmənin növbəti təxribatlarına qarşı ordumuzun keçirdiyi əks-hücum əməliyyatları zamanı isə torpaqlarımızın azadlığı urunda döyüşlərə qatılıb.

Şəhidin anası Bəsti Vəliyeva: “Mədət çox vətənpərvər, elinə-obasına gərəkli, namuslu-qeyrətli oğul idi. Biz onu vətənpərvər böyütmüşdük. Həmişə bir arzusu var idi – torpaqları işğaldan azad etmək. 1993-cü ildə şəhidlərə şeir yazmışdım. Üs-

tünə də məzar şəkli çəkib, qərənfil qoymuşdum. Heç o zaman Mədət dünyaya gəlməmişdi. Mən bilməzdim ki, illər sonra ikinci Vətən müharibəsi başlayar, oğlum şəhid olar. 18 gün döyüşlərdə iştirak edərək şəhid olan Mədətin Vətənlə bağlı arzusu yerinə yetdi: "Torpaqlarımız azad oldu. Amma özü ilə bağlı olan arzuları yarımçıq qaldı".

Mədətin atası Əzim Qənbərov da Qarabağ müharibəsinin iştirakçısıdır. Birinci Qarabağ müharibəsində polis əməkdaşı kimi iştirak edib: "Bu gün təsəlliləri torpaqlarımızın işğaldan azad olmasıdır: "İyul ayında general Polad Həşimov şəhid olanda Mədət yoldaşları ilə birgə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etmişdi. Vətən müharibəsi başlayanda da döyüşlərə qatıldı. Suqovuşan-Talış istiqamətində gedən döyüşlərdə iştirak etdi. Axırıncı dəfə oktyabrın 15-də telefonla danışmışdıq. Ondan sonra şəhid oldu...".

Şəhidin döyüş yoldaşları onun vətənpərvərliyindən qürurla danışırlar. Döyüş yoldaşı Rövşən Seyidov: "Mədət çox gözəl insan idi. Həmişə bizə nəyi isə öyrədərdi, başa salardı. Döyüşlərdə çox cəsur idi. Mən fəxr edirəm ki, elə bir yoldaşım olub".

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə əsgər Mədət Qənbərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

*Yeganə Hüseynova*
*Tahir Ağaməmmədov*

## Məhəmməd HÜSEYNOV



Baş çavuş Məhəmməd Alik oğlu Hüseynov 28 oktyabr 1993-cü ildə Beyləqan rayonu Bahar qəsəbəsində anadan olub. Əslən Cəbrayıl rayonunun Horovlu qəsəbəsindəndir.

Sərdar İmrəliyev adına Bahar kənd tam orta məktəbi bitirdikdən sonra DİN Daxili Qoşunları XTD də həqiqi hərbi xidmət keçmişdir. Xidməti başa vurduqdan sonra Xüsusi Təyinatlı dəstədə müddətdən artıq hərbi qulluqçu kimi xidmətinə davam etmişdir. Xidmət müddəti ərzində müxtəlif növdə silahların öyrənilməsi ilə bağlı xüsusi kurslar keçmişdir. Ən son Türkiyənin İzmir şəhərində yerləşən Foca jandarma komando məktəbində altı ay xüsusi təyinatlıların kursunu keçmişdir. Kurs müddəti ərzində paraşütlə atlama, əlbəyaxa döyüş və su altı dalğıc kurslarında yüksək dərəcə göstərərək sertifikatlar almışdır. Bir çox döyüş əməliyyatlarında iştirak etmiş, ən son Vətən müharibəsində iştirak etmişdir. 27 sentyabr 2020-ci ildə "Murov dağ" silsiləsində gedən döyüşlərdə iştirak etmiş və yüksək döyüş peşəkarlığı göstərmişdir. Murov dağ silsiləsi azad olunduqdan sonra Cəbrayıl istiqamətində gedən döyüşlərə cəlb olunub. Dədə-baba yurdu olan Cəbrayılın Horovlu kəndi azad olunduqdan sonra 08 oktyabr 2020-ci ildə Cəbrayıl şəhəri yaxınlığında şəhid olmuşdur. Xatırladım ki, Hüseynov Məhəmməd Alik oğlu sosialist əməyi qəhrəmanı Sərdar İmrəliyevin nəvəsidir. Əmisi Hüseyn Hüseynov Məmməd oğlu da torpaqlarımız uğrunda 1992-ci ildə şəhid olub. Məhəmməd ailəli idi. Altı aylıq oğul övladı var. Övladını cəmi 15 gün görmüşdü.

*Ülviyyə Novruzova*

## Məhəmmədəli HƏSƏNZADƏ



Həsənzadə Məhəmmədəli Hörmət oğlu 1999-cu ildə may 1-də Sumqayıt şəhərində anadan olub. Əslən Qubadlı rayonunun Qilican kəndindəndir.

2005-ci ildə Sumqayıt şəhərində yerləşən Qubadlı rayon Qurban Məmmədov adına Yuxarı Mollu kənd tam orta məktəbinin birinci sinifinə daxil olub və 2016-cı ildə həmin məktəbin 11-ci sinfini bitirib. 2016-cı ildə qəbul imtahanlarında yığdığı yüksək bal ilə Azərbaycan Turizm və Menecment Universitetinin "Biznesin İdarə Edilməsi" fakültəsinə daxil olub. 2020-ci ildə ali təhsilini başa vuraraq, Menecment ixtisasına yiyələnib. 2020-ci ilin iyul ayında SHXÇÜDX-nin Qubadlı rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Sentyabr 27-də başlayan İkinci Qarabağ müharibəsinin iştirakçısı olub. Hadrutda gedən döyüşlərdə, döyüş yoldaşının yaralandığını görərək, onun həyatını xilas edib. Ağdam, Hadrut, Füzuli və Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib. Noyabr ayının 6-da Xocəvənd rayonunda gedən döyüşlərdə şəhid olub.



Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn edilib.

"Vətən uğrunda" (15.12.2020) və "Xocavəndin azad olunmasına görə" (25.11.2020) medalları ilə təltif olundu (ölümündən sonra). Nur içində yat! Torpağın yumşaq olsun!

## Məhəmmədəli İBRAHİMLİ



İbrahimli Məhəmmədəli Mütəllim oğlu Füzuli rayonu Cuvarli kəndindəndir. 63 gündən sonra bu gün Bakıxanov qəsəbəsi Şəhidlər Xiyabanında dəfn olundu. Xalam nəvəsidir. Allah bütün şəhidlərimizə rəhmət eləsin məkanları cənnət olsun, mənim qardaşım da onların içində!

Sehran Məmmədov Suqra xanımın qardaşı, Məhəmmədəli isə xalası oğludur. Sehran I Qarabağ Müharibəsində şəhid olub, Şəhidlər Xiyabanında uyuyur.

Hər iki şəhid haqqında Suqra xanımın sözlərini veririk.

## Mətləb ZAMANOV



Mətləb Zamanov 1985-ci il yanvarın 29-da Şəmkir rayonunun Morulkəndində anadan olub.

Mətləb Zamanov 2005-2006-cı illərdə Azərbaycan Silahlı Qüvvələrininsıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edirdi.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Mətləb Zamanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən

döyüşlərdə savaşıb. Mətləb Zamanov oktyabrın 26-da Füzuli döyüşləri zamanı şəhid olub.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Mətləb Zamanov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

## Muxtar QASIMLI



Muxtar Qasımlı 23 fevral 1993-cü ildə Bakı şəhərində anadan olub. 1999-cu ildə Bakı şəhəri 318 nömrəli tam orta məktəbə daxil olmuşdur. 2009-cu ildə məktəbi bitirmişdir.

2009-2013-cü illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdmanAkademiyasının kikboksinq fakültəsi üzrə Bakalavr təhsili almışdır. Erkən yaşlarından idmana marağı olub. Dəfələrlə yarışlarda iştirak edib və mükafatlara layiq görülüb. 27 oktyabr 2019-cu ildə fitnes üzrə Azərbaycan çempionu adına layiq görülmüşdür. Subay idi. Muxtar Qasımlı 2013-cü ildə Gədəbəy rayonunun Azərbaycan Silahlı Qüvvələrinə müddətli həqiqi hərbi xidmətə çağırılıb. Xidmətini davam etdirərkən Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə zabitlik kursuna yazılır. 2014-cü ildə ordu sıralarından ehtiyata buraxılır. Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı olan Muxtar Qasımlı 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənis-



tan arasında başlanan 2-ci Qarabağ müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 2-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Bakı şəhəri Qala qəbiristanlığında dəfn olunub.

***

Formadakı qan izlərindən də göründüyü kimi foto döyüş vaxtı çəkilib, elə özü də döyüş gedən ərazidən şəhidləri çıxararkən şəhid olmuşdur.

Muxtarla Əhmədlidə məktəbdə bir müddət eyni sinifdə oxumuşuq. Deyib gülən, şən oğlan idi. Məktəbdən sonra idmanla məşğul olmağa başladı və Respublika üzrə dəfələrlə çempion olub.

*Haldun Novruzzadə*



## Murad NAĞIYEV



Murad Nağıyev 9 fevral 1997-ci ildə Qazax rayonunda ailənin son beşiyi olaraq dünyaya gəlir. Ailə hələ onun bir yaşı tamam olmamış Bakıya köçür, burada Bakıxanov qəsəbəsində yaşamağa başlayır. Təhsilə həmin qəsəbənin 271 nömrəli məktəbində başlayan Murad Nağıyev, tezliklə həm öz zəkası, həm də tərbiyəsi ilə digərlərindən seçilir və müəllimlərinin sevimlisinə çevrilir. O, 2011-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul imtahanlarında iştirak edir və burada yüksək nəticə göstərdiyinə görə Türkiyənin Kuleli Hərbi Liseyinə seçilir.

Murad Nağıyev Kulelidə də özünü doğruldur, xüsusilə də riyaziyyatdan yüksək nəticələr göstərdiyinə görə müəllimləri tərəfindən ona “matematik dehası” (riyaziyyat dahisi) adı verilir. O, həm də erkən yaşlarından müxtəlif silahlarla tanış olur, yay toplanışlarında və təlimlərdə iştirak edir və NATO-nun ən böyük ikinci ordusunda nümunəvi zabit kimi formalaşmağa başlayır. Daha sonra Murad Nağıyev liseyi müvəffəqiyyətlə bitirərək, 2015-ci ildə Türkiyədə Kara Harp Okuluna daxil olur.

Birinci kursu burada başa vursa da, 2016-cı ildə Türkiyədəki dövlət çevrilişi cəhdindən sonra (bütün hərbi məktəblər bağlandığı üçün) o, digər azərbaycanlı kurs yoldaşları ilə birlikdə vətənə geri qayıdır və Heydər Əliyev adına Ali Hərbi Məktəbdə (AAHM) təhsilinə davam edir. Murad Nağıyev 2020-ci ildə buradan məzun olur və bununla da o, ümumilikdə 9 illik yüksək səviyyəli hərbi təhsilə yiyələnir.

Murad Nağıyev 2020-ci ildə Bakı yaxınlığında yerləşən “N” saylı hərbi hissəyə təyinat alır. Leytenant rütbəsi ilə tank-

taborunda tağım komandiri, tank komandiri olaraq xidmətini davam etdirir.O, 27 sentyabrda başlayan Vətən Müharibəsinə elə həmin gün yollanır. Qızğın döyüşlərin getdiyi Füzuli istiqamətində hərbi əməliyyatlarda iştirak edir. Komandirlərinin əmrlərinə və rütbəcə yüksək yoldaşlarının israrlarına baxmayaraq o, "mən zabitəm, öz tankımda özüm gedəcəyəm! Həm siz ailəlisiniz, uşaqlarınız var, mən isə subayam", – deyərək ən ön sıralarda döyüşə atılır. Komandiri təbəssümlə "indiyə qədər əmrimə tabe olmayan bir Murad oldu", –



deyərək xatırlayır o anları. Murad Nağıyev tank komandiri olaraq Kənd Horadizin alınmasında şücaət göstərir, Füzuli, Cəbrayıl, Zəngilan və Hadrut istiqamətlərindəki döyüşlərdə düşmənin xeyli sayda strateji obyektini, zirehli texnikasını və 50-yə yaxın şəxsi heyətini məhv edir, düşmən texnikasını qənimət götürür. O, oktyabrın 11-də Cəbrayıl istiqamətindəki döyüşlərdə düşmənin uzaqdan idarə olunan tank əleyhinə raket zərbəsi nəticəsində şəhidlik zirvəsinə ucalır. Silahdaşlarının dediyinə görə Murad həmin gün də israr etmişdi ki: "Bu gün kolonda bizim tank birinci gedəcək".

Onun şəhid olduğu yer 8 gündən sonra tam nəzarətə götürülə bilir və həmin gecə bayrağa sarılı nəşi Bakıya gətirilir. Murad Nağıyev oktyabr ayının 20-də İkinci Fəxri Xiyabanda dəfn olunur. Leytenant Murad Nağıyev Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Murad Nağıyev uşaq yaşlarından incəsənətə maraq salmış, müxtəlif musiqi alətlərində ifa etməyi öyrənmiş, həm-

çinin həm türkcə, həm də ana dilində şeirlər yazmışdır. Ondan bizə cəbhədə olarkən yazdığı şeirləri xatirə qalır.

*Şəbnəm Babayeva*

**Fikrim hey ondadır**

*Könlüm qalıb o yanlarda,*
*Ana Vətən səslər məni.*
*Bir canımı orda qoyub,*
*Burda torpaq səslər məni.*

*Yarım orda nigarandır,*
*Mənim fikrim hey ondadır.*
*Könlüm yanır, qubardadır,*
*Ağlım, fikrim hey ondadır.*

*7 oktyabr, 2020*

Son

*Hər zaman, hər nəfəsdə,*
*səninləyəm, bir dənəm.*
*Bir an olsun yorulmadan, bezmədən,*
*sonsuzadək sevərək,*
*səninləyəm, bir dənəm.*
*Həyatımın, həyatının,*
*Hər anında birlikdəyəm,*
*birlikdəyik, bir dənəm.*

*Bu günümə, sabahıma,*
*Hər anıma səni qatdım, sevgilim.*
*Ömrüm deyib, ömrümə qatdım, sevgilim.*
*Yaşadıqca biz olmağa söz verdim,*
*Hər gün dua etdim,*
*Bir-birimizin olmağını arzu etdim, sevgilim.*

*7 oktyabr, 2020*

## Murad VƏLİYEV



Onlar Vətən uğrunda şəhid oldular, Vətən torpağına daha çox sevgi qatdılar öz qanlarıyla. Vətəni daha çox sevimli etdilər, uğrunda can fəda etməyə qədər... Onların qanı tökülən torpaqdan daha ətirli, daha məsum çiçəklər boy verəcək, üzməyə qıymadığımız çiçəklər-bənövşələr, nərgizlər, lalələr, xarıbülbüllər... Hər biri bir dastan danışan məsum çiçəklər. Şəhidlərin yarıda qırılıb ən uca zirvəyə yüksələn ömür yoluna həsr olunmuş dastanlar... Qəhrəmanlıq dastanları...

Vəliyev Murad Süleyman oğlu 11.02.1997-ci ildə Bakıda doğulub. Yolunu çox gözləyiblər Muradın. uzun illərdən sonra Tanrı Kəmalə-Süleyman ailəsini Muradına çatdırıb. Əziz-xələf olub Murad. Bəlkə də elə bu əziz-xələflik onun boynuna məsuliyyət qoyub: bu böyük sevgiyə layiq olmaq məsuliyyəti. Bu böyük sevgi onu elə ağıllı, elə saf, təmiz, elə genişqəlbli böyütmüşdü ki...Məktəbə də sevgi dolu getdi ...

Bakı şəhəri şəhid İlqar Məmmədov adına 298 N-li tam orta məktəbə də sevgi dolu gəldi. Sevgi yaydı ətrafına ayüzlü balamız və sevgilər də halə kimi dövrəsini tutdu, onu pis niyyətlərdən, əyri yollardan qorudu. Daima saf qaldı Murad bu sevgilərin içində. Atası Süleymanı erkən yaşında itirdi, məsuliyyəti birə-beş artdı, körpə çiyinlərini anası Kəmaləyə söykək etdi, onu sınmağa, əyilməyə, qardaşı Kamranı özünü atasız hiss etməyə qoymadı... Körpə yaşından ağır qarğaşaya düşdü, bərkidi, kişiləşdi, böyük kişilərdən oldu, sözünə və özünə sadiq... Ali məktəbə daxil oldu, oxuya-oxuya işlədi, Bakı Biznes Universitetinin məzunu oldu, amma diplomunu görmədi... Muradın sevgi dolu qəlbində bir nisgil də böyüyürdü, bir həsrət də boy atırdı: ata-babadan qalma Ağdam nisgili, Qarabağ həsrəti. Bu

həsrət, bu nisgillə yan-yana QİSAS hissi böyüyürdü Muradın ürəyində. Onu Murova aparan qisas hissi. Sevgi, sayğı, saflıq, məsumiyyət, nisgil, həsrət və qisas hissi ilə dolu bu böyük ürək sahibi Vətənin ən uca dağ zirvəsindən hayqırdı düşmən üstünə.

"Qartal zirvədə olar" – deyənlər bilirlər ki, qartal elə zirvə üçün də ölər...

Murovda ön cəbhədə onu oğlu qədər sevən komandiri ilə bir yerdə şəhid düşdü Murad. Onun sevgidən yoğrulmuş qanı qarışdı Vətən torpağına, ruhu azadlıq quşuna çevrilib dövrə vurdu uğrunda can verdiyi artıq azad olmuş Murov yüksəkliyinin ətrafında. Bəli, Şəhidimiz qanıyla tarix yazdı:

27 sentyabr 2020-ci il. Murovdağ yüksəkliyi işğaldan azad olundu! Şəhid qanından göyərən çiçəklər isə Qəhrəman Şəhidlərin qanından dastan yazacaq!!!

15 sentyabr 2006-ı il. Bakı şəhəri şəhid İlqar Məmmədov adına 298 N-li tam orta məktəb..."Bilik günü"... Müəllimlər, valideynlər, qonaqlar, yuxarı sinif şagirdləri birincilərin ətrafında cəm olublar. Hər kəs bu məsumiyyət və şirinlik yağan varlıqları müşahidə edir. Qucaqlarındakı gül dəstələri, çiyinlərindəki məktəbli çantasının içində itib-batan bu şirinlər ətrafa sevinc, sevgi, təbəssüm yayırlar. Onların içində ağ köynəkli, kəpənək qalstuklu, qaraca gözləri işım-işım işıldayan biri var-qaragözlü Elvin...

Bizim qaragözlü, məsum baxışlı, sirli təbəssümlü Elvinimiz... Bu cocuqluq siması heç dəyişmədi... Məktəbli də oldu (2006-2017), məzun da oldu (2017), tələbə də oldu (2016-2020 Azərbaycan Dillər Universiteti Beynəlxalq Münasibətlər və İdarəetmə fakültəsi, Almaniya üzrə regionşünaslıq), əsgərdə oldu, döyüşçü də oldu, ŞƏHİD də oldu... yenə dəyişmədi o sima... Yenə məsum, yenə sakit, yenə sirli... Öz dünyası vardı. Üzərinə düşən vəzifəni tam məsuliyyətlə yerinə yetirərdi etiraz etmədən, azarlamadan, bacardığı qədər. Əsl kişi kimi... Ata-ana işçi idi, körpəlikdən özünəqulluğu öyrənmişdi, sərbəstliyi, həyatla

təkbaşına mübarizə aparmağı, müstəqil fikir yürütməyi, müstəqil qərar verməyi... Bacısına da həyan idi körpəlikdən, eyni məktəbdə oxuyurdular... "İl boyu kassasına pul atardı", – Bahar deyir, "Bayramlarda anamla mənə hədiyyə almağı heç unutmazdı". Az danışardı, pafosu sevməzdi. Dərin-dərin fikrə dalardı, düşünərdi. Bu düşüncələr şeirə çevrilərmiş – heç kimə oxumadığı, göstərmədiyi şeirlərə...

Vətən ətirli, sevgi dolu şeirlərə... Dostluqda da fərqli idi. Sinif yoldaşı Fəridlə çox doğma bir ünsiyyəti vardı. Heç ayrılmazdılar, məktəbə də, hazırlığa da birgə gedərdilər. Sonralar əsgərliyə də qoşa getdilər, sözləşiblərmiş kimi.

Cəbhə yolları ayırdı onları... Elvin Füzuli-Qubadlı istiqamətində gedən döyüşlərə atıldı. Və şəhid oldu.

Fəridin xəbəri yoxdu Elvinin şəhid olmasından. "Hər gün yuxuma girir Elvin". Anasıyla hər dəfə danışanda belə deyir Fərid... Elvinin müqəddəs ruhu dolaşır azad edilmiş Vətənin səmalarında...qaragözlü Elvinin. Qaragözlü Elvinin ağqanadlı çin olmuş arzuları qoruyucu mələyə dönüb Vətən göylərində. Elə buna görə də bu yaz o torpaqlarda çiçəklər bir başqa gülümsəyəcək-qaragözlü, məsum üzlü, sirli təbəssümlü çiçəklər.

Bundan sonra sevgililərə hədiyyə olunan çiçəklər dilə gələcək: "Mən o şəhidlərin qanından göyərdim, mən onların sevgisiyəm,Vətən eşqiyəm,yurda,vətənə məhəbbətiyəm".

Bax, beləcə, çiçəklər dastan danışır.

*Xatirə Rəhimbəyli*

# Mustafa BABAYEV



Mustafa Elman oğlu Babayev 2000-ci il noyabrın 4-də Ağstafa rayonunun Yenigün kəndində anadan olub. Orta təhsilini 2007–2018-ci illərdə E.Mustafayev adına Yenigün kənd və 2 saylı Xırdalan şəhər tam orta məktəblərində alıb. Subay idi.

Mustafa Babayev 2019–2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Mustafa Babayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanıFüzuli,Qubadlı, Zəngilan və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Mustafa Babayev noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub.



Ağstafa Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Mustafa Babayev ölümündən sonra “Vətən uğrunda”, “Cəsur döyüşçü” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edildi.

## Mürsəl KAZIMLI



Şəhid Kazımlı Mürsəl Kamil oğlu! Nur üzlü şəhid! Mürsəl ailənin tək oğul övladı idi. Cəmi 28 yaş yaşadı. O, Meğri rayonunun şəhid oğludu.Qubadlı uğrunda gedən döyüşlərdə şəhid oldu.Şəhidlər ölmürlər, onlar Tanrı dağının sakinləri olurlar, gecələr aya ulduza, gündüzlər günəşə dönüb şəfəq saçırlar yer üzünə. Şəhid atası, şəhid anası dik tutun başınızı! Oğlunuz bir sizin yox, vətənin oğlu oldu. Sən döyüşə gedəndə bir doğmaların yola salmışdı, qayıdanda isə insan seli şəhidini qarşıladı. Oğul var evdən gedər, oğulda var eldən gedər. Sən eldən gedən oğulsan. Əcəl əlin tez sıxdın,kəfən yerinə bayrağı seçdin. Şəkillərinə baxdım,bütün şəkillərində gülürsən,təbəssüm yağır üz gözündən. Arzuların çox idi, çox. Hər oğul silaha sarılıb döyüşə gedə bilməz. Sən sarıldın silaha, vətən eşqi, azadlıq eşqi sənin qanında, canında idi. Çətindi, bilirəm, valideyn üçün övlad itkisi, bir ömür boyu ürəklərində bu ağır tale yükünü daşıyacaqlar. Axırıncı videolarına baxdım, əsgər yoldaşlarınla deyib-gülüb oxuyursan. Mahnının sözlərinə bax, boran olar, qar olar. Elə boran oldu, qar oldu, ata anan, ömrü boyu bu boranda, bu qarda üşüyəcəklər. Sənsizlikdən üşüyəcəklər. Neçə-neçə Mürsəllər dünyaya gələcək adını bilmədiyim necə oğul şəhidlərimiz var, o adla dünyaya gələcəklər, xatırlanacaqlar. Nur üzlü şəhidimiz, Mürsəlbala sənin qanın töküldüyü yerdə yaz yağışları yağacaq, yağışlar torpağa hopacaq, o yerlərdə ağaclar pöhrələnəcək, sənin həyat eşqi,vətən eşqi ruhun daima oralarda dolanacaq, boynu bükük bənövşələr, al əlvan lalələr açılacaq Tanrının nurundan yer üzünə səpələnmiş güllər, çiçəklər

öz rəngində öz ətirində çəmən gülləri açılacaq, bax o yerlər müqəddəs olacaq, axı o yerdə şəhid qanı tökülüb. Qubadlı ilə üzbəüz həsrətli vətənimiz durur. Lap yaxınındaydın. Nəfəs nəfəsdə idin vətənlə. Bəlkədə sonuncu dəfə qanrılıb elimizə gedən yollara baxmısan, baş-başa verən Ələngəz dağlarına baxmısan. Axı o yerlər sənin dədə-baba yurdundu. Laylanı lal axan Araz çayı, şəhidliyinə dözə bilməyən dağlarımız çalıb sənə. Sən tək ata-ananın oğlu yox, vətənin oğlusan. Bir də, bir də ürəyi hər an sənin yanında olan, gələn yollarına göz tikən, arzularında, dualarında yolunu gözləyən, könül verdiyin xanım vardı. Gələcəm demişdin, mütləq gələcəm. Oda sənin sevgini ürəkdə saxlamışdı, gözləyirdi səni. Sənin şəhadətə yüksəldiyin gün bax oda sanki öldü. Onun qəlbində sevgidən bir qala tikmişdin, o qalanın memarıda sən idin, bənnasıda. Həmin gün sevdiyin insanın iç dünyası darmadağın oldu, viran qaldı, nakam qaldı, yetim qaldı sevgisi. Sənə ürəyində bir məzar daşı qoydu,hər gün bu sevgi məzar daşına baş çəkəcək, göz yaşlarından sənə çələng hörəcək, öz dərdiniözü böləcək, göz yaşları mirvari dənələri kimi gözlərindən ürəyinə axacaq.

Mürsəl Kazımlı əslən Qərbi Azərbaycanın Zəngəzur mahalının, Meğri rayonunun Lök kəndindən olub, Azərbaycan İqtisad Universitetinin məzunu, örnək Azərbaycan ailəsinin – Kamil Kazımov və Lalə xanımın layiqli övladı, ən ümdəsi, güclü Vətən sevgisinin daşıyıcısıdır. İşğaldan azad olan torpaqlarımızın hər qarışında qanı olan bütün qəhrəmanlarımızın hər biri tarixdir. Bütün el-obamızın sevimlisi Mürsəl də heç bir tarixə bənzəməyən tarixdir. Unudulmayacaq, çünki əsl Vətən fədaisidir! Bir anlıq onun simasına, görkəminə nəzər salırsan. Uca boylu, yaraşıqlı, nur təbəssümlü, məsum təbiətli bir gəncdir.

*Cəmilə Babayeva*
*Orxan Rahimzadə*

## Nahid MƏMMƏDOV



Anasının yazısı olduğu kimi göstərilir:

"Oğlum 2015-ci ildə hərbi xidmətdən təxris olmuşdu. Ağdam rayonunun sərhəd kəndlərindən birində xidmət göstərmişdi. Baş atıcı idi, demək olar ki, hər anı təhlükədə idi. Səfərbərliyə isə 2020-ci ilin 29 sentyabrında getdi. Goranboy, Mingəçevir, Bərdə istiqamətlərində olub. Deyilənə görə, tam məlumat deyil, 9 oktyabrdan Tərtər rayonunun Suqovuşan ərazisində gedən döyüşlərə könüllü qatılıb. Onlarla şəhid yoldaşlarını döyüş zonasından çıxarıb. Çoxlu sayda düşməni məhv edib. Düşmənin mərmi atəşi nəticəsində ürəyindən qəlpə yarası alaraq şəhid olub. Sağ olsun, döyüş yoldaşları, onu ortada qoymayıblar".



3 övlad anasıdır Səadət xanım. Nahid 1996-cı ilin 11 iyun tarixində dünyaya gəlmişdi. Allah ömrünə şəhidlik yazdı. O uca, şərəfli ölümü yazdı.

14 oktyabr... Verilən məlumata görə həmin gün günorta saatlarında Nahid Şəhid olub, ürəyindən vurulmuşdu. Şəhadətindən bir gün sonra şəhidimizin ailəsinə məlumat verilib və Bakıya gətirilib. Səadət anamızın sözüdür: "16 oktyabr tarixində oğlumu torpağa tapşırdım".

Allah rəhmət eləsin!

*Nuridə Mirhüseynli*

## Namaz MURADOV




Vətən... Ana yurd... Vətən yalnız müəyyən sərhədləri olan coğrafi məkan deyil, sevgi və hörmətə layiq müqəddəs torpaqdır. Vətənin atributları (bayrağımız,gerbimiz, himnimiz) da milləti üçün müqəddəs və doğmadır. Və minlərlə insan vətən uğrunda canlarından keçir, şəhidlik zirvəsinə ucalırlar. Bu zirvə elə bir zirvədir ki, insan üçün bundan daha şərəfli mövqe, daha uca zirvə yoxdur.

Şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızdan biri də Muradov Namaz Fərman oğludur. O, 1984-cü il oktyabrın 18-də Lerik rayonunun Günəşli kəndində dünyaya göz açmışdır. Ailədə 9-u oğlan, 5-i qız olmaqla 14 uşaq idilər. Şəhidimiz ailəsi çox kasıb olduğu üçün odun sataraq onları dolandırmağa çalışırdı. İllər keçdi və Muradov Namaz əsgərlik yaşına çatdı, Lerik rayonundan hərbi xidmətə çağırıldı. Əsgərlik xidmətini başa vurdu. Komandirləri də ondan çox razı idilər. Ağdam döyüşlərində iştirakı zamanı düşmən gülləsinə tuş gəldi. O, başından və ürəyindən snayperlə vurulmuşdu. 2 gün komada qaldıqdan sonra, 3-cü günü bu dünyaya gözlərini əbədiyyən yumdu. Və o zirvəyə ucaldı. Şəhidlik zirvəsi. Hal-hazırda Lerik rayonunun Günəşli kəndinin orta məktəbi onun adını daşıyır. Muradov Namaz. Şəhidlərimizin qarşında baş əyir, analarının əllərindən öpürəm. Öpürəm ki, Polad Həşimov, Mübariz İbrahimov, Muradov Namaz kimi yüzlərlə qəhrəmanları dünyaya gətiriblər. Onlar cismən olmasa da, ruhən yanımızda, xatirələri və mərdlikləri ilə qəlbimizdədirlər. Şəhidlər ölməz ! Vətən bölünməz !

*Firəngiz Zeynallı*

## Natiq ƏHMƏDOV



Vətənimizin müstəqilliyi, torpaqlarımızın azad olunması naminə ölümü gözə alan gənclərimiz bu müqəddəs amal uğrunda şəhid olursa, bu xalqımızın böyüklüyüdür. Şəhid verməyən xalqın mənliyi olmaz. Şəhid qanı axmayan torpaqdan Vətən olmaz. Bizim xalqımız Vətəninə, torpağına bağlı qəhrəmanlar yetişdirən xalqdır.

Belə igid, qəhrəman, qorxmaz oğullarımızdan biri də Natiq Əhmədovdur. Yaxınlarının verdiyi məlumata görə Əhmədov Natiq Namiq oğlu 1997-ci il martın 9-u Bakı şəhərində anadan olub. 86 saylı orta məktəbi bitirib. Komputer texnologiyalar üzrə təhsilini davam etdirmişdir. Buna baxmayaraq bərbərlik sənədini seçib, o üzrə fəaliyyət göstərirdi. Arzusu professional usta, stilist olmaq idi. Natiqin 6 yaşı olanda anam xərçəng xəstəliyindən vəfat etmişdi. 3 bacı və Natiq ata və ana nənənin sevgisi qayğıları ilə böyümüşdü. Amma buna baxmayaraq Natiq ananın yoxluğunu həmişə duyub. Evin ən kiçiyi olmasına baxmayaraq həyatı dərk edən, igid, xeyirxah, çalışqan, mehriban idi. 3 bacının arxa dayağı sevimlisi idi. Həmişə öz xeyir əməlləriylə mehribanlığı ilə hamının sevgisini qazanırdı. İnsanlara kömək etməyi çox sevərdi. Hətta bir dəfə itmiş bir çantanı yiyəsinə tapıb qaytarmışdı. Halı pisləşən birinin təcili yardım gələnə qədər başının üstündən çəkilməmişdi. Elədiyi yaxşılıqlardan qürur duyar və xoşbəxt olardı. Bu onun həyat stimulu idi. Birdənəmiz 2014-cü ildə Naxçıvana milli orduya hərbi qulluğa yollanır. 2016-cı ildə gəlib həyatını işinə məqsədinə, arzusuna yönəldərək öz bərbərlik sənəti üzrə çalışmağa başlayır. Natiqin bir çox arzusu vardı. Onlardan biri də öz zəhməti ilə ev tikmək

olub. “Tovuz döyüşləri”ndə könüllü olaraq yazılmışdı. Dostların arasında rəğbət qazanan Natiq çoxuna nümunə oldu. Sentyabrın 26-sı gecə zəng gəldi. Müharibə başladığı gündən ailəsi, əzizləri ilə vidalaşıb halallaşaraq cəbhəyə getdi. Gedəndə “nə olur olsun, Milli Qəhrəman olmaq istəyirəm” demişdi. İlk günlərdə Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib. Ara sıra zəng vurur, bizimlə danışardı. Natiqin sözləri: Ata, Füzulidə, bəlkə, 120-150 maşın dayanıb, həmyerlilərimiz bizi alqışlayır, bizim üçün dua edir, bizə təşəkkür edir. Çox qürurverici hissdir ata! Atam ona cavabında: Mən səninlə və sənin kimi oğullarla fəxr edirəm.



Ayın 11 səhər tezdən zəng vurub dedi ki, biz Hadruta 2-ci dəfə hücuma gedirik, nigaran qalmayın, bizim üçün dua edin. Haqqını halal et, ata deyir. Bu zəng sonuncu zəng idi. Sabahı gün oktyabrın 12-si Natiqin şəhid xəbəri gəldi. Oktyabrın 12-si anamın vəfat etdiyi gün idi, eyni gündə Natiq şəhid oldu. Ayın 13-ü anamın dəfn olduğu günü Natiqi də torpağa tapşırdıq. Uşaqlıqdan ana həsrəti ilə böyüyən Natiqin anası ilə eyni gündə dəfni təsadüf deyildi. Can verərkən belə son sözü: “Gedirəm anamın yanına”. Bu sözləri bizə onunla bir yerdə vuruşan döyüş yoldaşları çatdırdı. Onların sözləri ilə Natiq öz mərdliyi, igidliyi, mehribanlığı ilə bütün batalyonun hörmətini qazanmışdı.

Şəhidlər ölməz, unudulmaz! İllər keçsə də, gələcək nəsillər onları hər zaman böyük minnətdarlıq duyğusu ilə yad edəcəklər. Hər birimizin vətəndaşlıq borcudur ki, şəhidlikləri ilə bizə qələbə sevinci yaşadan bu oğullarımızı daim qəlbimizdə yaşadaq.

*Səkinə Zeynalova*

## Nicat ATAYEV



Nicat Atayev 5 mart 1994-cü ildə Mingəçevir şəhərində anadan olub. 2000-ci ildə Bakı şəhərində 200 nömrəli tam orta məktəbdə 9 il təhsil alıb, 10-cu sinif təhsilini isə Gəncə şəhərində yerləşən 55 nömrəli Kəlbəcər məktəbində davam etdirib. 2011-ci ildə orta məktəb təhsilini başa vurduqdan sonra hərbi xidmətini Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində yerinə yetirib. Nicat Atayev hərbi xidmətini bitirdikdən sonra Gəncə Dövlət Universitetinin Fiziki hazırlıq fakültəsinə qəbul olunub. Universiteti bitirdikdən sonra Azərbaycan Respublikası Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinə müraciət edib, 2019-cu ildə 3 aylıq zabitlik kursuna gedib və təyinatı Füzuli rayonunun N saylı hərbi hissəsinə verilib. 27 sentybr 2020-ci ildə başlayan Vətən müharibəsində iştirak edən Nicat Atayev tökülən qanların intiqamını almağı özünə borc bilib.

Döyüş meydanında qorxu bilmədən, qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

Şəhid leytenantın döyüş yoldaşı tərəfindən verilən məlumata əsasən: "Sentyabr ayının 27-si, İkinci Qarabağ müharibəsində Füzuli istiqamətində, 07:45 radələrində döyüşə başladıq. Müharibə davam edirdi. Erməni səngərinə hücum edən zaman Nicatın ayağı minaya düşdü. Nicat arxasınca gələn əsgərlərə geriyə çəkilməyi əmr etdi. Ən azı 20 dəqiqə ayağı minada qalan qəhrəman qardaşımız əsgərlərin geri çəkildiyi gördükdən sonra ətrafa qəlpələr yayılıb kiməsə zərər vurmasın deyə, ayağını çəkən anda özünü qarnı üstə minanın üzərinə ataraq

şəhid oldu. Şəhid olmamışdan öncə mina təmizləyən traktorun minamiyotla vurulduğunu görərək həmin istiqamətə doğru qaçmış, alovun içərisinə atılaraq traktor sürücüsünü xilas etmişdir”.

Nicat Atayev sentyabrın 27-də Füzuli döyüşləri zamanı Yuxarı Əbdürrəhmanlı istiqamətində şəhidlik zirvəsinə ucalıb və II Fəxri Xiyabanda dəfn olunub.

*Ələmdar Cabbarlı.*

## Nicat SALAHOV



Şəhid Nicat Salahov.

2-ci qrup əlil, serebral iflic xəstəsi olan Ana həyatının tək ümidi, gözünün ağı-qarası övladı ilə birgə kimsəsiz uşaqlar üçün inşa edilmiş Məzunlar Şəhərciyində yaşayırmış. Nicat anasını halal zəhmətlə işləyib dolandırırmış. II Qarabağ Vətən Müharibəsində əsgər kimi döyüşlərə qatılan Nicat Salahov Şuşa uğrunda döyüşlərdə şəhid olur. Ana təkbaşına özünü idarə edəcək durumda deyil, oğul itkisi və tənhalıq Anada psixoloji cəhətdən də ağır yaralar yaradıb.

Allah rəhmət eləsin.

## Nicat HÜSEYNOV



Nicat Ziyafət oğlu Hüseynov 1997-ci ildə Şirvan şəhərində anadan olmuşdur. O, birinci sinifə N.Quliyev adına 9 saylı orta məktəbdə başlamış on birinci sinfi B.Aslanov adına 16 saylı orta məktəbdə başa vurmuşdur.

Nicat 2015-ci ilin iyul ayında hərbi xidmətə yollanmışdır. O könül-lü olaraq "Aprel döyüşləri"ndə iştirak etmək üçün arxa cəbhədən ön cəbhəyə seçilmiş 10 əsgərdən biri olmuşdur. Nicat qısa sürən döyüşlərdə yaxından iştirak etmiş və yüngül xəsarət almışdır. Hərbi xidmət zamanı snayperçi kursunu bitirmişdir.

Nicat Hüseynov daim "Aprel döyüşləri" zamanı koman-diri olmuş "Murov qartalı" ləqəbli Raqif Orucovu xatırlamış, əsgər yoldaşları ilə birlikdə bir gün onun qisasını düşməndən alacağına söz vermişdi.

Hərbi xidməti başa vurduqdan sonra Nicat Hüseynov Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin Araz zavodunun Təhlükəsizlik və Müdafiə İdarəsində böyük atıcı işləmişdir.

2020-ci ilin sentyabr ayında başlayan Vətən müharibə-sində iştirak etmək üçün Nicat könüllü olaraq hərbi xidmə-tə yazılmışdır. 29 sentyabr tarixində hərbi xidmətə yola düş-müşdür.Evdən çıxarkən anasına "Şəhid olsam ağlamayın, mə-ni atamın bayrağına bükərsiniz", – demişdir. Çünki torpaqla-rımızın işğaldan azad edilməsi uğrunda döyüşmək və şəhidlə-rin qisasını almaq onun uşaqlıq arzusu olmuşdur. Cəsarətli və az yaşı olmasına baxmayaraq böyük hörmət sahibi olan bu gənc bu müqəddəs arzu uğrunda inamla irəli atılmışdır. Məhz bu xüsusiyyətlərinə görə heç bir hərbi vəzifəsi olmamasına

baxmayaraq müharibənin ilk günlərindən böyük şücaət göstərmiş, bölük komandiri seçilmiş və əsgərlərini döyüşə ruhlandırmışdır.



Nicat Füzuli rayonunun Qaralar kəndi uğrunda gedən döyüşlərdə xüsusi qəhrəmanlıq göstərərək ağır döyüş şəraitində 15 yaralı əsgəri neytral zonadan təkbaşına çıxarmışdır. 16-cı döyüş yoldaşını xilas edərkən qəhrəmanlıqla şəhadətə yüksəlmişdir.

Nicat Hüseynovun nəşi 11 oktyabr tarixində Şirvan şəhər Şəhidlər Xiyabanında uğrunda şəhadətə yüksəldiyi Vətən torpağına tapşırılmışdır. Allah rəhmət eləsin!

*Şəhla Məcidova*

***

*Heç bilmirəm yenə də mənə nə olub,*
*Görürəm gözümdə özümü yalnız.*
*Yəqin ki, tufanlar, çovğunlar qovub,*
*Görünmür bu gecə nə ay, nə ulduz.*

*Eh, bəlkə də qəsdən gizlənib onlar…*
*Yaxud məni sınamaq istəyirlər:*
*"Bu tufanda bizdən sənə kömək yox,*
*Özün çalış, özün vuruş" - deyirlər.*

## Nicat QASIMZADƏ



*Anasından xatirə:* Qasımzadə Nicat Hoccət oğlu 16 fevral 2001-ci ildə dünyaya göz açıb. Balam 10 yaşından namaz qılmağa başladı, Quran oxudu, oruc tutdu. Heç vaxt nə atasına, nə də mənə hörmətsizlik etməz, uca səslə belə cavab verməzdi.

Nədeyərdim "Anacan, sən bilən məsləhətdir" deyərdi. Hər kəslə mehriban idi, böyüklə böyük, uşaqla uşaq. Nicatımı 03.01.2019-cu ildə hərbi xidmətə yola saldım. Orada da nümunəvi əsgər, nümunəvi oğul oldu. İlk 3 ay Goranboyda xidmət etdikdən sonra bölgüdə Ağdama yollandı. Artilleriyada idi Nicat. Üç ay manqa komandiri, son iki ay isə "kiçik çavuş" adı aldı. 1 il 6 aylıq hərbi xidmətini başa vurub, 06.07.2020-ci ildə təxris olundu. Sentyabrın 21-i qismən səfərbərliklə geri çağırıldı. İlk olaraq Füzuli istiqamətində gedən ağır döyüşlərdə iştirak etdi. Axrıncı dəfə Nicatımla noyabrın 3-ü danışdım. Dedim: "Balam, özündən muğayət ol, özünü qoru". "Ana, alnıma nə yazılıbsa, onu yaşayacam" – dedi. Müharibənin bitməsinə saatlar qala balam şəhid oldu. Kiçik çavuş olaraq getmişdi balam, çavuş olaraq geri döndü. Sağ yox, hər evə qismət olmayan bayrağa bükülmüş tabutda qayıtdı. Nicatım 9 noyabr gözlərini əbədi yumdu bu dünyaya. Şəkillərinə sarılaraq, yuxularımda görərək, xatirələri ilə ovunaraq... Oğlumla fəxr edirəm, başımı hər zaman dik tutacam, çünki mən Şəhid Anasıyam !

*Könül Ağayeva*

## Nicat ŞÜKÜRLÜ



Sizə bir insandan danışmaq istəyirəm: gənc, səmimi, vicdanlı, hər kəsin qəlbini öz mərdliyi ilə fəth edən şəxs, II Qarabağ Müharibəsinin unudulmazlarından biri – Nicat Şükürlü. Mənə bu insandan danışmaq ağır gəlir. Bacısı ilə söhbətlərimizdə də heç vaxt hiss etmədiyim bir şeyi hiss etdim. Sözlə ifadə olunmur, ancaq özümü o xanımın yerinə qoymaq istədim. Bir bacının bir qardaşı itirməsi. Uşaqlıqda bir yerdə oynadığı, hər zaman ona arxa-dayaq olan, həyatın istər sevincli, istər kədərli anlarında çiynində ata ilə yanaşı onun əlini də gördüyü bir qardaşı itirmək acısı. O ağrı ki, zaman keçdikcə üzərini köz örtmüş heç vaxt sağalmayacaq bir yaraya çevrilir. Qara yaylıq bağlayıb sinənə onun şəklini sıxaraq fəğan qoparan ananın yanında oturursan. Ona baxırsan. O gah fəryad qopararaq Yaradandan onu istəyir, gah da gələn-gedənə “oğlumun toyuna gəlmisiniz” – deyərək ağlını itirmişcəsinə hərəkətlər edir. Sən isə sükut içində onu düşünürsən. Bütün qəlbinlə onun yanındasan. Onunla söhbət edirsən. Olanlar sənə həqiqət kimi gəlmir. Daha “qardaş” deyərək o otaqdan bu otağa onu çağıra bilməyəcəksən. Bağrına basıb bərk-bərk öpə bilməyəcəksən. O artıq bir əfsanəyə çevrilib. Müsahibim Nigar xanım qardaşı haqqında xatirələrini bölüşdü və mən isə onları fəxrlə qələmə aldım.

Əslən Kürdəmir rayonundan olan Şükürlü Nicat 1991-ci il 23 oktyabrda Bakıda Bayıl qəsəbəsində anadan olmuşdur. İbtidai təhsilini 163 nömrəli məktəbdə almış, daha sonra isə 49 nömrəli məktəbdə təhsilini başa vurmuşdur. 2009-cu ildə əsgər

gedən Nicat 2014-cü ildə Bakı Slavyan Universitetinin Beynəlxalq Münasibətlər fakültəsinə daxil olmuş, 2019-cu ildə isə oranı qiyabi şəkildə bitirmişdir. Evdə 2 uşaq idilər və Nicat evin böyüyü idi. Bacısı Nigar xanımın da qeyd etdiyinə görə Nicat həm məktəbdə, həm də universitetdə müəllim və tələbə heyətinin sevgisini qazanmışdır. Uşaqlıqdan idmana həvəsi var idi, karate, boks, futbol ilə məşğul olmuş, 2 dəfə Respublika üzrə birinci yerə layiq görülmüşdür. Hələ universitet illərində özəl şirkətlərin birində satış meneceri olaraq çalışmış və iş karyerasında bir çox uğurlar qazanmışdır. Çox aktiv, işgüzar olan bu insan xarakterində sezilən bir sıra müsbət keyfiyyətləri ilə hər kəsin ürəyini fəth etmişdi. Dostları onu sədaqətli, vicdanlı, qeybəti əsla sevməyən, təvazökar biri kimi xatırlayır. Bu keyfiyyətləri ilə bərabər həm də çalışqan və bilikli olması ilə məktəbdə də müəllimlər tərəfindən sevilirdi. Elmə olan marağından danışan bacısı onu belə xatırlayır: “Universitetə cəmi 7 ay hazırlaşmışdı. Gecələr şam işığında oxuyurdu, heç kimə mane olmaq istəmirdi. Çox bacarıqlı idi, həmişə mənə onu nümunə göstərərdilər”.



Yaddaşımıza əbədi həkk olunanlardan biri olacaq bu şəxs həm də dinə bağlı idi: “Bəli, dinə çox bağlı olub. Elə məktəb yaşlarından namaza başlamışdı. Mən özüm də ona baxaraq həvəslənirdim. Oruc tutardı. Qeybəti heç sevməzdi. Qrup yoldaşları adicə kimdənsə danışanda Nicat o dəqiqə etirazını bildirir və bunu dostlarına da təlqin edirdi. Mənə də bir neçə dəfə irad tutub. Dosta qarşı çox sadiq idi, dostlarını çox istəyirdi”.Bu cür gözəl xüsusiyyətlərə malik Nicat Şükürlü əlbəttə ki, vətənə də bağlı biri idi. General Polad Həşimovun şəhid olmasından sonra

o, tez bir zamanda hərbi komissarlığa müraciət edib adını könüllü olaraq yazdırdı. Döyüşə getməyi hər şeydən çox istəyirdi. Bunu əsas amalına çevirmişdi. Bacısı onu belə xatırlayır: "Biz Nicatın könüllü yazılmasını bilirdik, amma sonradan dəfələrlə təkid etdiyini bilmirdik. Hərbi komissarlıqdan heç bir cavab gəlməyəndə o, çox əsəbləşirdi və yenidən dəfələrlə ora gedirdi. Nicat şəhid olandan bir neçə müddət sonra Hərbi komissarlıqdan bizə bildiriləne görə qardaşım bir neçə dəfə orda yataraq çıxıb getməyəcəyini, niyə onu aparmadıqlarını söyləyirdi. Çox təkid edirdi. Biz bunların heç birini bilmirdik, nə mən, nə anam, atam. Bir neçə dəfə telefonda Nicatın gizli danışıqlarından şübhələnmişdim. Amma o mənə heç bu haqda demirdi. Əslində Nicatı dəfələrlə müraciət etdiyinə görə çağırdılar, çünki könüllü olaraq adını yazdıran çox insan var idi. Hətta dostuna ondan qabaq zəng olunub çağırıldığına görə bu ona təsir etmişdi. Deyirdi ki, Vüqarı çağırdılar mən qaldım. Axırıncı görüşümüz sentyabrın 29-u oldu. Əvvəldən iş yerindən məzuniyyət götürmüşdü, rayona getdik. Sanki hamı ilə vidalaşırdı. Sentyabrın 27-də,  müharibə başlayan gündən sonrakı iki gün ərzində təkidlə hərbi komissarlığa müraciət etdi.

Ayın 29-u dostundan beş dəqiqə sonra ona zəng gəldi gördüm ki, sevindi. Mən bir az kövrəldim, amma o, o qədər sevindi ki, mən pis ola bilmədim. Heç kimi dinləmədi elə xoşbəxt idi ki, başımı sinəsinə qoydu və dedi: "Mənimlə fəxr elə. Başını dik tut".

Sentyabrın 29-da döyüşlərə qatılan Nicat Şükürlü Hadrut uğrunda döyüşlərdə qəhrəmancasına iştirak etmişdi. İlk günlərdən cəbhədə öz cəsarəti ilə fərqlənərək Manqa komandiri seçildi. Cəbhədə ikən evə zəng vuraraq ailəsini soruşan Nicatın oktyabrın 9-u bacısına axırıncı zəngi oldu: "Səhər-səhər ona zəng vurdum və işə qəbul olduğum xəbərini verdim, çox sevindi. Həmin gün axşam bir də zəng elədi. Evdəkiləri xəbər aldı. Dedim ki, axı bu gün danışmışıq. O isə dedi ki, bekarçılıqdır, elə-belə

zəng vurmuşam. Sən demə artıq qızğın döyüşə girdiyinə görə vidalaşırmış. Son zəngi həmin gün idi. Ondan sonra ona zəng çatmadı".

Oktyabrın 9-u ailəsi ilə son danışığı olan Nicat Şükürlü oktyabrın 11-də axşam saatlarında ağır döyüşlərdə şəhid düşmüş yoldaşlarını güllənin altından çıxararkən həlak oldu və ən ali zirvə sayılan "Şəhidlik" məqamına yüksəldi. Bu elə bir zirvədir ki, Nicatı yaddaşlara əbədi həkk elədi. Özünün də dediyi kimi: Şəhidlər ölməz, Vətən bölünməz!

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli sərəncamına əsasən çavuş Nicat Ayaz oğlu Şükürlü "Vətən uğrunda" və 25 dekabr 2020-ci il tarixli sərəncama əsasən isə "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

Bacısı, valideynləri: hər kəs, onu tanıyan hər kəs Nicat Şükürlü ilə fəxr edir. Həmsöhbətim Nigar xanım qardaşı ilə daima qürur hissi duyduğunu qeyd edir: "Onunla fəxr edirəm. Hamı ölür, amma o, sağdır. O bizim qəlbimizdədir. Hər yer mənə onu xatırladır. Toxunduğu hər bir əşya, hər bir geyim. Şəkillərindən ayrılmıram. Çətindir, çox çətindir. Onsuz hamımıza çətindir. Amma bilirəm ki, ruhu şaddır. Qisası alınıb. Təkcə onun yox, bütün şəhidlərimizin qisası alındı".

Nicat on milyondan biri idi. Sıradan bir nəfər. Amma indi 2853 nəfərdən biridir. O 2853 nəfər ki, torpaqlarımız uğrunda canlarını fəda etdilər. Fəda etdilər ki, gələcək nəsil o ağrı-acını bir daha görməsin. II Qarabağ müharibəsi xalqımızın yaddaşına əbədi olaraq yazıldı.Qəhrəmanlıq tariximiz bununla bitmir. Çünki bu xalqın Nicat Şükürlü kimi neçə-neçə igidləri, ər övladları var. Şah İsmayılın torpağı əsrlər boyu belə qəhrəmanlar yetişdirir. Vətənimiz bir, dilimiz bir, millətimiz bir, amalımız bir. Sözlər, sətirlər bu ölməzləri təsvir etməyə yetməz. Ən yeni tariximizə onların adları qızıl hərflərlə həkk olundu. 27 sentyabr 2020-ci il Vətən müharibəsi başlandı. Xalqımızın hər bir nəfəri

bu günlərdə bacardıqları qədər yardım etdilər. Həm arxa, həm də ön cəbhə müharibədə əvəzolunmaz rol oynadı. Birliyimiz bizi qələbəyə inandırdı və qələbəyə sonunda müvəffəq olduq. Xan qızı Natəvanın yurdu azadlığına qovuşdu, İsa bulağı nəhayət qanlı sulardan dumduru cənnətə çevrildi. Torpaq uğrunda ölən varsa, vətən var. Bu vətən isə Azərbaycandır. Qalib Azərbaycan! Bütöv Azərbaycan! Rahat uyuyun, şəhidlər. Siz ən böyük damğanızı vurdunuz. Qarabağ Azərbaycandır!

*Mətanət İsmayılova*

## Nicat TANRIVERDİYEV

Tanrıverdiyev Nicat Şöhrət oğlu 17 noyabr 1998-ci ildə anadan olmuşdur. Universiteti bitirən kimi Hərbi Xidmətə yollanır. Müharibədə 44 gün mərdliklə vuruşur. Döyüşlərdə əsgər yoldaşlarının dediyinə görə evli olanlara "Siz evlisiniz, mən subayam, geri durun" deyirmiş. Müharibənin bitməsinə yarım saat qalmış Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.



Ailənin tək övladıydı Nicat. 4 ayın əsgəriydi. Ali təhsilliydi.Tanrıverdiyev Nicat Şöh-rət oğlu 1998-də Bakıda dünyaya göz açıb. İdmançıydı, "Qaydasız döyüş" idman növündə dəfələrlə ölkədaxili və xarici yarışlarda birinci yeri tutmuşdur. Nicat Ağdərə istiqamətində gedən döyüşlərdə tarixi qələ-

bəyə bir saat qalmış qəhrəmancasına şəhid olub. Anasına son sözü – “Mənim üçün nigaran qalmayın, yaxşıyam, Qarabağmızı alıb qayıdacağıq”. Son dəfə noyabrın 8-də anası ilə telefon danışığı olub və fəxrlə anasına Şuşanın alınması xəbərini çatdırıb. Ana canından çox sevdiyi övladını təbrik edib. Bu son danışıq olub. Döyüşçü yoldaşları deyir ki, Nicat çox cəsarətli bir igid olub. Nicat evli olan döyüşçülərə deyirmiş ki, “siz ailəlisiniz, evdə sizi gözləyən balalarınız var. Mənsə subayam. Mənə bir şey olsa da olar”. Həmin anda



Nicat evdə onu səbrsizliklə gözləyən anasını deyil, məhz Vətəni düşünürdü! Nicat Qələbə xəbərini eşitməmiş şəhadətə qovuşdu. Heç şübhəsiz ki, Nicatın və digər baş tacımız olan şəhidlərimizin ruhu indi rahatdır. Allahdan şəhidimizin anasına, əmisi oğlu Coşqun Tanrıverdiyevə və özümüzə səbir diləməklə “Vətən sağ olsun!” –deyirik. Məhz belə oğulların sayəsində alınmaz qala olan Şuşamız işgaldan azad oldu.

*Lalə Ələkbərova*

***

*Dünya, sənin iki üzün varıymış,*
*Biri qara, o biri ağ deyilmi.*
*Bir tərəfdə güllü çəmən, bağça-bağ,*
*Bir tərəfdə qanlı çanaq, deyilmi?*
*Ömür neydi, yanğısını kim bilir,*
*Acısını, ağrısını kim bilir?*
*İnsanlara həyat iki şey verir:*
*Biri oraq, biri yaraq, deyilmi?*

## Nihad ABBASOV



Nihad Mövlüd oğlu Abbasov 25 iyul 2000-ci ildə Qax rayonunun İlisu kəndində doğulub. 2007-ci ildə İlisu kənd orta məktəbinin 1-ci sinfinə daxil olmuş və 2018-ci ildə orta məktəbi bitirmişdir. 2018-ci il iyulun 26-da Azərbaycan Silahlı Qüvvələrinin sıralarında hərbi xidmətə başlayıb, 2020-ci ilin yanvar ayında ordu sıralarından tərxis olunub. 2020-ci ilin iyulunda könüllü olaraq Azərbaycan ordusunun sıralarında yenidən hərbi xidmətə başlamış, 2020-ci ilin avqust ayında isə Mingəçevir şəhərində MAXE hərbi qulluqçu kimi təlimlərə qatılmışdır.Suqovuşan,Talış uğrunda gedən döyüşlərdə kəşfiyyatçı kimi iştirak edən Nihad Abbasov 9 oktyabrda Tərtərin Ağdərə istiqamətində gedən döyüşlərdə snayperlə vurulmuş və 18 oktyabrda döyüş zonasından çıxarılmışdır. Şəhidimiz 24 oktyabr tarixində doğulub boya-başa çatdığı İlisu kəndində dəfn edilmişdir. Nihadın 20 yaşı var idi və o subay idi.



Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Nihad Abbasov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**2783**

*Bilmirəm nə yazım, mən necə deyim?*
*Heç sənə yaraşmır bu vaxtsız ölüm.*
*Bu qəfil gedişə ağlayır elim,*
*Ancaq bu kəlməni söyləyir dilim,*
*Təki Vətən Sağ Olsun!*

*Ötüşmür nə ayım, nə də ki ilim,*
*Açılarmı sənsiz çiçəyim, gülüm?*
*Çox çətin döyünür sinəmdə qəlbim,*
*Ancaq bu kəlməni söyləyir dilim,*
*Təki Vətən Sağ Olsun!*

*Ən böyük arzumdun, böyük istəyim,*
*Qəlb sirdaşım idin, könül həmdəmim.*
*Sənsiz yaşamağı necə öyrənim?*
*Ancaq bu kəlməni söyləyir dilim,*
*Təki Vətən Sağ Olsun!*

*Baxışı mənalım, ay gözəl rəqslim,*
*Ay mətin duruşlum, ay dürüst sözlüm.*
*Ay şirin söhbətlim, ay qara gözlüm,*
*Ancaq bu kəlməni söyləyir dilim,*
*Təki Vətən Sağ Olsun!*

*Necə yaşayım mən, sənsiz neyləyim?*
*Dərdimi-sərimi kimə söyləyim?*
*İzn ver yanına qoy mən də gəlim,*
*Ancaq bu kəlməni söyləyir dilim,*
*Təki Vətən Sağ Olsun!*
*Nur içində yat, igid Şəhidim!*

*Solmaz Elqızı*

# Nihat RZAXANOV




Zaman ötür, fəsillər dəyişir, illər əsrlərə, əsrlər minilliklərə çevrilir, tarixə dönür. Zamanın gedişində bir çox tarixi hadisələr baş verir. Bəzi tarixi hadisələr müəyyən dövrdən sonra yaddan çıxır, unudulur. Lakin elə zaman, elə tarixi hadisələr var ki, heç vaxt unudulmur. Nəsillər bir-birini əvəz etdikcə bu tarixi gün daha çox xatırlanır, insanların yolunu işıqlı bir zirvəyə doğru aparır. Bu zirvə ən ali müqəddəs və şərəfli olan şəhidlik zirvəsidir. Bu ali zirvəyə – Şəhidlik zirvəsinə ucalan gənclərimizdən biri də Rzaxanov Nihatdır. Uşaq vaxtından yaşlarından seçilən Nihad Vətənini dərin bir məhəbbətlə sevirdi. Məhz bu sevgisi onu şəhidlik mərtəbəsinə ucaltdı. Rzaxanov Nihat Natiq oğlu 2001-ci il təvəllüdlüdür. O, Ağcabədinin 161 nömrəli hərbi hissəsində xidmət göstərmişdir. Xidmətdə olduğu müddətdə Nihat göstərdiyi şücaətə görə digər əsgər yoldaşlarından fərqlənmişdir. Buna görə, komandiri ona tərifnamə vermişdir. Nihat hərbi xidmətdə olan zaman tez-tez ailəsilə əlaqə saxlayır və evə qayıdacağı günü səbirsizliklə gözləyir. Cəbhə bölgəsinə getməmişdən öncə, komandirinin ona verdiyi tərifnaməni əsgər yoldaşına verərək, bildirir ki, əgər mən geri qayıtmasam, bunu mənim ailəmə çatdırarsan. Qeyd etmək istərdim ki, Nihat oktyabrın ayının 5-i evinə qayıtmalı idi. Hətta ailəsi onun üçün paltar belə göndərmişdi. Lakin, Nihat könüllü şəkildə göstərdiyi xidmət zamanı noyabrın 6-sı Xocavənd istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Nihat yaşının az olmağına baxmayaraq, igidliyi, mərdliyi ilə gənclərimizə örnək oldu.

*Dünya Şəmilova*

## Nizami AYDƏMİROV



Bu şəhidimizin nə anası var, nə atası. Quba rayonunun Bağbanlı kəndindəndir.

Ülvi B. demişkən: "Həyat üçün doğulmuşuq, Vətən üçün ölməliyik". Şəhidimiz Nizami Aydəmirov da həyat üçün doğuldu, Vətən üçün öldü; ən uca zirvəyə – Şəhidlik zirvəsinə ucaldı. Ruhun qarşısında baş əyirik, şəhidim!

*Elə indi oxudum,*
*Döyüş yolunu sənin,*
*Şuşanın tarixində,*
*Zəfər qolunu sənin.*

*Elə indi oxudum,*
*Tarix üstə qanını,*
*Qəhrəmanlıq yolunu,*
*İgidlik dastanını.*

*Oxudum ki, vətənə,*
*Qovuşmaq arzun olub,*
*Oxudum ki, Şuşada,*
*Vuruşmaq arzun olub,*

*Bütün varlığın ilə,*
*Döyüşlərə girmisən,*
*Sonuncu nəfəsini,*
*Təbəssümünə qatın,*

*Şuşada dalğalanan,*
*O bayrağa vermisən.*
*Beləcə də köçmüsən,*
*Vətənin hər daşına.*

*Elşad Barat*

# Nihat SEYİDOV



Vətən bizim varlığımız, ən müqəddəs dəyərlərimizin toplandığı yerdir. Tarix boyu Vətən torpaqlarının müdafiəsi uğrunda neçə-neçə igid oğul və qızlarımız canından keçmiş, şəhidlik məqamına yüksəlmiş-lər. Bu, elə ali məqamdır ki, ölümlərin ən mübarəkidir, ən müqəddəsidir. Vətən uğrunda öldüyünü bilmək, bu həqiqətə çata bilmək üçün ölümün gözünə dik baxmaq hər kəsə nəsib olmur. Şəhidlər öz ilahi fədakarlıqla-rı ilə ölümsüzlüyə qovuşanlar, bütün bəşəriyyətin qarşılarında baş əydiyi yenilməz varlıqlardır! Şəhidlər xalqın var olma səbə-bidir, keçmişimizi bugünümüzə qovuşduran, bizi gələcəyə aparan, üzümüzdəki sevincin, qəlbimizdəki rahatlığın təminat-çısıdır onlar! Biz onlara borcluyuq qürurla yeridiyimiz Vətən torpağının hər qarışında aldığımız nəfəs üçün, üzümüzdə ya-ranan təbəssüm, sevincimiz, kədərimiz üçün...

Sentyabr ayının 27-də başlanan Vətən müharibəsində qa-zanılan zəfərimizdə, alınan torpaqlarımızın hər qarışında neçə-neçə şəhidimizin qanı, hər birinin fərqli qəhrəmanlıq salnaməsi var. Düşmənə qarşı mərdliklə vuruşan oğullarımızın bu gün qürurla danışdığımız, gələcək nəsillər üçün örnək olacaq qəhrə-manlıq hekayələrini dinlədikcə qürurlanmamaq olmur. 44 gün-lük müharibədə Naxçıvan Muxtar Respublikasından olan igid oğullarımız da qəhrəmanlıqla vuruşmuş, öz canlarından keçərək şəhidlik məqamına yüksəlmişlər. Belə mərd, igid oğullarımız-dan biri də Suqovuşanın azad olunmasında qəhrəmanlıqla vuru-şan və şəhadət məqamına yüksələn Nihat Seyidovdur. Nihat Seyidov 12 iyun 1998-ci il Culfa rayonunun Teyvaz kəndində

anadan olub. İlk təhsilə 2004-cü ildə Naxçıvan şəhəri 14 nömrəli məktəbdə başlayan Nihat 2 il burada oxuduqdan sonra 17 nömrəli məktəbdə təhsilini davam etdirib. Hərb sənətinə sonsuz maraq və istəyi sayəsində 2012-ci ildə Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub. Liseydə oxuduğu müddətdə nümunəvi davranışı, mülayim xarakteri ilə seçilən Nihat yoldaşları ilə yanaşı, müəllimləri tərəfindən də sevilirdi. Ona liseydə tarix fənnini tədris edən Təranə Tahirovanın öz şagirdi Nihat haqqında yazdıqlarına nəzər yetirək: "Nihat Seyidov hərbi liseydə oxuduğu 3 il ərzində özünü sakit, mədəni, məsuliyyətli bir kursant kimi tanıtdı. Yoldaşları ilə qarşılıqlı hörmət əsasında davranırdı. Dərslərinə çox yaxşı hazırlaşırdı. Bu xarakteri onu müəllimlərinin gözündə daha da ucaldırdı. Qarabağ mövzusunda danışanda belə bir sual verdi mənə: Müəllimə, biz güclüyük, yoxsa ermənilər? Həmin gündən bu mövzuda söhbətlərimiz genişləndi. Qarabağ tarixinə çox marağı var idi. Hər bir hadisə haqqında suallar verir və düşünürdü. Mən onun nə qədər vətənpərvər olduğunu hiss edirdim. Nəhayət, İkinci Qarabağ müharibəsinin başlanması Nihadın sualına cavab verdi. Müharibə göstərdi ki, həqiqətən də, biz güclüyük! Nihat da digər oğullarımız kimi gözünü qırpmadan döyüş meydanına atıldı. Arzularını gerçəkləşdirə bilmədi, Qarabağın azad olunmasına şahid ola bilmədi, şəhid oldu Nihat! Ölümsüzlüyə qovuşdu, xatirələrdə qaldı yarımçıq həyatı! Vətənini, torpağını azad etmək uğrunda canını fəda etdi! Amma Nihat bu yolu lap uşaqlıqdan seçmişdi. Namərd düşmən gülləsi aman vermədi onun arzularının gerçəkləşməsinə".

Hərbçi olmağı uşaqlıqdan arzulayan Nihat hərb sənətinin sirrlərinə daha dərindən yiyələnmək üçün 2015-ci ildə Bakıdakı Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olur. 2019-cu ildə oranı bitirib, leytenant rütbəsi alır. Elə həmin il Mingəçevir şəhərindəki "N" saylı hərbi hissədə xidməti vəzifəsinə başlayır. Yüksək bacarığı və hazırlığı sayəsində tezliklə bölük komandiri

təyin olunur. 2020-ci ilin 20 mart tarixində döyüş fəaliyyəti və ictimai-siyasi hazırlıqda əldə etdiyi yüksək nailiyyətlərə görə fəxri fərmanla təltif olunur. Hərbi sahədə irəliləmək, həmişə öndə getmək, kəşfiyyatçı olmaq ən böyük arzusu idi Nihadın. Elə son döyüşünə də əsl kəşfiyyatçıqəhrəman kimi, hamıdan öndə yollanır.

27 sentyabr - müharibənin başlandığı ilk gün...Azərbaycan ordusu cəbhəboyu bir neçə istiqamətdə hücuma keçir. Nihat Seyidov da bu döyüşlərdə iştirak edir. İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun şimal-şərq cəbhəsində baş vermiş ən əhəmiyyətli döyüşlərindən olan, müharibənin qalibiyyətlə bitməsində həlledici rol oynayan Suqovuşanın düşməndən azad edilməsində Nihat da igidliyi ilə seçilir, döyüş yoldaşları ilə birgə ən çətin əməliyyatlarda iştirak edərək, əsl qəhrəmanlıq nümunəsi göstərir. Atası ilə telefon danışığı zamanı Nihadın dediyi sözlər qəhrəmanlıq salnaməsi yazan Azərbaycan oğullarının zəfər səsi, qalibiyyət nəğməsi kimi səslənir: “Ata, hal-hazırda ələ keçirdiyimiz erməni tankı üzərində oturmuşam. Biz irəli gedirik. Yenilməz Azərbaycan əsgəri ilə fəxr edə bilərsiniz!”. Vətən torpağının bötövlüyü uğrunda qorxmadan, mərdliklə vuruşan, hər zaman öndə gedərək döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirən Nihat son döyüşünə də eyni ruhda, əsl qəhrəman kimi yollanır. Oktyabr ayının 14-dən 15-nə keçən gecə düşmən snayperindən atılan atəş nəticəsində baş nahiyəsindən yaralanaraq şəhadətə qovuşur. Onunla bərabər 8 qəhrəmanımız da həmin döyüş zamanı şəhid olur. Nihat şəhid olacağını sanki əvvəlcədən hiss etmişdi. İki il öncə anası ilə söhbəti zamanı “Mən şəhid olacam, ana!” deyərək onun ürəyinə xal salsa da, dastana çevrilən qəhrəmanlığı, igidliyi nəinki anasının, bütün Azərbaycan xalqının qəlbinə əbədi həkk olundu.

*Yurdun dan yerində şəfəqə döndün,*
*Zirvəyə çevrildin, məşələ döndün.*

*Qarabağ uğrunda sipərə döndün,*
*Çevrildin dastana, nağıla, Nihat!*
*Adın dodaqlarda gül açdı, Nihat!*

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda qəhrəmanlıqla vuruşan bütün oğullarımız kimi, Nihat Seyidovun da



adı xalqımız tərəfindən qürurla anılır, hörmətlə yad edilir. 2 noyabr tarixində cənazəsi Naxçıvana gətirilən şəhidlərimiz arasında Nihat Seyidov da var idi. Bütün Naxçıvan gəlmişdi qəhrəman oğullarını son mənzilə yola salmağa... Gözlərdə həm kədər, həm də böyük qürur var idi. Yüzlərlə igid övladlarımızın qanı bahasına qazanılan şanlı qələbəmiz xalqımızın birlik və həmrəyliyini bütün dünyaya nümayiş etdirirdi. Qəhrəmanlıqları ilə tarix yazan, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərən, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirən rəşadətli oğullarımıza dövlətimiz tərəfindən də həssaslıqla yanaşılır. Onlar Prezident İlham Əliyevin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında Sərəncamına əsasən leytenant Nihat Seyidov "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" medalları və "Müzəffər Ali Baş Komandan" mükafatı ilə təltif edildi.

*Sahab Əliyeva*

# Nurlan AĞAKİŞİYEV



Nurlan Ağakişiyev 2002-ci il iyulun 22-də Sumqayıt şəhərində Qarabağ müharibəsinin qazisi Etibar Ağakişiyevin ailəsində anadan olub. 2008-2017-ci illərdə Abşeron rayonunun Mehdiabad qəsəbəsində 3 nömrəli tam orta məktəbdə təhsil alıb. 2017-2019-cu illərdə isə İdarəetmə və Texnologiya Kollecində təhsil alıb. Subay idi.

Nurlan Ağakişiyev 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə idi. Azərbaycan Ordusunun əsgəri olan Nurlan Ağakişiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Ağdam rayonu istiqamətində sentyabrın 28-də şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Ağakişiyev Nurlan Etibar oğlu: Atası birinci Qarabağ müharibəsində bir ayağını itirərək qazi olub. Atası Kərbəlayi Etibar deyir: – Mən qazi olmuşdum, amma indi şəhid atası oldum. Oğlum mənim üzümü ağartdı. Hal hazırda özüm də vuruşmağa hazıram. Bu barədə Hərbi Komissarlığa da müraciət etmişəm. Bu məsələni uzadıb övladlarımıza çatdırmışıq. Artıq bəsdir... Nurlan döyüşlərin 3-cü günündə, 29 sentyabrda şəhid olub, səhərisi dəfn edilib.

Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Nurlan Ağakişiyev ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edildi.

*Şəbnəm Babayeva*

## Nurlan MUSTAFAYEV



Nurlan Mustafayev 1990-cı il 22 iyulda Hamlet və Rahilə Mustafayevlərin ailəsində anadan olub. 1997-2005-ci illərdə Nəsimi rayonunun P.Saleh adına 159 nömrəli tam orta məktəbində, 2005-2008-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2008-2012-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində, 2010-2013-cü illərdə isə Almaniyada Hərbi Liseydə "Motoatıcı" ixtisası üzrə ali hərbi təhsil alıb. Ailəli idi. Bir oğul övladı var.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin kapitanı olan Nurlan Mustafayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağın, Füzulinin və Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nurlan Mustafayev oktyabrın 12-də Hadrut döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Nurlan Mustafayev ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.

*Həqiqət B,*

## Nurlan QASIMOV



Nurlan Vadər oğlu Qasımov 25 iyun 1998-ci ildə Salyan rayonu Marışlı kəndində anadan olmuşdur. 2004-cü ildə Ramiz Qasımov adına Marışlı tam orta məktəbində təhsilini başlamışdır. 2015-ci ildə təhsilini bitirib, 2 saylı Bakı Peşə məktəbinə daxil olmuş, 2016-cı ildə 1 il müddətində Bakı Peşə məktəbini bitirmişdir.

2018-ci ildə hərbi xidmətə yollanıb. O, hərbi xidmətini Tərtər rayonunda davam etdirmişdir. Xidmətdə olarkən çavuş rütbəsi almış, tərifnamə ilə təltif olmuşdur. 26 iyun 2020-ci ildə isə hərbi xidmətini sona çatırmışdır. 2 aydan sonra könüllü olaraq Vətən Müharibəsində iştirak etmişdir. Nurlan Qasımov Füzuli və Cəbrayıl istiqamətində gedən döyüşlərdə yaralanmış, 50 gün onun haqqında heç bir xəbər alınmamışdır. Uzun sürən axtarışlardan sonra məlum olmuşdur ki, Nurlan Qasımov Cəbrayıl uğrunda gedən döyüşlərdə – 30 noyabr 2020-ci ildə qəhrəmancasına şəhid olmuşdur. Qasımov Nurlan Salyan rayonu Marışlı kəndində dəfn olunmuşdur.

Ailəsi məlumat verir: O, çox mehriban, xoşxasiyyət, mülayim, sakit biri olmuşdur. Ən böyük xəyalı Post patrolda polis olmaq idi. Ailədə 3 uşaq olublar. Ailəsi ilə mehriban olmuşdur. Böyüklərin sözündən heç vaxt çıxmazdı. Qohumlar arasında öz yerini bilmişdir. Harda olur olsun, özünə tez dost tapmağı bacarardı. Anasına çox bağlı idi. Heç kimin qəlbini qırmazdı. Ailəsi olaraq onunla fəxr edirik.

*Şəbnəm Babayeva*

# Nurlan QULİYEV



Nurlan Şükür oğlu Quliyev-1995-ci il dekabrın 4-də Ağcabədi rayonunun Qaraxanlı kəndində anadan olub. Azərbaycan Ordusunun əsgəri olan Nurlan Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nurlan Quliyev noyabrın 1-də Şuşa döyüşləri zamanı şəhid olub. Ağcabədi rayonunda dəfn olunub. Ailədə bir bacı, bir qardaş olublar



Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Nurlan Quliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Nurlan Quliyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

*Lalə Ələkbərova*

## Oqtay MƏMMƏDOV



Keçirdiyimiz hər gün tarixə dönür. Tarixə yazılan günlərin hamısı yaddaqalan olmur. Elə günlər var onlar unudulub gedir, elələri də var ki, onlar heç vaxt unudulmur, yaddan çıxmır. Belə günləri unudulmaz edən qəhrəmanlardandır şəhidlər. Çünki bu dünyada hamımıza bəxş olunan bir ömür payı var. Ömür yolunu müəyyən müddət sonra başa vuracağıq. Bu mənada insanın dünya həyatına ən gözəl şəkildə əlvida deməyinin adıdır şəhid olmaq. Allah, vətən və millət yolunda öz istəyi ilə canından keçməyə razı olan insanların fəth elədiyi ən yüksək, şərəfli zirvədir şəhid olmaq. Xalq tərəfindən qərinələr, əsrlər keçməyinə baxmayaraq əsla unudulmayan insanlardır şəhidlər. Tarix boyu inanan millətləri zəfərdən zəfərə aparan səbəb də vətənə xidmət etmək və şəhid olmaq arzusu olmuşdur. Canlarından keçməklə xalqın qəhrəmanlıq dastanını, azadlığını canı ilə qazanıb qanı ilə yazanlardır, şəhidlər!

44 gün davam edən Vətən Müharibəsində canını qurban verən Şəhidimiz Oqtay Məmmədovu tanıyaq:

Məmmədov Oqtay Namiq oğlu 1994-cü il 1 yanvarda Gəncə şəhərində anadan olmuşdur. İsmət Qayıbov adına 1 saylı orta məktəbi bitirmiş və daha sonra zərgər kimi fəaliyyət göstərməyə başlamışdır. Dininə bağlı, namaz qılan və Allahını sevən bir insan olub. 2019-cu ildə Kərbəla ziyarətində olmuşdur. İqamətgah yeri Gəncə Şəhəri olsa da, ürəyi hər zaman Ana yurdu olan Füzuli üçün döyünürdü. Füzulinin düşmən

tapdağı altında olmasına dözə bilmirdi. Qarabağa olan bağlılığı Oqtayı Şəhidimiz General-Mayor Polad Həşimovun vəfat etdiyi dövrlərdə könüllü müharibə üçün yazılan igid oğullar sırasına qoşulmağa vadar etdi. Heç bir güc onu bu müharibəyə getməkdən yayındıra bilmədi və Oqtay 27 sentyabrda başlayan müharibəyə könüllü olaraq qoşuldu. Oqtay Ana Yurdu olan Füzuli uğrunda gedən döyüşlərdə iştirak etmiş və Füzulinin işğaldan azad edilməsində dərin şücaət göstərmişdir.

Noyabr ayının ilk günləri Şuşa uğrunda gedən döyüşlərdə öz döyüş yoldaşları ilə orada qəhrəmancasına döyüşmüşdür. Ailəsi ilə ən son 6 noyabrda əlaqə saxlamış və ondan sonrakı 8 gün ondan heç bir xəbər almaq mümkün olmamışdır. 15 noyabrda Oqtayın Şəhidlik zirvəsinə ucalması xəbəri gəlmişdir.

Məlum olmuşdur ki, Oqtay Şuşanın işğaldan azad edildiyi gün – 8 noyabr tarixində Şuşanın Daşaltı kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşərək Şəhidlik zirvəsinə ucalmışdır. Noyabrın 16-da isə Gəncə şəhər Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Allah Şəhidimizə rəhmət eləsin!

*Rövşən Əlisoy*

# Orxan BALAYEV



Orxan Balayev Vidadi oğlu 1998-ci ildə sentyabrın 18-i Quba rayonunun Alpan kəndində anadan olub. 2004-cü ildə şəhid olmuş E.Bayramov adına tam orta məktəbə daxil olmuşdur. 2015-ci ildə təhsilini başa vurub. Uşaqlıqdan hərbiyə həvəsi olub. İdmanla məşğul olurdu.

Könüllü olaraq xidmət göstərdiyi hərbi hissədə gizir rütbəsində xidmət göstərməyə başlayıb. 27 sentyabr 2020 tarixindən etibarən ön cəbhədə vuruşmağa başlayan şəhidimiz, təxminən on iki gün düşmənə qarşı vuruşmuş, Suqovuşanda Talış kəndində atışma zamanı isə qəlpə ayağının bir tərəfini kəsmişdir. Mənfur düşmənin gülləsinə tuş gələn Orxan daha sonra başından snayperlə vurulmuş və əbədi şəhidlik zirvəsinə ucalmışdır. 22 yaşlı Orxan Quba rayonu Alpan kəndi qəbristanlığında dəfn olunub. Keçirilən dəfn mərasimində rayon rəsmiləri, ictimaiyyət nümayəndələri, sakinləri iştirak edib. Dəfn zamanı Quba Rayon İcra Hakimiyyəti başçısı Ziyəddin Əliyev Şəhid gizir Orxanın cənazəsinə bükülmüş Azərbaycan bayrağını atası Vidadi Balayevə təqdim edib. İcra başçısı şəhidin atasına Orxan kimi Vətən yolunda qan tökən oğullarımızın hər birimizin and yeri olduğunu deyib: "Qalib ordunun şəhididir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə şanlı ordumuz torpaqlarımızı işğalçılardan təmizlədi. Başınızı dik tutun. Onlar hər birimizin baş tacıdırlar". Allah rəhmət eləsin! Amin!

*Ülviyyə Novruzova*

## Orxan ŞİRİNOV



"Komandir, atama deyin, oğlun kişi kimi şəhid oldu" – bu sözlər 22 yaşlı Orxan Şirinovun son sözləri olub.

Orxan Elxan oğlu Şirinov 14 sentyabr 1998-ci ildə İmişlidə, Bəhrəmtəpə qəsəbəsində anadan olub. Ailənin üçüncü uşağı və tək oğlu olaraq dünyaya gəlib.

2015-ci ildə Bəhrəmtəpə qəsəbəsi Şəhid Rəhim Alışov adına tam orta məktəbdə təhsil alıb və 2016-cı ildə hərbi xidmətə çağırılıb, xidmətini Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda yerinə yetirib.

Şəhidin bibisi Sənubər xanım danışır ki, Orxan ailənin sonbeşiyi idi, bu səbəbdən bütün ailənin və bütün qohumların sevimlisi olub. Şən, gülərüz, həm də mülayim bir gənc olduğu üçün dostları arasında da hər zaman çox sevilib. İkinci Qarabağ müharibəsi başladığı zaman Orxan üç ay idi ki, nişanlanmışdı. Ali Baş Komandanın qismən səfərbərlik elanından sonra 29 sentyabr tarixində hərbi komissarlığa gedərək, cəbhəyə yollanıb. Eyni gün orta məktəbdə eyni sinifdə oxuduğu və çox yaxın dostu olan Elgün Əli oğlu Alışov da Orxanla bərabər cəbhəyə yollanıb. Elgün anasının tək övladı, atasız bir gənc olmasına baxmayaraq, cəbhədən yayınmayıb. Orxan ilk olaraq Füzuli rayonu uğrunda



döyüşə qatılıb. Məsuliyyətində olan pulemyot silahını qısa zamanda böyük diqqətlə istifadə etdiyi üçün “Pulemyotun canavarı”, “PK-Orxan” ləqəblərini qazanır.

21 oktyabrdan sonra ailəsi Orxandan nə bir zəng, nə bir xəbər alır. Komandirinin sonradan dediyinə görə, həmin ərəfədə gecə saatlarında Qubadlı rayonu uğrunda amansız bir döyüş başlayır. Orxanın birliyində pulemyot silahının mərmilərini daşıyan əsgərimiz yara alır.

Komandirinin “Şirinov, silahının başına keç” əmri ilə Orxan silahının mərmilərini də özü daşıyaraq, döyüşür.

O döyüşdə Orxan sinəsindən aldığı yarayla şəhidlik zirvəsinə ucalır. Komandiri də yaralanır, Orxanın son sözlərini də ailəsinə komandiri çatdırıb: “Komandir, atama deyin, oğlun kişi kimi şəhid oldu”.

Orxan Şirinov oktyabrın 21-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Orxan Şirinov ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”və “Qubadlının azad olunmasına görə” medalları ilə təltif edildi.

*Kult.az*
*https://axar.az/news/layiheler/521064.html*

## Orxan AVDİYEV



Vətənə zəfər bəxş edən şəhidlərimiz-əbədi qəhrəman Orxan Avdiyev... Hicran Avdıyeva: “Orxan müharibənin ilk günündən könüllü olaraq cəbhəyə gedib, qəhrəmanlıqla döyüşərək torpaq, Vətən uğurunda şəhid olub, şəhidlik zirvəsini fəth edib”. “Mən öz oğlumla fəxr edirəm!”. Ağlama, acı göz yaşların məzarıma süzülür, ana! Ağlama, qəbrim damır, ağlama ruhum üşüyür, ağlama daha ana! Ağlama ki, zəfər gülləri ilə süslənib sakitləşən ruhum dinclik tapsın, cismim məzarımda rahatlığa qovuşsun. İndi rahatam ana, çox rahatam, ruhum şaddır, ruhum azaddır. Mən zəfərlər qazanan müzəffər bir ordunun şəhidliyi ilə ölümə qalib gələn, əbədiyaşarlıq qazanan ölməz bir oğluyam! Biz şəhidlər ölməzik. Biz xalqımıza, dövlətimizə zəfər bəxş edən şəhidlərik... 25 yaşı vardı Orxanın, toyu çalınmamışdı, bəy otağı bəzənməmişdi, anası gəlin arzusunda, oğlunun toyunda qol qaldırıb ürəyi sevinə-sevinə oymamaq istəyirdi. Ananın balası ilə bağlı arzuları o qədər çox idi ki, bitib tükənmək bilmirdi. Amma oğlu anasının deyil, ana Vətənin arzularına, səsinə, harayına hay verdi, Vətən torpağının düşmən tapdağından azad olunmasına könül verdi, canını qurban etdi. Vətən hər şeydən öncədir, Vətən sevgisi bütün sevgilərdən öndədir. Orxan belə deyirdi, nakam Orxan, şəhid Orxan, qəhrəman Orxan... Könlünü Vətənə vermişdi. Vətən borcunu bütün borclardan, ana-ata haqqından da uca tutan qəhrəmanımız. Azərbaycan oğulları bu qutsal əmanətə heç zaman xəyanət etmədilər, son nəfəslərinə qədər Vətəni, yurdu əmanət kimi qorudular. Vətənin ölümsüz qəhrəmanları Vətən uğurunda canlarını fəda etməklə təkcə Vətənin bir parçasına, bir ovuc cənnət torpağına çevirilmədilər, həm də əbədi olaraq

Vətənin özünə çevirildilər. Qeyrət qılıncını sıyırıb düşmən üstünə varan igidlərimizdən biri olan Orxan Habil oğlu Avdiyev əslən Qərbi Azərbaycanın Noyenberyan (Barana) rayonun Yuxarı Körpülü kəndindəndir. İgidlər, vurub tutan oğulları, qəhrəmanları ilə şöhrət qazanan Yuxarı Körpülü eli 1988-ci ildə şovinist ermənilər tərəfindən deportasiyaya məruz qalıb, pərən-pərən salınıb. Orxanın da babaları Yuxarı Körpülünün sayılıb seçilən insanlarından olub.Orxan Avdıyev 1995 ci ilin 2 avqustunda Bakı şəhərində doğulub. Daha sonra ailəsi ilə birlikdə Ağstafa rayonu Pirili kəndinə baba ocağına köçüblər. Pirili kəndindəki Məcid Əhmədov adına tam orta məktəbdə birinci sinifə gedib. Nizam-intizamlı şagird olub, Orxanın tərbiyəsi, davranışı həmişə başqa sinif yoldaşlarına nümunə göstərilib. 2013-cü ildə orta məktəbi bitirən Orxan 2015ci ildə həqiqi hərbi xidmət üçün ordu sıralarına çağırılıb. Ordu sıralarında Motoatıcı alayında xidmət edib. Orxanın taleyinə 2016 cı il Aprel döyüşlərini də yazılıb. Düşmənlə dörd günlük müharibədə də qəhrəmanlıq göstərən qəhrəmanımız məktəb illərində olduğu kimi ordu sıralarında da öz nizam intizamı ilə seçilib. Vətən Müharibəsi başlayanda Orxan da digər Vətən oğullarımızdan biri kimi könüllü olaraq cəbhəyə gedib. Vətən uğurunda canını fəda edən Orxan Cəbrayıl və Füzuli rayonlarının alınmasında iştirak edib. Orxan Avdıyev 2020-ci il 25 oktyabr tarixində Qubadlı uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid olub.40 gündür ki, Orxan şəhid olub. Anası Hicran xanım 40 gündür gözünün ilk ovunu, böyük balasını axtarır. Ananın gözü hər yerdə Orxanını axtarır. Elə bilir ki, oğli əynində hərbi geyim evin qapısını döyüb içəri girəcək, “evə qayıtmışam” deyəcək. Ananın könlü dolub boşalan payız bulududu, göz yaşı heç qurumur ki... Kiçik oğlu Məhəmməd Avdıyev də Vətənə Xidmətdədir, hərbiçidir. Avdıyevlər ailəsi cəbhəyə iki oğul yola salıb. Məhəmməd Hərbi Hava Qüvvələrindən Müdafiə Qoşunlarında xidmətini davam etdirir. Orxanın anası Avdıyeva

Hicran Müzəffər qızı bizimlə söhbətində bildirdi ki, oğlunun gənc yaşında şəhid olması bir ana kimi onun qəlbini yandırsa da, ancaq o öz oğlunun qəhrəmanlıqla şəhid olmasından qürur duyur: "Mən öz oğlumla fəxr edirəm, onunla qürur duyuram. Orxan müharibənin ilk günündən könüllü olaraq cəbhəyə gedib, qəhrəmanlıqla döyüşərək torpaq, Vətən uğurunda şəhid olub, şəhidlik zirvəsini fəth edib. Orxanım az yaşadı, amma şərəfli yaşadı, ömrü qısa oldu, lakin dolğun və mənalı oldu. 25 illik ömrünü Vətənimizin azadlıq, zəfər tarixinə yazıb balam". Orxanın nənəsi Xalidə xanım da nəvəsinin qəhrəmanlıqla şəhid olmasından qürur duyduğunu bildirdi:



"Mən Orxan Abdıyevin nənəsiyəm, nəvəm Qarabağ savaşında qəhrəmanlıqlar göstərib, canı və qanı ilə Vətənimizi müdafiə edib. O Qubadlı uğurunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Orxan son damla qanına qədər torpaqlarımızı düşmən tapdağından azad edilməsi yolunda döyüşüb. Orxan Aprel döyüşlərində də iştirak edib. Çox vətənpərvər, yurd, Vətən təəssübü çəkən idi balam. Mən Orxanımla fəxr edirəm. Fəxr edirəm ki, nəvəm bir vətən oğlu kimi öz borcunu böyük ləyaqətlə, qeyrətlə yerinə yetirib, o öz şəhidliyi ilə Vətənin borcundan çıxıb. Orxanın uca şəhidlik adı ilə fəxr edirəm. O bizim başmızı dikəldib, adını əbədi olaraq tarixə yazıb. Torpaqlarımız işğalda olanda hər birimizin qəlbində böyük ağrı nisgil vardı. Amma Orxan da daxil olmaqla Azərbaycan oğulları torpaqlarımızı düşmən tapdağından azad etməklə ürəyimizdəki o ağrıya məlhəm oldular". Avdıyevlər ailəsinin yaxını Validə xanım da bacısı nəvəsinin qəhrəmanlıqla şəhid olmasından qürur duyduqlarını deyir: "Bacım nəvəsi Orxan şəhid oldu. Biz onun uca şəhidlik adı ilə fəxr edirik. Orxan və onun cəbhə yoldaşları, müzəffər ordumuz Azərbaycanın işğal

altında olan torpaqlarını düşmən tapdağından azad etməklə müqəddəs üçrəngli bayrağımızı torpaqlarımızda yüksəldib".

Orxan, anan da, nənən də, başqa qohumların da ürəklərinin yarasına köz basa-basa, yaralarını göz yaşları ilə yuya-yuya, sarıya sarıya sənin uca şəhidlik adınla öyünürlər. Bu gün sənin qəhrəmanlığın haqqında bütün Ağstafa rayonu, pərən-pərən salınan Yuxarı Körpülü eli fəxrlə danışır. Yuxarı Körpülü elinin camaatı deyir ki, Orxan öz qəhrəmanlığı ilə bu obanın, bu elin qəhrəmanlar yurdu olduğunu sübut etdi. Vətənin dar günündə əlində silah Qarabağ cəbhəsində döyüşərək şəhid olan Orxan Avdıyev yüzillər sonra da bizim güvənc, fəxr ünvanlarımızdan biri olaraq yaşayacaq. Nəsillər dəyişə də, xalqın, millətin ünvanı dəyişməzdir. Bizim ünvanımız ana torpaq və bir



də adı ilə əbədi öyünəcəyimiz şəhidlərimizdir. Ucalardan ucadır başın ay Vətən, oğullara yastıq oldu daşın ay Vətən! Şəhidlərin qanından azad çöllərində lalələr gözərəcək, hər lalə bir şəhiddir, hər lalə bir şəhid anasının yanıb kösöv bağlayan köksüdür ay Vətən! Orxanın anası da bağrı yanıq ladədir, boynunu bükübb yolara boylanır... Yollara boylanma ana, ürəyin kövrələndə, dərd səni sıxçalayanda Vətənin ən uca zirvəsinə bax-oğlunun qururdan, əzəmətdən yonulan əzəmətli şəhidlik heykəlinə, o uca və əbədi zirvəyə. Göylərə bax, göylərə köçən oğlun, Orxanın o ucalıqdadır...

*İradə Sarıyeva*

# Qədir MƏMİŞOV






Məmişov Qədir Zülfəli oğlu. 1989-cu ildə Saatlı rayonu, Mircəlal kəndində anadan olub.

Vətən müharibəsinin Qubadlı cəbhəsində qəhrəmancasına Şəhid olub. 3 noyabr tarixində doğulduğu Mircəlal kəndində torpağa tapşırılıb. Ondan geriyə Vətənə əmanət 2 gül balası qalıb.

İkinci övladı şəhidimiz dəfn olunduqdan 11 gün sonra dünyaya gəlib. Vəsiyyəti dünyaya gələcək qızına Zəhra adının verilməsi olub.

Döyüşlərdə göstərdiyi qəhrəmanlıqlara görə, Vətən uğrunda, Cəbrayıl və Qubadlı döyüşlərinə görə medalları ilə təltif edilib.

*İradə Sarıyeva*

## Qərib BAXŞƏLİYEV

Qərib İnqilab oğlu Baxşəliyev 22 may 1977-ci ildə Bakı



şəhərində anadan olub. O, əslən işğaldan azad olunmuş Laçın rayonunun Sadımlar kəndindəndir. 1983-1994-cü illərdə N.Nərimanov rayonu 82 saylı orta məktəbdə təhsil alıb. 1995-ci ildə hazırda Ulu öndər Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 1999-cu ildə hərbi təhsilini başa vurub, cəbhə bölgəsində Goranboy və Tərtər istiqamətlərində xidmətə başlayıb. Sonralar Cəmşid Naxçıvanski adına Hərbi Liseydə bölük komandiri, tabor komandiri və psixoloq-təlimatçı vəzifələrində, Heydər Əliyev adına Hərbi Liseydə tərbiyəvi işlər üzrə rəis müavini, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində baş müəllim kimi çalışıb, gələcək zabitlərin yüksək mənəvi hazırlıqlı kadr kimi yetişməsi və vətənpərvər ruhda tərbiyə olunması üçün əlindəm gələni edib.

Ailəlidir və üç övlad atasıdır.

Qərib Baxşəliyev nümunəvi xidmətinə görə polkovnik-leytenat rütbəsinə qədər yüksəlmiş, I dərəcəli "Qüsursuz xidmətə görə" medalı, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)" yubiley medalı və "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunmuşdur. O, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərə cəlb olunub, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan və Laçın rayonları uğrunda gedən döyüşlərdə alay komandiri kimi savaşıb. Qərib Baxşəliyev noyabrın 3-də Laçın döyüşləri za-

manı qəhrəmancasına şəhid olub. Onunnəşi bir aydan çox erməni silahlıları tərəfində girov saxlanılıb. Uzun müddət davam edən danışıqlardan sonra dekabrın 8-də ailəsinə təhvil verilib və II Fəxri Xiyabanda dəfn olunub. Şəhid polkovnik-leytenant Qərib İnqilab oğlu Baxşəliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali baş komandanı, cənab İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.



Ruhunuz şad olsun, cənab polkovnik-leytenant!

*Nigar Hüseynova*

## Qorxmaz SADIQOV



Qorxmaz Sadıqovun tərxis olunmağına bir ay qalmışdı. O, ailənin tək oğlu olub.Bu gün İrəvanın Çəmbərək rayonu Gölkənddən Sadıqov Məmmədin nəvəsi Qorxmaz Elşad oğlu şəhid oldu və Sumqayıtda dəfn olundu. Sumqayıt şəhəri 45-ci kvartal, 14 mərtəbənin yanında 5 mərtəbəli binada yaşayırlar. Allah rəhmət etsin. Ruhu şad olsun.

*Gülşən Kəngərlinskaya*

## Qorxmaz ƏLİZADƏ



*Firuzə Yunusova:* Kəşfiyyatçı baş leytenant Əlizadə Qorxmaz Arif oğlu 1995-ci il 27 yanvarda Qax rayonunun Cəlayir kəndində anadan olmuşdur. Qorxmaz II Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması yolunda igidlik göstərərək oktyabrın 17-də qəhrəmancasına şəhid olmuşdur.

*Gülşən Kəngərlinskaya*



## Qoşqar QASIMOV



Qasımov Qoşqar Atakişi oğlu 16 yanvar 1995-ci ildə Beyləqan rayon Aşağı Çəmənli kəndində anadan olub. Qoşqar 2001-ci ildə S.Abbasov adına tam orta məktəbin 1-ci sinfinə gedib, 2012-ci isə ildə tam orta təhsilini başa vurub.

2013-2014 ci illərdə hərbi xidmətdə olub. 2015-ci ildən yenidən hərbiyə qayıdıb və 5 il Naxçıvan şəhərində gizir işləyib. 2020-ci ilin may ayında yenidən müqavilə bağlayır.



27 sentyabr 2020-ci ildə başlayan II Qarabag Vətən Müharibəsində iştirak edir. Qoşqar Füzuli, Cəbrayıl və Qubadlının Azadlığı uğrunda gedın döyüşlərdə qəhrəmanlıqla döyüşür. Şiddətli gedən döyüşlər zamanı 25 oktyabr 2020-ci ildə Qubadlı uğrunda gedən döyüşlərdə Qəhrəmancasına Şəhid olub.

Allah şəhidimizə rəhmət eləsin.
Ruhu şad olsun. Nur içində yatsın.
Haqqın ödənməz, Şəhid Qoşqar.

*Gülşən Kəngərlinskaya*

# Qoşqar ÖMƏROV

*Sinifdən səngərə*




Müəllimlərin düşmənə keçdiyi dərs dillərə dastan olur. İsti sinfi soyuq səngərə, lövhəni düşmənə dəyişdi hər biri. Bir an belə düşünmədilər. Lövhə qarşısında elm bələdçisiykən, düşmən qarşısında topdağıtmaz istehkamı əvəz elədilər. Hər biri son dərsinə girdi. Düşmənə elə bir dərs keçdilər ki, çətin ki, uzun müddət özlərinə gələlər. Kürdəmirdə şagird, Masazırda müəllim, Şuşada şəhid oldu. Həmin qəhrəman müəllimlərdən biri Qoşqardır. Atası onun adını "Qoşqar" qoyanda, yəqin körpəsinə verdiyi adın onun həyatında oynayacağı rolu heç ağlına da gətirməmişdi. Qoşqar düşmən üçün keçilməz dağ, valideynləri və milləti üçün qürur yeri oldu. Düşmənin köksünə çəkdiyi dağı görüb-eşidənin qürurdan ürəyi dağa döndü.

Dağ misallı igid Azərbaycan balası Qoşqar Ömərov Kürdəmirdə doğulub, Abşeron rayonunun Masazır kəndindəki ən müasir məktəblərdən birində, 5 nömrəli tam orta məktəbdə şagirdlərinə hesablama elmini öyrənməkdə bələdçilik edirdi. Ta sentyabrın 27-nə qədər o bir müəllim idi şagirdlərinin gözündə. Amma artıq, yəni Şuşanın Daşaltı kəndi uğrunda gedən döyüşlərdə şəhid olandan sonra bir qəhrəmandır. 44 günlük Vətən müharibəsinin son günlərinə qədər döyüşdü. Noyabrın 5-də şəhidlik zirvəsinə yüksələnədək davam edən ömrü qısa olsa da, amacı böyük olan döyüş yolunu da məharətlə 26 illik ömrünə sığdırdı.

*Müəllim Qoşqar:* Qoşqar Ömərov 2018-ci ildən müəllim idi. Müəllimlərin işə qəbulu müsabiqəsində 57 bal toplayaraq riyaziyyat müəllimi kimi sinfə girmək hüququ əldə edib. Müsahibədə də uğur qazanaraq Masazır kənd 5 nömrəli tam orta mək-

təbində dərs deməyə başlayıb. Məktəbin direktoru Səlim Məmmədov qısa müddətdə yaxşı müəllim olmağı bacaran Qoşqar Ömə-
rovun bu qabiliyyətinin ailədən gəldiyini deyir. Ailədən gələn başqa xüsusiyyətləri də vardı. Ən əsası, insani keyfiyyətləri çox idi: "Çox ləyaqətli insan idi. Şagird və müəllimlərimiz arasında hörmət qazanmışdı. Təəccüb doğuracaq qədər gözütox idi. Ona dərs saatını zorla verirdik. Dərs bölgüsündə hər zaman geridə dayanırdı. Riyaziyyat müəllimləri xanımlardır. O, yeganə kişi müəllim idi. Soruşanda ki, gücün nəyə çatar, dərslə təmin edək, deyirdi xanım müəllimlər ehtiyacı olanı götürsün, yerdə qalanı mənə verərsiniz". Vətən müharibəsində ona ehtiyac olduğunu da bilirdi: "Tovuz döyüşlərindən sonra hərbi komissarlığa müraciət etmişdi. Ordu sıralarına könüllü qatılanlardan idi. Müharibə başlayan kimi də çağırıldı. Həqiqi hərbi xidmətdə hesablayıcı artilleriyaçı olub. O vaxt fərqlənib də. Təltifləri vardı. Ailəsi ilə əlaqə saxlayırdı. Axırıncı dəfə şəhadətindən 4-5 gün əvvəl danışdıq. Elə danışırdı ki, sanki ömrünü hərb sənətinə həsr etmiş artilleriyaçı idi. Döyüşlərdən, Ordumuzun qüdrətindən qürurla söhbət açdı. Sonra da şəhadət xəbərini aldıq. Onun məzarını, ailəsini sadəcə kollektivimiz yox, valideynlər, şagirdlərdən də ziyarət edənlər çox oldu".




*Oğul Qoşqar:* Atası Səxavət müəllim danışmaqda tərəddüd edir. "Oğlumdan nə danışım" deyib nümunəvi balasını öyməyə utanır müəllim oğulun müəllim atası. Kürdəmir rayonu Qarasu kənd tam orta məktəbin riyaziyyat müəllimi Səxavət Ömərov üçün o, hələ "körpə" oğludur. Baxmayaraq ki, atasına məhz o, ikinci həyat verib: "Çox ağır xəstəydim. Çarəmi heç

yerdə tapa bilmirdilər. Xəstəxana-xəstəxana gəzdirdi məni. O yer qalmadı aparmasın. İnternetdə axtardı, dostlarının köməyi ilə axtardı. Onda gördüm Qoşqarın nə qədər sevildiyini, böyük



ətrafı, çoxlu dostları olduğunu. Axır tapdı çarəmi. Nadir xəstəliklərdən biri çıxdı". Səxavət müəllim oğlunun da müəllimi olub. Həm riyaziyyatı sevdirib, həm də müəllimliyi: "V-XI siniflərdə riyaziyyatdan dərs demişəm. Sinfin lideri idi. Uşaqlığından mərd, sözünün üstündə duran, haqsızın yanında dayanan, sözünü deməyi bacaran idi. Öz üzərində işləyirdi. Fiziki cəhətdən özünü ev şəraitində yaratdığı alətlərlə inkişaf etdirmişdi. Təlimlərdən sonra deyirdi ki, 3 adam mənimlə bacarmır. Buna baxmayaraq, döyüşkən, dalaşqan deyildi. Problemləri ağılla həll edirdi. Psixoloji cəhətdən də möhkəm idi".

*Şagirdləri yolunu davam etdirəcəklər:* Qoşqar Ömərov Azərbaycan Dövlət Pedaqoji Universitetini bakalavr, Memarlıq və İnşaat Universitetində isə magistratura təhsili almışdı. Qoşqara riyaziyyatı, müəllimliyi bir də vətəni atası Səxavət müəllim sevdirdi. Qoşqar isə atasından öyrəndiklərini öz şagirdlərinə ötürdü.Bəlkə arzuları gerçəkləşmədi, amma hədəfinə nail oldu. İndi onun yolunu davam etdirmək istəyən Pərvanə Qasımova kimi şagirdləri var: "Söz verirəm ki, mən də Qoşqar müəllim kimi riyaziyyat müəllimi olacağam".

*Ruhiyyə Daşsalahlı*

## Pərviz NAĞIYEV
## Qənbər QƏNBƏRLI

*İtkin düşən daha iki hərbçinin nəşi tapılıb - RƏSMİ*





Həyata keçirilmiş istintaq-əməliyyat tədbirlərinin nəticəsində itkin düşmüş daha iki hərbi qulluqçunun şəxsiyyəti müəyyənləşdirilərək meyitlərinin aidiyyəti üzrə verilməsi təmin olunmuşdur.

Bildirilib ki, Ermənistan silahlı qüvvələrinin və Dağlıq Qarabağda fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələrinin ölkəmizə qarşı növbəti hərbi təxribatlarının qarşısının alınması, respublikamızın ərazi bütövlüyünün təmin edilməsi məqsədilə Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-dən əks-hücum əməliyyatlarına başlanmış və Vətən müharibəsi 2020-ci il noyabrın 10-da düşmənin tam kapitulyasiyası, Azərbaycanın hərbi-siyasi tarixi qələbəsi ilə nəticələnmişdir.

2020-ci il noyabrın 10-da üçtərəfli bəyanat imzalandıqdan sonra Azərbaycan Respublikası Silahlı Qüvvələrinin itkin düşmüş hərbi qulluqçularının tapılaraq doğmalarına təhvil verilməsi istiqamətində intensiv əməliyyat-istintaq hərəkətləri həyata keçirilmiş, həmin xüsusat Azərbaycan Respublikası Baş Prokurorluğunun və Respublika Hərbi Prokurorluğunun

rəhbərliyi tərəfindən nəzarətə götürülmüş, Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları ilə birgə həyata kecirilmiş əməliyyat-istintaq tədbirlərinin nəticəsində, Müdafiə və Fövqəladə Hallar Nazirliklərinin əməkdaşlarından ibarət axtarış qrupları tərəfindən itkin düşmüş hərbi qulluqçularımızın axtarılaraq tapılması istiqamətində müntəzəm iş aparılmışdır.

Respublika Hərbi Prokurorluğunun mətbuat xidmətindən bundan əvvəl verilmiş məlumatlara əlavə olaraq bildirilmişdir ki, birgə həyata keçirilmiş istintaq-əməliyyat tədbirlərinin nəticəsində itkin düşmüş daha iki hərbi qulluqçunun – baş leytenant Qənbərli Qənbər Bəhruz oğlu və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər Nağıyev Pərviz Güloğlan oğlunun şəxsiyyətləri müəyyənləşdirilərək meyitlərinin aidiyyəti üzrə verilməsi təmin olunmuşdur.

İtkin düşmüş digər hərbi qulluqçuların olduqları yerlərin müəyyən olunması məqsədilə istintaq-əməliyyat tədbirlərinin icrası davam etdirilir, eləcə də axtarış qrupları tərəfindən hazırda intensiv işlər aparılır.

*Oktyabr ayında itgin düşən Baş leytenant Qənbərli Qənbər bu gün uğurunda can verdiyi vətən torpağına təhvil veriləcək..*

*Elə baxma üzümə,*
*Utanıram, qardaşım,*
*Alışıram içimdən,*
*Odlanıram, qardaşım.*

*Kaş ki sənin yerinə*
*Mən ölərdim, deyirəm,*
*Daha sən də vətənsən.*
*Sənlə fəxr eləyirəm.*



*Elşad Barat*

## Pərviz TAĞIYEV



Pərviz Tağıyev 1990-cı il martın 22-də Mingəçevir şəhərində anadan olub. Azərbaycan Ordusunun əsgəri olan Pərviz Hafiz oğlu Tağıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdəsavaşıb. Pərviz Tağıyev sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

Onun nəşi uzun müddət tapıla bilməyib. Müdafiə Nazirliyi tərəfindən rəsmi olaraq itkin düşən hərbi qulluqçu hesab olunub. 2021-ci il mayın 5-də nəşi tapılıb və Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

*Gülşən Kəngərlinskaya*

***

Atama oğul deyiləm,
Anama oğul deyiləm.

Bu ocağın kor çırağı,
Yanmayacaq işığıyam.

Atam-anam zəmanədir,
Mən zəmanə uşağıyam.

## Raquf ORUCOV



*Cavid Alıyev:* Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına verilən Milli Qəhrəmanlar siyahısında polkovnik-leytenant Raquf Orucovun da adını görməyi çox istərdik. O, buna layiq olan bir qəhrəmandır. Allah rəhmət eləsin, ruhu şad olsun!

*Murov qartalı`nın əfsanəvi əməliyyatı:* Şəhid polkovnik Raquf Orucovun kəşfiyyat qrupu 7 Azərbaycan əsgərini əsirlikdən necə xilas etmişdi?

Murov qartalı`nın əfsanəvi əməliyyatı: Şəhid polkovnik Raquf Orucovun kəşfiyyat qrupu 7 Azərbaycan əsgərini əsirlikdən necə xilas etmişdi? Murad Mirzəyev, Elnur Əliyev, Samit İmanov, Raquf Orucov, Dilsuz Qarayev, Bəxtiyar Hüseynov, Nicat İsgəndərov, Sarvan Mehrəliyev...

Aprel döyüşlərində böyük hünər, rəşadət göstərərək şəhidlik zirvəsinə yüksəlmiş Vətən oğullarının hamısı qəhrəmandır. Onların bu il aprelin əvvəlində cəmi bir neçə gün davam edən döyüşlərdə göstərdikləri qəhrəmanlıq nümunələri indi hər bir Azərbaycan gənci üçün sözün həqiqi mənasında bir örnəkdir. Çünki onlar şəhid olsalar da, Birinci Qarabağ müharibəsində məğlub olmuş Azərbaycan Ordusunuqaliborduyaçevirə bildilər. Elə öz adlarını da Azərbaycan xalqının qəhrəman oğulları kimi tarixə yazdılar.... Hamı onlardan danışır, döyüş yollarından, şərəflə yaşadıqları həyatlarından filmlər çəkilir,

oçerklər yazılır, barələrində mahnılar qoşulur. Hər birinin məzarı bütöv Azərbaycan xalqının müqəddəs ziyarətgahına, Vətən, torpaq, Qarabağ nisgili ilə yaşayan gənclərin isə and yerinə çevrilib. Aprel şəhidləri arasında bir kəşfiyyatçıpolkovnikdə var ki, onun haqqında daha çox danışılır: polkovnik leytenant Raquf Orucov. O, sözün əsl mənasında qəhrəman idi! Raqub Orucovun düşmən arxasında uğurla həyata keçirdiyi bir neçə xüsusi əhəmiyyətli əməliyyatlar varki, bunlar Azərbaycan Silahlı Qüvvələrinin tarixində nadir əməliyyatlardan sayılır. Raquf Orucov Azərbaycan Ordusunun polkovnik rütbəsində şəhid olan ilk zabitidir. Raquf Azərbaycan Silahlı Qüvvələrinin şəhid olan ilk hərbi hissə komandiridir. O, şəhid olduğu günədək bir çox təltiflərə, o cümlədən Ali Baş Komandanın müvafiq fərmanları ilə "Hərbi xidmətlərə görə" və "İgidliyə görə" medallarına layiq görülüb. Şəhidlik zirvəsinə yüksəldikdən sonra... Aprel döyüşlərində şəhid olmuş bu qəhrəman kəşfiyyatçızabitin məzarını təkcə qərənfillər deyil, həm də müxtəlif illərdə komandiri olmuş əsgərlərinin məktubları ilə al-əlvandır. Sumqayıtdakı Şəhidlər xiyabanında uyuyan polkovnik-leytenant Raquf Orucovun məzarının üstü həmişə məktublarla doludur. Bu məktubların əksəriyyəti keçmişdə şəhid polkovnikin əsgəri olmuş gənclər tərəfindən yazılıb. Düz 3 aydır mətbuatda, sosial şəbəkələrdə hər kəs şəhid komandırin şücaətindən, qəhrəmanlığından danışır. Cəmi 42 il ömür sürməsinə baxmayaraq, həyat və döyüş yolu o qədər zəngin, keşməkeşli və nümunəvi olub ki, Raquf Orucov haqqında danışılan xatirələr, dildən-dilə gəzən qəhrəmanlıq hekayətləri bitib-tükənmək bilmir. Raquf Orucov 1990-cı ildə Ağdam rayonundan Sovet ordusunda həqiqi hərbi xidmətə çağrılıb. Cəmi 1 il Rusiyada xidmət edikdən sonra Ermənistanın Azərbaycana qarşı təcavüzü barədə məlumatları eşidib və dərhal Azərbaycana qayıtmaq barədə qərar qəbul edib. Azərbaycana qayıtdıqdan sonra könüllü ola-

raqAğdam rayonundakı özünü müdafiə batalyonuna yazılaraq Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərə atılıb.

*Sıravi döyüşçüdən peşəkar kəşfiyyatçıyadək*

Raquf Orucovlar ailəsinin ilk şəhidi deyil. Doğma Ağdamın işğalı zamanı onun anası və 3 yaxın qohumu şəhid olub. O zaman Raquf Ağdamın yaxınlığında – Əsgəran rayonunun Naxçıvanik kəndi uğrunda gedən döyüşlərdə iştirak edirdi.

Müxtəlif dövrlərdə cəbhənin ən qaynar nöqtələrində kəşfiyyat qruplarının düşmən arxasında həyata keçirdiyi onlarla uğurlu əməliyyatların əsas təşkilatçılarından və iştirakçılarındanbiri məhz Raquf Oruçov olub:

“Kəşfiyyat bölüyünün komandiri kimi bu işin əsas ağırlığı Raqubun üzərinə düşürdü.Onun ən yaddaqalan əməliyatların dan biri 1998-ci ildə işğalaltında olan Kəlbəcədə olmuşdu. Raquf Kəlbəcər rayonunda kəşfiyyat əməliyyatı zamanı erməni əsgərlərinin and içmə mərasimini müşahidə edib və həmin tədbirdən gizli video çəkiliş aparmışdı. Məhz buqəhrəmanlığına görə Raquf Orucovhələ o zaman ümummilli lider Heydər Əliyev tərəfindən “İgidliyə görə” medalı ilə təltif edilmişdi. Şəhid polkovnikin komandiri olmuş Rasim Fərşidov həmin məşhur əməliyyat barədə daha məlumatlıdır: “1998-ci ilidi. Kəlbəcərin Yanşaq kəndi istiqamətində kəşfiyyat məlumatlarının toplanması, video çəkiliş üçün kəşfiyyat qrupuna həmin əraziyə getmək barədə əmr verilmişdi. İki qrupmüəyyənləşdirdik. Bir qrupda bölük komandiri kimi Raqufun, digərində isə tağım komandirinin dəstəsini seçdim. Özümü də bu iki qrupa zəruri yardım məqsədilə köməkçi dəstə kimi yazdım. Hazırlaşıb yola çıxdıq və axşama yaxın təmas xəttindəki ən son posta çatanda tağım komandiri qəflətən öskürməyə başladı. Planımız belə idi ki, səhərə yaxın təmas xəttini otərəfə keçməliyik. Amma tağım komandirinin gecə səhərə qədər öskürməsi planımızı pozurdu. Raqufla məsləhətləşdik və qərara aldıq ki,

əməliyyatı onun komandiri olduğu qrup təkbaşına həyata keçirəcək. Onun 6 nəfərdən ibarət kəşfiyyat dəstəsi videokamera ilə yola düşdü. Qrup üzvləri Ömər aşırımından Yanşağa qədər uzaq bir məsafə getməli idilər. Lazım olan məntəqəyə çatanda əlaqə saxlayıb apardıqları müşahidələr barədə məlumat verirdi. Bildirdi ki, erməni əsgərləri səhər düzülüşünə dayanıblar, onları çəkirəm. Bir qədər sonra, təxminən səhər saat 8 radələrində yenidən əlaqə saxladıq, dedi ki, düşmən məni görür, nə etməli olduğumu bilmirəm. Çünki bir tərəf açıqlıqdır, yerimi dəyişsəm təhlükə bir qədər də artacaq. Soruşdum ki, qərarın nədir? Dedi ki, qərar qəbul edirəmki, geri qayıdaq. Dedim geri qayıdın, Allah eləməmiş, bir hadisəbaş versə mənə xəbər elə ki, buradan sizə dəstək verə bilək. Səhər saat 10-da onunla belə bir qərar qəbul etdik. Axşam saat təxminən 7 radələri idi, məlum oldu ki, Raqufgil gəlib düşmənin arxasında aşağıda mövqe tutublar, amma yuxarıda ermənilərinpostu yerləşdiyindən hərəkət edə bilmirdilər. Qrupun bütün heyəti erməni postundan aşağıda dərənin içində qaldı. Biz də endik dərəyə ki, onlara kömək edək, çünki yükləri vardı deyə yuxarı qalxmaq çətin idi. Bu ərazi elə bir yer idiki, yalnız kəndirlər vasitəsilə dərənin dibindən yuxarı qalxmaq olardı. Bu cür çətinliklərə baxmayaraq, biz o əməliiyyatı da uğurla başa vurduq".

*Sərt aşırımlı dağlar arasından Kəlbəcərə doğru...*

Ehtiyatda olan kapitan Rasim Fərşidov şəhid polkovnikin dillərdə dastan olan daha bir qəhrəmanlıq nümunəsi barədə danışır. Onun sözlərinə görə, 1995-ci ildə Ermənistan ordusunun Murovdağ istiqamətində əsirgötürdüyü 7 Azərbaycan əsgərinin azad edilməsi üzrə əməliyyatın uğurla başa çatmasının da əsas səbəbkarı məhz igid polkovnik-leytenant R.Orucov idi: "Bu hadisə 1995-ci ilin oktyabrında olmuşdu. O vaxt Raquf kiçik leytenant rütbəsində idi. Murov o qədər sərt yerdir ki, orada duman olanda iki-üç metrli məsafəni belə, görmək olmur. Ona görə də bizim 7 əsgərimiz yuxarı posta yemək vəya-

nacaq aparan zaman dumanda azaraq gedib ermənilərin postuna girmişdi. Müdafiə Nazirliyindən göstəriş gəlmişdi ki, həmin əsgərlər təcili erməni əsirləri ilə dəyişdirilməlidir. Amma onları dəyişmək üçün Azərbaycanda erməni əsirləri yox idi.

Bu səbəbdən ermənilərdən əsir götürmək üçün Raquf Orucovun başçılığı ilə qrup düşmənin nəzarətində olan ərazilərə kəşfiyyata göndərilmişdi. Budəfəki tapşırıq son dərəcə çətin və məsuliyyətli idi. Çünki ermənilərin nəzarətində olan ərazilərdə kəşfiyyat aparmaq və düşmənin canlı qüvvəsini ələ keçirib diri vəziyyətdə gətirmək xüsusilə riskli və əksər hallarda mümkün olmayan işdir. Çətinlik həm də onda idi ki, belə əməliyyatlarda iştirakçıların sayı adətən, ən azı 5-6 nəfərdən az olmur. Kəşfiyyat qrupu silah-sursatla yanaşı, özünə ərzaq ehtiyatı da götürməlidir. Bu da əlavə yük deməkdir. Bu yükü götürüb kəşfiyyat əməliyyatını həyata keçirmək, düşmənin dayaq məntəqəsindən tağım məntəqəsinə ərzaq, silah və ya yana yaq aparan əsgərlərinin bütün hərəkətlərini izləmək, onlara yaxınlaşmaq üçün zaman müəyyən etmək çox mürəkkəb iş idi”.

Nəhayət, “Murov qartalı” ləqəbi ilə tanınan Raquf Orucovun komandanlığı altında 6 nəfərlik kəşfiyyat qrupu müəyyən edilmiş marşrut üzrə hərəkət edərək Kəlbəcərdəki qızıl mədənlərinə yaxınlaşıb burada müşahidələr aparır. Bu zaman onlar mədəndə işləyən ermənilərin xüsusi təyinatlılar tərəfindən qorunduğunun, hətta xüsusi təlim görmüş itlərin də təhlükəsizlik tədbirlərinə cəlb edildiyinin şahidi olmuşdular (Kəşfiyyat qrupu Zod qızıl yatağında müşahidə apararkən burada gördüklərinin foto şəkillərini də çəkmişdi – E.S.). Raquf Orucovun kəşfiyyat qrupu bir qədər də irəli getdikdən sonra aşağıdakı yamacda mülki geyimdə olan ermənilərin kənd təsərrüfatı işləri ilə məşğul olduqlarını müşahidə edir. Kəşfiyyatçılarımız bir qədər gözləyirlər, axşam qaranlıq düşənə yaxın ermənilərin əksəriyyəti ərazini tərk etsələr də, 3 nəfər mülkigeyimli kişi hələ də işləyirdi. Bu zaman Raquf Orucov bir qədər

də ermənilərə yaxınlaşaraq otla yüklənmiş “Zil” markalı avtomaşının arxasına keçərək əli ilə kabinədə tək oturmuş erməninin ağzını qapayır. Dərhal kəşfiyyat qrupunun üzvlərinə “İrəli!” işarəsini verir, hərbçilərimizin gözlənilməz gəlişindən qorxuya düşən digər iki mülki geyimli erməniyə isə “səsinizi çıxarsanız güləłəyəcəyik” deyir. Vəziyyətin nə yerdə olduğunu anlayan ermənilər heç bir müqavimət göstərmədən təslim-olurlar. Raquf Orucovun başçılıq etdiyi Azərbaycan kəşfiyyat qrupunun üzvləri dərhal 3 ermənini də özləri ilə götürərək geriyə – Azərbaycan Ordusunun nəzarətində olan əraziyə doğru qayıdırlar. Artıq kəşfiyyatçılarımız bu əməliyyatı uğurla həyata keçirdiklərinə əmin idilər. Hətta o dərəcədə əmin idilər ki, özləri ilə götürdükləri ermənilərin əl-qolunu bağlamağa belə ehtiyac-duymurlar. Əksinə, əli-qolu açıq bu zavallı ermənilər daha rahat şəkildə yola davam edə bilirdilər...

Nəhayət, igid kəşfiyyatçılarımız özləri ilə gətirdikləri 3 erməni ilə birlikdə kəşfiyyat marşrutu üzrə nəzərdə tutulmuş məntəqəyə çatdıqdan sonra artıq təhlükənin sovuşduğunu nəzərə alaraq burada bir qədər dincəlmək qərarına gəlirlər. Komandir Orucov dağın zirvəsində post qurub kəşfiyyatqrupunun üzvlərindən 2 nəfəri xidmətə təhkim etdikdənsonra digər əsgərlərə dincəlmək üçün bir saat vaxt ayırır. Çünki artıq yerimək, irəli getmək mümkün deyildi, yorğunluq və aclıq kəşfiyyat qrupunun üzvlərini taqətdən salmışdı. Bu səbəbdən Raquf Orucov bir qədər dincəlmək üçüngöstəriş verir. Amma məsuliyyət, nigarançılıq, nəm və daş-kəsəkli torpağın üzərində uzanmış komandirin az da olsa dincəlməyə, burada dayanmağa hövsələsi çatmır və “yola davam” deyərək dəstəsi ilə birgə irəliləyir...

Komandanlığın əmri əsasında verilmiş əməliyyat tapşırığını uğurlu yerinə yetirərək girov götürdükləri 3 ermənini də xidmət etdikləri briqadaya gətirən ilə Raquf Orucov və onun kəşfiyyatçı əsgərləri burada əsl qəhrəman kimi qarşılanır. Çün-

ki bu, həqiqətən də Qarabağ müharibəsində uğurlahəyata keçirilən ən nadir əməliyyatlardan biri hesab olunurdu. Məhz bu uğur lu əməliyyat nəticəsində düşmənə əsir düşmüş 7 Azərbaycan əsgəri tezliklə və çox asanlıqla azad edildi.

"*Bilsəydim ki, atam şəhid olacaq...*"

Həyat yoldaşı Sevinc xanım bildirir ki, Raquf Orucov hələ orta məktəbdə oxuyarkən hərbçi olmaq istəyirmiş. Belə ki, ortaməktəbi bitirən kimi Kamil və Feyruz adlı sinif yoldaşları (hazırda Kamil və Feyruz da polkovnik hərbi rütbəsi daşıyır) ilə birlikdə sənədlərini hərbi məktəbə veriblər. Kamillə Feyruz hərbi məktəbə daxil olsalar da, Raquf Orucovun bu arzusu baş- tutmamışdı. Ona görə də 1993-cü ildə hələ Ağdamın işğalından əvvəl Ali Hərbi Məktəbə daxil oldu. İki ildən sonra, 1995 ci ilin ortalarında kiçik leytenant rütbəsi ilə cəbhəninAğdam istiqamətində xidmətə başlayıb.

Şəhid polkovnikin oğlu Aqşin Orucov atası ilə sonuncu g örüşünün Novruz bayramına təsadüf etdiyini xatırlayır: "Bayram günü dostlarla həyətdə idim. Bilsəydim ki, atam şəhid olacaq, yanında bir dəqiqə beləayrılmazdım. Atam həmin gün evə bir neçə saatlıq gəlmişdi. Mən evə gələndə o, artıq gedirdi.

Atamla sonuncu dəfə qapıdan çıxanda görüşdüm. Bu, sonuncu görüşümüz oldu. Atamın sonuncu fotosuda əmim uşaqları ilə qapının önüdə çəkilib. Ondan sonra çıxıb getdi..."

Raquf Orucov da daxil olmaqla aprel döyüşlərində şəhid olmuş əsgər və zabitlərimizin hər biri qəhrəmandır! Düz 23 ildir Azərbaycan torpaqlarını işğal altında saxlayan düşmənin təkcə beynəlxalq hüquq normaları və siyasətdə deyil, həm də hərbi nöqteyi-nəzərdən Azərbaycandan nə qədər zəif və gücsüz olduğunu məhz onlar sübut etdilər.

*Elxan Salahov,*
*2016*

## Ramin BAYRAMOV



Baş leytenant Ramin Hüseynağa oğlu Bayramov 8 oktyabr 1979-cu ildə Cəlilabad rayonunun Alar kəndində dünyaya gəlmişdir. O, 1996-2000-ci illərdə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində təhsil almışdır. Ramin 2005-ci ildə Murovda həqiqi hərbi xidmətdə olmuşdur. Hərbidən təxris olunduqdan sonra Bakıya gəlmiş, ailə qurub burada yaşamışdır. Onun Nərmin, Yusif və Yunis adlı üç övladı var.

Ramin Bayramov işğal olunmuş torpaqların azadlığı uğrunda başlayan müharibəyə könüllü olaraq qatılmış, döyüş meydanında böyük şücaətlər göstərmişdir. Baş leytenant Ramin Bayramov cəsarəti, qorxmazlığı ilə yanaşı, insanlığı, səmimiliyi, əsgərlərinə qarşı qayğıkeşliyi ilə tanınmış və sevilmişdir. Vətəni qorumaq və keşiyində durmaq onun üçün bir şərəf idi. Onun yeganə arzusu Vətənə layiq oğul olmaq, işğal altında qalan torpaqları mənfur düşmənlərdən xilas edərək, o torpaqlarda Azərbaycan bayrağını dalğalandırmaq idi. Üç övlad atası olan Ramin bir an belə düşünmədən vətən uğrunda döyüşlərə atılmış, oktyabrın 31-də Qubadlı-Laçın istiqamətində gedən qızğın savaşdaigidliklə şəhidlik məqamına yüksəlmişdir. Ramin Hüseynağa oğlu Bayramov noyabrın 11-i doğulduğu Alar kəndində dəfn olunmuşdur.

Ramin Hüseynağa oğlu Bayramov göstərdiyi şücaətlərə görə, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

*Eşqanə Babayeva*

## Ramiz AĞAYEV



Ramiz Eldar oğlu Ağayev.

Bu vaxtadək necə tək qalmısan burda" – 84 yaşlı ana 28 ildən sonra oğlunu görməyə gəldi.

– Dur, bala, dur ayağa görüşək. Dur, boyuna qurban olum. Anan gəlib, dur… Anası gəlib. Düz 28 il sonra. Oğlunun qəbrini ziyarətə... Oğlanlarıyla gəlib, oğlunu görməyə... Hələki maşındadı. Hələki inanmır. Sanki yuxu görür. Bütün gecəni də yatmayıb axı...

...Qızı açır maşının qapısını. Düşür və eyni anda kövrək nəzərlərlə ətrafa baxır.

Güldəstə ana oğlu İsaqla. İrəlidə, çox yox, beşcə metr aralıda oğlu Ramiz boylanır ona tərəf.

Böyük oğlu İsaq girir qoluna. Addım-addım gedir qəbrə tərəf. Adama elə gəlir ki, 28 ildir həsrətində olduğu oğlunun qəbrinə bu beşcə addımı da 28 ilə gedib çıxacaq.

Qəbrə bir addım qalmış İsaq qolunu buraxır anasının-Güldəstə ananın. O boyda adam, dağ boyda İsaq yerə, qəbrin üstünə düşür lay divar kimi.

İsaq qardaşının qəbrinə sarılır. O boyda İsaq yumrulanıb bir metrlik sinə daşına sığışır. Və… Və hönkürür…

Ustufca qəbrin baş tərəfinə keçir Güldəstə ana. Əlini başına atıb qiyyə çəkir:

*Əzizim, anam ağlama,*
*Vəfalı sonam ağlama.*
*Qorxuram ah çəkəsən,*
*Od tutub yanam ağlama.*

Və…Və oğlu İsaq kimi qəbrin üstünə sərilir. Onu tutmaqmı olar? Ona baxmaqmı olar. Güldəstə ana oğlunun qəbri önündə. İsaq anasının bu vəziyyətinə baxa bilmir, əlində dəsmalı üzünü dağlara tərəf tutub gözünün yaşını sel kimi tökür. O biri oğlu da dayana bilmir, gözünün yaşını barmaqları ilə gizlətməyə çalışır. Amma barmaqların üstündən süzülüb tökülür qəbrin üstünə. Bir qohumu dizi üstə çöküb, iki qatlanıb. Şəhidin qohumu onun qəbiri üstə. Bir həmkarımız da qoşulub Ağayevlərə, ağlayır. Mən, mən isə donmuşam, tərpənə bilmirəm, belə anlarda köməyimə gələ bilən siqaretimi də iki cibimin heç birindən tapa bilmirəm.



***

Hönkürür qəbri üstə durmadan Güldəstə ana. Qucaqlamaqdan, oxşamaqdan, öpməkdən doymur qəbir daşını. Qorxur, elə bilir ki, bir də bura 28 ildən sonra gələ biləcək. Torpağı belə dırnaqlaryla xışmalayır. Qalxmaq istəmir. Su gətirir kimsə. İki qurtum içir...

Güllər düzülər qəbirin üstünə. Bütün ailə qəbrin ətrafında oturub. Bu dəfə susurlar, 28 ildir həsrət qaldığı dağlara boylana-boylana. – Vətənə gedirik, dedim, səhər evdən çıxanda. Çox arzusunda idim, bala. Deyirdim bir quş olaydım, uça-uça gedəydim. Balamın qəbrini görüb, sonra gəlib ölərdim. Allahdan möhlət istəmişəm ki, qurban olum, mənə möhlət ver, balamın qəbrini görə bilim. Bu gün o gündü. Mənim balam igid oğul olub, bala. Düşmənlə üz-üzə döyüşüb. Ürəyindən vurublar balamı. Səni yanasan ay erməni, səni yanasan, kül olasan. Necə ki yandın. Avqustu 15-də, 93-də şəhid oldu Ramiz. Ya-

dımdadı, göydən od tökülürdü həmin gün. Balamı basdırıb o çıxan Cəbrayıldan çıxdıq. Qaldı burda. Düz 28 ildir Cəbrayıl həsrəti çəkirik. O qədər fəxr edirəm ki, ordumuzla. Onlara qurban olum. Onların qanı ilə aldıq biz torpaqları. Mən baş əyirəm o oğulların da, onları böyüdən anaların da qarşısında. Bu gecə heç bir saat belə yatmamışam. Gözümə yuxu getmədi, ay bala. Bütün gecə Ramizimlə danışmışam. Necə tək qalıb bu qədər vaxtı burda, necə? Yemək, su da gətiriblər özləriylə. Elə qəbrin yaxınlığında da ehsan süfrəsi açıblar. Bir qismətini isə baş daşının yanına qoyacaqlar, ona saxlayacaqlar. Bəlkə də 28 ildə ən ləziz nahar ola bilərdi... Amma heç birinin boğazından bir loxma da keçmədi...

**P.S.** Daxili İşlər Nazirliyinin "İnstagram" sosial şəbəkəsindəki rəsmi səhifəsinə Cəbrayıl rayon sakini olan şəhid anası Güldəstə Ağayevanın adından müraciət daxil olub. Müraciətdə şəhid anası oğlu Ramiz Ağayevin 1993-cü ilin avqust ayının 15-də Cəbrayıl rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə şəhid olduğunu və onun Cəbrayılda dəfn olunduğunu qeyd edib. G.Ağayeva Cəbrayıl rayonu işğal olunandan sonra 28 ildir ki, doğma torpağını yenidən görmək və oğlunun məzarını ziyarət etmək həsrəti ilə yaşadığını bildirib. Güldəstə ana müraciətinin sonunda Nazirliyin rəhbərliyinin onun 84 yaşının olmasını nəzərə alaraq Cəbrayıl rayonuna səfər etməsinə icazə verilməsini xahiş edib. Müraciət dərhal nazirliyin rəhbərliyinin nəzarətinə götürülərək əvvəlcə şəhid Ramiz Ağayevin Cəbrayıl rayonundakı məzarının tapılması təmin edilib. Şəhid məzarının və yerləşdiyi ərazinin minalardan təmizlənməsi üçün lazımı tədbirlər görülüb. Müvafiq təhlükəsizlik tədbirləri gözlənilməklə Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Güldəstə ana və onun ailə üzvlərinin Cəbrayıl rayonuna səfəri təşkil edilib.

*Səbuhi Məmmədli*

## Ramiz AĞAYEV



Ramiz İmamverdi oğlu Ağayev 1993-cü iliyulun 25-də Binəqədi rayonunun Biləcəri qəsəbəsində anadan olub. Subay idi.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Ramiz Ağayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələritərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ramiz Ağayev noyabrın 7-də Şuşa döyüşlərizamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Ramiz Ağayev ölümündən sonra- "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

*Gülşən Kəngərlinskaya*



## Ramiz MUSTAFAYEV



Mahnur Mustafayeva: Bu şəhid mənim oğlumdur. Mustafayev Ramiz Bağman oğlu. Əslən Qərbi Azərbaycanlıyıq. Istəyirəm ki, doğma elim-obam öz şəhidini tanısın, allah bütün şəhidlərimizə rəhmət eləsin.

Mustafayev Ramiz Bağman oğlu 11 may1989-cu ildə Ağstafa rayonunda anadan olub. Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, baş sürücüsü olub. 28.01.2021 ci ildə Kəlbəcərdə Ömər aşırımında şəhid olub. 2-ci Qarabağ müharibəsində iştirakçı olub, daim öz yoldaşları arasında seçilib, hər kəs tərəfindən sevilən, ən əsası Vətəninə çox bağlı, bir insan olub.

2 övladı var, övladlarını da özü kimi Vətəninə bağlı böyüdürdü. Şəhid olduqdan sonra Cənnətdəki ilk doğum günündə yəni, 11.05.2021 tarixində Ağstafada Vurğun qəsəbəsində küçəyə adını veriblər. Ramiz çox igid oğlan olub, eyni ilə digər şəhid olan qardaşlarımız kimi.

*Gülşən Kəngərlinskaya*



## Rasim ABDULLAYEV



Rasim Abdullayev 1975-ci il fevralın 21-də Kəlbəcər rayonunun Milli kəndində Yaqub Abdullayev və Nübar Qasımovaların ailəsində anadan olub. Onun nəsli 1918-ci ilə qədər Dərələyəzdə məskunlaşmış, 1918-ci ildə ermənilər tərəfindən Azərbaycanlıların kütləvi şəkildə deportasiyası zamanı yurdlarından qovularaq Kəlbəcər rayonunun Milli kəndində məskunlaşmışlar. Rasim Abdullayevin ailəsində 7 nəfər olub – özü, atası Yaqub, anası Nübar, qardaşı Əvəz və bacıları Yeganə, Aybəniz, Əntiqə. 1993-cü ilin aprelin 2-də Kəlbəcər rayonunun Milli kəndinin Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilməsi nəticəsində Rasim və ailəsi qaçqın həyat tərzi sürməli olur. 2016-cı ilin 2–5 aprelində baş verən Aprel döyüşləri zamanı yaralı hərbçilərə döyüş meydanındaca tibbi yardım göstərmişdir. 2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsində hərbi tibb qulluqçusu kimi iştirak edən Rasim Abdullayev Hadrut qəsəbəsi və Şuşa istiqamətində 100-dən çox ağır yaralı zabitə yerindəcə tibbi yardım göstərmişdir. Yeni-yeni azad edilən, təhlükəli və döyüşdə ən qaynar nöqtələr olan yerlərdə qalmış hərbçilərə də ilk tibbi yardım göstərmişdir. Vətən müharibəsinin son dəqiqələrində Komandanlıq tərəfindən verilən Şuşa istiqamətində ağır yaralı zabitlərə ilk tibbi yardım göstərmək tapşırığını yerinə yetirdiyi zaman Xocalı rayonunun Çanaqçı kəndində Ermənistan Ordusunun zabitləri tərəfindən pusquya düşürülərək aldığı yaralardan şəhid olmuşdur. O, Azərbaycanın hərb tarixində və Vətən müharibəsi tarixində şəhid olan ən yüksək rütbəli tibb xidməti qulluqçusudur.

*Eyvaz Əyyub*

## Rasim RAMAZANOV



Xalqımızın istiqlal tarixi şəhidlərimizin birbaşa adı ilə bağlıdır. Torpaqlarımızın qorunması, vətənimizin müdafiəsi uğrunda həyatından keçərək şəhidlik mərtəbəsinə yüksəlmək böyük şərəf və qürurdur. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Ermənistan tərəfindən törədilən terror və işğalçılıq cəhdlərinə qarşı millətimiz həmrəy olaraq vətən uğrunda düşmənə qarşı mübarizəyə qalxmışlar. Bu müharibələrdə minlərlə qəhrəman oğul və qızlarımız şəhadətə yüksəlmişlər.

Şəhidlik şərəfli ölümə şüurlu şəkildə can atmaqdır. İllər, əsrlər keçsə də, heç zaman unudulmayacaq şəxslərdir şəhidlər. Bu zirvəyə yol Vətəni, Torpağı, Milləti canından da çox sevməkdən keçir. Bu yol ali bir yoldur. İslam alimlərinin bildirdiyinə görə şəhidlər həyatlarını haqq yolunda fəda etdiklərinə görə Allah onlara dünya həyatına bənzəyən, lakin kədərsiz və qəmsiz bir həyat, bərzəx aləmi deyilən bir həyat ehsan edər. Onlar özlərini ölmüş hiss eləmirlər. Lakin daha yaxşı bir aləmə getdiklərini bilirlər, tam bir səadətlə ləzzət alaraq ölümdəki ayrılığın acısını hiss etmirlər.

Peyğəmbərimiz (s.a.v.) şəhidliyin nə demək olduğunu dəyərli hədislərində bizlərə açıqlamışdır: “Cənnətə girən heç bir kimsə yer üzündəki hər şey özünün olsa belə, dünyaya geri dönməyi arzu etməz. Ancaq şəhid müstəsna! Şəhid gördüyü aşırı etibar və ikram səbəbi ilə təkrar dünyaya dönməyi və on dəfə şəhid olmağı istəyər” .

II Qarabağ müharibəsi şanlı tariximizdə qəhrəmanlarımızın göstərdiyi igidliklərə ən gözəl nümunədir. 27 sentyabr 2020-ci il tarixdə Azərbaycan Prezidenti, Azərbaycan Silahlı Qüv-

vələrinin Ali Baş Komandanı Cənab İlham Əliyevin rəhbərliyi ilə başlanan və 44 gün davam edən Vətən müharibəsində xalqımızın minlərlə igid övladı ali şəhidlik zirvəsinə ucalmışdır.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin də vurğuladığı kimi qazandığımız qələbədə naxçıvanlılar böyük igidlik və qəhrəmanlıq göstərmişlər.

Ömrünü vətənə fəda edən belə şəhidlərimizdən biri də Ramazanov Rasim İsmayıl oğludur. O, 26 iyul 1998-ci ildə Babək qəsəbəsində anadan olub.İlk təhsilini 2004-2015-ci illərdə Babək rayon Babək qəsəbə 1 №-li tam orta məktəbdə almışdır. Rasim 2016-cı ilin iyul ayında ordu sıralarına çağrılmış, 2017-ci ilin dekabrında hərbi xidməti başa vurmuşdur. 2018-ci ilin sentyabr ayında üç aylıq kurs keçmiş və kursu müvəffəqiyyətlə başa vurduqdan sonra Xüsusi Təyinatlı Qüvvələrdə xidmətə başlamışdır. O, 11 oktyabr 2020-ci ildə könüllü olaraq Vətən Müharibəsinə getmişdir. Babəkin atına qalxan Rasim Füzuli, Cəbrayıl, Hadrut rayonları və Xocavənd rayonunun Tuğ kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Yeri gəlmişkən, Tuğ sözü qədim türk dilində bayraq deməkdir.Rasimi tanıyan əsgər yoldaşları onun haqqında bildirirlər ki, “Rasim igid və fədakar bir oğlan idi. Cəld, qorxmaz və cəsur olduğu üçün bölük komandiri Anar Əliyevlə birgə döyüşə qabaqda gedirdi”.

İgid şəhidimiz 19 oktyabr 2020-ci il tarixdə Xocavənd rayonununTuğ kəndi uğrunda gedən döyüşdə düşmən tərəfindən snayper silahı ilə boğaz nahiyəsindən vurularaq şəhadətə qovuşmuşdur. 13 noyabr 2020-ci il tarixdə şəhidin cənazəsi Bakıda şanlı bayrağımıza bükülərək Naxçıvan Muxtar Respublikasına gətirilmişdir. Naxçıvan Beynəlxalq Hava Limanında qarşılanaraq, doğulduğu ata ocağına gətirilmiş və Babək şəhər qəbristanlığında uğrunda şəhid olduğu torpağa tapşırılmışdır. Subay idi.

İgid şəhidimizi yaxından tanımaq üçün Rasimin ata ocağını soruşuram: “Döngədən get, hansı qapıdan bayraq asılıb o evlər şəhid evləridir!” – deyirlər. Üçrəngli bayrağımıza baş əyib astaca şəhid qapısını döyüb evə keçirəm. Məni qohumlar qarşılayır. Şəhid evini ziyarət edirəm. Bu gün cümə axşamı olduğu üçün Tərlan ana Rasimin məzarını ziyarət etməyə gedib. Gözləyirəm, bir azdan gəlir. Göz yaşlarını ürəyinə axıtsa da, qürurludur. Ürəyimdə deyirəm halal olsun sizlərə, şəhid anaları, hamınız Burla xatun kimi mərd xanımsınız, qəhrəman oğul böyüdübsünüz. Rasimin bəy otağını xatirə otağına çeviriblər. Otağın divarına vurulan ağ rəngli lövhə üzərinə “Mən ölməmişəm, şəhid olmuşam. Mən o vaxt ölərəm ki, sizlər məni unudasınız!” sözləri yazılıb. Üç rəngli bayraq və Rasimə aid olan hərbi geyim vitrindən asılıb. Otaq uşaqlıqdan şəhidliyə qədər çəkilən şəkillərlə bəzədilib. Saat, telefon, eynək, çarpayı və s. əşyalar sanki Rasimi gözləyir. Şəhid anası ilə danışmaq çətindir. Tərlan anadan ehtiyatla Rasim haqqında soruşuram, Tərlan ana deyir: “Hərdən zəng vurub çox qısa danışırdı. Özünüzdən muğayat olun, mama, yaxşıyam sağ olun! Bir dəfə oğlum səngərdən bizə məktub yazıb!”. Şanlı məktubu oxuyuram:



“Şəhid Məktubu!

Canım Anam, ailəm. Yol gedirəm, tapşırığa çıxıram. Nə olacaq bilmirəm, amma qəlbimə, ürəyimə damıb getdiyim yoldan qayıtmıyacam. Amma əgər nəsə olsa, ağlamayın canım atam, anam! Onu bilin ki, siz qəhrəman valideynisiz. Başı dik durun. Mən cənnətdə olacam onda. Anam, bilirəm çətindi. Amma onu da düşünək ki, “Vətən sağ olsun!”. Sən böyütdün boya-başa çatdırdın. Amma vətən üçün, xalq üçün getməliydim. Onu bilin şəhidlər ölməz! Mən yanınızda olacam. Sağ olun. Sizi çox sevirəm. İnşallah cənnətdə görüşərik. Ramazanov Rasim”. İsmayıl ata: “Kiçik Zəhra erməni ordusu tərə-

findən yatdığı yerdə qanına qəltan ediləndə Rasim əsəbiləşərək yumruğunu divara vurub deyirdi: – "Ali Baş Komandan əmr verən gün müharibəyə öndə gedəcəyəm!". Zəhranın və nənəsinin ölümünə çox sarsılmışdı. Onların qisasını almağa çalışırdı. Vətəpərvər oğul idi. Milli Ordumuzu çox sevirdi".

Ata telefonu açır, Rasimin Qarabağda səngərdə əsgər yoldaşları ilə çəkdirdiyi video görüntüyə baxıram. Bu görüntülər ananın gözündən getmir qulaqlarında səslənir. Babəkin varisi olan igidimiz nəsihət edib: "İnşallah yaxşı olar hər şey. Burdan hamını salamlayıram, bəlkə də biz şəhid olduq, heç qismət olmadı. Ama inşallah bizim qohumlar, gələcək nəsillərimiz gəlib bu yerlərdə oturub rahat istirahət edəndə bizə bir "Allah rəhmət eləsin" deyərlər. Hamını öpürəm. İnşallah yaxşıdı, hamımız buradan sağ-salamat qayıdarıq!".

Vətən uğrunda canından keçən qəhrəmanlarımızın göstərdiyi igidliklər  daim dövlətimizin diqqətindədir. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında Sərəncamına əsasən şəhidlərimiz müxtəlif ad, orden və medallarla təltif olunmuşlar. Rasim Ramazanov ölümündən sonra "Vətən uğrunda" "Şuşanın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Xalqımızın azadlığı və torpaqlarımızın ərazi bütövlüyü uğrunda milli mücadiləsində şəhid olan qəhrəmanlarımızın xatirəsi xalqımız tərəfindən ehtiramla yad edilərək, onların ruhlarına dualar oxuyurlar.

Biz sənə borcluyuq Rasim! Sizin kimi igidlərin sayəsində tarixi torpaqlarımız geri qayıtdı. Babək şəhərinin Babək qeyrətli, mərd, igid qəhraman oğlu Rasim Ramazanov dünya durduqca sizin adlarınız Azərbaycan tarixində daim yaşayacaq. Allah, Rasim, sənə və vətən uğrunda canından keçən bütün şəhidlərimizə rəhmət eləsin!

*Kübra Vəliyeva*

## Rauf ƏLİYEV



Şəhid Əliyev Rauf Səxavət oğlu 4 iyun 1994-ci ildə Naxçıvan Muxtar Respublikasının, Culfa rayonunun Əbrəqunus kəndində dünyaya göz açmışdır. Uşaqlıq illərini Bakıda keçirən Rauf ilk təhsilini Nəsimi rayonu M.Hüseynzadə adına 19 nömrəli orta məktəbdə almışdır. Məktəb illərində öz savadı, tərbiyəsi, bacarığı, təşkilatçılığı ilə müəllimlərinin sevimlisi olmuş və dəfələrlə təşəkkürnamələrə və diplomlara layiq görülmüşdür. Oxuduğu müddətdə bütün fənləri sevmiş, xüsusən də xarici dillərə böyük maraq göstərmişdir.

*Torpağı üstündəki firəvan həyat,*
*Torpaq altındakı cana borcludur!*
*Aldığımız nəfəs,hər bəxtəvər səs,*
*Tökülən müqəddəs qana borcludur!*

*Şuşada asılan bayrağa görə,*
*Əsirliyi bitən yarpağa görə,*
*Şəhidim,hər qarış torpağa görə,*
*Bu günüm, sabahım sənə borcludur! ( T.T.Rəhimli)*

Məktəbi bitirdikdən sonra Rauf Azərbaycan Texniki Universitetinin kompüter mühəndisliyi fakültəsinə daxil olur. Universitetidə əla qiymətlərlə oxumuş və əlaçı təqaüdü almışdır.Təhsil aldığı müddətdə xarici dili daha mükəmməl öyrənmək üçün yüksək peşəkarlılığı ilə seçilən kurslara getmişdir. Sonuncu iştirak etdiyi kurs İELTS olmuşdur. Bu kursu da yüksək balla və sertifikatla bitirmişdir. Raufun hər uğuru ailəsini

qürurlandırırdı. Əmin idilər ki, oğulları hər sahədə seçilməyi bacaracaq. Vətənpərvərlik onun canına hopmuşdu sanki. Ömrünün hər yaşında bu vətən üçün bir şeylər etmək istəyirdi. Rauf qarşısına qoyduğu hər məqsədə çatmaq istəyirdi. O, düşünürdü ki, nə qədər çox bilsəm, o qədər çox öyrədə biləcəm. Rauf vətəninə, xalqına hədsiz sevgi ilə bağlı idi.



Torpaqlarımızın işğal altında olması Raufu çox narahat edirdi. Hər birimiz kimi onun da ən böyük arzusu torpaqlarımızı işğaldan azad etmək idi. Bu yolda canından keçməyə, üçrəngli bayrağı üçün ömrünü fəda etməyə çoxdan hazır idi. Nəhayət, gün gəlir Rauf vətənə olan borcunu yerinə yetirmək üçün çağrılır. 2015-ci ildə ən böyük arzusunu reallaşdırmaq üçün qorxmadan cəbhəyə yollanır. Rauf çox xoşbəxt idi, yaxınları ilə vidalaşan zaman bu sözləri dilə gətirir: "Əgər bu torpaqda yaşayırıqsa, bu torpağı qorumaq boynumuzun borcudur. Mən qürur hissi keçirirəm ki,Vətəni qoruyacam". Elə ilk günlərdən kollektivin hörmətini qazanan Rauf tapşırılan bütün işləri böyük həvəslə yerinə yetirir. Raufun əsgərlik həyatı şanlı "Aprel döyüşləri"nə təsadüf edir. Digər əsgər yoldaşları ilə birlikdə bu döyüşdə də yüksək qəhrəmanlıq göstərmişdir. Füzuli istiqamətində, Lələtəpə yüksəkliyinin alınmasında fəallıq göstərmişdir. Müdafiə Nazirliyi tərəfindən fəxri fərmana layiq görülmüşdür.Əsgərlikdən qayıtdıqdan sonra ilk iş həyatına Ultra texnoloji şirkətində başlamışdır. Şirkətdə bir neçə proyektlər hazırlamış və işləri yüksək qiymətləndirilmişdir. Bununla yanaşı "Celt" dil kursunda ingilis dili müəllimi kimi fəaliyyət göstərmişdir. Özünü inkişaf etdirmək məqsədilə yenidən imtahan verib Azər-Türk bankına daxil olmuşdur. Burada ASC-nin Rəqəmsal Transformasiya Mərkəzində çalışmış və bir çox uğurlara imza atmışdır. Müharibə

başlamazdan əvvəl Respublika bankında işə qəbul olmuş, lakin burada işləmək ona qismət olmamışdır.28 sentyabr 2020-ci il Rauf vətənə olan son borcunu yerinə yetirməyə getdi. Vətən darda idi, Rauf mütləq orda olmalı idi. Bu dəfə də Füzuli, Cəbrayıl, Hadrut, Xocavənd istiqamətində döyüşlərdə iştirak etmişdir. Vətən Müharibəsində böyük hünər və rəşadət göstərərək komandirlərin rəğbətini qazanır. Rauf son damla qanına kimi dayanmadan vuruşur, şəhadət şərbətini içməyə hər an hazır idi. Torpaqlarımızın işğaldan azad edilməsində çox böyük şücaət göstərən Rauf 21 oktyabr 2020-ci ildə Şəhidlik zirvəsinə ucalır.

Onu da qeyd edim ki, Raufun musiqiyə də böyük marağı var idi. O, bu sahədə də öz üzərində çalışırdı. Rauf öz asudə vaxtlarını gitara çalır, müxtəlif nəğmələr ifa edir və bunları videoya çəkirdi. Xüsusilə vətənpərvər mahnılara daha çox diqqət yetirirdi. Həqiqətən, Rauf hiss etmişmiydin böyük eşqlə oxuduğun o mahnılar bir gün sənin üçün də oxunacaq? Çəkdiyin o videolarla, 26 illik ömür dastanınla və səmimi dostluğunla əbədi xatirəmizdə qalmağı hiss etmişmiydin?

Raufun xatirəsini əbədiləşdirmək üçün sevdikləri tərəfindən yaşadığı binada xatirə lövhəsi inşa edilmişdir.

Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev sərəncamına əsasən Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlara görə Əliyev Rauf Səxavət oğlu ölümündən sonra “Vətən uğrunda” medalına layiq görülmüşdür.

*Ləman Dadaş Mövlanova*

## Rauf ƏSGƏROV




Əsgərov Rauf Vaqif oğlu 2 noyabr 1978-ci ildə Gəncə şəhərində doğulub. 44 nömrəli tam orta məktəbdə oxuyub. Azərbaycan Dövlət Aqrar Universitetini bitirib.

Rauf Əsgərov sağlığında xeyirxahlığı ilə Gəncədə sevilən şəxslərdən olub. O, "Varındır ver, yoxundur götür" xeyriyyə mağazasına daim yardımlar edib. Anası Briliyant Əsgərovanın dediyinə görə, yas məclisində tanımadığı adamlar gəlib Hacı Raufun onlara etdiyi yardımlardan danışıblar. Halbuki bunlardan nə ailəsinin, nə də yaxınlarının xəbəri olub. Özünə məxsus atı belə satıb, başqa bir şəxsin borcunu ödəyib. Vətənpərvərlik hissi Raufda hələ uşaq yaşlarından özünü göstərib. 20 Yanvar hadisələrindən sonra o, təhsil aldığı məktəbin rus bölməsindən çıxıb. Uşaq olsa da, "meydan hərəkatları"na qoşulub. "Tovuz hadisələri"ndən sonra könüllü şəkildə Orduya yazılıb. "AzerGold" QSC-nin Təmir-tikinti və Energetika Şöbəsinin Generator sahəsi üzrə rəisi vəzifəsində çalışan Rauf Əsgərov Vətən müharibəsi başlayanda işini, ailəsini geridə qoyaraq döyüşə yollanıb. Füzulinin bir sıra kəndlərinin alınmasında igidlik göstərən baş leytenant 26 oktyabr 2020-ci ildə Mərdinli kəndində şəhid olub. 3 övladı Vətənə yadigar qalıb.

Rauf Əsgərov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

*Fəridə Qədimova*

## Rauf QURBANOV



Rauf Vahid oğlu Qurbanov 15 sentyabr 1995-ci ildə Şərur rayonu Ələkli kəndində anadan olub. 2001-2011-ci illərdə Ələkli kənd tam orta məktəbi və Vər-məzyar kənd tam orta məktəbində ilk orta təhsili alıb. 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Oranı yüksək nəticələrlə - Fəxri fərmanla bitirib, 2014-2018-ci illlərdə isə Azərbaycan Ali Hərbi Akademiyasında təhsil alıb. 2018-ci ildə Leytenant hərbi rütbəsini alaraq ilk təyinatı olan "N" saylı hərbi hissəyə göndərilir. O, geniş dünyagörüşünə malik idi. Rus və ingilis dillərində səlis danışa bilirdi. Xidmət etdiyi müddətdə də daim öz cəsarəti və qəhrəmanlığı ilə seçilib. Yüksək rütbəli erməni zabitini məhv etməsidə onun belə qəhrəmanlıqlarından biri idi. Bu hadisə hələ II Qarabağ müharibəsi başlamamışdan öncə baş verib. Ailəsi deyir ki, buna görə onu təltif edəcəkdilər, lakin müharibənin başlaması və döyüşlərə yollanması ilə hər şey unuduldu.Sentyabr 27-də bütün hərbiçilər kimi Rauf da cəbhə istiqamətinə yol alır. Raufun icra etdiyi son vəzifəsi Taqım komandiri vəzifəsi olur. Döyüşlərin qaynar vaxtlarında daim ön cəbhədə vuruşur və ayağından yaralanır. İki gün arxa cəbhədə olur. Amma onu orada tuta bilmirlər, öndə vuruşmaq istədiyini bildirir. O, ailəsi ilə son dəfə oktyabrın 5-də danışıb. Ailəsinə deyib ki, "bəlkə, döndük, bəlkə, dönmədik, hər şey ola bilər, mənə halallıq verin". Qəhrəman Raufumuz Füzuli şəhərinin işğaldan azad edilməsi uğrunda gedən qızğın döyüşlər zamanı böyük şücaət göstərərək özünü əsgərinə atılan güllənin qabağına verir və ağır şəkildə yaralanır. Lakin qan içində olmasına baxmayaraq mübarizəni buraxmayan Rauf öz dəstəsi

ilə birlikdə irəliləməyi bacarır. Füzuli şəhəri 17 oktyabrda işğaldan azad edilir, 18 oktyabrda isə Rauf Şəhidlik şərbətini dadaraq adını qəhrəmanlar sırasına yazdırır.

Onlar ailədə iki qardaş olublar, böyük qardaş isə Rauf idi. Şəhid qardaşı haqqında danışan Rəşad Qurbanov onu belə xatırlayır: "Onun bütün hisslərinin ən alisi vətənpərvərlik hissi idi. Mehriban və gülərüz idi mənim qardaşım. Evə məzuniyyəti son dəfə 2020-ci ilin yanvar ayında olmuşdu. Son dəfə onda görmüşdük Raufu...". Rauf onu tanıyan hər kəsin qəlbində mehriban və gülərüz, zarafatcıl olaraq əbədi taxt qurub. Və o özünə layiq məqama da ucaldı. İndi onun və onunla birlikdə şəhid olan döyüş yoldaşlarının uğrunda can verdiyi bütün torpaqlar artıq Ana Vətənə qo-vuşub. Onların qanı alınıb. Noyabrın 20-də evliliyinin ilk ili tamam olacaqdı, amma bu günü görmək ona qismət olmadı. Rauf noyabrın 6-da Şərur rayonu Şəhidlər Xiyabanında dəfn edildi.

Rauf Qurbanov şəhidlik zirvəsinə ucaldıqdan sonra Cənab Prezident İlham Əliyevin 15 dekabr tarixli sərəncamına əsasən "Vətən uğrunda" medalı ilə təltif edilib.

*Məleykə Mirzəli*

# Rəhilə ORUCOVA



Rəhilə Orucova döyüş yoldaşları ilə birgə. Tərtər batalyonu, Birinci Qarabağ Müharibəsi. Rənglənmiş foto. Original fotonun müəllifi Mehdi Abbasov.

Orucova Rəhilə Əli qızı 1965-ci il sentyabrın 25-də Göyçə mahalının Ardanış kəndində dünyaya gəlib. 1981-ci ildə 1 nömrəli Bakı Tibb məktəbinə daxil olmuş, texnikomu bitirdikdən sonra əvvəlcə Bakı təcili yardım xəstəxanasının reanimasiya şöbəsində, sonra isə Qədirli adına xəstəxanada fəaliyyətə başlamışdır. Müharibə başlayan zaman Rəhilə Orucova Milli Orduya könüllü yazılmışdır. Ön cəbhədə həm könüllü tibb bacısı kimi, həm də sıravi bir əsgər kimi vuruşurdu. 1992-ci il mayın 11-də Ağdərə rayonunun Mərguşəvan kəndi uğrunda döyüşdə qəhrəmancasına həlak olmuşdur. Rəhilə Orucova mayın 13-də Şəhidlər Xiyabanında dəfn olunan ilk döyüşçü qadındır. 1992-ci il sentyabr ayında 109 nömrəli məktəbə şəhid Rəhilə Orucovanın adı verilmiş və büstü qoyulmuşdur.

*Rəsul Həsən*

## Rəhim HÜSEYNOV



Şəhid Hüseynov Rəhim Qədiroğlu 1 iyul 1984-cü ildə Zərdab rayon Gəlmə kəndində anadan olub. İlk təhsilini Gəlmə kənd orta məktəbində almışdı. Məktəb illərində tərbiyəsi, bacarığı, savadı ilə müəllimlərin sevimlisi idi. Uşaq yaşlarından mərdliyi, vətənpərvərliyi ilə yaşıdlarından seçilirdi. O, Vətəninə hədsiz sevgi ilə bağlı idi. Vətənini hər şeydən üstün tuturdu.Hərb sənətinə sonsuz maraq və istəyi sayəsində 1998-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olur. Liseydə oxuduğu müddətdə nümunəvi davranışı ilə seçilən Rəhim yoldaşları ilə yanaşı, müəllimləri tərəfindən də sevilirdi. 2001-ci ildə liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Akademiyasına daxil olur. 2006-cı ildə Akademiyanı fərqlənmə ilə bitirmişdir. O, Çexiya, Almaniya, Macarıstan, Amerika və Türkiyədə hərbi kurslarda iştirak edir. Rus, ingilis, hətta erməni dilini mükəmməl öyrənmişdir. Uzun müddət Əfqanıstanda sülhməramlı qoşunların tərkibində Tabor komandiri vəzifəsində xidmət etmişdir. Bu müddət ərzində bir çox döyüş medalları və fəxri adlarla təltif olunur. Bu müddət ərzində ailəsi Rəhimi yaxından dəstəkləyir, onunla qürur duyur.

O, qəhrəman və sözün əsl mənasında peşəkar, hərb sənətini mükəmməl şəkildə mənimsəmiş Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenant rütbəli zabiti idi. Rəhim işğal altında olan Vətən torpaqlarının həsrətini çəkirdi. Ən böyük arzusu torpaqlarımızı işğaldan azad etmək idi. O, bu yolda canından keçməyə hazır idi. Rəhim Hüseynov 2020-ci il sentyabrın 27-də vətənə olan son borcunu yerinə yetirməyə gedir. İkinci Qarabağ

müharibəsi zamanı Zəngilanın düşməndən azad edilməsində öz igidliyi ilə seçilir, döyüş yoldaşları ilə birgə ən çətin əməliyyatlarda iştirak edərək əsl qəhrəmanlıq nümunəsi göstərmişdir. 20 oktyabr günü Şəhidlik zirvəsinə ucalır. Vətən və millət yolunda öz istəyi ilə canından keçməyə razı olan insanların fəth etdiyi ən yüksək, şərəfli zirvədir şəhid olmaq. Məhz onların canı və qanı hesabına qazandıqları azadlıq və müstəqillik xalq tərəfindən heç vaxt unudulmur. Ona görə ki, şəhidlər xalqın kimliyini, mənliyini qoruyan insanlardır.

Prezident İlham Əliyevin 09 dekabr 2020-ci il tarixli sərəncamına əsasən şəhidimiz Rəhim Hüseynov ölümündən sonra "Qarabağ" ordeni ilə təltif edildi. Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli sərəncamına əsasən Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlarına görə şəhidimiz Rəhim Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Şəhidlikləri ilə bizə zəfər sevinci yaşadan oğullarımız, heç vaxt unudulmayacaqsınız! Allah bütün şəhidlərimizə rəhmət eləsin!

*Torpaq üstündəki firavan həyat,*
*Torpaq altındakı cana borcludur!*
*Aldığımız nəfəs, hər bəxtəvər səs,*
*Tökülən müqəddəs qana borcludur!*

*Lamiyə Sultanova*

## Rəşad AĞAYEV



Ağayev Rəşad 2 iyul 2000-ci ildə Bakı şəhərində anadan olmuşdur. Evin tək oğlu olan Rəşad, 2006-ci ildə Binəqədi rayon 283 saylı tam orta məktəbdə təhsil almışdır. Hərbiyə marağı elə həmin dövrlərdən başlamışdır. Bundan başqa, onun rəsmə, musiqiyə, şahmata və komputer oyunlarına marağı var idi. 2016-cı ildə orta məktəbi bitirmiş, 7 saylı Bakı Peşə Liseyinə, 2018-ci ildə isə "STEP" Akademiyasının "Programist-dizayner" ixtisasına qəbul olmuş, 2019-cu ildə həmin Akademiyanı bitirmişdir. Daha sonra, 04 iyul 2019-cu ildə Mingəçevir şəhərinin "N" saylı hərbi hissəsinin XTQ-nin kəşfiyyat bölümündə hərbi xidmətə yollanmışdır. Rəşad döyüşlərdə hər zaman ön sıralarda getməyi özünə şərəf bilmişdir. Həmişə düşməni əzmək əzmi ilə yaşamış və buna nail olmuşdur. O, 2020-ci il iyul döyüşlərində də iştirak etmişdir. Tapqaraqoyunluda, Talış yüksəkliyində, Təkər postu və Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə və Suqovuşana ilk Azərbaycan bayrağının sancılmasında fəal iştirak etmişdir. Gərgin gedən döyüşlərin birində yaralanmasına baxmayaraq, yenidən döyüşlərə qoşulmuş və ön cəbhədə vuruşmuşdur. Sonuncu dəfə Ağdərə istiqamətində gedən döyüşlərdə yaralı əsgər yoldaşlarını xilas edərkən qəhrəmancasına həlak olmuş və Şəhidlik Zirvəsinə ucalmışdır. Rəşad Ağayev ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

*Gülşən Kəngərlinskaya*

## Rəşad ATAKİŞİYEV




Rəşad Saləddin oğlu Atakişiyev 1985-ci il yanvar ayının 7-də Şəmkir rayonunun Pravda (hazırkı Qılıncbəyli) kəndində anadan olub. Ailədə üç qardaş olublar.

O, ilk təhsilini Şəmkir rayonunun Şöhrət Hüseynov adına Qılıncbəyli kənd tam orta məktəbində, daha sonra Samux rayonunun Alabaşlı kənd orta məktəbində alıb. Rəşad Atakişiyev oxuduğu müddətdə təlim-tərbiyəsi, bilik və bacarığı ilə seçilib. Orta məktəbi yüksək qiymətlərlə bitirən Rəşad, ali təhsil almaq arzusu ilə 2002-ci ildə Azərbaycan Ali Hərbi Təyyarəçilik məktəbinə üz tutub. O, 2006-cı ildə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbini "Uçuş Mühəndisi" ixtisasına yiyələnərək yüksək nəticələrlə başa vurub. İkinci kursda oxuyan zaman ilk dəfə ixtisaslaşma tətbiq olunub və aviasiyaya sənəd vermiş 200 nəfər arasında Rəşad da olub. Seçilmiş 35 nəfərlə birgə təhsil alan Atakişiyev diplom alan cəmi 5 nəfərdən biri olmağı bacarıb.

O, 2001-ci ildən pilot kimi fəaliyyətə başlayıb, əldə etdiyi bilik və bacarıqları sayəsində polkovnik-leytenant rütbəsinə qədər yüksəlib. Qısa zaman ərzində təcrübəli pilotlar sırasına və hərbi hissə komandirinin müavini vəzifəsinə yüksələn Rəşad Atakişiyev 2018-ci ilin oktyabrında Real TV-də yayımlanan "Şahinlər" filmində iştirak edərək, havada ən çətin, təhlükəli manevrlərin öhdəsindən gəlib. Həmçinin Azərbaycan Ordusunun 100 illiyi ilə bağlı keçirilən paradda səmada bacarıqlarını göstərib. Ayrıca Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin "Turaz Qartalı" devizi altında keçirilən birgə tak-

tiki-uçuş təlimlərində iştirak edib. Rəşad Atakişiyev politoloq Qabil Hüseynlinin kürəkəni idi. İki oğlu vardır.




Bakı vaxtı ilə iyul ayının 24-ü saat 22.00 radələrində plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları keçirən Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus MiQ-29 təyyarəsi ilə qəflətən rabitə əlaqəsi kəsilmiş və aviasiya vasitəsi radarlardan itmişdir. Təyyarə Xəzər dənizinə düşüb. Qəza nəticəsində təyyarənin pilotu, polkovnik-leytenant Rəşad Atakişiyev itkin düşmüşdür. Təyyarənin axtarış ərazisinin təxmini sahəsi 600 kvadrat kilometr, dərinliyi 40 metrə qədər olub. Təyyarə və pilotun axtarışları üçün Türkiyə və Rusiyadan mütəxəssis və avadanlıqlar cəlb olundu.

Azərbaycan Müdafiə Nazirliyinin avqustun 19-da verdiyi məlumata görə təyyarənin qara qutusu tapılmışdır.

20 avqust tarixində isə pilotun nəşi tapılmışdır. 21 avqust tarixində Rəşad Atakişiyevin nəşi ikinci Fəxri xiyabanda dəfn edilmişdir.

07 may 2021-ci ildə Hərbi Pilot Polkovnik Leytenant Rəşad Atakişiyevə Şəhid statusu verilmişdir.

*Fəridə Qədimova*

## Rəşad ƏLƏKBƏROV

***Faiq Ələkbərli:*** *"Anasının bütün israrlarına baxmayaraq Rəşad könüllü olaraq müharibəyə getdi".*



*"Rəşad Şuşa döyüşlərində yaxından iştirak edib və Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub".*

Mənəvi zirvələr fəthedilməzdir, o zirvələrə ucalan Vətən oğullarının yenilməz inadı, sarsılmaz əzmi, dəmir iradəsi, Vətən eşqi və fədakarlığı, qəhrəmanlığı kimi. Şəhidliyin ənginliklərinə, zirvəsinə qəhrəmanlıqla ucalan oğullarımız fəthedilməzdir. Bu fəthedilməz oğullarımızın canı, qanı bahasına Vətən Müharibəsində - Qurtuluş Savaşında zəfər qazanmışıq.

Şəhidlik elə bir zirvədir ki, o ənginliyə ucalmaq hər insana qismət olmur. Bəlkə də, yüzlərlə, minlərlə insan var ki, Tanrının onu şəhidliklə mükafatlandırmasını arzulayır, amma onlara şəhidlik nəsib olmur. Ancaq Tanrının bu uca və ulu, əbədi zirvəyə yüksəltdiyi Ələkbərov Rəşad İlqar oğlu kimi oğullarımız da çoxdur. Tovuz cəbhəsində baş verən erməni təxribatı "yatmış vulkan" misalı oğullarımızı qəzəb atına mindirdi, nəhayət düşmənə həddini bildirməyin zamanı gəldiyini təlqin etdi. Bu oğullar illərdir ki, düşmənlə haqq-hesab çəkmək, ondan öc almaq, torpaqlarımızı işğaldan azad etmək gününün yaxınlaşdığını ruhları, ürəkləri ilə hiss edirdilər. Rəşad da o oğullardan biri idi. Ermənistanın təxribatçı qruplarının Tovuz cəbhəsində yeni işğalçılıq niyyətlərini gerçəkləşdirmək məqsədilə təxribatlara başlaması Rəşadı yerindən oynatdı. O minlərlə, on minlərlə gənclərimiz kimi hərbi komissarlığa gedib qeydiyyatdan keçdi və cəbhəyə çağırılcağı günü səbrsizliklə

gözləməyə başladı. Səbr kasası daşırdı artıq, heç cür özünə yer tapa bilmirdi. Düşmən Tovuz cəbhəsində layiqli cavabını alıb böyük itkilərlə geri çəkilməyə məcbur edildi, amma Rəşad yenə də cəbhəyə çağırılacağı günə ümidini itirmədi və nəhayət ki, onminlərlə Vətən fədailərindən biri kimi Rəşad da düşmənə qan uddurmaq üçün döyüş cəbhəsinə atıldı. Nəsli-kökü Gədəbəy rayonu ilə bağlı olan Ələkbərov Rəşad İlqar oğlu 1997-ci il sentyabrın 15, Azərbaycan tarixi üçün çox önəmli olan tarixi bir gündə Azərbaycan Xalq Cumhuriyyətinin birinci paytaxtı Gəncə şəhərində anadan olub. Gəncə şəhəri 44 saylı orta məktəbi bitirdikdən sonra, 2017-ci ildə hərbi xidmətə gedib, Ağcəbədidə hərbi xidmətə başlayıb və Füzulidə hərbi qulluğunu başa vurub.

Rəşad Ələkbərovun dayısı Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, ehtiyatda olan zabit Faiq Ələkbərli Rəşaddan danışarkən həm qüssəsini, həm də qürur hissi keçirdiyini gizlədə bilmir. Faiq müəllim deyir ki, Rəşad Tovuz hadisələrindən sonra Gəncə şəhəri Kəpəz rayon hərbi komissarlığına gedərək qeydiyyatdan keçib. Vətən Müharibəsi başlayan kimi yenidən hərbi komissarlığa gedir və müharibədə iştirak etmək üçün müraciət edir. Bacısı oğlunun Qurtuluş Savaşına digər gənclərimiz kimi könüllü getdiyini deyən F.Ələkbərlinin sözlərinə görə, sentyabrın 29-da Rəşad Ələkbərov ön cəbhəyə gedib. “Bilirsiz ki, Vətən Müharibəsi ilə əlaqədar ölkəmizdə qismən səfərbərlik elan edildi, onlarla, on minlərlə gənclərimiz kimi, Rəşad da könüllü olaraq cəbhəyə gedib. Cəbhəyə getməmişdən əvvəl Şəmkirdə yerləşən “N” saylı hər-bi hissədə hərbi təlimdə olub, sonra cəbhəyə aparıblar. Rəşad ailənin yeganə övladı olub, özündən başqa nə bacısı, nə də qardaşı var. Rəşadın anası, mənim bacım Nailə Ələkbərova özü də Birinci Qarabağ Müharibəsinin iştirakçısı olub. 1992-1993-cü ildə Tərtər və Ağdərə cəbhəsində döyüşüb. Sonra düşmən tərəfindən

atılan və onun yaxınlığına düşən düşmən mərmisin-dən yaralnıb. Yaralandıqdan sonra, 1993-cü ildə Gəncə şəhər Kəpəz rayonu hərbi komissarlığı tərəfindən bacıma veteran vəsiqəsi verilərkən orada üzləşdiyi neqativ hallar nəticəsində ona verilən vəsiqədən imtina edir, lakin iki il əvvəl yenidən veteran vəsiqəsi almağa nail olur. Bacım Nailə Qəzənfər qızı Ələkbərova da Birinci Qarabağ Müharibəsi veteranıdır, hazırda Gəncədəki alminum zavodunda işləyir. Rəşad evin tək övladı olduğu üçün anası ona deyib ki, mənim səndən başqa dayağım yoxdu, sən müharibəyə getsən mənə kim həyan olacaq? Rəşadda anasına deyib ki, yaxşı, mən getməyim, sən getmə, başqaları getməsin, bəs onda kim bu vətəni, bu milləti qorusun, torpaqlarımızı işğaldan azad etsin. Anasının bütün israrlarına baxmayaraq Rəşad könüllü olaraq müharibəyə getdi.

Rəşad ailənin tək oğul övladı olmasına baxmayaraq ön cəbhəyə getməkdən heç cür çəkinməyib, özü bunu israr edib. Baxmayaraq ki, onun ailənin tək övladı olduğu üçün birbaşa ön cəbhəyə, Qarabağ cəbhəsinə yox, Qazaxa, Tovuza, cəbhədən kənar yerlərdə xidmət etmək şansı olub, ailənin tək övladı kimi o bu şansdan yararlana bilərdi. Amma bütün hallarda ön cəbhəyə getmək, düşmənlə qaynar döyüş nöqtələrində döyüşmək istəyib. Rəşad Füzulidə, Hadrutda, Xocavənddə, Daşaltı, Şuşa və Xankəndindəki döyüşlərdə qəhrəmanlıqla döyüşüb, bu şəhərlərimizin, və bir sıra kəndlərimizin işğaldan azad edilməsində fədakarlıqlar göstərib. Oktyabrın əvvəllərindən şəhid olana qədər 1 aydan çox müharibədə iştirak edib, Hadrutun, Xocavəndin, Xocalının kəndlərinin alınmasında son damla qanına qədər vuruşub. Rəşad Şuşa döyüşlərində yaxından iştirak edib və Şuşanın azad olunması uğurunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Sonuncu dəfə əlaqə saxlayıb dayısı ilə telefonla danışarkən deyib ki, Xankəndinin bir addımlığındayıq, Xankəndindəyik, Xankəndi də Gədəbəymiz kimi gözəl bir yerdir. Çox güman ki, Rəşad Xankəndi yaxınlığında şəhid olub.

Onunla bağlı məlumat noyabrın 7-də axşam tərəfi alı-nıb. Amma 8-9 noyabr tarixində ondan heç bir xəbər gəlmədi. Bilirik ki, noyabrın 7-də 8-də ordumuz Şuşada idi, döyüşlər artıq Xankəndinə yaxınlaşırdı. Sadəcə, noyabrın 8-də təmizləmə əməliyyatı başa çatdıqdan sonra Şuşanın işğaldan azad olunmasını dövlət başçısı elan etdi. Noyabrın 7-si axşamı Şuşa işğaldan azad olunmuşdu və Xankəndinə yaxınlaşırdıq. Biz ayın 7-dən sonra ondan heç bir məlumat ala bilmədiyimiz üçün güman edirik ki, Rəşad noyabrın ya 8-də, ya da 9-da şəhid olub. Rəşadın şəhid olması xəbərini biz noyabrın 11-də eşidik. Bu barədə bibim oğlu Mahirə, qardaşım Fazilə məlumat verilib. Noyabrın 12-də Rəşadın dayısı Fazil, böyük qardaşım İlhamın oğlu Ceyhun və bibimiz oğlu Mahir və digər qohumlar Füzuliyə gedib oradan şəhidimizin nəşini Gəncə şəhərinə gətiriblər. Rəşadı noyabrın 12-də Gəncənin Şəhidlər xiyabanında dəfn etdik. Mən də həmin vaxt artıq Gəncədə idim. Biz şəhidimizi uğrunda canını fəda etdiyi Vətən torpağında dəfn etdik. O, Vətənə olan sevgisini hər şeydən üstün tutdu və qəhrəmancasına şəhidlik zirvəsinə qovuşdu".

F.Ələkbərli bildirdi ki, müharibədə R.Ələkbərovun komandiri Qudbiddin Qoçiyev olub və ilk gündən Rəşad Şuşa uğrunda gedən döyüşlərdə şəhid olana qədər bir yerdə olublar. "Rəşadın komandiri mənimlə söhbətində onun Hadrutda, Xocavənddə, Daşaltıda və Şuşada qəhrəmancasına döyüşdüyünü deyib. Rəşadın döyüşçü yoldaşı Sədiyar Musayevlə də danışmışıq. Sədyar da mənə dedi ki, Rəşad sona qədər igidliklə döyüşüb, bütün döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirib. Döyüşçü yoldaşı onu da dedi ki, Rəşadın sürücülük qabiliyyəti olduğu üçün lazım gələndə hərbi maşınların vasitəsilə əsgərlərin yerdəyişməsi prosesində fəallıq göstərib, xüsusilə də, Daşaltı və Şuşa döyüşlərində fərqlənib və sair. Ümid edirəm ki, Rəşad İlqar oğlu Ələkbərova dövlətimiz tərəfindən "İgidliyə görə" orden verilər. Eyni zamanda Rəşadın adının oxuduğu məktəbə

verilməsini arzulayırıq" – deyə F.Ələkbərli bildirdi. Ömrün qısa olsa da, müharibənin odundan-alovun keçib səni qəhrəmana çevirən həyat dastanın hələ neçə-neçə illər, əsrlər dillərdən düşməyəcək, səni yaşadacaq, sənin arzularını, ananın səninlə bağlı arzularını solmağa qoymayacaq, Rəşad! Anan Nailə xanım ağlayır, onun yanağına süzülən göz yaşları acılı və qürurludu, Rəşad! Acıdır ona görə ki, tək ümidini, evinin dirəyini, dar gününün gərəyini itirib, ocağının bircə yanan çırağı sönüb. Ananın göz yaşları ona görə qürurludur ki, onun oğlu müzəffər, qalib qəhrəman döyüşçü olaraq şəhidlik zirvəsinə ucalıb. Ananın yeganə pənahı ümidi idin, Rəşad! İndi isə bütün gəncəlilərin, bütün Azərbaycanın qürur duyduğu bir Vətən oğlusan! Elə bir Vətən oğlu ki, indi sənin adın dillərdən düşmür, indi sənin qəhrəmanlığın dastana çevirilib. Qurtuluş Savaşında yazılan zəfər dastanının ilk səhifələrində imzası olan oğullardan birisən, Rəşad! İmzan heç zaman solmayacaq, silinməyəcək. Gəncənin Şəhidlər Xiyabanındakı əbədi məkanın, o mübarək evin həmişə qonaqlı-qaralı olacaq. Sənə təkcə anan ağlamayacaq. Səninlə yalnız yalqız qalan anan öyünmür, bütün Gəncə, bütün Azərbaycan sənin qəhrəmanlığınla öyünür. Ölümsüz qəhrəmanımız Rəşad İlqar oğlu Ələkbərov əbədi olaraq yaşayacaq. Nə qədər xalqımız var, nə qədər dövlətimiz var, nə qədər köksümüzdə ürəyimiz döyünür o qədər də o oğullar yaşayacaq. Əbədiyyətin, uca şəhidlik adın mübarək, Rəşad!!!

*İradə Sariyeva*

## Rəşad MƏMMƏDOV



Vətən müharibəsi başlayan gündən torpaqlarımızın azadlığı uğrunda döyüşə atılanlar arasında müəllimlər də var idi. Döyüşlərin ilk günündən düşmənlə savaşa atılan, Şuşa uğrunda gedən döyüşlərdə şəhid olan Rəşad Məmmədov kimi.

Məmmədov Rəşad Fərəməz oğlu 4 sentyabr 1989-cu ildə Gəncə şəhərində doğulmuşdur. 2006-cı ildə Gəncə şəhər 34 nömrəli tam orta məktəbi bitirmişdir.2006-2010-cu illərdə Gəncə Dövlət Universitetinin "Tarix" ixtisasında təhsil almışdır.2010-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsindən həqiqi hərbi xidmətə çağrılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

2013-cü ildə Gədəbəy rayonunun Qoşabulaq kənd 1 saylı tam orta məktəbində tarix müəllimi kimi əmək fəaliyyətinə başlamışdır. 2018-ci ildə Gəncə şəhər M.Ş.Vazeh adına 16 saylı tam orta məktəbdə pedaqoji fəaliyyətini davam etdirmişdir. 2020-ci ildə Gəncə Dövlət Universitetinin "Azərbaycanın yeni və ən yeni tarixi" ixtisası üzrə magistr pilləsində təhsil almağa başlamışdır. Subay idi.

27 sentyabr 2020-ci il tarixdə Vətən Müharibəsinin başlaması ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə qismən səfərbərlik elan edilməsi haqqında 28 sentyabr 2020-ci il tarxli Sərəncamına uyğun olaraq Rəşad Məmmədov 29 sentyabr 2020-ci ildə yenidən hərbi xidmətə çağrılmışdır. O,

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi və işğal altında olan torpaqlarımızın azadlığı uğrunda vuruşmuş, Xocavənd rayonunun Ağoğlan (Hadrut) qəsəbəsi, Füzuli, Qubadlı və Xocavənd rayonları uğrunda gedən döyüşlərdə iştirak etmişdir.



8 noyabr 2020-ci ildə Şuşa şəhəri uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmışdır.

17 noyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Məmmədov Rəşad Fərəməz oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Vətən uğrunda" (ölümündən sonra), Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Cəsur döyüşçü" (ölümündən sonra) və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Şuşanın azad olunmasına görə" (ölümündən sonra) medalları ilə təltif olunmuşdur.

*Fəridə Qədimova*

# Rəşad QULİYEV



Polkovnik-leytenanat Rəşad Rəşid oğlu Quliyev 23 sentyabr 1983-cü ildə Bakı şəhərində anadan olmuşdur. Altı yaşında atasını itirən Rəşad həm atasının, həm də öz arzusunu gerçəkləşdirərək hərbçi olmaq qərarına gəlir. Bu arzular onu Cəmşid Naxçıvanski adına Hərbi Liseyə gətirir. 2000-2004-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alır. Ali Məktəbdən məzun olduqdan sonra cəbhə zonalarında hərbi xidmətdə olur. Rəşad Quliyevin şərəfli döyüş yolu belə başlayır. O, "Aprel döyüşləri"ndə iştirak edərək, Lələtəpənin işğaldan azad edilməsində şücaətlər göstərir.

Azərbaycan ordusunun polkovnik leytenantı Rəşad Quliyev sentyabrın 27-də Böyük Vətən müharibəsində, Cəbrayılın azadlığı uğrunda gedən şiddətli döyüşlərdə qəhrəmancasına vuruşur. Qormazlığı, cəsurluğu ilə seçilən Rəşad əsgərlərinə xüsusi qayğı ilə yanaşır, onlara döyüş ruhunu aşılayırdı. O, əsgərlərinə, "Elə yaşayın ki, sizdən sonra gələcək nəsillər sizə oxşamaq istəsinlər" – deyərək onları vətənin dar günündə igidliyə, vətən torpağını yağıdan təmizləməyə çağırırdı. Bacısı Nərmin ondan bəhs edərkən qeyd edir ki, "Onun söhbətinin əvvəli də, axırı da Qarabağ idi. Onu müharibədən heç nə, heç kim saxlaya bilməzdi. Rəşad sanki döyüşçü olaraq doğulmuşdu, döyüşçü kimi də öldü".

Rəşad ailəsinə yazdığı məktublarda da, "Şəhidlik hər oğula qismət olmur, şəhid olsam, məğrur dayanın" – vəsiyyətini edərək ölümün gözünə dik baxaraq, vətən torpağının azadlığı uğrunda savaşa atılır. Canavar ləqəbli Rəşad Quliyev oktyabrın 7-də Cəbrayıl döyüşlərində böyük qəhrəmanlıqlar gös-

tərərək, son nəfəsinə qədər vuruşub şəhidlik məqamına yüksəlir. Rəşad Rəşid oğlu Quliyev çox sevdiyi generalı Polad Həşimovun yanında II Fəxri Xiyabanda dəfn olunmuşdur. O hərbi xidmətdə fərqləndiyinə görə dəfələrlə medal ilə təltif edilmişdir. Rəşad Rəşid oğlu Quliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq, öz vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı ilə də təltif edilmişdir. Ailəli idi. Dərya və İnci adlı iki qız övladı var idi.

*Eşqanə Babayeva*

***

*Bu bahar bir ömür onu tərk etdi,*
*Hayandan gəlmişdi, hayana getdi?*
*Bilmədi, bilmədi, o ömür bitdi,*
*Yollara boylanıb darıxdı dağlar.*

## Rəşid TAHİROV



Azərbaycan 27 sentyabr 2020-ci il tarixində Qarabağ uğrunda böyük vətən müharibəsinə başlamışdır. Bu müharibədə Azərbaycan qələbə çalmağı bacarsa da bir çox itkilərdə verdi. Bu müharibədə öz vətəni, doğma torpağı uğrunda 2783 nəfər igid oğullarımız canını qurban vermişdir. Azərbaycanın şərəfli, qeyrətli oğullarının qanı, canı bahasına Qarabağımızı geri qaytara bildik. Biz igid şəhidlərimiz sayəsində mənfur düşmən ermənilərdən öz qisasımızı ala bildik. Artıq onların sayəsində doğma torpaqlarımızda yaşayabiləcəyik. Bu şəhidlərdən biri də Tahirov Rəşid Loğman oğludur. O, Qarabağ uğrunda Füzuli şəhərinin Qaraxanbəyli və Veysəlli kəndləri arasında olan döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalmışdır.

Rəşid 30 oktyabr 1989-cu il tarixində dünyaya gəlmişdir. Əslən Xocavənddən olsa da, Beyləqan şəhərində doğulub boya-başa çatmışdır. Beyləqan rayon Qaraxanlı kənd orta məktəbini bitirmişdir. Ailənin 2-ci övladı idi. Özündən böyük bir qardaşı da vardı. Rəşid ailəsinə çox bağlı biri, eyni zamanda hər kəsin sevimlisi idi. Yaşına baxmayaraq o hər zaman müdrik, uzaqgörən, mərifətli, səmimi olmasıyla öz yaşıdlarından seçilirdi. O heç kimin qəlbin qırmazdı, özü də yumşaq qəlbli biri idi. Rəşid hər şeyə pozitiv baxan, qarışına qoyduğu məqsədləri gerçəkləşdirən bir gənc idi. Şəhadətindən qabaq şəxsi mağaza açmışdı, alverlə məşğul olacaqdı. 6 il bu işlə məşğul olmuş sonra isə öz işini qurmağa qərar vermişdi.

Məqsədini reallaşdırsa da, bu sevinci çoxda uzun çəkmədi. Vətəni uğrunda müharibəyə yollanıb şəhidlik zirvəsi-

nə ucaldı. O, vətəninə bağlı biri idi.  Həmişə deyərdi ki: “Kaş torpaqlarımız uğrunda müharibə başlasa, məndə gedib vuruşub torpaqlarımızın alınmasında iştirak etsəydim”. Elə də oldu. O 22 sentyabr 2020-ci il tarixində Qarabağ uğrunda döyüşə yollandı, 29 sentyabr 2020-ci tarixində isə şəhidlik məqamına ucaldı. Hərbi xidmətdəki vəzifəsi minaatma idi. Sonra alay yoldaşlarıyla birlikdə şəhid oldu. Ayın 29-da şəhid olmasına baxmayaraq ailəsi onu çox gözlədi. Nəşi 2 aya yaxın müddətdə ailəsinə təhvil verildi. O tabutda isə Rəşiddən qalan sadəcə tək qol idi. Ölüm acısının üzərinə ailəsi birdə bu ürəkparçalayan görüntüdən sonra daha da sarsıldı.O subay idi. Rəşiddən geriyə heç bir nişanə qalmadı. Ondan ailəsinə sadəcə gözəl xatirələr və şəkilləri qaldı. Ruhun şad olsun şəhidim! Uğrunda canını qurban verdiyin Qarabağ artıq bizimdir. Haqqınızı halal edin şəhid ailələri! Ruhunuz şad olsun vətənimizin qeyrətli oğulları!

*Günay İbadova*

***

*Mənalı bir ömrün tez çatır sonu*
*Göz yaşıdı bu dünyanın oyunu.*
*Bir ovçunun sorağıyla qoynunu*
*Açıb, mürqüləyir nə vaxtdı dağlar.*

## Rəvan ƏLİYEV



*Mehriban Əliyeva:* Bu mənim şəhid balamdır. Cəmi 19 yaşı var. Xahiş edirəm balamın mənimlə olan şəklini paylaşasınız. Əliyev Rəvan Yusif oğlu Zəngilan döyüşlərində şəhidlik zirvəsinə ucalıb.

Rəvan Əliyev 27 may-2001-ci ildə Sumqayıt şəhərində anadan olub. Quba şəhərində yaşayıb. 2007-ci ildə Quba şəhər 3 saylı orta məktəbində təhsil almağa başlayıb. İkinci sinifdə oxuyanda musiqi məktəbinə qəbul olub və orada tar sinfini bitirib. Musiqi ilə bərabər futbolla da məşğul olub. Oradan fəxri fərmanlar alıb. 2016-cı ildə Bakı İdarəetmə və Texnologiya Kollecinə qəbul olub. 5 iyul 2019-cu ildə hərbi xidmətə başlayıb. Yevlaxşəhərində yerləşən Dövlət Sərhəd Qoşunlarında xidmət edib.İkinci Qarabağ müharibəsi başlayanda Sərhəd Qoşunlarının əsgərləri əvvəlcə döyüşlərdə iştirak etmirdi. Lakin könüllü olaraq əsgərlər döyüşlərə gedə bilərdi. Rəvan qulluq etdiyi hərbi hissədən bir zabit və altı əsgər müharibəyə könüllü olaraq qoşulub. Zəngilan uğrunda gedən döyüşlərdə yeddi könüllü əsgərin hamısı şəhid olub. Sərhəd Qoşunlarının ilk şəhidləri onlar olublar. Oktyabrın 23-də şəhid olub və 29 oktyabr 2020-ci ildə Quba Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Rəvan Əliyev ölü-

mündən sonra "Vətən uğrunda", 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Rəvan Əliyev ölümündən sonra "İgidliyə görə", 25.12.2020-ci il tarixli Sərəncamına əsasən "Zəngilanın azad olunmasına görə" medallarıı ilə təltif edildi.

*Mehriban Əliyeva,*
*anası*



*Vətən üçün ölməliyik*
*(Sinif yoldaşlarıma)*

*Biz öz ömür sazımızda*
*"Dilqəmi"ni bilməliyik.*
*Leylimizin ürəyini*
*Məcnun kimi sevməliyik.*

*Bisütunu biz də yaraq,*
*Çənsiz Çənlibellər quraq.*
*Sazımızda ağlayaraq,*
*Biz həyatda gülməliyik.*



*Döyüşlərdə yoğrulmuşuq,*
*Gələcəyə qaranquşuq.*
*Həyat üçün doğulmuşuq,*
*Vətən üçün ölməliyik!*

## Rövşən PƏNAHOV




Vətən naminə canlarını fəda edən şəhidlərimizi tanıyaq və tanıdaq!

44 gün; sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən Müharibəsi – İkinci Qarabağ müharibəsi Azərbaycan Milli Ordusunun tarixi zəfəri ilə başa çatdı, 30 il davam edən işğala son qoyuldu. Bəli, 27 sentyabr! Bu o tarixdir ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulması və ölkəmizin zəfər qazanması üçün məhz həmin gün haqq savaşına çıxdıq və tarixi ədaləti bərpa etdik.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin elan etdiyi "Qarabağ Azərbaycandır və nida" şüarını əldə tutan şanlı Azərbaycan Ordusunun əsgər və zabitləri, hərbçiləri vətən torpaqlarının ərazi bütövlüyü naminə bir yumruq kimi birləşdilər və qəhrəmancasına vuruşdular.

Şəhid Rövşən Pənahov 2 Oktyabr 1989-cu ildə Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olmuşdur. 1995-ci ildə Musa Həsənov adına Birinci Şıxlı kənd tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. 1996-2004-cü illərdə Birinci Şıxlı kənd ümumi orta məktəbin 9-cu sinfini bitirmişdir. 2004-2006-cı illərdə Birinci Şıxlı kənd tam orta məktəbi bitirmişdir. 2006-cı ildə Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdur. 2010-2011-ci illərdə təlim keçmək üçün Bakıda müxtəlif hərbi hissələrdə xidmət etmişdir. 2011-ci ildə Naftalan şəhərində yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Kapitan Pənahov Rövşən Mahmud oğlu 2 oktyabr 2020-ci il tarixdə Göygöl rayonu istiqamətində düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. Şə-

hid olduğu gün Birinci Şıxlı kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Ailəli idi. İki azyaşlı Nilay adlı qız, Mahmud adlı oğul övladı yadigar qalıb. O, ölümündən sonra ölkə Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 18 oktyabr 2020-ci il tarixli Sərəncamına əsasən "İgidliyə görə", 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Kapitan Pənahov Rövşən Mahmud oğlu da İkinci Qarabağ müharibəsində qəhrəmancasına döyüşən və Şəhidlik zirvəsinə ucalan igid Vətən oğullarından biridir. Doğum günün-də torpağa tapşırılan şəhid kapitanımızın əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirik. Bizlər də şəhidimizin əziz xatirəsini dərin ehtiramla yad edərək ailəsinə və yaxınlarına başsağlığı verir, səbir diləyirik. Ruhu qarşısında baş əyirik!

Şəhidlər ölməz, Vətən bölünməz!

*Mirvari Mustafayeva*

## Röyad MƏMMƏDOV



Əbədiyaşar şəhidimiz haqqında yazmağı özümə borc bildim. O, doğmalarının qürur, iftixar yeri olmaqla yanaşı, həm də bütün xalqın qüruruna çevrildi. Yazının ölməz qəhrəmanı Məmmədov Röyad Famil oğlunun taleyinə Masallı rayon Mahmudavar kəndində doğulmaq, Qarabağda isə şəhidlik zirvəsinə ucalmaq yazılmışdır.

Məmmədov Röyad Famil oğlu 2000-ci ildə Masallı rayon Mahmudavar kəndində anadan olmuşdur. O, 2006-ci ildə orta məktəbin I sinfinə qəbul olmuş və oxuduğu müddət ərzində məktəbin ən fəal şagirdləri sırasında yer almışdır. 2010-cu ildə Uşaq İncəsənət məktəbinin "Balaban şöbəsi"nə daxil olmuş və 2016-cı ildə bitirmişdir. Musiqiyə çox həvəsi var idi və müəllimlərin sevimlisi olmağı bacarmışdır. 2018-ci ildə orta məktəbi bitirib və həmin ildə Qərbi Kaspi Universitetin kollecinə daxil olmuşdur. Yüksək əxlaqı və saf mənəviyyatı ilə seçilən Röyad məktəb və kollec vaxtlarında da yaşıdlarından fərqlənirdi. Sentyabr ayının 15-dən oktyabrın 26-na qədər kollecdə oxumuş daha sonra isə həqiqi hərbi xidmətə çağırılmışdır. Oktyabrın 29-da hərbi xidmətə getmişdir. Gəncə şəhərinin 777 nömrəli hərbi hissəsində 2 ay xidmətdə olmuş, daha sonra Tovuz rayonunda hərbi xidmətini davam etdirmişdir. Hərbi vəzifəsi topçu idi. 2020-ci ilin aprelin 21-də isə hərbi xidmətini fərqlənmə ilə başa vurmuşdur. Sentyabrın 21-də səfərbərliyə çağrılmışdır. Ayın 27-də müharibə başlayandan isə Füzulidə olub qəhrəmanlıqla döyüşlərdə iştirak etmişdir. Döyüş yoldaşı çavuş Səid Abdullayev öz xatirələrində qeyd edir: "Röyad müharibə

başlayan ilk gündən cəld, mərd, hər şeyə igidcəsinə yanaşan döyüş yoldaşım olub. Ağırlıq, çətinlik demədən 27 sentyabrdan 31 oktyabra kimi Füzuli və digər ətraf rayonlarda döyüşdük, taboru mühafizə etdik. 31 oktyabrda keçid olundu, qarşımızı götürdük və arxadan gələnlərə təhvil verdik. Növbəti döyüş tapşırığına gedəcəyimiz üçün gəldik 2 gün arxada, yolda yatdıq. Ondan sonra Xocavəndin Tuğ qəsəbəsinə getdik və orda 3 gün qaldıq. Bu müddətdə erməni olan kəndlərə gedirdik, düşməni məhv edirdik. 3 günün tamamında bizə Şuşaya gedəcəyimizi dedilər və yola düşdük. Buludlu, yağışlı havada gecəni səhər açılana qədər irəliləmişdik. Yol deyildi, sadəcə işğaldan azad edə-edə meşəlikdən, sıldırım yollardan irəlilədik. Şuşaya çatandan sonra gecə 10 olardı, yola düşdük. İstiqamət Şuşa-Laçın koridoru idi. Düşmən üçün Şuşaya təminat, tank və digər silahlar gəlməsin deyə oranı saxlamalı idik. Biz minaatan, 49 kq mərmisi, 35 kq yüklər ilə bir yerə qədər getdik. Saat 2-də yağış altında 3 saat dincimizi aldıq və yola düşdük. 3 gün belə ac qaldıq, su isə ancaq qabağımıza çay çıxanda içirdik. Çatandan sonra isə Şuşa-Laçın koridoruna 1 günə yerləşdik. Səhəri ermənilər meşədən və yoldan gəlməyə başladılar. Aramızdakı məsafə yol ilə 500 metr idi və biz əks dağda yolu pusmuşduq. 5-6 maşın gəldi, pusquya salıb vurduq. Meşədən gələnlər də var idi. 100 nəfərə yaxın idilər, onları da öldürdük. Yazdıqlarım noyabrın 8-i baş vermişdi. Axşamüstü şər qarışan vaxtı bizim yerimizi öyrəndilər və minaatanlarla, toplarla bizi vurmağa başladılar. Həmin zaman Röyad amalı və əməlləri ilə Vətən olmağı bacardı! Röyadla yanaşı 9 şəhidimiz və 28 yaralımız oldu. Röyad son nəfəsinə kimi mərd, sayıq, igid və qəhrəman döyüş yoldaşımız olub”.

*Zəminə Hüseynova*

## Ruslan CƏFƏRLİ



İllərdir savaşa dabanlarını qaldırıb boylanan bir uşağın gözü ilə baxmışam. Haqqında yazdığım şəhidlər məndən böyük olublar. Atalar haqqında yazmışam, övlad borcumu yerinə yetirmişəm. İndi isə şəhid şəkillərinə baxıram. İlahi, rəngli fotolardan biləklərini öpmək istədiyim toppuş körpələr boylanır.Cəmi 20-25 il əvvəl çəkilib. Elə bilirsən, indi evdə sağa-sola qaçır. Elə bilirsən, hələ böyüyəcək. Ağlına da gəlmir ki, bir neçə ildən sonra bu körpələr öz qanları ilə bir millətin alnındakı ləkəni siləcək. Bu balalar ölkənin tarixinə illərlə həsrətində olduğumuz zəfəri yazacaq. Onlar uşaqlıq fotoları rəngli olsa da, uşaqlığı rəngli keçməyən, müharibə dövrünün uşaqlarıdır. Və müharibəni zəfərlə sonlandıran, torpaqlarımızı işğaldan azad edən qəhrəman oğullardır! Bizə uşaqlıq fotolarındakı kimi rəngli həyat bəxş edən oğullar! Vətən müharibəsində çox az şəhid var ki, yaşı Qarabağ savaşından çoxdur. Sanki illərdir biz bu müharibənin əzabını çəkdikcə fərqli ailələrdə xüsusi missiya daşıyan oğullar böyüyüb! Mən əminəm, bu xilaskar oğullar ən ləyaqətli, vicdanlı, halal ailələrdən tək-tək seçilib! Siz bir şəhidlərin şəklinə baxın, onların heç birinin simasında məsələn, bu günlərdə Qarabağ

qazisinin hesabından pul oğurlayan şəxsin üzündəki ifadəni görməzsiniz! Hamısının siması nurludur! Əminəm ki, bu tarixi qələbədə imzası olanları hansısa bir gizli qüvvə ən yaxşılar arasından seçib. Hamısı məğrur duruşlu, nakam təbəssümlü oğullardır!

Onlardan birini sizə - Lent.az oxucularına təqdim edəcəm. Ruslan Cəfərlini!

Ailəsində hər kəs onun təbəssümündən danışır. Heç bir situasiyada üzünü tərk etməyən təbəssümündən.

Ruslan 1995-ci il mayın 25-də Mingəçevir şəhərində anadan olub. Elə orada da 4 nömrəli məktəbdə təhsil alıb, 2013-2015-ci illərdə həqiqi hərbi xidmətdə olub. Vətən müharibəsinə yollanan Ruslan Suqovuşan və Talış kəndinin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub.

25 illik ömür, 3 cümləyə sığan tərcümeyi-hal və bu qısa ömürdə qazanılan əbədiyyət! Azərbaycan qədər ömür qazanmaq! Bu dövlət və bu millət var olduqca, var olmaq! Bu, hər adamın qismətinə yazılmır, məhz Vətən müharibəsi şəhidlərinin taleyinə yazıldı! Ailə üzvləri Ruslanı belə xatırlayır. Cəfərovlar ailəsinin son beşiyi olub Ruslan. Atası Nəcəf Cəfərli deyir ki, bilirsiniz necə şən uşaq idi?Anası Tahirə Cəfərli əlavə edir ki, körpəliyindən gülərüz idi!Bacısı Günay Kərimova “qardaşım onu tanıyanların yaddaşında gülüşü ilə qalıb” - deyir. Günayın 3 yaşlı qızı Zəhra isə “Ceki yoxdur, mən cizgi filminə kiminlə baxacam” soruşur.

Ailədə də, məhəllədə də hamı Ruslanı “Ceki” çağırırdı. Çünki uşaqlıqdan döyüş filmlərini sevən Ruslanın ən sevimli aktyoru Ceki Çan olub. Ən sevdiyi oyuncağı qılınc, ən sevdiyi xörək yarpaq dolması idi. Qısa ömrə avarçəkmə, üzgüçülük və voleybolu sığışdıra bilmişdi.

Atasının ürəyi xəstə idi deyə çox erkən yaşından ailənin yükünü çəkməli olmuşdu. O qədər şən və mehriban idi ki, hər

axşam evə gələndə əvvəlcə "Salam" deyər, həmən ardınca da "Əleykə" deyərək, özü-özünü cavablandırardı.

Anası Ruslanın sürprizləri sevdiyini deyir:- Əsgərlikdən qayıtmağını xəbər verməmişdi, yanvar ayı idi. Gələndə görüb mən pəncərədən küçəyə baxıram, gizlənib. Mən evə keçəndən sonra gəlib qapını döydü.

Bacısı deyir, məndən balaca idi, amma həmişə gözü üstümdə idi, məni qorumağa çalışırdı.

"Ruslanın arzusu nə idi" sualına bacısı cavab verir:

- Pul yığıb maşın alacağam və o maşınla xarici ölkələri gəzəcəyəm, deyirdi. Maşın sürməyi çox sevirdi. Çox gözəl rəqs edirdi. Qorxunun nə olduğunu bilmirdi. İlk döyüşlərdə kaska da qoymurmuş. Özü də qabağa düşürmüş.

Əmisi qızı Çinarə Cəfərova "Ruslan başqalarına kömək etməyi sevirdi", – deyir. Gülüşü üzünü tərk etmir, zarafatından qalmır, eyni zamanda da çalışırdı hamıya faydalı olsun. Bakıda işləyəndə bizə tez-tez gəlirdi. Heç vaxt şirniyyata yox deməzdi, anam onun üçün xüsusi kəsmikli pirojna bişirərdi... Xatirələrimizi günlərlə danışıb bitirə bilmərəm, qardaşım yoxdur, o mənim də qardaşım idi. Hər dəfə mənə "bacı, sən başqasan!" deyirdi. Son gedişi ilə dərk etdim ki, əslində o başqaymış. Ətrafım insanla doludur, amma heç kim Ruslan deyil. Bu qədər insani keyfiyyətin bir adamda cəmləşməsi sadəcə möcüzədir. Ruslan bizim üçün möcüzə idi. Üzü gülən, dili şirin möcüzə!Qəribədir, Ruslan bu qısa ömründə üç dəfə ölümlə üz-üzə gəlmişdi, ikisində möcüzə nəticəsində xilas olmuşdu. Görünür Allah belə bir ürək sahibinin həyatının sıradan ölümlə sonlanmasını istəməyib. İlk dəfə iki yaşı olanda açıq eyvandan yıxılma təhlükəsi ilə üz-üzə qalıb. Hadisəni xatırlayanlar həmin günü də Ruslanın unudulmaz gülüşünün üzündə olduğunu deyirlər.İkinci dəfə iki il əvvəl, qaynaqçı işləyəndə yanğın təhlükəsi ilə üz-üzə qalıb. Özünü də xilas edib, hələ üstəlik iş yoldaşını da. Gödəkçəsini çıxardıb yanan dostunu

söndürmüş, öz əlləri yanmışdı. Evə gülə-gülə gəlmişdi.Üçüncü dəfə isə. Bu dəfə möcüzə baş vermədi.

Atası sonuncu zəngini xatırlayır:

- Ermənilər Mingəçevirə raket atanda zəng eləmişdi ki, qorxmayın, burada cavablarını veririk! Axırlarına çıxacağıq! İndi döyüşə gedirəm, narahat olmayın! Oktyabrın 7-si idi. Bir neçə gün keçdi, xəbər çıxmadı. Həmin nömrəyə təkrar zəng etdik, cavab verən olmadı. Vatsap vasitəsilə yazdıq, oxuyan olmadı. Müdafiə Nazirliyi sadəcə "döyüşdədir" cavabını verirdi. Bu bir kəlmə ailəyə bəs etmir axı. Ailəliklə sonuncu zəng etdiyi nömrəni telefonumuza qeyd edib, votsapda izləməyə başladıq. Bir gün nəhayət votsapda online göründü. Yazdıq, oxumadı. Zəng-zəng ardınca. Axırda bir qadın açdı: "Oğlumun nömrəsidir, oktyabrın 10-da şəhid olub..."

Cəbhədən yayılan bütün videolara baxır, Ruslanı axtarırdıq. Bilirdik ki, sıxılan uşaqdır, həmişə bir kənara çəkilər. Özünü irəli atıb bir söz deməz, ancaq yenə də axtarırdıq. Nəhayət, tapdıq! AzTV ilə yayımlanan bir süjetə diqqətlə baxanda gördük ki, elə təxmin etdiyimiz kimi kənara çəkilib müsahibə verən əsgərlərə baxır. Videonun 2 dəqiqə 49-cu saniyəsində, əlini belinə qoyub, tanka söykənib, baxır. Sevindik ki, sağdır! Ancaq video bir ay əvvəl çəkilmişdi.

Nəhayət, noyabrın 18-də döyüşlərdə itkin düşdüyünü dedilər. Məlum oldu ki, şəhid olub, ancaq nəşi neytral zonada qalıb. Sonra zəng edib hərbi komissarlığa çağırdılar. Anası dedi ki, dərmanını iç, get, oğlumuzu gətir!

Noyabrın 21-də Mingəçevir Şəhidlər Xiyabanında torpağa tapşırdıq.Ruslanın son döyüşünü, necə, hansı şəraitdə şəhid olduğunu bilmirik. Komandirinin də şəhid olduğunu dedilər.Ancaq biz əminik ki, Ruslan son damla qanına qədər döyüşüb. Oğlumuza bələdik.Anası isə oğlunun şəhid olduğunu ilk gündən hiss etdiyini deyir:

- Mən oğluma bələdəm, əgər onun başı əldə olsa, lap yaralı da olsa, bir yolunu tapıb bizə xəbər edərdi. Ruslan ola, 40 gün evə xəbər verməyə? Mümkün deyildi, elə körpə yaşından evin məsuliyyətini çiyninə götürmüşdü, bilirdi ki, evdə nigaran qalırıq. Atasının ürəyi xəstədir, o bizi heç vaxt nigaran qoymazdı. Ona görə də xəbər çıxmayandan düşündüm ki, balam şəhid olub.

Çinarə xatırlayır:

– Mənə "Erkək Fatma" deyirdi. Yəni 25 illik ömür yaşayasan, bir adamın xətrinə dəyməyəsən? Bütün sözlərə zarafatla cavab verərdi. Bir vərdişi var idi, hər gedəndə papağını unudurdu, hər dəfə də arxadan çağırırdım ki, "Ruslan, papağını qoyub gedirsən! Gülürdü ki, erkək Fatma, yad yerdə qoymuram ki, əmimgildə qoyuram!"

Qızların xətrinə dəyməzdi. O qədər hörmətlə davranardı ki... Sonuncu dəfə məzarındakı gül-çiçəyin arasından tək qızılgül gördük. O qızılgülün hekayəsini bilmirik, ancaq bir başqa cür yandırdı bizi...

Əsgərlikdə olanda bir bloknotu olub, indi oxuyuruq, orada şeir yazıb:

*Sevgilimdən ayrıldım,*
*Silahıma sarıldım.*
*Torpağıma bağlandım*
*Təki Vətən sağ olsun!*

Sonuncu dəfə məzarını ziyarət edəndə o qədər ağladım ki, axırda dedim ki, Ruslan, bir hay ver! Sən axı bu qədər laqeyd deyildin, sən bu qədər ağlamağıma belə sakit dayanmazdın və məzarının başındakı əklil aşdı. Heyrətə gəldim. Mən belə əlamətləri ancaq filmlərdə görmüşdüm. Ruslan, deyəsən, rəqəmləri də sevirmiş. Doğum tarixi: 25.05.1995 – 25 il ömür yaşadı. 44 günlük müharibədə Mingəçevirin 44-cü şəhidi oldu. Müdafiə Nazirliyinin təqdim etdiyi şəhid siyahısında Ruslanın

adı 44-cü səhifədə idi. Sentyabrın 21-də gedib, noyabrın 21-də gəldi, amma şəhid kimi.

*Ailəsi onunla sonuncu görüşü belə xatırlayır:*

– Sentyabrın 21-də təlimlərə qatıldı. Yola salanda Zəhra arxasınca ağladı. Dedik ki, nəsə al, əlinə ver, başı qarışsın, ağlamasın. Gedib şokolad almışdı. Ailə üzvlərinə hədiyyə etməyi çox sevərdi, sonuncu hədiyyəsini Zəhraya etdi.



Əslində isə Ruslanın ən son hədiyyəsi bu gün Suqovuşanda dalğalanan Azərbaycan bayrağıdır! Ruslanın son döyüşü Suqovuşan istiqamətində olub. Suqovuşanı fəth edən qalib əsgər! Ailəsi, dostları əmindir ki, son nəfəsində də təbəssümü Ruslanın üzünü tərk etməyib.

Bu gün Azərbaycan Prezidentinin sərəncamı ilə Ruslan Cəfərli (ölümündən sonra) "Vətən uğrunda" medalı ilə təltif olunub.

*Gülşən Kəngərlinskaya*

*https://1news.az/az/news/20201216054324654-Mezarina-qoyulan-tek-qizilgul-bizi-yandirib-yaxdi-Shehid-Ceki-nin-sonuncu-sirri*

## Ruslan HÜMBƏTOV



Bil ki, qanım vətənə torpaq olar, bil ki, ruhum cənnnətə gözətçi olar, bil ki, canım vətənə fəda olar. Canlarından keçməklə xalqın qəhrəmanlıq dastanını, azadlığını canı ilə qazanıb qanı ilə yazanlardır şəhidlər. Onlar bir xalq qəhrəmanı olaraq zəncirləri qıraraq, zülmətləri yararaq, xalqı işıqlı sabaha aparan, ölümləri ilə ölməzlik qazanan əbədiyyətə qovuşmuş bəxtiyar insanlardır.

Şəhidimiz Hümbətov Ruslan Səlim oğlunu tanıyaq: Xüsusi Təyinatlı Dəstələrin giziri olan Ruslan Hümbətov 5 may 1987-ci ildə Samuxda anadan olub. Əslən Ermənistan rayonunun Amasiya rayonundandır. 2014-cü ildə XTQ-ya qəbulla bağlı keçirilən kursda 217 nəfər içindən xüsusi fərqlənmə ilə seçilib. 2010-cu ildən ön cəbhədə xidmət edir. 2016-cı ildə gedən döyüşlərdə göstərdiyi xidmətlərə görə Ali komandanlıq tərəfindən medal və xüsusi fərmanla mükafatlandırılıb. 2018-ci ildə Xüsusi Təyinatlı Qoşunlar arasında keçirilən beynəlxalq yarışda Azərbaycanı təmsil edib və birinci yeri qazanıb. 2020-ci ildə gedən döyüşlərdə Füzuli, Suqovuşan, Qubadlı, Murov və Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib və Kəlbəcərdə Şəhidlik zirvəsinə ucalıb. Ailəlidir, 2 övlad sahibidir. Xüsusi Təyinatlı Dəstələrin giziri olan Ruslan Hümbətov hər ay əmək haqqısının bir qismini bir-neçə hərbi yoldaşı ilə ehtiyacı olan insanlara və xəstələrə sərf edirdi. Ömrün ən böyük qazancı ömürdən sonrakı həyatın qazanılmasıdır.

*Zəminə Hüseynova*

## Ruslan QƏHRƏMANOV



Qəhrəmanov Ruslan Mehman oğlu 1988-ci ildə Almaniyanın Maqdenqburq şəhərində hərbiçi ailəsində anadan olmuşdur. 1990-ci ildə Şəmkirə, doğma torpağa köçmüşlər. 1992-ci ildə Gəncəyə hərbi qaradoka köçüblər. Atası "N" saylı hərbi hissədə xidmət edirdi. 1992-ci ilin oktyabr ayında atası birinci Qarabağ müharibəsində qazi olmuşdur. Atası qazi olandan sonra Ruslanda sanki düşmənə qarşı bir nifrət yaranmışdı. Elə həmin illərdən hərbiyə həvəs yaranmışdı. Məktəbdə oxuduğu illərdə hərbiyə qatılmaq istəyi ilə 2004-cü ildə Naxçıvanski adına Hərbi Liseyə qəbul olmuşdur. 2007-ci ildə H.Əliyev adına hərbi məktəbə qəbul olmuşdur. 2011-ci ildə Təlim Tədris Mərkəzində kurs keçmişdir. 2012-ci ildə "N" saylı hərbi hissədə Xüsusi Təyinatlı Qüvvələrdə xidmətə başlamışdır. 2011-ci ildə ailə həyatı qurmuşdur. 2 qızı, 1 oğlu var. Oğlu 2020-ci il şəhid olmamışdan 10 gün qabaq dünyaya gəlmişdir. Həvəslə gözlədiyi oğlunun cəmi 3 gün üzünü görüb, əzizləmişdi.

Hərbi həyatı sevən Ruslan vətənə, torpağa çox bağlı olmuşdur. Hərbi xidməti zamanı axırıncı aldığı rütbə "Kapitan" olmuşdur. Ruslanın ən böyük arzusu Qarabağ torpaqlarının azad olması olmuşdur. "Aprel döyüşləri"ndə qəhrəmanlıq göstərən Ruslan torpaqların geri alınması üçün əlindən gələni əsirgəməmişdir.

2020-ci ilin sentyabrın 27-də başlanan Vətən müharibəsinə çox həvəslə qatılmışdır. Müharibə başlayandan göstərdiyi şücaətlə fərqlənmişdi. Təkcə 29 şəhidi çiyinlərində daşıyaraq neytraldan çıxarmışdı. Hər şeyə hazırlıqlı olan Ruslan müharibə başlamamışdan qardaşına: "mən hər şeyə tam hazıram, Şəhid

olsam kişi olun ağlamayın, fəxrlə “Vətən sağolsun” deyin, Şəhid olsam oğlum gəlir arxamdan, gözüm arxada qalmayacaq, nə həyəcanla gözləyirəm gecənin qaranlığında Kəlbəcərə girməyi” – deyə mesaj atmışdı. Döyüş gedərkən 1-2 saatlıq evinə motor işıq avadanlığı aparmağa gəlmişdir. Hey döyüşə tələsən Ruslana ailə üzvləri nə qədər yalvarsa da, bir tikə yemək yeməmişdi. Mənim yoldaşlarım döyüşdə ac da ola mənim boğazımdan yemək keçməz demişdi. Torpağı canından, qanından çox sevən Ruslan oktyabrın 4-dən 5-nə keçən gecə Cəbrayılda gedən döyüşdə qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdi. Ömrünün son yaşını “32” yaşını qeyd etmək qismət olmur. Oktyabrın 5-də torpağa tapşırılan Ruslanın 6-sı ad günü idi. Şəhidimiz sonunda arzusuna çatdı. Arzusunda olduğu Qarabağ torpaqları işğaldan azad oldu. Son sözündən biri də “Şəhid olsam Kəlbəcər torpağından mənim qəbrimin üstünə tökərsiz” olmuşdu. Xidməti dövründə bir neçə fəxri fərman, medallarla təltif olunmuşdu.

*Səkinə Zeynalova*

## Rüfət ƏLİYEV

*Tamella Aliyeva:* Nur içində yat, igid balam, Rüfətim! Məkanın cənnət olsun! Bəy kostyumu bayraqla əvəzlənən şəhid Rüfət Əliyev.



2020-ci il bütün dünyada uğursuz il hesab edilsə də, Azərbaycanın ən uğurlu ili oldu deyə bilərik. İllərdir həsrətini çəkdiyimiz Qarabağı düşmən tapdağından azad etdik. Şəhidlərimizin, qazilərimizin, güclü Azərbaycan Ordusunun sayəsində İkinci Qarabağ müharibəsi qələbə ilə başa çatdı. Hər bir şəhid qəhrəmanlığı ilə adını Azərbaycan xalqının qəlbinə yazaraq zəfər dastanına döndü. Biz isə onlara olan mənəvi borcumuzu az da olsa, ödəmək üçün torpaq uğrunda canından keçmiş qəhrəmanlarımızı bir-bir tanıdırıq.

Onlardan biri də şəhid Rüfət Əliyevdir. Rüfət Füzuli oğlu Əliyev 1992-ci il dekabrın 6-da Bakıda anadan olub. Xətai rayonu 27 nömrəli orta məktəbi bitirən Rüfət, 2010-2014 ci illərdə ali təhsilini Azərbaycan Kooperasiya Universitetində alıb. O, universiteti bitirdikdən sonra hərbi xidmətə yollanıb. Xidmət müddətində kəşfiyyatçı qrupunda olan Rüfət Əliyev əsgərliyi bitirdikdən sonra 2015-ci ildə fəxri fərmanla təltif olunub. Rüfət Əliyevin ailə üzvləri qeyd edir ki, onun ən böyük arzusu elə hərbçi olmaq idi. Ailədə üç qardaş idilər, ən böyüyü Rüfət idi. Həmişə istiqanlı olmağı, mehribanlığı, mərdliyi ilə seçilirdi. Nişanlı idi. Pandemiyaya görə toyu ləngimişdi, amma evinin hər hazırlığı görülmüşdü. Müharibədən sonra qayıdıb ailə qurmaq, toy etmək arzusunda idi. DSX ÇHD giziri idi Rüfət. O, Bakıda hava limanında işləyirdi. İş yerindən öz istəyi

ilə ayrılıb Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarına yazıldı. Avqustun 26-da hazırlıq keçmək üçün Lənkəran, Ağstafa, Daşkəsən istiqamətinə yollandı. Müharibə başladıqdan sonra isə Füzuli, Hadrut, Cəbrayıl, Xudafərin, Zəngilan istiqamətlərində döyüşlərdə iştirak edib. Müharibə müddətində bizimlə 3-4 gündən bir əlaqə saxlayırdı. Əlaqə saxlayanda da üstüörtülü şəkildə harda olduğunu və vəziyyətinin necə olduğu haqqında deyirdi. Sonuncu dəfə noyabr ayının 6-sı bizimlə danışdı. Onda döyüş yoldaşları ilə birlikdə yüksəklik uğrunda əməliyyatdan qayıtmışdılar. Ayın 7-dən 8-nə keçən gecə saat 2-də Ağbənddə Rüfətin yanına minaatan düşüb və qəlpə yarasından şəhid olub".



Qeyd edək ki, Rüfət Əliyev şəhidlik zirvəsinə yüksəldikdən sonra "Vətən uğrunda" ordeni, "Döyüşdə fərqlənməyə görə" medalı və "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif olunub.

Ruhun şad olsun, şəhidim!

*Aytac Aslan*

## Rüfət MƏMMƏDLİ



*"Şəhid olsam kəndin girəcəyində adıma bir bulaq düzəldərsiz, amma suyu daim gəlsin" – Rüfət arzusu bu olub.*

Bu sözlər II Qarabağ müharibəsində qəhrəmancasına şəhid olan Rüfət Məmmədliyə aiddir. 89 ermənini məhv edən şəhidimiz yaralı olan zaman xalası oğlu Rafaelə mesaj yazaraq son arzusunu çatdırıb.

Məmmədli Rüfət Vidadi oğlu 1993-cü il noyabrın 23-də Ağstafa rayonunun Saloğlu qəsəbəsində dünyaya gəlib. 2000-ci ildə Saloğlu qəsəbə Asim Namazov adına tam orta məktəbinin 1-ci sinfinə daxil olub. 2011-ci ildə həmin məktəbi bitirib. Uşaqlıqdan vətənpərvər ruhda böyüyən Rüfət 2012-ci ilin aprelində Vətənə müqəddəs borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollanıb. Ordu sıralarında olan zaman döyüşçü yoldaşlarının, dostlarının hörmətini, məhəbbətini qazanıb. 2013-cü ilin oktyabr ayında Vətən qarşısındakı müqəddəs borcunu yerinə yetirib və xidməti başa vuraraq evə qayıdıb.

2014-cü ilin iyun ayının 21-də ailə həyatı qurub. Elə həmin ildə də yenidən ordu sıralarına qayıdıb. O, "N" saylı hərbi hissəsdə MAXE kimi Vətənə xidmət etməyə başlayıb. Rüfət kəşfiyyatçı ixtisası üzrə tam kurs keçib, 2015-ci ildə nümunəvi hərbi xidməti, döyüş və ictimai-siyasi hazırlığında əldə etdiyi nailiyyətə görə, fəxri fərmanla təltif olunub.

2016-cı ilin mayın 14-də "ən yaxşı kəşfiyyatçı snayper" adı uğrunda keçirilən yarışda birinici yerə layiq görülüb və fəxri fərmanla təltif edilib. Həmin il Türkiyədə 1 aylıq kursda iştirak edib və kursu nailiyyətlərlə başa vurub.

Rüfət Məmmədli 2016-cı ilin Aprel döyüşlərində də iştirak edib. Döyüşlərdə göstərdiyi şücaətə görə bir il sonra ona kiçik gizir rütbəsi verilib. 2017-ci ilin may ayında keçirilən "ən yaxşı kəşfiyyatçı snayper" adı uğurunda yarışda birinci yerə layiq görülüb. O, yenə fəxri fərmanla təltif edilib.

Rüfət qəlbində Vətən sevgisi, torpaq istəyi olan cəsur bir döyüşçü kimi 2020-ci ilin iyun ayında Tovuz döyüşlərində iştirak edib. O, komandirləri tərəfindən verilən bütün döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirib. Senytabrın 27-də İkinci Qarabağ müharibəsi başlayan zaman isə Rüfət könüllü olaraq Xüsusi Təyinatlı Qüvvələrə yazılıb. O, erməni işğalçılarına qarşı gedən Vətən Müharibəsində bacarıqlı bir hərbi qulluqçu kimi igidliklər göstərib. Məmmədli, eyni zamanda düşmənə qarşı aparılan döyüş əməliyyatları vaxtı komandirlərinin verdiyi bütün tapşırıqları nümunəvi bir şəkildə yerinə yetirib. Xüsusi qəhrəmanlıqları ilə seçilən Rüfət bir neçə rayonumuzun işğaldan azad olunması uğurunda gedən döyüşlərdə qəhrəmanlıqlar göstərib. Şuşa uğurunda gedən döyüşdə - noyabrın 8-də qəhrəmancasına həlak olub. Şəhidlik zirvəsinə yüksələn Məmmədlinin ölümündən sonra döyüş yoldaşları uğrunda döyüşdüyü Şuşanı işğaldan azad edib. Noyabrın 12-də Saloğlu kəndində dəfn olunub.

Torpaq uğrunda canından keçən Rüfətin 2 azyaşlı övladı Vətənə əmanət qaldı.

Döyüş yoldaşlarının sözlərinə görə, Rüfət İkinci Qarabağ müharibəsində 89 erməni əsgər və zabitini öldürüb və ona "Əjdaha" ləqəbi verilib. Bildirilir ki, o, Şuşada düşmənə məxsus hərbi avtomobillərin sürücülərini snayperlə məhv edib. Hətta döyüşlərdə Ermənistan silahlı qüvvələrinin yüksək rütbəli zabitlərini də öldürüb. Qeyd edilir ki, Məmmədli döyüş zamanı təkbaşına düşmən postuna daxil olaraq onları məhv edib.

Rüfət artıq aramızda yoxdur, onun isə son bir arzusunu biz heç vaxt unutmayacağıq. Doğulub boya-başa çatdığı kəndində onun adına daim suyu gələn bir bulaq. İnşallah tezliklə cənnətdə arzuna çatarsan, cənab gizir!




Torpaq, uğrunda ölən varsa, Vətəndir!

Snayperlə 89 erməni öldürən "Əjdaha" ləqəbli kəşfiyyatçımız Rüfət Məmmədlinin atası: "Səbrim tükənib daha. Fikrimi bir yerə toplaya bilmirəm. Evin bir oğlu idi, onu da Vətənə qurban verdim. Amma Vətən sağ olsun".

Şəhid Rüfət Məmmədli Ağstafa rayonunun Saloğlu kəndində anadan olmuşdur. Məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanan Rüfət igidliyi, qəhrəmanlığı ilə həmişə seçilmişdir. Atası 15 ilə yaxın hərbiçi olan Rüfətin bu sahəyə marağı çox böyük olmuşdur. O, atasının yolunu davam etdirərək sevdiyi hər şeyi arxasında buraxmış, vətən sevgisini uca tutmuşdur. Türkiyədə nişançı kimi təlim keçmiş, xüsusi mükafatlarla, sertifikatlarla geri qayıtmışdır. Əvvəl kəşfiyyatçı kimi fəaliyyət göstərən Rüfət daha sonra XTQ-ə daxil olaraq fəaliyyətini gizir kimi davam etdirmişdir. Düşməni vahiməyə salan "Əjdaha" ləqəbli kəşfiyyatçımız 2016-ci il aprel döyüşlərində və 2020-ci ilin iyulunda Tovuz döyüşlərində çox fəal iştirak edib. 27 sentyabrda başlayan döyüşlərdən düşmənin xeyli sayda canlı qüvvəsini məhv edən Rüfət Şuşanın alınması uğrunda gedən döyüşlərdə ağır güllə yarası alaraq şəhid olub. Snayperlə 89 ermənini öldürən kəşfiyyatçımızın xalası oğlu Rafaelə son vəsiyyəti:"Şəhid olsam kəndin girəcəyində adıma bir bulaq düzəldərsiniz, amma elə bulaq olsun ki, suyu daima gəlsin".

Atası xatirələrində Rüfət haqqında bunları qeyd edir: "Rüfət çox ağıllı, qeyrətli və igid oğul idi. Hərbiyə böyük marağı var idi, hətta bu iş bir az gec alındığına görə mənə şikayətlənirdi ki, niyə bu iş bu qədər uzadılır".

Anası xatirələrində Rüfəti belə qeyd edir: "Oğlum çox qoçaq idi. Orta məktəbdə oxuduğu vaxt keçirilən yarışlarda hərbi nailiyyətləri olmuşdur. Evin tək övladı olan Rüfət hərbiyə öz istəyi ilə yollanmış və saysız qəhrəmanlıqlar göstərmişdir". Qəhrəmanlığından özü bəhs etməyi xoşlamasa da, döyüş yoldaşları həmişə onun göstərdiyi şücaətlərdən danışmışlar. Tovuz döyüşlərində də bir sıra qəhrəmanlıq göstərən igidimizin ən böyük arzusu şəhidlik zirvəsi olmuşdur. O, bu cür şərəfli ölümü hər şeydən üstün tutmuşdur. Həyat yoldası xatirələrində Rüfəti belə qeyd edir: "Rüfət mənə deyirdi ki, hər zaman mənimlə fəxr et. O, heç kimin xətrinə dəyməmişdir. 2014-cü ildə ailə həyatı qurmuşuq və ömrünün sonuna kimi aramızda heç bir inciklik olmayıb. Uşaqları ilə vaxt keçirməyi çox xoşlayırdı. Vətənini çox sevən Şəhidimiz həm gözəl ailə başçısı, həm gözəl ata, həm qeyrətli oğul, həm də vətənini hər şeydən çox sevən qəhrəman bir igid olmuşdur. Qəhrəmanlıqlarını yalnız dostlarından eşidirdik, özü çox danışmazdı". Bacısı xatirələrində Rüfəti belə qeyd edir: "Qardaşımdan danışmağa sözlər kifayət etmir. O mənə həm ata, həm ana, həm də dayaq olub, mən onunla nəfəs almışam. Həmişə əsgərliyə getmək üçün can atıb. Əsgərliyi bitəndən sonra da hərbi yolunu seçdi, heç nəyi düşünmədən...". Digər bacısı Ülkər Məmmədova xatirələrində Rüfəti belə qeyd edir: "O, çox mərd idi, bunu sözlərindən və hərəkətlə-



rindən hiss etmək olurdu. Mən onunla həmişə fəxr etmişəm, həmişə də edəcəyəm...”

Qohumu Rail Yusubovun sözləri: “O, mənə doğma qardaş olub, orta məktəbdən yüksək nailiyyətlər əldə edən Rüfət hərbi xidmətdə də böyük uğurlar qazanmışdır; gözəl atıcı idi, onu bir atışı belə boşa getməmişdir. Çoxlu sayda ermənini məhv etmişdir. Dostları həmişə bizə onun sərrast atışından danışırdı”.

Döyüş yoldaşının sözləri: “Rüfət çoxlu sayda erməninin canlı qüvvəsini və texnikasini məhv etmişdir. Rüfət heç nədən qorxmurdu. Hər yerdə özünü qabağa verirdi. Şuşada gedən döyüşlərdə ağır yaralanmış, 2 gündən sonra şəhid olmuşdur. Rüfətin arxasında buraxdığı ailəsi, 2 balaca övladı çox üzülsə də, qəhrəmanları ilə qürur duyurlar”.

Allah, vətən və millət yolunda öz istəyi ilə canından keçməyə razı olan insanların fəth etdiyi ən yüksək, ən şərəfli zirvədir şəhid olmaq. Zəncirləri qıraraq, zülmətləri yararaq, xalqı işıqlı sabaha aparan, ölümü ilə ölməzlik qazanan qəhrəmandır, şəhid!

*Səkinə Zeynalova*



## Rüfət MUSAYEV



Beyrək Feyzullayev adlı igidin şəhadətindən 12 gün sonra daha bir şagirdimin – Rüfət Musayevin şəhadət xəbərini aldım. Bu şagirdimə Şəkinin Suçma məktəbində dərs demişdim. 2014-cü ildə 3 illik təyinatım bitdikdən sonra yerimi Şəkinin Suçma məktəbinə dəyişdim. Rüfətə 8-9-cu siniflərdə dərs dedim. Çox tərbiyəli, sakit, mədəni bir oğlan idi. Sinifdə olan digər oğlan şagirdlər bir az nadinc olsalar da, Rüfət tamamilə başqa biri idi. Dərsinə çalışqan, məsuliyyətli bir oğlan idi. Taleyin hökmünə bax ki, gün gələcəkdi, Rüfət də torpaqlarımızın bütövlü uğrunda şəhidlik zirvəsinə ucalacaqdı. Rüfət 15 oktyabrda Suqovuşan ətrafındakı ağır vuruşmalarda şəhid oldu və ölümündən sonra "Suqovuşanın azad edilməsinə görə" medalı ilə təltif edildi.



Beyrək də, Rüfət də ömürlərinin gənclik çağında əbədiyyətə qovuşdular. Ana torpaqdan yarandılar, son olaraq da Ana Vətənin qoynuna köçdülər. Hər iki şagirdimin şəhadəti, şəhid dəfnlərində rastlaşdığım sarsıdıcı mənzərələr sonradan məndə bu ağrılı misralara çevrildi:

*Vətəni qorumağa yollanan gənc oğullar,*
*Bayraqlara bürünüb qayıdırlar geriyə.*
*Çiçəklərdən çox kövrək, quzudan dinc oğullar,*
*Çiyinlərdə dönürlər bir də üzü bəriyə.*

*Bilmək olmur, dünyanın arzusu, həvəsi nə?*
*Bəzən haray yerinə ölü sükutlar gəlir.*
*Analar yol gözləyir oğullar əvəzinə,*
*Anaların üstünə şəhid tabutlar gəlir.*

Ürəklərimiz şəhid xəbərləriylə sızlasa da, 44 günlük Vətən müharibəsinin sonunda Vətən torpaqlarımız, işğal yurdlarımız mənfur düşməndən azad edildi. Qüdrətli ordumuz müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 30 illik həsrətimizə son qoydu. Bizlərə Qələbə sevinci yaşatdı, narahat şəhid ruhlarını sevindirdi. Üçrəngli şanlı bayrağımız Şuşada - Azərbaycanın ürəyində dalğalanmağa başladı.

Şəhidlərimiz bizim and yerimiz, əbədiyyət ünvanlarımızdır. Vətən uğrunda şirin canından keçən hər bir şəhidimizin ruhu qarşısında baş əyirik!

*Tural Adışirin*

## Rüfət NƏBİZADƏ



Vətən müharibəsində ilk gündən son günə kimi döyüşlərdə iştirak edən igidlərimizdən biri də Leytenant Nəbizadə Rüfət Ağayar oğludur.

Ailəsinin verdiyi məlumata görə, hərbçimiz döyüşlər vaxtı aldığı kontuziyadan əziyyət çəkirmiş, bu gün (04 may 2021) dünyasını dəyişib.

Məhrum 2019-cu ildə xaricdə xüsusi təyinatlı kursu, kurs birincisi kimi bitirmişdi.

Nəbizadə Rüfət Ağayar oğlu Ali baş komandan tərəfindən “Şuşanın və Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilmişdi. Ruhun şad olsun qardaş, Allah bağışlasın!

## Şahin TAHİRLİ



Şahin Tahirli 20 sentyabr 2001-ci ildə Lerik rayonunun Züvüc kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Lerik rayon Züvüc kənd tam orta məktəbində təhsil almışdır. 2018-2019-cu illərdə Mingəçevir Turizm Kollecində təhsilini davam etdirmişdir. Subay idi.

Şahin Tahirli kollecin II kursunda oxuyarkən təhsilini dondurmuş və 2019-cu ilin oktyabrında müddətli həqiqi hərbi xidmətə yollanmışdır. Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Şahin Tahirli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzzulinin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Şahin Tahirli 7 noyabr 2020-ci ildə Şuşa döyüşləri gedişatında Şuşa rayonunun Daşaltı kəndində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Uzun müddət nəşi Füzuli xəstəxanasına yerləşdirilmişdir. 23 noyabr 2020-ci ildə Lerik rayonunun Züvüc kəndində dəfn olunmuşdur.

Şahin Tahirli ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" və "Şuşaazad olunmasına görə" medalları ilə təltif edilmişdi.

*Almaz Ülvi*

## Sadiq BAĞIRZADƏ



*Özünə və sözünə sadiq:*

"Torpağa su qarışanda palçıq olur, qan qarışanda Vətən" - sözlərini yaralı döyüşçülərimizin, qazilərimizin dilindən çox eşitdim bu günlərdə. Bu günlərdə əsgərlərimizin sosial şəbəkədə paylaşılan üzümüzdə təbəssüm doğuran müxtəlif görüntülərini də izlədim. Boş vaxtları olanda yelləncəkdə yellənir, oxuyur, yemək bişirir, qartopu oynayırlar... Bildiyimiz, gördüyümüz, yaşadığımızdır hamısı. Amma elə fərqli, xoş duyğular oyadır ki... Kövrəlmədən baxmaq olmur. Və düşünməsən də olmur: uşaqdılar. Hərdən lap hönkürmək istəyirsən bu böyüklüyə sığmayan uşaqlığa, uşaqlığa sığmayan böyüklüyə.Ölümün üstünə gedən, gözünə baxan ərənlərimiz gizlənqaç oynayırlar. Ölümün gözü qarşısında gizlənqaç oynayan uşaqlıq içini titrədir adamın. Nə varsa, sökür ilmə-ilmə.

Bəlkə elə Sadiq də gizlənqaç oynayıb? Hardasa gizlənib? Elə gizlənib ki, ən yaxın dostları da tapmayıb onu?

Mən də onu tapmaq istədim, axtardım, Sadiqi axtardım. Şəhid olandan sonra axtardım. Ailənin yeganə oğlu Sadiq Şahin oğlu Bağırzadəni Şəhid olandan sonra tapdım, tanıdım.

Sadiq Bağırzadə Astaranın Ərçivan qəsəbəsində 15 aprel 2002-ci ildə dünyaya gəlib. 2008-ci ildə Ərçivandakı Şəhid Natiq Kərimovun adını daşıyan 3 saylı tam orta məktəbin birinci sinfinə gedib, 2019-cu ildə həmin məktəbin məzunu olub. Sadə, zəhmətkeş ailədə böyüyüb.

Bu, sadəcə qısa xronologiyadır. O isə hamının sevimlisi idi: şagirdlərin, müəllimlərin, onu tanıyanların... Həmişə fərqlənib. Dostları deyir ki, təbiətən çox şən olan gülərüzlü Sadiqi

sevməmək mümkün deyildi.Uşaq vaxtları hamımız xəyallar qururuq, arzularımız olur. Kimi aşpaz, kimi təyyarəçi, kimi polis, kimi sürücü olmaq istəyir. Sadiq uşaqlıqdan idmançı olmaq istəyir. Arzusuna sadiq qalıb. 8 yaşından idmanla məşğul olub. 8 yaşından arzusu, məqsədi olub.

İdmanla məşğul olsa da, tarix elminə xüsusi marağı vardı. Tarixi fənnini, tariximizi sevə-sevə öyrənirdi. Bəlkə buna görə də özü ilə birgə torpaqlarımızı azad etmək arzusu da böyüyürdü. O, işğal günlərini tariximizdən silmək istəyirdi.

Atası Şahin bəy deyir ki, Qarabağ hadisələri, işğal olunan ərazilərimiz onu həmişə narahat edirdi. Kiçik yaşlarından bu hadisələrlə bağlı suallar verirdi. Bu, onun üçün ağrılı mövzu idi. "Bir gün Xocalı faciəsinin qisasını alacağam" deyirdi...

Çox gənc idi Sadiq Şahin oğlu. Arzuları çox idi. Yaşının kiçik olmasına baxmayaraq, arzuları böyük idi özü kimi. Məktəbinə, ailəsinə, doğma el-obasına başucalığı gətirmək üçün yaşayırdı. Ömrünə tarix yazırdı. Sadiq Heydər Əliyevin xatirəsinə keçirilmiş boks üzrə yarışlarda qızıl medala layiq görülüb. İştirak etdiyi turnirlərdə aldığı medallar, diplomlar, fəxri fərmanlar yaşadığı illərə sığmayacaq qədərdir.

Hələ 2016-cı ildə 14 yaşında Boks üzrə Açıq Bakı birinciliyində yalnız finalda uduzaraq gümüş medalla dönüb doğmalarına. Yarış seçim xarakteri daşıdığından milli komandaya dəvət alıb. O, Azərbaycan milli komandasının üzvü idi.

Çox arzuları vardı. Beynəlxalq yarışlarda iştirak etmək, Vətənini dünyada tanıtmaq, Bayrağını ucalarda görmək istəyirdi. Avropa və Dünya çempionu adını qazanmağı məqsəd qoymuşdu. Yorulmadan məşq edirdi. Məşqçiləri ona inanırdı.

Dünyanın istənilən ölkəsində keçirilən yarışların qalibi olmaq istəsə də, bir müqəddəs arzusu da vardı: bir gün Şuşada, Xankəndidə keçiriləcək yarışların qalibi olmaq istəyirdi. Hərdən də zarafatla deyirdi: "Eybi yoxdur, təki axırıncı yeri tutum, amma torpaqlarımızı işğaldan azad edək, Şuşada idman yarışları

olsun”. Ona görə də ilk olaraq Vətənə borcunu vermək istədi.Beləcə, bu ilin may ayında hərbi xidmətə yollandı Sadiq. Çox çevik, idmançı olduğundan onu Xüsusi Təyinatlı Qüvvələrə qəbul etdilər. Kəşfiyyatçı kimi təlim keçdi. Ona “qızıl əsgər” dedilər. İkinci Qarabağ savaşı başlayanda öndə gedən zabit heyətində tək əsgər oldu. İlk gündən igidliyi ilə də fərqləndi. Murov yüksəkliyi uğrunda savaşda “Murov aslanı” dedilər ona. İllərin dostu kimi sevdiyi, qardaş bildiyi ağstafalı balası Xaləddin Cəlilovla birlikdə 16 erməni postunun dağıdılmasında, Murovdağ yüksəkliyinin düşmənlərdən təmizlənməsində aslanlar kimi vuruşub döyüşçü yoldaşlarının bizim “Murov aslanımız” dedikləri Sadiq Bağırzadə. Murovdağa bayraq qaldıranda üzündəki Qələbə sevinci ilə qalıb dostlarının yadında igidimiz. Sadiq döyüşdə olduğunu ailəsinə deməmişdi. Ata-ana bundan xəbərsiz idi. Hər gün bir xəbər gözləyirdilər. Ürəkləri bir xəbər ümidinə sarılmışdı... “Ayın 30-da səhər Ərçivana şəhid gəlmişdi. Orda idim. Çox ağır idi. Günorta evə yenicə qayıtmışdım. Xəbər gəldi... Xaləddinlə bir yerdə olub” – deyir atası. Susur. Arada səsi qırılır. Nə deyəcəyimi bilmirəm... Nələr desək də, ana-ata ürəyi yaralı qalır... Cəmi iki gün fərqləri vardı ailənin tək oğullarının. Xaləddin aprelin 13-də, Sadiq isə 15-də dünyaya gəlib. İkisi də 18 yaşında... İkisi də idmançı.

İstənilən savaşda itki olur. O ki qala Vətən savaşı. Düşmən əlində olan torpaq yükündən ağır heç nə yoxdur. Səni əyən, əzən yükü daşımaqdan çətin nə ola bilər ki?!

Bizi bu yükdən qurtardı Sadiqlər. Onu böyük izdihamla qarşılayıb, ölməzliyinə izdihamla yola saldılar el-obasında. İndi müqəddəs arzusuyla qolboyundur Sadiq.

“Vətən uğrunda”, “Cəsurluğa görə” medalları ilə təltif olunub Sadiq. Sadiqin, sadiqlərin cəsurluğudur Vətən. Onun qələbə sevincli təbəssümü var Vətənin üzündə – hamımızın illərlə həsrət qaldığımız təbəssümün...

*Kamalə Abiyeva*

## Sadiq RƏHİMOV



Sadiq Nadir oğlu Rəhimov 10 dekabr 1997-ci ildə Lerik rayonunun Veri Əliabadı kəndində sadə sürücü ailəsində dünyaya gəlib. Həmin vaxt əmisi Valeh Rəhimov iki il idi ki, şəhidlik zirvəsinə ucalmışdı. Doğmaları ona Valeh adını qoymaq istəsələr də atası onun şəhid əmisinin adına, elinə-obasına,Vətəninə sadiq olacağını hiss etdiyindən ona Sadiq adını qoymuşdu.

Birinci Qarbağ müharibəsi yenicə bitmişdi. Sadiq yaxın qohumları, əmiləri və dayılarının düşmənlə mübarizədəki şərəfli döyüş yollarının aurasında böyüyürdü.

Sadiq 2004-cü ildə şəhid əmisi Valeh Rəhimovun adını daşıdığı Lerik rayonu Veri-Əliabadı kənd ümumi orta məktəbin birinci sinifinə qəbul olunur. Qardaşı Layiqin əlindən tutub məktəbə gəldiyi ilk günlərdən müəllim və məktəb yoldaşlarının sevgisini qazanır. Nümunəvi şagird kimi həmyaşıdlarından seçilir, hər yeni tədris ili başlayanda sinif nümayəndəsi seçilirdi. Məktəbin bütün tədbirlərində vətənpərvərlik vzusunda səsləndirdiyi şeir və hekayələr onun daxilən Vətənə olan böyük sevgisindən və gələcəkdə qəhrəman oğullarımızdan birinə çevriləcəyindən xəbər verirdi.

Qardaşı Layiq Rəhimov Cəmşid Naxçıvanski hərbi liseydə və Heydər Əliyev adına Ali Hərbi Məktəbə oxuduğu illərdə Sadiq hər yay tətilində evə gələndə qardaşının kursant paltarlarını geyinər, mən də əsgər olmaq istəyirəm deyirdi. Qardaşı Layiq həmin günləri xatırlayarkən deyir: “Allah o müqəddəs formanı mənə, o libasa olan böyük həvəsi isə Sadiqə nəsib etmişdi”. 2012-ci ildə Sadiqin atası vəfat edir və qardaşı Ali Hərbi

Məktəbdə oxuduğundan ailənin qayğıları onun çiyinlərinə düşür. Qardaşından kiçik olsa da, bir günün içində böyüyərək ailədə ata, əmilərinə, bibilərinə qardaş, doğmalarına atası Nadir əvəzi olur. Daha tez zamanda təhsil alıb peşə sahibi olmaq üçün 2013-cü ildə 9-cu sinifi bitirən kimi Astara Pedaqoji Texnikomunun Bədən tərbiyyəsi ixtisasına qəbul olunur. 2017-ci ildə həmin kolleci bitirdikdən sonra həqiqi hərbi xidmətə yola düşür. Vətənə olan borcunu da elə cəbhə xəttində, düşmənlə üz-üzə ödəyir. Kəşfiyyatçı kimi döyüş sirlərinə  mükəmməl şəkildə yiyələnir, nümunəvi xidməti ilə seçilir.

2020-ci ilin iyul ayında düşmənin Tovuz istiqamətində təxribata əl atması Sadiqi də hiddətləndirir. O, həmin vaxt səfərbərlik və hərbi xidmətə çağırış üzrə Dövlət komitəsinə müraciət edərək orduya könüllü yazılır. Könüllülərin təlimləri başlayanda, 21 sentyabrda ailəsinə xəbər vermədən təlimlərə yola düşür. Doğmaları bir neçə gün sonra onun yenidən hərbi xidmətdə olduğundan xəbər tuturlar. 27 sentyabrda ermənilərin növbəti təxribat cəhdləri torpaqlarımızı yağı düşmən tapdağından azad etmək zərurətini yaratdı. Sadiq ilk günlərdən hərbi əməliyyatlarda aktiv iştirak etməyə başlayır. Tək yaşayan anasının ondan və ön xətdə zabit kimi vuruşan qardaşı Layiqdən nigaran qalmaması üçün imkan tapıb əlaqə saxlayanda hər şeyin yaxşı olduğunu deyir: “Ana bizdən ötrü narahat olma, vaxt gələcək mənimlə qürur duyacaqsan” – söyləyirdi. Sadiq Rəhimov Füzuli, Cəbrayıl, Qubadlı istiqamətində gedən döyüşlərdə mərdliklə iştirak edib, düşmənə sarsıdıcı zərbələr endirib. Şuşa istiqamətində gedən döyüşlərə qatılarkən növbəti döyüş əməliyyatı zamanı 3 noyabr 2020-ci il tarixində Xocavənd rayonunda şəhid-



lik zirvəsinə ucalıb. Lerik 6 dekabr da "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarları ilə öz qəhraman şəhid övladını qarşılayaraq onu doğma Veri-Əliabadı kəndində son mənzilə yola salıb.

Sadiq Nadir oğlu Rəhimov 15 dekabr 2020-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirakına və qarşısına qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda" medalı ilə ölümündən sonra təltif edilib.

Azərbaycanın ürəyində dalğalanmağa başladı.

*Almaz Ülvi*

## Sadiq MƏMMƏDOV

Polkovnik-leytenant Məmmədov Sadiq Sadəddin oğlu 1981-ci il iyun ayının 23-də Qax rayonunda anadan olmuşdur. 1988-ci ildə Heydər Əliyev adına Hərbi Akademiyaya qəbul olmuşdur. 2002-ci ildə həmin Akademiyanı bitirərək baş leytenant rütbəsi ilə Salyan rayonu "N" saylı hərbi hissədə işə başlamışdır.2015-ci ildə Naftalan şəhərinin, Tərtər rayonunun "N" saylı hərbi hissələrində çalışmışdır. 2018-ci ildə isə Qusar rayonunun "N" saylı hərbi hissəsində çalışmışdır. Çalışdığı illər ərzində müxtəlif dərəcəli medallarla təltif olunmuşdur. İkinci Qarabağ Müharibəsində 26 oktyabr 2020-ci il tarixdə Qubadlı, Laçın rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.



Ailəlidir. Üç övladı var. Allah rəhmət etsin!

## Sahil RƏSULOV



Qəhrəman şəhidimizi də bəyənin! Sahil Rəsulov, Goranboyun Səfikürd kəndində doğulub, Müharibəyə gedən gün anasına deyib ki, şəhid olsam, ağlama! Samirə ana da göz yaşlarını içinə axıdır! Oğlum qəhrəmanlıqla həlak olub.

Vətənin, torpağın, ana-bacılarının namusunu qoruyub! Şəhidlərin özü də, sözü də müqəddəsdir!

Məkanın cənnətdir, igidim!

*Telli Pənahqızı*

## Saleh SƏFƏROV



Saleh Səfərov İrzaxan oğlu 1983-cü ildə Yardımlı rayonunun Ünəç kəndində anadan olmuşdur. Vidadi Məhərrəmov adına 4 saylı tam orta məktəbdə oxumuşdur. 2014-cü ildə 702 saylı hərbi hissədə işə başlamışdır.

Saleh Səfərov II Vətən müharibəsində Füzuli rayonunun işğaldan azad olunması uğrunda döyüşmüş, şəhidlik zirvəsinə ucalmışdır.

Ailəli idi, 2 övladı yadigar qaldı.

Allah rəhmət eləsin!

*Əziz Əzizov*

## Samir MƏMMƏDOV



Samir Məmmədov 1986-cı il 10 fevral Göyçə mahalının Basarkeçər rayonunda anadan olub. Göygöl rayonunun Zurnabad kəndində 1 nömrəli məktəbə gedib. 2005-ci ildə Vətənə borcunu yerinə yetirmək üçün Ağcabədi rayonuna hərbi xidmətə yola düşür. 2012-ci ildə isə Cəlilabad rayonunda hərbi xidmətə başlayır və 2013-cü ildə xidmət vəzifəsini icra etmək üçün könüllü olaraq döyüş bölgəsi olan Füzuli şəhərinə ezam olunmağı qərara alır. Samir Məmmədov 2016-cı ildə baş vermiş "Aprel döyüşləri"ndə də iştirak etmiş, medal və fəxri fərmanlarla təltif olunmuşdur. 2018-ci ildə Murov dağ yüksəkliklərində 2 il xidmət edir və 2020-ci il aprel ayında Füzuli şəhərinə qayıdır. Samir Məmmədov Füzuli şəhərinin azadlığı uğrunda döyüşür və müharibənin ilk 15-ci günündə oktyabrın 12-də şəhidlik zirvəsinə ucalır. Şəhidimizin xanımı Turanə xanım danışır: "Sentyabrın 26-sı səhər saat 6-da zəng etdi. Dedi ki çox darıxıram. Elə bildim nəsə olacaq, ağladım. Dedi ki halallaşaq, gedirəm müharibəyə, qayıtmasam övladlarımızı mənim xəyal etdiyim kimi böyüt, onlara yaxşı bax, ağlama. Onların yanında elə danış ki, mən həmişə yaşayıram, bilsinlər, - dedi. Mən də "bizdən nigaran qalma, amma qayıt, gözümüzü yolda qoyma" – dedim. İki övladımız var, əmanətlərini onun arzuladığı kimi böyüdəcəm və onsuz yaşayıramsa, ömür dəftərimi doldururam. Çox yaxşı insan idi".

Şəhidimiz ailəli idi və onun 2 övladı var. Samir Məmmədov Göygöl rayonu Şəhidlər Xiyabanında dəfn olunub.

*Şərqiyyə Həsənova*

## Seymur HÜSEYNOĞLU



Azərbaycanın hərb tarixinə Qələbə ili kimi daxil olan, Azərbaycan oğullarının qəhrəmanlıq salnaməsini yaddaşlara əbədi həkk edən 2020-ci il xalqımızın yenilməzliyini, birlik və bərabərliyini bütün dünyaya nümayiş etdirdi. 44 günlük Vətən müharibəsində hərbi və siyasi qələbəmiz xalqımızın 30 illik torpaq həsrətinə son qoydu, Azərbaycan əsgərinin rəşadəti qarşısında erməni ordusunun məğlubedilməzlik mifi darmadağın edildi, işğaldan azad edilmiş torpaqlarımıza müqəddəs bayrağımızı sancmaq hər bir əsgər və zabitimizin ən böyük arzusuna çevrildi.

Belə qəhrəmanlarımızdan biri də Vətən torpaqlarının azadlığı uğrunda mərdliklə vuruşan və şəhadət məqamına yüksələn baş leytenant Seymur Hüseynoğludur. Seymur 20 oktyabr 1993-cü ildə Ordubad rayonunda anadan olub. İlk təhsilə 2000-ci ildə Ordubad şəhər 3 nömrəli orta məktəbdə başlayıb. Qorxmazlığı, cəsarəti, əxlaq və tərbiyəsi ilə hər zaman seçilən Seymur kim deyərdi ki, gün gələcək igidliyi və şücaəti ilə də tarix yazan qəhrəmanlarımızdan olacaq, “Mən qəhrəman olacağam!” deyərək qatıldığı haqq savaşımızda göstərdiyi igidliklə dillərdə, ürəklərdə əbədi yaşayacaq. 2008-ci ildə qəhrəmanlığa gedən yolun ilk mərhələsi başlanır Seymur üçün. Ordumuz üçün peşəkar hərbçilər yetişdirən Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunur. 3 il burada oxuduqdan sonra 2011-ci ildə Bakıdakı Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olur. 2015-ci ildə buranı da uğurla bitirən Seymur Hüseynoğlu leytenant rütbəsi alır. Naftalan, Tərtər və

Bakı şəhərlərində xidməti vəzifəsini yerinə yetirən igidimiz tariximizin şanlı və şərəfli səhifələrindən olan, ordumuzun zabit və əsgərlərinin hünər və rəşadətləri ilə tarix yazdığı "Aprel döyüşləri"nin də iştirakçısı olur, Lətəpə yüksəkliyi uğrunda gedən döyüşlərdə şəhid general-mayor Polad Həşimovun rəhbərliyi ilə böyük şücaət göstərir. 2017-ci il 12 avqust tarixində döyüş hazırlığında, qoşun xidmətinin təşkilində əldə etdiyi nailiyyətlərə və nizam-intizamı yüksək səviyyədə saxladığına görə təltif olunan Seymur Hüseynoğlu 2018-ci ildə isə baş leytenant rütbəsinə layiq görülür. 2020-ci il iyulun 14-də Tovuz istiqamətində baş verən şiddətli döyüşlər zamanı şəhid olan general-mayorumuz Polad Həşimovun şəhadətə qovuşmasından dərin narahatlıq keçirən, onun intiqamını almaq arzusu ilə yaşayan Seymur haradan biləydi ki, bir neçə ay sonra əbədiyyət zirvəsində komandirini əsl qəhrəman döyüşçü, qalib ordunun yenilməz sərkərdəsi kimi salamlayacaq.

27 sentyabr başlayan Vətən müharibəmizə digər oğullarımız kimi, Seymur da əsl qəhrəman kimi yollanır. Ailəsi ilə 27 sentyabrda sağollaşaraq qızğın döyüşlərin başladığı Füzuli rayonuna gedir. Seymur Hüseynoğlu ilə  xidmət zamanı çiyin-çiyinə vuruşan zabitimiz baş-leytenant Qayıb Əliyev döyüşə getdikləri məqamları belə xatırlayır: "Sentyabr ayının 27-si Seymurla birlikdə Bakıdan Qarabağa yollanarkən onunla maraqlı söhbətlərimiz oldu. Yol boyu Seymur qətiyyətlə deyirdi ki, müharibə gələcək nəsillərə qalmamalı, övladlarımız sülh və firəvanlıq içində yaşamalıdır!". Füzuli, Hadrut, Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edərək əsl qəhrəmanlıq nümunəsi göstərən, torpaqlarımızın azad olunması uğrunda son nəfəsinə qədər vuruşan igidimizin "Mən istəyirəm hər şey kökündən həll olunsun! Daha uşaqlar atasız qalmasın! Gələcək nəsil rahat yaşasın deyə indi biz varıq! Nə etmək lazımdırsa, edəcəyik, canımı belə fəda etməyə hazıram!" sözləri mərd, igid Azərbaycan oğlunun bütün nəsillərə örnək olacaq qəhrəman-

lığının təcəssümü, mərdliklə vuruşan əsgərlərimizin zəfərə gedən yolda inamla səsləndirdikləri qalibiyyət nəğməsi, zəfər səsi idi. Bu amal idi Azərbaycan əsgərini düşmən qarşısında qorxusuz, yenilməz edən.Ailəsi ilə 11 oktyabr son danışığı zamanı da Seymur eyni inam və cəsarətlə deyir: “Mən hansısa bir qəzada, yaxud ürəyi dayanaraq ölən biri deyiləm, mən döyüşçüyəm, döyüşdə də ölməliyəm!”. Qəhrəmanımızın hər zaman söylədiyi, həyatının əsas məramını ifadə edən bu sözlər bu gün dillər əzbərinə çevrilərək, Vətənə sevginin, qorxmazlığın, cəsarətin ən gözəl nümunəsi kimi yaddaşlara əbədi həkk olunub.

16 oktyabr Cəbrayıl uğrunda gedən döyüşlərin birində Seymur Hüseynoğlu ayaq, qarın və baş nahiyəsindən ağır yaralanır. 41 gün komada qalan igidimiz noyabrın 26-ı şəhadətə qovuşur və İkinci Fəxri xiyabanda torpağa tapşırılır.

*“Qəhrəman olacam!” dedin və oldun,*
*Döyüşdə ucaldın, nəhəng dağ oldun,*
*Ey cəsur komandir, qəhrəman igid!*
*Xalqın yaddaşında əbədi qaldın.*

Vətən uğrunda qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalan Seymur həm də komandir idi. Tabeliyində olan əsgərlərə hər zaman nümunə olan, igidliyi, cəsarəti, düzgün əmrləri ilə onları ən ağır döyüşlərdən sağ-salamat çıxarmağı bacaran qəhrəmanımız onların da xatirəsində silinməz izlər qoydu. Onun cəsur əsgərlərindən biri Tağıyev Rüfət öz komandirini bu sözlərlə yad edir: “Hüseynoğu Seymur bizim igid komandirimiz idi. Heç yadımdan çıxmaz, bir gün o, döyüş zamanı bizim səngərə gələrək dedi: “Mənim dediklərimi etsəniz, burnunuz belə qanamadan evlərinizə sağ-salamat, qəhrəman kimi qayıdacaqsınız”. Mənim şəhid komandirim! Sizin düzgün əmr-

lərinizlə biz evimizə sağ-salamat qayıdırıq. Siz bizim ürəyimizdə həmişə bir qəhrəman kimi qalacaqsınız!”. Əsgər Novruzov İslam isə son döyüşlərinə yollanarkən komandirinin onlarla olan söhbətini xatırlayır və onu hörmətlə yad edir: “Komandirimiz baş-leytenant Hüseynoğlu hər gün olduğu kimi, bu səhər də ayağa qalxıb bizə dedi: “Bu, həmin gündür! Qəhrəman olmağın vaxtı çatdı!”. Elə həmin gün uğurlu əməliyyatların birinə rəhbərlik edən komandirimiz döyüş zamanı ağır yaralandı. Allah sizə rəhmət eləsin, cəsur komandirim! Sizi heç vaxt unutmayacağıq!”.



İşğal altında olan torpaqları azad edən, bu yolda son damla qanlarına qədər vuruşan, qeyrət mücəssəməsinə çevrilən bütün igidlərimiz kimi, Seymur Hüseynoğlunun da Vətən, torpaq qarşısında göstərdiyi hünər, igidlik dövlətimiz tərəfindən layiqli şəkildə qiymətləndirildi. Qəhrəmanımız ölümündən sonra “Vətən uğrunda”, “Hərbi xidmətdə fərqlənməyə görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edildi və göstərdiyi şücaət və qəhrəmanlığı Azərbaycan xalqının qəlbinə əbədi həkk olundu.

Vətənə və xalqa xidmətin ən ali məqamına yüksələn Seymur Hüseynoğlunun ruhu bu gün şaddır. Vətən övladları atasız qalmasın deyə, öz körpə balasını bizlərə əmanət edən qəhrəmanımızın yarımçıq qalan mübarizəsi müzəffər Azərbaycan ordusunun şücaəti sayəsində uğurla tamamlandı, 30 il həsrətini çəkdiyimiz torpaqlarımız geri qaytarıldı.

*Sahab Əliyeva*

## Səbuhi HƏSƏNQULİYEV



Azərbaycanın əzəli və əbədi torpağı olan Qarabağ uğrunda canından keçən igidlərdən biri də Səbuhi Əlixan oğlu Həsənquliyevdir. Əslən Ucarlı olan Səbuhi 2002-ci ildə Sumqayıtda dünyaya göz açmışdır. İlk təhsilinə Sumqayıt şəhəri Kimyaçılar qəsəbəsində yerləşən Cəbrayıl rayon tam orta məktəbində başlamışdır. 2017-ci ildə orta təhsilini dayandıraraq, 10 nömrəli peşə liseyində təhsilini davam etdirmiş və 2020-ci ildə peşə liseyini bitirdikdən sonra iyul ayında hərbi xidmətə yollanmışdır. Onun yaxınlarının fikirlərinə əsasən şəhidimiz ürəyiaçıq, vətənə və millətə sadiq bir insan idi. O, vətənimizin azad olunması üçün gedən müharibəyə könüllü və istəkli şəkildə qatılaraq ön sıralarda döyüşmüşdür.



Qəhrəmanımız döyüşlərdə igidlik və şücaət göstərmiş, Şuşanın azad olunması uğrunda cəsurcasına döyüşərək ən ali məqam olan şəhidlik zirvəsinə ucalmışdır. Şəhidlərimiz bizim and yerimizdir. Onlar hər zaman qəlbimizdə xatırlanacaq.

*Vətən, sənin suyuna, çörəyinə qurban,*
*Torpağına, havana,bayrağına qurban,*
*Qarabağ deyəndə ürəkləri titrəyən*
*Neçə-neçə igid oğullarına qurban…*

Allah cümlə şəhidlərimizə rəhmət eləsin, amin inşallah.

*Nuray Bəbirli*

## Səbuhi HÜSEYNLİ

*Şəhadətin, cənnətin mübarək, ciyər param Səbuhim…*



Sən mənim kiçik dayımın nəvəsi, nəslimizin sevimlisi idin. Adının mənası sabah yeli olmalı. İnsanların ciyərləri dolusu çəkdikləri sərin sabah yeli. Özün kimi, qəlbin kimi tərtəmiz. Günəş kimi doğdun, sabah yeli kimi gəldin, axşam ayazı kimi aramızdan getdin... Sən əsgəri xidmətini vicdanla yerinə yetirib ailənə döndükdən sonra çox da duruş gətirə bilmədin. Hərbidə ömürlük xidmət etmək üçün könüllü yazıldın. Qusardakı Quru qoşunlarında 9 ay idi ki, xidmət edirdin. Və sentyabrın 27-də hərbi hissə ilə birlikdə ön cəbhəyə yollandın. Bir aylıq döyüş yolun zəfərlərlə dolu. Kəşfiyyatçıydın. Xüsusi təyinatlıların sıralarına cəlb etmişdilər səni. Elə bir döyüş tapşırığı olmazdı ki, birincilər sırasında getməyəsən. Və vəzifəni yüksək səviyyədə yerinə yetirib qayıdırdın. Komandirin, döyüş yoldaşların sənin şücaətindən, qəhrəmanlıqlarından o qədər bəhs edirlər ki...

Ürəkliydin, qorxmaz idin, sinəni qabağa verərdin, yoldaşlarını qoruyardın. Ta Xocavənd istiqamətində beynindən ağır qəlpə yarası alanadək. 26 oktyabrda yaralandığın üçün döyüşçü yoldaşlarından ayrılmalı oldun. Sən düşmən gülləsindən ölməyi özünə sığışdırmırdın. Buna mən əminəm. Yoxsa 155 gün ölümlə həyat arasında mücadilə verməzdin. Biz sənə inanırdıq. Sənin mənfur ölümə qalib gələcəyinə inanırdıq. Sən canınla, ağrılarınla yaşam mücadiləsi verərkən biz də dualarımızla sənə kömək olmağa çalışırdıq. O qədər dua edirdik ki. Nədən heç bir duamız o uca qatda eşidilmədi?!

Mən səni uşaq ikən görmüşdüm. Yeniyetmə çağlarını o qədər də xatırlamıram. Amma bu 5 ay yarımda hər gün səni düşündüm, səninlə nəfəs aldım. Necə istəyirdim sənin sağalıb ayağa qalxmağını. Mənim nağıl qəhrəmanım möcüzə göstərəcək deyirdim, bizi sevindirəcək deyirdim. Nədən olmadı ilahi? Nədən itirə-itirə gedirik gül üzlü igidlərimizi?.. Sən nədən bizi bu qədər tez tərk etdin? Sən nədən ölümə bu qədər tələsdin? Evlənməyə də tələsmişdin. Ona görəmi ki, özündən sonra Babəki yadigar qoyasan? Bunun üçünmü Səbuhim? Demək istədiyin, amma deməyə macal tapmadığın nə qədər sözün-söhbətin getdi səninlə. Sən hər şeyi yarım qoyub getdin 24 illik ömrün kimi. Sən bizi param-parça etdin igidim. Sən bizi bir ömür gözü yaşlı qoydun. Sən bizi ümidsizliyin dibinə atdın. Sən...sən...çox əzab çəkdin.



Canın çox ağrıdı bilirəm. Anan Samirə əllərindən tutanda gözündən axan yaş bunu bildirirdi. İndi ağrılarını özünlə apardın, acılarını bizə qoydun. Getdin rahat uyumağa Allahımın dərgahında. Getdin mələklərin yanına yaralarına məlhəm çəksinlər deyə. Rahat uyu. Şəhadətin, cənnətin mübarək ciyər param, Səbuhim, bizə sağalmaz dağ çəkib gedən mələyim!

*Əntiqə Qonaq*

## Səbuhi SÜLEYMANOV



Şəhidlər haqqında danışmaq və yazmaq daimağrılıdır. Məni bağışlayın, şəhidlər bütün xalqa məxsus olub, hamının gözünün işığı, ürəyinin özəyi kimi dəyərləndirilsə də, şəhid olmuş hər hansı bir kəsin, insanın yaxını olduğu eşidilib duyulanda daha çox narahatlıq keçiririk. Baxma da, hər necə olsa da, o, sənin canının bir parası, soyunun, kökünün, nəslinin bir nümayəndəsidir. Qarabağ savaşı başlayandan – 1988-ci ildən üzü bəri erməni separatçı və terrorçu təşkilatlarının heç bir çərçivəyə, qanuna söykənməyən, torpaq iddiasi nəticəsində xalqımız minlərlə şəhid, on minlərlə itkin, yaralı, əsir vermiş, indiyəqədər izi-tozu, yeri bilinməyən övladların həsrətini çəkməkdədir. Qaçqın, köçkünlərimizin sayı isəmilyondan o yana adlamışdır.

2020-ci ilin 27 sentyabrına qədər erməni-Azərbaycan cəbhəsində vəziyyətimiz acınacaqlı olsada, həmin gün Ermənistan ordusunun Azərbaycan ərazisinə yenidən təcavüzü nəticəsində “daha bəsdir” deyib, Azərbaycanın Ali Baş Komandanı İlham Əliyev ordumuza cavab hərəkətləri həyata keçirmək tapşırığı verdi. Bu tapşırıqdan sonra erməni-Azərbaycan müharibəsində ağılagəlməz dərəcədə əsaslı dönüşlər baş vermiş, cəngavər Azərbaycan oğulları erməni qəsbkarlarının cavabını layiqincə vermişlər. Boz qurd iddiasında bulunan ciyərli Azərbaycan oğulları sırasında dayımnəvələri Süleymanov Səbuhi və Süleymanov Heydər Ələkbər oğlu kimi iki qardaşlar da ön cərgədə addımlayanlardan, erməni qəsbkarlarını gəbərdənlərdən idilər. Səbuhi əsgəri xidmətini başa vurub ordumuzda MAXE kimi xidmət edirdi.Amma Heydəri Səbuhi

müharibədə döyüşə-döyüşə səfərbərliyə çağırıb Ağdam cəbhəsinə göndərmişdilər.

Səbuhi Ucar rayonunun Bərgüşad kəndindəndir. Ulu Həbibinin el-obasından, onun soyundan – kökündən gələnlərdəndir. Səbuhi qədim təhsil, məktəb və maarifçilik ənənələrinə bağlı olub, çoxsaylı ziyalılar yetirmiş. Bərgüşadın öz qəhrəman oğulları ilə öyünmək haqqı bəlkə də hamıdan çoxdur. Səbuhi Bərgüşad kənd 1 saylı orta məktəbində təhsil almışdı. Ürəyində saysız – hesabsız arzuları vardı Səbuhinin. Heyifki, bu arzuların əksəriyyəti cücərmədi, boy atmamış qaldı. Atası Ələkbər Əlheydər oğlu dünyasını vaxtsız dəyişdiyindən, ailə maddi çətinlik məngənəsində sıxıldığından onun arzuları çiçək açmağa macal tapmayıb özü ilə o dünyaya getdi. Səbuhigildəki maddi çətinlik onu həvəsdən salmadı. Amma bütün bunlara baxmayaraq, Səbuhi həvəsdən düşmüşrü. Vətəninə, xalqına, torpağına, dövlətinə xidmət etmənihər şeydən üstün tutdu Səbuhi. Ordu sıralarında olub, bacarıqlı əsgər kimi yetişib, o, öz əsas missiyasını Vətənə layiqincə gərək olmaqda görmüşdü Səbuhi. Əsgəri xidmətə də elə buna görə böyük ümidlə yollanmışdı. Ordudan tərxis olunma vaxtı çatanda komandirlərinə ürək arzusunu bəyan etmişdi. Xidmət etdiyi dövrdə komandırlərinin böyük rəğbətini qazandığından onlar da Səbuhinin istəyinə qarşı çıxmamış və o, Azərbaycan Ordusu sıralarında həmin dövrdən MAXE kimi qulluq etməyə başlamışdır.

Bəlkə də Səbuhi MAXE kimi xidmət etməyə başladıqda içində xoşbəxt gün kimi Azərbaycan əsgərinin Qarabağdakı itirilmiş torpaqlarımızda öz haqqını bərpa etmək uğrunda hələ o vaxtlar çox düşünmüşdü. Bəlkə də Səbuhi elə ilk gün əsgəri xidmətə yollananda Qarabağ barədə, onu azadlıq gününü görmək barədə daha çox düşünmüşdü. Bəlkə sonuncu dəfə evlərindən anası Südabə xanımdan ayrılıb döyüş bölgəsinə yollananda, bacıları Sədaqət, Simuzər və Səbinə ilə sağollaşanda da

ürəyinə danmışdı ki, onun doğma rayona, kəndə qayıdışı şəhidlik zirvəsinə ucaldıqdan sonra baş verəcəkdir. Bəlkə də Səbuhinin içində belə bir hiss də baş qaldırmışdı ki, Azərbaycanın elm, sənət, ədəbiyyat, mədəniyyət, musiqi incisi – bütün azərbaycanlıların səcdəgahı – Şuşanın azad edilməsində digər qəhrəman Azərbaycan oğulları ilə bərabər erməni qəsbkarlarını gəbərtmək onun da tale payına düşəcəkdir. Bəlkədə Səbuhi elə buna görə şəhidlik zirvəsinə ucalmağı özünün ən böyük uğuru hesab edirdi. Bu "bəlkələri" biz sonsuz olaraq sadalayıb, sadalamamağımızdan asılı olmayaraq, Səbuhidən bizə onun örnək olan döyüşçü yolu, cəngavərlik bacarığı, Azərbaycan bayrağına bürünmüş Bərgüsad kəndindəki məzarıstana torpağa qoyulduğu vaxtı dünyanın özünün donduğu, dəfn zamanı onun komandırlərinin və döyüşçü dostlarının haqqında ağızdolusu danışdıqları, onun cəsarətli, yenilməz, döyüşkən və ciyərli bir igid əsgərlə bağlı söylədikləri oldu.

Dayım nəvəsi Səbuhi Ələkbər oğlu Süleymanovdan ordumuzun Qarabağ, xüsusilə Şuşa uğrunda apardığı əzəmətli mübarizədən bizə qalan onun qəhrəmanlıqla şəhidlik zirvəsinə ucalması oldu.

Səbuhinin cəmi 23 yaşı vardı. Bu yaşın necə dövr olduğunu yaxşı anlayırsız. Çox cüssəli, məğrur, qorxmaz, cəngavər oğul idi Səbuhi. Qorxu nə idi bilməzdi. Onu tanıyanlar, onunla ünsiyyətdə onlar hələ də inanmırlar ki, Səbuhi kimi nər ürəkli bir oğul həlak olar, bu dünyaya beləcə vaxtsız olaraq göz yumardı. Çünki ölüm Səbuhinin heç bir halda nə görkəminə, nə şücaətinə, nə də qorxmazlığına yaraşmırdı.

İnanmaq olmur ki, Səbuhi bir də doğma kəndə qayıtmayacaq, can-ciyərləri ilə canlı görüşməyəcək. Bağın başından anasını səsləməyəcək. Anası Südabə xanım bir daha onun qabağına qaçaraq "Sənə qurban olum, oğul, gəldin" kəlməsini dilə gətirməyəcəkdir. Bacıları Sədaqət, Simuzər və Səbinə onun ordudan məzmuniyyətə gəldiyini eşidib qucaq açа-açа qarşı-

sına yüyürüb onu qucaqlamayacaqlar. Heyif Səbuhidən. Vaxtsız getdi dünyadan. Bizləri də yamanca göynətdi. Amma təsəllimiz budur ki, Azərbaycanımızın qüdrət və əyilməzik simvolu olan Şuşamız uğrunda getdi Səbuhi.

İndi Şuşa azaddır. Şuşadakı qədim. Cümə məscidində donuz saxlayan mədəniyyət və mənəvi dəyərlərinə görə donuzdan fərqlənməyənermənilər igid qəhrəmanlarımız "İti qovan"ın köməyi ilə it kimi qovdular. İndi Şuşadan hər gün azan səsi gəlir. Bərgüşad kəndindəki məzarlıqda uyuyan Səbuhinin ruhunu da sanki hər gün həmin azan səsi ziyarət edir. Həmin azanın bəzi ilmə və naxışlarından Səbuhinin məzaranın üstünə azadlıq simfoniyasının yeni partiturası, yəni yazıları sinxronlaşaraq şaquli xətlə keçib, Səbuhiyə həsr olunmuş notları dilə gətirərək deyir: "Sən Azərbaycanımızın ürəyinin özəyi olan Şuşamızın azadlığı uğrunda getdin! Yerin cənnətdə olsun, Səbuhi! Şəhidlər ölmür – Vətən bölünmür. Sən öl-mədin! Sən sıramızdasan, Səbuhi!". Nə qədər Uca xalqımız var! Nə qədər bu xalqın təəssübkeş oğulları var, Şuşamızdan, Qarabağımızdan Azan səsi kəsilməyəcək! Hər dəfə həmin Azan səsindən sənin də ruhuna pay düşəcəkdir! Rahat yat, xalqımızın qəhrəman oğlu, Səbuhi!

*Nizami Məmmədov Tağısoy*

## Sərxan MUSTAFAYEV



Sərxan Mustafayev 1994-cü il martın 21-də Qazax rayonunun Aslanbəyli kəndində anadan olub. 2001-2009-cu illərdə Aslanbəyli kənd tam orta məktəbində təhsil alıb. Ailəli idi. Bir oğlu və bir qızı yadigar qaldı. Sərxan Mustafayev 2012-2013-cü illərdə Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Sərxan Mustafayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Sərxan Mustafayev oktyabrın 31-də Füzuli döyüşləri zamanı şəhid olub.Qazax rayonunun Aslanbəyli kəndində dəfn olunub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən təltif edilmişdir:

15.12.2020 – “Vətən uğrunda” medalı
18.12.2020 – “Döyüşdə fərqlənməyə görə” medalı
25.12.2020 – “Xocavəndin azad olunmasına görə” medalı
25.12.2020 – “Füzulinin azad olunmasına görə” medalı

*Şəhrəbanu Allahverdiyeva*

## Sərxan SALAHOV



Sərxan Həsənqulu oğlu Salahov 1 mart 1991-ci ildə anadan olub. Ələkli kənd tam orta məktəbdə orta təhsilini alıb. Onlar ailədə iki bacı, bir qardaş olublar. Sərxan elə uşaqlıqdan bəri mərd, vətənpərvər olub. O, daim ailəsinin və eyni zamanda Vətənin yükünü çiyinlərində hiss edib. Buna görə də Vətənə hərbi xidməti özünə borc bilib. Anası Müşkinaz Salahova onu belə yad edir: "Sərxan müddətdən artıq hərbi xidmətə qulluq edirdi. Kursunun bitməyinə 3-4 gün qalmışdı. Döyüşlərə könüllü yazıldı. Getdi, qəhrəmancasına döyüşdü və qəhrəmancasına şəhid oldu...". Sərxan döyüşlərdə olduğu müddətdə ailəsindən bunu gizlədib. Anası deyir ki, "Danışırdıq Sərxanla. Deyirdi ki, ana, mən qabaqda deyiləm ki, mən döyüşmürəm, mən arxa cəbhədə fəaliyyət göstərirəm. Sən demə, məni aldadırmış ki, pis olmayım. Döyüşlərin ən qızğın getdiyi bölgələrdə imiş". Ana deyir ki, danışıqlarımız zamanı telefonda atışma səslərini eşitdiyim zamanda belə mənə "Bizim uşaqlardır"- deyirdi. Döyüş yoldaşları Sərxanın bitib-tükənməyən əzmindən danışırlar, deyirlər ki, "Sərxan yaralananda hospitala aparıldı. Xəstəxanada o qədər ağır yaralılar görüb, deyib ki, mən üç qəlpə yarası almışam, mənə bir şey olmaz, buraxın məni gedim". Beləcə yenidən cəbhəyə yollanıb. Dostları ona təkidlə müalicə almaq üçün getməyini deyib. Amma o "Mən heç kimdən artıq deyiləm. Siz necə, mən də elə" deyib. Bu iradə, bu ruh yüksəkliyi ilə davam edən qızğın döyüşlərin birində, səngərdə olduğu vaxt dostu Raufun şəhid olması xəbərini alır. Bu xəbər ona ağır zərbə vurur. Yanında olan yoldaşları danışır ki, Sərxan "şəhid" sözünü eşidər-eşitməz, həmin an səngərdən çıxdı, yürüdü ermənilərin üstünə. Nə qədər

dartdıq ki, Sərxan, geri dön, getmə, göydən bomba yağır. Sərxan dinləmədi. Getdi qabağa. İki saatdan sonra xəbər gəlib ki, Sərxan vuruldu, Sərxan şəhid oldu. Dostları deyir ki, hələ bundan qabaq da beş gün mühasirədə qalmışdıq. Lakin ordan çıxmağı bacarmışdıq. Videolarının birində Sərxan deyirdi ki, alnımıza nə yazılıbsa, o da olacaq. Amma o alnına nə yazıldığını düşünmədi, birbaşa yağının üzərinə yürüdü. İndi Müşkinaz ana deyir: "Qismətində Şəhidlik məqamına çatmaq var imiş. Mən balalarımı çox çətinliklə böyütmüşəm. Sərxan da iki bacının bir qardaşı idi. Deyirdi ki, ana, mən hərbiçi olacağam. Bundan sonra hər şey yaxşı olacaq. Sənin başını hər yerdə ucaldacam. Deməli, Sərxan mənim başımı bu cür ucaldacaqmış. Amma kaş torpaqlarımızın azad olunduğunu, qələbəni o da görəydi. Yenə də sağ olsun ordumuz, əsgərlərimiz, Prezidentimiz ki, onların qanı yerdə qalmadı, onların qanını aldılar. Düzdür, ana üçün çətindir, ancaq çox şükür, min şükür buna da. Ən azından onun cənazəsi gələ bildi mənim üstümə. Vətən sağ olsun!"

İki dost indi yanaşı, əbədi yuxuya dalıblar. Sərxanla Rauf – hər ikisi noyabrın 6-da Şərur rayonu Şəhidlər Xiyabanında yan-yana dəfn ediliblər. Sərxandan geriyə iki körpə qızı qalıb. Onları isə Vətənə əmanət edib getdi.

Sərxan Salahov şəhidlik zirvəsinə ucaldıqdan sonra Cənab Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli sərəncamına əsasən "Vətən Uğrunda" medalına layiq görülüb.

*Məleykə Mirzəli*

## Səməd RZAYEV



Rzayev Səməd Füzuli oğlu! Goranboy rayonunun Tatarlı kəndindən gedib müharibəyə. İndi məhlələrinə dönən yolla əsas yolun kəsişdiyi yerə onun böyük portretini vurublar, yoldan keçən hər kəs minnətdarlıq hissini ifadə etmədən ötmür!

– Dedim ki, ay bala, bir səbr elə, növbən çatsın, gedərsən də, evin böyük oğlusan, atan yox, bacın xəstə, o biri qardaşın hələ yeniyetmə, mən bu boyda işin öhdəsindən tək necə gələcəm?



Gülə- gülə qucaqladı məni:

– Ora gedənlərin çoxunun atası yoxdur! Sən mənim qoçaq anamsan, bundan sonra təkbaşına yaşamağa alışacaqsan, mən şəhid olandan sonra qapına gələnləri də dim-dik qarşıla, bax, ağlama ha!, – dedi, – bir də unutma, mən elə döyüşəcəm ki, hamı məndən danışacaq! İgid oğlan, qəhrəman əsgər, ruhun şad olsun, Anan sən deyən kimi dim-dik dayanıb:

– "Bütün şəhidlər mənim balamdır, Səmədimi ağlayanda göz yaşımı onların hər birinə ehsan edirəm", – deyir.

İkinci arzun da çin olub: o rayonda, o kənddə kimi dindirdiksə, hamısı iftixarla səndən danışdı.

Ruhun nigaran qalmasın, biz də danışacağıq, biz də yazacağıq! Şəhidlər baş tacımız, qürur, iftixar və and yerimizdir!

*Telli Pənahqızı*

## Səməndər İMANOV



İmanov Səməndər İsaxan oglu 1998-ci ilin mart ayının 20-si Salyanın Kürsəngi kəndində dünyaya göz açıb. 2004-ci ildə I sinfə gedib. 2015-ci ildə məzun olub. Elə həmin ildə də ali məktəbə daxil olub və 4 il Gəncə Dövlət Universitetində oxuyub. Oxuduğu müddət ərzində Yeni Azərbaycan Partiyasnın üzvü, Gənclər Təşklatının sədr müavini kimi ictimai fəaliyyətdə olub, sinif nümayəndəsi seçilib. 2019-cu ildə Universtetin məzunu olub, elə həmin il iyul ayının 11-i həqiqi hərbi xdmətə gedib, bir illik hərbi xidmətdən sonra evə qayıdıb. İki ay ötər-ötməz, 2020-ci ilin 21 sentyabrında səfərbərlik çağırışı ilə yenidən hərbi xidmətə yollanıb və 21 oktyabr tarixində Şuşa döyüşlərində Şəhidlik zirvəsinə ucalıb.

Şəhidlik ən ali, müqəddəs və şərəfli zirvədir. Çünki şəhidlər Vətənin, xalqın yolunda şüurlu şəkildə öz canlarından keçən insanlardır. Bu cür insanlar qəlblərində Vətənə, xalqa sevgi olduğu üçün şəhidlik mərtəbəsinə ucalırlar. Vətənimizin hər qarış torpağı üçün canından keçən qeyrətli oğullarımız, qızlarımız kimi. Belə igid qəhrəmanlarımızdan biri də Vətən müharibəsində qəhrəmancasına şəhid olan Səməndər İmanovdur. Valideynləri deyirlər ki, Səməndər məktəb yaşlarından vətənpərvərliyi ilə fərqlənirdi. Atası İsaxan kişi Birinci Qarabağ müharibəsinin iştirakçısı olub. Həmişə Qarabağa həsr olunan şeirləri əzbərləyən, müxtəlif tədbirlərdə böyük coşqu ilə söyləyən Səməndər Vətəni ailəsi qədər çox sevirdi. Gəncə Dövlət Universitetinin ekologiya mühəndisliyi fakültəsini bitirib hərbi xidmətə yollanmışdı. Top komandiri olmaq istəyirdi.

Sənədlərini də hərbi məktəbə vermişdi. Vətən müharibəsi başlayanda Səməndər döyüş meydanına atılaraq düşmənə qarşı mərdliklə vuruşdu, onlara layiqli cəzanı verdi.

Şəhidin atası İsaxan İmanov: "Oğlum Şuşayadək döyüşüb. Şuşa ətrafında ağır şiddətli döyüşlərdə iştirak edib. Gecə düşmən kəşfiyyatı hücuma keçərkən onların qarşısını alıb və bu döyüşdə yaralanaraq şəhid olub. Səməndər cəsur döyüşçü idi. Əsgər yoldaşları deyirlər ki, onları dəfələrlə düşmən mühasirəsindən çıxarıb. Qorxmaz və igid olub. Şəhid oğlumla qürur duyuram".

Səməndər Vətənlə bərabər öz komandirini, döyüş yoldaşlarını qoruyan qəhrəman idi. O, Füzuli, Cəbrayıl və Şuşa istiqamətlərində gedən döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Anası Validə İmanova: "Uşaq yaşından zəhmətkeş idi. Əsgərliyə getmişdi, kitabları orada oxuyurdu. Magistraturaya girmək istəyirdi. Vətən müharibəsində əldə olunan Qələbədə balamın da payının olması ilə fəxr edirəm". Səməndər özü şəhid olsa da, əzəli Vətən torpaqlarını öz canı, qanı bahasına düşməndən geri alan minlərlə qəhrəmandan birinə çevrilir. Şəhidlər ölməzdir, heç vaxt unudulmur. Biz müharibədə Zəfər qazandıq. İndi Zəfərimiz də var, Səməndərimiz də", – deyə Nəsir İmanov bildirib.

Bayrağı bayraq edən üstündəki qandır, torpaq əgər uğrunda ölən varsa Vətəndir. Səməndər bu misraları çox sevirmiş. İndi Səməndər kimi oğulların sayəsində bayrağımız əzəmətlə dalğalanır, Vətənimiz artıq azaddır.

*Nəsir İmanov,*
*qardaşı*

## Sənan ABDULLAYEV



Namaz üstündə şəhadətə qovuşan igid əsgər, şəhid Sənan Şahin oğlu Abdullayev!

Tarixin hansısa səhifəsini vərəqləyib bir xalqın taleyinə yazılmış qəhrəmanlıq salnaməsinə diqqət yetirdikdə dəyişməyən bir həqiqətin şahidi olursan. İnsanlarda anadangəlmə hiss, duyğu olan, nəyinsə, kiminsə naminə canından belə keçmək cəsarəti məqamı yetişəndəbaşqalarından fərqli xüsusiyyət mütləq özünü büruzə verir. İnsanı məhkum etmək olar, lakin şücaəti, mərdliyi, vətənpərvərliyi şərəfi və fədakarlığı boğmaq olmaz. Öz mərdliyi ilə seçilən qəhrəmanlarımızdan biri də Abdullayev Sənandır.

Abdullayev Sənan Şahin oğlu 1998-ci il noyabrın 1-də Bakıda anadan olmuşdur. O, 2005-ci ildə N.Nərimanov ərazisində yerləşən 37 saylı tam orta məktəbə getmişdir. Müəllimləri Sənanın mülayim, intizamlı, dünyagörüşlü bir şagird olduğunu qeyd edir. Evin son beşik övladı olan Sənan xüsusi qayğı və sevgi ilə böyüdülmüşdür.

Hələ uşaq yaşlarından müxtəlif idman sahələrinə maraq göstərməyə başlayır. Zaman keçdikcə onun idman sahəsinə olan marağı daha da artır. Əvvəlcə güləş, daha sonra boks və qaydasız döyüşlə ciddi məşğul olaraq, yarışlara qatılmağa qərar verir. Qatıldığı bütün yarışlarda gəncimiz öz hünərini göstərərək yer tutur, medallar və sertifikatlar qazanır. Sənan dürüst, mehriban, qayğıkeş, həssas və vətənpərvər biri olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, hərbi xidmətə yola düşür. Orada peşəkar kəşfiyyatçı kimi fəaliyyət göstərməyə başlayır, döyüş yoldaşlarının və komandirlərinin sevimlisinə çevrilir.

Hərbi xidmətini başa vurduqdan sonra kitab mağazasında satıcı işləməyə başlayır. Satışda olan kitablar arasında Qarabağ müharibəsi ilə bağlı yazılmış kitablar onun diqqətini xüsusi cəlb edirdi. Məhz bu kitablar onun intiqam hissini daha da artırırdı.

Sənanın gənc qəlbi sevgi hisslərini də dadmışdı. Ancaq özünə söz vermişdi, Qarabağ uğrunda savaş başlar-başlamaz döyüşə qatılacaq, Qarabağı azad edəcək, intiqamını alacaqdı. Şəhidliyə ucalan Sənan öz qanı ilə azadlığı xalqımıza bəxş edən ərənlərimizdən birinə çevrildi. Adını bütün Azərbaycan xalqının qəlbinə yazdırdı. Bu gün onun adı çəkiləndə həm qürur duyuruq, həm də hüznlənirik. Sənan kimi bir şəhidi olan xalq necə qürur duymasın, lakin bu şəhidin qısa ömrünə necə heyfslənməsin?

Bu igidi yetişdirən aslan ürəkli ana qəhraman oğlundan danışarkən bildirir ki, Polad Həşimov şəhid olduqdan sonra, Sənan evə gəlir və anasından şəhidin adını tutub nəsə bişirməsini xahiş edir. Anası can başla halva çalır və oğluna verir. Sənan halvanı və samovarı götürüb yol kənarına çıxır, Polad Həşimov üçün ehsan paylayır. Şəhidin yaxın dostları da onun ən böyük arzusunun Polad Həşimovun qisasını almaq, Allah qismət edərsə, Qarabağ uğrunda döyüşmək olduğunu bildirir. Və o arzusuna çatdı. Sentyabr 27-dən etibarən başlayan müharibədə Sənan könüllü şəkildə orduya yazılır. Növbəsi gecikdikcə daha da həyəcanlanan şəhidimiz dəfələrlə hərbi çağırış mərkəzinə zəng vurur. Əslən zəngilanlı olan gəncimiz torpaqlarımızın azadlığı uğranda vuruşmaq üçün hərbi komissarlığın çağırışını səbirsizliklə gözləməyə başlayır. Budur, Sənanın gözlədiyi cavab gəlir və o, ailəsilə sağollaşaraq təyin olunan  Hərbi xidmətə gətirilir. Anası onun könüllü yazılmasından yalnız oğlunun gedəcəyi an xəbəri olduğunu bildirir. Ana ürəyinin səsini susdura bilmir, oğluna

getməməsi üçün xahiş edir, ancaq Sənan qərarını vermişdi və fikrindən dönmür. Ana oğluna yolunun açıq olmasını diləyir.

Baş verən müharibədə əsgər Abdullayev vəziyyətin çətinliyi ilə bağlı olaraq ailəsinə bir müddətlik danışa bilməyəcəyini bildirir. Əsgərimiz döyüşə getməzdən əvvəl namazını qıla bilməyəcəyinə görə əvəlcədən iki rükətli namazını qılaraq döyüş meydanına yollanır. Uzun bir aradan sonra ailəsi ondan xəbər ala bilmir. Valideynləri bərk nigarançılıqla onun zəngini səbirsizliklə gözləyir. Lakin ondan xəbər gəlmir. Daha sonra yanlışlıqla ailəyə Sənanın sağ olması barədə məlumat gəlir, ailə qurbanlar kəsir. Sonradan məlum oldu ki, noyabrın 1-i əsgərimizin nəşi döyüş zonasında tapılmışdır. Mənfur düşmən əsgərimizi namaz qılarkən başından snayperlə nişanlamış və öldürmüşdür. Şəhidliyin Sənan zirvəsi! Qatıldığı bütün döyüşlərdə Allahdan ordumuza güc diləyən şəhidimiz, bir an belə tərəddüd etmədən yüksək fəallıq göstərərək, dayanmadan irəli can atırdı. Ruhu şəhidlik üçün alışıb yanan igidimizə Tanrı şəhidliyi ibadət edərkən nəsib etdi. Beləliklə, qısa, lakin şərəfli ömür sürən Sənan, baş verən müharibədə, torpaqlarımızın işğalı uğrunda qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucaldı. Yalnız bu yolda canından keçməyi bacaran qəhrəmanlar yetirən xalqın şəhidi olur. Azərbaycan yenilməz, mübariz xalq olduğunu şəhidlik zirvəsinə ucalan övladlarının şücaəti, oğul itkisinə mətanətlə dözən müqəddəs anaların dəyanəti ilə də təsdiqləyir. Allahdan şəhidlərimizə rəhmət, valideynlərinə də səbir diləyirik. Qanın yerdə qalmadı, şəhidim! Rahat uyu!

*Zenfira Əliyeva*
*Dünya Şəmilova*

# Soltan MƏMMƏDOV



Soltan Akif oğlu Məmmədov 1981-ci il iyulun 21-də Yevlax rayonunun Səmədabad kəndində anadan olub. 1997-1999-cu illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 1999-2003-cü illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil alıb.

Ailəli idi. Üç övladı vardı.

Soltan Məmmədov 2003-cü ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət edirdi. 2003-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissəsində əvvəlcə Tağım Komandiri, sonra isə MTT üzrə Tabor Komandirinin müavini vəzifələrində xidmət edib. 2013-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində Qərargah rəisi vəzifəsində xidmət edən Soltan Məmmədov, qüsursuz xidmətinə görə "mayor" rütbəsi alıb. 2019-cu ildən isə Azərbaycan Silahlı Qüvvələrinin Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissəsində Tabor Komandiri vəzifəsində xidmət edirdi.

Azərbaycan Ordusunun polkovnik-leytenantı olan Soltan Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Soltan Məmmədov oktyabrın 10-da Suqovuşan döyüşləri zamanı şəhid olub.

Yevlax şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə aşağıda adları qeyd olunan orden və medallarla təltif olunub.

1. (26.06.2001) – “Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi” yubiley medalı
2. (26.06.2008) – “Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi” yubiley medalı
3. (26.06.2013) – "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi” yubiley medalı
4. (26.06.2013) – “Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı
5. (26.06.2018) – “Azərbaycan Ordusunun 100 illiyi” yubiley medalı
6. (26.06.2018) – “Qüsursuz xidmətə görə” 2-ci dərəcəli medalı
7. (15.12.2020) – “Vətən uğrunda” medalı (ölümündən sonra)
8. (15.12.2020) – “Azərbaycan Bayrağı” ordeni (ölümündən sonra)
9. (29.12.2020) – “Suqovuşanın azad olunmasına görə” medalı (ölümündən sonra)
10. (29.12.2020) – “Laçının azad olunmasına görə” medalı (ölümündən sonra)

Ürəyindən vurulan şəhid polkovnik-leytenant Soltan Məmmədov. O, sinəsini qabağa verməsəydi atılan güllə onun yox, Vətənin ürəyinə deyəcəkdi. Ona yazdığım şeirin son bəndini paylaşıram.

*Sağ ol, böyük komandir.*
*Zəfər nişanını tax.*
*Şəhid əsgərlərinə,*
*Cənnətdə də yaxşı bax.*

*Elşad Barat*

## Sultan İBRAHİMOV



İbrahimov Sultan Mikayıl oğlu 1996-cı ildə Salyanda anadan olub. 1 saylı orta məktəbdə oxuyub. Uşaq yaşlarından arıq olduğu üçün idmana başlamaq qərarına gəlib.Uzun illər workout ilə məşğul olub. İstədiyi nəticəyə nail olmuşdu. Bədənindəki yağ miqdarını minimuma endirmişdi. Öz çəkisi 53 kq olduğu halda 104 kq ağırlıqda bench press hərəkətini edərək hərkəsi təəccübləndimişdi. 2016-cı ildə Hərbi xidmətə yollanıb. O, gücü, çevikliyi sayəsində Xüsusi Təyinatlı Dəstənin snayperisti idi. Əsgərliyini başa vurub gələndən sonra Sultan yenədə idmana davam etdi. O həmdə dini inancı çox həssas olan oğlan idi. Bu döyüş başlayandan sonra səfərbərliklə sultanda XTD-nin giziri kimi döyüşə getdi. Döyüşdə olanda tez-tez danışırdıq. Deyirdi: "Hərşey yaxşıdı, qaqanız qan edir". Son yazışmamızdan 10 gün sonra şəhid oldu.Şəhidlik insanın Allaha, Vətənə, xalqına, millətinə olan sevgisinin həyat-ölüm astanasında qeyd şərtsiz şəhadət tapdığı ali məqamdır. Şəhidlər Vətən-Allah, xalq-haqq savaşından məğrurluqla çıxıb, bir anın içində milyonların əzizinə, Vətən oğluna çevrilib ölümü ilə də bu torpağı şərəfləndirənlərdir. Buna görə də onlar and yerimiz, qürur mənbəyimizdir! Ona görə qürur mənbəyimizdir ki, bu Vətən sevdalıları, bu Vətən aşiqləri göz qırpmadan, ölümün üzünə dik baxa-baxa, kəfənlərini əyinlərinə geyinib şüurlu şəkildə, qələbə naminə ölümün ağuşuna atılıblar.



*Banu Nəcəfova*

## Sübhan HƏSƏNOV



Şəhid Həsənov Sübhan Rauf oğlu 26 iyul 2001-ci ildə Masallı şəhər İsgəndərli kəndində anadan olmuşdur. O, 15 sentyabr 2007-ci il tarixində Masallı rayon İskəndərli kəndi İ.Zülalov adına tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Sübhan 2018-ci ildə elə həmin orta məktəbin 11-ci sinfindən məzun olmuşdur.



30 iyul 2019-cu ildə xidməti vəzifəsini yerinə yetirmək üçün Hərbi xidmətə yollanmışdır. Sübhan hərbi xidməti zamanı “Snayper Kəşfiyyatçı” olmuşdur. O, hərbi xidmətdə olarkən qəhrəmancasına Vətənin keşiyində durmuşdur. Böyük əzmlə, igidliklə II Qarabağ müharibəsində iştirak etmişdir. 3 oktyabr 2020-ci il tarixində Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Hər kəs şəhidimizlə qürur duyur. O, ən yüksək zirvəyə – Şəhidlik zirvəsinə ucalmışdır.

Allah Rəhmət eləsin!

*Zəhra Nəzərli*

## Sübhi MÜRSƏLİYEV



Sübhi Mürsəliyev 1979-cu il dekabrın 28-də İsmayıllı rayonunda anadan olub.

Azərbaycan Ordusunun mayoru olan Sübhi Mürsəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sübhi Mürsəliyev sentyabrın 30-da Suqovuşan döyüşlərizamanı şəhid olub. İsmayıllı rayonunda dəfn olunub.

III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı
III dərəcəli "Qüsursuz xidmətə görə" medalı
II dərəcəli "Qüsursuz xidmətə görə" medalı
I dərəcəli "Qüsursuz xidmətə görə" medalı
"Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi" yubiley medalı
"Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı
"Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı
"Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı
15.12.2020 – "Vətən uğrunda" medalı
15.12.2020 – 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni (ölümündən sonra)
29.12.2020 – "Suqovuşanın azad olunmasına görə" medalı

Suqovuşanın işğaldan azad olunması uğrunda aparılmış döyüş əməliyyatlarında şücaət göstərmiş Azərbaycan Silahlı Qüvvələrinin qərarına əsasən Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə təltif edilib.

*Almaz Ülvi*

## Şahgündüz CABBAROV

Səsi, avazı ilə hər kəsin ürəyini fəth edən şəhid Şahgündüz Cabbarov.



Şəhidin anası Simuzər Əmrahova bildirir ki, Gündüz müharibəyə könüllü yazılıb: "Tələsirdi getmək üçün. Gedib dedi ki, məni niyə aparmırsınız. Ona çağırış gələndə sevinclə zəng edib dedi ki, gedirəm. Hər şeyin yaxşı olacağına o qədər inandırmışdı, deyiləndə ki, şəhid olub inanmadım. Məni elə arxayın etmişdi".

Şahgündüz Cabbarov 13 yanvar 1995-cü ildə Bərdə rayonunun Mollalı kəndində anadan olub. Əslən Laçının Oğul dərəkəndindəndir. Bərdənin Meşəçilik qəsəbəsində yerləşən Laçın rayon tam orta məktəbində təhsil alıb. 2012-ci ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Qaz-neft və mədən fakültəsinə daxil olur. Təhsilini başa vurduqdan sonra 2016-cı ildə müddətli həqiqi hərbi xidmətə yollanıb. Xidmət zamanı göstərdiyi nizam-intizama görə fəxri fərmanla təltif edilib. Hərbi xidmətdən geri döndükdən sonra Azərbaycan Dövlət Neft Şirkətində qazmaçı kimi işə başlayır.

2016-20170-ci illərdə "N" saylı hərbi hissələrdən birində müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Şahgündüz Cabbarov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Qubadlının və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak edərək şücaət göstərmişdir. Şahgündüz Cabbarov 25

oktyabr 2020-ci ildə Füzuli rayonunun Əbdürrəhmanlı kəndi istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Şəhid Binə qəbiristanlığında dəfn edilib. Ölümündən sonra- “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif olunub.

*Almaz Ülvi*

## ŞƏHİDİN TƏZƏ KOSTYUMU



Bu günlərdə sosial şəbəkələrdə bir şəhid anasının naləsini eşitdim.

İnanın, tüklərim biz-biz oldu, 3 gündür özümə gələ bilmirəm. Ana deyir: “Mən 18 il əziyyət çəkib, küçə süpürüb, paltar yuyub atasız oğul böyütmüşəm. Mənim oğlum 18 ildə bir dəfə yağ-çörək yeməyib, bir dəfə təzə paltar geyməyib, onun-bunun köhnəsi ilə böyüyüb. Oğlumun ilk təzə kostyumu əsgər forması olub. Bu formada da Qarabağda şəhid olub. İnsanlar hara baxır, mən yazıq deyiləmmi, mənim balam yazıq deyildimi?! ”

Dostlar, siz nə deyirsiz?

*Qalib Arif*

## Şahmar SƏFƏROV



İki zirvəni fəth etmiş Şahmar!

30 il boyunca əzəli-əbədi Azərbaycan torpaqlarını – Qa-rabağımızı işğal altında saxlayan, bu torpaqlarda qondarma tarix "yaratmağa" çalışan, özünü dünyanın ən mədəni və qədim milləti hesab edən, əslində isə, ən mədəniyyətsiz, saxtakar və keçmişi olmayan ermənilər unutmuşdurlar ki, "vətəndən pay olmayır" və Azərbaycan xalqı, Ali Baş Komandanın ətrafında "dəmir yumruq kimi" birləşən müzəffər Azərbaycan ordusu ana yurdun qəsbi ilə, minlərlə insanımızın qətli ilə, zəngin mədəniyyətimizin soyqırımı ilə heç vaxt barışmayıb və barışmayacaq. Bu illər ərzində əsassız milli ambisiyalardan və siyasi xülyalardan doğan gerizəkalılıq ermənilərə reallığı görməyə imkan vermədi, onlar inana bilmədilər ki, gün gələcək, Azərbaycan xalqı öz torpaqları uğrunda müqəddəs savaşa qalxacaq. Və o gün gəldi... Ali Baş Komandan İlham Əliyevin əmri ilə böyüklü-kiçikli hər bir Azərbaycan övladı vətən savaşına müntəzir oldu, şanlı Azərbaycan ordusu düşmənə qarşı əks-hücüma keçərək erməni mifləri ilə birgə erməni ordusunu da darmadağın etdi.

Bu müharibə hamımızın müharibəsi idi. Elə ona görə də, yerindən-yurdundan, dinindən, sosial mərtəbəsindən, təhsilindən, imkanından, bir sözlə, kimliyindən və nəçiliyindən asılı olmayaraq, hamı, o cümlədən, Şərqli-Qərbli, Cənublu-Şimallı hər bir bölgəmiz, rayonumuz, qəsəbəmiz, kəndimiz Vətən müharibəsinə qoşulmuşdu, orduya övladlarını əta etmişdi. Beşminillik tarixi boyu igidlər və qəhrəmanlar torpağı kimi ta-

nınmış Naxçıvan da öz əzmkarlıq, igidlik ənənələrini davam etdirərək neçə-neçə qəhrəman övladını Böyük Vətən müharibəsinə göndərdi, vuruşdu, savaşdı, şəhidlər verdi, şanlı qələbədə pay sahibi oldu...

Doğma Vətənin yetişdirdiyi belə qəhrəmanların sayı yox, hesabı yox... Onlardan biri də müharibənin ilk günlərində Murov zirvəsində şəhadətə yüksəlmiş Səfərov Şahmar Nazim oğludur.



2019-cu ilin iyul ayında Gəncə şəhərinin "N" saylı hərbi hissəsində tağım komandiri kimi hərbi xidmətə başlayan gənc leytenant 2020-ci ilin may ayında Daşkəsəndəki "N" saylı hərbi hissəyə göndərilmiş, 4 ay sonra isə şanlı Vətən Müharibəsinə qoşularaq canını torpağına, xalqına fəda etmiş, adını xalqımızın qəlbində ən uca mərtəbəyə - şəhidlik zirvəsinə yazmışdır. Bu o qəhrəman Şahmarımızdır ki, 1997-ci il sentyabrın 1-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Siyaqut kəndində anadan olanda doğma torpaqlarımız artıq 5 ildən çox idi ki, düşmən tapdağı altında inləyir, övladlarından imdad diləyirdi. O zaman kimin ağlına gələrdi ki, 2003-cü ildə Şərur rayonunun Kosacan kənd tam orta məktəbinin 1-ci sinfinə kövrək qədəmlərini qoyaraq, 2011-2014-cü illərdə Ümummilli Lider Heydər Əliyev adına Hərbi Liseyi bitirən, 2015-2019-illərdə isə Heydər Əliyev adına Ali Hərbi Akademiyada təhsil görmüş gəncəcik bir zabit Allahın ona ayırdığı qısa ömrün qalanını hərbi bilik və bacarıqlarının təkmilləşdirilməsinə, Vətən savaşının hazırlı-

ğına sərf edəcək və bir gün qəddar düşmənlə ölüm-dirim mübarizəsində qəhrəmancasına şəhid olacaq...

Bugün Şahmar Bakıda, II Fəxri Xiyabanda özü kimi şəhid qardaşlarının yanında uyuyur. Qoy, onun ruhu şad olsun! Qoy, onun ruhu nigaran qalmasın! Çünki onun başlayıb bitirə bilmədiyi Vətən müharibəsini onun kimi igid oğullarımızın qəhrəmanlığı sayəsində qazanmışıq, Qarabağımızı düşməndən geri almışıq.





Nur içində yatasan, Şahmar! Torpağımız sənin sayəndə Vətəndir! Bu Vətən var olduqca, sən də var olacaqsan!

*Gülbəniz Babaxanlı*

# ŞƏHİD QANI

*Nə vaxt torpaq susur dərdlilər kimi,*
*Onda şəhid qanı deyir sözünü.*
*Hər səhər Günəş də göz açan kimi,*
*Şəhid qanı ilə yuyur üzünü.*

*Heç sevgi olarmı ürək olmasa,*
*Sevilən bir yurdun gülü soğulmaz.*
*Şəhid qanı ilə suvarılmasa*
*Torpaqdan heç zaman şəhid doğulmaz.*

*Qəlbi daş olanı tapmaz bu duyğu,*
*Nankorun yuvası, yurdu bilinməz.*
*Vallah, şəhid qanı -Tanrı vurduğu*
*Vətən möhürüdür itməz, silinməz.*

*Vətən bircə dənə, oğullar min-min,*
*Oğul sinəsidir hər qaya, hər dağ.*
*Torpaq yaralansa bircə şəhidin*
*Ona qan qrupu düz gələr ancaq.*

*Dadı ağızlardan çox tez ötər, çox,*
*Yad xeyir-dualı şöhrət meyinin.*
*Cavanlar! Əcnəbi şəkli olan yox,*
*Şəhid qanı olan köynək geyinin.*

*Şəhidlər - qılıncdır sığmaz qınına,*
*Şəhidlər - torpağın son gümanıdır.*
*Sancın bayraqları şəhid qanına,*
*Ən yüksək ucalıq şəhid qanıdır.*

*Sahib İbrahimli*
*Gəncə şəh*

## Şamil BABAYEV

Babayev Şamil Baloğlan oğlu 1988-ci ildə Naxçıvan şəhər, Culfa rayon, Camaldın kəndində anadan olmuşdur. 2012-ci ildə DQ-nin "N" saylı hərbi hissəsində Xüsusi Təyinatlı Dəstənin "Atəş Təminat Qrupu"nun komandir vəzifəsinə təyin edilmişdir. 2017-ci ildə "Baş Leytenant" hərbi rütbəsi ilə təltif olunmuşdur. 2018-ci ildə Türkiyə Cümhuriyyətinə hərbi təlimlərə göndərilmişdir. 2020-ci ildə "Kapitan" hərbi rütbəsi ilə təltif olunmuş şəhidimiz həmin ilin sentyabr ayının 27-də İkinci Qarabağ Müharibəsi başlayan gündən döyüşlərə cəlb olunmuşdur. Xüsusi Təyinatlı Dəstənin "Atəş Təminat Qrupu"nun komandiri kapitan Babayev Şamil Baloğlan oğlu noyabrın 8-i Şuşanın işğaldan azad olunması yolunda qəhrəmancasına şəhid olmuşdur.



44 günlük Vətən müharibəsinin yeni tarix yazan qəhrəmanları: 3 polkovnik, 23 polkovnik-leytenant, 49 mayor, 54 kapitan, 103 baş-leytenant, 147 leytenant, 5 kiçik-leytenant, 267 kiçik gizir, gizir, baş gizir 696 MAHHXHQ-MAXE, 1241 əsgər, 7 miçman.

Ruhunuz qarşısında baş əyir və Allahdan rəhmət diləyirik!

*Almaz Ülvi*

## Şamil ƏLİYEV

İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Respublikasının qəhrəman oğulları öz igidliklərini göstərmiş, şəhidlik zirvəsinə ucalmışdırlar. Şəhid Şamil Əliyev də məhz o igidlərdəndir. Şəhid Şamil Əliyev Xançoban oğlu 1996-cı il martın 20-si Füzuli rayon Böyük Bəhmənli kəndində, kasıb, lakin, vətənpərvər ailədə anadan olmuşdur. Şamil Əliyev vətənpərvər ruhda böyüyüb, boya-başa çatmışdır. 2002-ci ildə Füzuli rayon Böyük Bəhmənli 1 nömrəli kənd orta məktəbində təhsil almışdır. 2013-cü ildə həmin məktəbi bitirmişdir. Uşaqlıqdan orta məktəbdə oxuduğuna baxmayaraq, çox vaxt dərsə getmir, ailəsinə baxmaq üçün işləyirdi. Həm təhsil alır, həm də ailəsinə baxmaq üçün çalışırdı. Atası 2016-cı ildə dünyasını dəyişdikdən sonra həyat şəhid Şamil Əliyev üçün daha ağırlaşır. Şəhid Şamil Əliyev artıq  o zaman Füzulidə hərbidə müddətdən artıq həqiqi hərbi qulluqçu kimi işləyirdi. Hər kəs onun qorxmaz bir oğul olduğunu bilirdi.



Şəhid Şamil Əliyev az müddətdə çoxlu sayda təlimlərdə iştirak edib 1-ci yer tutardı. O, çoxlu  Fəxri fərmanlarla təltif olunmuşdur . 10 noyabr 2016-cı ildə "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlıq kursunun buraxılış imtahanlarında" əldə etdiyi yüksək nəticə və hərbi intizamına görə fəxri fərmanla təltif olunmuşdur. 20 mart 2017-ci ildə "Hərbi xidmətdə döyüş və ictimai-siyasi hazırlıqda" əldə etdiyi nailiyyətlərinə görə fəxri fərmanla təltif olunub. 17 avqust

2017-ci ildə “Hərbi beşnövçülük” yarışındakı nailiyyətlərinə görə, 31 dekabr 2019-cu ildə “31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü” münasibətilə döyüş və ictimai-siyasi hazırlıqda nizam-intizamın möhkəmləndirilməsində əldə etdiyi yüksək nailiyyətlərə görə fəxri fərmanla təltif olunmuşdur. 2016-cı il aprel ayında “Aprel döyüşləri”ndə göstərdiyi igidlik və şücaətinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrinin Ali Baş Komandanı Cənab İlham Əliyev tərəfindən fərqlənmə nişanı olan Fəxri orden və saatla təltif olunmuşdur.

Şəhid Şamil Əliyev “Aprel döyüşlərində” də öz şücaətini göstərmişdir. Məhz “Aprel döyüşlərində” də mənfur ermənilərin gözünə qorxu salmış onlara qan uddurmuşdur. O gündən sonra, ermənilərin yaddaşına öz adını yazdıraraq ürəklərinə qorxu salmışdır. Onun üçün yalnız bir istiqamət var idi, o da sadəcə irəliləmək və düşməndən qisas almaq idi. Onun gözü ölümdən qorxmazdı, çünki, o, bilirdi ki, onun getdiyi yol şərəfli yoldur. Şəhid Şamil Əliyev heç nədən qorxmayan, vətənini sevən və ona sıx bağlı olan bir gənc idi. Lazım gələrsə, vətəni uğrunda canından keçməyə hər zaman hazır olduğunu deyərdi. Şəhid Şamil Əliyevin ən böyük arzularından biri də Şuşanın işğaldan azad olmasında rolu olan igidlərdən biri olmaq idi. Buna görə də, o, hər zaman üzərində Azərbaycanın üçrəngli bayrağını daşıyardı ki, Şuşanı işğaldan geri alan zaman Azərbaycanın şanlı üçrəngli bayrağını özü orada dalğalandırsın. O, hər zaman “Şuşa şəhəri işğaldan azad olunsun orada dükan açacam” deyərdi. Əfsuslar olsun ki, Şuşanın işğaldan azad olmasını görmək şəhidimizə qismət olmadı.

Hər bir gəncin olduğu kimi onun da öz arzuları, xəyalları, sevdiyi var idi. Şəhid Şamil Əliyev deyərdi ki “mən İkinci Qarabağ müharibəsindən ya sağ qayıdacağam, ya da şəhid

olacağam, amma, yaralı qayıtmayacağam". O, Vətən müharibəsində igidcəsinə, qorxmazcasına, canı bahasına vuruşmuşdur. Bu onun üçün bir qorxu deyil, bir qürur mənbəyi olmuşdur. Vətən qeyrəti onun üçün hər zaman hər şeydən üstün olmuşdur.

Şəhid Şamil Əliyevin həm ən yaxın dostu, sirdaşı, həm də bacısının həyat yoldaşı olan - Təhməzov Kənan Baris oğlu Şəhidimiz haqqında öz fikirlərini bizimlə bölüşdü. Kənan Təhməzov deyirdi: "Onun haqqında danışılacaq çox şey var. Bunu deyə bilərəm ki, o, hər kəsə can yandıran, başqasının da problemini düşünən və ona yardım edən biri idi. Mehriban, qayğıkeş və ən əsası mərhəmətli insan idi. Haqqsızlığa, ədalətsizliyə qarşı çox hirsli idi, qətiyyən haqqının tapdalanmasına göz yummazdı. Hər kəsin dərdinə öz dərdi kimi qulaq asardı. Kiminsə borcu olardısa, lap




özündə olmasa da, həmin insana yardım etmək üçün əlindən gələni edərdi. Anasına da söz vermişdi ki, mən səni ən gözəl şəraitdə yaşatmaq üçün çalışacağam, çünki, o bu yaşına kimi çox çətinliklər görmüşdü. Təəssüf ki, qismət olmadı..."

5 il idiki doğulub, boya-başa çatdığı Füzuli rayonunda Baş kəşfiyyatçı idi. Həmin rayonda qulluq etdiyi zaman, 27.09.2020-ci il tarixində erməni təxribatına əks hücumla öz vəzifəsi üzrə öz igidliyini nümayiş etdirir. Onun bu igidliyindən bütün dostları, hətta, bütün kənd danışırdı. 28.09.2020-ci ildə o, bərk yaralanaraq Füzuli rayon diaqnoz tibb mərkəzinə gətirilir. Orada diaqnoz zamanı aşkar olur ki, şəhid Şamil Əliyevin boyun hissəsində və kürəyinin sağ nahiyyəsində qəlpə yaraları vardır. 29.09.2020-ci il tarixində Şirvan rayon mərkəzi xəstəxanasına təxliyyə olunur. Orada aşkar olunur ki, bir qəlpənin onun ürəyinə çatmasına 3 mlm. qalmışdır. Lakin, o, ya-

ralarının olmasına baxmayaraq döyüş meydanına qayıtmaq üçün can atırdı. 31.09.2020-ci il tarixində özü könüllü surətdə yaralarının qədər ağır olmasına baxmayaraq cəbhəyə yollanır. 44 günlük vətən müharibəsində cəsarətlə vuruşmuş, 16 oktyabr 2020-ci ildə öz doğma torpağı olan Füzulinin alınması uğrunda gedən döyüşlərdə ayağından yaralandığı halda irəli getmişdir. O, çox tanınmış güclü kəşfiyyatçı idi. Şəhid Şamil Əliyev və onun dəstəsi mühasirəyə alınsada o dayanmadan irəliləyirdi. Döyüş yoldaşı ona “getmə Şamil” desə də, Şamil Əliyev “yox mən gedib o 2 erməni əsgərini tutub komandirimə aparacağam”- dedi. O, pusquda durmuş mənfur erməni snay-perçinin üzərinə kəşki çıxarıb hücum edib düşmənlə öz qol gücünə döyüşür, lakin təəssüflər olsun ki, alın nahiyyəsindən vurularaq şəhidlik zirvəsinə ucalmışdır. Şəhid Şamil Əliyev o qədər güclü kəşfiyyatçı idi ki, hətta, ermənilər onu öldürənə pul mükafatı verəcəklərini söyləyirmiş. Şəhid Şamil Əliyev vurulduqdan sonra diaqnoztikada onu görən anası dişlərinin və əllərinin bərk-bərk sıxılmış, sanki, onun nifrətlə hücuma keçən zaman vurulduğunu deyib. Eyni tarixli döyüşdə şəhid Şamil Əliyevlə birlikdə onun qardaşı Kamil Əliyev də iştirak etmişdir. Bir ailənin iki qəhrəman oğlu döyüşdə qəhrəman-casına vuruşmuşdur. Kamil Əliyev xəsarət almış, lakin, qar-daşı şəhid olmuşdur. Şəhid Şamil Əliyev 16.10.2020-ci ildə Füzuli rayonun Musabəyli kəndində şəhadətə ucalmışdır. Onun şəhidlik zirvəsinə ucalmasından 5-6 saat sonra digər igid əsgərlərimiz tərəfindən Füzuli şəhəri işğaldan azad edilmişdir.

Əgər biz indi rahat yaşayırıqsa, Şəhidlərimizə borcluyuq.

*Aytən Məmmədova*

## Şəhriyar ABDULLAYEV



İki gündə 50-dən çox düşmən əsgərini məhv edən şəhidimiz, XTQ üzvü Şəhriyar Abdullayev.

Hərbçi yoldaşları deyirdilər ki, "hələ müharibə başlamazdan əvvəl keçirilən təlim kurslarında iştirak etmək istəməyib ki, birdən müharibə başlayar, mən də təlimlərdə olaram, iştirak edə bilmərəm.O, hərbi xidmətini də öz istəyi ilə ön cəbhədə çəkib.Amma həmişə deyirdi ki, mən burada qisasımızı ermənilərdən istədiyim kimi ala bilmirəm. Hər zaman müharibənin başlamasını və orada iştirak etməyi istəyirdi". Bu fikirləri 33 yaşlı şəhid Şəhriyar Abdullayevin qardaşı Tural Abdullayev deyib. Onun sözlərinə görə, qardaşı hərbi xidmətini başa vurduqdan sonra atası onun polis orqanlarında işə düzəlməsini istəyib. Şəhriyar Abdullayev sənədlərini verdikdən sonra polis orqanlarına işə qəbul olsa da, son anda fikrindən daşınır: "O, atamdan xəbərsiz sənədlərini götürüb Xüsusi Təyinatlı Qüvvələrə qəbul üçün verdi. XTQ-yə qəbul oldu və 2012-ci ildən orada gizir kimi çalışmağa başladı". T.Abdullayev qeyd edib ki, qardaşı Ş.Abdullayev 2016-cı il "Aprel döyüşləri"ndə də fəal iştirak edib. Bu döyüşlərdə göstərdiyi qəhrəmanlıqlara görə general-leytenant Hikmət Mirzəyev tərəfindən medal və diplomla təltif edilib.

Qardaşının II Qarabağ müharibəsinin başlanıldığı ilk gündən döyüş bölgəsinin qaynar nöqtələrində vuruşduğunu deyən T.Abdullayev qeyd edib ki, qardaşı Murov yüksəkliyinin, Füzulinin, Hadrutun ermənilərdən geri alınmasında çox fəal iştirak edib. O, Hadrut alındıqdan sonra buradakı yüksəkliklər-



də aparılan döyüşlərdə qəhrəmancasına həlak olub: “Döyüş yoldaşları deyirdilər ki, oktyabrın 9-10-da 50-dən çox ermənini məhv edib. Oktyabrın 10-da isə ermənilərin atdığı snayper gülləsi nəticəsində başından yaralanaraq həlak olub”. Şəhriyar Abdullayev ailəli olub. Onun 4 və 5 yaşlarında iki qız övladı var.

Allah rəhmət eləsin. Şəhadətin mübarək, şəhidim!

*Rövşən Məmmədov*

**Tacir CƏFƏROV**



Tacir Cəfərov 2001-ci il fevralın 9-da Goranboy rayonunun Qaraçinar kəndində anadan olub. Subay idi. Azərbaycan Ordusunun əsgəri olan Tacir Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın- ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tacir Cəfərov oktyabrın 28-də Füzuli döyüşlərizamanı şəhid olub. Tacir Cəfərov ölümündən sonra “Vətən uğrunda”, “Xocavəndin azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edildi.

*Qaratel Quliyeva*

## Tahir ƏLİZADƏ



Şəhidlərimizi unutmayaq!

Yaralandıqdan bir ay sonra şəhadətə ucalan, Şəhidim!

Şuşa uğrunda gedən döyüşlərdə ağır yalanan gizir Əlizadə Tahir Qəribəli oğlu bir ay sonra, yəni dekabrın 8-i şəhidlik zirvəsinə yüksəlib. 1994-cü il təvəllüdlü şəhidimiz doğulduğu Biləsuvar rayonunda torpağa tapşırılıb.

Əlizadə Tahir Vətən müharibəsində Füzuli, Cəbrayıl və Qubadlının işğaldan azad edilməsində iştirak edib. O, Hadrut uğrunda döyüşdə yaralansa da, bir müddət müalicə alıb yenidən cəbhəyə qayıtmışdı. Bundan sonra Əlizadə Tahir Şuşa uğrunda döyüşlərdə meşəlik ərazidə çətin döyüş tapşırığını uğurla həyata keçirib. Sonuncu döyüşdə yaralı əsgərlərini xilas edərkən ağır yaralanıb və bundan sonra xəstəxanaya yerləşdirilmişdi.

Şəhidimizin qardaşı Əliyev Bəhruz da hərbi qulluqçu kimi müharibədə iştirak edib, böyük qardaşı Telman isə I Qarabağ müharibəsi qazisidir.

Dayımın nişanlı oğlu Tahir barmağındakı üzüklə bərabər şəhid olub.

Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Tahir Əlizadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

*Qaratel Quliyeva*

## Taleh ƏLİZADƏ



Taleh Zaur oğlu Əlizadə 29 noyabr 1995-ci ildə Cəlilabad rayonunun Alar kəndində dünyaya gəlmişdir. Alar kənd 2 saylı tam orta məktəbi bitirən Taleh elə həmin il, 2013-cü ildə Qazax rayonunda hərbi xidmətdə olmuşdur. Əzmkarlığı, cəsurluğu, bacarığı ilə seçilən Taleh müxtəlif kurslarda iştirak etmiş, baş kəşfiyyatçı kimi fəaliyyət göstərmiş, 2014-cü il avqust ayında hərbi xidmətini başa vurmuşdur. Taleh vətənpərvərliyi ilə yanaşı gözəl və mehriban ailə başçısı idi. Onun Hüseyn adlı 2 yaşlı bir oğlu var. Taleh sürücülük fəaliyyəti ilə məşğul olaraq ailəsini dolandırırdı. O, 21 sentyabr 2020-ci il tarixində hərbi təlimlərdə iştirak etmiş, müharibə başlayan gündən ən qızğın döyüşlərdə qəhrəmancasına vuruşmuşdur. Taleh Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak etmiş, işğal altında qalmış torpaqlarımızın alınmasında qəhrəmanlıqla şücaət göstərmişdir. O, cəsarət və qorxmazlığı ilə yanaşı, səmimi insan, etibarlı yoldaş, sadiq dost idi. Taleh oktyabr ayının 4-də Füzuli döyüşlərində əsgər yoldaşını xilas edərkən güllə yarası almış, buna baxmayaraq qısa müddət sonra yenidən könüllü olaraq döyüşə, yoldaşlarının yanına qayıtmışdır. O, oktyabrın 19-da Cəbrayıl uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Şəhidlik zirvəsinə yüksələn Taleh 20 oktyabr tarixində doğulduğu Alar kəndində torpağa tapşırılmışdır. Taleh Zaur oğlu Əlizadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

*Eşqanə Babayeva*

## Taleh YUSİFOV



*Rövşən Yerfi:* Məhəlləmizin şəhid oğlu Yusifov Taleh Valeh oğlu. İki ay idi sorağı gəlmirdi. Dünən torpağa tapşırıldı. Unuda bilməyəcəyimiz itkidir. 28 yaşı vardı. Evlənməmişdi. Çox qanacaqlı, ədəbli, halal zəhmətlə yaşayan oğul idi. Ruhun şad olsun, vətən oğlu!

Taleh Yusifov 1992-ci il - mayın 21-də Bakı şəhərində anadan olub. Azərbaycan Ordusunun əsgəri olan Taleh Yusifov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Taleh Yusifov oktyabrın 3-də Füzuli döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 18 dekabr 2020-ci il tarixində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Taleh Yusifov ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edildi

*Şəbnəm Babayeva*

# Tamerlan MAHMUDOV



Tamerlan Fuad oğlu Mahmudov 1995-ci il martın 21-də Suraxanı rayonunda anadan olub. Tamerlan hələ uşaq olarkən hər iki valideynini itirir Xəzər rayonunu Mərdəkan qəsəbəsində 2 saylı internatda böyüyür. Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) Xətai Rayon Şöbəsinin üzvü idi. Subay idi.



Azərbaycan Ordusunun əsgəri olan Tamerlan Mahmudov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən- Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə- savaşıb. Tamerlan Mahmudov oktyabrın 18-də Füzuli döyüşləri zamanı şəhid olub. Suraxanı rayonunda dəfn olunub.

Tamerlan Mahmudov ölümündən sonra “Vətən uğrunda” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edildi.

## Tacəddin ƏZİZLİ



Tacəddin Sahəddin oğlu Əzizli 1994-cü il avqustun 7-də Salyan rayonunun Sarvan kəndində anadan olub. 2000-2004-cü illərdə İ.Həsənov adına Sarvan kənd tam orta məktəbində, 2004-2011-ci illərdə isə Səbail rayonunun R. Hüseynov adına 49 nömrəli məktəb-liseyində təhsil alıb. 2012-2017-ci illərdə Xarkov Dövlət Ticarət və Qida Sənayesi Universitetində ali təhsil alıb.

Tacəddin Əzizli 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub.

Azərbaycan Ordusunun əsgəri olan Tacəddin Əzizli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tacəddin Əzizli noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Salyan rayonunda dəfn olunub.

Tacəddin Əzizli ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

*Şəbnəm Babayeva*

## Telman KƏLBİYEV



7 bacının tək qardaşı, XTQ giziri Telman Yadigar oğlu Kəlbiyev 24 mart 1988-ci ildə Neftçalanın Bankə qəsəbəsində anadan olub. Orta təhsilini Bankə qəsəbədə alıb. Əvvəlcə Daşkəsəndə gizir kimi, sonra isə şəhid Polad Həşimovun seçimi ilə Şəmkirdə həmlə bölüyündə xidmət edib. 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsinə qatılıb. Murovdağ Canavar postunun alınmasında həmlə bölüyünün komandiri kimi yaxından iştirak edib və Murovdağ Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edərək yaralanıb. Sağ ayağından qəlpə yarası alsa da döyüşlərə davam edir. 2 oktyabr 2020-ci ildə minatan mərmisi ilə yaralanıb. 2 dekabr 2020-ci ildə Neftçala Şəhidlər Xiyabanında dəfn edilib. Onu döyüş meydanından çıxarmaq istəyən döyüş yoldaşını isə vəziyyət gərgin olduğu üçün “get, şəhid olacaqsan yoxsa!” – deyərək qovub, özü şəhidlik zirvəsinə yüksəlib. İtkin düşmüş şəhidimiz 85 gün sonra tapılaraq, dekabrın 2-si doğulub boya-başa çatdığı Neftçala Şəhidlər Xiyabanında son mənzilə yola salınıb. Anası 85 gün heç bir xəbər ala bilmədiyi oğlunun tabutu qarşısında qurban kəsib. Ailəli olub. Elcan və Səid adında iki oğul övladı yadigar qalıb.



*Şəbnəm Babayeva*

## Təbriz İBRAHİMOV



"Yaralıyam, dərədəyəm, düşməni eşidir, görürəm" – 152 gündür itkin sayılan Təbrizin son sözləridir.

Vətən müharibəsi iştirakçısı, 1992-ci il təvəllüdlü İbrahimov Təbriz İsmayıl oğlundan artıq 150 gündən çoxdur ki, heç bir xəbər yoxdur. Ailəsi tərəfindən Yeniavaz.com-a verilən məlumata görə, sonuncu dəfə Təbriz sentyabrın 28-i xalası oğlu ilə əlaqə saxlayıb: "Mina partlayışı nəticəsində ayağından yaralandığını və Ağdağ adlanan postdan aşağı dərənin dibinə düşdüyünü dedi. Dedi ki, "bura neytral zonadır və yaxınlıqda erməni postu var, düşməni asanlıqla həm görürəm, həm də eşidirəm". O, dərədə tək olmadığını, həmin yerdə şəhid və yaralıların olduğunu dedi.

Çox qan itirdiyinə görə halsızlaşdığını və neytral zonadan çıxmaq ümidinin olmadığını söylədi, halallaşdı və qəfil əlaqə kəsildi". Yaxınları daha sonra onunla əlaqə qurmağa çalışsa da, zənglərə cavab verməyib. Salyan rayonu Çadırlı kənd sakini İbrahimov Təbriz müddətdən artıq həqiqi hərbi xidmət edən hərbi qulluqçudur və Murovdağ istiqamətində döyüşlərdə iştirak edib. Təbrizlə birgə döyüşən, onu sonuncu dəfə görənlərdən, hər hansı bir məlumatı olanların ailəsi ilə əlaqə saxlaması xahiş olunur.

Təbriz İbrahimov 8 oktyabr1992-ci ildə Salyan rayonunun Çadırlı kəndində dünyaya göz açmışdır. Orta məktəbini bitirdikdən sonra müddətli həqiqi hərbi xidmət qulluqçusu olan Təbriz hərbi xidmət müddəti bitdikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq hərbi xidmət müd-

dətini davam etdirmişdir. Azərbaycan Ordusunun əsgəri olan Təbriz İbrahimov 2020-ci il sentyabrın 27-dəAzərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Sonuncu dəfə 28 sentyabr tarixində əlaqə saxlamışdır. Zəngində mina partlayışı nəticəsində ayağından yaralandığını və Ağdağ adlı postdan dərənin dibinə düşdüyünü, neytral zonada olduğunu söyləmişdir. Çox qan itirdiyini və halsızlaşdığını da əlavə etmişdir. Təbriz İbrahimov Murovdağ döyüşlərində itkin düşmüşdür.



Murovda itkin düşmüş, 1992-ci il təvəllüdlü MAXE İbrahimov Təbriz İsmayıl oğlunun nəşi tapılıb.

Şəhid 20 may 2021-ci il tarixdə İkinci Fəxri Xiyabanda dəfn edilib.

*****

*Gecəyə çökən duman,*
*Görən kimin ruhudur?!*
*Kaş oyanaq yuxudan,*
*Görək hər şey yuxudur.*

*Rüstəm Behrudi*

## Təhmiraz CAVADOV



Hərəyə bir ömür payı düşür. Elələri var, onu şərəflə yaşayır, adını qərinələrə, əsrlərə, nəsillərə, tarixin yaddaşına həkk edir. Elələri də var ki, onlar dünyanı tərk edəndən sonra onlar barədə heç düşünmürlər də. Təhmiraz Arif oğlu Cavadov birincilərə aid olan qısa, lakin şərəf dolu, fəxarət dolu ömür yaşadı. Daha doğrusu, 21 yaşında Füzulinin Məngələnata yüksəkliyi uğrunda erməni təcavüzkarlarına qarşı gedən döyüşlərdə şəhidlik zirvəsinə ucaldı.

Təhmiraz Ucarın Yuxarı Şilyan kəndində ziyalı ailəsində dünyaya gəlmişdi. Ailənin dördüncü övladı idi. Arif kişi ilə Xəysə xanım 5 uşaq tərbiyə edirdilər. Hamısı da öz ağıl-kamalı ilə böyüyürdü, amma Təhmiraz üç qardaş, bir bacısından, demək olar ki, bütün cəhətləri ilə seçilirdi. O, nəinki ailədə, qonum-qonşu, məhəllə uşaqları, həm də oxuduğu Yuxarı Şilyan kənd orta məktəbində təhsil alan uşaqlardan əksər cəhətləri ilə fərqlənirdi. Ona dərs deyən müəllimlər daim Təhmirazın daha çox fəallığını, liderliyini, önə çıxmaq qabiliyyətinə malik olduğunu vurğulayırdılar. Təhmiraz öz dünyagörüşü ilə də fərqli idi. Buna görə də müəllimlərinin sevimlisinə çevrilmişdi. Əlaçı olub, bütün fənlərə məsuliyyətlə yanaşmasına baxmayaraq, onu ən çox özünə cəlb edən Hərbi hazırlıq dərsi idi. Məktəbi yüksək göstəricilərlə başa vursa da, ali məktəbə qəbul olunmağa sənədlərini verməmişdi.

4 dekabr 1990-cı ildə ordu sıralarına çağrılanda sanki çiçəyi çırtlamışdı və Təhmiraz sevinə-sevinə orduya yollanmışdı. Rusiyanın və Ukraynanın müxtəlif şəhərlərində Krasnodarda, Zaporojyedə, Berdyanskda və digər yerlərdə əsgəri xidmət

keçsə də, bunların heç biri onun ürəyincə olmamışdı. İçi, düşüncəsi ilə daim Qarabağda olmuşdu. Buna görə də həmin yerlərdə əsgəri xidməti yarımçıq qoyub, özünü Qarabağın harayına yetişdirməyi üstün tutmuşdu. Elə buna görə də Təhmirazın həmin dövrdəevə gəlməsi də çox gözlənilməz olmuşdu.

1992-ci ilin fevralında qarlı-çovğunlu bir qış gecəsi Təhmiraz əsgəri geyimdə qəflətən evlərinin qapısını açıb, içəri daxil olur. Bu vaxt evdəkilər hamısı özünü itirir. Atası Arif kişi ondan soruşur ki, "ay bala, Təhmiraz, sən əsgəri xidməti niyə yarımçıq qoyub evə qayıtmısan?!" Təhmiraz cavab verir: "Ata, mən Rusiyada, Ukraynada xidmət etməkdənsə, hazır öz vətənim Qarabağda gedən müharibədə vuruşmağım yaxşı olar. Bəs Qarabağı mənim kimi oğullar qorumayacaqsa, torpaqlarımızı erməni işğalçılarından mən azad etməyəcəyəmsə, bunu kim edəcəkdir?". Bu sözlərdən sonra Arif kişi və Xəysə xanım onu cəmi ikicə gün güc-bəlayla evdə saxlaya bilmişdilər. O, vaxt itirmədən Milli Orduya yazılmışdı. Burada bir haşiyə çıxmaq istəyirəm. Təhmiraz orta məktəbi qurtarıb ali məktəbə sənəd vermədikdə ona "Sən əla qiymətlərlə təhsilini başa vurmusan, nə üçün ali məktəbə sənəd vermədin?". O, deyirmiş: "Mən hərbçi olacağam və mənim adım tarixə ali məktəbsiz düşəcəkdir".

Təhmiraz tezliklə Milli Orduya yazılıb, Pirəküşkül qəsəbəsindəki hərbi hissədə təlim keçir. Bundan sonra da məhz Təhmirazın şərəf gətirəcək döyüş yolu Füzuli rayonunda dislokasiya olunan 702 saylı hərbi hissədən başlayır. Füzuli rayonu ərazisində gedən çoxsaylı kəndlərdəki döyüşlərdə Təhmiraz qəhrəmancasına vuruşur. Qırmızı Bazara qədər vuruşa-vuruşa irələləyir. Böyük şücaətlər, döyüş rəşadətləri göstərir. Füzuli rayonundakı Qacar kəndi onun diqqətini nədənsə daha çox cəlb etmişdi. Deyirmiş ki, sağlıq-salamatlıq olsun, erməni murdarlarının, mənfurlarının burnunu əzib, onları

torpaqlarımızdan təmizlədikdən, müharibə qələbəmizlə sona yetdikdən sonra mən gedib Füzuli rayonunun bu kəndində yaşayacağam. Təhmiraz əvəzsiz kəşfiyyatçı olmaqla yanaşı, həm də əksər silah növlə-
rindən ustalıqla istifadə etməyi bacarırdı. Daim ən qızğın döyüş nöqtələrində olmağa can atırdı. O, sanki hərb üçün, düşmən burnu əzmək üçün doğulmuşdu. Döyüş zamanı çoxlu ekstremal vəziyyətlərə düşmüşdü. Dəfələrlə düşmən mühasirələrində olmuş, yaranmış vəziyyətdən ustalıqla çıxmağı bacarmışdı. Bir dəfə 1992-ci ilin aprelində mühasirədən sağ-salamat çıxmaq üçün o, hətta keçilməz çay içi ilə nə qədər yol qət edib, yenidən sağ-salamat döyüş mövqeyinə qayıtmışdı. Dəfələrlə elə qeyri-adi vəziyyətlərlə rastlaşmışdı ki, hətta mərmi partlayışından kantuziya qazanmış, dili də batmışdı. Amma onu yolundan heç nə sapındırmamışdı. Təhmiraz hər zaman döyüşlərin ön sırasında vuruşmuşdu.

Belə faciəvi hallar bir deyildi, beş deyildi. Hansını deyəsən. Təhmiraz onların hamısı ilə rastlaşmışdı. Təhmirazın gözləri önündə mərmilərin partlaması nəticəsində nə qədər döyüşçü dostları, onların komandiri də şəhid olmuşdular.

Təhmiraz çox cəsur, qorxmaz oğul idi. Komandiri onu beş günlük məzuniyyətə buraxdıqda, o, iki gündən sonra yenidən döyüşə qayıdırmış. Hər dəfə də ona: "Niyə sənə verilmiş icazə günlərini evdə qalmırsan?" – dedikdə, onun sözü belə olurmuş: "Mən Azərbaycanımızın Milli Ordusunda xidmət edirəm. Ola bilərmi ki, əsgər yoldaşlarım döyüşsünlər, mənsə burada qalım. Bu, ola bilməz. Bunu mənim vicdanım qəbul edə bilərmi?!".

Təhmirazın taleyinə yamanca pis günlər düşmüşdü: Qarabağda, Qacar kəndi düşmən mühasirəsində olanda, orada tək-tənha qoca bir qadın kəndin lap ətəyində yalqız bir evdə yaşayırmış. Təhmirazgil onu evdən nə qədər ayırmağa cəhd etmişdilərsə, zavallı qadın onların əlindən çıxıb, yenə də öz evi-

nə dönməyə çalışırmış. Və deyirmiş ki, "evimin qapısı açıq, yuduğum paltarlarım sərgidə qalıb. Mən oranı necə qoyum gedim..."

Təhmirazı hər şey narahat edirdi. Erməni qəsbkarları, separatçıları xalqımızın övladlarını – qocaları, qadınları, uşaqları – mülki əhalini qətlə yetirdikcə onun səbir kasası dolurmuş. O, daha böyük qisas hissi ilə döyüşlərə atılırmış. Silah, sursat, təcrübəli əsgər çatışmazlığından isə Təhmiraz daim şikayətlənirmiş. Həmin dövr ağır və hərc-mərcilik zamanı olduğundan hərbi xidmətə yenicə çağırılmışların ön cəbhəyə göndərilməsinə qarşı da etiraz edirmiş. Eyni zamanda öz içimizdən olan xain və satqınlara qarşı Təhmirazın hiddəti ölçüyəgəlməzmiş.

Təhmiraz dəfələrlə deyibmiş ki, erməni təcavüzkarlarına əsir düşməyi heç zaman qəbul edə bilmərəm. Deyirmiş ki, ondandırsa, qoy şəhid olum. Qoy, mən Vətən yolunda, torpaqlarımız uğrunda ölüm! Mənə əsirlik ölümdən betərdir!

Təhmiraz anası Xəysə xanıma dəfələrlə deyibmiş ki, "deyirsiz niyə evə gəlmirəm. Bunu bilin ki, ermənilər Füzulinin Məngələnata yüksəkliyini götürsələr, onda, ana, səni də, bacımı da əsir götürərlər. Ora olduqca mühüm strateji mövqedir, buna görə də mənim evə gəlməyim yox, orada qalıb döyüşməyim gərəkdir..."

Bunu da söyləyək ki, Arif kişinin evindən, ailəsindən müharibədə təkcə Təhmiraz yox, həm də onun böyük qardaşı Zəfər də Ucar rayon polis şöbəsinin işçisi kimi Şuşada, Ağdamda, Cərayılda, Zəngilanda əzmlə vuruşmuşdu. Bəlkə də heç ağlagəlməzdir, amma bu, olmuş hadisədir. Təhmirazın ölümündən bir gün əvvəl atası Arif kişi yuxuda görmüşdü ki, Təhmiraz hündür bir maşınla gəlib küçənin başında saxlayıb, general paltarında ondan düşüb, darvazaya tərəfə boylanır. Və sonra da tez tələsik maşına minib harasa çıxıb gedir.

1993-cü ilin avqustunda, məlum olduğu kimi, Qarabağda qızğın döyüşlər gedirdi. Qarabağ kəndləri, həmin ərazilərdəki

yüksəkliklər bir-birinin ardınca əldən-ələ keçirdi. Elə həmin ilin avqustun 6-sı günü axşam televizorda xəbər verirlər ki, Füzulinin Məngələnata yüksəkliyi uğrunda qanlı döyüşlər gedir. Hər iki tərəfdən, çoxsaylı itkilər olduğu qeyd olunur. Bu zaman Xəysə xanım söyləyir ki, biz süfrə başındaydıq. Hamımız quruyub qaldıq, bir-birimizin üzünə baxa-baxa durduq. Hamımızın tikəsi əlində qaldı. Daha heç kim süfrəyə əl uzatmadı. Süfrəni yığışdırıb, kor-peşiman qalmışdıq. Sanki nitqimiz tutulmuşdu. Bir müddətdən sonra yerimizə uzansaq da, heç kimin gözünə yuxu getməmişdi. Evimizin qarşısında iri bir tut ağacı vardı. Gecə həmin ağaca gəlib bir bayquş qonub, olduqca vahiməli bir səslə üç dəfə uladı. Bundan sonra səs kəsildi. Xəysə xanım deyir ki, bu səs Arifi və məni çox qorxutdu. Sanki özümüzdə yox, vahimə içindəydik. Xəysə xanım yenə də bizə deyir ki, donub qalmışdıq nə mən, nə atası Arif səsimizi belə çıxarmadıq. Elə davrandıq ki, güya bizim heç birimiz ulayan bayquşun bu səsi eşitmirdi. Sanki hər ikimizin yerinə vəlvələ düşmüşdü. Çox vahiməli bir gecə yaşadıq. Sabahı üzücü, narahat bir sükut işində açdıq.

Xəysə xanım bizimlə söhbətinə davam edərək deyir ki, Təhmirazın atası həftənin birinci günü mən döyüşçu balamızın yanına gedəcəyini qətiyyətlə bildirmişdi. Lakin Arifin kişinin oğlunun yanına getmək istəyi ürəyində qalmışdı. Elə həmin gün günortadan sonra Təhmirazın şəhid olması xəbəri yayılır. Təhmiraz Füzulinin Məngələnata yüksəkliyi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmışdı. Təhmiraz növbəsini çəkib geri qayıdandan sonra o, döyüşün şiddətləndiyini eşidib, təzədən geriyə, döyüşə yollanmış, əsgər dostlarıyla gedib erməni postunu ilə keçirmişdir. Lakin bu döyüşlərdə qüvvələr nisbəti fərqli olduğundan ermənilər üstünlük əldə etmişlər. Və elə oradaca Təhmiraz qəhrəmancasına həlak olmuşdur. Təhmiraz özünün doğulduğu kəndə ilk şəhid kimi qayıdır. Elə həmin ildəcə Azərbaycan Respublikası Nazirlər Kabinetinin

sərəncamı ilə Yuxarı Şilyan kənd orta məktəbinə onun adı verilir. Bu məktəb həmin vaxtdan Təhmiraz Cavadovun şərəf və qeyrət dolu adını daşıyır.

Beləliklə, Təhmirazın bütün arzuları yarımçıq yolda qalır. Bu arzular, tərəssüf ki, qönçələnməmiş solur. Lakin Təhmirazın Vətən uğrunda şəhid olması onun adını xalqımızın ən ləyaqətli, cəsur övladları sırasına həkk edir və Təhmirazın özü dediyi kimi onun adı “tarixdə qalması” ilə yaddaşlara çökür. İndi Təhmirazın şəhidlik zizvəsinə ucalmasından 28 il keçir. Amma buna baxmayaraq, Xəysə xanım deyir ki, mən bir ana kimi hələ də onun yolunu gözləyirəm. Arada darvazanın ağzına çıxıb, küçəyə göz işlədikcə baxıram ki, bəlkə Təhmiraz gələ?! Arada adını çağırıram, soraqlayıram, amma Təhmiraz, nə mənə hay vermir, nə də qayıdıb gəlmir. Onu da deyim ki, Təhmirazın yoxluğunu mən o dünyada da axtaracam. Mən yamanca yandırdı Təhmiraz!

Sonda onu da deyim ki, Təhmiraz Cavadov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2010-cu il tarixli 976 saylı sərəncamına əsasən “Hərbi xidmətə görə” medalı ilə təltif olunur. Elə buna görə də Xəysə xanım deyir ki, analar oğullarını təkcə özü üçün yox, həm də vətənçün, xalq üçün, torpaq üçün, vətənin ərazi bütövlüyü üçün böyütməlidir. Mənim də Təhmirazım sevgili Vətənimiz uğrunda qurban getmişdir. İndi Xəysə xanım xeyli aramlıdır. Deyir oğlum Təhmirazın ölmündən sonra “Hərbi xidmətə görə” medalı Ucar rayon icra hakimiyyətindəicra başçısı Yaşar Məmmədov və Ucar rayon hərbi komissarı Mahir Qarayev tərəfindən mənə təqdim olundu. Xəysə xanım daha sonra da söyləyir ki, Allaha şükür ki, müzəffər ordumuz erməni qəsbkarlarından torpaqlarımızı təmizlədi. Yol açılan kimi mən Təhmirazın şəhid olduğu yeri ziyarət etməyə hazırlaşıram.

*Nizami Məmmədov Tağısoy*

## Tərlan ATAKİŞİYEV



*Onun həyatında əvvəllər baş vermiş bütün hadisələr bundan sonra şəhidliyin təfərrüatı kimi qəbul olunacaq. Elə ona görə ömrünün müxtəlif dönəmlərindən asta-asta, aramla, sanki ehtiyatla üzübəri, müqəddəs bir məqama – şəhidlik qapısına doğru gəlirik...*

44 gün çəkən İkinci Qarabağ müharibəsində 44 yaşının tamamına 4 ay qala şəhid olmuş leytenant Tərlan Atakişiyevin evində atası Dərgah kişi, anası Həqiqət xanımla üz-üzə oturmuşuq. Daha bir 4 rəqəmi ortaya çıxacaq. Tərlanın həlak olduğu tarix: 24 oktyabr 2020-ci il. Şəhidlər nişan qoyulmuş adamlardı.

Tərlan Atakişiyev 1977-ci il fevralın 23-də Şamaxı rayonunun Göylər kəndində anadan olub. O, natamam orta məktəbi başa vurandan sonra ailə Bakıya köçür, Tərlan orta təhsilini kimya-biologiya təmayüllü məktəbdə davam etdirir. Orta məktəbi bitirib, Neft və Kimya İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Səneyi Universitetinə) daxil olur. Arada 1 il möhlət götürür, Almaniyada yaşamaq istəyir, amma yenidən geri dönür.Bu detal Tərlanın həyatında iki iz buraxır: uzun müddət Rusiyada yaşamış atasının təkidlərinə baxmayaraq daha heç vaxt Azərbaycandan kənara getməyəcəyini qət edir, bir də ali məktəbdə iki qrupda oxuduğu üçün əlavə dostlar qazanır.

Ali təhsil alarkən hərbi kafedranı bitirmiş Tərlan leytenant kimi hərbi xidmətə yollanır. Bax o illərdə istəyir həyatını hərbə bağlasın, amma bu arzusu reallaşmır. Özəl bir səbəb varmış... Həqiqət Atakişiyeva: “Uşaqlıqda revamtizması vardı, ona görə dedi, hərb mənlik deyil. Ordudan tərxis olundu, zabit kimi ehtiyata buraxıldı”.

*Taleyin diqtəsi və ya yenidən ordu...*

"Hərbi xidmətdən sonra, – Həqiqət xanım oğlunun tərcü-meyi-halında daha bir döngəyə burulur, – kiçik bizneslə məşğul oldu, yavaş-yavaş dostlarıyla şirkət qurdular. Özü də Tərlan çox dost sevən, ünsiyyətcilidi, ailəyə sadiqidi, qohuma-əqrəbaya, hamıya canıyananıydı. Elə bayram olmazdı, gəlib bizə baş çəkməsin... Yalan olmasın, nəslimizdə belə bir uşaq, belə bir oğlan yox idi. Tək yaraşığından söhbət getmir. Hamımıza diqqət eləyər, qayğı göstərər, ehtiyacı olana gücü çatan köməyi əsirgəməzdi". Həqiqət xanım deyir ki, yayda Tovuz döyüşlərində general Polad Həşimov şəhid olandan sonra Tərlan könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edib: "Əslində Tərlanla bərabər o biri oğlum Fateh də, dayısı oğlu da, dostları da cəbhəyə getmək üçün könüllü yazılmışdılar. Bu xəbəri eşidəndə dedim, ay Tərlan, sən bu yaşında, dizində də problem, müharibəyə necə gedə bilərsən?

Bir neçə il qabaq Novruz tonqalından atılanda Tərlanın ayağı zədələnmişdi, dizinə su yığılırdı. Dizini əməliyyat da et-dirmişdi. Hərdən ağrı verirdi. Dedi, yox, ana..." Həqiqət xanımın sözlərinə görə, Tərlan payız qabağı kənddə həyətdə iş görməyə, sahman yaratmağa başlayır: "Balaca damı təmir elətdirdi, hasarı söküb təzədən hördürdü. Həftənin o başı-bu başı kəndə yanımıza gəlirdi.O ərəfədə dedi, ana, dizim yenidən ağrımağa başlayıb. Dedim, get həkimə. Düzü, özünə baxanıdı, uşaqlıqdan revmatizmə görə həkimlərə aparırdım deyə həkim yolunu tanıyırdı, səhhətinə fikir verənidi. Dedi, hə, gedəcəm, bu işləri yoluna qoyum..."

*"Qalanı sonraya qaldı"*

Həqiqət xanım həmin günü xatırlayır: "Sentyabrın 28-i kəndə gəldi. Daha həyətdə iş yekunlaşmışdı. Qıraqda bir topa torpaq qalmışdı, onu apardı çuxura boşaltdı, daşları hasarın

dibinə yığdı, bir-iki dəmir vardı, onu da götürdü. Evin özünə də əl gəzdirmək fikri vardı. Dedi, ana qalanı qaldı sonraya...

O qohuma baş çəkdi, bu qonşuya keçdi. Görürəm nəsə qaça-qaçdadı. Mənə heç nə demir. Sonra qayıtdı ki, filankəslər də müharibəyə getdilər. Soruşdum bəs sən?.. Məni sakitləşdirdi, dedi, bilmək olmaz, bəlkə mən gedincə müharibə bitdi? Ancaq dedi, çağırsalar, gedəcəm".Bakıya qayıdan Tərlan axşam ata-anasına zəng vurur: "Çağırıblar sabah saat 7-də çıxıram. Ay bala, bəs, bizə niyə demədin? Narahat olmayın, uşaqlar yola salacaqlar".Deyir və gedir...

Həqiqət xanım: "Bir müddət Pirəküşküldə təlim keçdilər. Bizə də zəng vurub dedi ki, yığışın gəlin Bakıya, evi yiyəsiz qoymayın. Bakıya gələndə kiçik oğlum Fateh dedi, ana, səni Tərlanla görüşdürəcəm. Yolda Pirəküşkülə döndük. Bu, Tərlanla son görüşümüz oldu..."

*Son zəng də çalınacaqdı*

Həqiqət xanım dəqiq xatırlamır, ya oktyabrın 4-ü, ya 5-i Tərlan Atakişiyev döyüş bölgəsinə yola düşür: "Yola düşəndə də zəngləşdik. Dedi, darıxma, ana, gedirik. Bax, maşınla gedirik...". Manqa komandiri olan Tərlan Atakişiyev Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib. Həqiqət xanımın fəhminə, yaddaşına etibar eləsək, o, Füzuliyə ikinci hücum zamanı həlak olub, hətta deyir, deyəsən, Cəbrayılda da döyüşüblər: "Qohumlar, dostları hər gün Tərlanla danşırdılar. Mən bir az ehtiyat edirdim, fikirləşirdim ki, birdən danışanda başı qarışar, bir xətər toxunar ona..."

Ana bir şeyi yaxşı xatırlayır: oktyabrın 23-nə qədər oğlunun səsi telefonda gümrah gəlirmiş, 24-ü günü səhər-səhər yox... 24-ü ölüm günüymüş.Həqiqət Atakişiyeva: "Özü də mənimlə danışanda elə vaxt, elə yer seçərdi ki, top-güllə səsi eşidilməsin. Sakit, asudə səslə danışardı. Ayın 24-ü dedim, Tərlan, səninçün nə bişirim yollayım, qayıtdı ki, ana, pul göndərmişdilər, 40 kilo ət almışdım, bu dəfə kartof da aldım, bozbaş bi-

şirdik. Qıraqda-bucaqda kabab yeyərdi, amma belə, adi şəraitdə kənd uşağı kimi bozbaşı, soyutmanı xoşlayardı.



Gördüm, səsi bu dəfə həmişəki deyil, səsində təşviş var. Dedi, ana, sonra, sonra mən özüm sənə zəng edərəm. Bu da sonuncu danışığımız oldu. Həmin gün axşam saat 6 radələrində şəhid olub".Ertəsi gün, oktyabrın 25-də günün birinci yarısında Atakişiyevlərin darvazası döyülüb...

*Şəhidlik məqamı*

Bu yaxınlarda Tərlan Atakişiyevin döyüş yoldaşları Şamaxının Göylər kəndinə, Sarıtəpə qəbiristanlığında şəhidin məzarını ziyarət eləməyə gəliblər. Tərlanın hərbçi bacarığından, insani keyfiyyətlərindən söz açıblar.

"Bəs Tərlan hansı şəraitdə, necə şəhid olub, yoldaşları, tabeliyində olmuş əsgərləri nə danışdılar" - Həqiqət xanımdan soruşuram.Yoldaşları deyib ki, bir təpənin başındaydıq, bizə sovqat gətirmişdilər. Bir nəfər döyüşçülərə şirniyyat paylayırdı. Təpədən aşağı enəndə Tərlan irəlidəydi. Qəfil qrad mərmisi düşdü, iki nəfər həlak oldu, biri Tərlan Atakişiyev...

Bütün söhbət boyu sakit bir hüznlə söhbətə qulaq asan, hərdən qəhərlənib susan atanın ola bilməz ki, deməyə sözü olmasın. Üzümü ona tuturam, o deyir: "Mənim bircə sözüm var – oğlumu yaxşı tanımamışam. O gün rəhmətlik Mirsahibin oğlu qonşu Təsadüf gəlmişdi başsağlığına. Bizə o danışdı ki, Tərlan çoxdan müharibə başlasa döyüşə gedəcəyini deyirdi.

Amma Tərlanın hər cür əsası vardı ki, müharibəyə getməsin, qalsın. Dizi zədəliydi, yaşı 40-ı ötmüşdü, iki uşaq atasıydı,

son zamanlar qızdırması olurdu. Qızdırmalı-qızdırmalı da getdi. Hər yerdə dostu-tanışı vardı. Şirkət direktoruydu, əli müəyyən yerlərə çatırdı. İstəsəydi qalardı, amma istəmədi...”. Deyir, yenə susur. Mən də.

*Bir də görürsən fotodu adam*

...Yenə lap əvvələ qayıdırıq.

Tərlan anadan olanda 2 qurban kəsilib. Biri uşaq doğulan günü ailənin başqa səbəbə deyikli qurbanı varmış, onu kəsiblərmiş, axşam uşaq anadan olanda isə həyətdə daha bir qurbanı üzü qibləyə çevirirlər.

1977-ci ildən nə qədər zaman ötüb, dövran dönüb. Fikrimdən Ələkbər Salahzadənin misraları axır:

*Bir də gördün beşikdi adam,*
*Bir də gördün bəbədi,*
*Bir də gördün uşaqdı adam,*
*Bir də gördün babadı.*
*Bir də gördün oğuldu adam,*
*Bir də gördün atadı.*
*Bir də gördün yox oldu adam,*
*Bir də gördün fotodu.*

Bir də gördün qazidi, bir də baxdın şəhiddi! Bir də ayıldın əlçatmazdı...

**P.S.** *Azərbaycan Prezidentinin 15 dekabr 2020-ci il tarixli sərəncamı ilə leytenant Atakişiyev Tərlan Dərgah oğlu ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilib.*

*Ruhu şad olsun!*

*Qurban Yaquboğlu*

## Tərlan MƏMMƏDOV

*Göz dikərək yad ellərin şəfa verməz ocağına;*
*Böylə qərib bir parçacıq, kəfənsizmi öləcəyəm?*



Vətənimizi qorumaq, uğrunda canımızı fəda vermək, qorumaq, çiçəkləndirmək bizim borcumuzdur. 30 il mənfur düşmənin tapdağı altında qalan Qarabağımızın işğaldan azad edilməsi uğrunda minlərlə igid əsgərimiz ən uca zirvəyə - Şəhidlik zirvəsinə ucaldılar.

Bu uca məqama sahib olan, Vətən üçün canını fəda edən igidimiz Tərlan Məmmədovu tanıyaq:

Məmmədov Tərlan Müşviq oğlu 31 avqust 1996-cı ildə Sumqayıt şəhərində anadan olub. 2003-cu ildə Hacı Zeynalabdin Tağıyev qəsəbəsində 19saylı məktəbdə 9 il təhsil alıb. 2013-cü ildə isə Abşeron səhərinin Ceyranbatan qəsəbəsində 147 saylı peşə məktəbində avtoçilingər uzrə oxuyub. 2015-ci ilin iyun ayında məzun adını qazanıb. 2015 (iyul) – 2017 (yanvar) illər aralığında əvvəlcə Gəncədə, sonra isə Gədəbəydə xidmətdə olub. Xidmətdə olan vəzifəsi: tank əleyhinə batareya.

2020-ci il sentyabrın 21-i könüllü olaraq II Vətən Müharibəsinə görə yenidən xidmətə yollanıb. Sentyabrın 27-si artıq Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmiş şəhidimiz səngərdə boynundan qəlpə yaraları alaraq oktyabrın 8-i, saat 1-2 radələrində qəhrəmancasına şəhid olub.

*Rövşən Əlisoy*

## Anar ŞÜKÜROV



Mən ehtiyatda olan zabitəm, uzun illər XTQ 052 də qrup komandiri, tabor komandiri kimi xidmət etmişəm, daha sonra Naxçıvana göndərilmişəm, Günnüt əməliyyatında təltif edilmişəm, növbədənkənar polkovnik-leytenant rütbəsi almışam.

Məni hərbi komissarlıq müharibəyə göndərmir. Uyğunsuzluqla təxris olunduğum üçün 3 gündü burdayam, dünən gedib dalaşmışam, hal-hazırda komissarlığın qarşısındayam, bu məsələni tanıdığın rəhbər şəxslərə de və ya ictimailəşdir ki, məni orduya qaytarsınlar.

Döyüşlərin qızğın vaxtı idi, gecə səhərə kimi demək olar ki, yatmamışdım. Saat 06:15 olardı, şəhid polkovnik Babək Səmidli ilə mövqeləri gəzirdik, maşında biranlıq elə oturuqlu mürgüləmişdim ki, telefonuma tanımadığım nömrədən zəng gəldi. Yuxulu-yuxulu telefonu götürdüm.

– Salam aleyküm.

– Əleyküm salam.

– Tofiq müəllimdi danışan?

– Bəli, eşidirəm.

– Sizi narahat edən Anar Şükürovdu, nömrənizi Asəf Ələsgərovdan almışam, mənə köməyiniz lazımdır.

– Buyur, qardaş, eşidirəm, sizə nə kömək edə bilərəm?

– Mən ehtiyatda olan zabitəm, uzun illər XTQ 052 də qrup komandiri, tabor komandiri kimi xidmət etmişəm, daha sonra Naxçıvana göndərilmişəm, Günnüt əməliyyatında təltif edilmişəm, növbədənkənar polkovnik-leytenant rütbəsi almışam. Məni hərbi komissarlıq müharibəyə göndərmir. Uyğunsuzluqla təxris olunduğum üçün 3 gündü burdayam, dünən gedib

dalaşmışam, hal-hazırda komissarlığın qarşısındayam, bu məsələni tanıdığın rəhbər şəxslərə de və ya ictimailəşdir ki, məni orduya qaytarsınlar. Mənim kifayət qədər təcrübəm var, vətənə xeyrim dəyə bilər, ürəyim partlayır burda. Haqqımda kimdən istəyirsən maraqlana bilərsən, istər Xüsusi Təyinatlı Qüvvələrdən, istərsə də Naxçıvan Əlahiddə Ümumqoşun Ordusundan.

Anar ŞÜKÜROV



Diqqətlə dinlədikdən sonra dedim ki, əlimdən gələn köməyi edərəm və sağollaşdıq. Babək müəllimə dedim ki, mənə bir nəfər zəng edib bəs belə deyir, təcrübəli zabitdi deyəsən. Rəhmətlik Babək müəllim dedi ki, komandirə məruzə edərik, görək nə deyir. Heç 15 dəqiqə keçmədi komandirə məruzə edildi, həmən dəqiqə komissarlığa göstəriş verildi ki, Şükürov Anar adlı zabit 1-ci ordu korpusuna göndərilsin. Bayaq zəng gələn nömrəni yığdım. Həyəcanlı şəkildə tez cavab verdi:

– Bəli, Tofiq müəllim, eşidirəm, nə xəbər var?

Dedim, göstəriş verilib. Tez gedib sənədlərinizi götürün gəlin, bir də bizim N saylı briqadanın kəşfiyyat rəisi var – Etibar Camalov yaralıdı, qospitaldan çıxıb təzədən döyüşə qayıdır, elə onunla birlikdə gəlin.

Çox sevincli halda dedi ki, mənim bu yaxşılığımı ömür boyu unutmayacaq. Başımız necə döyüşlərə qarışmışdısa daha nə vaxt gəldi, nə vaxt çatdı, hara təyin olunduğun həmən gün bilmədim. Səhəri gün eşitdim ki, "N" saylı hərbi hissəyə (Həmlə taboruna) komandir təyin edilib. Hadisələr elə cərəyan etdi ki, vəziyyətlə əlaqədar, altı-yeddi gün görüşə bilmədik.

Səhv etmirəmsə, oktyabrın 15-i idi, gecə saat 10:00 olardı. Ərazidə polkovnik-leytenant Nəsimi Şıxəliyevi gördüm,

yaxınlaşdıq hal-əhval tutduq. Yanında çox nurani bir zabit var idi. Nəsimi dedi ki, Tofiq tanış ol, Şükürov Anardı (indiyənə kimi üzbə-üz gəlməmişdik deyə onu tanımırdım). Əl sıxdıq, qucaqlaşdıq. Gördüm ortada xəritə var, hansısa əməliyyat barədə söhbət edirlər, orada durmağım etik olmadığı üçün onların yanından uzaqlaşmağa başlayanda Anar dedi: "Tofiq müəllim, xahiş edirəm gözləyin, sizlə təklikdə işim olacaq".

Dedim: "Cənab mayor, baş üstə, işinizi yekunlaşdırın, gözləyirəm sizi, narahat olmayın".

10-15 dəqiqə sonra mənə yaxınlaşdı, əlin çiynimə qoydu, dedi: "Sənə necə minnətdar olacağımı bilmirəm". Dedim, cənab mayor, mənim üçün gəlməmisən ki, mənə minnətdar olasan, biz vətənimiz üçün, dövlətimiz üçün burdayıq. Təzədən əl sıxıb, qucaqlaşıb sağollaşdıq.



Səhər bölmələrimizin Ağdərə şəhərinə yol açacaq strateji əhəmiyyətli 530 yüksəkliyinə hücumu başladı. Yer-göy dağılır, şiddətli döyüş gedirdi. Bölmələrimiz artıq yüksəkliyə qalxmışdı, 2 mərtəbə deyilən yerdə döyüş gedirdi. Ermənilərin təqribən 350-400 nəfərlik qruplaşması Göyarx kəndi istiqamətindən yüksəkliyi qaytarmaq üçün əks-həmləyə keçirdi. Rabitədə qışqırıq səsi gəlir: "Düşmənin Ağdərə istiqamətindən 10 maşın şəxsi heyətlə dolu kalonu, 4 tank, 4 BMP-2-si Göyarxa doğru düşür, təcili vurun, təcili vurun".

Artilleriya bölmələrimizin dəqiq atəşi ilə kolon yolda vurulur, tank və BMP-2-ləri mayor Mirdamət Bağıyevin spike heyəti imkan vermir heç döyüşə girələr, hamısı bir-bir vurulur. Hər şey əla gedir, sevincdən uçuruq...

Birdən rabitədə kimsə başladı qışqırmağa:

“Kombat şəhid oldu, kombat şəhid oldu”.

Babək müəllim soruşdu: – A bala, kimdi şəhid olan? Adı nədir?

Rabitəçi ağlaya-ağlaya dedi ki, komandirimiz Şükürov Anar. Bu sözü eşidən kimi hönkürtü ilə ağlamağa başladım, onun orduya qayıtmağında vasitəçi olduğum üçün özümü dünyanın ən böyük günahkarı hesab edirdim. Polkovnik Babək Səmidli tutub yaxamdan sirkələdi məni.

Dedi ki, özünü ələ al, şəxsi razborkana çağırmamısan ki, orda ölə, günahkar hesab edəsən özünü. O, vətən uğrunda şəhid olub, vətən üçün gəlmişdi bura.

Düşmənin ciddi müqavimətinə baxmayaraq, həmən gün 530 yüksəkliyi azad olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Mayor Şükürov Anar Mehman oğluna, ölmündən sonra “Vətən müharibəsi qəhrəmanı” adı verildi.

***

“Müharibədə olmayanlar onun dəhşətini görməyənlər döyüşdə olan insanları başa düşə bilməzlər. Mənim döyüşdən qabaq tanıdığım zabit dostlarım var idi, döyüşdən sonra onların hərəkətlərində, davranışlarında 180 dərəcə fərq var. Bəzisi konkret olaraq nevroz olub, bəzisi tənhalığa çəkilib içkiyə qurşanıb və s. Asan deyil dostunun tikə parça olmuş bədənin parçaların yığmaq, asan deyil illərdi ciynini dayadığın dostların bir çoxunu itirmək. Uşaqlığından adam öldürməyin sirlərin öyrənən adamlar ciddi psixoloji travma yaşıyırsa, təsəvvür edin, görün, psixoloji buna hazır olmayan gənclərimiz hansı hissləri yaşıyır? Mən bir şəhidi çıxardanda gözü əlimə töküldü, hələ də o an gözümün qabağına gələndə başım pozulur. Ağdərə istiqamətində maşın vurulmuşdu iki MAXE içində diri-diri yanıb şəhid olmuşdu. Babək müəllimlə şəhidlərimizi ordan götürəndə onları maşından çıxardıb xərəyə qoyan MAXE-nin əli

bişmişdi. Mən onun gözlərinin içinə baxdım, Babək müəllimə dedim ki, uşağa bax elə bil havalanıb. Oturmuşdu daşın üstündə gözün zilləmişdi əllərinə.

Tərtər istiqamətində minaatanlarla mövqelərimiz atəşə tutuldu, əsgərin qolunu qəlpə apardı. O uşağın qışqırığının səsi hələ də beynimdədi. Ağrı kəsici vurulub təxliyə ediləndə, dedi komandir qolumu yerinə tikə bilərlər? Dedik ki, bəli, tikəcəklər sən tez get, qolunu da göndəririk. Yaralıları və şəhidləri təxliyə edən MTLB şoferi var idi, adı yadımda deyil dəqiq, deyəsən Rasim idi. Həmən şofer o qədər yaralı və şəhid çıxartmışdı ki, maşına qanın iyindən yaxın durmaq mümkün deyildi, ikincisi o uşaq konkret olaraq havalanmışdı, dəli olmuşdu elə bil. Sonradan ondan xəbərim olmadı. Sağdırsa, Allah köməyi olsun. Bu uşaqlarla ciddi şəkildə psixoloqlar məşğul olmalıdır, yoxsa canavar kimi oğlanlarımız əldən gedəcək.

O dəhşətləri yaşamayanlar müharibədə olanları başa düşmürlər, istər qohum-əqraba, istər dost-tanış içində danışanda gülürlər, elə bilirlər zarafat edirsən”.

*Tofiq Şahmuradov*

# Tural ABDULLAYEV



Vətən Müharibəsi Azərbaycan Ordusunun şanlı qələbəsi ilə yekunlaşdı. Hər qarış torpaqlarımızın alınması igid hərbçilərimizin hünəri, şəhid və qazilərimizin qanı bahasına oldu. Qorxmaz, cəsur oğullarımız Azərbaycanın hərb tarixində qəhrəmanlıq salnaməsi yazdılar. Düşmənin 30 il ərzində qurduğu istehkamların dağıdılmasında, onların hərbi sirlərinin ələ keçirilməsində və canlı qüvvələrinin məhv edilməsində xüsusi xidmətləri olan şəhidlərimizdən biri də Tural Abdullayevdir.

Abdullayev Tural Şakir oğlu 1990-cı il fevral ayının 26-da Laçın rayonunun Ərikli kəndində anadan olub. O, doğulduğu ildə ailəsi Xocalı şəhərinə köç edib. Xocalıda yeni tikilən evlərdə məskunlaşıblar. Turalın 2 yaşı tamam olanda erməni quldurları onun yaşadığı şəhəri yerlə-yeksan etdilər, dinc əhaliyə qarşı soyqırım törətdilər. Xocalı soyqırımında Turalın atasının xalası oğlunun da ailəsi tamamilə məhv edildi. Kiçik yaşlarından düşmənə nifrət hissi bəsləyən Tural böyüyəndə düşməndən qisas almağı qarşısına məqsəd qoyub. Ömür yolunda bir dəfə də olsun doğum günü keçirdə bilməyib. Çünki onun doğum günü 613 günahsız Xocalı sakininin şəhid olduğu günə düşüb.

Tural Abdullayev hərbi xidməti 2008-ci ildə Salyanda Xüsusi Təyinatlı Qüvvələrdə keçibdir. 2010-cu ildən isə Zaqatalada DİN XTQ-də əməliyyat qrupunda çalışıb. 12 il Xüsusi Təyinatlı Qüvvələrdə Vətənə qüsursuz xidmət edən Tural hərbi xidmət keçdiyi zaman və çalışdığı müddətlərdə nümunəvi

xidmətinə görə çoxlu sayda medal və Fəxri Fərmanlarla təltif edilib. 2008-ci ildə hərbi xidmətdə nümunəvi xidmətinə görə hərbi hissə komandirinin əmri ilə baş çavuş Abdullayev Tural Şakir oğlu 3-cü dərəcəli döş nişanı ilə təltif edilib. 2013-cü ildə Azərbaycan Respublikasının "Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının 20 illiyi" yubiley medalı ilə, 2018-ci ilin dekabrında AVMVİB-nin əsasnaməsi ilə təsdiq edilmiş "Milli Ordu - 100" medalı ilə, 2020-ci ilin iyun ayında Azərbaycan Respublikasının Prezidentinin adından "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib.



Tural cəmiyyət arasında qorxmazlığı, vətənpərvərliyi ilə seçilib. O, uşaq yaşlarından atasına Xocalının qisası almaq lazımdır deyərdi. Üçrəngli Bayrağımızı daim özü ilə aparan Tural Vətənə olan borcu qaytarmağı həyatının amalına çevirib. Vətən Müharibəsi başlamamışdən əvvəl əfsanəvi "Yaşma" xüsusi təyinatlıları sırasında xüsusi təlimlərdə iştirak etmişdir. Turalın gözlədiyi qisas vaxtı artıq yetişmişdi. Boz qurd ləqəbli döyüşçü qorxmadan ən təhlükəli döyüşlərə atıldı. Şərəfli döyüş yolu, şücaəti, Vətənə sevgisi onu şəhidlik zirvəsinə ucaltdı. Öz canı qədər sevdiyi bayraq tabutuna, məzarı üstünə sərildi. Tural ölməzliyi ilə Azərbaycan xalqının yaddaşına əbədi möhürləndi.

Şəhidimizin atası Şakir əmi Tural haqqında xatirələrini belə danışır: Tural əsgərlikdən məzuniyyətə gələndə telefonla danışdığını eşitdim. O, danışarkən dedi ki, mənim bəxtim yoxdur. Mən məzuniyyətə gəlim, yoldaşlarım isə hərbi əməliy-

yatda iştirak etsinlər. Orada olsaydım, bəlkə mən də düşmən öldürərdim. Tural döyüş əməliyyatı keçirilən zaman məzuniyyətdə olduğu üçün çox təəssüf edirdi. Vətənpərvərliyi ilə seçilirdi. Zaqatalada DİN XTQ-də işləyərkən ən çətin əməliyyatlarda iştirak edirdi.Tural Abdullayev Vətən Müharibəsi





zamanı Murovdoğ yüksəkliyinin alınmasında və Kəlbəcər tərəfində keçirilən əməliyyatlarda iştirak etmişdir. Azərbaycan əsgəri ilə üz-üzə gəlməyə cəsarət etməyən mənfur düşmənin atdığı minaatan mərmisi nəticəsində igid əsgərimiz sentyabrın 30-u əbədiyyətə qovuşdu.

Subay idi.

Bakı şəhəri Xəzər rayonu Binə qəsəbəsi Sovxoz qəbiristanlığında dəfn edilib.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 09 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən baş çavuş Abdullayev Tural Şakir oğlu ölümündən sonra "Qarabağ" ordeni ilə təltif edilmişdir. Ruhu şad olsun!

*Almaz Ülvi*

## Tural ASLANOV



Tural Aslanov 1992-ci il-iyunun 5-də Yardımlı rayonunun- Çay Üzü kəndində anadan olub.

Azərbaycan Ordusunun ley-tenantı olan Tural Aslanov 2020-ci il sentyabrın 27-dəAzərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Tural Aslanov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Yardımlı rayonunda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Tural Aslanov ölümündən sonra aşağıdakı medallarla təltif edilmişdi:

15.12.2020) – "Vətən uğrunda" medalı
29.12.2020) – "Şuşanın azad olunmasına görə" medalı

*İqbal Nəhmət*

## Tural CƏLİLOV



Bizə görə canlarından keçənləri unutmayaq. Unutmayaq ki, onların sayəsində evdə, işdə, küçədə rahat gəzirik.

Tural Cəlilov 1996-cı il aprelin 10-da Qəbələ rayonunun Yeni Dizaxlı kəndində anadan olub. Subay idi.

Azərbaycan Ordusunun əsgəri olan Tural Cəlilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanıAğdərə istiqamətində gedən döyüşlərdə savaşıb. Tural Cəlilov oktyabrın 7-də Ağdərə istiqamətində şəhid olub. Qəbələ rayonunda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin15.12.2020-ci il tarixli Sərəncamına əsasən Tural Cəlilov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.[2]

Azərbaycanın Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Tural Cəlilov ölümündən sonra "Laçının azad olunmasına görə" medalı ilə təltif edildi.

*Həqiqət B.*

## Tural MƏMMƏDOV



Məmmədov Tural Taryel oğlu Şuşa şəhəri uğrunda gedən döyüşlərdə igidlik göstərmiş, döyüş zamanı yoldaşını ölümdən xilas etmiş, özü isə qəhrəmancasına şəhid olmuşdur.

Vətən müharibəsində şücaət göstərərək şəhidlik zirvəsinə ucalan qəhrəmanımız, ölümü ilə ölümsüzlük qazanan Məmmədov Tural Taryel oğlu...

Əslən Göyçə mahalının Kəsəmən kəndindən olan Tural 05.11.1999-cu ildə Daşkəsəndə anadan olub. Daha sonra ailəsi ilə birlikdə Bakıya köçüb. Orta təhsilini Bakıda alan Turalın müəllimləri onun haqqında ağızdolusu danışırlar. Qeyd edirlər ki, dərslərini əla qiymətlərlə oxuyan Tural, hər zaman vətənpərvər bir şagird kimi yaşıdlarından fərqlənib. 18 yaşında hərbi xidmətə yollanana Tural əvvəlcə Ağcabədi, sonra isə Xocavənddə 1 il 6ay müddətində Vətənə olan borcunu layiqincə yerinə yetirir. 2019-cu ildə hərbi xidmətini başa vuran Tural evinə qayıdaraq ailəsini dolandırmaq üçün müxtəlif yerlərdə çalışır. Onun yeganə arzusu işğal altında olan torpaqlarımızın azad olunması idi. Elə bu səbəbdən də, Vətən müharibəsi başlayanda könüllü olaraq cəbhəyə yollanır. Füzuli və Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərir. Şuşada 6 yaralı döyüş yoldaşını xilas edir. Özü isə ürəyindən aldığı qəlpə nəticəsində yerindəcə şəhidlik zirvəsinə ucalır.21 yaşı şəhidimiz Xırdalanda yerləşən Şəhidlər Xiyabanında dəfn edilir. Tural Vətənə olan hədsiz sevgisi danışmaqla bitməyən hekayə, oxumaqla bitməyən kitab idi.

Anası Könül xanım deyir ki, müharibənin qızğın vaxtlarında yəni noyabrın 5-də son dəfə oğlunun səsini eşidir. Ondan sonra Turaldan xəbər ala bilməyən ailə çox nigaran olur. Anası deyir ki, son telefon danışığında ondan halallıq istəyən Turalın şəhid olacağı sanki ürəyinə dammışdı. Ən maraqlısı isə odur ki, Tural şəhid olmamışdan bir gün öncə anası Könül xanımın yuxusuna girib. Özü də yaralı halda.

Turalın bacısı Yasəmənlə aralarında 2 yaş olmasına baxmayaraq, qardaşı onu həmişə "qızım" deyə səsləyərdi. Bir-birinə hədsiz bağlı olan bacı-qardaş sanki əkiz kimi idilər. Birinə nə olurdusa, digəri anında bunu hiss edirdi.

Elə Tural şəhid olan günü də belə oldu, Yasmən bunu hiss etdi. Çox narahat idi, qardaşından pis xəbər alacaq deyə yerə-göyə sığmırdı həyəcanı. Belə də oldu. Tural canını qurban verdiyi torpaq uğrunda ən müqəddəs zirvəyə-şəhidlik məqamına yüksəldi. Yasəmələ söhbət edərkən bildirdi ki, qardaşının gözəl əl qabiliyyəti var idi. Çox gözəl şəkillər çəkərdi.

Dost-tanışları da Tural haqqında onun mehriban,mərd biri olduğunu deyirlər.Vətənə, bayrağa bağlı olan Tural könüllü olaraq hərbi xidmətə yollanmazdan bir gün öncə Şəhidlər Xiyabanına gələrək, Vətən uğrunda canını fəda edənlərin məzarlarını ziyarət edir. Onlarla qürur duyduğu dilə gətirir. Necə ki, indi özü də elə həmin Xiyabanda, elə həmin şəhidlərin yanında uyuyur. Və neçə-neçə Turallar da onun məzarını ziyarət edənlərə, özünün bir zamanlar duyduğu qürur hissini indi haqqında duydurur.

*Həqiqət B.*
*Aytən Sakitqızı*

## Tural RƏHİMLİ



Laçın elinin tarix yazan Tural adlı bir igidi var!

*Qismət olmayaydım ayrı torpağa,*
*Gözlərim Laçını görəydi bir də.*
*Sürünüb çıxaydım İşıqlı dağa,*
*Əllərim bənövşə dərəydi bir də.*

Şəhid Rəhimli Tural Gəray oğlu 2001-ci il oktyabrın 27-sində dünyaya göz açmışdır. Sakit təbiətli, mülayim olan Tural hamının qəlbini qazanmışdı. Uşaq yaşlarından ailənin sevimlisi olan şəhidimiz 2007-ci il-də Laçın rayonu 45 saylı tam orta məktəbdə təhsil almağa başlamışdır. Müəllimləri Turalın hələ kiçik yaşlarından vətənpərvər olduğunu, əslən Laçınlı olması ilə fəxr etdiyini, Qarabağla bağlı müzakirələrdə Laçın sevgisini daim dilə gətirməsini xüsusilə qeyd edir. Maraqlıdır, Tural tarixi kitabını vərəqləyərkən hiss etmişdimi ki, gün gələcək Azərbaycan xalqının yaddaşına həkk olunacaq Zəfər dastanının tarixi qəhrəmanına çevriləcək? Axı o gedərkən demişdi: "Şəhid olsam ağlamayın".

Şəhidin anası Tural haqqında xatirələrini bölüşərkən qeyd edir: "Tural qeyri-adi uşaq idi. Heç zaman əziyyət verməzdi, çalışardı həmişə mənə dəstək olsun. Məni çağıranda həmişə üç dəfə anam deyib səsləyərdi. Heç kimin qəlbini qırmazdı, heç kimi incitməzdi, mehriban, ağıllı idi". Bu mülayim ruh qəlbinin dərinliklərində düşmənə dağ çəkəcək nifrət yetişdirirdi.

İnşalarından birində yazmışdı: "Biz İnşAllah torpaqlarımızı alacağıq". Şəhidin uşaq qəlbi zəfəri hiss edirdi. Xəyallar

qurmağı da sevirdi: “Böyüyüb Rusiyaya gedəcəm. Rusiya vətəndaşlığı alıb Ermənistana keçəcəm. Ordan da Laçına gedəcəyəm” – deyirdi. Laçını bu qədər çox sevirdi, canını uğrunda verəcək qədər. Tural qısa ömrünə dillərə dastan olan bir həyat sığdırdı. Dostları onun Vətən sevgisini heyranlıqla izləyir, daha da ruhlanırdılar. Cəbhədə baş verən hər bir erməni təxribatı Turalı dərindən sarsırdı. Cəbhədə şəhid olan qardaşları, döyüşən əsgərlər üçün narahatlıq keçirir, özünə yer tapa bilmirdi. Ən böyük arzusu orduya qatılıb, doğma yurdunu yenidən azad etmək idi. Tural cismən Bakıda olsa da, ruhən heç vaxt burada olmamışdı. Onun ruhu hər zaman Laçında idi. Necə ki, indi həmişə yaşarlıq qazanmış şəhid ruhu bizdən öncə azad Laçın səmasındadır. Tural öz Laçınına qovuşdu!

28 oktyabr 2019-cu il... Vətənə borcunu ödəməyə çağırılan Tural sevincindən yerə-göyə sığmır. Anası ilə vidalaşan şəhid son sözlərini dilə gətirir: “Mənimlə fəxr et, anam. Şəhidlik hər adama qismət olmur”. Vətən öz oğlunu səsləyir. Tural hərbi xidmətə yollanır. Elə ilk günlərdən kollektivin hörmətini qazanan gənc əsgər tapşırılan bütün işləri böyük həvəslə yerinə yetirir. Hərbi formasını geyinən Tural özü ilə bütünləşir. Artıq o arzusuna gedən bu şərəfli yolda ilk addım-larını atır. Ailəsindən xəbərsiz ön cəbhəyə yazılır.

27 sentyabr 2020-ci il... Xəbis düşmən öz xislətini bir daha nümayiş etdirir. Azərbaycan dövlət sərhədlərini pozaraq təxribata cəhd edən düşmənə qarşı Vətən oğulları birləşir. Gecə saatlarından başlanan mübarizədə minlərlə igid əsgər bir yumruq ətrafında birləşir. Tural bu sabah daha sevinclidir. Ali Baş Komandan hücum əmrini verir. Tural gözlərinə inana bilmir, onun qəlbinin ən gizli, ən məhrəm arzusu Tanrı qatında qəbul edilmişdi. Artıq arzusu əl çatmaz deyildi. Könüllü şəkildə ön cəbhəyə yollanan Tural kəşfiyyat bölüyündə idi. Düşmənə qan qusduran Tural və yoldaşları Qarabağın qisasını alırdı. Yorulmadan, bezmədən, gözlərini intiqam alovu bürü-

müş igidlər düşmənin planını alt üst edir, onu pərən-pərən salırdı. Döyüş yoldaşları Tural haqqında danışarkən qeyd edirlər: "Tural o qədər Vətənini sevirdi ki, Vətən sevgisi gözünü örtmüşdü. Güllə baran altında dayanmadan irəli gedir, arxaya baxmırdı".

Komandirləri şəhid haqqında qeyd edirlər ki, bu yolu özü seçmişdi, çox istəyirdi döyüşlərdə öndə olsun. Şəhid Su-qovuşana ilk ayaq basan 5 əsgərdən biridir. Və onların hər biri şəhidliyi ilə Vətən torpağını müqəddəsləşdirdi.

Bu qədərmi çox istəyirdin şəhidliyi, Tural? Ruhun bu qədərmi tələsirdi? Bu gənc yaşda bu qədər cəsarəti, şücaəti necə toplamışdın ruhunda? Bu fani dünyanın sənə verdiyi 18 ilə bu qəhrəmanlıq tarixini necə sığdırdın?

1 oktyabr 2020-ci il... Tural atasına zəng vurur: "Atacan narahat olma hər şey yaxşıdı. İnşAllah Laçını azad edəciyik! Şəhid olsam ağlamayın". Bəlkə də ata qəlbi Turalın bu sözlərini qəbullanmamışdı. Tural isə öz arzusuna dayanmadan qanad çalırdı. Suqovuşanda döyüşlər dayanmadan davam edirdi. Tural və yoldaşları Suqovuşana yollanır. Düşmən məğlubiyyəti ilə barışa bilmir. Şiddətli döyüşlərdə Tural xüsusi ilə fərqlənir. Son döyüşündə olduğunu hiss edirmişcəsinə dayanmaq bilmir. Daha da irəli, daha da irəli, daha da irəli! Daha çox erməni quldurunu məhv etmək, xalqını bu mənfurlardan qurtarmaq istəyir. Düşmən təşviş içindədir. Kimdir bu hünərin sahibi? 18 yaşında görünən, əslində bu böyük Vətəni gənc qəlbində daşıyan aslandır, Turaldır! O Tural ki, Vətənin bir qarışının belə düşmənin əsirliyində qalması ilə barışa bilmirdi. O Tural ki, öz şəhadəti ilə minlərlə qəlbdə Vətən sevgisini, intiqam hissini alovlayırdı. O Tural ki, milyonların sevgisini qazanacaq, şəhidliyi ilə xalqının gələcəyinə nur saçacaqdı. Şəhadətin qutlu olsun, xalqının igid oğlu! Arzuna çatdın, bizi də arzumuza qovuşdurdun, Qarabağımıza! Anasının qoynundan ayrılan Tural Vətənin qoynuna girdi. Onu dərindən sevən

Turalı Ana Vətən isti ağuşuna əmanət aldı, ta məhşərə qədər! Şəhidin sözü də bir kəlamdır: “Şəhidlik hər adama qismət olmur”. Sənə isə taleh bu ali məqamı hədiyə etdi. Turalı tanıyan hər kəs, onun Qarabağa, Laçına olan sevgisini yaxşı bilirdi. 41 rəqəmi Turalın simvoluna çevrilmişdi. Laçın azaddır, Tural! Sən öz qanınla ona yenidən can verdin! Sən yalnız Laçına yox, xalqımıza, Azərbaycana, bayrağımızın al boyasına can verdin! Şəhidlik zirvəsindən Laçını izləyərkən bil ki, gələcək nəsillər, Laçında böyüyən azərbaycanlı körpələr sənin haqqında qəhrəmanlıq nağılları qoşacaq, sənin canın bahasına əmanət etdiyin Laçını, Qarabağı göz bəbəyi kimi qoruyacaq!

Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin sərəncamına əsasən Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlara görə Tural Rəhimli ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif olundu.

*Dünya Şəmilova*

## Tural ŞIXƏLİYEV



Heç kəs anadan qəhrəman doğulmur. İşıqlı dünyaya göz açan hər bir bəşər övladı həyatda hər şeyi özü qazanır: rəğbəti də, sevgi- məhəbbəti də. Həyatda elm məhəbbətini, sevgisini qazananlar, el-oba gözündə ucalanlar dünyanın ən xoşbəxt adamlarıdır. Deyirlər ki, qəhrəmanlıq üçün bir an da kifayətdir. Bir an və tarixə düşəcək qəhrəmanlıq!

Tural Ətraf oğlu Şıxəliyev 2002-ci ildə İsmayıllı rayonu Diyallı kəndində ziyalı ailəsində dünyaya gəlib. 2008-ci ildə A.Məmmədov adına Diyallı kənd tam orta məktəbə daxil olub. Bir neçə il qol güləşi idmanı ilə məşğul olmuş, dəfələrlə Respublika və rayon çempionu olmuşdur. Tural 2019-cu ildə orta məktəbi, 2020-ci ildə isə peşə tədris mərkəzi məktəbini bitirmişdir. Ailəsi və dostları arasında çox sevilən Tural Şıxəliyev "Motu" ləqəbi ilə çağırılırdı. 11 iyul 2020-ci ildə hərbi xidmətə çağrılan Tural, 27 sentyabr Vətən müharibəsində iştirak edir. Ailəsi onunla heç bir əlaqə yarada bilmir. 72 gün sonra Ağdərə ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid olduğu xəbəri gəlir. Tural doğma torpağı olan İsmayıllı rayonunun Diyallı kəndində dəfn olunur.

*Ülviyyə Novruzova*

## Turqut XƏLİLBƏYLİ



Cəbhədə hərbi həkim kimi çalışan tibb xidməti leytenantı, Şəhid Turqut Xəlilbəyli "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.

Məkanı cənnət olsun!

Bu imzalar Azərbaycan üçün olduqca əzizdi! Turqut da Azərbaycan uğrunda Şəhidlik Zirvəsinə Ucaldı! Həkim leytenant Turqut Xəlilbəyli döyüş bölgəsindən yaralı əsgər çıxararkən şəhid oldu!

Vətən var olsun!

Rahat uyu şəhidim!

Məkanın cənnət olsun!

***

Naxçıvanın qəhrəman oğlu, tibb xidməti leytenantı,Şəhid həkimi Turqut Xəlilbəylini həkim andına və vətəni Azərbaycana bağlılığı Qarabağ döyüşlərində ön cəbhəyə getməyə ruhlandırdı.Əslində həkim, tibb xidməti leytenantı Turqut Xəlilbəyli yaralılara hərbi hospitalda tibbi yardım etməliydi, həkim kimi ona təyinat belə verilmişdi,amma ailəsinə belə xəbər vermədən o, döyüşlərin qızğın yerində idi. Neçə-neçə yaralı

əsgərə can verən, son nəfəsində yaşamasına kömək edən fədakar həkim Füzuli rayonu istiqamətində gedən döyüşlərdə elə işinin başındaykən qəhrəmancasına şəhid olub. Onun adı 44 günlük Vətən Müharibəsinin ilk həkimi kimi tarixə düşüb.

Bu gün daha yaxından tanıyacağımız qəhrəman Vətən müharibəsinin ilk həkim şəhididir.

***




1993-cü ilin iyul ayının 4-də Naxçıvan MR-da Şərur rayonunun Yengicə kəndində doğulan ilk şəhid həkim leytenant Turqut Nadir oğlu Xəlilbəyli.

Turqutun yaxınları ilə danışırdım. Ailəsi narahat idi. Sözün açığı mənə də keçdi bu narahatlıq. Fikirləşərsiniz niyə? Axı torpaqlar azad olundu. Axı biz qalib gəldik. Narahatlıq nə üçün? Əlbəttə, qəhrəmanlarımız tarix yazdılar. Amma ailəni narahat edən şey şəhid övladlarının unudulmaq qorxusudur.

Kimdir Turqut? Şəhid xəbəri gələndə dedilər şair Xəlil Rza Ulutürkün nəvəsidir. Gerçək isə elə deyil. Sadə və mərd kişi Nadir əminin oğludur Turqut.

Dədə Qorqud Türk liseyini bitirib Tibb Universitetinin hərbi həkimliyinə qəbul olan Turqut hər zaman vətən sevgisi ilə digərlərindən seçilib. Uşaqlıqdan hərbiyə, bayrağımıza, torpaqlarımıza ayrı sevgisi olan qəhrəmanımız ən yaxın qohumu, ehtiyatda olan tibb xidmətli polkovnik-leytenant Çingiz Məmmədovu özünə ideal seçir. Daima ondan məsləhətlər alır. Ali məktəbi bitirib Beyləqan korpusunun hərbi hissələrinin bi-

rində xidmətə başlayır. Vətən müharibəsi başlayan gündən Füzuli bölgəsində yeri arxa cəbhə olmasına baxmayaraq, ön cəbhəyə gedir. Döyüş zamanı dəfələrlə yaralı əsgər və zabitlərin həyatını xilas edir.

Tarix: 7 oktyabr 2020...

Növbəti döyüş zamanı yaralanmış əsgərləri döyüş meydanından çıxararkən düşmənin atdığı ağır artilleriya nəticəsində o da ağır yaralanır. Və ağır yaralandığına görə həyatını qurtarmaq mümkün olmur, qəhrəmancasına şəhid olur. Bunu da qeyd etməyi özümə borc bildim.Turqut Xəlilbəylini son dəfə oktyabr ayının 4-ü atası Nadir Hüseynov, Çingiz Məmmədov və Diaqnoz Tibb Mərkəzinin bir qrup heyəti əsgərlərimizə yardım apararkən görür. Və orda da Turqut bildirir ki, məndən nigaran qalmayın. "Yaralı əsgər və zabitlərin döyüş bölgəsində həyatlarını itirmələrinə imkan verməyəcəm. "Gözünüz arxada qalmasın. İnşallah Qarabağı aldıqdan sonra görüşərik".

Qarabağı məhz belə oğullar aldılar. Canları ilə, qanları ilə.Şəhidimizin məzarı Bakıda II Fəxri Xiyabandadır.

İlk şəhid həkim leytenant Turqut Nadir oğlu Xəlilbəylini birgə yad edək!

Ruhun şad olsun, Vətən oğlu! Neçə-neçə qəhrəmanımızın həyatını xilas etdin sən, cənab leytenant!

Cənnətində rahat uyu!

Allah rəhmət eləsin!

Qəhrəmanlarölmürlər!

*Həqiqət B.*

# Ümid NOVRUZOV



"وَلا تَقُولُوا لِمَنْ يُقْتَلُ فِي سَبِيلِ اللَّهِ أَمْوَاتٌ
بَلْ أَحْيَاءٌ وَلَكِنْ لا تَشْعُرُونَ (سورة البقرة، ١٥٤)"

"Allah yolunda öldürülənlərə (şəhid olanlara) "ölü" deməyin. Əksinə, onlar diridirlər, lakin siz onların canlı olduğunu hiss etməzsiniz" (Bəqərə surəsi, 154).

Şəhid olmaq sıradan bir ölüm deyil. Müqəddəs kitabımızda qeyd olunan bu ayə şəhidlərə verilən ən böyük dəyərdir. Peyğəmbərimiz (s.a.v.) şəhidliyin nə demək olduğunu dəyərli hədislərində bizlərə açıqlamışdır: "Cənnətə girən heç bir kimsə yer üzündəki hər şey özünün olsa belə, dünyaya geri dönməyi arzu etməz. Ancaq şəhid müstəsna! Şəhid, gördüyü aşırı etibar və ikram səbəbi ilə təkrar dünyaya dönməyi və on dəfə şəhid olmağı istəyər".

Yaşadığımız dünyada elə günlər vardır ki, heç zaman unudulmur. Belə günləri yaddaşlara salanlardan biri də qəhrəman şəhidlərdir. Şəhid – vətəni, dini uğrunda canını qurban verən insana deyilir. İnsan oğlunun dünya həyatına ən mükəmməl formada xudahafiz etməyinin adıdır şəhidlik.

Ölkəmizin müstəqillik və azadlığının qorunub saxlanılması qəhrəman şəhidlərimizin adı ilə birbaşa bağlıdır. Bu baxımdan Azərbaycan xalqı öz igidləri ilə qürur duyur və fəxr edir. Belə ki, Ali Baş Komandan İlham Əliyevin əmri ilə 27 sentyabr 2020-ci il tarixində başlanan və 44 gün davam edən Vətən Müharibəsində xalqımızın minlərlə igid övladı şəhidlik zirvəsinə ucalmışdır.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyevin də qeyd etdiyi kimi qazanılan qələ-

bədə naxçıvanlılar böyük igidlik və qəhrəmanlıq göstərmişlər. Bu igidlərdən biri də "Qarabağ Azərbaycandır!" deyərək Vətən müharibəsinə yola düşən Ümid Novruzludur. O, Şuşa şəhərinin azad olunmasında düşmənlə əlbəyaxa döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv edib qəhrəmanlıq göstərmişdir.

Novruzlu Ümid Bahadur oğlu 7 iyun 1992-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Babək qəsəbəsində anadan olmuşdur. İlk təhsilinə 1998-ci ildə Babək rayon Babək qəsəbəsində Vəli Mahmudov adına 1 №-li tam orta məktəbdə başlamış və 2009-cu ildə isə oradan məzun olmuşdur. 2010-cu ildə hərbi xidmətə çağırılan Ümid 2012-ci ildə oranı bitirdikdən sonra Naxçıvan MR DİN-in, 2013-cü ilin may ayından isə Bakı şəhər Binəqədi rayonunun Biləcəri qəsəbəsinin daxili qoşunlarında MAXEHQ əsgər, sürücü, atıcı vəzifələrində işləmişdir. Bu müddət ərzində komandirlərinin verdiyi tapşırıqları nöqsansız yerinə yetirdiyinə və hərbi intizam nümayiş etdirdiyinə görə cənab general-polkovnik Ramil Usubov tərəfindən fəxri fərmanla təltif olunmuşdur. 2015-ci ilin avqust ayından Naxçıvan Muxtar Respublikasının DİN-nin Xüsusi Təyinatlı taqımında, 2018-ci ildə isə Naxçıvan "N" saylı Xüsusi Təyinatlı Qüvvələrində hərbi xidmətə başlamışdır. İdmana böyük həvəsi olmuşdur. O, Naxçıvan MR İlham Əliyev adına Olimpiya İdman kompleksində kikboksinq idman növü ilə məşğul olmuş və burada da müxtəlif medallarla təltif olunmuşdur.

Ümid 2020-ci ildə gizir hərbi rütbəsini qazanaraq taqım komandirinin müavini vəzifəsində çalışmışdır. Həmçinin, 2020-ci il tarixdə Naxçıvan MR-da keçirilən hərbi təlimlərdə yaxından iştirak etmiş və ayağından zədə almışdır. O, zədəli olsa belə vətən müharibəsində iştirak etməyi özünə böyük şərəf bilmişdir. Ümid 24 oktyabr 2020-ci ildə Naxçıvandan Bakıya, oradan da Şuşa şəhərinə göndərilmişdir. O, Şuşanın alınmasında düşmənlə əlbəyaxa döyüşərək el qəhrəmanı sərkərdə Babəkin

adını doğrultmuşdur. Döyüş yoldaşları ilə bərabər ən çətin




həlledici döyüşdə iştirak edərək onları meydanda tək qoymamışdır. 5 noyabr 2020-ci il tarixdə səhər saat 9-10 arası uzaq məsafədən düşmən snyaperindən açılan atəşlə boğaz nahiyəsindən vurularaq şəhadətə qovuşmuşdur. Xarıbülbüllərin içərisində son nəfəsini verən igidimizin cənazəsi Bakıda şanlı bayrağımıza bükülərək 13 noyabr 2020-ci il tarixində Naxçıvan Muxtar Respublikasına – ata ocağına gətirilmiş və Babək şəhər qəbristanlığında uğrunda şəhid olduğu torpağa tapşırılmışdır. Ümid vətəninə, elinə bağlı, hörmətli, izzətli, qorxmaz cəngavər bir igid idi. Şəhidimizdən bizə yadigar qalan iki övladıdır. Bahadur və Nilay! Nilay ilə söhbətləşirəm: "Atama canım qurban!" deyir.

Ümidgilin ata evi Babək şəhərində Heydər Əliyev prospektində yerləşir. Evin qapısında üçrəngli şanlı bayrağımız dalğalanmaqdadır. Bayrağa hərbi salam verib evə daxil oluram. Ümid kimi pəhləvan oğlu torpağa tapşırmaq, balasından ayrılmaq bir ana üçün çox çətindir. Şəhid anası ilə söhbət etmək isə lap ağırdır.

Kimya ana Ümid adını eşidən kimi kövrəlir, amma qürurludur. Dərdini gizlətməyi bacarır: "Qəhrəman oğlum hərb sənətini çox sevirdi. Döyüşdə komandirlə yanaşı gedirmiş. Mən Bakıya qızımgilə qonaq getmişdim. Axırıncı dəfə Ümidlə 25 oktyabr 2020-ci il tarixdə telofonla danışdım. Oğlum mənə dedi ki, "Bakıya gəlirəm, mama!" Elə bir ürəyimə damdı ki, oğlum müharibəyə gedir. Dedim: Qarabağa gedirsən Ümid? Ümid də dedi ki, hə, qorxma, gedib gələcəm! Və gələndə də səni görəcəm!" Vətən uğrunda canından keçən igid qəhrəmanlarımızın göstərdiyi şücaətlər daim dövlətimizin

diqqətindədir. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında Sərəncamına əsasən şəhidlərimiz müxtəlif ad, orden və medallarla təltif olunmuşlar. Şəhidimiz 15 dekabr 2020-ci il tarixli Prezident İlham Əliyevin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında Sərəncamına əsasən göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra "Vətən uğrunda" medalı və Azərbaycan Respublikasının Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək igidlik və şücaət göstərdiyinə görə Prezident İlham Əliyevin 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Şəhid ailəsi olmaq böyük şərəfdir. Xalqımız şəhidlərinə böyük ehtiram göstərərək, ruhları və qəhrəmanlıqları önündə daima baş əyərək onların xatirəsini uca tuturlar. Ümid Novruzlu kimi qəhrəmanlarımızın şəhadəti ilə Qafqazın incisi sayılan Şuşa şəhəri və Qarabağ torpağı əbədi olaraq Ana vətəninə qovuşdu! Biz vətənin oğul və qızları olaraq səninlə fəxr edirik Babək şəhərinin Babək qeyrətli mərd oğlu Ümid! Siz hər zaman bizim qəlbimizdə və xatirələrimizdə yaşayacaqsınız! Allah sənə və bütün şəhidlərimizə rəhmət eləsin!

*Kübra Vəliyev*

## Valeh MƏMİYEV



Tank Bölük komandiri, baş leytenant Məmiyev Valeh İsbat oğlu 27 mart 1994-cü ildə Yardımlı rayonunun Kürəkçi kəndində anadan olub. Uşaqlıq illərindən hərbçi olmaq arzusu ilə yaşayan Valeh Ali Hərbi Məktəbi bitirdikdən qısa bir müddət sonra tank bölük komandiri vəzifəsinə yüksələ bilmişdi. O, nümunəviliyi, döyüş taktikası, şəxsi heyətlə iş və digər keyfiyyətlərinə görə dəfələrlə mükafata, fəxri fərmanlara layiq görülmüşdür. Valeh Məmiyev ən son təlimlərin birində Türkiyənin Müdafiə Naziri Hülusi Akar tərəfindən xüsusi fərqlənmə ilə təltif edilmişdir.

O, Vətən müharibəsində cəsarət və şücaətlə öz komandasını tankı ilə irəli aparmış, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının alınmasında şücaətlə iştirak etmişdir. O, öz tankı ilə üç düşmən tankını və 35-dən çox hərbi şəxsi heyəti məhv etmişdir.Valeh Qubadlı-Laçın istiqamətində şəhid Milli Qəhrəman Şükür Həmidovun komandanlıq etdiyi döyüşlərdə qəhrəmancasına döyüşərək şəhidlik məqamına yüksəlmişdir.

Valeh Məmiyev oktyabrın 23-də doğulduğu kənddə dəfn edilmişdir.Valeh İsbat oğlu Məmiyev göstərdiyi qəhrəmanlıqlara görə, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

*Eşqanə Babayeva*

# Vüsal ALLAHVERDİYEV

Allahverdiyev Vüsal Tahir oğlu 16 avqust 1988-ci ildə Qubadlı rayonunda anadan olub. 31 avqust 1993-cü ildə 5 yaşında olarkən məcburi köçkün kimi Sumqayıt şəhərində məskunlaşıblar. 1995-cü ildə Sumqayıt şəhər 23 saylı tam orta məktəbin 1-ci sinifinə gedib 2004-cü ildə həmin məktəbin 9-cu sinfini bitirib Qubadlı rayon 2 saylı tam orta məktəbə gedib və 2006-cı ildə həmin məktəbin 11-ci sinfini bitirib. Kooperasiya universitetinin maliyyə və kredit fakültəsinə daxil olub və həmin universiteti bitirib. 2010-2011-ci illərdə Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə həqiqi hərbi xidmət keçib. 2012-2015-ci illərdə"UNİBANK" Kommersiya Bankında İstehlak krediti üzrə Aparıcı Mütəxəssis vəzifəsində çalışıb. Daha sonra "Kontakt Home" mağazalar şəbəkəsində kredit mütəxəssisi kimi çalışıb. 2020-ci ildən Kapital Bankda "Bir-kart Bank olmayan Kredit Təşkilatı" MMC-nin 20 saylı filialının müdirü vəzifəsində işləyib. Sonra həmin vəzifədən öz ərizəsi ilə işdən çıxıb. 14 iyul 2020-ci ildə Tovuz hadisələrində General-mayor Polad Həşimov şəhid olandan sonra Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Qubadlı rayon şöbəsinə müraciət edib və könüllü olaraq yazılıb. 27 sentyabr 2020-ci ildə əks hücumla başlayan Vətən müharibəsinə 01 oktyabr 2020-ci ildə könüllü olaraq gedib. Cəbrayıl istiqamətində həmlə bölüyünün tərkibində döyüşlərdə olub və 4 günlük mühasirədə qaldıqları vaxt böyük şücaət göstərərək yaralı və şəhidlərimizi döyüş mövqeyindan çıxarmağa müvəffəq olub. Sonuncu yaralı komandirini döyüş mövqeyindən çıxardan zaman komandiri ağır yaralı olduğu üçün Vüsala onu buraxıb getməyini desə



də, Vüsalın cavabı o olub ki, ya ikimiz bir yerdə şəhid olacağıq, ya da burdan çıxacağıq. Həmin döyüşdən sağ çıxıb komandiri hərbi hospitala çatdırsalar da, komandir şəhid olub. Sonra Fizuli rayonu Seyidəhmədli istiqamətində döyüşlərdə iştirak edib, Füzuli Xocavənd istiqamətində döyüşüb. Döyüş yoldaşları Vüsalın onları döyüşə necə ruhlandırması barədə qürurla danışıb deyirlər ki, Vüsal hər zaman deyirdi: "Bir işin sonu şəhidlikdirsə, o işdən niyə qorxmalıyıq" Son döyüşü 30 oktyabr 2020-ci ildə Xocavənd istiqamətində hücum zamanı döyüş yoldaşlarını ölümdən xilas etmək üçün düşmən tərəfin partlatmaq istədiyi mərminin üstünə ataraq döyüş yoldaşların ölümdən xilas edib, qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb və Sumqayıt şəhərində yerləşən Şəhidlər Xiyabanında dəfn olunub.



Ölümündən sonra Azərbaycan Respublikasının Prezidentinin 15 dekabr 2020-ci il sərəncamı ilə "Vətən uğrunda" medalı, 18 dekabr 2020-ci il sərəncamı ilə "Döyüşdə fərqlənməyə görə" medalı, 25 dekabr 2020-ci il sərəncamı ilə "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

Atası: Allahverdiyev Tahir Qafar oğlu 1-ci Qarabağ müharibəsi veteranıdır. Əmisi: Allahverdiyev Mahir Qafar oğlu ehtiyatda olan zabitdir, xidməti vəzifə borcunu yerinə yetirərkən yaralanıb ikinci qrup əlil olmuş, 2-ci Vətən Müharibəsinədə könüllü gedib. Dayısı: Alıyev Akif Hümbət oğlu birinci Qarabağ müharibəsi veteranı, 2-ci qrup Qarabağ əlilidir. Ailədə bir qardaş, bir bacı idilər. Subay idi.

*Hicran Alıyeva*

# Vüsal KAZIMOV



Vüsal Kazımov 1990-cı il dekab-rın 17-si Lənkəran rayonunun Yuxarı Nüvədi kəndində anadan olmuşdur. Lənkəran rayonu Mais Mirzəcanov adına-Yuxarı Nüvədi kənd tam orta məktəbində təhsil almışdır. Lənkəran Dövlət Universititetinin Fiziki tərbiyə və gənclərin çağırışa qədərki hazırlığı ixtisasını fərqlənmə ilə bitirmişdir.

23.06.2016-cı ildən 16.08.2017-ci ilədək Lənkəran şəhər Uşaq Poliklinikasının psixi sağlamlıq bölməsində müalicə bədən tərbiyəsi üzrə təlimatçı vəzifəsində işləmiş, 2017-ci ildən Lənkəran Dövlət Universtitetinin qiyabi şöbəsində İqtisadiyyat və idarəetmə fakültəsinin "Mühasibat uçotu və audit" ixtisası üzrə bakalavriat səviyyədə təhsil almışdır. Təhsili ilə bərabər Lənkəranşəhər gənclər və idman idarəsinin nəzdində UGİM-in direktoru vəzifəsində çalışmışdır. Vüsal Kazımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Füzuli əməliyyatında, Cəbrayıl uğrunda döyüşlərdə, Xocavənd rayonunun işğaldan azad olunmasında və Şuşanın azad edilməsində iştirak etmişdir. Sonuncu dəfə 26 oktyabrda ailəsi ilə əlaqə saxlamışdır. Şuşanın azad edilməsində şəhid olmuşdur. 29 noyabr 2020-ci il tarixində Lənkəran rayon Yuxarı Nüvədi kəndində böyük izdihamla dəfn edilmişdir. 05 iyul 2011-ci ildə Lənkəran rayon hərbi komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb.

Ailəli idi, iki qız övladı var.

06.07 2011-ci il tarixdən 10.08.2011-ci il tarixədək Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində ştatdan kənar müddətli həqiqi hərbi xidmət, 10.08.2011-ci ildən 14

oktyabr 2011-ci il tarixədək Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində kursant, 14 oktyabr 2011-ci ildən 14 aprel 2013-cü ilədək Silahlı Qüvvələrin “N” saylı hərbi hissəsində tağım komandiri vəzifəsində həqiqi hərbi xidmət keçmişdir. 14 aprel 2013-cü ildə xidmət müddəti başa çatdığına görə həqiqi hərbi xidmətdən ehtiyata təxris olunmuşdur. 03.09.2014-cü ildən 16.04.2016-cı ilədək Silahlı Qüvvələrin Hərbi Polis idarəsinin “N” saylı hərbi hissəsində bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində həqiqi hərbi xidmət keçmişdir. 16.04.2016-cı ildə xidmət müddəti başa çatdığına görə həqiqi hərbi xidmətdən ehtiyyata təxris olunmuş və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət xidmətinin Lənkəran rayon şöbəsinin qeydiyyatına alınmışdır. Azərbaycan Ordusunun baş leytenantı olan Vüsal Kazımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Füzuli əməliyyatında, Cəbrayıl uğrunda döyüşlərdə, Xocavənd rayonunun işğaldan azad olunmasında və Şuşanın azad edilməsində iştirak etmişdir. Sonuncu dəfə 26 oktyabrda ailəsi ilə əlaqə saxlamışdır. Şuşanın azad edilməsində şəhid olmuşdur.

29 noyabr 2020-ci il tarixində Lənkəran rayon Yuxarı Nüvədi kəndində böyük izdihamla dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün İlham Əliyevin Sərəncamı ilə baş leytenant Kazımov Vüsal Kamran oğlu ölümündən sonra “Vətən uğrunda”, “Xocavəndin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilmişdir.

*Şəbnəm Babayeva*

# Vüsal VƏLİYEV



Vüsal İslam oğlu Vəliyev 1988-ci il iyulun 15-də Şərur rayonunun Dizə kəndində anadan olub. 1994-2002-ci illərdə Dizə kənd tam orta məktəbində, 2002-2005-ci illərdə Heydər Əliyev adına Hərbi Liseydə təhsil alıb. 2005-2009-cu illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil alıb. Nişanlı idi. Vüsal hələ uşaqlıqdan itləri çox sevirdi. Harada sahibsiz, ac it görsə götürüb həyətə gətirərdi. 3-4 itimiz varıydı. Amma yenə də harda balaca it görsə gətirərdi. Anam hərdən acıqlanırdı ki, "həyət doludu itlə, əkini əzirlər, hər yeri zibilləyirlər. Evdə süd qoymursan, sağdığım südü də daşıyıb itlərə tökürsən". Gülüb deyirdi, "maması, heç nə olmaz. Allah əvəzini verəcək", Haçan gəlib anamı çoxlu qucaqlayıb, öpür, əzizləyirdisə anam şübhələnirdi ki, "yəqin yenə it tapıb gətirmisən. Məni dilə tutursan". Çölə qoyun otarmağa gedəndə bir dəfə fit çalmaqla məhlənin bütün itlərini arxasıca aparırdı. Amma biz fitləyəndə itlər gəlmirdi. Deyirdim itlər bilir onları qoruyursan, ona görə sən çağıran kimi gəlirlər. Həmişə özü yemək yeməzdən əvvəl itlərin yeməyini verərdi. Bizə də tapşırırdı ki, itləri ac qoymayın. Haramı düzündə xidmət edəndə yanına getmişdim. 10-15 it saxlayırdı. Dedi, bu itlər ən sadiq dostumuzdu. Erməninin kəşfiyyatçısı, diversantı uzaqdan gələndə bunlar hiss edir, xəbər verir. Bir itini də vurub yaralamışdılar, ona görə çox pis olmuşdu.

Vüsal hələ xidməti vaxtı "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, "Əfqanıstanda sülhməramlı missiyaya görə" medalları ilə təltif olunmuşdu.

Azərbaycan Ordusunun mayoru olan Vüsal Vəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamani Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüsal Vəliyev noyabrın 9-də Şuşa döyüşləri zamani, müharibənin başladığı 43-cü gün şəhid olub. Şərur şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.Vüsal Vəliyevlə telefon əlaqəsi oktyabrın 2-dən kəsilmişdi. Şəhidin atası İslam Vəliyev onun itkin düşdüyü xəbərini öyrəndiyi gün (13 oktyabr 2020-ci il) infakt keçirib dünyasını dəyişmişdir. Vüsal Vəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.



**P.S.**Boltdan taksi çağırmışam. 35-40 yaşlı sürücü həmyerlim çıxdı. Müharibədə Naxçıvandan çox şəhid olduğunu, hava limanından yola salınan zaman hər dəfə getdiyini danışdı. Sonra deyir ki, Şərurdan bir şəhidin dəfni məni çox ağlatdı. Dizə kəndində nişanlı mayoru vağzalı ilə evdən çıxardanda qardaşı toyçulara şabaş verdi. Dedim ki, o mənim qardaşım idi. Şabaşı da mən vermişdim. Sürücü tez döndü arxaya baxdı, kövrəldi, ünvana çatanacan ağladı. Deyir mənə belə təsir etdisə, gör sizin ailəniz nələr çəkib. Düşəndə pul götürmürdü. Düşüb pulu pəncərədən zorla maşına atmışam.




*Elyar İslamoğlu, qardaşı*

# DE, NECƏ QAYTARIM SƏNƏ BORCUMU?!

*(Vüsal Vəliyevə)*



*De, necə qaytarım Sənə borcumu?!*
*Xınasına kül də qatılan şəhid*
*De, necə qaytarım Sənə borcumu?!*
*Xonçası məzara qoyulan şəhid.*

*Bir gül dərib sevgilinə vermədin,*
*Yarınla görüşüb birgə gülmədin,*
*Sən bəy otağına keçə bilmədin,*
*Vağzalı sədasıyla köçən şəhidim.*

*Torpağın üstünə tökmüsən al qan,*
*Azad yaşamaq üçün can Azərbaycan*
*Torpağın qoynunda salmısan məkan,*
*Bayrağa bürünüb gələn şəhidim!*




*Vağzalı çaldırdı qapıda qardaş,*
*Bəy nəmər vermədi, axdı gözdən y*
*Göz yaşı ilə qardaş səpdi haşabaş*
*"Bəy toyun mübarək!"- deyən olm*

*Xonçalar bəzəndi, bəzəyi qara,*
*Anan necə dözsün bu dərdə bala?!*
*Atan vay toyunu görməsin deyə,*
*Ürəyi yaralı köçdü torpağa.*

*Ruhun şad olsun, məkanın cənnət,*
*Qarabağ alındı, sevindi Vətən*
*Qələbə bayramı keçirir Vətən*
*Yazdığın zəfərə qurbanam şəhid!*

*Yeni tarix yazdı sən tək ərənlər,*
*Qarabağ, Şuşaçün candan keçənlər,*
*Tarixə qızıl xətlə yazıldı adın*
*Milli qürurumu qaytaran şəhid!*

*Ümbülbəni Musayeva*

## Vüqar AĞAYEV



Mayor Vüqar Ağayev Azərbaycan Prezidenti İlham Əliyevin 25 iyun 2008-ci il tarixli 2905 nömrəli Sərəncamına əsasən "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.

Azərbaycan Ordusunun mayoru olan Vüqar Ağayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanişğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vüqar Ağayev noyabrın 1-də Qubadlı döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Vüqar Ağayevə ölümündən sonra"Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edildi.

Özünə belə bir tərcümeyi-hal yazmışdı: "Mən mayor Ağayev Vüqar Əhməd oğlu 1973-cü il mart ayının 4-ü Bakının M.Ə.Rəsulzadə qəsəbəsində (keçmiş Kirov qəsəbəsi) gözlərimi dünyaya açmışam. 1974-cü ildə ailəsi ilə birlikdə Qubadlı rayonuna köçmüş, orta məktəbi Xanlıq kəndində aldıqdan sonra hərbi xidmətə yollanmışam. Hərbi xidmətdən sonra hərbi təhsil

alıb, hərbiçi kimi 1996-cı ildə Naxçıvan MR-da xidmətə başlamışam. I Qarabağ müharibəsində Milli Qəhrəmanımız Əliyar Əliyevin əsgəri olmuşam. Döyüş zamanı yaralanıb qazi olmuşam.




1996-2000-ci illərdə Naxçıvan MR-nın Ordubad rayonunda Soyuq dağında, 2000-2004-cü illərdə Naxçıvan şəhərində "N" saylı hərbi hissədə, 2004-2007-ci illərdə Kəngərli rayonu Qıvraq kəndində, 2007-2008-ci ildə Naxçıvan şəhərində "N" saylı hərbi hissədə, 2008-2009-cu ildə Şahbuz rayonunda, 2010-2015-ci illərdə Naxçıvan şəhərində "N" saylı hərbi hissədə Vətənimə xidmət etmişəm. 2017-ci il noyabr ayında təqaüdə çıxmışam. Xidmətim müddətində müxtəlif dərəcəli medallarla təltif edilmişəm. Mənimçün ən dəyərli medalım "20 il qüsursuz xidmətə görə" verilən medal olub. Mən doğma yurdum Qubadlıdan məcburi şəkildə köçməli olmuşam. Ürəyim hər zaman doğma yurdumun həsrəti ilə qovrulub. Ən böyük xəyalım düşmən tapdağı altında olan Vətən torpaqlarımızın azad edilməsi olub.

27 sentyabr 2020-ci ildə başlayan II Qarabağ müharibəsində iştirak etmək üçün, təqaüddə olduğuma baxmayaraq könüllü olaraq iştirak etmişəm. Ön cəbhədə Vətən torpaqları uğrunda qəhrəmancasına döyüşmüşəm. Noyabrın 1-i Qubadlı uğrunda gedən döyüşlərdə canımdan Vətənimə can verib Vətən olmuşam. Məni II Fəxri Xiyabanda dəfn ediblər. Sevdiklərimi və övladlarımı sizlərə əmanət etmişəm".

Ruhun şad olsun, Şəhid balam!

*Nənəxanım Ağayeva*
*anası*

# Vüqar ZAMANOV



Vüqar İsmayıl oğlu Zamanov 1995-ci il martın 10-da Horadiz şəhərində anadan olmuşdur. 2001-2012-ci illərdə Horadiz şəhər 2 nömrəli tam orta məktəbdə təhsil almışdır.

Vüqar Zamanov 2020-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır. Noyabrın 5-də Daşaltı uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Vüqar İsmayıl oğlu Zamanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə, 25 dekabr 2020-ci il tarixli Sərəncamı ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Allah rəhmət eləsin!

*Firuzə Yunusova*



## Xalid HASSAN



Ağdərə uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan 26 yaşlı Ağdam balası. Şəhidin anası Maya Quliyevanın bir məktubundan:

“Salam. Mən daima Vətənə qurban olum demişəm. Vətən isə oğlumu özünə qurban aparıb məni daha da şərəfləndirdi. Onun mənim oğlum olduğuna inandıra bilmədiklərim, məni də özləri kimi Xalid Həsənin mənim qardaşım, ya da nişanlım olduğuna inandırmışdılar. Qarabağ müharibəsi veteranı nənəsinin nəvəsinə və Vətənini canından çox sevən anasının quzusuna da ancaq şəhidlik yaraşardı.

Onların Vətən əmanətini indi mənim kimi analardan və Ömər kimi qardaşlardan son nəfəsimizədək heç fələk də ala bilməz. Mənim oğlum, sənin oğlun, onun oğlu bu Vətən üçün can alıb, qan töküb, ya da şəhid olmayacaqsa, bəs biz nə deyə bu torpağın üstündə yaşayırıq?

Ən şərəfli məqamdadırlar. Allah bizi sizlərə görə bağışlasın və sizinlə cənnətinizdə qovuşdursun, İnşallah! Şəhid anası olmaq qürurunu da Allah mənə nəsib etdi.

Əziz dostlar, hər birinizə təşəkkür edirəm. Siz də qürur hissi yaşayın, Vətən sağ olsun!

*Xalid Hassanın xatirəsinə*



*Salam, könüllü əsgər,*
*Könüllü şəhid, salam.*
*Bu şeiri sən danış,*
*Mən susuram, mən lalam.*

*Danış, görüm necədi,*
*Şəhidliyin zirvəsi.*
*Haqqın axan çayları,*
*Cənnətinin meyvəsi?*

*Necədi anan üçün,*
*Yuxu olmaq, səs olmaq?*

*Necədi vətən üçün,*
*Ölüb müqəddəs olmaq?*

*Özün de, doğmalara,*
*Uzaqdan baxmaq necə?*
*Səkkiz aylıq qızından,*
*Sarı darıxmaq necə?*

*Necə olur ananı,*
*Ağlayanda izləmək?*
*O yatanda başının,*
*Üzərində gözləmək?*

*Özün danış, özün de,*
*Vaxt ötür, gecə keçir.*
*Şəhidlər arasında,*
*Qələbə necə keçir?*

*Dayan, hara gedirsən?*
*....Yaxşı yol, gülə-gülə.*
*Hamıya salam denən,*
*Hamını təbrik elə.*

*Elşad Barat*

# Xalid GÖZƏLOV



*Vətən göylərinin əbədi şahini şəhid baş leytenant, hərbi pilot Xalid Gözəlovun son uçuşu...*

Həsən Gözəlov: "Oğlum İkinci Fəxri Xiyabanda, Milli Qəhrəman Polad Həşimovun dəfn edildiyi sırada dəfn edilib"

"Müharibəyə getməyi barədə də nə mənə, nə də anasına bir söz deməmişdi"."Xalid ailəmizin bütün arzularını, sevincini, ruh yüksəkliyini özü ilə apardı, bizim ondan sonra üzümüz gülmür...".

Şahinlərin göylərinə ayrı bir yaraşıq, ayrı bir əzəmət verib Azərbaycan! Şahinlərin düşmən üzərinə şığıyanda düşmənlərin pərən-pərən düşüb, yanıb kül olub Vətən! Şahinlərin düşmənlərini həmişə lərzəyə salıb, vahimələndirib. Sənin şahinlərindən biri də Azərbaycan Ordusunun Hərbi Hava Qüvvələrinin baş leytinantı, hərbi polot Xalid Həsən oğlu Gözəlov olub Vətən! O Xalid Gözəlov ki, sənin dar günündə canını, qanını sənə öz doğma anasına qurban verib, şəhidlik zirvəsinə ucalıb. Şahinlər onsuz da həmişə göylərdədir, uca ənginliklərdədir.

Vətən müharibəsinin ikinci günündə, şiddətli döyüşlər getdiyi zaman Xalid Gözəlov qəhrəmancasına şəhid olub. Xalid Gözəlov Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıqlar göstərib və canını Vətən yolunda qurban verib. Şəhid Baş leytinant, hərbi pilot Xalid Gözəlov II Fəxri Xiyabanda dəfn olunub. Vətənin qəhrəman oğlunun əbədi mənzili bu mübarək məkandadır, xalqımızın ziyarət yeridir... Qeyd edək ki, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda dö-

yüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş qapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Xalid Gözəlov ölümündən sonra "Vətən uğrunda" medalı və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib. Xalid Gözəlovun atası Həsən Gözəlov deyir ki, Xalid şəhid olandan indiyə qədər nə gecələri, nə gündüzləri var, elə gecə yoxdur ki, göz yaşı tökməsinlər. Hər gecə səhəri göz yaşı ilə açırlar. Ata və anasının bütün ümidlərinin, arzu və diləklərinin rəhni olan, onları hər addı ilə sevindirən Xalid indi şəhidlik məqamındadır. Ata-anası isə heç nə təsəlli tapmır, nə Xaldin xatirələri, nə şəkilləri, nə idmanda qazandığı mükafatları, medalları, nə də başqa nəsə onları ovuda bilmir.

Xalid Həsən oğlu Gözəlov 1996-cı ilin 4 noyabrında Biləsuvar rayonun Aşağı Cürəli kəndində anadan olub, Gözəlovlar ailəsinin üç oğul payının ortancılı olub. Uşaqlıqdan idmanın güləş növü ilə məşğul olub, saysız mükafatlar, medallar qazanıb, çempionluq kürsüsünə ucalıb. "Xalid mənim ortancıl oğlum idi. Xalid orta məktəbi bitirdikdən sonra ali məktəbə imtahan verib Texniki Universitetə daxil oldu, ödənişsizə düşmüşdü. Amma orada oxumaq istəmədi. Biz nə qədər israr etsək də, dilə tutsaq da orada oxumağa könlü yox idi deyə Texniki Universitetə getmədi. Sonra yenidən sənədlərini Dövlət Sərhəd Xidmətinin Akademiyasına verdi. Xalid özü idmançı idi, güləşçi idi, çoxlu medalları, mükafatları var, necə dəfələrlə çempion olub, tanınır. Biləsuvarda güləş məktəbində məşğul olurdu. Bakıda oxuyanda da güləş məşqlərinə gedirdi, məşğul olurdu. Aviasiya Akademiyasına qəbul oldu, oranı bitirdi və bitirən kimi də bacarıqlı olduğuna görə ona pilot vəzifəsi verdilər, pilot işlədi. O, 3 il idi 4-cü ilə keçirdi ki, Dövlət Sərhəd Xidmətində pilot kimi xidmət edirdi. Rütbəsi baş baş leytenant idi. Müharibəyə getməyi barədə də nə mənə, nə də anasına bir söz

deməmişdi. Xalid məzuniyyətdə idi. Məzuniyyətdə olanda da son vaxtlar onu iki dəfə çağırdılar. Bir dəfə pandemiyaya görə çağırdılar, onları Xudat-Xaçmaz tərəfə apardılar ki, karantin rejiminə nəzarət etsinlər. Vəziyyət düzələndən sonra yenidən evə gəldi. Evə gələndə gördüm ki, ayağı axsayır, demə top-uqdan ayağı çıxıbmış. Sınıqçıya apardım, ayağını saldırdım evə gəldi, üç-dörd gün yerdə yatdı. Sonra həkimə apardım, həkim ayağını rentgen etdi, dava dərman yazdı, dedi ki, ona gəzmək olmaz, nə qədər çox gəzsə bu onun ziyanınadır. Çünki topuq damarları zədələnmişdi, yerinə qan yığılmışdı. Paraşütdən nə vaxtsa tullananda zədə almışdı. Ayağının o vəziyyətində onu çağırdılar və axsaya-axsaya da getdi. Senytabrın 24-də gecə vaxtı ona zəng gəldi, başqa adamla yola salmadım Bakıya özüm apardım. Sentybarın 24-də apardım. Senytabrın 25-də gördüm ki, çox yorğundu, narahatdır. Dedim Xalid, nə olub, niyə beləsən? Cavab verdi ki, işlərimiz var, onunla əlaqədar yorğunam. Yenə də mənə heç nə demədi. Sentyabrın 26-sı axşam saat 10-da anasına zəng vurub salamlaşıb vəssalam. Anasına da heç nə deməyib. Yəqin deyib ki, anası səsindən hər şeyi başa düşər...hardansa səs-küylü yerdən zəng vurubmuş. Kiçik qardaşı ilə danışıb, nə sözü, nə vəsiyyəti olub ona deyib. Deyib ki, məndən narahat olmayın, elə yerdəyəm ola bilsin telefonuma 10 gün zəng çatmadı, ata-anamı incitmə, onları narahat etmə, onlara hayan ol, təskinlik ver, ata-anama de ki, 10 gündən sonra onlarla danışacağam, məndən nigaran qalmasınlar, darıxmasınlar. Sentyabrın 27-də də müharibə başladı... Bir gün sonra isə şəhid olması xəbəri gəldi. 27 sentyabrda müharibənin şiddətli vaxtında şəhid olub.



Bizə Xalidin harada şəhid olduğu haqqında hələ məlumat verilməyib, görünür onlar məxfi tapşırıq yerinə yetiriblər. Mən internetdə baxdım gördüm ki, Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub, amma bizə rəsmi bir məlumat verilməyib. Getdim orada komandiri ilə də görüşdüm. Orada kiçik zabitlərdən tutmuş böyüklərə qədər hamısı boynumu qucaqlayıb ağlayırdılar, heç komandirin də adını soruşmaq ağlıma gəlmədi. Elə vəziyyətdə idik ki... İndi məni çağırmalıdırlar. Sərhəd Qoşunlarında Xalidə abidə ucaldacaqlar, amma bilmirəm hansı tərəfdə...

Həsən Gözəlov deyir ki, oğlunun müharibədə olduğunu bilməyiblər, onun şəhidlik xəbərini qəfil alıblar, dünyaları qaralıb, dünya başlarına çevirilib. “Xalidin şəhidlik xəbəri bizi elə sarsıdıb ki, heç nə ilə təsəlli tapa bilmirik. Hələ indiyə kimi heç kəs bizi sakitləşdirə, ovuda bilmir. Elə səhər yoxdur ki, onu gözü yaşlı açmayaq. Allah o xəbəri heç kəsə qismət etməsin, heç kəsin qapısını qara xəbər döyməsin, elə sarsıldıq, elə pis hala düşdük ki, indiyə qədər də özümüzə gəlməmişik”.

Həsən Gözəlov deyir ki, Xalid nişanlı olmasa da, neçə il idi sevdiyi qız vardı, evlənib ailə həyatı qurmaq istəyirdi. Atanın ananın arzusu oğlunun toyunu görmək, onun bəy otağını qurmaq idi, lakin onun şəhid olması bu arzuları qaraya boyayıb, yarımçıq qoyub: “Xalid nişanlı deyildi, amma üç ildən çox idi ki, istəklisi vardı. Həm pandemiya ortaya girdi, həm də anam rəhmətə getmişdi, bu ilin noyabr ayının 24-ü ili idi. Dedim ki, həm anamın ili çıxsın, həm də bu xəstəlik, azar-bezar çəkilsin, sonra xeyir iş edərik. Böyük oğlum da nişanlıdır, fikrim var ki, böyük oğlumun toyunu edib yerbəyer edək. Xalidin də istədiyi olduğunu bilirdim onu da nişanlayıb toyunu etmək istəyirdim. İkisinin də toyuna erkək dana bəsləmişdim, o da qalıb belə... Biz özümüz də pis vəziyyətdəyik... Oğlum İkinci Fəxri Xiyabanda, Milli Qəhrəman Polad Həşimovun dəfn edildiyi sırada dəfn edilib”.

Vətən Müharibəsində torpaqlarımızın azad edilməsi uğrunda fədakarlıq göstərən, qəhrəmanlıqla şəhid olan Baş leytenat, hərbi pilot-Vətən göylərinin əbədi şahinlərindən biri Xalid Həsən oğlu Gözəlovun yarımçıq ömür kitabını vərəqlədik, bu kitabın hər səhifəsində şəhidimizin qəhrəmanlığı, cəsarəti, mərdliyi həkk olunub, yazılıb.

Xalid deyir ki, ata, ana, mən şəhid olub ruhumla göylərə çəkilmişəm, sizin təsəlliniz mənim göylərə çəkilən ruhumdur, ruhum həmişə göylərdən sizə baxır, mənim üçün darıxanda səmaya baxın, o səmaya ki, artıq onun yaxasını qara buludlar sarmayıb, günəş bəzəyir, azadlıq günəşi...

 18.08.2014– "Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi" yubiley medalı;

 18.08.2019– "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi" yubiley medalı;

 15.12.2020– "Vətən uğrunda" medalı (ölümündən sonra);

 15.12.2020– "Vətənə xidmətə görə" ordeni 3-cü dərəcəli (ölümündən sonra);

 29.12.2020– "Qubadlının azad olunmasına görə" medalı (ölümündən sonra).

*İradə Sarıyeva*

## Xansu QURBANOV



Xansu Qurbanov 2000-ci il sentyabrın 23-də Naxçıvan şəhərində Elsevər Qurbanov və Yəmən Abbasovanın ailəsində anadan olub. 2006-2017-ci illərdə Naxçıvan şəhərində 15 nömrəli tam orta məktəbdə təhsil alıb. Azərbaycan Ordusunun əsgəri olan Xansu Qurbanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xansu Qurbanov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Naxçıvan şəhərində dəfn olunub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarsısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Xansu Qurbanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi. Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Xansu Qurbanov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

*Firuzə Yunusova*

## Xəyal BALAKİŞİYEV



Xəyal Balakişiyev Müseyib oğlu 1994-cü il 17 oktyabr Bakı şəhərində anadan olub. 2001-ci ildə 175 nömrəli Həzi Aslanov adına məktəbin 1-ci sinfinə daxil olur. 2012-ci ildə isə 11-ci sinfi bitirir. Elə həmin ildə hərbi xidmətə yollanır. O, hərbi xidmətini Ağdam rayonunda keçirir və baş çavuş rütbəsinə qədər çatır bu müddət ərzində. Hərbi xidmətdən qayıtdıqdan sonra "XXI Əsr Təhsil və İnnovasiya mərkəzi"ndə mühafizə vəzifəsində işləməyə başlayır. 2020-ci il Ali Baş Komandanın – İlham Əliyevin müharibəni başlamasını elan etdiyi gündən hərbi komisarlığa könüllü olaraq döyüşmək üçün müraciət edir.

Hətta Müdafiə Nazirliyinin rəsmi saytına online müraciət belə edir bir neçə dəfə. Oktyabr ayının 4-ü onun müraciətinə müsbət cavab gəlir və ayın oktyabr ayının 5-i könüllü olaraq hərbi xidmətə yollanır. 26 oktyabr Qubadlı uğrunda gedən döyüşlərdə qəhramancasına vuruşaraq şəhidlik zirvəsinə ucalır. Allah bütün şəhidlərimizə rəhmət etsin!

*Dilarə Məmmədova*

# Xəyyam DAŞDƏMİROV



Xəyyam Daşdəmirov 2002-ci il fevralın 22-də İsmayıllı rayonunun Balik kəndində anadan olub. Bakı şəhəri Binəqədi Rayonu Biləcəri qəsəbəsində yaşayıb, 314 nömrəli tam orta məktəbdə oxuyub. 18 yaşı var idi. Subay idi.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Xəyyam Daşdəmirov 2020-ci il iyulun 12-də Ermənistan Silahlı Qüvvələri Tovuz rayonu istiqamətində təxribatının qarşısını alan zaman şəhid olub. Tovuz döyüşləri-ninşəhidi Xəyyam Daşdəmirov iyulun 13-də doğulduğu İsmayıllı rayonunda dəfn olundu.



Ana! Yıxılma ha. Dik dayan
Nəfəsim birazdan dayana-
caq. Bölük yoldaşlarım
məni evə gətirəcəklər.
Elə ki, evə çatdım məni
bərk qucaqla. Bu son
görüşümüzdür, ana. Elə bərk
qucaqla ki, dadı qalsın
İyimi burnuna çək, ana.
Sən şəhid anasısan, dik
dayan, qəddini əymə.
Ataya da salam de, ana.
Şəhid salamı. O başa düşər.
Qardaşım balamda oğluna
mənim adımı qoyarsız.
Mənim günəşim söndü, ana.
Bir-birinizi qoruyun. Ana,
məni bağışla, daha gücüm
qalmadı. Mən şəhid oldum.

Tovuz döyüşlərinin şəhidi Xəyyam Daşdəmirovun anasına son məktubu...

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 30.12.2020-ci il tarixli Sərəncamına əsasən Xəyyam Daşdəmirov ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.

*Şəbnəm Babayeva*

# XOCALI SOYQIRIMI, XOCALI ŞƏHİDLƏRİ

*əbədi olaraq yaddaşlarda qalmalıdır*





**Xudayar YUSİFZADƏ**



Çox qəribə duyğudur.

Adama elə gəlir, hamısını tanıyırsan, bir-bir. Onları deyirəm, Şəhidləri. Bəlkə 44 günlük Vətən savaşında dəfələrlə Şəhidlər xiyabanlarını, şəhid məzarlarını dolaşdım. Yeni salınan zabitlər xiyabanını, İkinci Fəxri Xiyabanı, Baş Xiyabanı gəzdim. Şəhidlərin dəfn mərasimlərinə qatıldım. Adamın ürəyi soyumur. Təsəlli bir odur ki, qanları yerdə qalmadı.

***

Hər məzardan bir şəkil, bir tarix, bir əsər, bir kitab boylanır adama. Kitab kimi adam olmaq. Kitab adam olmaq, bu sadə iş deyil, gərək kitab kimi həyatın ola. Elə bir həyat ki, o sənə nə verir versin, sən onun verdiklərinə gülümsəyə, sinə gərə, qarşı dura biləsən. Bilmirsən necə oxşayasan, nə deyəsən, hansının məzar daşına tumar çəkəsən ki, ürəyin soyuya. Əyilib bir ovuc torpaq götürürsən. Torpağı qoxlayıb, ona tumar çəkirsən. Çünki onlar torpaq oğullardır. Can verib, şəhid olub, torpaq olurlar ki, Vətənin torpağı azalmasın, artsın.

Neçə gündür, düşüncəmdə ağlımdadır o mahnı. Əlibaba Məmmədovun "Vətən yaxşıdır"ı. Ona görə yox ki, sevdiyim sənətkarın ifasıdır, uşaqlıq xatirəsidir. Düzü, Əlibaba Məmmədovda yox, Xuduyla, şəhid kiçik gizir Xudayar Yusifzadə ilə sevdim bu mahnını, illərlə dinləməyimə rəğmən. Tək mən yox, hamı, bütün ölkə sevdi. Və tək ifasını yox, həm də özünü sevdik. Tanımadan, ərkyana Xudu deyəcək qədər sevdik. Elə rahat, elə sadə, elə canayatan, ürəklə oxuyur ki:

*Keçdi xəyalımdan öz gözəl yurdum,*
*Dumanlar başımda dastana döndü...*

***



Bərdə musiqi məktəbinin xanəndəlik sinfində oxuyub Xudayar. Hər kəs onu xanəndə kimi görmək istəyib. Yaxşı səsinə, xoş avazına görə. Çoxdandır təsadüflərə inanmıram, Xudayar bu məktəbə imtahanı hansı ifa ilə qəbul olub, bilirsiniz? "Şuşanın dağları" oxuyub. Şuşanın dağlarına, Qarabağa gedəcək yoluna ruhu da hazır imiş, bu iyirmi iki yaşlı gəncin lap uşaqlıqdan. Anası danışır ki, atası Xudayar lap kiçik yaşlarında olanda dünyasını dəyişib. Xudayardan başqa iki qardaşı, bir bacısı olsa da, hamının gözü, böyüklü-kiçikli Xudayarda idi. İndi nə danışacaq, nə deyəcək, necə zarafat edəcək, nə ifası olacaq. Babası demiş, ailənin "şah uşağı" idi. İndi onsuz hamıya çətindir.

***

Ailənin həm də zəhmətkeşi olub Xudayar. Bacardığı qədər dəstək göstərib anasına, bacı-qardaşlarına. Ona görə də xanəndəliyin necə deyərlər, başını buraxıb. Anasına deyib ki, işləyəcəm, o çağacan ki, forma versinlər mənə. Bütün hərbi formalara həsədlə baxırmış. Ancaq heç bir cəhdi onun həyatının zəruri təsadüfünə qədər alınmayıb.

Hərənin uğura aparan, ən böyük arzuya yetirən bir zəruri təsadüfi olur. Odur ki, siz siz olun heç biriniz təsadüf sözünə inanmayın. Təsadüfün özü belə zərurətdir. Təsadüf olmaq zərurəti. Xudayar üçün o zəruri təsadüf, mühafizəçi kimi çalışdığı

marketdə baş verdi. Günlərin birində müdiri ona irad tutur:

- Niyə maşınımın qapısın açmırsan, mən işə gələndə?

- Müdir, mən mühafizəçiyəm, marketdə, iş müqaviləmdə müdürün qapı açanı yazılmayıb axı.

- Həəə? Onda işdən azadsan, gedə bilərsən...

Bu təsadüfi söhbətə mağazada, mülkü geyimdə alışveriş edən bir nəfər də şahid olur. Tanımadığı adam, mühafizə əşyalarını təhvil verən Xudayara yaxınlaşır, ona diqqətlə baxır, gülümsəyir və yavaşca deyir ki, sabah səhər, saat doqquzda sənədlərini də götür, ol, Dövlət Sərhəd Xidmətinin qarşısında. Sakitcə, baş üstə, deyir, Xudayar, beləcə, hərbi formada olmaq arzusu gerçəkləşir, sərhədçi olur. Dövlət Sərhəd Xidmətində işə başlayır. Bu onun uşaqlıq arzusu idi. Döyüşlərə qatılmasından ailəsi xəbərsiz olub. Anasına deyib ki, təlimlərdəyik, olar ki, hər gün zəng edə bilmərəm, narahat qalma.“Amma bir gün danışırdıq, kənardan bərk silah səsləri gəldi. Səsi dəyişdi, heç nə deməsəm də həyəcanlandım və susdum. Dedi ana qorxma, uşaqlar atəşfəşanlıq edir, bu gün Azərbaycan ordusu Zəngilana girib. Heç bildirmədim ki, harada olduğunu anladım. Dedim şükür, hamınıza anan qurban bala, özündən muğayat ol! Güldü bir zarafat da elədi, sonra sağollaşdı”. Mən daha onun səsini eşitmədim”. Xudayarın anasının dediklərindədir bu fikir.

***

Bu il sentyabrın 27-də başlayan 44 günlük vətən savaşında iştirakı isə könüllü idi. Çünki oxuduğu kimi, axı “Vətən yaxşıdır”.Elə doğurdan da “Vətən yaxşıdır”, ay Xudu. Nə olsun ki, iki yüz yetmiş doqquz manatlıq telefonu, on beş manat aylıq kreditlə almışdın, hələ də ödənişini bitirməmişdin, Allah haqqı “Vətən yaxşıdır”. Sənə ev olur, yuva olur. Bir gün dünyadan köç edib gedəndə də hamı səndən əl çəkir, dönməyəcəyin üçün, amma Vətən sənə ana qucağı olur, qoynuna alır...

Sən o vətənin illərdir düşmən tapdağında olan böyük bir parçasının düşməndən azad edilməsi üçün yerinin, torpağının

üstə iyirmi iki yaşınla döyüşdün, onu azad edənlərdən oldun. Bununla da bitmədi xidmətin, şəhid olub torpağına qarışdın ki, duruşu əzəmətli, əli sərt, özü qətiyyətli olsun Vətənin.

Gübrəli torpağın neməti qısır olar deyirlər, amma şəhid qanı dəyən torpaq, Allahın da hüzurunda seçilmişlərdən, bərəkətlilərdən olar. Sən torpağını seçilmiş və bərəkətli edən seçilmişlərdən oldun, üzü gülər, qəmzəli, xuda yar(ı) olan oğlan!

***

Bunu da bir şəhid anasından eşitdim bu günlərdə, dizimin quvası, gözümün ziyası, bircə günə qocalmışam, ay əlimin əsası ...Və "Vətən yaxşıdır" deyən bütün dillərə, fəda gedən bütün canlara, qazi olan ər oğlanlara ithafdır bu, yazar və ana ithafı.

*Jalə Mütəllimova*

## XUDAYAR TƏSNİFİ

*Sözləri Əliağa Vahidin*

*Dumanlı dağların başında*
*durdum,*
*Dumandan özümə bir*
*xeymə qurdum,*
*Keçdi xəyalımdan öz gözəl*
*yurdum,*
*Dumanlar içində duman*
*görünür.*
*Xəzər Dənizi tək*
*eşqimlə coşdum,*
*Xülyalar içində sanki*
*bihuşdum,*
*Vətən arzusu ilə nəğmələr*
*qoşdum,*
*Tufanlar gözümdə dastan*
*görünür.*

*Könüllər cəlb edən*
*bu xoş mənzərə,*
*Şövqümü*
*artırdı şerə qəzələ,*
*Çatdıqca*
*vətənim, elim nəzərə,*
*Təbiət də mənə heyran görünür.*
*Deyirlər bülbülə çəmən yaxşıdır,*
*İnsan üçün laləzar*
*vətən yaxşıdır,*
*Vahid sorma*
*vətən nədən yaxşıdır,*
*Adı gəlcək könlüm xəndan*
*görünür.*

# Yalçın OSMANOV




Yalçın Namiq oğlu Osmanov 1997-ci ildə Qusar rayonunun Köhnə Xudat qazmalar kəndində anadan olub.

Əsgər Yalçın Osmanov 2016-cı ildə, aprelin 8-i Azərbaycan-Ermənistan təmas xəttində ermənilərin atəşkəs rejimini pozması nəticəsində şəhid oldu. Elə aprelin 8-i isə Yalçın Osmanov doğulduğu Qusar rayonunun Köhnə Xudat qazmalar kəndində son mənzilə yola salındı. Dəfn mərasiminə minlərlə rayon sakini ilə yanaşı, şəhidin qulluq etdiyi hərbi hissənin əsgərləri və zabitləri də qatıldı. Dəfn mərasiminin sonunda yaylım atəşi açıldı və əsgər Osmanov uğrunda şəhid olduğu torpağa tapşırıldı.






## Yalçın RƏHİMOV




Ağsunun igid, qəhrəman, vətənpərvər oğullarından olan Şəhidimiz Rəhimov Yalçın Elçin oğlu 2000-ci il 25 iyulda doğulmuşdur. Uşaq vaxtlarını Ağsu rayonunun Çaparlı kəndində keçirən Yalçın elə həmin kəndin İkram Rüstəmov adına orta məktəbində təhsil almağa başlamışdır. Daha sonralar ailəsi ilə birlikdə Maştağanın Lahıc kəndində məskən saldıqları üçün Yalçın təhsilini Nardaran kəndinin 295 nömrəli məktəbində davam etdirmişdir. Məktəbdə oxuduğu müddətdə əlavə olaraq güləş, kinboks kimi idman növləri ilə, həmçinin üzgüçülüklə məşğul olan Yalçın müxtəlif yarışlarda iştirak edib.O, idman sahəsində də döyüş meydanında olduğu kimi şücaət göstərmiş, mükafatlar, fəxri diplom və fərmanlarla təltif olunmuş, medallar qazanmışdır. Kənddə öz mehribanlığı, gülərüzlülüyü, mərhəməti, qoçaqlığı, igidliyi ilə tanınan Yalçın çətinlikdə olan hər kəsə yardım göstərmək üçün əlindən gələni əsirgəməmişdir. Atası rəhmətə gedən bir dostunu heç vaxt yadından çıxarmamış, hər çətinlikdə yanında olmağa çalışmışdır. Hətta hərbi xidmətə yollandıqda evində olan, demək olar ki, bütün əşyalarını toplayıb dostuna vermişdir. Anası bildirir ki, hazırda Yalçının evdə bir corabı belə qalmamışdır, anasına demişdir ki, dostumun ehtiyacı var, mən isə işləyib özümə alaram. Çox çətinliklə böyüyən Yalçının ailəsinin imkanı aşağı olduğundan həmişə işləmiş ailəsinə dayaq olmuşdur. Kiçik yaşdan gündüzləri atasına kömək üçün daş daşımasına baxmayaraq gecələri də cücə sexində çalışmış, ailəsini saxlamaq, heç kimə əl açmamaq, daim başıdik durmaq üçün hər cür zəhmətə qat-

lanmışdır. Bu qədər imkansızlıq çətinliklə böyüyən Yalçın həmişə gözütox olmuş, qazandıqlarını ətrafı ilə həmişə bölüşmüşdür. Həm qonşusu, həm bacısı qədər yaxın olduğu, həm də sinif yoldaşı olan Aygünün dediklərinə görə Yalçın o qədər, mərhəmətli, o qədər düşüncəli və o qədər yardımsevər oğlan imiş ki, ilk qazancına ətrafından xəbərsiz ət alaraq zənbil-zənbil yoxsul ailələrə paylamışdır və bu qədər yaxın olmaqlarına baxmayaraq Aygünün belə bundan xəbəri olmamışdır, yalnız şəhid olduqdan sonra bunu Yalçının anasından eşitmişdir. Anası bildirir ki, Yalçın deyirdi ki, “mən kasıblığın nə olduğunu çox yaxşı bilirəm, ona görə də ilk maaşımı yoxsullara xərcləyəcəm”.

Sinif yoldaşlarının danışdıqlarına görə gülərüzlülüyü, zarafatcıllığı ilə seçilən Yalçın sinifdə bir uşağın belə kefi olmadıqda onu sevindirmək üçün zarafatlar etmiş, üzünü güldürməyə çalışmışdır. Yalçının vətən sevgisindən danışan yoldaşları bildirir ki, Yalçın bir çox fənlərdən zəif olmasına baxmayaraq, ədəbiyyata vətən, millətlə bağlı şeirlərə çox maraq göstərmişdir.

Məktəbi bitirdikdən sonra hərbi xidmət üçün Naxçıvana yollanmış kiçik yaşlarından vətənə olan sevgisi, igidliyi, cəsarəti ilə burada fərqlənmiş və Xüsusi Təyinatlı Qüvvələrə hazırlanmaq üçün seçilmişdir. Aldığımız məlumata görə komandiri deyib ki, Yalçının boyu standartlara uyğun olmasa belə, onun bu igidliyi, bu ürəyinə görə onu XTQ-ə qəbul edə bilərik. Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etmək üçün 6 ay ərzində təşkil olunmuş kurslarda dözümlülük və cəsarət göstərən Yalçın Azərbaycanın ən güclü qoşun növü sayılan bu quruma qəbul olmağı bacarmışdır. Bura qəbul olmaq üçün gələn 500 nəfərdən kurs sonrası yalnız 30 nəfəri “Qırmızı beret”in sertifikatını ala bilir ki, Rəhimov Yalçın öz igidliyi, qəhrəmanlığı, biləyinin gücü ilə bu mükafata layiq görülmüşdür. Müharibənin başladığı vaxtdan- 27 sentyabrdan, demək olar ki, müharibə gedən bütün ərazilərdə dəstəsi ilə birlikdə fəallıq göstərmiş, erməni dəstələrinin bir çoxunu məhv etmişlər. Xidmətdə olduğu müddətdə

mütəmadi olaraq Aygünlə əlaqə saxlayan Yalçın son dəfə əməliyyata girməmişdən əvvəl gecə yarısı zəng vur-muşdur və Aygünlə son danışığı "Narahat olma, bacı, burda hər şey yaxşıdır" olmuşdur. Eyni zamanda ailəsi, yaxınları sevdiklərinə də zəng vuraraq, sanki şəhid olacağını hiss etmiş, hər kəslə son dəfə danışmaq istəmişdir və bütün çətinliklərə baxmayaraq ailəsini, sevdiklərini zərrə qədər belə narahat etmək istəməmiş, hər şeyin yaxşı olduğunu bildirmişdir.

Soyuqda, qaranlıqda bütün çətin şəraitlərdə öz canı, qanı bahasına vətənini, millətini qorumaq üçün əlindən gələni əsirgəməyən Yalçın yaralanan bir yoldaşını qan itirmədən ölməsin deyə çiyninə alaraq təhlükəsiz bölgəyə, həkim nəzarətinə aparmış və həyatını xilas etmişdir. Lakin geri qayıdarkən təkbaşına erməni mühasirəsinə düşmüş, 8 ermənini məhv etdikdən sonra boynunun arxasından aldığı bıçaq yarası ilə haqqın rəhmətinə qovuşmuşdur. 7 noyabr Şuşa əməliyyatı zamanı əlbəyaxa döyüşdə qəhrəmancasına şəhid olan Yalçın sevdiklərinin qəlbində dərindən, silinməyən bir iz buraxmışdır. Ailəsinə cəbhədən verilən məlumatda deyilir ki, "burda dəhşətli bir oğlan var ki, adı Yalçındır, biz onu ermənilərin qə-nimi adlandırırıq".

*Şəhid Rəhimov Yalçının anası Rəhimova Dilarə:*

Yalçın uşaqlarımın içərisində həmişə seçilirdi, 3 övladımdan ən çox Yalçını istəyirdim. Bilmirəm ya balaca olduğundan idi, ya da ki, Yalçında fərqlilik var idi ki, məni özünə çəkirdi. Yalçın balaca vaxtından fərqli idi, çox zəhmətkeş, düşüncəli, dərrakəli uşaq idi. Heç vaxt kimdənsə şikayətləndiyini görməzdim. Həmişə də bizi düşünərdi. Yalçın müharibəyə gedəndə də mənə deməmişdi, atasına demişdi ki, ata biz könüllü müharibəyə gəlmişik. Mən onunla danışanda bir sözü vardı "ana yaxşıyam, narahat olma, özünüzdən muğayat olun". Bugün oğlumun itkisi mənə nə qədər ağır olsa da (bu itkini nə beynim qəbul edir, nə də ürəyim) mən Yalçınla fəxr edirəm. Fəxr

edirəm ki, mənim Yalçın kimi oğlum var, indi Yalçın tək mənim oğlum de-yil, bütün Azərbaycan xalqının oğludur..

*Rəhimov Yalçının atası Elçin Rəhimov:*

Yalçın uşaqlıqdan əməyi sevən idi. Kənddə böyümüşdü, kənd həyatını çox sevirdi. Pozitiv biri idi. Qəlbində heç kimə qarşı kin-küdurət bəsləməzdi, qısqanc deyildi. Əsgərlik vaxtına 1 il qalmış işləyib evə kömək edirdi. Özündən çox ailəsini düşünürdü. Heç vaxt atasının, anasının sözündən çıxmazdı. Mənim 3 övladım var, üçünü də tam sərbəst böyütmüşəm ki, özləri təcrübə ilə səhv və düzü aydınlaşdırsınlar. Yalçın bu yolu öz qərarı ilə seçdiyi üçün onunla bir ömür qürur duyacam.

Mən göstərdikləri qəhramanlığa görə bütün ordumuzla, şəhidlərimizlə fəxr edirəm. Cənab Ali Baş Komandanımız İlham Əliyevin bu cür igidlərin yetişdirilməsində göstərdiyi xidmətə görə minnətdaram. Allah bütün şəhidlərimizin məqamını ucaltsın.

*Rəhimov Yalçının bacısı Rəhimova Nuridə:*

Yalçın mənim hər şeyimdir, mən Yalçını özümə qardaşdan da artıq bilmişəm, o mənə hava və su kimi olub. Bəzən elə olurdu ki, mən heçkimlə bölüşmədiyim sirrimi yalnız Yalçınla bölüşürdüm. Ondan məsləhət alırdım. Məndən kiçik olsa da, düşüncəsi geniş olduğundan doğrunu, yanlışı tez seçirdi. Hər sözümüz bir olardı, hər sözümüzü bir danışardıq. Naxçıvana gedəndən axşamlar saatlarca telefonda danışardıq, bəzən naryad qalırdı gecə danışa bilmirdik. Həmin günü elə bilirdim ki, nəyisə itirmişəm, axtarırdım elə. İşdən gələn kimi deyirdi, yeməyimi yeyim danışarıq. Danışardıq saatlarca. Həmişə bizi düşünürdü. Nəsə addım atanda məsləhətləşirdi ki, bunu etsəm düzmü olar. Yalçın etdiyi yaxşılıqları dilə gətirməzdi, əlindəki tikəsini belə bölərdi. Yalçın şəhid olandan sonra onun dəstək olduğu adamlar onun etdiklərini danışırdı, özü heç vaxt danışmazdı. Yalçın fərqlililiyi ilə, ağıllı düşüncəsi ilə getdiyi hər yerdə hər kəsdən seçilirdi. Ailəmizi Yalçınsız təsəvvür edə bilmirəm,

bu ağrı nə keçəndi, nə də unudulan. Bütün bunlar nə qədər ağır olsa da, Yalçınla fəxr edirəm. Fəxr edirəm ki, mənim Yalçın kimi qardaşım var. Bu gün Yalçın tək mənim deyil, bütün Azərbaycan xalqının qardaşıdır.

*Nardaranda 295 nömrəli məktəbin Yalçını oğlu qədər sevəncoğrafiya müəllimi *Səbahət müəllimin* düşüncələrini də nəzərinizə çatdırmaq istəyirik:*

Mənim üçün Yalçın oğlum Yəqub kimi idi. Dünyamız yıxıldı. Hazırda oğlumla bir-birimizə təsəlli ola bilmirik, dərdimiz eyni, çarəsi isə yoxdur. Sadəcə onun haqqında olan məlumatları bir çox yerdə paylaşmaqla az da olsa, təsəlli tapa bilirik. Yalçın o qədər şən idi ki, biz ona ölümü yaraşdıra bilmirik.

O şəhid olacağını bilirdi, telefonlarını təhvil verdikləri gün son dəfə zəng vurmuşdu. Necə də xoşbəxt danışırdı. Müharibənin dəhşətlərinə baxmayaq Yaqubla danışıb deyib gülürdü. Narahat olmayaq deyə zərrə qədər də müharibə ab-havasını bizə yansıtmırdı. Yaqubla danışanda dedi ki, “Mən şəhid olsam, ağlamayın, mən sizin ağlamağınızı istəmirəm”. Bütün bunları elə gülərək, zarafatyana deyirdi ki, bizim ruhumuz inciməsin, burda ondan nigaran qalmayaq. Bütün yaşadığı çətinliklərə baxmayaraq həmişə ailəsinin və sevdiklərinin narahat olmaması, nigarançılıq keçirməməsi üçün xoş əhval ruhiyyədə olub, xoş sözlər danışırdı.Noyabrın 12-si ətrafımda tanıdığım hər kəsin qohumu, tanışı Şuşadan zəng vurmuşdu. Bircə Yalçın zəng vurmurdu. Həmin günü axşam oğlumla narahatçılıqdan yata bilmədik, oğlum Yalçının çox yaxın dostu idi, ona dedim ki, “bəlkə nəsə olub? Yalçın niyə zəng etməsin?” Yaqub məni təsəlli edib dedi ki, yəqin ki, imkan yoxdur, olan kimi mütləq zəng vurar, ancaq rəngi elə solmuşdu ki, başa düşdüm ki, özü də nəsə olmasından qorxur. Bacısına zəng vurub 2 saata yaxın danışdıq, Yalçını soruşduq, yalnız heç bir xəbər yox idi. Yalçın o qədər düşüncəli idi ki, iki əli qanda olsa belə biz narahat olmayaq deye tez-tez zəng vurardı. Amma o gün vurmamışdı.

Həmin günün səhəri şəhid olması xəbəri gəldi. Biz hələ də onun zəngini gözləyirik, o zəngin gəlməyəcəyini bilsək də gözləyirik.Yalçın daima bizim ürəyimizdə yaşayacaq! Param-parça olmuş qəlbimizlə onunla - onun böyük ürəyi ilə fəxr edirik. Ruhu qarşısında baş əyirik...Yalçının sinif yoldaşı olan Dadaşov Kənan olanlardan çox təsirlənmiş və şəhid qardaşına şeir ithaf etmişdir. Şeirin iki bəndini təqdim edirik:

*Çox qal desək də, getdin hərbiyə,*
*Dedin ki, əziyyətlər çəkibdir başım,*
*İndi yaraşdımı sənə dar məzar?!*
*Nur içində yat sən şəhid qardaşım.*
*Şəhidlik zirvədi bilirsən, Yalçın,*
*Ölmədin qəlblərdə gülürsən, Yalçın,*
*Biz səni unutsaq ölərsən, Yalçın,*
*Nur içində yat sən Şəhid qardaşım!*

*Sinif yoldaşı Brilyant Yalçınla bağlı xatirələrində qeyd edir:* Allah rəhmət etsin. Yalçın sinfimizin ağıllı, mədəni, ədəbli şagirdi idi. Heç kəsin qəlbini qırmaz, hamıyla mehriban davranardı. Onun haqqında bu cür yazıların yazılması məni həm kövrəldir, həm də sevindirir... *Sinif yoldaşı Xumarın Yalçın haqqında sözləri*: Məktəbdə hazırladığımız bir tədbirdə Cəlil Məmmədquluzadənin "Ölülər" əsərində olan Kefli İsgəndər obrazını canlandırdığı üçün bütün məktəb onu Kefli İsgəndər olaraq tanıyırdı. Neçə il onunla eyni sinifdə oturduq, bir dəfə qəmli görmədik o uşağı. Həmişə adama ruh verirdi, onun ləhcəli səsini eşidəndə adamın üzündə gülüş yaranırdı artıq. Kaş ki, belə olmazdı, amma əldən heçnə gəlmir. Sadəcə kaş ki...

*Sinif yoldaşı Xavərin Yalçın haqqında sözləri:*

Yalçının yeri məndə çox başqa idi. Çox istəyirdim onun xətrini. Mənə hər dəfə yazanda bacı, bacı deyirdi. O qədər mehriban, səmimi uşaq idi ki... 6-cı sinifdə bizim sinifə gəlməyinə baxmayaraq elə bil 1-ci sinifdən bir yerdə oxumuşduq onunla. İlk şəhid olduğu xəbərini eşidəndə şok yaşamışdım. Həmin

günü yolda idim, Səbahət müəllimənin durumunda gördüm. O an təəccüb içində idim sadəcə çarəsizcə, donmuş halda qaldım. Evə gələndən sonra, sanki yaşanan hadisəni fərqinə vardım. Çünki artıq Yalçın yox idi. Onu itirmişdik. Qəhrəmancasına şəhid olmuşdu. Onun kimi bir sinif yoldaşım olduğu üçün çox qürur duyuram. Hər bir vətənə belə igid oğullar lazımdı. Onu heç vaxt unutmayacayıq. Allah ailəsinə səbr versin.

*Yalçının sinif yoldaşı Asiman onunla bağlı xatirələrində qeyd edir:*

Yalçın çox dürüst, mərhəmətli, mədəniyyətli oğlan idi. Onu hər zaman gülərüz görərdim. Ailəsində problemlər, maddi sıxıntılar olmasına baxmayaraq, o, hər zaman ətrafında müsbət aura yaradardı. Onun yoxluğu çox ağır itkidir. Onun aramızdan getməsi çox pis hiss etdirir.Yalçının ən böyük arzularından biri şəhidlik zirvəsinə ucalmaq olmuşdur, sanki o, bu məqama çata bilmək üçün bütün ömrünü şəhidliyə layiqli şəkildə yaşamağa çalışmışdır. Şəhidimizin instagram səhifəsindəki son paylaşımı:

*Sil göz yaşını ağlama heç vaxt,*
*Şəhidlik ucadan ucadır, ana.*
*Toyumçun aldığın o tər xınanı,*
*Qoy ağ saçlarına elə gəl, ana.*

Bu gün Yalçın və minlərlə onun kimi qəhrəmanlar sayəsində Qarabağ Azərbaycanındır! Xalqımız 30 ildir həsrətində olduğu torpaqlara qayıdır, Qarabağ şəhidlərinin qisası bu günkü şəhidlərimizin qanı, canı bahasına alınır. İndi Qarabağda Yalçının qanı ilə qırmızı boyasını daha da canlandırdığı üç rəngli bayrağımız dalğalanır. Azərbaycan bayrağı! O bayraq ki, Yalçın düşünmədən uğrunda canını qurban verdi! Qurban verdi ki,bu xalq əbədi yaşasın

Şəhid qardaşım, şəhadətin mübarək!

*Səkinə Zeynalova*

# Yunis ƏLİYEV



İkinci Qarabağ müharibəsi zamanı vətəni öz şücaəti ilə qoruyan əsgərlərdən biri də Əliyev Yunis Zaur oğludur. O 2000-ci ildə Bakı şəhərində anadan olmuş və Suqovuşanın azad olunmasında fəal iştirak etmişdir. Eyni zamanda o, döyüşlərdə xüsusi fəalığı ilə də seçilmişdir. Yunis kiçik yaşlarından vətənpərvərliyi ilə seçilmiş və müharibə zamanı baş atıcı kimi düşmənə qan udurmuşdur. Onun qəhrəmanlığı və şücaəti ilə düşmənin neçə-neçə canlı qüvvəsi məhv edilmişdir. O, döyüş zamanı həm mənəvi cəhətdən, həm də igidliyi ilə fərqlənmişdir. Yunisin döyüş yoldaşları onun igidliyindən ürək dolusu danışırdılar. O, oktyabrın 5-i Ağdərənin azad olunması uğrunda olan qızğın döyüşlərdə fəal iştirak etmiş və döyüş yoldaşını xilas edərkən qəhrəmancasına şəhid olmuşdur. Şəhidimiz Bakı şəhərinin Bülbülə kəndində dəfn olunmuşdur.

*Vətənin hər qarışı şəhid qanıdır*
*Qanları ilə tarix yazan şəhidlər*
*O,nə uca və işıqlı məqamdır*
*Məqamı tanrı qatına ucalan şəhidlər...*

*Nuray Bəbirli*

## Yüksəl ƏLİZADƏ



Xocavənd uğrunda 19 güllə yarası alaraq şəhid olan prokurorluq əməkdaşı!

Əlizadə Yüksəl İlqar oğlu Vətən Müharibəsinin şəhidlərindəndir. Yüksəl Əlizadə 1996-cı ilin iyunun 5-də Sabiq Prokurorluq əməkdaşı mərhum İlqar Əliyevin ailəsində dünyaya göz açıb. Bizim.Media xəbər verir ki, bu barədə Baş Prokurorluğun "Facebook" səhifəsində məlumat paylaşılıb.

Qeyd olunub ki, Yüksəl Əlizadə 2017-ci ildən Gəncə şəhər Prokurorluğunda böyük mütəxəssis vəzifəsində çalışmışdır. 2020-ci ilin iyul ayında Tovuz döyüşləri zamanı könüllü şəkildə Səfərbərlik Xidmətinə müraciət edərək orduya yazılan Yüksəl Əlizadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Yüksəl Əlizadə noyabrın 9-da Xocavənd ətrafında gedən şiddətli döyüşləri zamanı 19 güllə yarası alaraq qəhrəmancasına şəhid olub.

Allah rəhmət eləsin!

*Firuzə Yunusova*

## Zamin RÜSTƏMOV



*Əsir düşməmək üçün son gülləsini özünə vuran şəhid gizirimiz!* Torpaqlarımızın azad olunması uğrunda 44 gün davam edən Vətən Müharibəsində qəhrəmancasına vuruşaraq şəhid olanlardan biri də 20 yaşlı Rüstəmov Zamin Səxavət oğludur.

Zamin Rüstəmov 2000-ci il oktyabrın 17-də Füzulidə dünyaya gəlib. Kiçik yaşlarından musiqi ilə məşğul olan Zaminin gözəl səsi var imiş. Lakin vətən sevgisi onu hərbi xidmətə yazılmağa vadar edib. Sərhəd Qoşunlarında xidmət edən Zamin yaşının az olmasına baxmayaraq qısa zaman ərzində kiçik gizir rütbəsinə yüksəlib. Müharibə başlayanda könüllü olaraq Dövlət Sərhəd Xidmətinin Xüsusi Təyinatlı Qüvvələrinə qoşularaq ön cəbhəyə yollanmış və oktyabrın 23-də Zəngilan rayonunun Ağbənd qəsəbəsində şəhid olmuşdur. Düşmən mühasirəsinə alınan hərbçimiz əsir düşməmək üçün son gülləsi ilə özünə vuraraq şəhidlik zirvəsinə ucalıb.

Ailəsi ilə sonuncu dəfə oktyabrın 21-də əlaqə saxlaya bilib. Bacısı ilə danışan Zamin irəli gedəcəklərini deyib və özlərindən muğayət olmağı tapşırıb. Həmin gündən sonra uzun müddət onunla əlaqə saxlamaq mümkün olmayıb. Dekabrın 3-də isə şəhid xəbəri gəlib. Şəhidimiz ayın 4-də doğulduğu Füzuli rayonunun Araz Yağlıvənd kəndində torpağa tapşırılıb. Ruhun şad olsun, şəhidim!

*Həqiqət B.*

## Zaur ƏSƏDZADƏ



Xalqımız vətən naminə canını qurban vermiş şəhid övladlarını unutmayacaq, onları əbədi xatirə kimi qəlbində yaşadacaqlar. 44 gün davam edən Vətən Müharibəsində canını qurban verən şəhidimiz Zaur Əsədzadəni tanıyaq:

Əsədzadə Zaur Teyyub oğlu 2002-ci il 1 fevralda Beyləqan rayonunda anadan olmuşdur.Tam orta təhsil almışdır. 2 qardaşı və bir bacısı var. Çağırışçı əsgər olmuşdur. 8 oktyabr bir çox qohumu ilə halallaşıb. Qohumları Zauru hər zaman gülərüzü ilə xatırlayacaq. 9 oktyabr Ağdamda şəhidlik zirvəsinə çatmışdır.

Vətənin müdafiəsi uğrunda canından, qanından keçən qəhrəmanlarımız, yurdumuzun bütövlüyü naminə canlarından keçməyi özlərinə şərəf bilən igid oğullarımız hər zaman yaddaşlarda yaşayacaqlar. Bu zirvəyə ucalan cəsur, igid əsgərləri, qəhrəmanları hər bir Azərbaycan vətəndaşı tanımalı, onların keçdiyi şərəfli döyüş yolunu bilməlidir. Vətəni qorumaq kimi müqəddəs bir amal uğrunda döyüşə atılan və düşmənə sinə gərən qeyrətli Vətən oğullarını yad etmək, bütün şəhidlərimizin əziz xatirəsinə ehtiramla yanaşmaq, onların adlarını əbədiləşdirmək və ruhlarını şad etmək isə bizim hər birimizin ən müqəddəs vəzifəsi və borcu olmalıdır.

*Zəminə Hüseynova*

## Zaur ƏLƏSGƏRLİ



Adını Zəfər tarixinə yazdıran şəhid Zaur Mübariz oğlu Ələsgərli!

Şəhid Zaur Mübariz oğlu Ələsgərli 1995-ci il martın 5-i Sumqayıtda dünyaya gəlmişdir. Ailənin ilk payı olan Zaur özündən sonra dünyaya gələn balaca qardaşı Kənanı çox sevirdi. O, əsl böyük qardaş kimi daim onu qoruyur, müdafiə edirdi. Valideyinlərinin ona olan inam və sevgisini daim uğurları ilə doğruldan şəhidimiz hələ uşaq ikən çox mərd, qorxmaz, cəsur idi. Orta təhsilini Sumqayıt şəhər 19 nömrəli tam orta məktəbdə almış, çalışqan, müstəqil düşüncəli, məsuliyyətli və müəllimlərinin sevimli şagirdi kimi yaddaşlarda yer tutmuşdur. Dərslərini əla qiymətlərlə oxuyan Zaurun ən sevimli fənni tarix idi. Çünki xalqının keçmişi, ağrılı taleyi onun uşaq qəlbində sonu şəhidliklə taclanacaq bir qəhrəman həyatı yetişdirəcəkdi. O bu ağır taleyin yükünü xalqının çiyinlərindən götürmək üçün canı bahasına mübarizə aparacaqdı. Lakin bu balaca, sevimli uşaq hələ bunlardan xəbərsiz idi. Gün gələcək düşmənə nifrəti, xalqa sevgisi, döyüş meydanında göstərdiyi qəhrəmanlıqları ilə öz adını bu tarix kitabının səhifələrində həkk etdirəcəkdi. Onun heyrət və maraq dolu baxışlarının yönəldiyi bu kitaba Qarabağda Zəfər başlığı ilə yeni səhifələr əlavə olunacaq və gələcək nəsillər onun adını hörmətlə anacaqdı. Onun həyat yolu tarixə çevriləcəkdi.

Məktəbi bitirdikdən sonra Vətənə borcunu ödəmək üçün yola qoyulan Zaur anasına qəlbinin gizli sirrini verib getmək istədi: – Ana, cəlilabadlılar ilə aran necədi?

– Sən istiyirsənsə, yaxşı.

– Onlardan qız alarsan?

– Sən qızı istəyirsənsə, qız da səni gözləyəcəksə, niyə də almıyım?

Ana ürəyi övladının qəlbinin səsini duymaqda aciz deyildir, çünki o qəlb onun bir parçasıdır. Vəfa ana da öz igid balasının qəlbinin səsini çox əvvəldən duymuşdu. Zaurun həssas qəlbi tez yaşda sevginin istisini dadmışdı.

Hərbi xidmətə yollanan Zaur tibb qardaşı olaraq fəaliyyət göstərir. Mənfur düşmənin yaraladığı qardaşlarının yarasını sarır, intiqam üçün daha da həvəslənirdi. Burda gördükləri onun gələcək həyatında təcrübəyə çevrilirdi. Əsgər yoldaşları onun vətənpərvər, cəsur, mərd və qorxmaz olduğu ilə yanaşı, zarafatcıl, daim gülümsəyən biri olduğunu söyləyir: "Onu qaşqabaqlı görə bilməzdiniz. Yalnız düşmən istiqamətinə baxanda gözlərində bir alov yanırdı. Bəzən bu alov istəmsizcə bizi də ruhlandırırdı. Çünki biz bu alovun mənasını gözəl anlayırdıq". Sanki qısa, lakin laiqli ömür sürəcəyini anlayan şəhidimiz daima həyata gülümsəmək istəyirdi. Məzuniyyətə gəldiyi günlər ailənin və tanışlarının sevinci sonsuz idi. Hamı onunla söhbətləşməyi, ondan məsləhət almağı sevirdi. O uşaqlarla uşaq, böyüklərlə böyük olurdu. Əsgərlikdə gördüklərini, düşmənin caniliyini və xəbisliyini ailənin balaca uşaqlarına həvəslə, yorulmadan danışan Zaur, istəyirdi ki, xalqın gələcəyi olan bu körpə fidanlar düşmənini yaxşı tanısın. Hərbi xidməti bitirdikdən sonra da, hərbidən ayrılmaq istəməyən Zaur Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etmək üçün 6 ay kurs keçir. Lakin ailəsinə kursdan kəsildiyini söyləyir. Erməni dilini mükəmməl səviyədə öyrənir. Hərbi biliyini durmadan artırmağa çalışan qəhrəmanımız Bakıda Dəniz Qüvvələrində xüsusi təyinatlı olaraq fəaliyyətə başlayır. 5 il idi ki, həm Dəniz Qüvvələrində, həm də Quru Qoşunlarında Xüsusi Təyinatlı gizir olaraq Vətənə xidmət edirdi. Şəhidimizin xəyalları ailəsi ilə bağlı idi. 22 yaşında ailə həyatı quran

Zaurun toy xəbərini eşidən heç kim onun belə tez ailə həyatı quracağına inana bilmirdi. Sanki qısa həyatında hər şeyi yerləşdirməyə çalışan şəhidimiz ailəsini çox sevirdi. Uşaqlarına xüsusi qayğı ilə yanaşan Zaurun ən böyük arzusu ev almaq, həyat yoldaşı Vəfa xanım və övladları ilə xoş günlər yaşamaq idi. Dəniz mənzərəli ev almaq istəyən şəhidimiz müharibənin bitməsini gözləyirdi.

27 sentyabr 2020-ci il. O gecə bir çox insanın taleyi dəyişdi. Gözü doymayan, təxribatlar törətməklə əsl üzünü ortaya qoyan düşmən bizdən aldığı torpaqların, neçə-neçə canların hələ hesabını verməmişkən, yenidən torpaqlarımıza, millətimizin canına göz dikdi. Ancaq bu dəfə hər şey fərqli idi. Vətən oğulları ayağa qalxdı. Vətəni, xalqı müdafiə etmək üçün Ali Baş Komandanın hücum əmrinin verilməsi ilə qartallarımız caynaqlarını murdar düşmənin boğazına keçirdi. Zaur bu mübarizədən kənarda qala bilməzdi. İllərdir qəlbində yığılan kin, intiqam hissi onu hərəkətə keçirdi. Elə bir tarix yazdı ki, eşidənlər qulağına inana bilmədi. Elə bir igidlik göstərdi ki, düşmən pərən pərən oldu. Hamı gözlərinə və qulaqlarına inana bilmirdi. Qayğıkeş, zarafatcıl, mehriban Zaur harda idi? O öz yerini türkün intiqam qılıncı tutan əlinə vermişdi. Dayanmadan, yorulmadan, geriyə addım atmadan, gecə-gündüz, aclıq, susuzluq bilmədən Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı uğrunda gedən döyüşlərdə şücaət göstərərək adını zəfər tarixinə yazdırdı. Döyüş yoldaşları bildirir ki, Zaur tək, hamıdan əvvəl gedib düşmən postlarına girir, bütün hamısını məhv edib, oturub bizi gözləyirdi. Həmişə gedib görürdük ki, Zaur oturub, ayağını ayağının üstünə aşırıb gülür: “Nə vaxta qədər belə olacaq? Bir dəfə də tez gəlin, sizə də nəsə qalsın da”. Düşmənə nifrəti onu daha qorxmaz, daha cəsur edirdi. Düşmənə aman vermir, Qarabağın qisasını alırdı. Döyüş yoldaşları onu da qeyd edir ki, Zaur dəfələrlə təkrar edirmiş: “Mən heç nədən qorxmuram!”. Füzulinin Qoçəhmədli kəndində gedən

döyüşlər sonrası, kənd azad edildi. Zaur anasına zəng vurur və deyir: “Ana, gözün aydın, kəndinizi işğaldan azad etdik. Qayıdım, İnşAllah, səni gətirəcəm ananın qəbrini ziyarət edərsən”. Qubadlının işğaldan azad edilməsi zamanı bayrağımızı qaldıran şəhidimiz döyüş yoldaşları ilə bütün dünyaya meydan oxudu. Mərd oğullarımız gücümüzü hər kəsə nümayiş etdirdi.

Şuşa uğrunda gedən döyüşlərə qatılan Zaur əsgər yoldaşları ilə birlikdə şəhərin azad olunması üçün can başla vuruşur. 31 oktyabr. Həmin gecə döyüşlərdə Zaurun komandiri vurulur. Zaur dayana bilməyib, komandirin yanına getmək istəyir. Döyüş yoldaşları onu dayandırmaq istəsə də, bacarmırlar: “Zaur,dayan! Ara sakitləşsin sonra gedərik”. Zaur etiraz edərək cavab verir: “Olmaz! Bəlkə biz gedənə qədər qan itirib öləcək?”. Zaur getdi, komandirinə yardım etmək üçün dayanmadı. Komandirini tapdı və onu götürüb geri qayıdarkən düşmən gülləsinə tuş gəldi, düz 7 dəfə. İlk güllə qoluna dəydi, Zaur dayanmadı. Düşmən ikinci gülləni atdı, bu güllə Zaurun çiynini yaraladı, ancaq o yenə də dayanmadı. Üçüncü güllə açıldı, Zaur qan itirsə də, mübarizəsinə davam etdi. Düşmən də dayanmadı, ard-arda üç güllə atdı, ancaq yenə də Zauru yıxa bilmədi. Hiddətlənən mənfur erməni bu dəfə yeddinci gülləni onun ürəyinə tuşladı. Qəhrəman əsgər durdu, düşmən məqsədinə nail olmuşdu. Zaur dayanmışdı, ancaq Zauru öldürə bilməmişdi.

Canından can verərək Vətəni canlandıran şəhidimiz son dəfə Vətənə baxdı, gözlərini yumdu.

*Dünya Şəmilova*

## Zaur CƏFƏROV



Zaur Cəfərov 1980-ci il martın 4-də Kəlbəcər rayonunun Başlıbel kəndində ziyalı bir ailədə dünyaya göz açmışdır. İbtidai təhsilinə 1986-ci il indiki şəhid Namiq Əbdüləliyev adına Başlıbel kənd orta məktəbində başlamışdır. 2 aprel 1993-cü ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən Kəlbəcər rayonunun işğal olunması nəticəsində məcburi olaraq ailəsi ilə birlikdə əvvəlcə Qax rayonuna, sonra isə Bakıya köçmüşdür. Orta təhsilini 1997-ci ildə Qaradağ rayonu Qızıldaş qəsəbəsində indi şəhid Azər Namazovun adını daşıyan orta məktəbdə başa vurmuşdur.

1997-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdur. 2001-ci ilə qədər ali hərbi məktəbdə təhsil almışdır. Polkovnik-leytenant 2020-ci il oktyabrın 9-dan 10-a keçən gecə Ağdərə istiqamətində gedən şiddətli döyüşlər zamanı Ermənistan Silahlı Qüvvələrinin hücum cəhdinin qarşısını alarkən sərəncamında olan minik avtomobili ilə minaya düşərək şəhid olmuşdur. Səni unutmaq olmaz!

*Eyvaz Əyyub*

## Zeynal ŞAHHÜSEYNOV



Masallı rayon sakini, 44 günlük Vətən müharibəsi qazisi Şahhüseynov Zeynal Füzuli oğlunun 12 gün öncə vəziyyəti ağırlaşmış, komaya düşmüşdü.

Bu gün Şəhidlik zirvəsinə yüksəldi.

**Təqdim olunan kitada səhifələr arasında 20 yanvar şəhidi Ülvi Bünyadzadənin şeir nümunələri təqdim olunmuşdur.**

## Ülvi BÜNYADZADƏ

Ülvi Bünyadzadə 23 sentyabr 1969-cu ildə Göyçə mahalının Basarkeçər rayonunun Kəsəmən kəndində ziyalı bir ailədə dünyaya göz açmışdır. Beş yaşından yazıb-oxumağı bacaran Ülvi beş-altı yaşlarında ilk şeirini yazmışdır. Ülvi Bünyadzadə ibtidai təhsilini Kəsəmən kəndində, orta təhsilini (1986) isə Daşkəsən şəhərində almışdır. 1978-ci ildə Ülvinin atasının işi ilə əlaqədar olaraq Kəsəmən kəndindən Daşkəsən şəhərinə köçmüşdülər. 12-13 yaşlarından sonra, ümumiyyətlə, bütün şagirdlik həyatı boyunca vaxtaşırı olaraq şeirləri, müxtəlif səpgili bədii və publisistik yazıları ilə "Daşkəsən" qəzetində çıxış etmişdir. Eyni zamanda rayonda fəaliyyət göstərən "Qoşqar" ədəbi birliyinin üzvlüyünə qəbul edilmişdir. Orta məktəbdə oxuduğu illərdə Ülvi həm də yeddillik musiqi təhsili almışdır. O, qarmon, tar, saz, piano, kamança kimi musiqi alətlərində çalmağı bacarırdı.



1986-cı ildə sənədlərini ADU-nun şərqşünaslıq fakültəsinin fars dili şöbəsinə vermiş, imtahanlarını müvəffəqiyyətlə versə də, müsabiqədən keçməmiş, Daşkəsən şəhərinə qayıdaraq rayon təmir-tikinti idarəsində rəngsaz işləmişdir. 1987-ci ildə SSRİ-nin 50 illiyi adına APXDİ-nin ingilis dili fakültəsinə daxil olmuşdur. Təhsilə başladığı ilk günlərdən qrup nümayəndəsi seçilmiş, dərs əlaçısı və fəal ictimaiyyətçi kimi tezliklə bütün institutda tanınmışdır. İnstitutun qəzetində yazıları mütəmadi çap olunmuşdur.

Ülvi ərəb, fars, latın, özbək dillərində (sərbəst öyrənməklə) yazıb-oxumağı, ingilis, rus dillərini isə mükəmməl bilirdi. 1987-1989-cu illər Ülvi Bünyadzadənin qısa ömrünün ən məhsuldar dövrü olmuşdur. 1988-ci ilin iyunundan 1989-cu ilin sentyabrına qədər hərbi xidmətdə olmuşdur. Ülvi əsgəri xidmətini yüksək səviyyədə yerinə yetirdiyinə görə hərbi hissədə Sov. İKP üzvlüyünə qəbul edilmişdir.


Анд
Мән, Бүнјадзадә Үлви Јусиф
оғлу, [illegible] сон дәфә өз
виҹданым гаршысында анд
ичирәм: бир елин, бир милләтин
адыны тәмсил етдијими heч
заман унутмајаҹағам; Азәрбајҹан
торпағынын [illegible]
[illegible] адыны мүгәддәс тутаҹағ,
бу ада ләкә вурмаг истәјән бүтүн
үнсүрләрә гаршы дураҹағам; өз Азәр-
бајҹаныма [illegible], виҹданыма,
[illegible]
[illegible] азәрбајҹанлы [illegible]
лајиг [illegible], горхаглығы, ал-
чаглығы, јалтаглығы өзүмә јахын
бурахмајаҹағам. Нәјин бахасына
олурса олсун өз Азәрбајҹаным
[illegible]
Әҝәр [illegible]
[illegible]
[illegible]
Имза: [illegible] 10.09.89.

1989-cu ilin sentyabr ayında SSRİ Müdafiə Nazirinin həmin dövrdəki qərarına əsasən o, tələbə olduğu üçün vaxtından 9 ay əvvəl hərbi xidmətdən tərxis olundu və APXDİ-nin II kursunda təhsilini davam etdirmək üçün sentyabr ayının əvvəllərində Kanskdan Bakıya qayıdan Ülvi həmin gün mitinqdə iştirak etmiş və uydurma “Dağlıq Qarabağ probleminin” xalqı üçün yaratdığı sıxıntıların, iztirabların, gərginliklərin daha da dərinləşdiyinin şahidi olmuşdur. 10 sentyabr 1989-cu ildə Ana torpağı, doğma xalqı qarşısında övladlıq borcunu şərəflə, ləyaqətlə yerinə yetirəcəyini vicdan borcu bilərək öz müqəddəs “And”ını yazmışdı. Ülvi Bünyadzadə Xarici Dillər İnstitutunda Azərbaycan Xalq Cəbhəsinin dayaq dəstəsinin və Şimali Azərbaycan Azad Tələbələr İttifaqının (ŞAATİ) yaradılmasında fəal iştirak edirdi. O, AXC-nin institutdakı dayaq dəstəsinin fəaliyyət proqramını hazırlayanlardan biri olmuşdur. Sov.İKP-nin bütün sovet xalqlarının həyatında oynadığı mənfi rolu başa düşərək Bakıya qayıtdıqdan sonra Azadlıq meydanında (dekabr) mitinq zamanı “Xalqı bu mübarizədə gedilən yoldakı qələbəyə inandırmaq üçün lazım

olsa, bütün cismimizi yandırmağa hazır olmalıyıq" deyərək kommunist biletindən imtina etdiyini bildirmiş, bileti oradaca ovcunun içində nümayişkaranə yandırmışdır.

19 yanvar 1990-cı ildə gecə Bakıya girən Sovet ordusunun yolunu kəsmiş, dinc piketin gülləbaran edilməsinə dözməyərək, sinəsini xalqına tuşlanmış gülləyə sipər etmiş və saat 00.20-də həlak olmuşdur. Yanvarın 20-də axşamüstü dostları, tələbə yoldaşları və müəllimləri onun onun nəşini Semaşko adına xəstəxanadan tapdılar. Ülvi Bünyadzadə Bakıda Şəhidlər Xiyabanında 40-cı qəbrdə dəfn olunmuşdur.

Ülvinin əsərlərinə 200-dən çox şeiri, "Ömür yolu" poeması və "Qansızlar" povesti (Hər iki əsər Əfqanıstanda döyüşən həmvətənlərimizə həsr olunub), 40-a yaxın hekayəsi, 5 pyesi, 20-yə yaxın dünya ədəbiyyatından original tərcümələr (ingilis və rus dillərindən), 7 ədəbi və ictimai məzmunda məqaləsi, bibisi Almaza, dostları Məhəbbət və Cavidə yazdığı xeyli məktubları və s. yazıları daxildir.Ülvinin son illər yaşadığı küçəyə (babasının evi yerləşən küçəyə) "Ülvi Bünyadzadə küçəsi" adı verilib. Həmin evin (babasının evinin) divarına "Burada 20 yanvar şəhidi, şair Ülvi Bünyadzadə yaşamışdır" yazılı barelyef-lövhə vurulmuşdur. "20 Yanvar Şəhidi" fəxri adının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti 31 mart 1998-ci il tarixdə fərman imzalamışdır. 29 dekabr 1998-ci ildə "20 Yanvar şəhidi" fəxri adi haqqında Əsasnamə təsdiq edilmişdir. 1990-cı il yanvarın 20-də kecmiş SSRİ silahlı quvvələrinin Bakıya və respublikanın bir necə rayonuna hərbi təcavuzu zamanı həlak olmuş 147 nəfərə indiyədək "20 Yanvar şəhidi" fəxri adı verilmişdir. Həmin əsasnaməyə əsasən Ülvi Bünyadzadəyə də "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

https://az.wikipedia.org/wiki/%C3%9Clvi_B%C3%BCnyadzad%C9%99

**2881 igid gənc ömürləri ilə tarix yazdılar.**
**Allah rəhmət eləsin. Nur içində yatın!**

Abakarov Nail Müzəffər
Abasov Ağababa Səfər
Abasov Ayaz Nizami
Abasov Davud Yalçın
Abasov Elvin Səxavət
Abasov Ruslan Hikmət
Abasov Samir Adəm
Abasov Seymur Adil
Abbasov Aysənan Əsgər
Abbasov Azad Novruz
Abbasov Ceyhun Natiq
Abbasbəyli Həmid Cavanşir
Abbasəliyev Hüseyn Adil
Abbaslı Arif Firuz
Abbaslı Elgin Ağayar
Abbaslı Elgiz Fuad
Abbaslı Elnur Yaşar
Abbaslı Hikmət Zahir
Abbaslı Munis Həbibullah
Abbasov Ağaqardaş İlham
Abbasov Asim Rasim
Abbasov Aslan Vəliyəddin
Abbasov Bəşir Nizami
Abbasov Elcan Əfsəddin
Abbasov Elşən Qurban
Abbasov Elvin Şamil
Abbasov Fərrux Azər
Abbasov Hüseyn Əlizadə
Abbasov İlham Əli
Abbasov İntiqam Yavər
Abbasov İsa Faiq
Abbasov Möhlət Eldəniz
Abbasov Murad Vasif
Abbasov Murtuz Çingiz
Abbasov Müşviq Qabil
Abbasov Nemət Elçin
Abbasov Nihad Mövlüd
Abbasov Nurhan Əlastan
Abbasov Pünhan Nəsir
Abbasov Ramil Sabir
Abbasov Samir Azər
Abbasov Şamxal Xasay
Abbasov Səxavət Rizvan
Abbasov Seymur Müşfiq
Abbasov Tacəddin Vüqar
Abbasov Teymur Feyruz
Abbasov Toğrul Bayram
Abbasov Tural Fəzayıl
Abbasov Vahid Sahib
Abbasov Vüsal Telman
Abbasov Zülfüqar Bayram
Abbasquliyev Nadir Elçin
Abdalov Nurlan Faiq
Abduləlimov Miqdad Faiq
Abduləzimli Emil Rasif
Abdullayev Balazadə Rafət
Abdullayev Cavid Vahid
Abdullayev Əkram Azad
Abdullayev Eldar Firudin
Abdullayev Elgün Əmirxan
Abdullayev Elməddin Telman
Abdullayev Elnur Təvəkkül
Abdullayev Elşən Sabir
Abdullayev İntiqam Allahverdi

Abdullayev Gündüz Çingiz
Abdullayev Hasil Miryusif
Abdullayev Həmdulla Aslan
Abdullayev Həsən Aydın
Abdullayev Həsən Qərib
Abdullayev Hikmət Şaiq
Abdullayev İbrahim Habil
Abdullayev Məhəmməd Vaqif
Abdulrəhmanov Şöhrət Böyükbəy
Abiyev Vasif Vaqif
Alıyev Qələndər Nofəl
Allahverdiyev Vilayət Valeh
Allahverdiyev Zöhrab Sübhan
Allahverənov Telman Fazil
Abdullayev Kənan Mübariz
Abdullayev Məhəmməd Ramazan
Abdullayev Mərahim Aslan
Abdullayev Nicat Mirnəbi
Abdullayev Nihad Adil
Abdullayev Nurlan İnqilab
Abdullayev Qəzənfər Nəcəf
Abdullayev Rasim Yaqub
Abdullayev Rəşad Arif
Abdullayev Rəşid Abdulla
Abdullayev Samir İlham
Abdullayev Şəhriyar Kamil
Abdullayev Səməd Sədiyar
Abdullayev Sənan Şahin
Abdullayev Sərxan Elxan
Abdullayev Taleh Məhərrəm
Abdullayev Taleh Temraz
Abdullayev Tosif Vidadi
Abdullayev Tural Bəylər
Abdullayev Tural Şakir
Abdullayev Vaqif Rəşid
Abdullayev Vüsal Şakir
Abdullazadə Həsənağa Şakir
Abdullazadə İmaməddin Əsgər
Abdullazadə Qasım Əli
Abdullazadə Teymur Faiq
Abdullazadə Tağı İlham
Abdulov İdrət İbi
Abdurahmanlı Sübhan Mahir
Abdurahmanov Əfqan Ağasəf
Abdurahmanov Elvin Əbülfəz
Abdurrəhmanov Hafiz Xalid
Abışev Telman Nadir
Abışov Asif Əlövsət
Abışov Babək Vaqif
Abışov Elnur Şaiq
Abışov Əmrah Səyyad
Abışov Fərid Əlfayım
Abışov Tacəddin Elşən
Abışov Ülvi Bayram
Abışov Zəka Zakir
Abıyev İlkin İslam
Abuşov Bəhruz Zabid
Adıgözəlov Cəmil Əli
Adıgözəlov Ceyhun Çoban
Adıgözəlov Faiq Mehdi
Adıgözəlov Cavid Gülhəsən
Adıgözəlov Fərid İlqar
Adilov Şirəli İlham
Adişov Qüdrət Rahim
Ağabalayev Sadiq Nadir
Ağabəyov Oktay Baxşəli
Ağacəfərli Ağamid Şirzaid
Ağaəhmədov Elnur Fəxrəddin
Ağahüseynli Səyyad Əliyar
Ağakərimov Elvin Eldəniz

Ağakişiyev İlkin Elxan
Ağakişiyev Nurlan Etibar
Ağalarlı Toğrul Daşqın
Ağalarov Nahid Musa
Ağəli Zaur Kamil
Ağəliyev Müzəffər Vahid
Ağamalıyev Ağamməd Elgiz
Ağamalıyev Şəhriyar Əvəz
Ağaməmmədov Xəyal Salam
Ağamirov Şixmir Qabil
Ağaquliyev İlkin Saməddin
Ağaquliyev Tofiq Rafiq
Ağasiyev Elşən Ağabala
Ağaşov Famil Vüqar
Ağayev Ağa Əli
Ağayev Ağabala İlqar
Ağayev Ağali Tağı
Ağayev Ağamalı Şamil
Ağayev Ağamir Qüdrət
Ağayev Aqşin Şirvan
Ağayev Cavanşir Niyaməddin
Ağayev Cavidan Mirzağa
Ağayev Cəlal Ağaverdi
Ağayev Ceyhun Cəmil
Ağayev Daşqın Əliqulu
Ağayev Əmirağa Mahir
Ağayev Əhəd Bilal
Ağayev Elçin Zakir
Ağayev Elvin Valeh
Ağayev Həmdəm Mayıl
Ağayev İldrım Qafqaz
Ağayev İlkin Tehran
Ağayev İntiqam Hüseyn
Ağayev Mənsur Ağa
Ağayev Mirlətif  Mirislam
Ağayev Naim Süleyman
Ağayev Ramil Ağarəhim
Ağayev Ramil Mərdan
Ağayev Ramiq Təhsin
Ağayev Ramiz İmamverdi
Ağayev Rəşad Rövşən
Ağayev Şahin Azər
Ağayev Saleh Nurəddin
Ağayev Tapdıq Çingiz
Ağayev Ülvi Valeh
Ağayev Vahid Məcnun
Ağayev Vüqar Əhməd
Ağayev Xəlil Pənah
Ağayev Zabil Azər
Ağayev Zamin Zülfiqar
Ağayev Zülfü Ağəli
Ağazadə Emin Valik
Ağazadə Sənan Nizami
Ağazadə Murad İkram
Akifzadə Elmir Gündüz
Alışanlı Amal Seyfəddin
Alışov Samir Cəlil
Alışov Ülvi İlham
Alıyev Elçin Bayram
Alıyev Laçın Rasim
Alıyev Vahid Abbas
Alızadə Seymur Mirzə
Allahverdiyev Allahverdi Əli
Allahverdiyev Asiman Niyaz
Allahverdiyev Babək Bəxtiyar
Allahverdiyev Elnur Kamil
Allahverdiyev Elşad Zaməddin
Allahverdiyev İsgəndər Nəsir
Allahverdiyev Kənan Mərdan
Allahverdiyev Namaz Baxış

Allahverdiyev Nazir Xasay
Allahverdiyev Rövşən Fərrux
Allahverdiyev Sakit Şahin
Allahverdiyev Samir Elçin
Allahverdiyev Seymur Qərib
Allahverdiyev Süleyman Etibar
Allahverdiyev Tacir Xasay
Allahverdiyev Turxan Rəsul
Allahverdiyev Vidadi Fazil
Allahverdiyev Vüsal Novruz
Allahverdiyev Vüsal Tahir
Allahverdizadə Elnur Əli
Allahverənov Məhəmməd Zöhrab
Allahyarov Şahin Hüseynbala
Allahyarov Vüsal Şakir
Alməmmədov Emin Akif
Alməmmədov İman Tarverdi
Alməmmədov Təbriz Letman
Alqayev Harun Məhəmməd
Alxaslı Rəvan Cəmil
Alxasov Elməddin Rəsul
Amanalıyev Tərlan Rövşən
Amanov Əhməd Tahir
Arazov Elçin Eldar
Arazov İkraməddin Qüdrət
Arazov Səyyar Güloğlan
Aslanlı Orxan Şahmar
Aslanov Ağasadıq Xəlil
Aslanov Atəş Yusif
Aslanov Babək Sakit
Aslanov Bəxtiyar İlqar
Aslanov Elşən Alxas
Aslanov Rəşad Taryel
Aslanov Röyal Elzar
Aslanov Taleh Elman
Aslanov Tural Elşən
Aslanov Xəyal Qüdrət
Astanlı İqbal İlqar
Atakişiyev Kamil Araz
Atakişiyev Ramiz Rafiq
Atakişiyev Rüstəm Zahid
Atakişiyev Tərlan Dərgah
Atakişiyev Toğrul Ramil
Ataşov Asif Kərim
Atayev Nicat Habil
Atayev Tariyel Fəxrəddin
Avdıyev Orxan Habil
Axundov Əfqan Hüseyn
Axundov Eşqin İntiqam
Axundov Mirzə Musa
Axundzadə Kənan Hamil
Aydəmirov Beyrək Etibar
Aydəmirov Nizami Elçin
Ayvazov Həsən Cəlil
Azadlı Eltac Sədrəddin
Azadlı Zabil Tələt
Azayev Asif Məhəmmədağa
Azayev Sadiq Xubyar
Azayev Ülvi Maqsud
Bababəy Şamil Nazim
Babaşov Hikmət Firudin
Babaxanov Elman Ağamirzə
Babayev Ağaşirin Firuz
Babayev Allahverdi Ələt
Babayev Alməmməd Qərib
Babayev Babaxan Əlövsət
Babayev Cavad Gülverdi
Babayev Çingiz Sulduz
Babayev Əli Həsən
Babayev Elman Telman

Babayev Elməddin Cəfərqulu
Babayev Elvin Əkbər
Babayev Əmirxan Mirilham
Babayev Fariz Zakir
Babayev Fərhad Məhərrəm
Babayev İqbal Zəki
Babayev Kamal Eynulla
Babayev Murad Nadir
Babayev Mustafa Elman
Babayev Muxtar Rəhim
Babayev Nihad Akif
Babayev Orxan Sarvan
Babayev Orxan Sədail
Babayev Pərvin Hüseyn
Babayev Rahib Bəxtiyar
Babayev Ramil Taqət
Babayev Rəşad Ağabəy
Babayev Rəşad İlham
Babayev Sahil Coşqun
Babayev Şamil Baloğlan
Babayev Samsun Şəmsəddin
Babayev Taleh Xanmurad
Babayev Vüqar İlham
Babayev Vüsal Sübbuh
Babazadə Babazeynal Maqsud
Babazadə Məhəmməd Cavanşir
Babazadə Mirşəmsi Elşad
Babazadə Ülfət Qabil
Babazadə Xaqani Anar
Babazadə Yolçu Bəhruz
Bağırlı Hikmət Qəhrəman
Bağırlı Mirsədi Mircəfər
Bağırov Elçin Fərhad
Bağırov Elnur Sahib
Bağırov Aqil Fazil
Bağırov Elçin Yunus
Bağırov Elnur Zeynal
Babayev Rauf Fəxrəddin
Bağırov Əli Eltay
Balayev Orxan Vidadi
Bayramov Samir Elxan
Bayramov Şahin Arif
Bəkirli Azad Rasim
Bəkirov Yasər Əfqan
Bağırov Eşqin Rafiq
Bağırov Məmmədağa Həsənağa
Bağırov Namiq Nurəddin
Bağırov Nurlan İsmayıl
Bağırov Ramin Nəriman
Bağırov Süleyman Kamil
Bağırov Süleyman Loğman
Bağırzadə Mahsun Zahir
Bağırzadə Sadiq Şahin
Bahadur Anar Süleyman
Bahadurzadə Vüqar Məmməd
Balabəyov Pərviz Tofiq
Balabəyov Ramil Ruslan
Balacayev Qərib Nəsib
Baladov Ruslan Allahyar
Balağayev Seyfəddin Vahid
Balakişiyev Qara Əmirxan
Balakişiyev Xəyal Müseyib
Balıev Hüseynağa Salman
Baloğlanlı Elşad Elşən
Baxışov Cahangir Əmrah
Baxışov Hakim Səyyar
Baxışov İlqar Adışirin
Baxışov Sadiq Bəkir
Baxışova Arəstə Kərim
Baxşalıyev Nicat Ziyafət

Baxşəliyev Araz Yavər
Baxşəliyev İnam Rasim
Baxşəliyev Qərib İnqilab
Baxşəliyev Natiq Saleh
Baxşiyev Eldar Sultan
Baxşiyev Vahid Məclum
Bayramlı Elmar İsa
Bayramlı Tural Ədil
Bayramov Aydın Mətləb
Bayramov Cavid Azər
Bayramov Cəlal Yaqub
Bayramov Coşqun Ənvər
Bayramov Elburus Eyvaz
Bayramov Elcan Qoşqar
Bayramov Əli Nadir
Bayramov Elmin Elməddin
Bayramov Elnur Şəmsi
Bayramov Elvin Elçin
Bayramov Elvin İslam
Bayramov Əmrah Hüseyn
Bayramov Fərrux Bayram
Bayramov Həsən Bəhrəm
Bayramov Həsən Ağaisa
Bayramov İqbal Əhmədağa
Bayramov Məmməd Arif
Bayramov Orxan Surxay
Bayramov Osman Zeyqəm
Bayramov Ramin Hüseynağa
Bayramov Rəhman Dilcan
Bayramov Ruslan Azər
Bayramov Ruslan Telman
Bayramov Səddam Ələddin
Bayramov Səid Eldəniz
Bayramov Xəqani Məmməd
Bayramov Xəzər Azad
Bayramov Səlimxan Vüqar
Bayraxtarov Batdal Mikail
Bədəlov Elməddin Dəyanət
Bədəlov Oktay Ələddin
Bədəlov Səhman Bəhmən
Bədəlov Valeh Vahid
Bədirov Murad Qismət
Bədirov Nəcməddin Nurəddin
Behbudlu Behbud Rübail
Behbudov Nofəl Həmid
Bəhmanlı Manaf Bəhman
Bəkirov Bəxtiyar Yavər
Bəkirov Təbriz Etibar
Bəktiyev Müşfiq Abbas
Bəndəliyev Əliəkbər Qulu
Bərxudarov Toğrul Məmməd
Bəşirov Akif Vahid
Bəşirov Əyyub Ramis
Bəşirov Hakim Nizam
Bəşirov Rəhman Eyvaz
Bəşirzadə Hüseyn Xanhüseyn
Bəxtiyarov Orxan Sərvər
Beydiyev Nazim Eynulla
Bəyişli Elgün Teyuf
Bəylərov Elnur Ehdibar
Bəylərov Seymur Səlyəddin
Bəyverdiyev Rafik Nurməhəmməd
Bilalov Abdulcəmil Xaqani
Binnətov Ruslan Rafiq
Budaqov Rəşad Ramiz
Budaqov Rufiz Şirzad
Budaqov Yusif Ramiq
Bünyadlı Rəvan Asif
Bürcəliyev İlqar Vüqar

Cabarzadə Cavid Qorxmaz
Cabbarov Akif Elxan
Cabbarov Əli Baba
Cabbarov Elnur Şahmurad
Cabbarov Muraz İlham
Cabbarov Oruc Akif
Cabbarov Orxan Rövşən
Cabbarov Şahgündüz Habil
Cabbarov Səlim Qılman
Cabbarov Seymur İlham
Cabbarov Şöhrət Əli
Cabbarov Vidadi Cəbrayıl
Cabbarzadə Məmmədiyə M.
Cahangirov Rauf Xəyyam
Calalzadə Calal Qaryağdı
Cavadlı Nemət Cavid
Cavadov Canlar Aqil
Cavadov Cəlil Ağaddin
Cavadov Ələsgər Elxan
Cavadov Namiq Rəhbər
Cavadov Ramin Emin
Cavadov Yalçın Aydın
Cavadzadə Anar Tahir
Cavadzadə Şaiq Faiq
Cəbiyev Qardaşağa Nizami
Cəbizadə Əbil Qadir
Cəbrayıllı İbrahim Raqub
Cəbrayılov Elçin Surxay
Cəbrayılov Elnur Tofiq
Cəbrayılov Rahib Ramil
Cəbrayılov Sübhan Rahim
Cəbrayılov Xəyal Rafiq
Cəfər Osman Elsevər
Cəfərli Asim Çingiz
Cəfərli Əli İsa
Cəfərli Elşən Rəfail
Cəfərli Əmrah Yusif
Cəfərli Həmid Kərim
Cəfərli Orxan Etibar
Cəfərli Cəfər Balbacəfər
Cəfərli Röyal İkrəm
Cəfərli Ruslan Nəcəf
Cəfərli Şahin Şamil
Cəfərli Xəyal Xəlil
Cəfərov Anar Eyvaz
Cəfərov Ayxan Cəmaləddin
Cəfərov Balaş Namiq
Cəfərov Cavid Fərhad
Cəfərov Cəlil Sulduz
Cəfərov Əli Bəyulla
Cəfərov Elmar İlham
Cəfərov Elməddin Hümbət
Cəfərov Elnur Cəmiyyət
Cəfərov Elyəddin Zöhrab
Cəfərov Etibar Teyyub
Cəfərov Fərid İsmixan
Cəfərov İbrahim Şamil
Cəfərov Mətləb Məhəmməd
Cəfərov Mirmuraz Mirbaba
Cəfərov Mübariz Qulu
Camalzadə Famil Hicran
Cavadov Mahmud Heydər
Cəbrayılov Ağacan Zakiroviç
Cəfərov Araz Səmədağa
Cəfərov Surxay Cümşüd
Cəfərzadə Tarif Qədim
Cəfərov Oruc Vaqif
Cəfərov Rahid Namik
Cəfərov Ramiz Sübhan
Cəfərov Röyal Vaqif

Cəfərov Ruslan Gündüzoviç
Cəfərov Ruslan Mövlan
Cəfərov Şahlar Fəzail
Cəfərov Səid Zəfər
Cəfərov Şəmsi Mahir
Cəfərov Sübhan Mehman
Cəfərov Tacir Fariz
Cəfərov Tehran Nadir
Cəfərov Ülvi Habil
Cəfərov Vüqar İnşallah
Cəfərov Vüsal Şəfi
Cəfərov Vüsal Sərhədxan
Cəfərov Vüsal Saxləddin
Cəfərov Yusif Mübariz
Cəfərov Zaur Hüseyn
Cəfərzadə Eşqin Hamlet
Cəfərzadə İsrayıl Namiq
Cəlilov Elcan Famil
Cəlilov Həsən Məhərrəm
Cəlilov Sahil Oktay
Cəlilov Şöhrət Cəfər
Cəlilov Tural Callad
Cəlilov Xaləddin Asəf
Cəmilli Şakir Arif
Cəmilli Xəqani Mənsur
Cəmiyev Aşur Bəybala
Çobanov Orxan Zahid
Cumayev Orxan Fətəli
Cümşüdov Orxan Sabutay
Cumuzadə Təbriz İldırım
Cuvarov Tural Zahid
Çələbili Vüqar Fərəcullah
Dadaşlı Orxan Elxan
Dadaşov Əjdər Pənah
Dadaşov Elvin İmanqulu
Dadaşov Əzizağa Ramis
Dadaşov Nurlan Səyyad
Dadaşov Orxan Vaqif
Dadaşov Seyfəddin Məhyyəddin
Dadaşov Zaur Zümrüd
Dadaşzadə Hüseyin Zülfüqar
Dadaşzadə Kənan Elman
Dadaşzadə Mahir Qərib
Dadaşzadə Yalçın İsmayıl
Dadiyev Elnur Cəlal
Daşdəmirov Elfak Eltun
Daşdəmirov Elmar Seymur
Daşdəmirov Orxan Rəfail
Daşdəmirov Taleh Fərhad
Daşdəmirov Rəvan Məzahir
Dəmirçiyev Tural Rəfail
Dəmirli Elşən Gündüz
Dəmirov Ədalət Nüsrət
Dəmirov Həsən Turan
Dəmirov Siyahim Əlizamin
Dəmirov Vüsal Aydın
Dənziyev Orxan Mübariz
Dostuyev Elçin Murad
Dövlətli İskəndər Vüqar
Dövlətov Zaur Zahir
Dövlətzadə Cəbrayıl Dövlət
Dünyamalıyev Ceyhun Zeynal
Dünyamalıyev Elşən Mübariz
Dursunov Fərid Fazil
Dursunov Zeynali Əlləz
Eissavi Muhamməd Mazen
Eldarzadə Azər İsmixan
Elyasov Cəfər Yavər
Eminli Rüstəm Mais
Eminov Nurlan Pərviz

Eminov Tacir İntiqam
Emnalıyev Orxan Eyvaz
Eyniyev Tərlan Gölişad
Eynullayev Rövşən Elşən
Eyvazlı Məzdək Əli
Eyvazlı Rüfət Arzu
Eyvazov Əbülhəsən Balaş
Eyvazov Əli Sehran
Eyvazov İslam Həsən
Eyvazov Rəşad Babək
Eyyubov Sərvan Yusif
Eyyubov Tural Yadulla
Əbdülov Elnur Qədir
Əbdürəhmanlı Sabir Faiq
Əbdürrəhimli Habil Qabil
Əbilov Kamal Vidadi
Əbilzadə Sübhan Arif
Ədilov Səid Həsən
Əfəndiyev Adil Qədir
Əfəndiyev Nurlan Mürvət
Əhədli Baloğlan Şakir
Əhədov Mehrac İntiqam
Əhədov Tural Rahil
Əhədzadə Elsevər Ağacan
Əhədzadə İlkin Qələmşah
Əhədzadə İmaməli Şəvəqqət
Əhmədəliyev Kərim Rövşən
Əhmədli Aydın Mustafa
Əhmədli Elməddin Gülverən
Əhmədli Elşən Elbrus
Əhmədli Əhməd Anar
Əhmədli Qardaşxan Elxan
Əhmədli Nurlan Rəhim
Əhmədli Şahid Gülməmməd
Əhmədov Abdulla Əhməd
Əhmədov Amal Rauf
Əhmədov Asif Vasif
Əhmədov Ayaz Elson
Əhmədov Bəhruz Səttar
Əhmədov Cavanşir Elxan
Əhmədov Cavanşir  Xeyrulla
Əhmədov Əhmədxan Məzahir
Əhmədov Ehtiram Teyyub
Əhmədov Əli İlqar
Əhmədov Elmar Elşən
Əhmədov Emil Bahadur
Əhmədov Əsgər Əhmədkişi
Əhmədov İlqar Xəqani
Əhmədov İslam İlqar
Əhmədov Kənan Ləzgi
Əhmədov Mahmud Fərman
Əhmədov Mənsur Mamed
Əhmədov Mərhəmət Adil
Əhmədov Mikayıl Hümbət
Əhmədov Mirmöhsüm Mird.
Əhmədov Natiq Namiq
Əhmədov Nicat Həsən
Əhmədov Nihad Fuad
Əhmədov Qalib Rəşid
Əhmədov Rəşad Ələkbər
Əhmədov Rəvan Yafət
Əhmədov Sabir Səfər
Əhmədov Səbuhi Ziyafət
Əhmədov Sənan Qalasən
Əhmədov Səyadulla Rasim
Əhmədov Tacir Mehdi
Əhmədov Tural İzətulla
Əhmədov Vidadi Murad
Əhmədov Xəyal Hüseyn
Əhmədov Yasən Yelmar

Əhmədov Zamiq Çingiz
Əhmədzadə Elməddin Uğur
Əhmədzadə Famil Ağaəhməd
Əhmədzadə Mürşüd Müdahil
Əhmədzadə Rüfət Əbülfət
Əjdərli Şamxal Marif
Əjdərov Rəhman Rasim
Əkbərli Rufan Elzabit
Əkbərov Əmrah Şahid
Əkbərov Həsən Raqub
Əkbərov İbarət Faiq
Əkbərov Mətləb Zülfiqar
Əkbərov Orxan Nadir
Əkbərov Rahil Canəhməd
Əkbərov Vüqar Seyid
Əkbərzadə Qalib Əbdüləhəd
Əkbərzadə Valeh Asim
Ələkbərli Ələkbər Ramiz
Ələkbərli Kənan Müşviq
Ələkbərli Samir Şamil
Ələkbərov Allahverdi Məzahir
Ələkbərov Bağır Əsəd
Ələkbərov Əli Ələkbər
Ələkbərov Əlisahib Selman
Ələkbərov Fərid Tahir
Ələkbərov Məhəmmədəli Bayram
Ələkbərov Muraz Məzahir
Ələkbərov Naiq Faiq
Ələkbərov Niyaməddin İsrafil
Ələkbərov Rəşad İlqar
Ələkbərov Röyal Fərmail
Ələkbərov Telman İqdam
Ələkbərov Vüqar Telman
Ələsgərli İlkin Bəkir
Ələsgərli Zaur Mübariz
Ələsgərov Ələkbər İsgəndər
Ələsgərov Həsrət Vahid
Əsgərov Hüseyin Ramiz
Ələsgərov Mətləb Vüqar
Ələsgərov Niyaməddin Süleyman
Ələsgərov Pərviz Lətif
Ələsgərov Sənan Əkram
Ələsgərov Seymur Əli
Ələsgərov Vadim Ağaba
Ələsgərov Yusif Yaşar
Ələsgərzadə Sənan Muxtar
Əlibəyli Mikayıl Xalıqverdi
Ələsov Əli Aydın
Əliyev Xəqani Füzuli
Əlifov Rüfət Sehun
Əliməmmədov Elçin Mehman
Əlimov Elvin Nəsrəddin
Əlimuradov Cumart Şixrəhim
Əlimuradov Orxan Roman
Əlisoltanov Vahid Tahir
Əliyev Abbas Salam
Əliyev Adəm İlqar
Əliyev Ağayusif Mübariz
Əliyev Amid İlhamoviç
Əliyev Anar Talıb
Əliyev Anar  Vaqif
Əliyev Aqil Faiq
Əliyev Araz Aydın
Əliyev Asim Asəf
Əliyev Asim Nuru
Əliyev Asiman Vaqif
Əliyev Aslan Elman
Əliyev Atəm Vaqif
Əliyev Aydın Nəriman
Əliyev Azər Dilafər

Əliyev Azər Elnur
Əliyev Bəhruz Elman
Əliyev Bəybala Fazil
Əliyev Camal Mehman
Əliyev Camal Xaliq
Əliyev Cavid Şaban
Əliyev Cavid Samir
Əliyev Cəlil Qüdrət
Əliyev Denis Aleksandroviç
Əliyev Dəyanət Ələsgər
Əliyev Elçin Ələkbər
Əliyev Elçin Sarvan
Əliyev Elçin Rasim
Əliyev Eldar Süleyman
Əliyev Əli Ələsgər
Əliyev Əlisa Arif
Əliyev Elsəfa Səməd
Əliyev Elman Rakif
Əliyev Elməddin İlqar
Əliyev Elmir Süleyman
Əliyev Elnur Ərəstun
Əliyev Elqaş Barat
Əliyev Elşad Mehman
Əliyev Elşən Novruz
Əliyev Elsevər Hikmət
Əliyev Elsevər Saqib
Əliyev Eltun Elnur
Əliyev Elvin Bəhruz
Əliyev Elvin Famil
Əliyev Emil Əziz
Əliyev Əmrah Ürfət
Əliyev Əmirulla Vahid
Əliyev Ənvər Nizami
Əliyev Fərhad İlham
Əliyev Fərid Hamlet
Əliyev Fərid Pirəli
Əliyev Fərmin Fərman
Əliyev Fəzail Cahan
Əliyev Fizuli Vidadi
Əliyev Fuad Ramin
Əliyev Gündüz Etibar
Əliyev Həmzə Tərlan
Əliyev Həndi Elbrus
Əliyev Hüseyn Sahib
Əliyev İbrahim Nəcəfqulu
Əliyev İlkin Bəxtiyar
Əliyev İmam Səfər
Əliyev İmran Əli
Əliyev Kamran Rasim
Əliyev Kərim Məhəmmədəli
Əliyev Kərim Qeyrətxan
Əliyev Lətif Oruc
Əliyev Maarif Təbriz
Əliyev Mahir Əjdər
Əliyev Malik Təvəkkül
Əliyev Məhəmməd İlham
Əliyev Məhəmməd Yaqub
Əliyev Mehman Xudaşükür
Əliyev Mərhab Şikar
Əliyev Mirağa Musa
Əliyev Mirzağa Məmmədbağır
Əliyev Murad Hüseyn
Əliyev Nihad Heydər
Əliyev Nohəl Əlqəmə
Əliyev Orxan Ədalət
Əlili Orxan Elşad
Əliyev Orxan Məhəmməd
Əliyev Pərvin Vüqar
Əliyev Qara Kamal
Əliyev Qubat Hüsür

Əliyev Ramid Kamal
Əliyev Ramil Qurban
Əliyev Ramil Vüqarəddin
Əliyev Ramin Muxtar
Əliyev Rauf İlyas
Əliyev Rauf Səxavət
Əliyev Rəfael Oruc
Əliyev Rəşad Əmiralı
Əliyev Rəvan Yusif
Əliyev Romir Rəşadət
Əliyev Rövşən İsrafil
Əliyev Rüfət Füzuli
Əliyev Ruslan Aslan
Əliyev Saleh Namiq
Əliyev Şaməddin Qafqaz
Əliyev Şamil Xançoban
Əliyev Samir Əliheydər
Əliyev Səbuhi Teyyub
Əliyev Sehriman Rəhman
Əliyev Səmid Xoşbəxt
Əliyev Sənan Ceyhun
Əliyev Sənan Əlisafa
Əliyev Şöhrət Cambulat
Əliyev Tahir Mahir
Əliyev Tamerlan İqrar
Əliyev Teymur İman
Əliyev Təbriz Tofiq
Əliyev Timur Nurəddinoviç
Əliyev Turan Sulduz
Əliyev Vahib Ramiz
Əliyev Vüsal Məhəmmədəli
Əliyev Xəyal Saleh
Əliyev Yadigar Səfxan
Əliyev Yunis Zaur
Əliyev Yusif Asif
Əliyev Zaur Eldar
Əliyev Ziyadxan İbrahim
Əlizadə Elməddin Sübhi
Əlizadə Elşən Faiq
Əlizadə Eltac İsmayıl
Əlizadə Famil Habil
Əlizadə Fuad Nazim
Əlizadə Mirzəhəsən Şahin
Əlizadə Nicat Qorxmaz
Əlizadə Nofəl Qənbər
Əlizadə Pərvin Vüqar
Əlizadə Qorxmaz Arif
Əlizadə Qurbani Ziyafəddin
Əlizadə Ruslan Arif
Əlizadə Şamxal Əvəz
Əlizadə Taleh Zaur
Əlizadə Toğrul Rafiq
Əlizadə Xəyal Nəsrəddin
Əlizadə Yüksəl İlqar
Əmənov Məhəmməd İltizam
Əmiraslanov Amin Vaqif
Əmiraslanov Ümman Namiq
Əmirli Əmirşah Səttar
Əmirli Tofiq Şəmsəddin
Əmirov Adəm Elçin
Əmirov Anar Allahverdi
Əmirov Emil Zaman
Əhmədov Elnur Etibar
Əkpərov Cabar Əşrəf
Əlimərdanov Elvin İlham
Əliyev İbrahim Mustafa
Əliyev Rövşən İbrahim
Əliyev Sərxan İslam
Əlizadə Nəriman Nurəhməd
Əlizadə Tahir Qəribəli

Əmiraslanov Elgün Sərvan
Əmrahov Emin Əvəz
Əmrahov Vüqar Mübariz
Əmrahov Rasim İmran
Əmrahov Saməddin Şamil
Ənnağıyev Babək Oktay
Ənvərli Aqşin Faiq
Ərəbov Orxan Ramiz
Əsdiyev Heybullah Məzahir
Əsədli Cahid Zahit
Əsədli Əsəd Mahir
Əsədov Anar Rafiq
Əsədov Baxış Sahib
Əsədov Əli Akif
Əsədov Əli Bayram
Əsədov Emil Balaqardaş
Əsədov Əsəd Cəmaləddin
Əsədov Murad Rüstəm
Əsədov Ruslan Rövşən
Əsədov Saleh Səməd
Əsədov Səbuhi Azər
Əsədov Tural Sərvan
Əsədullayev Elnur İmran
Əsədzadə Zaur Teyyub
Əsgərli İntiqam Bayram
Əsgərli Tural Ələmdar
Əsgərov Asəf İlqar
Əsgərov Elçin Yalçın
Əsgərov Fərid Ərəstun
Əsgərov Firavan  Xanbala
Əsgərov İbrahim Məzahir
Əsgərov İlkin Rauf
Əsgərov Kamran Bayram
Əsgərov Musa Əlifağa
Əsgərov Musa Rövşən
Əsgərov Novruz Ələddin
Əsgərov Rauf Vaqif
Əsgərov Rüfət Mürvət
Əsgərov Rüfət Qabil
Əsgərov Sadiq Elbəyi
Əsgərov Samid Gülmalı
Əsgərov Şəhriyar İsa
Əsgərov Taqı Nizami
Əsgərov Təbriz Çapay
Əsgərov Vüqar Rza
Əsgərzadə Xəyal İsrafil
Əskərov Xaqani Səfa
Əşrəfov Məhəmməd Yusif
Əyyubov Ceyhun Savalan
Əzimov Cavanşir Calal
Əzimov Saatmirzə Feyruz
Əzizli Sabir Himət
Əzizli Elnur Şahin
Əzizli Tacəddin Şahəddin
Əzizov Ayşad Qaryağdı
Əzizov Elçin Əvəz
Əzizov Elgün Elman
Əzizov Elvin Əfrail
Əzizov Əziz Məmmədvəli
Əzizov İbrahim Şaməddin
Əzizov Mail Mahir
Əzizov Qüdrət Bəhruz
Əzizov Şəmistan İlyas
Əzizov Sübhan Məmməd
Əzizov Teymur  Əli
Əzizov Xəyyam Əli
Fətalıyev Şahin Şamxal
Fərəcov Fərid Yaşar
Fərəcov İlkin Sahib
Fərəcov Kamran İlqar

Fərəcov Kamran Qılman
Fərəcov Zülfüqar Müseyib
Fərəcullayev Elşad İsa
Fərəməzov Nurlan Əhliman
Fərhadlı Fərhad Vüqar
Fərhadov Cəlaləddin Elxan
Fərzalıyev Samiq Misir
Fərzəliyev Samir Vaqif
Fərziyev Balaş İltizam
Fərziyev Saməddin Mehman
Fərzullazadə Mehdi Zaman
Fətəliyev Emil Mayis
Fətəliyev Rahib Pənah
Fətəliyev Səmural Ayaz
Fərzəlizadə Emin Fərman
Fərəcov Əflatun Mircangir
Fətiyev Xəqani Hüseynəli
Fətullayev Tərlan Amanşah
Feyruzlu Əlibəy Samir
Feyziyev Əli Malik
Feyziyev Sadiq Tahir
Feyzizadə Toğrul İlqar
Feyzullayev Beyrək Seyfulla
Feyzullayev Zahir Eyvaz
Göydağlı Ramazan Əbülfət
Göyüşov Məzahir Niyaz
Göyüşov Sərvan Mehman
Gözəlov Murad Zabil
Gözəlov Rüfət Əzim
Gözəlov Xalid Həsən
Gülməliyev Ağamirzə Ağabəy
Gözəlov Ziya Zahid
Gözəlzadə Ceyhun Nazim
Gülalıyev Əlnur Seymur
Güləliyev Vüsal Azər
Gülmalıyev Pərviz Zaur
Gülməmmədov Amin Mayis
Gülməmmədov Eşqin Rabil
Gülüşov Rəmal Şahin
Gülüşov Tərlan Salman
Hacıəhmədli Hacıəhməd Həsən
Hacıismayılov Rahib Məmmədəmin
Hacılı Feyruz Bəhruz
Hacıyev Abakar Məhəmməd
Hacıyev Aydəmir Sənan
Hacıyev Davud Novruz
Hacıyev Elnur Yaqub
Hacıyev Fərid Təşkilat
Hacıyev Hacı Rafiq
Hacıyev Hikmət Şubay
Hacıyev İntiqam Eynullah
Hacıyev İsmət Şölət
Hacıyev İsrayıl Səməd
Hacıyev Elmaz Elmar
Hacıyev Şükür Bayram
Hacıyev Ülvü Şirin
Həmidov Rəhim Ehdiram
Həmzəyev Mərhəmət Rizvan
Həmzəyev Musa Xalid
Həsənli Elçin Qəşəm
Həsənli Rəşad Yaşar
Həsənov Hikmət Fikrət
Həsənov İlqar Nadir
Həsənov Qüdrət Səfər
Həsənov Rəvan Rövşən
Həsənov Sübhan Rauf
Həsənov Vüsal Ariz
Hümbətzadə Şahmuraz Əyyub
Hüseynov Cavad Cavid
Hüseynov Həci Kərim

Hüseynov Elxan Maarif
Hüseynov Emin Zakir
Hüseynov İsabala Ceyhun
Hüseynov Rafail Teymur
Hüseynov Mustafa Ələddin
Hacıyev Kamran Füzuli
Hacıyev Kənan İmran
Hacıyev Murad Eynulla
Hacıyev Nazim Feyruz
Hacıyev Nicat Cahangir
Hacıyev Qubad Cəmil
Hacıyev Ramid Nəriman
Hacıyev Rüstəm Firqani
Hacıyev Şəhriyar Şahlar
Hacıyev Sərxan Eldar
Hacıyev Sayad Azad
Hacıyev Şükür Aslan
Hacıyev Teymur Zaur
Hacıyev Toğrul Rüfət
Hacıyev Toğrul Siyavşah
Hacıyev Zamiq Eldar
Hacıyusifov Əhməd Teymur
Hacızadə Ceyhun İfrayil
Hadıyev Raqim Teymur
Hadıyev Vüsal Balarəzi
Haqverdiyev Ayhan Akif
Haxverdiyev Novruz Əli
Haşımov Fuad Ceyhun
Haşımov Tərzan Qəhrəman
Hassan Xalid Mahmud
Həbibi Şəhriyar Vidadi
Həbibi Fizuli Nizami
Həbibov Murad Asəf
Həbibov Seymur Feyruz
Həməşəyev Qismət Oruc
Həmidli Cavanşir Namik
Həmidov Elşən Məzahir
Həmidov Əmrah Firavan
Həmidov İzzət Rövşən
Həmidov Mixail Hamletoviç
Həmidov Pərvin Azər
Həmidov Rəşid Pərviz
Həmidov Rəsman Mərdan
Həmidov Şükür Nəriman
Həmidov Vasif Natiq
Həmidzadə Hüseyn Akif
Həmizəyev Şəhriyar Elman
Həmzəyev Arif Muradcan
Həmzəyev Novruz Bəkir
Həmzəyev Turac Suliddin
Həsənli Alı Nofəl
Həsənli Amid İsaq
Həsənli Elçin Vaqif
Həsənli Seymur Qələndər
Həsənli Telman Rafiq
Həsənli Zərimxan Rafiq
Həsənov Afik Namik
HəsənovAqil Nofəl
Həsənov Aydın Elşən
Həsənov Azər Aydın
Həsənov Babək Saleh
Həsənov Bəşir Xəqani
Həsənov Cavid Mikail
Həsənov Ceyhun Aydın
Həsənov Elgün Əli
Həsənov Elman Mehman
Həsənov Elməddin Elşən
Həsənov Elnur Elman
Həsənov Elvin Əlizadə
Həsənov Elvin Hökuməli

Həsənov Emil Eldəniz
Həsənov Ərəstun Əfşan
Həsənov Əsəd Fərhad
Həsənov Etibar Ələddin
Həsənov Əzim Fikrət
Həsənov Faiq Hüseyn
Həsənov Fariz Şahin
Həsənov Hafiz Saleh
Həsənov Həsən Rəhim
Həsənov Həsən Səfər
Həsənov Hüseyn Vahib
Həsənov Kənan Elşad
Həsənov Kənan Zirəddin
Həsənov Maarif Rahim
Həsənov Məharət Ramil
Həsənov Məqsəd Mahir
Həsənov Musa Tapdıq
Həsənov Nahid Hökmüran
Həsənov Namiq Rasim
Həsənov Nemət Süleyman
Həsənov Neymət Emin
Həsənov Novruz Cumalı
Həsənov Nurlan Nadir
Həsənov Orxan Bəkir
Həsənov Pərviz Fərmayıl
Həsənov Pərviz Yolçu
Həsənov Röyal Arzu
Həsənov Sadiq Əli
Həsənov Sahib Azər
Həsənov Səddam Aydın
Həsənov Səfər Elmar
Həsənov Sərxan Habil
Həsənov Səxavət Alim
Həsənov Tacir Elşən
Həsənov Tarix Sucayət
Həsənov Təbriz Rəşid
Həsənov Teymur Mahal
Həsənov Tofiq Etibar
Həsənov Tural Tapdıq
Həsənov Ülvi Natiq
Həsənov Vurğun Ağası
Həsənov Vüsal Bayram
Həsənov Xətai Xaliq
Həsənov Xəyal Əliyulla
Həsənov Xəyal Zeynəddin
Həsənquliyev Nicat Aydın
Həsənquliyev Səbuhi Əlixan
Həsənzadə Əbdülhəsən Mirzə
Həsənzadə Famil Şiraslan
Həsənzadə Məhəmmədəli Hörmət
Həşimli Cəmil Əflatun
Həşimov Fərrux Mirzəmməd
Həşimov Nağı Anar
Heybətov Ağa Əmi Elçin
Heydərli Ayxan İlham
Heydərov Adəm İkram
Heydərov Anar Bəhruz
Heydərov Amid Rəbbil
Heydərov Ehtiram Şahin
Heydərov Əli Vaqif
Heydərov Qadir Ədalət
Heydərov Qismət İsmayıl
Heydərov Rafiq Rahim
Heydərov Sabir Ceyhun
Heydərov Vasif Nazim
Həziyev Hafiz Varoğlu
Həziyev Xəyal Feyruz
Hilalov Araz Elubrus
Hümbətov Azad Arif
Hümbətov Emil Tərlan

Hümbətov İlqar Vüqar
Hümbətov İmaməddin Muxtar
Hümbətov Nurəddin İlqar
Hümbətov Ruslan Səlim
Hümbətov Şahin Əlicuvan
Hümbətov Səfayət Ələddin
Hümmətov İzzət Müşviq
Hümmətov Tural Rövşən
Hüseynli İlqar Şəmiyyət
Hüseyinov Bəhruz Yavər
Hüseyinov Elbrus Nadir
Hüseyinov Elbrus Laçın
Hüseynli Ağa Aydın
Hüseynli Anar Saday
Hüseynli Ədalət Səadət
Hüseynli Əliheydar Səlahəddin
Hüseynli Əkbər Azər
Hüseynli Elxan İsrayıl
Hüseynli Əmrah Namik
Hüseynov Etiram Həsən
Hüseynli Fariz Dadaş
Hüseynli İbrahim İsa
Hüseynli Şahin Vaqif
Hüseynli Şamil Novruz
Hüseynli Türkay Nizami
Hüseynli Zahir Mahir
Hüseynov Adil Namiq
Hüseynov Amil Rasim
Hüseynov Anar Hüseyn
Hüseynov Anar Rəhim
Hüseynov Aqil Habil
Hüseynov Aslan Malik
Hüseynov Cavid Habil
Hüseynov Cavid Hümbət
Hüseynov Cavid Natiq
Hüseynov Ceyhun Möhübbət
Hüseynov Əfşan Əbülfəz
Hüseynov Əfsun Mətləb
Hüseynov Əkbər Bahadur
Hüseyinov Ələm Sərvər
Hüseynov Elçin Zamin
Hüseynov Eldəniz Tahir
Hüseynov Eldost Asəf
Hüseynov Elnur Əhliman
Hüseynov Emin Fərmayıl
Hüseynov Əsgər Vaqif
Hüseynov Eşqin Cəsarət
Hüseynov Əzəmi Əli
Hüseynov Əzizağa Nizami
Hüseynov Fərid Ehtibar
Hüseynov Fərid Fətəli
Hüseynov Fərid Yaşar
Hüseynov Fərrux Baxış
Hüseynov İlham Umud
Hüseynov İlqar Yaşar
Hüseynov İmamalı Cəlil
Hüseynov İsa Sahib
Hüseynov İsmayıl Şahvələd
Hüseynov Kamran Bəhman
Hüseynov Kərim Tərlan
Hüseynov Məhəmməd Alik
Hüseynov Məhəmməd Qiyas
Hüseynov Mətin Ramiz
Hüseynov Mirəli Arif
Hüseynov Mirzə Xəlifə
Hüseynov Nazim Yaqub
Hüseynov Nəbi Hacıbala
Hüseynov Nəcəf İlqar
Hüseynov Nicat Adil
Hüseynov Nicat Ziyafət

Hüseynov Nurlan Madər
Hüseynov Orxan Bəhmən
Hüseynov Orxan Ələkbər
Hüseynov Pencalı Bəhmən
Hüseynov Rafiz Afiq
Hüseynov Rahib İlham
Hüseynov Ramin Qüdrət
Hüseynov Raqib Adil
Hüseynov Rəcəb Nazim
Hüseynov Rəhim Qədir
Hüseynov Rövşən Kazım
Hüseynov Röyan Sübhan
Hüseynov Ruslan Vəli
Hüseynov Sabir Elşən
Hüseynov Sahil Habil
Hüseynov Şahnur Şahin
Hüseynov Samir Əlizadə
Hüseynov Sənan Vidadi
Hüseynov Sərhəd Fərhad
Hüseynov Şirbala Hüseynbala
Hüseynov Ülvü Möhsün
Hüseynov Vaqif Asəf
Hüseynov Vüsal Hüseyn
Hüseynov Vüsal Nadir
Hüseynov Vüsal Yəhya
Hüseynov Xaliq Kamil
Hüseynov Xəyyam Hüseyn
Hüseynov Zaur Eldar
Hüseynov Zaur Vaqif
Hüseynzadə Elgiz İbrahim
Hüseynzadə Elməddin Fərman
Hüseynzadə Fərid Eldəniz
Hüseynzadə Həmidağa Bağı
Hüseynzadə Murad Mahmud
Hüseynzadə Səməd Sətdar
Xanəliyev Albaba Elşən
Xanışov Əlikram Qabil
Xəlilzadə Əmrah İnqilab
İbadlı Araz Babəli
İbadlı Ruslan Sakit
İbadov Aqşin Nazim
İbadov Cavad Cabir
İbadov Faiq İsmixan
İbadov Murad Yusif
İbadov Rauf Məhərrəm
İbadov Vüqar Sadıq
İbadov Rafiq Baloğlan
İdrisov Ruslan Qabil
İsgəndərov Arzu Seymur
İsmayılov Hüseyn Fərman
İsmayılov Mirrəhim Mirmehdi
İsmayılov Ruslan Eyvaz
İsmayılov Rüstəm Üzeyir
İbadzadə Zabil Fikrət
İbayev Elmar Hikmət
İbişov Nicat Vasif
İbişov Vüsal Əli
İbrahimli Adil Asəm
İbrahimli Cavidan Nizami
İbrahimli Elməddin Zeynəddin
İbrahimli Kənan Azad
İbrahimli Məhəmmədəli Mütəllim
İbrahimli Məhərrəm Şərif
İbrahimli Nail Nəriman
İbrahimli Qəşəm Süleyman
İbrahimov Alim Səhrab
İbrahimov Atiq Ariz
İbrahimov Ayaz Sultan
İbrahimov Bəhruz Fazil
İbrahimov Bəhram Sakit

İbrahimov Elçin Rövşən
İbrahimov Əli Bəxtiyar
İbrahimov Elmar Nəriman
İbrahimov Elnur Dönməz
İbrəhimov Əlövsəd Seyidxan
İbrahimov Elşən Cahangir
İbrahimov Elsəvər Etibar
İbrahimov Hikmət Zaur
İbrahimov İbrahim Abdulla
İbrahimov İbrahim Etibar
İbrahimov İlqar Elçin
İbrahimov İmaməli Elman
İbrahimov İsrafil Zülfiqar
İbrahimov Murad Valeh
İbrahimov Mübariz Telman
İbrahimov Müşfiq Nəbi
İbrahimov Qurban Namiq
İbrahimov Rafael Emin
İbrahimov Röyal Qulam
İbrahimov Ruzi Əliağa
İbrahimov Seymur Zamin
İbrahimov Sultan Mikayıl
İbrahimov Tofiq Polad
İbrahimov Xeyrulla Mais
İbrahimov Zamanət Gülhəsən
İbrahimxəlilov Söyxan Eldəniz
İbrahimzadə Nahid Şahid
İbrahimzadə Sehun Rafiq
İbrəhimov Elmir Akif
İdrisov Xəyal İbrahim
İlyasov Bəhrəm Nizam
İlyasov Fərid İbad
İlyasov Şükür Qənbər
İmaməliyev Elvin Elsevər
İmaməliyev Sərraf Murtuzəli
İmamov Rəhim Rauf
İmamverdiyev Elnur Vəfadar
İmamverdiyev Nicat Məhərrəm
İmanov Bayrı Mirzə
İmanov Ənvər Emil
İmanov Məmmədağa İqab
İmanov Səməndər İsaxan
İmanquliyev Ruslan Natiq
İmanzadə Ayaz Daşqın
İmanzadə Hilal Sabir
İrapov İsmayıl Nəsrulla
İsaxlı Anar Rəsul
İsayev Alik Şakir
İsayev Ceyhun Rüstəm
İsayev Rahət Rafət
İsayev Təbriz İsabala
İsayev Toğrul Natiq
İsayev Tural Saləddin
İsayev Vüsal Firdovsi
İsazadə Səfa Əmirxan
İsgəndərli Səbuhi Yaşar
İsgəndərov Bəhruz Abbas
İskəndərov Əhmədağa Novruz
İsgəndərov Elvin Akif
İskəndərov Elvin Mətləb
İsgəndərov Əlzamin Həmid
İsgəndərov Emil Vaqif
İsgəndərov Əsəd Bəybala
İsgəndərov İlkin Camal
İsgəndərov Mikayıl Vəkil
İsgəndərov Niyaməddin Qulu
İsgəndərov Pərvin Pərviz
İsgəndərov Şahmurad Natiq
İsgəndərov Səməndər Vahid
İsgəndərov Vüsal Asdan

İşiyev Rəfail Əhmədağa
İsizadə Elvin Azim
İskəndərli Kamran Yaşar
İskəndərov Anar Vahid
İskəndərov Niyazi Şahvələd
İskəndərov Şahin Ziyad
İslamlı Ruhid Uğur
İslamov Bəxtiyar Saleh
İslamov Cəlal Ağahüseyn
İslamov Daşqın Alik
İslamov Elvin Elçin
İslamov Samir Xalıq
İsmayıllı Məhəmmədəli
İsmayıllı Şamil Kamil
İsmayılov Abbasəli İmamqulu
İsmayılov Amid Eldar
İsmayılov Aqil Əli
İsmayılov Aslan Əvəz
İsmayılov Bahaləddin Temraz
İsmayılov Camal Vidadi
İsmayılov Ceyhun Abbas
İsmayılov Ceyhun İqbal
İsmayılov Elçin İlqar
İsmayılov Elçin Mikayıl
İsmayılov Elçin Mübariz
İsmayılov Elnur Arif
İsmayılov Elşən İsə
İsmayılov Elvin Arif
İsmayılov Elvin Tələt
İsmayılov Emin Tahir
İsmayılov Əmrah Xudaverdi
İsmayılov Fuad Murad
İsmayılov İlqar Mehdi
İsmayılov İmamverdi Yoloğlu
İsmayılov İntiqam İlqar
İsmayılov Kamran Vaqif
İsmayılov Kənan Mənsur
İsmayılov Natiq Əjdər
İsmayılov Nizaməddin İsmayıl
İsmayılov Novruz Nürəddin
İsmayılov Orxan Qədim
İsmayılov Orxan Zöhrab
İsmayılov Rabil Elbrus
İsmayılov Raqil Rafiq
İsmayılov Rəcəb Nəcəf
İsmayılov Rəhman Mehti
İsmayılov Rövşən Məmmədağa
İsmayılov Sabir Ədalət
İsmayılov Sakit İsmayıl
İsmayılov Sərdar Sərvər
İsmayılov Səxavət Sabir
İsmayılov Tahir Niyazi
İsmayılov Taleh Səndəl
İsmayılov Tural Nurəddin
İsmayılov Veyis Əflətun
İsmayılov Vüqar Eldar
İsmayılov Vüqar Məhəmməd
İsmayılov Vüsal Nəbi
İsmayılzadə Əsgər Bəxtiyar
İsmayılzadə Məhəmməd Fizuli
İsmayılzadə Müşfiq Xanlar
İsmayılzadə Şəhriyar Əkbər
İsmayılzadə Səməndər Vahid
İsmayılzadə Sevindik Ramil
İsmayılzadə Şövqi Raqub
İsmayılzadə Uğur Hidayət
İsmayılzadə Vaqif Vüqar
İsmayılzadə Vüsal Əlibəndə
İsmayılzadə Zaur Nizami
İsmət Qismət

İsmiyev Emil Elman
İsrafilov Abdulla Yadigaroviç
İsrafilov Abdurahman İsrafil
İsrafilzadə Elçin Bəxtiyar
İsrəfilov Anar İsrəfil
İsrəfilov Kənan Faiq
İsrəfilov Vidadi Vaqif
İzzətli Fərid Aydın
İzzətzadə Elgün Bəhram
Kamranlı Xalid Kazım
Kazımlı Mürsəl Kamil
Kazımov Elvin Ədalət
Kazımov Emin Fərman
Kazımov Əmir İlham
Kazımov Xuduş Həsən
Kazımov İlkin Xanməmməd
Kazımov İlqar Nazim
Kazımov Kamran Qurbanəli
Kazımov Rantiq Fizuli
Kazımov Rəşad Nüsrət
Kazımov Rusif Yusif
Kazımov Vüsal Kamran
Keçiliyev Turqut Aydın
Kəlbəliyev Mirkazım Firuz
Kəlbalıyev Səyavuş Hümbət
Kəlbiyev Murad Məməziyad
Kəlbiyev Şaiq Namik
Kəlbiyev Telman Yadigar
Kərəmov Zaməddin Bahadur
Kərimli Azad Elşad
Kərimli İsmayıl Ceyhun
Kərimli Məhəmməd Məzahim
Kərimli Nihat Teymur
Kərimli Orxan Akif
Kərimli Ramin Əli
Kərimli Səməd İkram
Kərimov Ağamoğlan Yusif
Kərimov Asif Məmməd
Kərimov Ayaz Azər
Kərimov Cavid Mərdan
Kərimov Əhməd Vaqif
Kərimov Elgün Rauf
Kərimov Elmir Rəhim
Kərimov Elşən Rövşən
Kərimov Eltun Zaur
Kərimov Elvin Mürşüd
Kərimov Emil İlqar
Kərimov Haxverdi Sadıq
Kərimov İsmayıl Abbas
Kərimov Mustafa Mayis
Kərimov Şamo Elman
Kərimov Sənan Rəhman
Kərimov Sübhan Murtuz
Kərimov Taleh Adil
Kərimov Tərlan Daşqın
Kərimov Tofiq Dadaş
Kərimov Ülvi Rövşən
Kərimov Zaur Saleh
Kərimov Kamil Ələddin
Kərimzadə Mirxəyal Valeh
Kirxlarov Nazim Nadır
Kürəbəyov Mayil Kamran
Laçınov Əhməd Qurban
Lələyev İbrahim Həzrətqulu
Lətifli Orxan Xancan
Lətifov Eynulla Niyətulla
Lətifov Rəşid Güləhməd
Lətifov Rəvan Ömür
Lillahov Fərid Loğman
Mahmudlu Babək Süleyman

Mahmudov Cavid Hilal
Mahmudov Elçin Cəmil
Mahmudov Elşad Suliddin
Mahmudov Emin Pünhan
Mahmudov Etibar Aleksandr
Mahmudov İbrahim Ağagül
Mahmudov Murad Mahir
Mahmudov Natiq Ramazan
Mahmudov Tamerlan Fuad
Mahmudov Vüsal Xəyyam
Mamedov Elmar Elçin
Mamedov Əmrah Qaraş
Mamedov İlahəddin Dilamuddinc
Manafov Cavid Faiq
Manafov Osman Natiq
Manafov Zahir Zakir
Mansurov Elçin Elşən
Malikov Nurlan Dünyamalı
Maşıyev Asəf Volodya
Maxsudov Bəxtiyar Mansur
Mayılov Bəxtiyar İxtiyar
Mayılov Murad Gülümxan
Mailov Namiq Abış
Mailov Rafael İlqar
Mayılov Rüfət Bəhrəm
Mayılxanlı İlqar Nadir
Mecdunov Xalid Zahir
Məcidov Aqil Aydın
Məcidov Müşviq Bayram
Məcidov Rafiq Rasim
Məcidov Səbuhi Ağalətif
Məcidzadə Saleh Nəriman
Məcidzadə Teymur Tehran
Mədədov Asif Nəsir
Mədətli Zülal Rəhim
Mədətov Rövşən Vüqar
Mədətov Röyal Şahin
Mədətov Zaur Kamal
Mədinov Rəşid Nəzər
Mehbalıyev Elşən Təvəkgül
Mehbalıyev Vasif Gülhəsən
Mehdili Niftalı Qnyaz
Mehdiyev Anar İlham
Mehdiyev Əhliman Rəhman
Mehdiyev İsmayıl David
Mehdiyev Nüsrət Telman
Mehdiyev Paşa Ehtibar
Mehdiyev Rəşad Rəhman
Mehdiyev Rövşən Mehdi
Mehdiyev Samir Valeh
Mehdiyev Samir Vaqif
Mehdiyev Seymur Hüseyn
Mehdiyev Surxay Zülfi
Mehdiyev Taleh Musa
Mehdiyev Yasən Alim
Mehdiyev Zöhrab İlham
Mehdizadə Əli Məcid
Mehdizadə Mərdan Əhməd
Mehdizadə Rüfət İsrayıl
Məhəmmədəlizadə
Məhəmmədəli Asif
Məhəmmədəli İsmayıl Mahir
Məhəmmədov Alim Qəmərşo
Məhərli Muraz Baxşalı
Məhərrəmli Fuad Fizuli
Məhərrəmli Fuad Habil
Məhərrəmov Ariz Fərzulla
Məhərrəmov Əli Kamil
Məhərrəmov Elməddin Şahlar
Məhərrəmov Fərid Asif

Məhərrəmov Fuad İmaməddin
Məhərrəmov İsa Məhərrəm
Məhərrəmov Niyaməddin Ə.
Məhərrəmov Niyaməddin İsrayıl
Məhərrəmov Orxan Binət
Məhərrəmov Şamo Mətləb
Məhərrəmov Ülvü Tahir
Məhərrəmov Vüsal Aslan
Məhərzadə Taleh Oqtay
Mehtili Eşqin Tərlan
Mehtiyev Elgiz Şahin
Mehtiyev Sətdar Raqif
Məlikməmmədov Elvin Elçin
Məlikov Aqil Niyaz
Məlikov Əhməd Məmməd
Məlikov Elvin İlham
Məlikov Mahmud Təhmasib
Məlikov Rauf Mahir
Məlikov Rəvan Əliabbas
Məlikzadə Fərhad Nadir
Məmişli Sahil Ağaverdi
Məmişov Nurlan İlqar
Məmişov Qədir Zülfəli
Məmişov Tural Tələt
Məmiyev Elmir Zamin
Məmiyev Valeh İsbat
Məmmədbəyli Natiq Vahid
Məmmədəliyev Saday Rza
Məmmədli Cavid Natiq
Məmmədli Cavidan Valeh
Məmmədli Cəmil Habil
Məmmədli Elməddin Anar
Məmmədli Elməddin Ələddin
Məmmədli Əşrəf Elman
Məmmədli Fazil Razim
Məmmədli Həsən Qəhrəman
Məmmədli İmran Cahangir
Məmmədli İsa Sarı
Məmmədli Kənan Vəfadar
Məmmədli Nicat Rizvan
Məmmədli Pərviz Həsən
Məmmədli Rüfət Vidadi
Məmmədli Sənan Səlim
Məmmədli Seymur Hacırəsul
Məmmədli Sübhan Səbuhi
Məmmədli Tural Aqil
Məmmədov Çingiz İlham
Məmmədov Tural Elxan
Məmmədov Abit Asif
Məmmədov Altun Nüsrət
Məmmədov Amid Müqabil
Məmmədov Anar Elşad
Məmmədov Anar Kərəm
Məmmədov Anar Qəhrəman
Məmmədov Anar Zəhəddin
Məmmədov Araz Adil
Məmmədov Araz Qəhrəman
Məmmədov Araz Telman
Məmmədov Asəf Mehman
Məmmədov Ayxan Rəfail
Məmmədov Azad Tahir
Məmmədov Bayram Elnur
Məmmədov Bəhruz Tahir
Məmmədov Bəxtiyar Bayramşah
Məmmədov Cavad Səfiyar
Məmmədov Cavid İlham
Məmmədov Cəlil Qəhrəman
Məmmədov Cəmaləddin Türbəndə
Məmmədov Ceyhun Qafar
Məmmədov Coşqun Elnur

Məmmədov Dostəli Seymur
Məmmədov Əhməd Nazim
Məmmədov Etibar Səday
Məmmədov Ehtiram Mehman
Məmmədov Elcan Zöhrab
Məmmədov Əli Abbas
Məmmədov Əli Əvəz
Məmmədov Əli Zeynal
Məmmədov Əliağa Eldəniz
Məmmədov Əlihüseyn Elşad
Məmmədov Elman Bəhmən
Məmmədov Elmar Saleh
Məmmədov Elməddin Mikayıl
Məmmədov Elmir Arzu
Məmmədov Elmir Nadir
Məmmədov Elnur İsrəfil
Məmmədov Elnur Xurşud
Məmmədov Əlövsət Əli
Məmmədov Elşad Əvəz
Məmmədov Elşən Dağıstan
Məmmədov Elşən Əziz
Məmmədov Elton Ramil
Məmmədov Elvin Dayandur
Məmmədov Elvin Eldəniz
Məmmədov Elvin Etibar
Məmmədov Elvin Mahmud
Məmmədov Elvin Mübariz
Məmmədov Elvin Tərlan
Məmmədov Elxan Bədəl
Məmmədov Elyar Elbəyi
Məmmədov Emin Fazil
Məmmədov Emin Vətən
Məmmədov Əsgər Zaur
Məmmədov Əvəz Elnur
Məmmədov Fəqan Vahid
Məmmədov Fərid Eyvaz
Məmmədov Fərid Vəlhad
Məmmədov Fəxri Habil
Məmmədov Fikrət Elşad
Məmmədov Fikrət Sulduz
Məmmədov Fuad Valeryeviç
Məmmədov Hikmət Lətif
Məmmədov İbrahim Azər
Məmmədov İbrahim Nadir
Məmmədov İbrahim Nakam
Məmmədov İkram Ehtiram
Məmmədov İlham Elxan
Məmmədov İlham Rauf
Məmmədov İlkin Abdulla
Məmmədov İlkin Cəmil
Məmmədov İlkin Fərhad
Məmmədov İsa Nazim
Məmmədov İsmayıl Fərhad
Məmmədov İsmayıl Fazil
Məmmədov İsmayıl Vahid
Məmmədov İsmət Hikmət
Məmmədov Kamal Şamil
Məmmədov Kamil Mübariz
Məmmədov Kəmaləddin İsrail
Məmmədov Kənan Bəhruz
Məmmədov Kənan Hüseyn
Məmmədov Kənan Nifdalı
Məmmədov Kənan Tofik
Məmmədov Kərim Namil
Məmmədov Lətif Faiq
Məmmədov Maarif Məmməd
Məmmədov Mahir Ağasəlim
Məmmədov Maqsud Vüqar
Məmmədov Məcid Rafiq
Məmmədov Mehti Elçin

Məmmədov Məhəmməd Abbas
Məmmədov Məhəmməd Zakir
Məmmədov Məhyəddin Yaşar
Məmmədov Münasib Elman
Məmmədov Murad Elşən
Məmmədov Murad Əzizulla
Məmmədov Murad İlham
Məmmədov Murad Yusif
Məmmədov Mürşüd Zülfüqar
Məhəmmədov Musa Bəhrəm
Məmmədov Nahid Vahid
Məmmədov Natiq İltifat
Məmmədov Natiq Sahib
Məmmədov Nemət Faxrəddin
Məmmədov Nicat Şamxal
Məmmədov Novruz İnqilab
Məmmədov Oqtay Namiq
Məmmədov Pənah İslam
Məmmədov Pərvin Natiq
Məmmədov Pərvin Natiq
Məmmədov Pərvin Rza
Məmmədov Pərviz Ələddin
Mayıllı Mahmud Əflatun
Mehdiyev Zahid Zakir
Mehtizadə Qurban Aydın
Məmmədli Məhəmməd Murad
Məmmədli Murad Teymurşah
Məmmədli Şahı Elman
Məmmədli Turan Raqif
Məmmədov Elkiyar Abdulla
Məmmədov Rəşad Asif
Məmmədov Sahil Rasim
Məmmədov Turan Nadir
Məmmədov Turxan Rizvan
Məmmədov Vüsal Avtandil
Məmmədov Vüsal Aydın
Mirzəyev Ceyhun Zirəddin
Mirzəmmədov Sərxan Osman
Musayev Ayxan Mehman
Musazadə Azər Çingiz
Məmmədov Pərviz Şakir
Məmmədov Qəhraman Qürbət
Məmmədov Qəzənfər Habil
Məmmədov Ramal Məhəmməd
Məmmədov Ramin Aydın
Məmmədov Rəcəb Xalid
Məmmədov Rəcəb Yolçu
Məmmədov Rəhman Natiq
Məmmədov Rəşad Fərəməz
Məmmədov Rəşid Rəşad
Məmmədov Rəvan İntiqam
Məmmədov Rövlan Qurban
Məmmədov Rövşən Müşfiq
Məmmədov Röyad Famil
Məmmədov Röyal Misil
Məmmədov Ruslan Ramiz
Məmmədov Rüstəm İbrahim
Məmmədov Rüstəm Müsəllim
Məmmədov Rza Əskər
Məmmədov Sadiq Mübariz
Məmmədov Sadiq Sadəddin
Məmmədov Sahib Yaşar
Məmmədov Sahil Ədalət
Məmmədov Şahlar Şahin
Məmmədov Şahmar Ağasəf
Məmmədov Şaiq Şükür
Məmmədov Saleh Mustafa
Məmmədov Samir Ramiz
Məmmədov Səbuhi Hümbət
Məmmədov Səbuhi Şakir

Məmmədov Səbuhi Zahid
Məmmədov Şəhriyar Müzəffər
Məmmədov Sənan Tehran
Məmmədov Sərxan Elxan
Məmmədov Sərxan Sahil
Məmmədov Səxavət Adıgözəl
Məmmədov Səxavət Vahab
Məmmədov Sinan Məhəmməd
Məmmədov Soltan Akif
Məmmədov Taleh Arif
Məmmədov Tərlan Müşfiq
Məmmədov Tural Arif
Məmmədov Tural Taryel
Məmmədov Türkman Yolçu
Məmmədov Ülvü Vüqar
Məmmədov Ümid Bəkir
Məmmədov Ümid Fərman
Məmmədov Ürfan Çingiz
Məmmədov Vacib Zabit
Məmmədov Vasif Əlibala
Məmmədov Vasif Rəfail
Məmmədov Vidadi Etibar
Məmmədov Vüqar Elxan
Məmmədov Vüqar İlqar
Məmmədov Vüqar Xaləddin
Məmmədov Vüsal Nəsib
Məmmədov Vüsal Qüdrət 0
Məmmədov Xaqani Mürşüd
Məmmədov Xəqani Füzuli
Məmmədov Xəyal Ağabəy
Məmmədov Xəyal Arif
Məmmədov Xəyal Xaliq
Məmmədov Yasin İman
Məmmədov Yusif Vaqif
Məmmədov Zaman Habil
Məmmədov Zəbiyulla Şahin
Məmmədquliyev Ağabəy Zaur
Məmmədsalahov Kazım Sahib
Məmmədyarov Mürvət Güloğlan
Məmmədzadə Anar Nazim
Məmmədzadə Bəhrəm Elman
Məmmədzadə Cahan Saleh
Məmmədzadə Əli Turan
Məmmədzadə Elvin İlham
Məmmədzadə Fərid Mehman
Məmmədzadə İlkin Əzizağa
Məmmədzadə İman Elman
Məmmədzadə Kamran Fizuli
Məmmədzadə Kəmaləddin Vüqar
Məmmədzadə Pərviz Zahid
Məmmədzadə Qüdrət Tofiq
Məmmədzadə Toğrul Pərviz
Mənəfli Əli Əflan
Mənəfov Nicat Azad
Mənəfov Şahmar Vidadi
Mənsimli İntiqam Rövşən
Məsimov Rauf Qafar
Mərdanov Vaqif Ədalət
Məstəliyev Nurəddin Hasil
Meydanov Elməddin Bahəddin
Mikayıllı Elgün Aqil
Mikayıllı Mikayıl Miğfər
Mikayıllı Samir Sabir
Mikayılov Azər Əmrah
Mikayılov Cəbrayıl Valeh
Mikayılov Elvin Nizami
Mikayılov Nahid Soqat
Mikayılov Rahim Qalib
Mikayılov Ramiq Namiq
Mikayılov Şöhrət İkram

Mikayılzadə Mikayıl Vidadi
Mikayılzadə Rəşad İlham
Mirəşrəfbəyli Mirsəfa Mirbaba
Mirişli Şəhriyar Bəxtiyar
Miriyev Sənan Arif
Mirzəli Rəşad Hafiz
Mirzəliyev Aqil Mehman
Mirzəyev Araz Namiq
Mirzəyev Aslan Məqsud
Mirzəyev Elçin Maqsud
Mirzəyev Elmar Şahin
Mirzəyev Elmin Əvəz
Mirzəyev Eltac Fizuli
Mirzəyev Eltun Vüqar
Mirzəyev Elyar Cəlal
Mirzəyev Hüseyn Elsevər
Mirzəyev İbad Mansur
Mirzəyev Kamran Araz
Mirzəyev Məsud Fazil
Mirzəyev Nuran Akif
Mirzəyev Orxan Əli
Mirzəyev Orxan Mehman
Mirzəyev Rasim Fətta
Mirzəyev Şamil Afiq
Mirzəyev Sarvan Əli
Mirzəyev Ülvi Üzeyir
Misirli Fərid Eldəniz
Möhsümov Elmar Rövşən
Mollaçıyev Əhməd Rəcəb
Mollayev İslam Şəmsəddin
Mönsümzadə Orxan Səfiyar
Mövlanov Altay Tahir
Mövlanov Elgün Tahir
Mövlanov Vüqar Tumarxan
Mövsumov Fərid Zakir
Mövsümov Səyyad Mübariz
Muradlı İlkin İlyas
Muradlı Tacir Hasil
Muradov Elcan Eldəniz
Muradov Elgün Etibar
Muradov Elxan Murad
Muradov Emin İbrahimağa
Muradov Habil Tahir
Muradov Hüseyn Fərhad
Muradov Kənan Cavid
Muradov Nadir Əhməd
Muradov Samir Tahir
Muradov Siyavuş Akif
Muradov Turan Vaqif
Muradov Vüsal Cəsarət
Muradov Vüsal Əlifağa
Muradov Ziyad Muradxan
Mürsəliyev Anar Səfər
Mürsəliyev Sübhi Balamirzə
Mürsəlzadə Elməddin Cəsur
Murtuzayev Toğrul Tahir
Murtuzəliyev Xəqani İsa
Murtuzov Mehdi Muxtar
Murtuzov Məhəmməd Ramazan
Musaoğlu Ataməli Seyidməmməd
Mustafayev Elnur Nəcəf
Musayev Alik Rafiq
Musayev Bayram Mehman
Musayev Elşən Hüseyn
Musayev Murad Polad
Musayev Niyaməddin Zirəddin
Musayev Ramil Aydın
Musayev Ramiz Kamil
Musayev Rəşadət Vüqar
Musayev Rüfət Ülfət

Musayev Sahib Musa
Musayev Sədi Süleyman
Musayev Vüsal Zakir
Müseyibli Ülvi Şakir
Musibov Veysəl Yadullayeviç
Müslümov Elşən Habil
Mustafalı Əlizamin Valeh
Mustafayev Əkbər Natiq
Mustafayev Əlizamin Baxış
Mustafayev Elməddin Məhəmmə
Mustafayev Elvin Qiyas
Mustafayev İsmayıl Elmar
Mustafayev Merik Musa
Mustafayev Musa Əlövsət
Mustafayev Nicat Bəkir
Mustafayev Nurlan Ağa
Mustafayev Nurlan Hamlet
Mustafayev Ömər Əbdül
Mustafayev Rasim Ərziman
Mustafayev Rüfət Zöhrab
Mustafayev Samir Azər
Mustafayev Samir Elşən
Mustafayev Sərxan İslam
Mustafayev Siyasət Akif
Mustafayev Təhmasib Sərməst
Mustafazadə Ceyhun Şükür
Mustafazadə Taleh Qənimət
Mütəllimov Qəzənfər Ədalət
Mütəllimzadə Ağacavad Ələsgər
Muxtarov Taleh Həşim
Müzəffərli Kənan Azər
Nadirli Ərtoğrul Hümbət
Nadirli Kənan İlqar
Nadirli Nadir Arzu
Nadirov Elçin Nadir
Nadirov Fədail Fərhad
Nadirov Rəşad Nadim
Nadirov Samir Əli-Səttar
Nadirov Siyasət Kamil
Nağıyev Anar Sahib
Nağıyev Baloğlan Müdəhətoviç
Nağıyev Elfaq Azad
Nağıyev Əli Mehman
Nağıyev Fərid Poladxan
Nağıyev Murad Mayıl
Nağıyev Nicat Azad
Nağıyev Şahlar Nüsrət
Nağıyev Toğrul Həsənbala
Nağıyev Vüsal Əmirastan
Nağıyev Yusif Bərxudar
Namazov Babək Səhman
Namazov Elcan Hidayət
Namazov Elməddin Nəsib
Namazov İsmət Nüsrət
Namazov Mahmud Ələsgər
Namazov Orxan Ceyhun
Namazov Taleh Zülfəli
Namazov Xəyal Xudaverdi
Nadirov Fərid İlyas
Nağıyev Nicat İbrahim
Namazov Təbriz Ələmdar
Nəbiyev Ruslan Muhuma
Nəbiyev Yusif Elton
Nurməmmədov Ziya Zabil
Nuruyev Cavid Əşirəf
Namətov Naib Firqət
Nayıbov Devran Fazil
Nəbiyev Cilingir Azad
Nəbiyev Elmar Elman
Nəbiyev Nicat Ramil

Nəbiyev Orxan Rza
Nəbiyev Zaur Ələddin
Nəcəfli Oruc Rövşən
Nəcəfli Sadiq Nüsrət
Nəcəfov Bəhruz Əli
Nəcəfov Cəmil Nəcəf
Nəcəfov Əli Seyran
Nəcəfov Elmin Saleh
Nəcəfov Elmir Vidadi
Nəcəfov Etibar Mehman
Nəcəfov Fərid Fərman
Nəcəfov Fuad Taleh
Nəcəfov İlkin Misir
Nəcəfov Şamil Rəfi
Nəcəfov Vüqar Aydın
Nəcəfov Yaqub Məhəmməd
Nəcəfov Yusif Nadir
Nəciyev Xalid Qabil
Nefesov Murad Ocaqdurdu
Nəhmətov Ceyhun Ehtiqad
Nəhmətov Telman Təyyar
Nəhmətov Vüsal Üzeyir
Nərimanov İdris Nazim
Nərimanzadə Ruslan İlqar
Nəsibov Asəf Səfəralı
Nəsibov Elmar Şirzad
Nəsibov Elməddin Yusif
Nəsibov Nicat Nəriman
Nəsibov Nicat Qəşəm
Nəsibov Nicat Səməd
Nəsibov Xaliddin Vaqif
Nəsibov Xaqani Aydın
Nəsirov Əfqan Ramil
Nəsirov Elçin Ramiz
Nəsirov Elmir Zülfü
Nəsirov İlyas Arzuman
Nəsirov Nahid Əlizamin
Nəsirov Qara Eldəniz
Nəsirov Qəhrəman Fərman
Nəsirov Xəqani Kamran
Nəsrullayev Rəşid Qəzənfər
Nəzərli Vasif Zahid
Nəzərov Elməddin İsmayıl
Nəzərov Emin Zahir
Niftalızadə Niyamin Xaliq
Niftəliyev Ceyhun Bahadur
Niftəliyev İlyas Güloğlan
Niftəliyev Mehrab Söhrab
Niftullayev Elşən Əfqan
Novruzlu Pərviz Qorxmaz
Novruzlu Ümid Bahadur
Novruzov Allahverdi Bəhrəm
Novruzov Amin Taciddin
Novruzov Aqşin Şahin
Novruzov Elçin Qismət
Novruzov Elvin Ziyafət
Novruzov Pərviz Natiq
Novruzov Rəşad Elşad
Novruzov Şəhnin Şahlar
Noçuyev Surxay Əbdul
Nudirəliyev Zaur İsmayıl
Nuhiyev Musa Nüsrət
Nurəhmədov Ramin Marif
Nurəliyev Elşən Rövşən
Nuri Xəyal Şakir
Nuriyev Əfqan Rövşən
Nuriyev Hikmət Mübariz
Nuriyev Nofəl Xaliq
Nuriyev Saleh Səxavət
Nuriyev Vüqar Hafis

Nurməmmədov Nurlan Niyazi
Nurmətov Çoban Razaddin
Nurizadə Qalib Habil
Nuruzadə Elşən Əlisa
Nuruzadə Nurlan Tofiq
Nurullayev Anar Siyavuş
Nurullaye Elnur Fərhad
Nurzadə Rövşən Əli
Nurzaliyev Elmədin Səfər
Nüsrətbəyli Ülvi Arif
Nüsrətli Ceyhun Aqil
Omarov Elmar Elvar
Omarov Vüsal Şəmsəddinoviç
Orucov Afər Yafət
Orucov Bayram Çərkəz
Orucov Ceyhun Namaz
Orucov Coşqun Oruc
Orucov Elmir Elyar
Orucov Elşən Ehtiram
Orucov Elşən Yavər
Orucov Elvin Rövşən
Orucov İsə Razim
Orucov Kinyaz Zirəddin
Orucov Mirzəcan Araz
Orucov Nail Rəfail
Orucov Nemət Əkbər
Orucov Niçat Niyadxan
Orucov Şakir Bakir
Osmanov Ərzuman Kamran
Osmanov Əyyub Azər
Osmanov Nizami Elşad
Orucov Səbuhi Vahid
Orucov Tural Əmir
Orucov Ürfan Firdovsi
Orucov Xalid Saleh
Orucov Xudayət Vilayət
Orucov Yunis Şaiq
Osmanlı Teymur Saday
Osmanov Məhəmməd Seymur
Osmanov Nəzir Rahib
Osmanov Orxan Mənsur
Ömərli Kənan Elxan
Ömərov Elvin Xeybər
Ömərov Orxan İmran
Ömərov Qoşqar Səxavət
Paşayev Abdulla Sultan
Paşayev Cavid Vəlican
Paşayev Daşdəmir Əlizaman
Paşayev Elgün İlham
Paşayev Elsevər Vaqif
Paşayev Əvəz Telman
Paşayev Firdovsi Afiq
Paşayev Mahir Bəxtiyar
Paşayev Məhəbbət Vaqif
Paşayev Ramil Şakir
Paşayev Samir Adışirin
Paşazadə Cavid Telman
Paxırov Elsevər Eyvaz
Pənahov Bəhrəm Xıdır
Pənahov Elmədin Məqsəd
Pənahov Roman Sərkər
Pənahov Rövşən Mahmud
Pənahov Ülvi Nizami
Piriyev Elsevər Mahir oğlu
Piriyev Elşən Şəfalət
Piriyev Raul Zabit
Piriyev Səttər Fuad
Pirvələdov Famil Teyfur
Poladov Aynur Şıxbaba
Pirseyidov Elnur Nasir

Poladov Elçin Adil
Putiyev Əhməd Şamil
Qaçayev İntizam Əkbər
Qaçayev Röyal Fərman
Qafarov Elnur Mirzəxan
Qafarov Kənan Siyaqif
Qafarov Zərbəli Vidadi
Qaflanov Şixamir Oruc
Qalayçiyev Faiq İsrafil
Qanıyev İsaxan İsaman
Qaracayev Nurlan Ömər
Qaraxanov Səfa Yenişar
Qarayev Amal Ədalət
Qarayev Anar Çingiz
Qarayev Cavid Əmirxan
Qarayev Elnur Qalib
Qarayev Elyaz Vəli
Qarayev Namiq Qarakişi
Qarayev Süleyman Əlbağış
Qarayev Təhmasib Hikmət
Qarayev Telman Əli
Qarayev Tural Şahin
Qardaşxanov Qismət Qərib
Qasımlı Mir Həmid Nazim
Qasımlı Muxtar Əli
Qasımov Abbas Rza
Qasımov Azər Yaqub
Qasımov Baba Əhməd
Qasımov Bayram Arzu
Qasımov Cəbrayıl Baloğlan
Qasımov Elvar Eldar
Qasımov Əli İbrahim
Qasımov Elməddin Aqil
Qasımov Eltun Vüqar
Qasımov Faiq Mayıl
Qasımov Faiq Qaçay
Qasımov Gülverdi Abil
Qasımov İsmayıl Sadiq
Qasımov Hafis Cavanşir
Qasımov Həmid Oruc
Qasımov Həsən Şöhrət
Qasımov Hikmət Vidadi
Qasımov Hüseyn Kamil
Qasımov Kamil Nüsrət
Qasımov Kamran Fazil
Qasımov Mirağa Hafiz
Qasımov Mustafa Dadaş
Qasımov Mürtaza Elman
Qasımov Nayib Akif
Qasımov Nicat Elşan
Qasımov Nurlan Vadər
Qasımov Oruc Afiq
Qasımov Orxan Rizvan
Qasımov Qismət Yolçu
Qasımov Qoşqar Atakişi
Qasımov Ramiz Vaqif
Qasımov Rəmal Saleh
Qasımov Səbuhi Telman
Qasımov Şəhriyar Vəzir
Qasımov Şöhrət Şakir
Qasımov Təbriz Ramiz
Qasımov Tural Yelmar
Qasımov Xalid Rafik
Qasımov Xaspolad Fikrət
Qasımzadə Hüseyn Həsənxan
Qasımzadə Nicat Höccət
Qasımzadə Ümüd İlqar
Qazımətov Rəsul Kamaləddin
Qədirbəyli İnqilab Tofiq
Qədirli İsmayıl Elçin

Qədirov Elvin Azər
Qədirov Emin Asif
Qədirov Müqəddəs Nail
Qədirov Şahin Bayram
Qədirzadə  Aqşin Elman
Qəfərli Samir Möhlət
Qəfərov Rəvan Elxan
Qəfərov Saməddin Rasim
Qəhrəmanov Elməddin Niyaməddi
Qəhrəmanov Gülalı Aydın
Qəhrəmanov Məkan Mübariz
Qəhrəmanov Orxan Səlvər
Qəhrəmanov Ruslan Mehman
Qənbərli Elton Baba
Qənbərli Mehdi Sübhi
Qənbərli Taleh Abil
Qənbərov Bilal Xanlar
Qənbərov Əli Mahir
Qənbərov Elnur Novruz
Qənbərov Mədət Əzim
Qənbərov Mehman Nərman
Qənbərzadə Heydər Ağahüseyn
Qənimətov Ətraf Oqtay
Qəniyev Cahid Şaiq
Qəribov Asif Səxavət
Qəribov Pəhli Xaləddin
Qəribzadə Fəxri Elmir
Qəribzadə Hüseyn Qədr
Qəsəbov İsmayıl Nəbi
Qeybiyev Arif İsmayıl
Qəzənfərli Qurban Qiniyaz
Qocayev Asif Yolçu
Qocayev Günəş Əfqan
Qocayev Niftalı Zakir
Qocayev Seymur Mahir
Qorçuyev Anar Nadir
Qubadlı Fuad Cahangir
Qubatov Tural Fəriddin
Qubatov Zülfüqar İsmi
Qulamlı Afiq Fərhad
Qulamlı Ülvi Şahin
Qulamzadə Afərin Müqəddəs
Qulamov Rəcəb Xaydaroviç
Quliyev Ağamirzə İlham
Quliyev Alim Fuad
Quliyev Aqil Mətləb
Quliyev Aqşin Dilavər
Qabilov İsmayıl Əli
Qasımov Elman Yunis
Qasımov Nurlan Vadər
Qasımzadə Tahir Sərdar
Qədimov Ayxan Fikrət
Qədimov Güloğlan Nürəddin
Quliyev Elçin Rövşən
Quliyev İman Kürdoğlu
Qumaşov Anar Saleh
Quliyev Aqşin Mehdi
Quliyev Asim Bəkir
Quliyev Barat Nizami
Quliyev Bəhruz Firuz
Quliyev Daşqın Nəcməddin
Quliyev Elçin Etibar
Quliyev Elgün Fuad
Quliyev Elgün Vasif
Quliyev Əli Tədbir
Quliyev Əli Turac
Quliyev Elnur Eldar
Quliyev Elnur Sərdar
Quliyev Eltac Azər
Quliyev Eltay Əli

Quliyev Elvin Amil
Quliyev Əvdil Qardaşxan
Quliyev Fəhmin Yunis
Quliyev Fərid Ayazxan
Quliyev Həsən Adışirin
Quliyev Həsən İbrahim
Quliyev Həsən Yalçın
Quliyev Hətəmxan Məti
Quliyev Hüseyn Aydın
Quliyev Hüseyn Həsən
Quliyev İlkin Rəfail
Quliyev İlqar Akif
Quliyev Kamran Dadaş
Quliyev Kənan Vaqif
Quliyev Məhəbbət Arzu
Quliyev Mehman Telman
Quliyev Mehtab Ənvər
Quliyev Murad Şahin
Quliyev Namiq Natiq
Quliyev Namiq Natiq
Quliyev Natiq Ramiz
Quliyev Nicat Nüşrəvan
Quliyev Nurlan Şükür
Quliyev Orxan Bəxtiyar
Quliyev Rahim Yalçın
Quliyev Ramil Elşən
Quliyev Ramil Nuralı
Quliyev Ramin Rizvan
Quliyev Rəcəb Elşən
Quliyev Rəşad Əfras
Quliyev Rəşad Rəşid
Quliyev Rəvan Mərdan
Quliyev Rusif Asim
Quliyev Ruslan Şaxsəddin
Quliyev Şahmar Kəmaləddin
Quliyev Samir Məhərrəm
Quliyev Şəhriyar Nəsib
Quliyev Sehrulla Xeyrulla
Quliyev Şirxan İsmixan
Quliyev Təbriz İlqar
Quliyev Tərlan Bəxtiyar
Quliyev Tərlan Mehman
Quliyev Teymur Zamin
Quliyev Tural Mustafa
Quliyev Turab Əlisafa
Quliyev Vasif Tahir
Quliyev Vəli Vəli
Quliyev Vüqar Fizuli
Quliyev Vüsal Tahir
Quluyev Azər Zakir
Quluyev Elşən Natiq
Quluyev Hüseyn Həbib
Quluyev Nofəl İlham
Quluzadə Əlimərdan Fətdah
Quluzadə Elşən Qulu
Quluzadə Elmin Şəmsi
Quluzadə Kamran Pərviz
Quluzadə Məhəmməd Cəlal
Quluzadə Orxan Elxan
Quluzadə Qurbanəli Elşad
Quluzadə Vəfadar Fəqan
Qurbanəliyev Tapdıq Dövlətxan
Qurbanlı Elvin Mehman
Qurbanlı Nurlan Süleyman
Qurbanov Büsat Əfsər
Qurbanov Cahangir Məmməd
Qurbanov Davud Tariyel
Qurbanov Elçin Məcid
Qurbanov Elvin Elmar
Qurbanov Emil Rəfael

Qurbanov Emil Vaqif
Qurbanov Fariz Məhəmməd
Qurbanov İmran İlqar
Qurbanov İsmayıl Yaşar
Qurbanov İsmət Firuz
Qurbanov Masim Hafiz
Qurbanov Mayıl Mayis
Qurbanov Murad Asif
Qurbanov Qamət Şəmşir
Qurbanov Ramil Sudeyif
Qurbanov Rauf Vahid
Qurbanov Rəcəb Elşən
Qurbanov Röyal Ziyad
Qurbanov Ruslan Üzeyir
Qurbanov Tərxan Zabit
Qurbanov Vahid Elşad
Qurbanov Xansu Elsevər
Qurbanzadə Ayxan Fariz
Qurbanzadə Mövlud Söhbət
Qurdayev Ömər Şəhmir
Qureşli Firuz Əli
Rajapov Əmrah
Ramaldanov Babək Meyvəddin
Ramazanlı Əlizamin Umud
Ramazanlı İlqar Etibar
Ramazanov Elxan Ramazan
Ramazanov Fərid Ömər
Ramazanov Rail Arif
Ramazanov Rasim İsmayıl
Ramazanov Rövşən Qardaşxan
Ramazanov Vüsal Vahid
Rəcəbalıyev Tural Həmid
Rəcəbov Ruslan Rəcəb
Rəfiyev Seyfəl Musa
Rəfiyev Ülvi Rəfail
Rəhimli Baxış İlqar
Rəhimli Bəxtiyar Nəsimi
Rəhimli Elcan Ədalət
Rəhimli Kamil Vəli
Rəhimli Murad İlqar
Rəhimli Ömər Rəşad
Rəhimli Orxan Rəşid
Rəhimli Tural Gəray
Rəhimli Xəyal Rahil
Rəhimov Asif Həsrət
Rəhimov Elvin Ehtiram
Rəhimov Fariz Zahir
Rəhimov Nurlan Əlövsəd
Rəhimov Rəşad İlqar
Rəhimov Ruslan Tanrıvedi
Rəhimov Sadiq Nadir
Rəhimov Şamo Heydar
Rəhimov Tural Arif
Rəhimov Ülvi Rabil
Rəfibəyli Əbdülrza Şamməd
Rəhimov Elnur Məmmədkərim
Rəşidov Natiq Məmmədrza
Rüstəmov Ruslan Nüsrət
Rüstəmov Zamin Səxavət
Rzayev Adil Akif
Rzayev Əli Rəsul
Rzayev İlkin Cəfər
Rzayev Səməd Fizuli
Rzayev Vüsal Tofiq
Rəhimov Yalçın Elçin
Rəhimov Zamin Vahid
Rəhmanov Samiq Rizvan
Rəşidov İlham Tahir
Rəşidov Tural Fazil
Rəşidov Ziyəddin Arzu

Rəşidzadə Səid Nofəl
Rəsulov Ağacan Əfsər
Rəsulov Elxan Ayaz
Rəsulov Mirbala Əmrağa
Rəsulov Nərman Fəzaim
Rəsulov Sahil Sərvan
Rəsulov Teymur Yavus
Rəsulov Xəzər Mail
Rəsulzadə Təbriz Əfrayim
Rzalı Əli Nuru
Rufullayev Rasim Yadigar
Rükabzadə İbrahim Rasif
Rüstəmli Əmrah Natiq
Rüstəmli İbrahim Mirzağa
Rüstəmli Kənan Yalçın
Rüstəmov Amil Bədrəddin
Rüstəmov Arif Seymur
Rüstəmov Aydın Elxan
Rüstəmov Basid İdris
Rüstəmov Ələs Vidadi
Rüstəmov Əli Yağınəli
Rüstəmov Elnur İsmayıl
Rüstəmov Emin Səid
Rüstəmov Üzeyir Əyyub
Rüstəmov Pərviz Tufan
Rüstəmov Rövşən Orxan
Rüstəmov Vüqar Kamil
Rüstəmov Vüsal Valeh
Rüstəmzadə Emin Firqət
Rzalı Daşqın Elşad
Rzaxanov Nihad Natiq
Rzayev Amin Qurban
Rzayev Aslan Süleyman
Rzayev Bilal Novruz
Rzayev Ceyhun İsmayıl
Rzayev Əli Nəsib
Rzayev Əlirza Mehman
Rzayev Elxan Ariz
Rzayev Hacırza Fikrət
Rzayev Hüseyn Aslan
Rzayev Kənan Əbdürrəhman
Rzayev Məhəmməd Nadir İlqar
Rzayev Mirsafa Mircəlil
Rzayev Nurlan Yusif
Rzayev Qəhrəman Bəhmən
Rzayev Tərlan Rövşad
Rzayev Ülfət Novruz
Rzayev Zülfü Zeyni
Rzazadə Fərhad Mirzə
Rzazadə Həsən Vüqar
Rzazadə Mirməhəmmədəli T.
Rzazadə Murad Ağaməmməd
Sabirli Əjdər Xanlar
Sadıqlı İbrahim Şahin
Sadıqlı Məmmədhəsən Meydan
Sadıqov Elgün Heydər
Sadıqov Elnur Kərim
Sadıqov Elvin Namiq
Sadıqov Emin Rəşadət
Sadıqov Rəşad Xanlar
Sadıqov Rəsul Həşim
Sadıqov Ruslan Amiraslan
Sadıqov Rüfət Vaqif
Salamov Taleh Ədalət
Salmanov Paşa Həkim
Səfərli Cavid Xaliq
Səfərov Hikmət İldırım
Səfərov Nicat Vaqib
Səfərov Tamerlan Cavad
Sadıqov Səbuhi Rövşən

Sadıqov Surac Ədalət
Sadıqov Vüqar İlqar
Sadıqov Vüsal İsmayıl
Sadıqov Yaşar Füzuli
Sadıqzadə Emil Əziz
Sadıxov Rahid Vahid
Sahratov Cavid Əlikömək
Salahlı Elgiz Nurəddin
Salahov Elvin Sabir
Salahov Kamil Mətləb
Salahov Sabir Hikmət
Salahov Sərxan Həsənqulu
Salamov Vüsal Yəhya
Salayev Amid Yadulla
Salayev Elşən Fuad
Salehov Orxan Fikrət
Salıyev Əfsan İlkin
Salmanov Aslan İsrəfil
Salmanov Azər Vəfadar
Salmanov İsmayıl Rəhman
Salmanov Razik Telman
Salmanov Sahil Vüqar
Salmanov Tariyel Allahverdi
Salmanzadə Pərvin Təbriz
Salyayev Aqil Anar
Samidli Babək Mətləb
Sarıyev Samir Əli
Sarıyev Tural İsmayıl
Sarıyev Vüqar Fikrət
Sarıyev Xəzri Elnur
Sarkayev Nəcməddin Əli
Səfərçinov Xeyirbəy Cəlil
Səfərəliyev Rəşad Fərman
Səfərli Amil Nizami
Səfərli Əmrah Çingiz
Səfərov Ceyhun Akif
Səfərov Cəsarət Xaliq
Səfərov Coşqun Əhməd
Səfərov Əfəndi Cahangir
Səfərov Əfqan Nadir
Səfərov Elvin Ramiz
Səfərov İntiqam Əlihüseyn
Səfərov Maarif Mikayıl
Səfərov Mais Şakir
Səfərov Məmmədağa Balakişi
Səfərov Oktay Əhməd
Səfərov Qəşəm Taməddin
Səfərov Şahmar Nazim
Səfərov Saleh İrzəxan
Səidov Ələddin Azər
Səlifov Murad Nəbi
Səlimli Bakıxan Alim
Səlimov Cəmil Oqtay
Səlimov Sənan Nasif
Səlimov Şiralı Vüqar
Səlimzadə Kənan Məmiş
Səlimzadə Ramil Raqif
Səmədli Sənan Fikrət
Səmədli Vüqar Vaqif
Səmədov Elgün İlham
Səmədov Hüseyn Müşfiq
Səmədov İsmayıl Məhəmməd
Səmədov Kamran Ceyhun
Səmədov Mais Şadbəy
Səmədov Məhəmməd Niman
Səmədov Məhərrəm Elxan
Səmədov Nicat Şahin
Səmədov Sabuhi İbrahim
Səmədov Sadiq İbrahim
Səmədov Samir Mətləb

Səmidov İkram Şirvan
Sərdarlı Rahim Rafik
Serov Mütəllib Arif
Sərxoşov Seymur Ramiz
Səttarov Emin Ramin
Səttarov Səxavət Qüdrət
Seyfullayev Araz Elsevər
Seyfullayev Fərid Xeyrulla
Seyfullazadə Kamran Cəlal
Seyidov Əli Rahin
Seyidov Miryasin Mirqafar
Seyidov Nihat Mehman
Seyidov Şahmar Fikrət
Seyid-Zadə Mirhüseyn Miryunis
Seymur Hüseyn
Solnsev Dmitriy Aleksandroviç
Soltanlı Şahmar Qinyaz
Soltanov Oruc Fərhad
Süleymanlı Elmir Aqil
Süleymanlı Kənan Sadiq
Süleymanlı Rəsul Kamil
Süleymanov Arif Ramiz
Süleymanov Asim Məhərrəm
Süleymanov Azər Haqverdi
Süleymanov Emin Bəhmən
Süleymanov Əyyub Rasim
Süleymanov Fizuli Bahadur
Süleymanov Həsən İsmayıl
Süleymanov İlkin Mahir
Süleymanov İsmayıl Kamal
Süleymanov Mirsüleyman Aydın
Süleymanov Orxan Oruc
Süleymanov Rauf Allahverdi
Süleymanov Samir Çingiz
Süleymanov Səbuhi Ələkbər
Süleymanov Tamerlan Xankişi
Süleymanov Vasif Akif
Sultanlı Elşən Nazim
Soltanov Gəray Xəlil
Sultanov Hüseyn Fərhad
Soltanov Nadir Nəzir
Sultanov Nurlan Yaşar
Sultanov Səlim Sultan
Sultanov Zaminəli Nazim
Sultanzadə Niyaməddin Hüsaməddin
Surxayev Yunis Rafiq
Surxayzadə Cahangir Hətəm
Surxayzadə Zəfər Şəmsəddin
Şabanov Fuad Rasim
Şabanov Kamran Elşən
Şabanov Rüfət Rauf
Şahbabayev Güləddin Zəfər
Şahbazlı Əlikram Novruz
Şahbazov Abas Cavad
Şahbazov Aqif Hasif
Şahbazov Elnur Qədir
Şahbazov Kənan Natiq
Şahbazov Ruslan Mahir
Şahbazov Sərvan Əliməmməd
Şahbazov Şahbaz Mirzə
Şahmalıyev Əzim Namiq
Şahmarlı Elvin Malik
Şahmarlı Vüsal Mərdan
Şərifov Turan Vidadi
Şahmuradov Rəvan Dilşad
Şahvələdov İlyas Etibar
Şahverdiyev Böyükağa Savalan
Şalıyev Ceyhun Nüsrət
Şamilov Emil Rafiq
Şamilov Fərid Mirzə

Şəbiyev Məhəmməd Vaqif
Şəfiyev Daşqın Hidayət
Şəfiyev Rəşad Vaqif
Şəkərov Xəyal İman
Şəmilov Azər Elyas
Şərifzadə Saleh Samir
Şərifov Mirnağı Qasım
Şeydayev Rəfail İldam
Şikarov Nəcəf Şikar
Şindiyev Elməddin Həmid
Şirbəyli Siruz Hamil
Şirəliyev İntiqam Bəxtiyar
Şirəliyev Kənan Telman
Şirəliyev Niyət İmran
Şirəliyev Sahib Yusif
Şirəlizadə Süleyman İlham
Şirinli Nurlan Qədir
Şirinov Ehtibar Fazil
Şirinov Eldar Bağır
Şirinov Elmar Cəbrayıl
Şirinov Elvin Elsevər
Şirinov Kamil Altay
Şirinov Kamil Əliş
Şirinov Orxan Elxan
Şirinov Tale Qadir
Şirinov Vüsal Novruz
Şirinzadə Elnur Xalıqverdi
Şiriyev Rəşad Rasim
Şirvani Həsənağa Bəhruz
Şirvanov Davud Xeyrulla
Şirvanov Mehman Mirəziz
Şıxaliyev Fariz Şahverdi
Şıxəliyev Elvin Sarvan
Şıxəliyev Ənvər Vadimoviç
Şıxəliyev Mehti Yalçın
Şıxəliyev Nurəddin Əfrəddin
Şıxəlizadə Emil Şahin
Şıxıyev Orxan Raqif
Şıxıyev Şahəli Əflatun
Şıxıyev Səyyad Abdul
Şıxızadə Tural Ətraf
Şıxməmmədov Hikmət Azər
Şıxməmmədov Natiq Zakir
Şixmuradov Kamil Şixəmməd
Şükürani Şükran Rüfət
Şükürlü Elvin Azad
Şükürlü Nicat Ayaz
Şükürov Alim Davud
Şükürov Anar Mehman
Şükürov Azər Cahid
Şükürov İlkin Aslan
Şükürov Samir Təyyub
Şükürov Sərvan Sərxan
Şükürov Vüsal Zahir
Tağıyev Allahverdi Əkbər
Tağıyev Anar Zakir
Tağıyev Asif Zakir
Tağıyev Azər Kamil
Tağıyev Əkbər Məhəmməd
Tağıyev Əli Aydın
Tağıyev Əli Rahil
Tağıyev Elnur Aydın
Tağıyev Elxan Fəxrəddin
Tağıyev Elzamin Eyvaz
Tağıyev Elçin Ağaqulu
Tarverdiyev Feyruz İslam
Təhməzov Pərvin İlqar
Təmirov Yusif Azər
Tağıyev Eşqin Asif
Tağıyev Fuad Mərdan

Tağıyev Hüseyn Oqtay
Tağıyev İmdad Rövşən
Tağıyev Kamran Fikrət
Tağıyev Nurağa Davud
Tağıyev Ramid Yaqub
Tağıyev Ramiq Teymur
Tağıyev Röyal Tağı
Tağıyev Ruslan Fuad
Tağıyev Şahin Rəhim
Tağızadə Bəhruz Azər
Tağızadə Cahid Vahid
Tağızadə Dünyamin Ramin
Tahirli Şahin Afat
Tahirov Firdovsi Balaxan
Tahirov Rəşid Loğman
Tahirov Vüsal Mehdi
Talıblı Asif Arif
Talıbov Elməddin Məmməd
Talıbov Elnur Gəgiş
Talıbov Məhəmməd Aydın
Talıbov Şirnalı Aqil
Talıbov Tahir İdris
Talıbov Təbriz Məhrəməli
Talıbzadə Ceyhun Aqil
Talıbzadə Səxavət Zeyniş
Tapdıqov Azad Azər
Tarıverdiyev Nicat Şöhrət
Tarverdiyev Cabir Səmid
Tarverdiyev Qurbət Rasim
Təhməzov Cavid Əvəz
Təhməzov Elzamin Kamal
Təhməzov Rəşad Qərib
Təhməzov Rövşən Zahid
Təhməzov Şəmsəddin Sərvər
Telmanlı Allahyar Elman
Teymurlu Mirrahil Ramiz
Teymurlu Orxan Şaiq
Teymurov Elvin Mustafa
Teymurov Mansur Elnur
Teymurov Şaiq Vidadi
Teymurov Vüsal Zakir
Teymurzadə Nahid Üzeyir
Teyyublu Çərkəz Vidadi
Turabov Rüstəm Fərman
Ulubəyov Nurəhməd Hacıbəy
Umarov Anar Məhəmməd
Umudlu Elmir Pərviz
Useynov Ceyhun Elşad
Üsüfov Şahadət Qalib
Üzeyirov Qoşqar Müşfiq
Vahabov Yadigar Mahir
Vəlişov Elməddin Fuad
Vəlişov Zahir Arif
Vəliyev Anar Həmzə
Vəliyev Ayxan Kamil
Vəliyev Azər Vəli
Vəliyev Balaqardaş Fərhad
Vəliyev Elmir Məmmədqulu
Vəliyev Elnur Əli
Vəliyev Elnur Mirsiyab
Vəliyev Elyar Arif
Vəliyev Fərid Güloğlan
Vəliyev Hidi Bəxtiyar
Vəliyev İlkin Səfail
Vəliyev İlqar Cahit
Vəliyev İsmayıl Mehman
Vəliyev Məhəmməd Nail
Vəliyev Murad Süleyman
Vəliyev Müslüm Vəliağa
Vəliyev Nurlan Habil

Vəliyev Oruc Ramiz
Vəliyev Qoşqar Nuruş
Vəliyev Ramazan Hilal
Vəliyev Sadiq Ayaz
Vəliyev Sehran Nizami
Vəliyev Əli Kamran
Vəlizadə İbrahim Malik
Vəliyev Şəmsəddin Aqil
Vəliyev Tural İlham
Vəliyev Vüqar Emin
Vəliyev Vüsal İslam
Vəlizadə Anar Afət
Vəlizadə Faiq Bayraməli
Vəlizadə Kamran Əkpər
Verdiyev Bəhman Dilqəm
Verdiyev Elburus İlyas
Verdiyev İsax Ədalətoviç
Verdiyev Natiq Əlimurad
Veyisli Xaliddin Zəkər
Veyisov Kərəm Səttər
Vəzirov Cəlal Bədirxan
Xaməmmədov Şirxan Xaməmməd
Xanalıyev Ziyəddin Ariz
Xancanov Təbriz Məhəmmədəli
Xankişiyev Fuad Şöhrət
Xankişiyev Mədət Vəkil
Xankişiyev Nicat Aşur
Xasayev Elməddin Qoçu
Xasıyev Röyal Abuzər
Xələfli Mahir Muxtar
Xələfov Cəmil Fikrət
Xələfov Nicat İlqar
Xəlilbəyli Turqut Nadir
Xəlili Samir Əhməd
Xəlilli Murad Vəli
Xəlilli Namiq Həsən
Xəlilli Nicat Əli
Xəlilov Ayaz Qnyaz
Xəlilov Ələddin Əlizaman
Xəlilov Ceyhun Azər
Xəlilov Coşqun Mikayıl
Xəlilov Elnur Ramiz
Xəlilov Fəryad Fəxri
Xəlilov Gülşad Elşad
Xəlilov Nadir Ağadadaş
Xəlilov Namiq İlyas
Xəlilov Ruhin Müzəffər
Xəlilov Vidadi Vaqif
Xəmmədov Əmral Zaur
Xəncəlov Ümüd Radif
Xeyirbəyov Malik Samik
Xeyrullayev Cəlil Mürvət
Xıdırov Elgün Fuad
Xıdırov Ərəstun Arif
Xosizadə Müşfiq Zakir
Xosrovzadə İlkin Azay
Xudaverdiyev Mahmud Əhməd
Xudayev Yaşar Əli
Xudiyev Mütalib Ələsgər
Xudiyev Toğrul Habil
Xudiyev Tural Rəfayıl
Xurşudov Nazir Müxənnət
Yaqublu Əliqismət Mükafat
Yaqubov Mayis Rəhim
Yaqubov Yaqub İlham
Yaqubzadə Yaqub Eldəniz
Yariyev Elsevər Qalib
Yolçuyev Azad Nizami
Yoldaşov Alim Mirzə
Yunisli Ruslan Elçin

Yunisov Alxas Mirxas
Yunisov Ramil Qardaşxan
Yunusov Amrid Zaur
Yunusov Elgün Yedulla
Yunusov Murad Bayram
Yusibli Böyükağa Elbrus
Yusibov Elməddin Mahir
Yusibov Kənan Fehruz
Yusibov Rəşad Nazim
Yusifbəyli Yusif Sabir
Yusifli Azər Nazim
Yusifli Məhəmməd Rəhman
Yusifli Müzəffər Ziyəddin
Yusifov Əli Sulhəddin
Yusifov Ağaəli Vaqif
Yusifov Anar Sərxan
Yaqubov Hümbət Mərhəmət
Yusifli Özal İdris
Yusif-zadə Ramil Adəm
Yusifov Hüseyn İsaq
Yusifov İmaməddin Niyaməddin
Yusifov Kərim Həsrət
Yusifov Mehman Musa
Yusifov Münasib Mübariz
Yusifov Ramil Mürşüd
Yusifov Taleh Gündüz
Yusifov Taleh Valeh
Yusifov Yusif Oqtay
Yusifzadə Xudayar Müslüm
Yusubov Elzar Süleyman
Yusubov Sabir Firdovsi
Yüzbaşiyev Cavid Cavanşir
Yüzbaşyev İsmayıl Fəzayıl
Zairli Zahid Azad
Zakirov Elvin Ağasəlim
Zalov Elçin İslam
Zalov Fəqan Amil
Zahirov Nazim Həmzə
Zamanlı Məmməd Rəhman
Zamanov Mətləb Nizami
Zamanov Sənan Qahir
Zamanov Taleh Valeh
Zamanov Vüqar İsmayıl
Zaməddinov Fərid İmran
Zəkiyev Rameş Gülverdi
Zərbalıyev Ziyad Nəriman
Zərbəliyev Aşurəli Səfərəli
Zeynallı Aqil Aydın
Zeynallı Elşad Elman
Zeynallı Əsəd Ərziman
Zeynallı Fikrət Akif
Zeynallı Hüseyn Vətənxan
Zeynallı Rəşad Qiyas
Zeynalov Arzu Rövşən
Zeynalov Azad Rafiq
Zeynalov Cavid Vaqif
Zeynalov Elnur Elsevər
Zeynalov Əlsafa Elşad
Zeynalov Elşən Zaman
Zeynalov Fikrət Hikmət
Zeynalov İlqar Natiq
Zeynalov Məhəmməd Bəxtiyar
Zeynalov Müseyyib Saleh
Zeynalov Nurlan Rəfail
Zeynalov Ramin Yasən
Zeynalov Sadiq Kamal
Zeynalov Teymur Tağı
Zeynalov Tural Ruslan
Zeynalov Turqut Fikrət
Zeyniyev Rəşad Ələkbər

Ziyadov Fəqan Ziyad
Zülfüqarlı Zeynal Alim
Zülfüqarov İlkin Nurəddin
Zülfüqarov Məlik Kamran
Zülfüqarzadə Fariz Fərhad

**Vətən müharibəsi zamanı**

**İTKİN DÜŞMÜŞ hərbi qulluqçuların**

**SİYAHISI**

Cəfərov Təbriz İlqar
Feyzullayev Aydın Zakir
Həsrətov Elməddin Sərdar
İxtiyar İlqar
Kərimli Qalası Müslüm
Mehdiyev Asim Yaqub
Məmmədov Vüsal Elşən
Məsimov Əkbər Yunis
Musayev Ələkbər Əlövsət
Mustafayev Elvin Fəxrəddin
Mustafayev Elvin Fuad
Nağıyev Pərviz Güloğlan
Pənahov Əkbər Bəylər
Qədirli Elnur Rəcəb
Salamov Qorxmaz Bayram
Səfərli Xəqani İlqar
Vəlizadə İbrahim Səməd
Verdiyev Eldəniz Rabil
Yunisli Elşən Fazil
Yusubov Orxan Allahverdi

**0c337e5d5d01e5aae1ec5c5cd052ea54.pdf**

# SƏLCUQ BAYRAKTAR: QARABAĞ ZƏFƏRİNİN ƏSL SAHİBLƏRİ ŞƏHİDLƏRDİR!




Türkiyədə istehsal edilən PUA və SPUA-lar (Pilotsuz Uçan Aparatlar və Silahlı Pilotsuz Uçan Aparatlar) Dağlıq Qarabağdakı münaqişə şəraitində dünyanın diqqət mərkəzindədir. Türkiyədən alınan PUA-lar sayəsində Azərbaycanın hərbi üstünlük qazandığı deyilir. Türkiyənin "Baykar Makina" şirkətinin texniki direktoru, "Bayraktar TB2" pilotsuz uçuş aparatının yaradıcısı *Səlcuq Bayraktar:* "Qarabağ məsələsini gənclik illərimizdən içimizdə bir ağrı kimi hiss edirdik. Bu gün Azərbaycan və Türkiyə ordularının böyük səyi nəticəsində bu ağrı bitdi. Qələbədə Türkiyənin istehsalı olan milli texnologiyanın rol oynaması bizə qürur verir. Amma bu zəfərin əsl sahibləri isə şəhidlərdir. Eşq olsun türk ordularına! Yaşasın Azərbaycan – Türkiyə qardaşlığı! Azərbaycanı Dağlıq Qarabağ münaqişəsinin başa çatması, Vətən müharibəsində qazanılan qələbə münasibətilə təbrik edib və şəhidlərimizə Allahdan rəhmət diləyib. Hərbi milli sənaye hərəkatında dronların əhəmiyyətli rolundan bəhs edən Səlcuq Bayraktar qeyd edib ki, hazırda Türkiyə dron istehsalı ilə məşğul olan 6 ölkədən biridir. Bu aparatlar Azərbaycan da daxil olmaqla 4 ölkəyə ixrac olunub. Hazırlanmasında süni intellektdən istifadə edilən "Bayraktar TB2"-nin detallarının 93 faizi milli istehsaldır.

**ŞAHİD İGİDLƏR!**

**MƏRD OĞULLAR!**

**ALLAH SİZİ QORUSUN!**



# "44 GÜN"ÜN MÖCÜZƏSİ: SƏBƏBLƏR VƏ QƏHRƏMANLAR

İşquz (Skif çarlığı) (eramızdan əvvəl VII-VI əsrlər), Qafqaz Albaniyası (paytaxt: Kabalaka, Partav (indiki Bərdə); e.ə. IV əsr — b.e. 705), Şirvanşahlar dövləti (paytaxt: Şirvan, Şamaxı, Bakı; 861-1539), Dərbənd əmirliyi (paytaxt: Dərbənd; 861-1075), Sacilər (Marağa, Ərdəbil; 889-929), Salarilər (paytaxt: Ərdəbil; 941-981), Şəddadilər (paytaxt: Gəncə; 970-1075), Rəvvadilər (paytaxt: Gəncə; 981-1054), Naxçıvanşahlıq (paytaxt: X əsrin sonları — XI əsrin 60-cı illəri), Ani əmirliyi (paytaxt: Ani; 1072-1174), Azərbaycan Atabəyləri (paytaxt: Naxçıvan, Həmədan, Təbriz; 1136-1225), Elxanilər dövləti (Marağa, Təbriz, Sultaniyyə; 1136-1225), Çobanilər (paytaxt: Təbriz; 1335-1357), Cəlairilər sultanlığı (paytaxt: Bağdad, Təbriz, Bəstə; 1336-1432), Şəki hakimliyi (paytaxt: Şəki, 1384 — 1551), Qaraqoyunlular (paytaxt: Təbriz; 1410-1468), Ağqoyunlular (paytaxt: Təbriz; 1468-1503), Qarabağ bəylərbəyliyi (paytaxt: Gəncə; 1501–1736), Çuxursəd bəylərbəyliyi (paytaxt: İrəvan; 1502–1736), Şirvan bəylərbəyliyi (paytaxt: Şamaxı; 1501–1736), Bakı xanlığı (paytaxt: Bakı; 1747-1806), Gəncə xanlığı (paytaxt: Gəncə; 1746-1828), İrəvan xanlığı (paytaxt: İrəvan; 1747-1828), Naxçıvan xanlığı (paytaxt: Naxçıvan; 1747-1828), Qarabağ xanlığı (paytaxt: Bayat, Şahbulaq, Şuşa; 1747-1822), Dərbənd xanlığı (paytaxt: Dərbənd, 1747-1805), Cavad xanlığı (paytaxt: Cavad; 1747-1805), İlisu sultanlığı (paytaxt: İlisu; 1562-1844) – bu dövlətlər eramızdan əvvəl VII-VI əsrlərdən XIX əsrə qədər Azərbaycan ərazisində qurulmuş dövlətlərdir. Lakin bu dövlətlər arasında Azərbaycanda yeganə imperiya qurmuş bir dövlət vardır ki, o dövləti xüsusi vurğulamaq istərdik. Səfəvilər dövləti 1501–1736 illlərdə mövcud olmuşdur. Yaranması ilə Azərbaycanda yeni islahatlar aparmış və ən

əsası Azərbaycan birləşdirməklə qalmamış, ətraf əraziləri belə Səfəvi Qızılbaş dövlətinin tərkibinə qataraq imperiya qurmuşdur. 1736-cı ildə III Şah Abbasın qəyyumu Nadir xanın özünü şah elan etməsiylə, Səfəvilər dövləti süqut etmiş, lakin Nadir şah ölümünə qədər Azərbaycanda dövlətçilik ənənələrini - vahid Azərbaycan siyasətini  davam etdirmişdir. Nadir şahın ölümündən sonra Azərbaycan xanlıqlara parçalandı. Daha sonra Rus çarı I Pyotr və İran dövləti Azərbaycan xanlıqlarını işğal etməyə başladı. XIX əsrdə Azərbaycan Rusiya və İran arasında bölüşdürməyə başladı. 1813-cü ildə Rusiya və İran arasında 11 maddədən ibarət Gülüstan müqaviləsi bağlandı. Müqavilənin şərtlərinə görə:

İran Azərbaycaın şimal xanlıqlarının (Gəncə, Qarabağ, Şəki, Şamaxı, Dərbənd, Bakı, Quba və Lənkəran), həmçinin Şərqi Gürcüstan və Dağıstanın Rusiyanın tərkibinə keçməsini tanıdı;

İrəvan və Naxçıvan xanlıqlarının İranın hakimiyyəti altında qalmasına razılıq verildi;

5-ci maddəsinə görə Xəzər dənizində hərbi donanma saxlamaq hüququ yalnız Rusiyaya verildi;

Rusiya tacirlərinin İranla ticarətində 5%-lik gömrük tarifi müəyyən olundu;

Rus tacirləri İran ərazisində daxili gömrük rüsumları ödəməkdən azad edildilər.

Bu müqavilə yalnız iki düşmən dövlət arasında bağlanmış sülh müqaviləsi deyildi, eyni zamanda dövlətçilik ənənələrinə malik bir xalqın parçalanması demək idi. Vahid Azərbaycanın ikiyə parçalanması bir xalqın heç bir zaman barışa bilməyəcəyi hökm idi. Bu səbəbdən qəlblərdəki nisgil daha dərinə, ədəbiyyatımıza  sirayət edərək heç bir zaman unudulmamaq üzrə həm tarixdə, həm də qəlblərdə qanlı iz qoyur. 10 dekabr 2020-ci il Azərbaycan Respublikası Qələbə Paradında qardaş Türkiyə Cumhuriyyəti Prezidenti Rəcəb Tayyib Ərdoğanın

səsləndirdiyi bayatı bizim illərdir hiss etdiyimiz ayrılığın dünya ictimaiyyəti qarşısında sözlə ifadəsi idi:

*Arazı ayırdılar,*
*Lil ilə doyurdular*
*Mən səndən ayrılmazdım,*
*Zor ilə ayırdılar.*

Lakin xalqın əsarəti bununla bitmir. Gülüstan müqaviləsindən sonra belə Rusiya-İran arasında münasibətlər soyumağa başlayır. İran 1825-ci ildə Rusiyada baş vermiş dekabristlər üsyanı ilə əlaqədar Rusiyanın çətinlikdə olduğunu düşünərək Rusiyayla müharibəyə başladı. Nəzərə alsaq ki, Azərbaycandan qaçmış xanlar Abbas Mirzəni şimal əhalisinin kafir ruslara qarşı üsyana hazır olduğuna inandırmışdır. Beləliklə, Rusiya əsarətində olan Azərbaycanın şimal ərazisinə yürüş başlandı. Lakin yürüş 1828-ci ildə Rusiya və İran arasında Türkmənçay sülh müqaviləsi bağlanması ilə başa çatdı. Abbasqulu ağa Bakıxanovun da tərcüməçi kimi iştirak etdiyi bu müqavilənin şərtlərinə görə:

İran VI maddəyə əsasən Rusiyaya 20 milyon manat gümüş məbləğində təzminat ödəməli idi. Təzminat ödənilənə kimi Cənubi Azərbaycan rus qoşunlarının işğalı altında qalmalı idi;

İran tərəfi əvvəllər Rusiya tərəfindən işğal olunmuş xanlıqlarla yanaşı III maddəyə əsasən İrəvan və Naxçıvan xanlıqlarının da Rusiya tərəfindən ilhaqını təsdiqləyirdi;

Iran Xəzər dənizinin Rusiyanın daxili dənizi olduğunu tanıyırdı və bu dənizdə hərbi donanma saxlamaq hüququ saxlamaq yalnız Rusiyaya verilirdi;15-ci maddəyə əsasən İrandan Cənubi Qafqaz ərazisinə əhalinin hərəkətinə (köçürülməsinə) icazə verilirdi (müəllifləri Qribayedov və Paskeviç idi).

Qafqazın baş komandanı İ.F.Paskeviç İrəvan xanlığına əhalinin 95%-dən çoxunun türk-müsəlman olmasından bərk narahat olaraq köçürmə ilə bağlı xüsusi komitə yaratdı. Ən

çox erməni əhalisi İrəvana köçürüldü. Və beləliklə, Azərbaycanın ürəyinə erməni xəncəri sancılmış oldu. Ermənilər Azərbaycan ərazisinə yerləşdikdən sonra yalnız Azərbaycan ərazilərini mənimsəməmiş, eyni zamanda yerli türk əhalini sıxışdırıb çıxarmağa başlamışdılar. Bu tarixi gedişatı gözdən keçirdikdə, belə bir sual yaranır niyə məhz İrəvan xanlığı? Bu suala çox cavab tapmaq olar. Lakin tarixçilərimiz 2 əsas səbəbin üzərində durur. 1. Osmanlı-türk dövləti ilə Azərbaycan arasına erməniləri yerləşdirmək, Rusiyanın bu ərazilərdə uzunömürlü hakimiyyətini təmin edəcək, türkləri əsarət altında saxlamaq üçün ən böyük dayaq olacaqdı. 2. İrəvan xanlığı digər xanlıqlara nisbətən daha uzunömürlü və daha çətin xanlıq idi və bu xanlıqda rus hakimiyyətinin qurulması üçün II dəfə Qafqaza yürüş etməli olmuşdu. Onun üçün çətin tabe edilən bu xanlığı tamamilə yerlə-yeksan edib, yerində ruslara tabe erməni əyaləti qurmaq Rusiya çarı üçün strateji addım oldu. Lakin yerli – türk xalqı düşündüyümüzdə, bizlər əsrlər boyu davam edəcək erməni zülmünü daha sonralar, dərin ağrıacıyla, qanla yaşayacaqdıq.

Lakin fəlakətlərin ardından 1918-ci ildə Azərbaycan müstəqilliyini bərpa edir, Azərbaycanda Xalq Cümhuriyyəti qurulur. 1920-ci ildə aprelin 27-də özünü Rusiya çarlığının davamı hesab edən Sovet Rusiyası Azərbaycanı yenidən işğal edir. Daha sonralar ermənilər rus hakimiyyətinin dəstəyi ilə yaşadıqları-mənimsədikləri əraziləri genişləndirmək üçün Azərbaycanın digər ərazilərinə hücum eləməyə başlayırlar və bu şəkildə Azərbaycanın ürəyində “Qarabağ yarası” açılır. 1988-ci ildən qondarma Ermənistan ərazisindən türk-azərbaycanlıların köçürülməsindən sonra Qarabağda qanlı etnik təmizləmə başlanır. Qarabağın müxtəlif ərazilərində aparılan qanlı əməliyyatlar Azərbaycan xalqının qan yaddaşına çevrilir. Beləcə, Qarabağ müharibəsinin I hissəsinə 1993-cü ildə məğlubiyyət kimi görünən fasilə verilsə də, elan olunmamuş mü-

haribə heç bir zaman dayanmadı, Azərbaycan xalqı nə onların torpağına əl uzadan düşməni, nə də, soydaşlarını öldürən erməni separatçılarını unutmadı. Azərbaycan xalqının bir fərdi olaraq hər birimiz  Qarabağın qanlı tarix səhifələrini vərəqlədikcə, bir gün Qarabağımızı azad görəcəyimizə inandıq. Çünki, biz qədim Oğuz türklərinin, Səlcuq türklərinin, Səfəvi qızılbaşlarının dövlətçilik ənənələrinin varisləri idik. Xalqımız heç bir zaman tarixinin şanlı səhifələrini unutmamış və hər zaman tarixin zəfər dolu misralarından ilham almışdır.

44 günlük mərdcə davam edən Vətən müharibəsi xalqın ümidlərini doğrultdu. "Qucaqda Qarabağdan qaçqın düşən balalar, tank belində" öz doğma yurdlarına qayıtdılar. Lakin 27 sentyabr başlayan müsəlman-türk oğullarının Vətən eşqi ilə atılan nərələri zəfəri bizə gətirdi. Azərbaycanın ən yeni tarixi sayılan bu "44 günlük müharibə"də ermənilərin bizdən 5 ildə rus 366-cı alayın dəstəyi ilə, silahazlığı və ordumuzun zəif olması səbəbilə işğal etdikləri əraziləri qaytarmaq üçün xalqın və igidlərimizin göstərdiyi rəşadət və qəhrəmanlıqlarının sərgiləndiyi döyüş arenasına çevrildi. Bütün dünya "Bir gün Azərbaycan da güclənəcək" – deyən Ulu Öndərin arzuladığı gücünə qovuşmağına şahid oldu. Lakin bizim işimiz bununla bitmir. Mənfur düşmən hər zaman olduğu kimi indi də öz alçaq əməllərinə davam edir. Azərbaycan igidlərinin qarşısında dayana bilməyən düşmən öz hirsini flora və faunaya zərər verməklə çıxmağa çalışır.

Oğullarımızın qəhrəmanlıqlarına gəldikdə onları tək-tək sadalamaqla bitməz. Lakin sosial şəbəkələr vasitəsilə tanıdığımız bozqurdlarımızın dillərə dastan olacaq qəhrəmanlıqlarını vurğulayardıq:

Şuşa uğrunda şəhid olan Ələddin Səidov, Şəhid mayor Quliyev Elnur, itki düşdüyü güman edilən, lakin 50 gün sonra şəhid xəbəri gələn Ülvi Hacıyev, şəhid baş leytenant Babayev Şamil, şəhid gizir Cavid Tarverdiyev, Mövlanov Elgün – Altay

qardaşları və s. qardaşlarımızı adlarını çəkə bilərik. 2873 can – II Qarabağ müharibəsi adı ilə tanıdığımız Vətən müharibəmiz bizdən 2873 can alsa da, əslində, 2873 ailəyə, minlərlə dosta, tanışa, nişanlıya fəxrlə də olsa yoxluqlarını yaşadan 2873 qəhrəmanımız aramızdan ayrıldı. Unutduq mu?! Xeyr, unutmadıq, unudacağıq mı?! Xeyr, öz canları bahasına bizim, xalqımızın, Vətənimizin, Xocalıda tapdalanan heysiyyatımızı, namusumuzu, qeyrətimizi qorumaq üçün Şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızı necə unuda bilərik?!

Lakin müharibənin bizdən aldığı 2881 canla birlikdə onlarla çiyin-çiyinə döyüşən qazilərimizi, ən az onlar qədər cəsarətli və qorxmaz qazi oğullarımızı da unutmadıq, unutmuruq, unutmayacağıq və unutdurmayacağıq!

Bu müharibənin necə başladığını düşünsək, I Qarabağ müharibəsindən sonra zəifləmiş, ruhən çökmüş xalqımıza əslində, kim olduğumuzu və hansı genin daşıyıcıları olduğumuzu bizə məhz şəhid qəhrəman Mübariz xatırlatdı. Əslində, əsrlərin sınağından çıxmış bir xalqı diz çökdürüb, tarixin şanlı səhifəsindən silməyə çalışanlar, bu yolda min bir planlar quraraq bir az sadə, xəyanətdən haramdan qorxduğu qədər qorxan, doğruya, ədalətə Haqq əmri deyə itaət edən, hiylədən uzaq bir xalqın tarix səhifəsindən silməsini ümid etdilər. Sınmasına, diz çökməsinə inandılar, diş qıcadılar. Namusuna həyatından daha çox qoruyan olan insanların namusunu tapdalayaraq, Azərbaycanı əbədi gömdüklərinə inandılar. Yalnız, qəhrəmanlar ölməz! Onlar anaların laylası ilə, ataların öyüdü ilə boy verər, cücərər. Bir gün Mübariz doğular,mübarizlər doğurar. 44 günlük müharibə, əslində, 44 gündə deyil, təklənmiş xalqın Mübarizinin doğuşu ilə başladı. İmanı ilə silahlanıb düşmən üzərinə yalnız gedən Mübarizin bir gecə doğuşu ilə, şəhadəti ilə başladı. Bir filosofun – “Qəhrəmanlıq, ölümə gedərkən həyatını heçə sayan insanın düşüncə tərzidir” – ifadəsini xatırladım. Bu dəfə ölümə – yenidən dirilişə tək Mübariz deyil,

bütün Azərbaycan xalqı ayaqlandı. Qəhrəmanlıq, şəhadət arzusu ilə var olanı yenidən yaşatdı! Mübarizlər doğurdu!“Mən yolumu seçmişəm. Düşməndən ürəyimcə qisas almasam, elə bilərəm ki, Allahım da, valideynlərim də məni bağışlamaz. Vətənin azadlığı üçün qurban lazımdırsa, biri mən...” – deyən Mübariz də öz həyat yolunu vətənin azadlığına həsr edir. Qarabağ üçün ölümü belə gözə alan Mübariz Qarabağın azad olduğunu görə bilməsə də, 2010-cu ildə müharibənin ilk qığılcımını atan Mübariz İbrahimov Azərbaycanda qəhrəmanlığın simvoluna çevrilir. Generalımız Hikmət Həsənov mübariz Mübarizimizi unutmayaraq, onun şəhid olduğu posta bayrağımızla bərabər, Mübarizimizin şəklini asmışdır.

Vətəni öz canı bahasına qoruyan şəhidlərimizlə yanaşı, qazilərimiz də çoxdur. Vətən üçün hər şeylərini qurban verməyə hazır olan bu igidlər müharibədən sonra yaşadıqları çətinlikləri və göstərdikləri rəşadəti bölüşmüşlər. Bəzilərinin haqqında xalqımızı məlumatlandırmaq bizim vətəndaşlıq borcumuzdur. Füzuli uğrunda gedən döyüşlərdə minaya düşərək sol ayağını itirən baş çavuş Kənan Həsənov, Qubadlı istiqamətlərində gedən döyüşlərdə əlindən qəlpə yarası alan könüllü Rufin Həsənov, Qubadlı uğrunda gedən döyüşlərdə yaralanmış və uzun müddət komada qalmış qazimiz Ramiz Qasımov, Cəbrayıl istiqamətində gedən döyüşlərdə yaralanan qazimiz İsayev Valeh, Füzuli istiqamətində gedən döyüşlərdə yaralanaraq bir ayağını itirən qazimiz Kənan Kərimli, Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı istiqamətlərdə döyüşmüş və yaralanmış qazi Zeynallı Bəxtiyar, II Qarabağ müharibəsi iştirakçısı, eyni zamanda aprel döyüşlərində iştirak etmiş Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı və Laçın koridoru istiqamətində döyüşmüş və Şuşa uğrunda gedən döyüşlərdə yaralanmış qazimiz Əliyev Elçin və başqaları. Qazilərimiz və şəhidlərimizlə yanaşı müharibədə var-gücləri ilə savaşmış generallarımız Mayis Bərxudarov, Tehran Mənsimov, Vətən müharibəsi qəhrəmanları Şuşa fatehi

general Hikmət Mirzəyev, İslamzadə Namiq, Zaur Məmmədov, Kənan Seyidov, polkovnik Babək Ələkbərov, Telman Hüseynov, Raqif İsrayılov, Nizami Mövlanov, polkovnik-leytenant Orxan Əkbərov, Xaliq İbrahimov, Faiq Qasımov, Anar Mirzəyev, mayor Mirdamət Bağırov, Zaur Hüseynov və başqalarının Vətən üçün savaşdıqlarını, eyni zamanda qardaşım MAHHXHQ **Elxan ƏLƏKBƏRO-Vun** dövlətimiz və xalqımız üçün Vətən müharibəsində qəhrəmanca iştirakını qeyd etmək istərdik.



Bizim üçün müharibənin ağır günlərində ordumuzun irəliləməsi xəbərini gözlədiyimiz anlarda, heç bir yerdən məlumat ala bilmədiyimiz zamanlarda qardaşımın bizə bir kəlmə ilə “hər şey yaxşıdır” deməsi rahatlatmışdır. Hər dəfə Qarabağa gedib, oradan öz hərbi hissələrinə qayıtdıqda “Qarabağın müqəddəs havasını ciyərlərimə çəkmişəm” dediyində səsindəki sevinci sözlə ifadə etmək mümkün deyil. Lakin vətənsevər bir hərbçi bacısı olaraq şahid olduğum duyğusal anlarda, məndən yaşca kiçik olan qardaşımın, əslində, böyüyüb vətən uğrunda müharibə aparan məsuliyyətli, qorxmaz, cavan və mərd bir igid olduğunu gördükcə qürurlanıram.

Biz analar, bacılar, xanımlar şəhidlərimizə Tanrıdan rəhmət, qazi və hərbi qulluqçularımıza uzun ömür arzu edirik! Və inanırıq ki, bu bizim son qələbəmiz deyil, Uca Yaradanın izni ilə növbəti qələbə və rifah dolu günlərimiz daha qarşıdadır!!!

*Lalə Ələkbərova*

## BU MÜHARİBƏDƏ canlı olaraq nələri gördük?

## Vətən keşikçilərimizi Allah qorusun!

1. Öz oğlunun tabutu qabağında oynayan ana;
2. Öz nişanlısının ölümündən sonra intihar edən qız;
3. Öz ərinin cənazəsini çiyinlərində daşıyan qadın;
4. Öz qızının bağırsaqlarını yerdən yığan ata;
5. Öz oğlunun qəbrinə girib "oğlumla yatmaq istəyirəm deyən" ana;
6. Əli, qolu olmaya-olmaya "mən Vətən üçün heçnə edə bilmədim" deyən qəhrəman;
7. Ürəyində qəlpə ola-ola "canım qurban, bu Vətənə" deyən əsgər;
8. Əsgərinə "bu mənim qardaşımdır" deyən General;
9. Öz oğlunun məzarında "Xocalı qisası almısan buna görə ağlamıram" deyən ana;
10. Can verəndə "qızım üçün darıxıram" deyən əsgər;
11. Öz uşaqlarının corablarını cibində gəzdirib, döyüşə girəndə onları öpən əsgər;
12. Oğlunun tabutu gələndə xonça ilə qarşılayan ana;
13. Hospitalda can verərkən "axı, niyə Şuşanı görmədim?" deyib Suqovuşanda yaralanan əsgər;
14. Özü can versə də, Şuşada öz döyüş yoldaşını ölümdən qutaran əsgər;
15. "Siz evlisiz, mənsə subay" deyərək erməni generalını öldürüb, zabit heyətimizi ölümdən qutarıb, Polad Həşimovun qisasın alan əsgər;
16. Yırtıq ayaqqabı ilə Asan xidmətə gəlib, pensiyasını əsgərlərə hədiyyə edən qoca kişi;

17. Oğlunun cənazəsi gələn yolu əyilib öpən və "südüm sənə halal olsun , oğul" deyən ana;

18. "Sən idmanla məşğul olmusan, canavar kimi öldür onları, məhv et!" deyə nəvəsinə ruh verən nənə;

19. Döyüşə getmək üçün hərbi çağırış komissiyasının işçiləri ilə dalaşan oğullar;

20. Döyüş bölgəsinə könüllü yollanan həkim qadınlar;

21. Canından keçməyə hazır könüllü yazılmış cəsur qadınlar;

22. Bütün xarici təzyiqləri dəf edərək, siyasi gücləri susdurmağı bacaran ölkə başçısı;

23. Eyni səngərdə döyüşən ata-oğullar;

24. Yatağında qanına qərq olan günahsız insanlar;

25. Üzü-gözü qan içində kameraya gülümsəyən yaşı kiçik, ürəyi böyük qəhrəmanlar;

26. Öz cehiz yorğan-döşəyini əsgər qardaşlarına göndərən qızlar;

27. Günlərlə yuxusuz qalıb, əsgər övladları üçün yeməklər hazırlayan analar;

28. Cibinin bəlkə də son manatı ilə əsgər qardaşlarına corab, əlcək, siqaret alıb aparan oğullar;

29. Nəhayət, yumruq kimi birləşmiş əlli milyon azərbaycanlı və ona dəstək, qardaş olan ölkələr.

*Hələ də mənə yuxu kimi gəlir,*
*Biz Qarabağı azad etdik.*
*Millətimlə fəxr edirəm.*

*Tofiq İsmayılzadə*

# Abbas ABBASLI 🇦🇿 Nurlan ABBASZADƏ
# QARDAŞLAR



Vətən uğrunda çiyin-çiyinə döyüşən qardaşlar!

Abbaslı Abbas Əfqan oğlu və Abbaszadə Nurlan Əfqan oğlu (Cəbrayıl rayonu, Xələfli kəndi) Abbas və Nurlan Vətən müharibəsi başlayan kimi cəbhəyə yollandılar. Qardaşların döyüş yolu doğma yurdları Cəbrayıldan başladı, Füzuli, Hadrut, Xocavənd uğrunda döyüşlərdə iştirak etdilər. Xocavənd uğrunda döyüşlərdə düşmənin basdırdığı minaya düşən Abbas ayağının birini itirdi (Allah şəfa versin). Nurlan isə döyüş xidmətini davam etdirir. "Ali Baş Komandanın əmri, mənim və məndən də güclü əsgərlərimizin sayəsində Qarabağ artıq bizimdir".

44 günlük Vətən Müharibəsində öz igidliyi ilə seçilən qazi Abbas Abbaslı xidmətini davam etdirən əsgər yoldaşlarının da sağ-salamat ailələrinin yanına qayıtmasını diləyir.

23 yaşlı qazimiz əslən Cəbrayıl rayonundan olsa da, daha əvvəl uğrunda döyüşdüyü bu torpaqlarda olmayıb:

"Azərbaycanın hər bir qarışı bizim üçün əzizdir. Əslən Cəbrayıl rayonundanıq. Döyüşlər başlayanda hərbi hissədə idim. İki dəfə həyəcan siqnalı verildi. Biz çox istəyirdik ki, üçüncü dəfə həyəcan siqnalı eşidilsin və biz döyüşə gedək. Nəhayət ki, gözlədiyimiz həyəcan siqnalı eşidildi və döyüşə yollandıq. Döyüşdür, bilmək olmaz deyə əsgər yoldaşlarımızla görüşüb, halallaşdıq". Abbas Abbaslı deyir ki, döyüşə gedən zaman həyatında heç vaxt görmədiyi analar onun və digər əs-

gər yoldaşları üçün dua edir, onları ruh yüksəkliyi ilə yola salırdılar. "Maşının arxasınca qaçanlar, su, siqaret və s. verməyə çalışanlar olurdu. Xalqımızın birliyi bizi daha da sevindirirdi".

Vətən uğrunda topçu kimi mübarizə aparan Abbas Abbaslı düşmənin yerləşdirdiyi piyada əleyhinə minaya düşərək əlindən yaralanıb, sağ ayağını isə dizdən aşağı itirib: "Biz irəli getdikcə güclü top atəşinə tutulurduq. Mövqelərimizdə möhkəmlənib verilən hədəflərini məhv edirdik. Bizim artilleriya bütün döyüş tapşırıqlarını tam dəqiq yerinə yetirdi. Biz bu döyüşdən üzüağ çıxdıq. Minaya düşməyim isə gözlənilməz oldu. Düşünmürdüm ki, o ərazidə mina olar. Elə ayağımı atmağımla göyə qalxmağım bir oldu. Yıxılanda gördüm ki, ayağım artıq yoxdur, dayanmadan qan axır. Yaxınlıqda heç kim yox idi. Ayağımı əlimə götürüb 500 metr yolu tək gəldim. Yolda bir anlıq ayağımın vəziyyətini görüb qəbul edə bilmədim. Əlimi silahıma atdım ki, özümü vurum. Gördüm ki, silahım yoxdur. O an orada özümü öldürmək istədim. Çətindir, qəbul etmək çox çətin gəlir. Amma bilirəm ki, bundan sonrakı mərhələdə daha da çətin olacaq. Heç kim istəməz ki, belə bir şey yaşansın. Amma bu Vətən uğrunda olubsa, peşman deyiləm. İnşallah ayağa duracağam".

*Oxu.az*



# Afiq QASIMOV



*Mənim döyüşçü qardaşım: Murovda vuruşmuş qəhrəmanlardan biri - Afiq Qasımovun döyüş yolundan qeydlər.*

*Doğmaca qardaşım və Vətən müharibəsi! Bu, müharibə idi... Hər şey ola bilərdi... Amma şükürlər olsun ki, döyüşlərdə xüsusi qəhrəmanlıqlar göstərmiş qardaşımdan belə bir yazı yazmağı Tanrı mənə qismət elədi.*

Qalib bir ölkənin yazarı kimi, qələbəmizdə misilsiz xidmətləri olan qardaşımdan söz açmağın qüruru izah olunmaz hissdir. Yadına düşəndə ki, bu fəxarətli anları yaşayana qədər hansı sarsıntıları keçirmisən, hansı təlaşları yaşamısan o zaman qələbəmizin necə əvəzedilməz bir nemət olduğunu anlayırsan. Yaşadığın bütün gərginliklərə baxmayaraq vətənimizin zəfər qazanmasında sənin də doğma(lar)ının olması gerçəkliyi insana xüsusi zövq verir. Bəzən deyirlər ee, bizim elə oğullarımız var ki... Bəli, məhz elə oğullarımız. Bu elənin ehtiva etdiyi mənaları xırdalamaq fikrim yoxdur. Amma duyanda ki, məhz elə oğullardan biri də sənin doğmandır, həyat gözündə tamam başqa məna daşıyır. Və elə oğullarımızdan birini odun-alovun içinə göndərirsən.

Qardaşım Afiq 27 sentyabr tarixində özünü yetirən müharibənin ilk günündən Murovda, topçu-hesablayıcı kimi döyüşlərin tam mərkəzində olub... İki qardaşımdan böyüyü olan Qasımov Afiq Vaqif oğlu 14 fevral 1988-ci ildə Tovuz rayonunun Dondarquşçu kəndində doğulub və Dondarquşçu kənd məktəbində oxuyub. 2006-2007-ci illərdə Naxçıvanda ilyarımlıq əsgərlik xidməti keçib. Qardaşım hələ uşaqlıqdan hərbiçi olmaq arzusunda idi. Tale isə onu vətənin işğal altındakı torpaqlarını azad edən döyüşçülərimizdən biri olmaq duyğusunu ya-

şatdı. Afiq 9 iyul 2014-cü ildən manqa komandiri kimi xidmətə başlayıb və 28 may 2015-ci ildə kiçik çavuş rütbəsi alıb. Uğurlarının davamı olaraq 2 yanvar 2016-cı ildə çavuş rütbəsinə yüksəlib. Aprel döyüşləri vaxtı da günlərlə gərgin rejimdə xidmət edənlərdən olub.28 fevral 2020-ci ildən Divizion İdarəetmə tağımının hesablayıcı manqa komandiri-baş operator vəzifəsini icra edib. 2020-ci ilin iyul ayında Tovuz döyüşlərində də topda əsas hesablayıcılardan biri olub. Döyüşlər yeni başlayan vaxtlar idi. İlk dəfə yaxınlığında döyüş yoldaşı yaralanır. Hər kəs bunun sarsıntısını çox ağır yaşayır. Qardaşım isə xüsusi cəsarət göstərərək həmin yaralını xilas edib, yarasına ilkin tibbi yardım edənlərdən olur. Beləcə, artıq müharibənin hər üzünü görməyə başlayırlar.

Dörd oktyabr tarixində döyüşlərin ən qızğın çağında bata-



reyaların bitməsinə görə qarşıdakı hərbçilərimizlə rabitə əlaqəsi kəsilir. Vəziyyət çox çətin olduğundan komandir hər kəsə olduğu mövqeni tərk etməməyi əmr edir. Qardaşım isə bu əmrə rəğmən başına mərmi yağa-yağa rabitənin sönmüş batareyasını yenisi ilə əvəzləməyə gedir və rabitə əlaqəsini bərpa edir. Onu həmin durumda sadəcə tanrısal möcüzə sağ saxlayır. Onun bu cəsarətindən sonra digər döyüşçülərimizlə rabitə bərpa olunur

və hərbçilərimiz böyük bir təhlükədən xilas olurlar. Ən həyəcanlı anlardan birinin tarixçəsi: Bizim düşmən tərəfə keçən kəşfiyyatçılarımızın mühasirəyə düşməsi xəbərini alırlar. Qardaşımın da daxil olduğu hesablayıcı komandanın dəqiq hesablaması əsasında düşmənə atılan atəş nəticəsində kəşfiyyatçılarımız xilas edilir. İndi ikicə cümlə ilə nəql edilən o anların gerçəklikləri əsl ölüm-dirim mübarizəsi olub.

Hələlik, müharibə vaxtı yaşanmış hadisələrdən bunları öyrənə bilmişəm. Bu cür təhlükəli vəziyyətlərdən çıxmış qardaşımın, nə yaxşı ki, tabeçiliyində olan bütün əsgərləri sağ-salamatdır. Və müharibənin ən tükürpədici diqtəsi... Bir bacı olaraq həmin gerçəklikləri dilimə gətirməyə cəsarətim çatmır. Söhbət bütün döyüşçülərimiz kimi, qardaşımın da öz döyüş yoldaşlarına, əgər... Cibində gəzdirdiyi bayrağı böyük oğlu Mətinə, saatını isə kiçik oğlu Məftuna çatdırmağı xahiş edir. Tanrıya şükürlər olsun ki, indi onun balaları qalib Azərbaycan döyüşçüsünün nəfəsini duyurlar. Onun xarakterinə bələd olduğumuz üçün çox narahat idik. Özünü hər cür təhlükəyə atmağa hazır olan xasiyyətinə görə telefonla danışmaq imkanımız yarananda həmişə ondan ehtiyatlı və diqqətli olmağı xahiş edirdim. Qardaşım Afiq əfsanəvi şəhid generalımız, Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovu sonuncu görən hərbçilərimizdəndir. Həmin döyüşlərdən sonra özü könüllü olaraq Murovda xüsusi hazırlıq işləri aparan dəstənin tərkibində ora gəlmişdi. Müharibəyə qədər Murovun sirlərinə bələd olmağa can atırdı. Ən əsası odur ki, müharibə başlayandan bütün xalqımızın ən böyük duasına çevrilən “döyüşçülərimiz sağ-salamat, qələbə ilə qayıtsın” – alqışı Tanrı dərgahında qəbul olundu.

*Gülnar Səma*
*bacısı*

## Alik MƏMMƏDOV



"Şuşaya kanatla qalxdıq, döyüş əmrindən öncə yarım metr qarda 14 saat kəşfiyyatdan sonra, 400 nəfər Şuşaya yaxınlaşmalı, o dağı, sıldırımı dırmaşmalı idi. Bıçaq, tapança, limonka ilə döyüşə gedirdik. Bizi nə gözləyir bilirdik. 500 erməni dığasının biz daxil olduğumuz tərəfdə olduğu məlumatını əldə eləmişdik. Ən az sayda bu tərəfdə yerləşmişdilər, başqa mövqeylərində ağır artilleriya və canlı qüvvə sayı burdakından azı üç dəfə çox idi, çünki onlar bizim ordan, yollardan hücum edəcəyimizi güman edirdilər. Heç bir insanın ağlına gəlməyəcəyi sıldırımları dırmaşıb, döyüşə artilleriyasız girəcəyimizi düşünmürdülər. Nəinki onların heç kəsin ağlına gəlməzdi ki, biz bıçaqla Şuşanı almağı düşünürük. Generalımızın (Hikmət Mirzəyev) düzgün döyüş tapşırığı, düzgün koordinatları olmasaydı məhv ola bilərdik.

Amma hər şey zərgər dəqiqliyi ilə ölçülüb biçilmişdi. Biz qayaları dırmaşıb, əlbəyaxa döyüşə girdik. Dəqiq deyə bilməyəcəyəm, təxmini desəm, 40-a yaxın erməniyə bıçaq salıb çıxartmışam həmin hücum vaxtında. Onların arasına düşən panika belə general tərəfindən hesablanmışdı, panika yaranan kimi tapşırıq əsasında hərəmiz dəstə-dəstə əks istiqamətlərdə dağılışdıq. Ermənilər artıq həyəcan və qorxudan özlərinə atəş açırdılar. Onlar hətta öz əsgərlərinə belə inanmırdılar, yaxınlaşan erməni ermənini vururdu, çünki onların formasında belə biz ola bilərdik. Şuşa döyüşü bizim əzəmətimizi, gücümüzü, əsgərimizin qorxmazlığını onlara göstərdi. Onlar Şuşanı bir il dayanmadan müdafiə edə biləcək sayda silah sursat və canlı qüvvə ilə təmin eləmişdilər. Şuşa şəhidlərimizin qanı bahasına, kişiliyi, qorxmazlığı bahasına bir neçə saatda alındı".

Tanıyaq belə qəhrəmanları – tabeliyində 360 şəxsi heyəti olan qazi Alik Məmmədov! Alik Məmmədov kəşfiyyatçıdı, üzlərini döyüş boyu görmədiyimiz qəhrəmanlardandır. 10 ildi hərbi qulluqçudu. Astaradandı. Mübariz İbrahimovun kursant yoldaşı olub. "Hər öldürdüyüm ermənini Mübariz və Polad" deyib məhv eləmişəm, - deyir.



***

*"Bu savaşın daha bir özəlliyi o oldu ki, heç kim ölümdən qaçmadı, əksinə, hamı ölümün üzərinə yeridi, sağ qalmaq isə sadəcə şans məsələsi oldu..." – Zabitin dediklərindən.*

## Araz AĞAMƏMMƏDOV

Araz Azad oğlu Ağaməmmədov (1991) Kəlbəcər, Hadrud və Qırmızı Bazar istiqamətlərində ağır döyüş cəbhəsində olub. Hazırda Şuşada hərbi xidmətdədir. Şabran rayonundan könüllülər sırasında Vətəni işğalçılardan xilas etmək üçün hərbi sıralardadır.



*Həqiqət B.*

## Aqil TAHİRLİ

Qərbi Azərbaycanımızın Zəngəzurun Urud kəndinin qeyrətli oğlu Aqillə fəxr edirik!



Fizuli rayonunun alınmasına görə Oğlum Tahirli Aqil medalla təltif olunub Qürur duyuram.

*Fikrət Tahirli*



## Aslan ALLAHVERDİYEV



Kapitan Aslan Allahverdiyev Arif oğlu bölük komandiri əvəzi, sonra isə tağım komandiri vəzifəsində xidmət edir. II Qarabağ Vətən Müharibəsində qəhrəmancasına döyüş yolu keçib.

Allah qorusun!

## Aslan ƏLİYEV



Əliyev Aslan Nüsrət oğlu 1987-ci il 15 iyunda Bakı şəhəri Kürdəxanı kəndində doğulub. Bakı şəhəri 143 saylı orta məktəbin 8-ci sinfini bitirdikdən sonra hərb peşəsinə yiyələnmək üçün Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olur. Təhsilini uğurla başa vuran Aslan peşəsini davam etdirmək üçün Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olur. Mükəmməl hərbçi kimi yetişmək, Vətəni qorumaq onun əsas amalına çevrilir. 2009-cu ildə Əliyev Aslana "leytenant" hərbi rütbəsi təqdim edilir. O, Silahlı Qüvvələrin Təlim Tədris mərkəzində "zabit dinləyici" kursunu uğurla keçir. 2010-cu ildən Aslan aktiv hərb peşəsinə başlayır: Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəyə göndərilir və xidmətə ön xətdən başlayır. Hərbi qulluğunda məsuliyyəti və səriştəsinə görə 2012-ci ildə "Baş leytinant" hərbi rütbəsinə layiq görülür.

2016-cı il "Aprel döyüşləri"ndə fəal iştirak edir, qəhrəmanlıq göstərir və 2016-cı ilin iyun ayında "Kapitan" rütbəsinə layiq görülür .

Aslan Əliyev 2016-cı ildən 2020-ci ilə kimi Goranboy və Ağdam rayon hərbi hissələrində xidmət göstərmişdir.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə cəlb olunur, qaynar əməliyyatlarda fədarkarlıqlar göstərir. Oktyabr ayının 3-də düşmən tərəfindən atılan mərmilər nəticəsində qolundan, dizindən və topuq nahiyəsindən qəlpə yarası alır. Qəbələyə müalicəyə gedən Aslan müalicəsini yarımçıq kəsərək döyüş yoldaşlarının yanına qayıdır, qələbə gününədək qəlpə yaralarına baxmayaraq səngərdə mərdliklə döyüşür. Hazırda kapitan Aslan Əliyev Ağdamda yerləşən "N" saylı hərbi hissədə şərəflə hərbi vəzifəsini yerinə yetirməkdədir.

İgid qazimiz döyüşlərdə göstərdiyi igidliyə görə Ali Baş Komandan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanları ilə 18 dekabr 2020-ci ildə “Cəsur döyüşçü” medalına və 29 dekabr 2020-ci ildə isə “Ağdamın azad olunmasına görə” medalına layiq görülmüşdür.



*Xatirə Bəşirli*
*Elvin Aslanov*








## Ayaz ABBASOV




Araz boyu tapşırıqları komandir Zaur Quliyev və komandanın üzərinə düşmüşdü. Düşmənlə üzbəüz döyüş aparan igidimiz Ayaz Mayıl oğlu Abbasov Cəbrayıl şəhərində, Sükurbəyli kəndində qızğın döyüşlər zamanı ayağından güllə yarası alıb. Bir arzusu var idi. Üç rəngli bayrağımızın döyüş yoldaşları ilə birgə dalğalanmasını görmək və al bayrağımızı düşməndən azad etdikləri mövqelərdən asmaq. Çox təəssüf ki, bayrağı asmağa nail ola bilmədi. O, ağır yaralandı və əsir düşdü.04 oktyabr 2020-ci ildə əsirlikdən azad olunub.

*Həqiqət B.*

## Azər ABDULLAZADƏ



Ali Baş Komandan tərəfindən "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülən cəsur əsgərimiz.

Əsgər Azər Abdullazadə döyüşlər zamanı öz tankı ilə düşmənə sarsıdıcı zərbələr vurmuş və onun xeyli sayda canlı qüvvəsini məhv etmişdir. Qızğın döyüşlərin birində düşmənin atdığı mərmi onu üzündən yaralamışdır. Hal-hazırda cəsur əsgərimiz hospitalda müalicə alır, tezliklə sağalıb ayağa qalxacaq.

## Bayram VƏLİYEV



Bu gün sentyabrın 28-dən könüllü olaraq Vətən Müharibəsində iştirak edən, hazırda şərəfli fəaliyyətini qarlı Murovda davam etdirən qardaşoğlu Bayramın ad günüdür. Bayramın timsalında ad günü olan bütün əsgərlərimizi təbrik edir, qollarına qüvvət olsun deyirəm. Bu Vətəni Siz bütövlüyünə qovuşdurduz, gümanımız, gələcəyimiz sizə bağlıdır, var olun!

*Akif Aşırlı*

## Bir bacının qazi QARDAŞI



İgid qazimiz Vətən müharibəsi uğrunda gedən döyüşlərdə yaralanıb.

"Salam mənim qardaşımı da paylaşın. Oktyabr ayının 4-də cəbhədə gedən döyüşlərdə yaralanıb. Hər kəs dua etsin bəlkə sağlamlığına qovuşar".

## Camal ALXASOV



20 yaşlı Qazi

“Bir dəqiqə... Bəlkə də həyatımın bütün axarını dəyişəcək o dəqiqəni gecikdim. Üç nəfər idik. Silah yoldaşlarım irəlidə, mən isə axırda gedirdim. Onlar yubanmadan səngərə girdi. Elə irəli atılıb, səngərə girəcəkdim ki, düşmənin atdığı minaatan mərmisi düz yanıma düşdü. Partlayışın dalğası məni havaya qaldırdı, elə göydə ayaqlarımı kəsib atdı. Bədənimin ikiyə bölündüyünü gözlərimlə gördüm...”

Bu sözlərin müəllifi İkinci Qarabağ müharibəsinin yaşı az olsa da, ürəyi böyük, mərd və cəsarətli qazisi, Sumqayıt şəhər sakini, 2001-ci il təvəllüdlü Alxasov Camal İlqar oğludur. Camalı sosial şəbəkələrdən tanıyırsınız. Sumqayıtın ən ağır yaralanan qazilərindən biridir.

Sumqayıt şəhər 34 nömrəli tam orta məktəbin məzunu olan Camal Alxasov 2019-cu ilin aprel ayında Ağcəbədi rayonun “N” saylı hərbi hissəsində həqiqi hərbi xidmətə çağırılıb. Müharibə başlayanda hərbi xidmətdə olduğunu deyən Camal Alxasov müvafiq əmrlə Füzuli istiqamətində gedən döyüşlərə qatıldığını bildirib.Vətən torpaqları uğrunda bədəninin yarısını qurban verən Camal qanlar içərisində atası ilə danışıb. Atasının “Necəsən?” sualına isə “yaralanmışam, amma bomba kimiyəm” deyən Camal hər kəsə mərdlik, igidlik nümunəsi oldu.

44 günlük müharibədə yaşananları isə qəhrəman qazimizin elə öz dilindən eşidək.

İkinci Qarabağ müharibəsinin 20 yaşlı qazisi Camal Alxasovla müsahibəni təqdim edir:

- Müharibənin başladığını hərbi xidmətdə öyrəndiniz. Ailənizə məlumat verə bildiniz?

- Düşmən bizə qarşı növbəti dəfə təxribatlara əl atdı. Onlara layiqli cavab verilməli idi. Bizə də müharibənin başlandığı barədə məlumat verildi və ilk olaraq Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etdik. Mən orada maddi texniki təminat işinə baxırdım. Səngərdə olan əsgərlərə silah-sursat, qida daşınmasına baxırdım. Bizim taborun maddi-texniki təminat bölüyündə idim.

- Güllə yağışında maşın idarə etmək çətin deyildi?

- Çox çətinlik olurdu. Artilleriya atəşinə məruz qalırdıq. Müharibə bitənə qədər Qubadlıyadək mübarizə apardıq. Biz evlərdə yatmırdıq ki, minaatanla vurarlar, ev uçar başımıza. Çöldə yaş torpaqda yatırdıq. Füzulidə, Cəbrayılda, Qubadlıda altında yatmadığımız ağac, kol-kos qalmamışdı. Səhərə qədər üstümüzə şeh düşürdü.

*"Döyüş meydanında dəfələrlə atəşə tutulmuşuq"*

- Neçə nəfər birlikdə hərəkət edirdiniz?

- Biz üç nəfər idik. Mən sürücü idim, digər iki nəfər isə mənimlə birlikdə gedirdi. Vaxtımız az olurdu, ancaq tapşırıqlara uyğun olaraq lazımi şeyləri əsgərlərə çatdırırdıq. Oktyabrın 31-nə qədər dəfələrlə ölümdən qurtulmuşduq. Amma o gün qismət belə idi, belə oldu...

- Hadisənin oktyabrın 31-i baş verdiyini dediniz.

- Qubadlıda bizim 10 tonluq su maşınımız qalmışdı. Ayın 31-i səhər-səhər üç nəfər həmin maşının arxasınca getmişdik. Yarım saat maşını təmir etməyə çalışdıq. Elə həmin an düşmənin atdığı minaatan mərmisi maşının yaxınlığına düşdü. Qəlpələrdən biri gözümün küncünə dəydi, o biriləri isə qollarımı müxtəlif yerlərdən yandırdı. Zərbədən sonra ərazidən kənara qaçdıq. Sonra gizləndiyimiz hasarın yaxınlığına daha bir minaatan mərmisi düşdü. Oradan uzaqlaşmaq istəyəndə polkovnik-leytenant Tahir Məmmədov əli ilə bizim onlar tərəfə gəlməli olduğumuzu işarə etdi.

*"O günü heç vaxt unutmayacam"*

- Yaralanmağınızı xatırlayırsınız?

- Həmin ərazidən qaçanda bir neçə dəqiqəmiz vardı. Çıxmasaydıq, həmin mövqeləri bombalayacaqdılar. Əsgərlər irəlidən qaçdı, mən də arxada idim. Orada zirzəmi vardı, qaçdıq ki, ora girək. Cəmi bir dəqiqə... Bütün həyatımı o bir dəqiqə gecikmə həll etdi. Düşmənlə aramızda 200-300 metr məsafə vardı. Zirzəmiyə girməyimə 10 metr qalmışdı ki, minaatan mərmisi düz arxama düşdü. Partlayışın dalğası məni havaya qaldırıb göydə ayaqlarımı kəsdi. Sol ayağımı dizdən 4 barmaq yuxarı, çarpaz kəsdi, sağ ayağımı isə topuqdan aparsa da, qəlpələr sümüyü dağıdıb, baldırımı təmiz parçalamışdı. Qolu üstə yerə çırpıldım, sağ qolum sındı. Barmaqlarım işləmir. Sol əlimin isə barmağı kəsildi, tam qopmamışdı. O qədər qan itirirdim ki, gözlərimi aça bilmirdim.

- *Döyüş meydanında yaralı halda çox qaldınız?*

- Dayanmadan atırdılar. Məni oradan çıxarana qədər bədənimə, qollarıma qəlpələr dəydi. Bir də bəxtim onda gətirdi ki, qəlpələrdən biri şah damarımı yandırdı, qanaxmanın qabağı bir az alındı. Bir müddət sonra uşaqlar məni sürüyə-sürüyə zirzəmiyə saldılar.Döyüş yoldaşlarım mənə "qardaşım, şəhid olursan, uca zirvəyə yüksəlirsən. Axirətdə görüşərik" – dedilər.
Bir kəlmə dedim ki, mənə kömək eləyin.

*"Həyatımı ambulans sürücüsü Ehtiram Quliyevə borcluyam"*

- Bəs sizi oradan xəstəxanaya necə apardılar?

- Mən Qubadlıda gedən döyüşlərdə yaralanıb 2-3 saat o vəziyyətdə zirzəmidə qaldım. Heç bir maşın risk eləyib ora gələ bilmirdi. Nəhayət bir ambulans gəldi və məni Xanlıq kəndinə apardı. Məni güc-bəla ilə maşına qoydular. Xanlıq kəndinə çatana qədər özümdə deyildim. Nəhayət məni xəstəxanaya çatdırdılar. Orada 7-8 saat mənim üzərimdə əməliyyat aparılıb. Heç kim sağ qalacağıma inanmırdı. Çox çətin və riskli əməliyyatı Roman Çobanov adlı həkim etdi. İlk olaraq Ehtiram müəllimin,

daha sonra Roman həkimin sayəsində mən bu gün sizinlə söhbət edirəm. Əməliyyatdan ayılanda dəhşətli ağrılar hiss edirdim. Ayaqlarımdan birini baldırdan yuxarı, digərini isə bir az aşağı kəsdilər. Buna səbəb isə ayağımın zərbədən təmiz parçalanması idi.




Bir neçə santimetr sümük saxlaya bildilər ki, gələcəkdə protez düzəldiləndə istifadə edim. Bir onu bildim ki, dedilər ki, təcili Bakıya çatdırılmasam, yaşama şansım az olacaq. Bakıya isə çatmağım, hansı vəziyyətdə çatacağım sual altında idi. Çox riskli olsa da, itirəcəyim heç nə qalmamışdı. Ehtiram məni Fəxri həkimlə birgə ambulansla Bakıya gətirib çatdırdı.

*"Yaralanmışam, amma bomba kimiyəm"*

- Bakıya çatana qədər nələr baş verdi?

- 31 oktyabr əməliyyatdan çıxmışdım. Bir neçə saat sonra gecə ilə yola düşdük. Ambulansın sürücüsü Ehtiram Quliyev məni Bakıya çatdırmağa nail oldu. Bəlkə də heç kim bu riski gözə ala bilməzdi. Çünki həkimlər mənim sağ qala bilməyəcəyimi demişdilər. Bəlkə mən belə bu qərarı verə bilməzdim, amma yaxşı ki, o bu riski gözə alıb mənim həyatımı xilas etdi. Gecə oyandım, su istədim. Amma mənə su vermədilər. Atama zəng etmək istədiyimi dedim. Sürücü telefonunu verdi ki, al, zəng elə. Yolda atamla danışanda dedim, narahat olma, yaralanmışam "Papanin"ə (Silahlı Qüvvələrin Baş Klinik Hospitalına - red.) gəlirəm. Atam özü də Birinci Qarabağ müharibəsində iştirak edib. Hərbi Hospitala gətirildiyimi deyəndə başa düşüb ki, vəziyyətim ağırdı. Amma mən heç nə demədim. Nəhayət çatdıq. *"Ayaqlarımı yaralandığım yerdə basdırdılar"*

- *Səninlə eyni yerdə olan digər iki əsgərdən xəbər var?* - Əsgər yoldaşlarım mənim xəstəxanaya çatanda şəhid olduğumu zənn ediblər. Onlardan birinin boynunu qəlpə yaralamışdı. Hamı deyib ki, Camal şəhid olub. Sonra polkovnik-leytenant Tahir Məmmədov sağ qaldığımı bilib, mənə zəng etdi. Dedi ki, indi yaralandığım yerdə dayanıb, mənimlə danışır. Mənə dedi ki, ayaqlarının ikisini də burada basdırdıq. Hər şey yaxşı olacaq. Mən ona dedim ki, yaxşıyam. Bilirsiniz, bu vəziyyətim məni incitmir. Vətən üçün canımız qurbandı. Sabah protez qoyulsa, yenə ehtiyac olsa, mən düşünmədən yenə Vətənimə xidmətə gedərəm.Elə silah yoldaşlarımız oldu ki, bir cızıq belə yoxdu bədənində. Amma kontuziyadan heç kimi xatırlamır. Rütbəsini bilmir, ailəsini tanımır. Amma şükür olsun ki, ayaqlarım olmasa da, ağlım üstümdədir.

Xatırladaq ki, prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Alxasov Camal İlqar oğlu "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilib.

*Sabah.az Oxu.az-a istinadən*
*https://sabah.az/?name=xeber&news_id=12461*



# Cavanşir QURBANOV



Qurbanov Cavanşir Famil oğlu 1984-cü il yanvarın 1-də Göyçə Mahalının Kəsəmən kəndində dünyaya gəlib. Daşnaqların üzündən öz doğma vətənimizi tərk edən 4 yaşlı Cavanşir Vətən eşqilə döyünən ürəyində həmişə doğulduğu kəndimizi xatırlayır.

2002-2004 ci ildə Naxçıvanın Şahbuz rayonunda hərbi xidmətdə olub. Xidməti başa vurduqdan sonra öz seçdiyi peşəyə – sürücülük peşəsinə yiyələnir. 27 sentyabrdan Vətən Müharibəsində ön cəbhədə olub. Cavanşir əsgərlərimizə silah-sursat daşıyırdı. Döyüş bölgəsində Horadiz, Füzuli, Cəbrayıl, Cəbrayılın Daşkəsən kəndi, Hadrut qəsəbəsi, Xocavənd, Xocavəndin Tuğ kəndi, Şuşa şəhərində olub.



İgidliklə, mərdliklə həmişə vəzifəsini yerinə yetirib. Zəfərlə, sevinclə sevdiklərinə, iki övladının yanına qayıtdı.

Allah saxlasın!

*Həqiqət B.*

# Cavid HÜSEYNOV



Bu gənc oğlanı tanımayanlar tanısın. Cavid Arzu oğlu Hüseynov 1998-ci il yanvarın 31-də anadan olub.

Əsgəri xidmətini 1 il əvvəl başa vurduqdan sonra İkinci Vətən müharibəsi başlayan gündən bu günə qədər cəbhə bölgəsində vəzifə borcunu yerinə yetirdi və bir neçə gün öncə ata-anasına, sevdiklərinə qovuşdu. Rəbbimizə çox şükürlər olsun.

Cavid Arzu oğlu Huseynov Tərtər rayonunun Talış, Suqovuşan bölgələrində vuruşub. Bütün igid oğullarımızın eşq olsun!

*Həqiqət B.*



## Cavidan HÜSEYNLİ



Bir fotonun tarixi... Cavidan Hüseynli Şirvan Apelyasiya Məhkəməsində baş məsləhətçi işləyir. Vətən Müharibəsi başlayanda könüllü olaraq səfərbərlik xidmətinə müraciət edir. Müraciətin nəzərə alınacağını bildirib hələ ki, ehtiyac olmadığını deyirlər. Lakin o, təkidlə cəbhəyə yollanmaq istədiyini deyir. Yenə alınmır. Cavidan Hüseynli xidmət rəisinin otağına girib ondan qaynar xəttə şikayət edəcəyini bildirir. Bundan sonra Cavidanı cəbhəyə yola salırlar. O, döyüşlər zamanı cəbhənin Ağdam-Xocavənd istiqamətində xidmət etdi. Hal-hazırda da cəbhədədir.

Əsgər Hüseynli Cavidan Eyvaz oğlu Xocavənd rayon İcra hakimiyyəti başçısı Eyvaz Hüseynovun oğludur. Maraqlı məqam ondan ibarətdir ki, döyüşlər bitənə qədər səngər yoldaşlarının onun icra başçısının oğlu olduğu barədə heç bir məlumatları yox idi.

Foto qələbədən sonra çəkildi. Örnək olsun deyə yazdım.

*Elgün Gəncimsoy*

# Cəlal AKİMOV






Bakı Gəmiqayırma zavodu MMC mühəndisi Cəlal Akimov sentyabr ayının 29-da səfərbərlik çağırışı ilə Qarabağ torpaqlarını düşmən işğalından azad etmək üçün cəbhəyə yollandı. O, elə ilk gündən fəallığı, çevikliyi ilə, sərrast atıcılıq qabiliyyəti ilə yoldaşlarının, xüsusən komandirin diqqətini cəlb etmişdi. Cəlal, Cəbrayıldan başlayaraq Xankəndinin 2 km-liyinə qədər döyüş yolu keçmişdir. Ən ağır döyüşlərdə iştirak etmişdir. Hazırda Laçın rayonu ərazisindəki yüksəkliklərdə Vətəni qoruyur. Cəlal Akimov 1992-ci ilin 15 iyulunda Bakı şəhərində anadan olmuşdur. Bakı şəhərindəki 258 saylı tam orta məktəbin məzunu olaraq sonra Azərbaycan Dövlət Dəniz Akademiyasında (ADDA) ali təhsil almışdır. Ailəlidir.

*Sədaqət Akimova*

















**İgidimiz Cəlal AKİMOV**

## CeyhunALIYEV



***Azad Qurbanov:*** Bugün (10 dekabr 2020-ci il) keçiriləcək Zəfər paradında DTX bayraqdarı – Göyçə mahalının Ardanış kəndindən olan Alıyev Ceyhundur.

## Çingiz QƏHRƏMANOV



Laçın rayonunun Səfiyan kəndindən olan Çingiz Qəhrəmanov I Qarabağ müharibəsində Laçın rayonunu tərk edən son zabit olmuşdur. Vətən Müharibəsində oğlu Rəşadla öz kəndlərinə qədər döyüşərək gediblər. Atasının məzarını tapan Çingiz Qəhrəmanov 44 günlük müharibədə yüngül yara da alıb.

*Bilirəm: qığılcım alovtək deyil,*
*Alovun peşəsi şəfəq saçmaqdır.*
*Düz yolda çarpışmaq igidlik deyil,*
*İgidlik balaca cığır açmaqdır.*

## Damәd İBRAHİMLİ

Vәtәnlәşәn igidlәrimiz: "Nәinki qolum, canım da Vәtәnә qurbandır!"



Masallı rayonunun Әrkivan qәsәbәsi... Mәnim doğulduğum torpaq... Bu torpağın igidlәri, alimlәri haqqında dәfәlәrlә yazılıb, verilişlәr hazırlanıb, sәnәdli filmlәr çәkilib... Hәr kәsә Әrkivanın igidlәr,alimlәr yurdu olduğu yaxşı mәlumdur.

Bu yazıda isә mәn, doğma Әrkivanımın igid oğullarından biri haqqında söhbәt açacağam.

II Qarabağ Savaşında (I Qarabağ Savaşında olduğu kimi) Azәrbaycanın hәr bir bölgәsindәn, o cümlәdәn doğulub boya-başa çatdığım Masallı rayonundan da çoxlu sayda gәnc könüllü olaraq cәbhәyә yola düşdü. Bu haqq mübarizәmizdә hәr kәs yaxından iştirak etmәk, böyük "Qәlәbә"yә öz töhfәsini vermәk istәyirdi. Onların içәrisindә Damәd İbrahimli dә var idi. Böyük Vәtәn Müharibәsindә ilk gündәn könüllü iştirak edәn Damәd İbrahimli... İstәrdim ki, oxucu II Qarabağ Savaşının bu qalib әsgәrini – Damәd İbrahimlini yaxından tanısın. O, 25 iyul 1997-ci ildә dünyaya göz açıb. 2014-cü ildә Cәfәr Cabbarlı adına Әrkivan qәsәbә 1 saylı tam orta mәktәbi bitirib. Hәmin ildә Azәrbaycan Texniki Universitetinә qәbul olunub.

Ali tәhsil aldıqdan sonra Vәtәn qarşısında borcunu ödәmәk üçün orduya gedib. 2020-ci ilin yanvar ayında Ordu sıralarından tәxris olunub. Davud mәktәb illәrindә dәrslәrini yaxşı oxumaqla yanaşı, idmana da maraq göstәrib. Peşәkar sәviyyәdә yunan-Roma gü-lәşi ilә mәşğul olub. Bir sıra

turnirlərin mükafatını qazanıb. Daməd Böyük Vətən Müharibəsinin 2-ci günü – sentyabr ayının 28-də Füzuli rayonu istiqamətində Milli Ordumuzun əks-hücumları zamanı yaralanıb. Onun yaralanması hadisəsinin təfərrüatlarını mətbuat vasitəsilə öyrənmiş və çox təsirlənmişdim: "Sentyabrın 27-dən 28-nə keçən gecə və səhər saatlarında qızğın döyüşlər zamanı birdən arxa hissədə güclü partlayış səsi eşitdim, qulaqlarım cingildədi. 3-4 saniyə özümdə olmadım. Sonra yoldaşlarımın mənə baxaraq qışqırdıqlarını görəndə yəqin etdim ki, yaralanmışam. Dirsəkdən parçalanaraq üzülüb sallanan qolumu o biri əlimlə tutub yaxınlıqdakı təpənin dibinə çəkildim. Əsgər yoldaşlarım məni döyüş meydanından çıxartdılar. Füzuli hospitalında həkimlərin səyinə baxmayaraq sağ qolum amputasiya olundu".

Damədin qolunu itirməsi xəbərindən sonra sosial şəbəkələrdə bu hadisə ilə bağlı şərhlərdə hər kəs: "Daməd, Sənin qolunuq!" yazırdı. Bəli, biz hamımız Damədin qoluyuq!!!

Daməd müalicə aldığı Bakı Hərbi Hospitalını oktyabrın 14-də tərk edərək Ərkivana qayıtdı. İlk olaraq Şəhid mayor Anar Novruzovun büstünü və məzarını ziyarət etdi. Üzünü büstə tutaraq: "Sənin və bütün Şəhidlərimizin qisasını aldıq", - dedi.

Daməd haqqında bilgilərimi artırdıqca, bu 23 yaşlı İgid mənə daha yaşlı göründü. Səbəbini də bilirəm. Damədin düşüncələri, Vətənə, Torpağa, Millətə münasibəti 23 yaşlı birinin deyil, daha dolğun, sanki həyatın istisindən-soyuğundan keçən, çətinliklər görən bir İnsanın baxışlarıdır. Qəlbimdə "Nəinki qolum, canım da Vətənə qurbandır" deyən Damədi boya-başa çatdıran ana-ataya sonsuz minnətdaralıq hissi var. Hamımız I və II Qarabağ Savaşlarında iştirak edərək Şəhidlik və Qazilik zirvələrinə yüksələn bütün döyüşçülərimizin valideynlərinə sonsuz minnətdarıq! Qəhrəman övladlarımızın qəhrəman valideynləri qarşısında saygı ilə baş əyirik!... ...2018-ci ildə işıq üzü görən

“Sonun başlanğıcı” adlı kitabımda “Qarabağ qazisinə” adlı şeirim yer alıb. Bu şeir Vətən uğrunda əlini qurban verən igidlərimizə həsr olunub. Mən həmin şeiri 2016-cı ildə yazmışdım. Lakin bu günlərlə necə də səsləşir. Sanki Damədə yazılıbmış kimi...

Damədlə bağlı informasiyaları oxuduqdan sonra 8 yaşlı qızım bu şeirə mahnı da bəstələdi. İnanıram ki, bu mahnı nə vaxtsa müğənnilərimizin ifasında səslənəcək və Qazilərimizə mənəvi dəstək olacaq.

Daməd haqqında yazdığım bu yazını elə o şeirlə də tamamlamaq istəyirəm:

## QARABAĞ QAZİSİNƏ

*Fövqündəsən bu zamanın,*
*Vətəni qoruyan igid!*
*Qoysana halına yanım,*
*Vətəni qoruyan igid!*

*Danışan dilin olaram,*
*Olmayanəlin olaram,*
*Evinə gəlin olaram,*
*Vətəni qoruyan igid!*

*Heç nə ummadın həyatdan,*
*Qurban etdin torpağa can,*
*Qalmasın bu yerdəki qan,*
*Vətəni qoruyan igid!*

*Tarix yazdın Vətəndə Sən,*
*Gözəl “ən”lərdən öndəsən,*
*Mənim üçün Vətən də Sən,*
*Vətəni qoruyan igid!*

*Rəsmiyyə Sabir*

## Daşqın XUDİYEV

*Əsgər anası olmaq.... Səngərdə düşmənlə üz –üzə döyüşən əsgərlərimizə ithaf olunur.*

Ailədə üç oğul böyüyür. Ali təhsilini başa vuran böyük oğul əsgərliyə yola düşdü. O oğul ki, illər öncə onun doğum xəbərini də atası elə səngərdə alıb, sevindiyindən ağlamışdı.



İndi o, səngərdədi, vətənin müdafiəsi üçün hər şeyə hazırdır. Onun hərbi xidmətə gedişi ilə xanım, qadın, ana adının önünə yeni bir epitet əlavə olundu. Əsgər anası! Əsgər anası olmaq həsrətdir, özləmdir, duadır, bir hekayədir.

Əsgər anası olmaq şərəfdir, qürurdur... Gizlində ağlayıb, aşkarda gülməkdir...

Əsgər anası olmaq hər dəfə oğlunun əsgərlikdə olduğunu unudub, hər öynədə süfrəyə onun üçün də yemək çəkməkdir. Ləziz bir təam yeyərkən oğlunu xatırlayıb, udqunmaqdır...

Əsgər anası olmaq kimsəyə əyilməməkdi, başını dik tutmaqdır, bir əsgər görüncə yolda – izdə bağrına basmaqdır, üç rəngli bayrağı görüncə gözləri dolmaqdır, himni dinləyincə kövrəlməkdir...

Əsgər anası olmaq məsuliyyətdir. Səngərdə duran oğlunun vətəni qorumaq çabasına, əzminə şərik olmaqdır. Məsuliyyətini bölüşməkdir...

Əsgər anası olmaq dəyanətdir, möhkəm duruşu ilə övladlarına ruh verməkdir...

Əsgər anası olmaq sevməkdir, vətəni, milləti, oğullarının yatıb-durduğu səngərləri sevməkdir. Boyunlarını yandıran

günəşi, əyinlərini isladan yağışı, əllərini donduran şaxtanı içdən, iliyinə qədər duymaqdır... Əsgər anası olmaq vətəni, milləti üçün hər şeyi gözə almaqdır. Gözü açıq yatmaqdır...

Əsgər anası olmaq bütün əsgərləri öz övladı bilməkdir, qələbəni hamıdan çox gözləməkdir....



Əsgər anası zümzümə etdiyi bütün xalq mahnılarını unudar. Elə dodağının altında "Ey qəhrəman övladı şanlı vətəni" kəlmələrini sürəkli təkrar edər...

*Haydı irəli! Uzun boylu , məsum üzlü igidlərim!Tanrı sizlərlədir!*

*Sizləri ürəkdən salamlayır, qarşınızda bir ana və bir vətən övladı olaraq baş əyirəm.*

*Allaha əmanət olun nur üzlü igidlərimiz!*

*Vəzufə Xudiyeva*



# Elgiz QARDAŞIM



Hər bir insanın böyük arzularından biri əzizi, doğması, qardaşı ilə qürur duyub, iftixar hissi yaşamaq. Məndən 10 yaş kiçik olan, bir zamanlar əlindən tutub gəzdirdiyim, bu gün isə azad edilmiş torpaqlarımızın keşiyində şərəflə dayanan Vətən müharibəsi qəhrəmanlarındandır Elgiz qardaşım. Sən bizim iftixarımsan!

*Ülvi Qədir*



## Elgün SƏMƏDOV



Hərbi həkim: "Şuşanın azad edilməsini əməliyyat otağında öyrəndim". Bir müddət öncə sosial şəbəkələrdə üst-başı qan içində olan hərbi həkimin fotosu gündəm olmuşdu. Həmin həkim ehtiyatda olan mayor Elgün Səmədovdur. Azərbaycan Tibb Universitetinin Hərbi Tibb fakültəsini bitirib. Daha sonra Azərbaycan ordusunda tibb sahəsinə aid müxtəlif vəzifələri icra edib. Ehtiyatda olan mayor kimi ordudan tərxis olunub. Hərbidə olduğu müddətdə Gülhanə Hospitalında ümumi cərrahiyə üzrə təkmilləşdirmə kursu keçib. Tərxis olduqdan sonra öz ixtisası üzrə çalışıb. "Aprel döyüşləri"ndə və 44 günlük Vətən müharibəsində həkim kimi iştirak edib.

- *Bir həkim üçün müharibə nə deməkdir?*

Mənim dayım uzun illər cərrah olub. Mənim atamın babası repressiya qurbanı olub. Atamın əmisi hərbi həkim olub. 1941-1945-ci il müharibəsində itkin düşüb. Biz onların yolunu davam etdiririk. Daima müharibə arzulamışam. Müharibəni öz ədalətimizi bərpa etmək üçün arzulamışam. Aprel döyüşlərində psixoloji zəmin hazırlandı. Naftalan hospitalında çalışdığım müddətdə bir cərrah kimi mənə çox ehtiyac var idi, amma mən istəyirdim ki, bir günlük ara olsun, təcili tibbi yardım maşını ilə yaralı təxliyəsi edim və azad olunan torpaqları görüm. Çox şükür bu, 2016-cı ildə olmasa da, 2020-ci ildə baş tutdu.

- *Vətən müharibəsinə nə vaxt qatıldınız?*

Müharibə başlayan gündən Bakıda "Yeni Klinika"da yaralıları qəbul etdik. 5-6 gün keçəndən sonra Füzuli Hospitalına ezam olundum. Orada cərrahiyyə əməliyyatlarına biz cavabdeh

idik. Ağır yaralılar gəlirdi, biz müdaxilə etməyə başlayanda, hərbçilərimiz bizi yaxına buraxmırdı. Deyirdi ki, ilk növbədə kiçik əsgər qardaşıma, zabit yoldaşıma kömək edin.

- *Ən təsirli məqamı necə xatırlayırsınız?*



Şuşa alınan ərəfədə yatdığımızı xatırlamıram. Həmin şəraitdə yatmaq necə ola bilərdi? Ancaq harasa söykənib qısa müddət yata bilərdin. Çətin əməliyyatlarımız çox oldu. Döyüş meydanından çıxarılan yaralıları ilk olaraq bizim hospitala gətirirdilər. Bir hadisə beynimdə həkk olunub. Yaralını Bakıya təxliyəyə hazırlayarkən daxili qanaxma oldu. İki dəfə ard-arda əməliyyat etdim. Qanaxmanı kəsə bilmirdik. Nazik bağırsaqları dörd yerdən zədələnmişdi. Həmin hərbçinin əməliyyatlarına Bakıda da girdim. Ailəsi ilə artıq bir bağ yaranmışdı.

- *Ən ağır vəziyyətdə olan xəstəniz kim idi?*

Bir yaralı gətirmişdilər, qanaxmanı saxlaya bilmirdilər. Həmin an qərar verilmişdi ki, qolu amputasiya edilsin. Mən təkid etdim ki, amputasiyaya ehtiyac yoxdur. Bu xəstəyə 7-8 saat şans verə bilərik. Bakıda tibbi briqada onu gözləyirdi. Amma deyirdilər ki, qanqren olacaq. Biz həmin xəstəni təxliyə etdik, qolunu qoruduq. Bir ay keçəndən sonra qolunu amputasiya etmədiyimizə görə zəng edib mənə təşəkkür etdi. Yurdumun gözəl insanları! Həkimə qarşı özünü borclu hesab edirdi, amma bu mənim həm vicdani, həm də vəzifə borcum idi.

- *Sizin üçün ən unudulmaz an nə idi?*

Bir gün çox sayda yaralı qəbul etdik. Bir nəfər daxil olandan emosiyalarına sahib çıxa bilmir. Deyir mənim leytenantım, zabitim hanı? Dedim, sakitləş. Baxıram özü də yaralıdır, ilkin yardım olunmalıdır. Amma dayanmır, eyni sözləri təkrarlayır.

Gördüm sakitləşdirə bilmirəm. Tapdım axtardığı adamı. Dedim, bax, sənin zabitin buradadır, yaxşıdır, sağalacaq. Bəlkə də danışığımda tam o hissləri ifadə edə bilmirəm, amma düşündüm ki, bir əsgər zabitini nə qədər çox istəyə bilər ki? Onun özünə tibbi yardın göstərən zaman məlum oldu ki, sən demə, bu əsgər yox, komandirdir, rütbəcə aşağı zabitini, əsgərini soruşur. Onların davranışlarını görsəydiniz, həmin anlardansonsuz sayda film çəkmək və onları bir həyat tanıtmaq olardı. Bəzi səhnələr ömür boyu yadımdan çıxmayacaq.

- *Düşmən tərəfdən xəstəniz oldumu?*

Düşmən tərəfdən bir-iki müraciət olmuşdu. Əsirlər idi. Onlara ilkin yardım göstərildi. Böyük əməliyyat olmadığı üçün mən iştirak etməmişəm.

- *Hərbçilərimizin ilkin tibbi bilikləri necə idi?*

Hərbçilərimizin ilkin tibbi yardım bilikləri kifayət qədər yaxşı idi. Döyüş meydanında öz-özünə yardım var, bir də yoldaşa yardım var. Həmin müdaxilələrin sayəsində yaralılarımızın həyatda qalma şansı artırdı.

- *Mülki xəstələrlə hərbi xəstələr arasında hər hansı bir fərq varmı?*

Burda mənim fikirlərim bir qədər fərqlidir. Bilmirəm, tənqid olunaram, ya yox, uzun illər o səngərdə olmuş bir adam kimi, bu sözləri deməyə haqqım çatır. Bəli, hərbçiyə edilən tibbi yardım insana başqa motivasiya verir. Ruhunu ayrı cür qidalandırır. Bu bizim borcumuzdur. Buna görə də ürəklə danışa bilmirik, xatirələrimizi dilə gətirə bilmirik. Borcum olduğu üçün əlavə fəxr də etmək istəmirəm.

- *Sizə vəsiyyət edən oldumu?*

Vəsiyyət edənlər təbii ki, olurdu. Amma mən onların hamısına söz verirdim ki, sən onsuz da yaşayacaqsan, tələsmə. Müharibədə kənara çəkilib, pis olduğum məqamlar olurdu. Yaralı gəlirdi, mümkün olan hər şeyi edirdik, lakin yaralını həyata

qaytarmaq mümkün olmurdu. Kənara çəkilib, tənhalıqda bir az özü-
nə qapanıb, sonra yenidən növbəti yaralının yardımına çatırsan. Əslində tibb sahəsində belə sentimental anlar olmamalıdır, amma görəndə ki, yaralını xilas etmək olmur, bu insana ciddi travma yaşadır.

- *Ermənilərin məğlubiyyətini nə zaman hiss etdiniz?*

Bilirsiniz, telefon şəbəkələri işləmirdi, televizor yox, inter-net yox. Mən zəng edib, evdən xəbər alırdım. Ali Baş Koman-dan çıxış edəcək və s. Biz o qədər həyəcanlı olurduq ki, düş-mənin kapitulyasiya aktına imza atdığını əməliyyat otağında öyrəndik. Şuşanın alınmasını isə telefonla öyrəndik.

- *Müharibə zamanı ailəniz sizə necə dəstək olurdu?*

Bu məsələ çox önəmlidir. İstər-istəməz nigaran qalırlar. Mən gedəndə bir-cə onu demişdim ki, məndən niga-ran qalmayın, səbirlə, təmkinlə gözləyin. Çox sağ olsunlar, nigaran qalmaqlarını mənə hiss etdirmədilər. Bir də qızımın


İgid əsgər!
Mənim atam cərrahdır. O, minlər-
lə insanın həyatını qurtarıb.
Amma sən ölkəmizin həyatını
qurtaracaqsan! (Yəni minyonlarla in-
sanın həyatını qurtaracaqsan!)
Eşq olsun Azərbaycan əsgər-
ləri!

yazdığı məktub var idi. Məktubda deyirdi: "Mənim atam həkimdir, mənim atam yüzlərlə yaralını xilas edəcək, amma sən əsgərsən, orada vuruşursan, sən hamımızdan dəyərlisən, çünki sən milyonlarla insanı xilas edəcəksən".

Müharibə mənim bütün həyat fəlsəfəmi dəyişdi. İndi de-yirlər ki, mən müharibədə iştirak etmişəm, qaziyəm. Onlara böyük diqqət göstərmək lazımdır. Mən bilirəm indi bu sahədə iş gedir, hər şey daha yaxşı olacaq.

- *Qazilərimizə, şəhid ailələrinə sonda nə demək istəyirsiniz?*

Şəhid olan həmkarlarıma Allahdan rəhmət diləyirəm. Birmənalı demək istəyirəm ki, mən də onların yerində olmaq istəyərdim, amma cərraham, arxada durmalı oldum, yaralıları qəbul etməli idim.

Şəhidlərimiz və qazilərimiz qürur mənbəyimizdir. Onlar həqiqətən də qəhrəmandır. Bayrağımız ucalırsa, fəxrlə Azərbaycanlıyıq deyiriksə, hamısı onlara görədir.

*Almaz Qasımova*





## Elməddin TARVERDİLİ

Milli Qəhrəmanların əziz xatirəsinə Mübarizlər, Fəridlər Qrupunun Təsisçisi Cəsur Döyüşçü Vətən Müharibəsi Qazisi Tarverdili Elməddin Neftçala Rayon Qırmızıkənd kəndində Füzuli, Cəbrayıl, Qubadlı Zəngilan, Xocavənd, Hadrut, Şuşa noyabrın 4-dü yaralanmışam.



Kəşfiyyatçı gizir kimi medallarla təltif olunub.



## Elnur ƏHMƏDLİ




Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC-nin Xəzər Dəniz Neft Donanması idarəsinin “Üfüq” sərnişin gəmisində matros vəzifəsində çalışan Əhmədli Elnur Xaləddin oğlu 44 günlük Vətən müharibəsində şücaət göstərərək adını tarixə yazan igidlərimizdəndir. “DSD İB” hər zaman qəhrəmanlarımızın yanındadı. Bu qəhrəmanımızı birlikdə tanıyaq.

Mən Əhmədli Elnur Xaləddin oğlu 24.10.1995-ci ildə Ucar rayonu Qazyan kəndində anadan olmuşam. 2001-2012-ci illərdə 1 N orta məktəbin şagirdi olmuşam. 2012-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəznində Balıqçılıq kollecinin “Gəmi sürücülük” fakültəsinə qəbul olmuşam. 2017-ci ildə kolleci bitirib 2013-cü ildə hərbi xidmətə çağrılmışam. 2015-ci ildə hərbi xidmətimi başa vurub təhsilimi yenidən davam etdirmişəm. 2020-ci ilin 29 sentyabrına Cənab Prezidentimizin verdiyi Səfərbərlik sərəncamı ilə ordu sıralarına yollanmışam. Tərtər “N” saylı həmlə briqadasında maaddi texniki təminat tağımında xidmətə başlamışam. Talış və Suqovuşan istiqamətində ordumuzun döyüş fəaliyyətini axsatmamaq üçün taborumuz davamlı fəaliyyət olmuşdu. Döyüş əməliyyatları bitdikdən sonra Qubadlı və Laçın rayonlarının mühafizəsini qoruyan taborun tərkibində xidmətimi davam etdirmişəm. Cənab prezidentin sərəncamı əsasında “Vətən müharibəsi iştirakçısı” və “Laçının azad olunması” medalı ilə təltif olmuşam. Döyüşlərdən qayıtdıqdan sonra AXDG QSC -nin sədri Rauf Vəliyevin biz döyüşçülərə göstərdiyi diqqət və qayğı əsasında 03.2021-ci il tarixində Xəzər Dəniz Neft Donanması idarəsinin gəmilərinə matros vəzifəsinə qəbul olmuşam. Biz

döyüşçüləri hər zaman nəzərinizdə saxladığınız üçün Sizə və “DSD” İB sədr və kollektivinə dərin təşəkkürümü bildirirəm.

***

Türkiyəli tanınmış alim, Van Yüzüncü Yıl Universitesində doktor öyrətim üyesi, Ömər Dəmirbağ Ordumuzun Qarabağ Zəfərinə və azərbaycanlı qardaşlarına qəzəl həsr edib. Kult.az xəbər verir ki, 1959-cu ildə Elazığda anadan olan alim eyni zamanda yaradıcılıqla da məşğul olur. Onun "Azerbaycan’a Gazel” adı ilə Türkiyədə nəşr edilən qəzəlini orijinal variantda təqdim edirik:

*Ola göz aydını her Azer’e, her bir nefere*
*Nece hesretti bu millet bele yahşî zafere*
*Vatanındır Qarabağ ey yiğidim durma yürü*
*Yürü ma‘beddeki hınzîr gibi kaçsın kefere.*

*Sana âzâdlığı Hak verdi ya şimden geri hep*
*Bayırın sümbüle kessin denizin neylüfere*
*Gözü er görsün eğip kahr ile düşmen başını*
*Yürü alkışta şehîdân bakınıp saf-saf ere.*

*Bu Nesîmî, şu Fuzûlî, o Hatâyî ki meğer*
*Hamısın çıkmış o gençlerle beraber sefere*
*Feri sönmüş idi yıllar yılı çeşm-i ümidin*
*Bu zafer oldu sebep yaş dolu gözlerde fere.*

*Sana bin şükr ola yâ Rab kerem ettin bu günü*
*Ola göz aydını her Azer’e her bir nefere.*

# Elnur RƏSULOV 🇦🇿 Əhliman SÜLEYMANOV



Palatada olan daha iki yaralı, onları da paylaşıram. Çox təsirli söhbətlərimiz oldu. Onlara da bəzi sözlər vermişəm və yerinə yetirəcəm.

Tək şəklim olan və ayağının biri görünməyən qəhrəman MAXE Rəsulov Elnur. Füzulidə minaya düşüb və ayağını itirib. Şəkidə yaşayır. Gözəl bir oğlandır, mədəni, gülərüz və döyüşə hazır.

Tibb bacısı ilə birlikdə şəklimiz olan isə əsgər Süleymanov Əhliman. Şəmkir sakinidir. Qorxmaz və vətənpərvər bir əsgərdir. Ağdərədə yaralanıb. Xahişi budur ki, baş tacımız olan şəhid ailələri kommunal haqqı ödəməsinlər. Ödəniş onlar üçün maddi baxımdan çətinlik yaradır və israrla xahiş etdi ki, bunu mütləq Parlament tribunasından qaldırım.



## Elşən ŞAHƏLİYEV




II Qarabağ Vətən Müharibəsində Tərtər, Ağdərə döyüşlərinin fəal iştirakçısı Elşən Adil oğlu Şahəliyev sücaəti, göstərdiyi qəhrəmanlığı,ilə adsan çıxarmışdı. Cəbhə dostlarının ən etibarlı silahdaşı olub. Pəmbək mahalının Gözəldərə kəndindəndir.

## Eltəkin ABBASOV




Abbasov Eltəkin Bəkir oğlu 01 noyabr 1975-ci il Gədəbəy rayonu Caldaş kəndində anadan olub. Hərbi rütbəsi baş leytenant. 2020 sentyabr ayında Kəlbəcər uğrunda gedən döyüşlərdə Murov dağ silsiləsində döyüşüb,. Gəncə hərbi hissəsindən könüllü olaraq Vətən Müharibəsinə gedən Eltəkin hələ də cəbhədədir.

*Hamaya Əliyeva*

## Elvin MƏMMƏDOV



27 sentyabr 2020 də başlayan savaş 10 noyabr 2020-də Böyük Zəfərlə bitdi! Bu, 44 günlük haqq savaşımızın şanlı tarixidir. 44 gündə 30 ilə yaxın davam edən erməni işğalına son qoyuldu, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa edildi, milli qürur hisslərimiz yüksəldi, uzun illər həsrətində olduğumuz Zəfər sevinci yaşandı. Dövlət başçısı, Qalib Sərkərdəmiz, Ali Baş Komandan İlham Əliyev noyabrın 10-da gecə saatlarında Azərbaycan xalqına müraciətində elan etdiyi Böyük Qələbə xəbəri ilə Azərbaycan xalqını, bütövlükdə Türk dünyasını bəxtiyar etdi. 44 günlük Vətən müharibəmizdə Azərbaycan zəfər qazandı. Yaşasın, Qalib Azərbaycanın Qalib Ali Baş Komandanı! Yaşasın, Müzəffər Azərbaycan ordusu! – sədaları gecənin gec saatlarında ölkəmizin hər yerində böyük coşqu və təntənə ilə səsləndi. Bu sevincin, bu təntənənin memarı güclü iradəsi, prinsipallığı, ağıllı, tədbirli və təmkinli rəhbərliyi ilə dünya liderlərini heyrətə salan Ali Baş Komandanımız və Azərbaycan tarixinin səhifələrinə zəfər günləri yazan şanlı, rəşadəti və qüdrətli Azərbaycan ordusudur.

Zəfərlə bitən 44 günlük Vətən müharibəsi xalqımızın itmiş gümanını, ümidini özünə qaytardı. Bu 44 gün müddətində Ali Baş Komandan İlham Əliyev mütamadi olaraq müharibənin gedişində öz xilaskarlıq missiyasını uğurla davam etdirən Şanlı Azərbaycan ordusunun qazandığı uğurları, işğaldan azad olunan şəhər və kəndlərin; Cəbrayılın, Zəngilanın, Hadrutun, Füzulinin alınması haqqında xalqa müraciətlərində sevindirici xəbərlər verdi: “Bu gün də böyük məmnunluq hissi ilə növbəti yaşayış

məntəqələrini işğaldan azad olunmasını xalqıma çatdırıram. Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri işğaldan azad olunub!” Az sonra, Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları nəticəsindəFüzuli-Cəbrayıl istiqamətində Qara-xanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Abdurrəhmanlı, Böyük Mərcanlı və Nüzgar kəndləri işğaldan azad edilib. Azərbaycan Silahlı Qüvvələri oktyabrın 3-də strateji cəhətdən əhəmiyyətli daha bir yaşayış məntəqəsini, dövlət başçısının həmin gün Suqovuşan tarixi adını qaytardığı Madagiz kəndini azad edib. Elə həmin gün Tərtər rayonunun Talış kəndinin, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərinin və Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndləri, bir gün sonra, oktyabrın 4-də Cəbrayıl şəhərini və Cəbrayıl rayonunun doqquz kəndini – Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Dəcəl, Mahmudlu, Cəfərabadı, oktyabrın 5-də Cəbrayıl rayonunun Şıxalıağalı, Məzrə və Sarıcalı kəndlərini, oktyabrın 9-da Hadrut qəsəbəsi, Çaylı, Yuxarı Güzlək, Gorazıllı, Qışlaq, Qaracallı, Əfəndilər, Süleymanlı, Sur kəndlərini, oktyabrın 14-də Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri, oktyabrın 15-də Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri, oktyabrın 16-da Azərbaycan Ordusu Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri işğaldan azad edildi. Suqovuşanın, Cəbrayılın, Füzulinin, Xudafərinin sevinci Azərbaycan Ordusunun ilk qələbələri kimi xalqda böyük coşqu yaşandı. Xudafərinin azad edilməsindən (18 oktyabr) sonra əsgər Adəm Məmmədovun dediyi kimi, “Xudafərinin üç orta tağı qalır, kənar tağları dağıdılıb. O tağları tariximizə azərbaycançılığa qəsd kimi 30-cu illərdə SSRİ hökuməti dağıdıb. Biz bunun bərpasının qələbəsini qazandıq” və

18 oktyabr tarixi yaddaşımıza Xudafərinin yeni doğum tarixi kimi yazıldı. Ali Baş Komadanın "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik", – müraciətləri ilk gündən Vətən müharibəsinin zəfərlə bitəcəyinin zəmanəti idi. Suqovuşanın (3oktyabr), Cəbrayılın (4 oktyabr), Hadrutun (9 oktyabr), Füzulinin (7 oktyabr), Zəngilanın (21oktyabr), Qubadlının (25 oktyabr) ardından Şuşa (9 noyabr) azad edildi, Azərbaycan əsgərinin qələbə ruhunun təntənəsi kimi Şuşada da qalibiyyət bayrağı dalğalandı. Ali Baş Komandan İlham Əliyevin "Əziz Şuşam, Sən azadsan!", – sözləri insanların qəlbinə ömürlük yaşayacaq nəğmə kimi həkk olundu.

İşğaldan azad edilən bütün torpaqlarımız qəhrəman əsgərlərimizin sayəsində döyüşlə, qanla alındı, bu rayonların tariximizdəki işğal günləri zəfər günləri ilə dəyişdirildi. Şuşanın alınması isə bu tarixin ən şanlı səhifələrindəndir. Azərbaycan ordusu sıldırım qayalarla dırmaşaraq, düşmənlə əlbəyaxa döyüşə girərək, "dünya hərb tarixində xüsusi yer tutacaq əməliyyatla" Şuşanı almaqla mümkünsüzü mümkün etdi, erməni mifini dağıtdı. Şuşanın azad edilməsinin çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat olduğunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Vitse Prezident Mehriban xanım Əliyeva ilə birlikdə Füzuli rayonundan Şuşa şəhərinə yol çəkilişi ilə bağlı layihənin icrası ilə tanış olarkən xüsusilə vurğulayıb: "Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki qəhrəman hərbiçilərimiz Şuşanı dağlardan, meşələrdən,cığırlardan keçərək, yalnız yüngül silahlarla silahlanmış şəkildə azad ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir". Şuşa döyüşləri haqqında eyni sözlər rus mediasında da gedən yazılarda yer alıb. Milliyyətindən asılı olmayaraq Azərbaycan əsgərinin Vətən sevgisinə, döyüş

qabiliyyətinə, qətiyyətinə heyrətini gizlədə bilməyən məqalə müəllifi yazır: “Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu, demək çətindir. Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralını, nə şəhidini əldən buraxmırdı. Nəfəs almadan Şuşaya çıxdılar”. Azərbaycan ordusunun əsgərləri belə çətinliklərlə Şuşaya qalxaraq, igidlik və rəşadət göstərərək adlarını tarixə yazdı. Qazilərimiz də oldu, şəhidlərimiz də oldu, yaralılarımız da oldu (bu müharibənin qanunudur), şükürlər olsun, Böyük zəfəri sağ-salamat, qəhrəman kimi qeyd edənlər də... Böyük Zəfərimizionlara borcluyuq. “...Onlar torpaqlarımızı işğalçılardan qarış-qarış azad etdi, bizim bayrağımızı işğaldan azad edilmiş torpaqlarda qaldırdı. Bu, bizim hamımızın, bütün Azərbaycan xalqının qələbəsidir. Əminik ki, 44 gündə zəfərlə sonuclanan haqq savaşımızdan uzun illər danışılacaq. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır”. İkinci Qarabağ müharibəsində iştirakçısı, Xüsusi TəyinatlıQoşunların komandirlərindən biri, Şuşa fatehi Elvin Məmmədov da adını tarixə yazan qəhrəmanlardan biridir.. Vətən müharibəsi başlanan gündən müharibədə iştirak edən Xüsusi Təyinatlı igidimiz Elvin Məmmədov Goranboy, Cəbrayıl, Füzuli, Hadrut, Laçın koridoru və Şuşa uğrunda gedən döyüşlərdə öndə gedən komandirlərdən olmuş, Füzuliyə ilk bayrağı o sancmışdır. Qəhrəman komandir Elvin Məmmədov deyir ki, “Dəliyə dönən ermənilər bayrağa minaatanlardan, snayperlərdən atəş açırdılar. Amma bayrağımız sanki düşmənə inad, acıq verərcəsinə dalğalanır, erməniləri qorxuya salırdı”. Ağır döyüşlərdə iştirak edən qəhrəmanımız, Elvin Məmmədov, iki dəfə yaralansa da, döyüşməyə davam etmişdir. Növbəti döyüşdə ağzından yaralanan Elvinin çənəsi qırılmış, ağır vəziyyətdə olmasına baxmayaraq tabeçiliyində olan əsgərləri bir yerə yığmış, bu vəziyyətdə bir neçə kilometr yol qət edərək irəliləmiş, özüylə

bərabər 40 yaralını 10 km dağlıq ərazidən çıxarmağı bacarmışdır. Elvinin vəziyyətinin yaxşı olmadığını görən yoldaşları onu təxliyə etsələr də, döyüşün davam etməsi və yolların açıq olmaması səbəbindən Elvin 5 gün yaralı halda Laçın kolidorunda özünə tibbi yardım göstərərək həyatda qalmağı bacarmışdır. Dostları ondan döyüşü dayandırmağı xahiş etsələr də, Elvin: "Şuşaya çatana qədər döyüşəcəm, dayanmaq yoxdur", – deyə cavab vermiş, yaralı olmasına baxmayaraq komandir Elvin Məmmədov döyüşə-döyüşə özünü Şuşaya çatdırmışdır. Elvin haqqında bu cümlələri yazarkən həm qürur duyur, həmdə həyacanlanıram. Çünki qəhrəman komandir Elvin Məmmədov tanıdığım, bir məktəbdə oxuduğum, bir məhəllədə böyüdüyüm, ziyalı bir ailənin, Almaz və Qadir Məmmədovların övladıdır. Ailənin bir qız, iki oğul övladı var; Amal və Elvin. İkisi də hərbiçidir. Hər iki qardaş Vətən müharibəsində iştirak edib. Qəhrəmanımızın atası Qadir Məmmədov oğlu Elvin Məmmədovun döyüşlərdə iştirakından danışarkən bildirib ki, müharibənin başlamasından bir neçə gün əvvəl Elvinə zəng gəlir və onları təlimə çağırırlar: "O, döyüşə getməmişdən yoldaşı 9 aylıq hamilə idi. Gecə Elvin ona zəng edib, danışıb qurtarandan sonra deyib ki, sabah təlimə gedirəm. Səni Bakıya göndərəcəm. Sonra mənə zəng etdi ki, ata, gəl İlhaməni apar, mən təlimə gedirəm. Oğlum 25 sentyabrda ailəsi ilə sağollaşdı və onları Bakıya yola saldı". 25 sentyabrda hamilə yoldaşını ailəsinə əmanət edən Elvin bir gün sonra təlimə qatılıb. Sözsüz ki, bu döyüş öncəsi təlimlərdi. Atası deyir ki, Elvin təlimə getdiyini söyləmişdi. "27-si səhər isə oyananda gördük ki, internet yoxdur, televizoru açdıq və müharibənin artıq başladığını bildik. Elvinə neçə dəfə zəng etdik, telefonu bağlı idi. Həmin gün axşama qədər zəng etdik, zəng çatmadı. Artıq tam əmin idik ki, müharibə başlayıb".

Bu Elvinin ilk döyüşü deyildi, Elvin Məmmədov orduda yüksək vətənpərvərlik tərbiyəsinin nəticəsi və döyüş ruhunun,

Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının, vətənsevərliyin, azərbaycançılığın qələbəsi olan "Aprel döyüşləri"ndə də iştirak etmişdi. Yenə "təlim" adı ilə. Elvinin də iştiraksısı olduğu "Aprel döyüşləri"ndə qazanılan qələbə xalqımızda işğalın sonuna az qaldığına, Azərbaycan Ordusunun Böyük Qələbə ərəfəsində olduğuna güclü inam yaratmışdı. Ali Baş Komandan, Azərbaycan Prezidenti Cənab İlham Əliyev bu inamı belə ifadə etmişdi: "...Azərbaycan bayrağı bu gün Lələtəpədə və Ağdərədə dalğalanır, Şuşada da, Xankəndidə də dalğalanacaq!"

Azərbaycan əsgəri 2016-cı ilin aprel ayında Lələtəpədə qəhrəmanlıq tarixi yazmışdı. Vətən müharibəsində "kəşfiyyat qrupunun komandiri" Elvin Məmmədov da bu inamın əsgərlərindəndir. Bütün Azərbaycan xalqı kimi, Şuşanın alınması xəbəri Məmmədovlar ailəsini də çox sevindirmişdir. Lakin "günlərlə oğlanlarından xəbər ala bilməmələrinin nigarançılığı da vardı. Ailə üzvləri nəhayət, Elvinin DSX əməkdaşı olan qardaşı vasitəsilə məlumat əldə edə bilmişdir. Bəhs etdiyimiz kimi, ailənin digər oğul övladı Amil Məmmədov də hərbçidir. Ailə Amilin vasitəsilə öyrənib ki, Elvin yaralanıb, amma indi yaxşıdır. 10 gündən sonra bir zəng gəlib Elvindən. Bir kəlimə deyib, "yaxşıyam, narahat olmayın." Çənəsindən yaralandığı üçün ailə Elvinlə danışa bilməyib. Şuşa fatehi Elvin Məmmədovu əməliyyat edən qəhrəman həkim, üz-çənə cərrahı Vüqar Qurbanov deyir ki, "hər kəsin yaralı halda döyüşməsinə görə mətbuatdan və sosial şəbə-
kələrdən tanıdığı Şuşa fatehlərindən olan Elvin Məmmədov mənim də yaxından tanıdığım qəhrəmanımdır. O, göstərdiyi qəhrəmanlıqlara görə artıq medalla təltif olunub. Xüsusi Təyinatlı Qüvvələrin cəsur hərbçisi olan bu igidimiz Şuşada 3 gün yaralı halda qalsa da, ağır döyüşlərə davam edib. Mən özümü xoşbəxt hiss edirəm ki, belə oğullara xidmət etmişəm. Onlarla belə igid, qəhrəman dost qazandıq". Həkim-cərrah Vüqar Qurbanov Elvin

Məmmədovda göstərdiyi tibbi yardımdan danışarkən qəhrəman həkimlərimizin də əvəzsiz xidmətləri göz önündə canlanır: “Xatırlayıram ki, noyabrın 8-i idi. Füzulidə ağır gecə keçirmişdik. Səhərə yaxın yuxuya getmişdim və saat 9-a 10 dəqiqə işləmiş zəng etdilər ki, ağır xəstə var, gəlməyiniz məsləhətdir. Yorğunluq və sözün həqiqi mənasında bitkinlikdən zəng edən həkimə dedim ki, xahiş edirəm, ağır yaralını Bakıya göndərin, artıq mənim gücüm qalmayıb. 10 dəqiqə keçmişdi ki, həkim Bəhruz Rüstəmov zəng etdi. Dedi doktor, çox xahiş edirəm, gəl bu xəstəni də əməliyyat elə. Qeyd edim ki, Bəhruz həkimin Xüsusi Təyinatlı Qüvvələrə xüsusi qayğısı var idi. Hətta dedi ki, bu elə belə oğlan deyil, mənim xətrimə onu təcili əməliyyat edərsən. Çox keçmədi ki, komandirimiz Oktay Mehdiyev də təcili zəng etdi. O da bildirdi ki, Vüqar imkanın varsa, burada hər cürə şərait hazırlanıb, gəlib əməliyyata başlaya bilərsən. Onu da deyim ki, həqiqətən Oktay Mehdiyev heç vaxt qəti əmr vermirdi ki, bu iş həll olunmalıdır, vəssalam. O, hər zaman “imkanın varsa, yorğun deyilsənsə” deyirdi. Qısası hədsiz dərəcədə əzgin və yorğun halda tez Kompüter Tomoqrafiyası otağına getdim. KT-nin nəticələrinə baxdıqda çənə sümüyünün hər iki bucaq nahiyəsində qəlpəli sınıq, açıq yaralar gördüm. Xəstəni görmədən travmanın ağır olduğunu anladım, hardasa tək olduğum üçün yenə də yaralını Bakıya göndərmək qərarında idim. Daha sonra xəstəni şok otağında görəndə özüm də şoka düşdüm. Çox rahat şəkildə danışırdı ki, artıq 3 gündür bu vəziyyətdə döyüşür. “Çənəm sallanır, qanaxmayla gəzirəm. Yemək isə yemirəm”, – dedi. Amma təsəvvür edin ki, çənəsi qopub sallanan XTQ qazimiz “of” belə demirdi. Bir daha əvvəlki qərarımda qaldım və özünə də dedim ki, səni Bakıya göndərirəm. Etiraz etmədi, sadəcə “doktor siz necə məsləhət bilirsinizsə, elə də olsun söylədi”. Həqiqətən də qəhrəmanım üçün çox adam gəlib oxşar sözlər deyirdi, hər kəs bir ağızdan “həkim bu elə-belə döyüşçü deyil a, əsl qəhrəmandır”, –

söyləyirdi. Elvin Məmmədovun igidlikləri, mətinliyi və qorxmazlığından o qədər danışırdılar ki, yorğunam, taqətim qalmayıb və s. sözləri deməyə belə utanırdım. Qısası, artıq qərar verildi, əməliyyatxana üçün yer götürməli idim. Çünki cərrahi əməliyyat uzun vaxt alacaqdı. Əməliyyat tibb bacısı, yorulmayan insan Günay xanım "Həkim, mən hazıram" dedi. Anesteziologlarımız Rəşad Nuri və Ərəstun bəy isə artıq xəstəni dəyərləndirirdilər. Sağ tərəfli çənə rekonstruksiyası əməliyyatı icra etdim və dişlər tam bərpa olundu. Beləcə xəstə tam stabil halda Bakıya təxliyə olundu. Bakıda isə digər dəyərli həkimlər qəhrəmanımızı nəzarətdə saxladılar və çənənin sol tərəfli ostoesintezini etdilər. Onlar "post op" izləməsini 1 ay etdilər. Sonra isə xəstədə üzün sağ nahiyəsində kiçik füstül olduğu üçün təkrar dəyərləndirmə apardıq və onu nəzarətə aldım. Hazırda hər şey stabildir. 6 ay sonra təkrar dəyərləndirmə aparılacaq". Həkim onu da qeyd edib ki, bu cür ağır əməliyyatlar böyük zəhmət və səbir tələb edir: "Ağır döyüşlər gedən zamanı bu cür əməliyyatları öyrənmək olmazdı. Biz də çalışdıq ki, 44 gün ərzində əlimizdən gəldiyi qədər düzgün və vicdanla üz-çənə cərrahı olaraq xidmətimizi edək". Şuşa fatehi Elvin Məmmədovun qəhrəmanlığından bəhs edərkən, qəhrəman, yaralı əsgərlərimizə hər cür tibbi yardımı göstərən, ağır əməliyyatlar həyata keçirən qəhrəman həkimlərimizin əziyyətləri də unudulmamalıdır. "Onlarla belə igid, qəhrəman dost qazanan" həkim-cərrahVüqar Qurbanov "belə oğullara xidmət etdiyi üçün özünü xoşbəxt hiss edir, qəhrəmanından qürurla danışır". Elvinin atası Qadir Məmmədov da oğlunun döyüşlərdə iştirakından qürurla danışır: "Elvin komandir kimi əsgərləri ilə birgə qəhrəmancasına döyüşüb. Goranboy, Cəbrayıl, Füzuli, Laçın koridoru və Şuşa istiqamətlərindəki döyüşlərdə öndə gedənlərdən olub. Füzuliyə də bayrağı o sancıb. Laçın koridorunun bağlanmasında böyük əməyi olub. Orada döyüşərkən ağzından yaralanıb, çənəsi qırılıb. Qeyd edim ki, oğlum bundan əvvəl də 3 dəfə

başından travma alıb. “Xüsusi Təyinatlı Qüvvələrin komandiri Elvin Məmmədov İkinci Qarabağ müharibəsində xüsusi igidlik nümayiş etdirib. Böyük zəfərimizdə Elvin Məmmədovun adı topraqlarımızın işğaldan azad edilməsi uğrunda gedən bir-sıra döyüşlərdə; Cəbrayılın azad olunmasında, Füzuliyə Azərbaycan bayrağını sancması, Laçın kolidorunun, Şuşa şəhərinin işğaldan azad olunmasında  iştirakı ilə keçir.

Qəhrəman komandirin evində 2 oğlan övladı böyüyür. O, yeni doğulan körpəsini hələ görməsə də (yazı yazılanda sözsüz ki, Elvin övladına artıq qovuşmuşdu), körpəsinin gələcəkdə dinləyəcəyi ən gözəl Zəfər dastanımızın yazılması və atasının da bu zəfərdə payının olması övladı üçün qürur mənbəyinə çevriləcək, ataları kimi qorxmaz, cəsur bir komandir olmağa həvəsləndirəcək. Atası Elvin Məmmədov da uşaq vaxtlarından hərb sənətinə könül veribmiş. Özündən böyük qardaşı Amal Məmmədovun hərbi məktəbə daxil olmasından sonra Elvinin hərbiçi olmaq arzusu daha da alovlanıb. Hətta ailəsinə xəbər vermədən sənədlərini hazırlayıb Naxçıvandakı Heydər Əliyev adına Hərbi liseyə verib. Anası Almaz xanım deyir ki, “Elvin Hərbi liseyə sənədlərini verəndə bizə xəbər verməmişdi. Özü tibbi baxışdan keçmiş, sənədlərini toplamışdı”.Hərbi liseyə daxil olması ilə Elvinin həyatında yeni səhifə açılır. Hərbi liseydə təhsilini bitirdikdən (2005-2008) sonra Elvin təhsilini Bakıda, Azərbaycan Ali Hərbi Məktəbində davam edir. Hələ burada kursant ikən qəlbi vətən sevisi ilə aşıb-daşan, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda vuruşmaq istəyən Elvin deyirmiş: “İnşallah döyüş bizim vaxtımıza düşər” (Elvin Məmmədovun istədiyi olur. Elvin, onun vaxtına düşən Aprel döyüşlərinin və Vətən müharibəsinin iştirakçısı olur). Hərbi akademiyanı bitirib (2008-2012) Qazax postunda xidmətini davam etdirən Elvin, 2014-cü ildə Xüsusi Təyinatlı Qoşunların kursunu fərqlənmə ilə bitirib 2-ci  olur. Kəşfiyyatçı olmaq həvəsi ilə alışıb-yanan Elvin Məmmədov 2016-cı ildə “Aprel döyüşləri”ndə

iştirak edəndə də ailəsi 5 gün ondan məlumat ala bilməyib. Lakin Məmmədovlar ailəsi həmişə Elvinin vətənpərvər olmağı ilə, torpaqlarımızın azad edilməsində göstərdiyi igidliyə görə fəxr etmiş, qürur duymuşdur. Biz də Elvin Məmmədovla, Qarabağ savaşının qəhrəmanı ilə qürur duyuruq. Qazanılan zəfər bütövlükdə müstəqil Azərbaycan dövlətinin, Ali Baş Komandan İlham Əliyevin əzminin, iradəsinin, qətiyyətli praqmatik siyasətinin, hərbi-sərkərdəlik məharətinin qanunauyğun nəticəsi, xalq-iqtidar birliyinin uğuru və qəhrəman Azərbaycan Ordusunun zəfəridir. Qələbə münasibətlə "dekabrın 10-da Bakının Azadlıq meydanında Zəfər paradı keçirildi. Vətən müharibəsində qazandığımız Qələbəyə həsr olunmuş Zəfər paradına uşaqdan böyüyə vətənpərvər olan hər bir kəs böyük qürur hissiylə izlədi". Zəfər paradında dövlət-xalq-ordu birliyinin gücü və əzmi bir daha düşmənə, onun havadarlarına göstərildi. Belə bir məqamda Türkiyənin yanımızda olması, verdiyi siyasi və mənəvi dəstək bir daha dostluq və qardaşlığımızın qırılmaz tellərlə bağlı olduğunu, bu dostluq və qardaşlığı sarsılmazlığını, daha da güclənərək əbədiləşəcəyini, tarix boyu davam edəcəyini göstərdi. Paradda 3000 nəfərdən artıq şəxsi heyətlə nümayiş olunan 150-dək hərbi texnika, həmçinin silahlanmaya qəbul edilmiş yeni, müasir hərbi texnika, raket və digər qurğular, PUA-lar, hava hücumundan müdafiə sistemləri, hərbi gəmi və katerlər Azərbaycan ordusunun güc və qüdrətinin real təsdiqi idi. Vətən müharibəsi zamanı ordumuzun düşməndən ələ keçirdiyi hərbi-texniki qənimətlərin bir hissəsi Dünyanın gözü qarşısında nümayiş olundu. Vətən müharbəsində qazandığımız qələbədə təkcə müasir texnologiyalar deyil, eyni zamanda Azərbaycan əsgərində olan ruh yüksəkliyi, qələbə əzmi də bir daha özünü göstərdi". Deyirlər ki, heç kim anadan qəhrəman olaraq doğulmur. Qəhrəmanlar döyüşdə doğulur. Həqiqətən də, qəhrəman olmağa meydan gərəkdir. Bu anlamda, döyüş qəhrəmanlar üçün bir meydandır.

Vətən müharibəsində torpaqlarımız uğrunda gedən döyüşlərdə nə qəhrəmanlar doğuldu. Əslində, Azərbaycan ordusunun Vətən müharibəsində iştirak edən hər bir fərdi bizim qəhrəmanımızdır. Komandir Elvin Məmmədovda döyüşdə doğulan qəhrəmanlardan biridir. Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad edilməsindəqəhrəmanlıq göstərən igidləri, torpaq uğrundan canından keçərək Şəhidlik şərbətini içənləri, qazilərimizi heç zaman unutmayacaq. Əminik ki, ordumuzun hər bir əsgəri haqqında kitablar, məqalələr yazılacaq, nəğmələr qoşulacaq. Bu Onların haqqıdır. Böyük Zəfərimizlə Azərbaycan xalqının qəlbində özünə taxt quraraq heykəlləşən Ali Baş Komandan, Cənab İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirmiş hərbi qulluqçuları Milli qəhrəman, “Azərbaycan Bayrağı”, “Rəşadət” və “Vətənə xidmətə görə” ordenləri ilə təltif etməklə Azərbaycan ordusunun zabitlərinin göstərdiyi igidliyi, şücaəti yüksək dəyərləndirib. Təltif edilənlər arasında komandir Elvin Məmmədov da var. Cənab İlham Əliyevin sərəncamı ilə Elvin Məmmədov “Azərbaycan bayrağı” ordeni və “Cəbrayılın azad olunmasına görə” medalı ilə təltif olunub. Böyük Zəfərimizlə ölkəmizdə Yeni era başladı. Qalib ölkənin vətəndaşları olmaq bizi şərəfləndirir. Azərbaycan xalqı bizə bu şərəfi yaşadan Ali Baş Komandanı və qəhrəman oğulları ilə fəxr edir!

*Lütfiyyə Əsgərzadə*

**Emin PİRİ**



*Qəhrəman şair oğlumuz Emin Piri cəbhədən iki məktub yazıb:* 1. İki hadisə daha çox duyğusal anlar yaşadıb mənə. Birinci dəfə müharibəyə yola düşəndə anam başıma xına qoyub yola saldı. İkincisi isə Füzuliyə ilk dəfə gələndə biz mövqe tutmağa çıxanda komandirin "Kəlimeyi-səhadət"i bilirsiniz", – deyə soruşmağı.

2. Xoş gördük. Məktub yazanlara, yazı-status həsr edənlərə minnətdaram. Mümkün olduqca cavablayacam. İndi sadəcə internet və s. görə gecikə bilərəm ki, bunu da üzrlü sayarsınız. Yolumuzu gözləyənlərə, dəstək olanlara, dua edənlərə, unutmayanlara sonsuz təşəkkürlər. Qarabağı addım-addım dolaşdıq. Çox şükür ki, bu savaşdan alnıaçıq çıxdıq. Bu qələbə sadəcə başlanğıcdır. Tanrıya minnətdaram ki, o müqəddəs günləri mənə yaşatdı. Əminəm ki, hər biriniz mən etdiklərimi edərdiniz və daha artığını. Biz birlikdə bacardıq!

Şəhid döyüş qardaşlarıma Allahdan rəhmət diləyirəm. Öpürəm, bağrıma basıram. Xidmət hələ davam edir. Yaxın günlərdə Bakıda görüşmək ümidi ilə.

**EMİN PİRİ – "ÖLÜMÜ BARMAĞINDA OYNADAN" ŞAİR**

*İkinci Qarabağ savaşı başlayandan cəbhədə olanşairimizin şeirlərində müharibə və uşaqlar!Mənimlə "ölüm-ölüm" oynama, Allah! Mən ölümü barmağındaoynadan bəndənəm.*

Epiqraf kimi bu şeiri seçməyim əbəs deyil. Emin Pirinin şair obrazı, müharibəyə, ölümə və həyata baxışı bu misraların içindədir. Emin yaradıcılığından əsas xətt kimi keçən müharibə şeirlərini yazmaqla qalmadı, həm də dönə-dönə canlandırdığı savaş lövhələrinə daha yaxın, daha dərindən bələd olmaq üçün cəbhəyə yollananlardan oldu. Bu qərarı verib gedirsənsə, artıq nə yaradıcılıq axtrarışları üçün edirsən, nə də hansısa gündəm mövzusuna predmet olmaq üçün. Bunu içində özümlü şəkildə yaşadığın Vətən sevgisi diqtə edir. Ancaq vətənin sabahını düşünüb gedirsən. "Ölüm-ölüm" oynamağa gedirsən və hər bir halda – şəhid də olsan, sağ da qalsan öz sözünü deyirsən artıq! "Ölümü barmağında oynadıb" dönürsən.

Elnarə Akimova haqqında bitməmiş fikir – Tehran Əlişanoğlu yazır: Kaspi.az Azərbaycanda özəl xəbərlər, araşdırmalar, təhlillər və müsahibələrin tək ünvanı Emin Piri haqqında yazmaq qərarı verəndə onun şeirlərinə bir də nəzər saldım. "Tanrının kölgəsi" və "Sağ qalan varmı?!"... Eminin bu adla adlanan kitablarını vərəqlədim. Adından tutmuş içindəki bütün şeirlərə qədər özündə mübhəm bir sirri, işarəni ehtiva edən bu kitablar Eminin özünü, obrazını, xarakterini o qədər dəqiq tamamlayır ki... Onun yaşıdlarından seçilən həssaslığa malik olduğunu iki ayrı məqamda hiss etmişdim. Bir müharibə şeirlərini oxuyanda, bir də sonradan "Ədəbiyyat qəzeti"ndə "1 şeir, 2 rakurs" layihəsinin müzakirəsinə çıxartdığımız "Abort stolunda yalvaran körpə" şeiri ilə tanış olanda. Hər iki mövzuda yazılan şeirlərdə əsas predmet uşaqdır. Emin Pirinin şeirləri arasından dəfələrlə keçən bu obraz dərin məna və sosial-mənəvi əhəmiyyətə malik fəlsəfi zəmin üzərində qərar tapır. "Abort stolunda yalvaran körpə"nin hayqırtıları hələ də qulaqlarımda əks-səda verir. "Dünyanın ən təmiz yalanı" şeirində əlcəksiz uşaqların barmaqlarını sızıldadan qarın soyuqluğunu lap dərindən duyuram. Hələ dünyaya gəlməyən, ana bətnindəcə öldürülən uşaqlar üçün belə əzab çəkən şairin digər kontekstdə,

müharibədə öldürülən uşaqlarla bağlı sərgilədiyi narahatlıq birləşəndə bəşəriyyətin mürəkkəb səciyyəsi, miskin bir obrazı meydana çıxır. Eminin müharibə şeirləri bəlkə ona görə fərqləndi ki,o, çağdaş insanın deqradasiyaya uğrayan dəyərlər sistemi içində savaşlardan əzab çəkən uşaq obrazlarını dünyanın ədalətsizliyinə nümunə kimi yarada bildi:

*Hamıdan çox uşaqları sevər*
*müharibələr.*
*Kiminin alnından,*
*kiminin gözündən öpər.*
*Tanrı daha tez*
*sevdiklərini aparır deyirlər.*
*Allahın öpüşüdü*
*bəlkə elə bu güllələr?!*

Emin Pirinin müharibə şeirlərindəki səmimiyyətə həmişə inanmışam. Onlar dərin səciyyəsi ilə yeni poetik müstəvi yarada biliblər. Minaya düşən ananın paralanıb özündən aralı düşən qolunun altıaylıq uşağı ilə bir basdırılması, ayağını itirən döyüşçünün düşüncələri, şəhid məzarlarına qoyulan başdaşları, səngərə məktub yazan qızın qorxuları, ağır döyüşdən sonra "sağ qalan varmı?" xitabı ilə əsgərlərinə xitab edən tağım komandirinin üzləşdiyi lal sükutdan tutmuş, "mərmilər altında sevişən göyərçinlər"ə qədər fəci və təsirli məqamlar bu poeziyada bədii məcra, estetik məkan kəsb edə bilib.

*Hər əsgər tabutu*
*bir ağ gəlinliklə köçər...*
*əsgər deyil,*
*sevən qızın arzularını*
*götürüb gedər*
*hər atılan güllə.*

Amma uşaqlara münasibət bu şeirlərin özündə belə də

yişir, daha bədii-fəlsəfi şəkil alır. Müharibələrdə “analar uşaq yox, şəhid doğur daha”. Nə qədər doğru ifadədir. Gözü-mü-
zün önündə baş verənləri xatırlatdımı sizə? Hətta ərazisində heç bir döyüşün getmədiyi, amma müharibənin, erməni zalımlığının qurbanına çevrilən Gəncə, Bərdə, Tərtərdə ölən uşaqları yada saldımı? İndi, son iki ayda yaşadığımız bunca ağrı-acıdan sonra bu şeirlərdəki zamanı ötə bilən duyğu selini görüb heyrətlənməyə bilmirəm. Bir göz qırpımında öldürülən uşaqların şəkilləri suda üzürmüş kimi qarşımda cərgələnir: qalıqlar altında qalan Mədinə, yelləncəyinin yanına donuq cəsədi uzanan Aysu və ömrü yarıda kəsilən nə qədər uşağın məzarlardan boylanacaq şəkilləri. Hələ bunların heç birinin baş vermədiyi zamanda Emin aşağıdakı kədərli tablonu bu qədər həssaslıqla rəsm etməyə gücü hardan almışdı görəsən?

*Qızım, görə bilmədim*
*mənə doğru yerişini.*
*İndi rəsmlərin*
*Şəkil-şəkil iməkləyir divarımda.*
*Qızım, başdaşın özündən uca,*
*məzarın səndən qoca.*
*sənsə hələ də körpə...*
*Həbsxana köşəsində*
*qəfəs içindəki quş qədər azaddır*
*mənim sülh arzularım.*
*Qızım, bütün boş yelləncəklərdə*
*səni görürəm*
*görürəm buludsuz səmada bulud kimi,*
*qaranlıq gecədə günəş kimi.*
*Qızım, saçlarım darıxır –*
*yolmağınçün,*
*yanaqlarım çuxura dönüb*
*yerini doldurmağa –*

*o quyular totuş barmaqlarına həsrət*
*həyatim ayaq izlərinə möhtac.*
*Bilirəm, uşaqlar ölmür,*
*böyüklərdən küsür,*
*küsür bu dünyadan*
*və eləcə uçur, gedir...*
*Bağışla,*
*Bağışla, sənə dəyən güllələri.*
*Qolundakı metal qırıntısına gülümsə -*
*bir çimdik bil, böyüklərdən hədiyyə.*

"Mən hərbçi işləyərkən cəbhə bölgəsində səngərdə olmuşam. Səngərdə gördüyüm hadisələr həyatımda daha dərin iz buraxıbdır, nəinki sevgi yaşantıları" – müsahibələrinin birində demişdi. Sonralar yazdığı, "Ədəbiyyat qəzeti"ndə ilk oxucularından olduğum "Venesiyaya məktub" şeirlərində sevgidən də yazdı Emin. Həm də fərqli ampluada. Silsilə bitəndən sonra bu haqda ayrıca yazmağı düşündüyümdən geniş təfərrüata varmıram. Yalnız onu deyim ki, Eminin "Venesiyaya məktublar"ı həm modern düşüncə sistemi, həm də irfani təfəkkürün işlənib mükəmməllik zirvəsinə qalxan ənənə və modellərini özündə ehtiva edir. Bu ideal fonda sevginin bütün ideallardan üstünlüyü görünür, ümum kainat, kosmik miqyas alan mahiyyəti ilə bədii mozaikanın diqqət hədəfində dayanır:

*Ayaqlarımın ddımlamağı*
*əllərimi aldatmaqdı*
*səcdə edir getdiyin yollara.*
*Üzümü hara tutum dua edəndə*
*Məkkəyə, Vatikana*
*Yoxsa Venesiyaya?*

"Venesiyaya məktub"larında Emin Piri "İnsan-Tanrı" tellərini canlı və cansız aləmin münasibətlərinin zənginliyi müstəvisində təhlil edir. İroniya acısını artırdığı bu mətnlərdə da-

rıxan, ovunmayan obraz qismində yer alan şairin dərinlərə ad-layan yaradıcılıq ruhunun təzahürlərini sezməmək olmur:

*Aldadasan hamını...*
*Elə özünü də*
*Tanrını da*
*Onun yazdığı*
*75 illik ömrü də*
*33 yaşında*
*atasan özünü*
*dənizin qolları arasına.*
*Cırasan alın yazısının qalan səhifələrini*
*balıqlar öpə gözündən,*
*yosunlar anantək bələyə səni.*
*Allah da köks ötürüb deyə:*
*"Bağışla. Bağışla məni".*

Qayıdaq mövzumuza. Bu silsilənin yeddinci, doqquzuncu məktublarını nədənsə "Qarabağda və bütün müharibələrdə həlak olan körpələrə" ithaf etmişdi Emin Piri. Görünür, özünün dediyi kimi, yuxularında da səngər görən adamın o hisslərdən uzaqlaşmağı asan olmurmuş:

*...Bu qızcığaz da*
*cuppulu barmaqlarıyla qıdıqlayır*
*atasının məzarını.*
*Uşaq ağlı...*
*Yadında belə qalıb,*
*bəlkə güldürə bildi atasını...*

Ədəbiyyat millətə enerji püskürdən qüvvət mənbəyi olmalıdı. Bu illər ərzində bizdə yazarın bədii missiyası ancaq ölüm, ah-zar, gözyaşı, nalə, inilti, fəryad, şikayət və başqa bu kimi hisslərə köklənməklə məhdudlaşdı. Emin Piri də bu mövzuda nə qədər fərqli poetik yaşam sərgiləsə də məğlubluq kompleksinin təzahürlərindən yayına bilmədi. Amma Birinci Qarabağ savaşındakı məğlubiyyət acısını canında yaşatdığı

üçün illər ötsə də itkilərə və ağrıya həssaslığı azalmadı. Keçmişə daha konkret və bitkin şəkildə nəzər saldı, onu ən sərt, ironik intonasiya ilə sorğulamaqdan çəkinmədi:

*Şəhid məzarlarını*
*mərmərə bükdük,*
*daş qoyduq başlarına*
*qalxa bilməsinlər*
*üzümüzə tüpürməyə.*

Zaman şairə imkan verdi ki, xalq olaraq üstümüzdəki ləkəni təmizləməyə yol görünən hünər meydanında iştirakı ilə içindəki bu yükdən özünü xilas etsin, o müqəddəs yerlərin hər qarışında iz salsın, tarixin başdan yazıldığı bu qalibiyyət sənədində imzalar içində imzası olsun. Eminin şair kimi bundan sonra da təsirli mətnlər meydana qoyacağına əminəm. Tarix müəllimi kimi şagirdlərinə qucaq dolusu vətən eşqi, vətən sevdası aşılamağına da həmçinin.

İndi buna onun hamıdan çox haqqı var!

*Elnarə Akimova*





# EMİN PİRİ,
# OĞUZ ALPARSLAN,
# ELVİN İNTİQAM



*Vətən müharibəsinin üç döyüşçü şairi (Emin Pirinin, Oğuz Alparslanın, Elvin İntiqamoğlunun şeirləri əsasında)*

1992-ci illər şeirində Bəxtiyar Vahabzadənin, Xəli Rza Ulutürkün, Məmməd Arazın, Ələmdar Quluzadənin poeziyasında Qarabağ müharibəsi döyüşçülərinin real portreti canlandığı kimi, bu gün xalqımızın yaşadığı 44 günlük Vətən müharibəsində zəfər qazanan döyüşçünün rəşadəti sözün əsil mənasında poeziyanın misralarından daha yüksəkdə dayandı. Sabir Rüstəmxanlının, Zahid Xəlilin, Vahid Əzizin, Ümid Nəccarinin, Məmməd İsmayılın, Emin Pirinin, Əlizadə Nurinin, Avdi Qoşqarın, Mahirə Abdullanın, Xanım İsmayılqızının, Elnur Uğurun,

Vaqif Aslanın, Oğuz Alparslanın, Elvin İntiqamoğlunun və yüzlərcə şairin yaradıcılığı döyüşçü əsgərlərimizin vətən uğrunda mübarizələrini, bu yolda canlarını qurban vermək sevgilərini, Vətən sevdalılarının obrazlarını canlandırdı.

İlk öncə döyüşçü şairlərin – Emin Pirinin, Oğuz Alparslanın, Elvin İntiqamoğlunun şeirlərindəki döyüşçü obrazından bəhs etmək istəyirəm.

Emin Piri 44 günlük müharibədə qələmini süngüyə çevirən şairlərimizdən biridir. Müharibədən öncə bunları yazmışdı, döyüşüb torpaqları xilas etməyi elə onda qarşısına məqsəd qoymuşdu, Şəhidlər Xiyabanında olanda. Yaşca özündən kiçik, şəhid olan əsgərlərin məzarları önündəbir əsgər yetişmişdi.

*Bu yaşına görə*
*Şəhidlər Xiyabanında*
*18 yaşlı*
*baş daşları*
*utandırdı məni.*
*Məndən kiçikdi hələ*
*Məndən öncə doğulanlar*
*əmi deyib*
*üstümə qaçır başdaşları*
*bir əsgərin ölüm günü*
*baş daşının doğum günüymüş.*



Torpağı uğrunda canlarından keçən bu əsgərlərin qanı yerdə qaldığı, torpaqları düşmən tapdağı olduğu üçün özünü qınayan bir gənc sonradan döyüşçü olmaq, torpaqlarını azad etmək üçün bu məzarlar önündə xəcalət çəkə bilirsə o mübariz əsgər ola bilir.

*Şəhid məzarlarını*
*mərmərə bükdük,*
*daş qoyduq başlarına*
*qalxa bilməsinlər*
*üzümüzə tüpürməyə.*

*(Emin Piri. "Başdaşları utandırdı məni")*

Emin Piri döyüşçü, əsgər kimi ön çəbhədə olsa da, poeziyasında əks etdiyi əsgər haqqında yaşananlar arxa cəbhədə də cərəyan edir. Əsgər və onun valideyinləri, əsgər və onun həyat yoldaşı, əsgər və onun körpə balası. Bu şeirlərdən də görünür ki, o nə həyatda, nə də ki, şeirlərində özünü düşünməyib. Elə müharibədə döyüşçü məhz belə igidlər ola bilir. Canını  xalqı uğrunda, torpaqları uğrunda, ailəsi uğrunda, əzizləri uğrunda qurban verə bilən insan döyüşçü və şəhid ola bilir.




"Şəhid oğlunun dedikləri" şeirində bir ana var, bu ananın müharibədə şəhid olan  ərinə demək istədikləri o qədər reallıqlar var ki, əsil müharibə nədir və döyüşdə şəhid vermək nədir, bu canlı tablodan görmək, yaşamaq olur.

*Anamı heç elə görməmişdim*
*Atamı gətirəndə sıxmışdı əllərini...*
*Camaat görməsəydi*
*Yumruqlardı atamı:*
*"bu iki* yetimə bəs kim baxacaq?!"

Müharibə həqiqətlərini, döyüşçünün arxa cəbhə üçün narahatlıqlarını və nigaranlıqlarını Emin Piri əslində elə cəbhədə olduğu üçün belə real verə bilib. Ailələri, valideyinləri, körpələri üçün bu qədər acı həqiqətləri görə bildikləri halda canlarını Vətən üçün qurban edə bilən döyüşçülər Emin Piri poeziyasında əks etdirilə bilir. Qazi olan bir döyüşçü obrazı da var şairin poeziyasında:

*Müharibə əliliydi babam,*
*Aldığı təqaüdün qəpiklərini*

*Gizlədərdi əlində.*
*"Tapın görüm, hansı əlimdədi?*
*Pul, tapanındı"*
*Oynardı bizimlə.*
*Ancaq heç vaxt tapmadıq*
*Qəpikləri hansı əlində gizlətdiyini.*
*Görəsən, bilirdimi*
*Biz bilirik*
*Bir əlini müharibədə itirdiyini...*

*("Babamın əlləri")*

Şairin "Sükutlu səngər", "Ayağım özümdən qeyrətli çıxdı", "Sağ qalan varmı?"... şeirlərində döyüşçülərimizin yaşadığı müharibə ağrıları və həqiqətləri poetik ifadəsini tapır.



*Əsgər sinəsi axtarır*
*isinməyə*
*fevral şaxtasından*
*üşüyən güllə.*

Müəllif döyüşçünun hər dəqiqə üz-üzə olduğu o anı ifadə etməsi ağrılı və eyni zamanda poetik anlamda güclüdür. 3-4 bəndlik şeirdə ön cəbhə-döyüşçünün yaşadığı həqiqət və arxa cəbhədə döyüşçüyə aşiq bir qızın sevgisi canlanır. Şairin hər əsgərin ölümü ilə "hər əsgər tabutu, bir ağ gəlinliklə köçər... əsgər deyil, sevən qızın arzularını götürüb gedər, hər atılan

güllə" ifadəsi əslində müharibə dəhşətinin ən real faciəsidir. 3-4 bənddən ibarət şeirdə ön cəbhəylə arxa cəbhə bir araya gəlir.

Gecənin yarısı səngərə məktub yazan bir qızın, anasının "hələ yatmamısan" sorğusu və "üşüyürəm, ana, odun atıram sobaya" deməsi ən qiymətli poeziya nümunəsidir. Sevən qızın əsgər yolu gözləməsi poeziyamızda yeni bir tapıntı olmasa da, amma sonrakı məqamda sevdiyini itirən qızın sevgilisini itirməsində şair tərəfindən özünə məxsus şəkildə ifadəsi cəbhədəki ağrılı anların dəhşəti ilə yadda qalır.

*Daha*
*gecələri oyaq qalmağa*
*soba yanında məktub yazmağa,*
*yalandan üşüməyə,*
*sobaya odun atmağa*
*ehtiyac yoxdu...*
*Tağım komandirinin*
*səngərdən qıvrıla-qıvrıla*
*boğuq səsi gəlir:*
*kimsə sağdır?!*

"İtirilmiş əllər" şeirində isə bir sevən qızın düşüncələri ağrılı və təsirlidir. Söhbət əlini itirmiş əsgərdən gedir. Hər zaman görüşəndə gözü əsgər sevgilisinin əlində olardı. Qız ona gül gətirən əsgərin yenə də gül gətirib-gətirməyəcəyini duşunərdi. Artıq ona gül verən o əllər yoxdu, sadəcə kitab vərəqlərində qurudulan o gül var. Və o qız sevgilisinin əllərini o güllərdə axtarır. Şeirlərinin çoxunda olduğu kimi bu şeirdə də arxa cəbhədəki hadisələr ön cəbhənin dəhşətlərini əks etdirir.

*Görüşəndə*
*Sevgilisinin əlində*
*gözü axtarardı*
*ona veriləcək gülləri.*
*Indi*
*Kitabları arasında qurutduğu*

*Gül ləçəklərində axtarır*
*Sevgilisinin cəbhədə itirdiyi əlləri.*
*(“İtirilmiş əllər”)*

Emin Pirinin yaratdığı döyüşçü-əsgər obrazı ən şox onun itirdiyi əli və yaxud ayağı ilə yadda qalır.

Oğuz Alparslan da 44 günlük müharibədə qələmini silaha dəyişən oğullarımızdandır. İllər əvvəlki şeirlərində Xocalı faciəsini iliklərinə qədər yaşayan şair sanki bu faciəmizdən bir Azərbaycan oğlu kimi əzilir, qüruru qırılırdı. Oğuz Alparslan “Türkəm mən” şeirində özü-özünə söz verib, and içirdi. Şair 44 günlük savaşa da yollananda həmin şeiri səsləndirmişdi.

*Al qana boyanan ,*
*Al bayrağım var,*
*Sinəmdə döyünən,*
*qurd ürəyim var,*
*mənim bükülməyən,*
*Türk biləyim var,*
*Türkəm mən!*
*Bozqurdam sözümün*
*ağasıyam mən,*
*Şimşək tək gurlayıb,*
*Çaxasıyam mən,*
*Dönüb Qarabağın yanan*
*köksünə,*
*yurdum Xocalıya yağasıyam mən.*



*(Oğuz Alparslan ”Türkəm mən”)*

Bu şeirlər zəfərə gedən yolun başlanğıcıdır. Bu ürəklə savaşa yollanan əsgərin qələbə qazanmaması mümkünsüzdür. Savaşdan sonrakı şeirində döyüşçünün məramı, amalı daha çox bəlli olur. Xocalıda erməni vəhşiliyini yaşayan qız-gəlinlərimiz, Azərbaycan qadını Oğuzun gözləri qarşısından biran belə silinmədiyi Xocalıda erməni təcavüzünə məruz qalan bir körpə qıza yazdığı şeirdən məlum olur. Qələbə sevinici ilə vətənə

dönən döyüşçü-şair Xocalı faciəsində erməni vəhşiliyinə məruz qalan körpə qızcığazla dərdləşir. Döyüşçü-şairin bu zəfərdən sonra bir az da olsa vicdanı rahatlıq tapdığı məlum olur.

*Yaddaşımın qan yeri,*
*Oyan! Qaldır üzünü..!*
*Bax...sökülür dan yeri*
*"Otuz il"lik yaddaşına*
*bir daş at,*
*Xocalının dəhşətini yaşayan,*
*Erməni nifrətini öz bədənində*
*daşıyan,*
*o balaca qızcığazın,*
*ağrıları dindimi?*

Qarşımızda türk öğlu var və bu oğul düşməndən az da olsa qisasnı alıb. Əslində poeziyanın real döyüşçüsüdür Öğuz Alparslan. Poetik təfəkkürü reallıqdan tam ayrıla bilmir. Azərbaycan döyüşçüsünün düşüncəsi, qüruru bir istiqamətə yönəlib. Bu istiqamət ədalətin bərpasına tuşlanır. Döyüşçülərimizin təfəkkürü, gücü və mübarizəsi ədalətə xidmət edir və ona görə də bu müharibə zəfərlə yekunlaşdı. Müharibədən zəfərlə dönən döyüşçü üzünü o məsum qızın xatirəsinə tutur. "Xocalıdan danışsam, ağrın dinərmi bir az?" bu sorğu kövrək duyğular oyatmaqla yanaşı iğid oğullarımıza qarşı fəxarət hissini gücləndirir. Əslində bu sualdan bir çox həqiqətlər də bəlli olur. Bu sualların illərdi döyüşçü-əsgərlərimizin ürəyində onlara əzab verdiyi bəlli olur.

*Anam, bacım...qızcığaz,*
*Xocalıdan danışsam,*
*Ağrın dinərmi bir az?*
*Ayağın isinərmi?*
*Ürəyin isinərmi?*

*(Oğuz Alparslan"Adsız şeir")*

Bu sonluqdan içində az da olsa rahatlanan bir döyüşçü

obrazı deyil, real bir döyüşçü görürük

Elvin İntiqamoğlu da 44 günlük Qarabağ müharibəsində döyüşən şairlərimizdəndir. Onun yaradıcılığında da müharibənin faciəsi canlandırılıb. Elvinin "Mühasirə" başlıqlı şeirində bir günlük müharibə həqiqətlərinin real yaşantılarını görürük.

Şeirdə mühasirəyə düşmək təhlükəsini anladan döyüşçü-şair mühasirənin ölümdən ağır olduğunu anladır, ölümdən deyil, əsir düşməkdən ehtiyat edən əsgərlərin yaşantıları canlandırılır.



*Rabitə xətlərindən asılı qalıb*
*Komandir:*
*Kömək edin, cənab*
*Polkovnik leytenant,*
*Kömək göndərin bizə;*
*Etibarsız çıxdı rabitə daşı...*
*Təki Vətən sağ olsun,*
*Çıxarın daraqları-*
*Içindən hərə bir güllə götürsün*
*Atsın cibə:*
*Ola bilsin oldu bizlər üçün son*
*Müharibə:*
*Mən onda bildim güllənin*
*Tərifin-*
*Bir dəqiqəlik sükut,*
*Bir ömrlük göz yaşı.*

*(Elvin İntiqamoğlu " Mühasirə")*

Müharibə həqiqətlərinin əksi döyüşçü-şair dilindən təbii, təsirli verilməklə yanaşı, həm də döyüşçü obrazının boyasız və real əksini görmək və müharibə facəsini yaşamaq mümkündür.

Şairin "Yağış suyu" (Müharibə xatirələrindən) silsilə şeirlərindən birində uca Tanrıyla bir döyüşçünün söhbəti yer alır. Qan yerinə yağış suyunun axmağını istəyən gənc döyüşçünün Tanrıyla söhbəti elə səmimi və içdən ifadə edilib ki, Azərbaycan əsgərinin bu savaşdan üzü ağ çıxmasını, Allahın o igidləri

qorumasını döyüşçü-şairin dilindən həyacansız dinləmək olmur. Bu ifadələrdə rellıqla bədiilik birləşərək canlı tablolar yaradır. Tanrı və savaşda hər dəqiqə ölümlə pəncələşən döyüşçü obrazı bitkin və canlıdır. “Allahım, bizləri sən qorudun, yenə qoru, qoyma, suya uduzaq, əlinlə sıx, suyun çıxart buludun...” döyüşçü şairin özünəməxsus düşüncəsi və duyumu maraqlı və fərqlidir. Bəlkə də Elvin buludların ağlamasını ona görə istəyir ki, anaların göz yaşını görmək bütün döyüşçü əsgərlər kimi onu da varikən yox edir. Döyüşçünün yanında onu qoruyan ana yoxdu, yalnız göy üzündən onun ədalətli savaşını izləyən Tanrısı var. Döyüşən şairin axan qana fəlsəfi baxışı düşündürücüdür. Qanın yerinə yerdə yağış gölməçəsini yaratmaq üçün çırpınan döyüşçü Tanrıya sığınır. Tökülən düşmən qanı “Vətənin can yerinə” axdıqca əslində vətən azad olur, vətən olur, ideyası yeni olmasa da mükəmməl poetik ifadədir.



*Axır düşmənin qanı*
*Vətənin can yerinə-*
*Yerdən narahat olma,*
*Sən su tök göydən yerə qan yerinə...*

Döyüşçü şair qələbimizi, zəfərimizi bir az da palçıqlı gölməçələrə, yağış suyuna, onu yağdıran Tanrıya borclu olduğumuzu diqqətə çatdırır. Son bənddə Tanrıdan Qarabağımızın suyunu içə bildiyi qədər yağış istəyir. Bəlkə 30 illik həsrətimizi, nisgilimizi ancaq yağış suyu yuyub, təmizləyə bilər və ya erməni tapdağında qalan torpaqlarımız yağış suyundan sonra dirçələr, rahatlıq tapar və paklaşar.

*Həsrətində olduğumuz torpağı*
*daddırdı bizə*
*Palçıqlı gölməçələr...*

*Qoyma, yağış dayansın,*
*Qarabağ suyunu içənə qədər...*

Müəllifin ”Pəncərə” şeirində də fəlsəfi düşüncə maraqlıdır. Pəncərədən Qarabağa baxan döyüşçü-şair. Şeirin ilk misralarında Laçınla bağlı narahatlığı poetik sətirlərdən duymaq olur. Pəncərəni varlığını müxtəlif mənada diqqətə gətirən şair üç bəndlik şeirdə pəncərəni açmaq, qırıq pəncərəni bitişdirmək, pəncərəni örtmək ifadələrini dəyişik ideyada əks etdirir.



*Bakı dəhlizindən yaxşı görünmür*
*Laçın pəncərələri-*
*Havası çatmır Vətənin, boğulur,*
*Açın pəncərələri...*
Ikinci bənddə;
*Otuz ildən sonra bağlaya bildik*
*Açıq pəncərələri-*
*Bitişdirdi torpağın şəhid qanı*
*Qırıq pəncərələri...*

Sonuncu bənddə isə keçmişi qapamaq istəyən şair, bütün pəncərələrin örtülməsini arzu edir.

*Qapıdan qovulan bir də gəlməsin,*
*Tutun pəncərələri-*
*Keçmişimiz təkrarlanmasın, örtün*
*Bütün pəncərələri...*

*(Elvin İntiqamoğlu “Pəncərə”)*

Elvinin “Şəhid qızı” şeirində isə reallıq önə keçir. Bir şəhid qızının yaşantıları, anasının övladını necə ovundurması, yalan danışmağa məcbur oması diqqət çəkir. Bir ananın bu yalanları demək zorunda qalması çox real boyalarla işıqlandırılır. Ananın hər dəfə atasından oyuncaq istəyən qızına oyuncaq alması, atasını görmək istəyən övladına “Atan yatıb sən də yat, işdən gəlsin yuxuna, evə gəlməyənədək” – deməsi yetərincə müharibə ağrılarını, şəhid verən qadınların yaşantılarını əks etdirə bilir. Hələ ana çox yalanlar deməyə məcbur olacaq. Bunla-

rın içərisində ananı ağrıdan bir məqam da var ki, bu, ananın qızına qurduğu xəyalla bağlıdır. Hər qızın arzusu ona elçi gələndə atasının elçilərinin qarşısına çıxması, qızına xeyir-dua verməsidir. Amma şəhid qızı bu arzudan da məhrum olacaq. Elvin ananın dilindən bu istəyi də poetikləşdirir ki, bu misralar ana kədərinin real boyalarla mükəmməl təsvirini ifadə edir.

*Anan yalan danışır:*
*Atanın qismətinə əzrayıl elçi düşüb,*
*Sənin elçilərini*
*Qarşılaya bilməyəcək-*
*Toyunda qız atası*
*Ürəyindən keçənləri*
*Arzulaya bilməyəcək...*

Bunlar yaşanan reallıqlardır. Şəhidlərimiz torpaq uğrunda canlarını qurban verməklə yalnız öz həyatlarından keçmirlər. Onların ailələri, xanımları, övladları da həyatlarında yaşıya biləcək bütün gözəllikləri qurban verirlər. Bu baxımdan bu məzmundakı bütün nümunələr təsirli və ağrılıdı. Bəzi məqamda Şəhid ailələrinə dövlətin və xalqımızın dayaq durması da hətta belə şəhid övladlarının xüsusi ilə duyğusal yaşantılarına təsir göstərə bilmir. Aşağıdakı misralar da bu baxımdan reallıqlara söykənir. Anan yalan danışır:

*Yalanlarda atan kimi bir gün yoxa çıxacaq-*
*Sinif yoldaşların sənə "Şəhid qızı" deyəcək...*
*Bilirsənmi nədi ən qəribəsi?*
*Tarix dərsində ağlaya-ağlaya*
*Yazacaqsan lövhəyə:*
*"İkinci Qarabağ müharibəsi..."*

*(Elvin İntiqamoğlu "Şəhid qızı")*

Son misradakı "İkinci Qarabağ müharibəsi" ifadəsi ilə müəllif 44 günlük müharibənin bizə yaşatdığı zəfər sevincləri ilə bərabər, torpaqlarımızın azadlığı uğrunda verdiyimiz şəhidlərimizi də yada salır. Azərbaycan poeziyasında döyüşçü əsgər

obrazını əks etdirən yüzlərcə şeir, poema artıq ədəbiyyatımızın dəyərli poeziya nümunələrinə çevrilib. Bu mövzu tənqidçi və ədəbiyyatşünasların diqqət mərkəzindədir. Günümüzün ən aktual mövzusu olan Azərbaycan əsgərinin şanına, hünərinə hələ çox şeirlər, dastanlar yazılacaq. Bu məqalədə üç döyüşçü şairin – Emin Piri, Oğuz Alparslan və Elvin İntiqamoğlunun poeziya nümunəsi ilə tanış olduq, bu istiqamətdə araşdırmalarımız davam edir. 30 illik Qarabağ həsrətini bu xalqa unutdurub, zəfər sevincləri yaşadan Azərbaycan döyüşçüsünün obrazı hələ ədəbiyyatımızda uzun illər canlanacaq.

*Mərziyyə Nəcəfova*

**P.S.** *Emin Piri "Xocavəndin azad olunmasına görə", Oğuz Alparslan "Qubadlının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və Elvin İntiqamoğlu "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunublar*

## Eyyub DADAŞOV



Sona xalam 20 Yanvardan sonra başına heç vaxt rəng qoymadı. Başı ağappağdır. 30 ildir Şəhidlərimizə yas tutur. Bu gördüyünüz yaralı qəhrəman isə həmin Sona xalamın nəvəsidir. Eyyub Dadaşov – Vətən Müharibəsi qazisi. Bu gün onun ilk Zəfər paradıdır! Hələ də yaraları sağalmayıb. Başın həmişə uca olsun, Vətən oğlu!

*Ülviyyə Heydərova*

# Əbülfət QURBANOV





Bu qurban olduğum əgər getdi, Qazi kimi qayıtdı. Əbülfət Qurbanov Vedibasar mahalındandır. 2000-ci ildə Bakı şəhərinin Qaraçuxur qəsəbəsində doğulub. Vətən müharibəsində Laşın uğrunda qəhrəmancasına döyüşüb. Hər iki ayağından qəlpə yaraları və sınıqları var. Hazırda hospitalda müalicə alır. Qazimizə Allahdan şəfalar diləyirəm.

O, bir dastandır. O, tarix yazan cəngavərdir. O, Qarabağı Azərbaycana qovuşduran qəhrəmanlardan biridir.

*Ruslan Həsənov*

## Əli ƏLİYEV



Saralın daha bir igid oğlu, Əliyev Əli Arif oğlu.1993 cü ilin aprelin 23-də Bakıda anadan olsada, əslən Loru-Pəmbək zonasındandır. Müharibə başlayanda o, da könüllü müharibəyə getdi, onun da məqsədi düşmənə qarşı vuruşub öz torpaqlarımızı yağı düşməndən təmizləmək olub. Əlinin bir arzusu da Sarala gedib bayrağımızı "Armud ocağı"nın üstündən asmaqdır! Hal-hazırda Qubadlıdadır döyüşçü balamız. Vərəzəllidən olan bu qəhrəmanmızın qarşısında baş əyirəm. Bu qədər vətəninə, elinə bağlı igidlərimiz var, torpaq yetişdirir, Saralın qəhrəman oğullarını! Sizlərlə qürur duyuruq: "İrəvan Azərbaycandır"!

*Şəmsiyyə Mustafayeva*

## Əli KƏLBƏCƏRLİ



Əlidən incidim! Deyir: heç belə ad günüm olmamışdı, komandir iki dana kəsdirdi, qazanlar asıldı, bütün Şuşa əhli yeyibiçdi. Yəni, ad günlərində kəsdiyim çolpalar urvatdan düşüb! İkinci də, barı ayı kəsərdiniz, kimin oğlundan əskiksən.

*Xəqani Həbiboğlu*

## Əli QASIMOV



Qasımov Əli Rafiq oğlu (Göyçə mahalının Kəsəmən kəndindən olan Mehralı Qasımovun nəvəsi) II Qarabağ Vətən Müharibəsinin ilk günündən – 27 sentyabr 2020-ci il tarixdən cəbhədə – döyüş bölgəsində sürücülük vəzifəsindədir. Döyüş vaxtlarında Suqovuşan, Cəbrayıl və Qubadlıda şərəflə vəzifəsini yerinə yetirib. Əli bəy hələ də cəbhədə Vətən keşiyində layiqincə qulluq edir.

*Həqiqət B.*

## Əli SƏFƏROV





Topçu igidimiz Əli bəy! Ermənilərin qənimi! Səfərov Əli Zülfəli oğlu 1994-cu il noyabrın 11-də anadan olub. Vətən Müharibəsinin ilk günündən döyüş bölgəsində iştirak edib. İgid oğlanımız topçudur. Murovdağ yüksəkliyinin alınmasında iştirak edib. Hal-hazırda Tovuzda hərbi xidmətdədir.

*Həqiqət B.*

## Əmrah ƏLİYEV



Əmrah Xudaverdi oğlu Əliyev (1996) Xocavənd, Xankəndi ətrafında, Qırmızı Bazar istiqamətlərində qəhrəmancasına döyüşüb, hazırda Şuşada hərbi xidmətdədir. Şabran rayonundan könüllülər sırasında Vətəni işğalçılardan xilas etmək üçün hərbi sıralardadır.

*Həqiqət B.*

## ƏSGƏRƏ MƏKTUB!

*Salam, mənim əsgər balam, ər balam!*
*Daş diksinir, qaya qopur qıyından!*
*Qədəminçün qəribsəmiş hər qalam*
*Qürurlanır qamətindən, boyundan!*

*Sən - Şuşanı alan igid, qəhrəman,*
*İrəliyə şığıyırsan ürəklə!*
*İstiqlala, istiqbala durmadan*
*Yürüyürsən min arzuyla, diləklə!*

*Bayrağa dön zirvələrin qaşında,*
*Uca dağlar bir boy daha ucalsın!*
*Yaz yaşasın payızında, qışında,*
*Yurd yerləri qırımından güc alsın!*

*Qarı düşmən murdarlayan yerləri*
*Od püskürən nəfəsinlə təmizlə!*

*O müqəddəs ocaqları, pirləri*
*Öz şövqünlə, həvəsinlə təmizlə!*

*Nə güclüymüş millət-ordu burliyi!*
*Hünərinlə varlığımı sevindir!*
*Tank belində həyatinə girdiyin*
*Bələkdəykən tərk etdiyin evindir!*

*Hər addımda al düşmənin canını,*
*Duaçınam, düşməyəsən dara sən!*
*Yerdə qoyma şəhidlərin qanını,*
*Qarabağı qarış-qarış dara sən!*

*Sona qədər tərk eyləmə səngəri,*
*Hünər göstər, qurban olum boyuna!*
*Sağ-salamat, qələbəylə dön geri,*
*Baş tacı ol öz kökünə, soyuna!*

*Əli Nəcəfxanlı*
*08.11.20*

## Əzizağa BƏŞİROV



Əzizağa Abdulla oğlu Bəşirov 1991-ci il oktyabrın 17-də Bakı şəhərində doğulub, ailə vəziyyəti ilə bağlı Ağdaş rayonuna köçməli olub və orta məktəbi Dəhnəxəlil kəndində bitirib.

Hərbi çağırışla 2010-cu ilin yanvarından Naxçıvan Muxtar Respublikasında yerləşən Sərhəd Qoşunlarında xidmət edib. Hərbçi olmaq arzusu, bu peşəni sevməsi onu hərb sənətini davam etdirməyə

yönəltmişdir. Əzizağa Daxili İşlər Nazirliyinin Daxili Qoşunlar xidmətində hərbi peşəsini davam etdirmək qərarına gəlir və qəbul müsabiqəsindən uğurla keçir. 2012-ci ildən Vətən müharibəsinə qədər Daxili qoşunların tərkibində Şəkidə, Qəbələdə, Hacıqabulda xidmətdə olmuşdur. Azərbaycan Ordusunun bütün Qoşun növünün hərbi heyətinin bir ümdə arzusu baş çavuş Əzizağanın da ürəyində böyüməkdə idi: nəyin bahasına olursa olsun, Qarabağı qaytarmaq! Baş Komandanın əmrini səbirsizliklə gözləməkdə idilər. Və nəhayət, o, Qarabağ uğrunda döyüşlərə cəlb olunur. Əzizağanın daxil olduğu dəstə Qubadlının azadlığı uğrunda gedən amansız döyüşlərdə düşmənin məhv olunmasında, ərazilərin boşaldılmasında böyük fədakarlıqlar göstərmişdir.

Daha sonra Əzizağa Xüsusi təyinatlı kimi birbaşa Şuşa və ətrafı əməliyyatlara cavabdeh cəsur, ölməz dəstələrdə yer alır. Noyabrın 1-dən isə qaynar əməliyyatlarda müstəsna igidliklər göstərərək seçilir. Şuşa-Laçın yolunda hərəkətə nəzarət edən Xüsusi təyinatlı dəstənin tərkibində xüsusilə şücaət göstərməklə yaxın təmasdan 4 düşmən hərbçisini məhv etmişdir. Şuşa-Laçın yolunda Şuşadan qaçan, Şuşaya köməyə gələn canlı qüvvə və texnikanın məhv olunması, pusuya düşməsində döyüş yoldaşları ilə müstəsna fədakarlıq göstərmişdir. Əzizağanın da daxil olduğu Xüsusi Təyinatlı Dəstə Laçın tərəfdən gələn düşmən ordularının pusuya salınıb məhv edilməsində birbaşa rol oynamışdır. Dəstə tapşırıqları yüksək səviyyədə yerinə yetirməklə, düşmənin canlı qüvvəsinin, texnikasının Şuşaya girməsinin qarşısını almaqla onu pusuya salıb darmadağın etmişdir. Avtomobil və təxliyə maşınlarının məlum səbəblərdən döyüş bölgələrinə gəlib-



getməsində problem olduğundan şəhidlərimizin cəsədlərini, yaralı qazilərimizi döyüş bölgəsində buraxmayaraq, nəyin bahasına olursa olsun, xilas etmək üçün dəstə yaxın meşələrdən qatır, inək taparaq döyüş qardaşlarını qaynar bölgələrdən uzaqlaşdıra bilmişlər. Şuşa yolunda baş çavuş Əzizağa Abdulla oğlu, eyni zamanda, 2 erməni hərbçisi,1 snayperçi və 1 erpakoçunu yaxın məsafədən – 400 metrdən atəş açmaqla məhv etmişdir. Eyni zamanda, yüngül avtomobillə üzərinə gələn düşmən dəstəsini silahı ilə məhv etmiş, avtomobili zərərsiz hala salmışdır. Məhv edilən düşmən hərbiçilər arasında yüksək rütbəli zabitlər də olmuşdur, sübut kimi, qəhrəmanımız erməni mayorunun hərbi biletini qənimət kimi saxlamışdır. Bu döyüşlərdə dəstənin bir çox üzvləri, o cümlədən sanitarı, döyüş yoldaşlarının sevimlisi, hamının harayına çatan cəsur əsgər Zeynalov Camal da şəhid olur. Bu hadisədən çox təsirlənən dəstə Şuşa yolundakı döyüşləri qəhrəman dostlarının xatirəsinə ithaf edirlər.

Şuşaya istiqamət götürən dəstə keçilməz, alınmaz Şuşa qayalarını qoyunlarına sıxdıqları 3 rəngli bayrağın sevgisi ilə keçir, sərt, soyuq, qaranlıq şiş qayalıqları, yaralı dostlarını çiinlərində daşımalarına rəğmən, Şuşaya daxil olur. Əlbəyaxa döyüşlərində qəhrəmanımız 13 düşmən hərbçisini məhv etmişdir.

Əzizağa söyləyir ki, əlbəyaxa döyüşlərə başımızın üstündə od saçan güllələrə, əlimizdə silah sursatın az olmasına baxmayaraq biz, ya Vətən, ya da Vətən deyib girişdik.

29 dekabr 2020-ci il tarixində Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Fərmanları ilə: "Şuşanın azad edilməsinə görə" medalı, 18 dekabr 2020-ci il Fərmanı ilə "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur.

*Elvin Aslanov*

## Fərid ƏLİRZAYEV



Mən, Əlirzayev Fərid Naib oğlu, sentyabrın 28-i Vətən uğrunda müharibəyə könüllü olaraq getmişəm. Suraxanı rayon komissarlığından Ağcabədi rayonu "N" saylı hərbi hissəyə yola düşdük və bir müddət orda təlim keçdikdən sonra bizi Füzuli rayonu istiqamətində döyüşlərə yola saldılar. Gecə saatlarında Füzuliyə çatdıq. Orada bir məktəb var idi, biz orda məskunlaşdıq, gecəni keçirdik. Səhər saatlarında silahlandıq və döyüşə yola düşdük. İlk döyüşdə,şükürlər olsun Allaha, heç bir xəsarət almadım, itkimiz az oldu.Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Sonra biz yenidən təkmilləşmə üçün Füzuli rayonunun mərkəzinə endik və ordan yenidən, yeni gələn şəxsiyyətlə birlikdə döyüşə qalxdıq və ayın 14-ü döyüşə girdik.Bizə yuxarı komandanlıq tərəfindən əmr gəldi ki,aviasiya atəş açacaq, sonra siz döyüşə girəcəksiz. Aviasiya gəldi, Azərbaycan şahinləri düşmənin mövqelərini atəşə tutdu və onlar külli miqdarda itki verdilər. Sonra biz girdik döyüşə, az sayda da olsa düşmən əsgəri qalmışdı, biz neytralda onların üstünə ata-ata hücum edirdik və o zaman da mən ayağımdan vuruldum. Düşmən snayperleri də çox möhkəm atəş açırdılar, başımızı tərpədə bilmirdik. Bizim bir şansımız var idi ki, gecə düşsün, biz sürünərək çıxaq, hərəkət edəni snayper vurub zərərləşdirirdi,ya şəhid edirdi. Axşam oldu, bizim orda itkimiz cox oldu. Sağ qalan əsgərlərin sayı az idi, yaralı çox idi. Elə oldu ki, mən və döyüş yoldaşım, Nağızadə Rövşən Atakişi oğlu döyüş meydanında qaldıq, bizi çıxardan olmadı. Onlar aşağı düşdülər, biz 16 gün ərzində döyüş meydanında qaldıq, düşmən müha-

sirəsində. Düşmənin bizi görməyəcəyi bir yerə çəkilmişdik. Füzuli rayonunun gizləndiyimiz yerində bir kanal var idi, kanalın yanı qamışlıq idi, o qamışlığın yanında məskunlaşdıq. Ərzaq təminatımızı şəhid olan əsgərlərimizin "veshmeshok" dediyimiz çantalarından "suxoy payoklardan", konservalardan təmin edirdik, suyu da kanaldan. Mənə bir güllə dəymişdi, ayağımdan vurulmuşdum, hərəkət edə bilmirdim, uzanmış vəziyyətdə qalmışdım. Yanımdakı döyüş yoldaşıma isə 6 güllə dəymişdi, amma o gəzə bilirdi. Bir güllə sol dizinin altından siyirmişdi, 2 güllə qolundan dəymişdi,1 güllə gicgahından siyirib keçmişdi, 2 güllə də kaskaya dəymişdi, xəsarəti çox güclü deyildi, hələki, gəzə bilirdi, amma silahı işlədə bilmirdi, silahı mən işlədirdim. O gəzə bildiyinə görə, gedirdi ərzaq toplayırdı, kanala düşürdü, su çıxarırdı. Bir müddət elə özümüzü dolandırdıq.

Mən sarğılarımızı tez-tez açıb bağlayırdım, perekislə də yaralarımızı təmizləyirdim, yaxşı ki, onu eləyə bilirdim, ilk tibbi yardımı ikimizə də özüm göstərmişəm. Sonradan hospitalda həkim dedi ki, onu etməsəydim, ayağım qanqrena ola bilərdi. 16 gün ərzində 1 saat Rövşən müşahidə aparırdı, 1 saat mən, arada hərəmiz 1 saat yatırdıq. 16 gün ərzində,hər gün dua edirdik ki,kimsə bizim dalımızca gəlsin, bizi xilas etsin. Ölüm qorxusu yox idi, sadəcə düşmən əsarəti altına sağ düşməkdənsə, ölmək yaxşı idi. 2 güllə saxlamışdım,əgər düşmənin əlinə düşəsi olsaq, 1 güllə Rövşənə, 1 güllə də özümə vuracaqdım. Elə oldu ki, şükür olsun Allahıma, 30-u günü gəldilər bizi xilas etməyə. Düzdü əvvəl uzaqdan tanımadığımız üçün, elə bildik erməni əsgərləridi, biz gizləndik, silahı hazır şəkilə saldım, bircə qalmışdı tətiyi basmaq. Kanalın o tərəfində onlar idi, bu tərəfində biz. Onlar bizə çatanda gördüm azərbaycanca danışırlar, Rövşənə dedim bunlar bizimkilərdi, gəliblər bizi xilas eləməyə. Rövşən dedi ki, yox bu ermənilər də ola bilər, bizi aldadıb çıxarmaq üçün bir oyun ola bilər, bir

müddət çıxmadıq. Sonra gördük ki, sanitar hərbi tibb maşınıdır, üstünü oxuduq, həqiqətən inandıq ki, bunlar bizim qəhrəman zabit gizir MAXE heyətidi, öz yaralı əsgərlərini, şəhidlərini axtarırlar. Biz ondan sonra çıxdıq. Onlar bizə tibbi yardım göstərdilər, yuxarı komandanlığa bizim barədə xəbər verdilər. Ərzaqlarla, meyvə şirələriylə, şirniyyatlarla bizim qarnımızı doydurdular və daha sonra bizi Füzuli rayonu Əhmədbəyli kəndindəki mərkəzi hospitala çatdırdılar. Orda ilkin müdaxilə etdilər, sarğımı dəyişdilər, ayağımı gipsə qoydular, bir gecə orda qaldiq. Səhər məni Bakı mərkəzi hospitalına göndərdilər. Bakda hospitalda əvvəl müalicə aldım, 10 gündən sonra əməliyyat olundum, ayağımda sınıq var idi, güllə dizimin altından girib sümüyə girmişdi. Əməliyyatda ayağıma mil qoydular. Şükür olsun Allahıma, bu gün mən də, Rövşən də sağ-salamatıq, bunu da bizi xilas edən zabit gizir MAXE heyətinə borcluyuq. İndi müalicəmi evimdə davam etdirirəm, sümüyün birləşməsini gözləyirəm, daha sonra əməliyyat edib milləri çıxaracaqlar.

Mən, Əlirzayev Fərid Naib oğlu, fəxr edirəm ki, Vətən uğrunda gedən bu müharibədə iştirak etmişəm. Mən elə hesab edirəm ki, bu müharibədə iştirak edib, qanımız, canımız bahasına torpaqlarımızı geri almaq hər birimizin borcu idi. Bununla da qürur duyuram. Azərbaycan ordusu ilə də fəxr edirəm! Var olsun Azərbaycan xalqı! Bir də bunu qeyd eləmək istəyirəm ki, bizim mülki insanlarımızın çox böyük rolu olub bu müharibədə, onlar hər zaman bizə maddi-mənəvi dəstək olmuşlar. Bu qələbə sırf Azərbaycan ordusunun deyil, həmçinin Azərbaycan xalqınındır!

*Kamala Rahmatullayeva*
*Gülşən Kəngərlinskaya*

## Fuad HƏDİSOV

Qaxın Ambarçay kəndinin daha bir igid oğlu Hədisov Fuad. Fuad 44 günlük Qarabağ döyüşlərində igidlik göstərərək düşmənə qan udduran oğullardandır. Sadə və təvazökar olan Qaxın mərd oğlunu hamı tanımalıdır, çünki canlar hesabına tarix yazıblar belə oğullar!



*Şahlar İsmayil*

## Fuad İBRAHİMOV



Fuad İbrahimov 9 yaşında Şuşanı Cıdır Düzündən havaya qalxan helikopterlə tərk etmişdi. İndi həmin nöqtədə Avropada Azərbaycan musiqisinin təbliğatçısı və şuşalı kimi qürurla dayanıb!

*Rövşən Məmmədov*

## Fuad HÜSEYNOV



Hüseynov Fuad Xanlar oğlu 1984-cü ildə Göyçə Mahalının Kəsəmən kəndində dünyaya gəlib. 1988-ci ildə onlar Xanlar rayonu (Göygöl rayonu) Çaykəndinə pənah gətirirlər. Orta məktəbi elə həmin kənddə oxuyub. 2001-ci ildə Bakı Dövlət Universitetinə qəbul olur. Ali məktəbi başa vurduqdan sonra əsgəri xidməti Lənkəran şəhərində leytenant kimi xidmət edib. O, xidmətini bu gündə davam etdirir. Torpağı üçün, Vətəni, üçün, xalqı üçün heç nədən qorxmadan döyüş bölgələrində olur və bu gündə ən yüksək zirvə olan, torpaqlarımızın "sərhədi" sayılan Murov dağında kapitan kimi əsgərlərimizlə birlikdə vəzifə borcunu yerinə yetirir. Fuad Xanlar oğlu, kapitan bölük komandirinin müavini Murov dağında, Laçında, Cəbrayılda, Qubadlı və bir çox kəndlərdə düşmənlə üzbəüz döyüşüb.

*Həqiqət B.*



## İnqilab QAYIBOV

II Qarabag Vətən Müharibəsinin qazisi Qayıbov İnqilab Ələsgər oğluna kimliyinin bilinməsini istəməyən bir həmvətənlimiz tərəfindən avtomobil hədiyyə olunub.

Sağlıqla sür, igid əsgər.

## Fulya ÖZTÜRK







II Qarabağ Müharibəsində həm ön,həm də arxa cəbhədə vətənimizin hər halını və erməni vəhşiliklərini, haqq səsimizi dünyaya çatdıran qəhrəmanlıq göstərən igid əsgər zabitlərimizin yanında olan igid, qəhrəman qızımız sevgili Fülya xanıma sevgilərimlə.

Allah sehrli mikrafonunun səsini heç zaman susdurmasın. Amin!

### QARABAĞ

*Fulya xanıma*

*Ön cərgədə reportaj var*
*Fulya xanım cəbhədədir,*
*Açılmamış yeni şərhlər*
*Yeni faktlar dilindədir.*

*Qorxmazdır o , Asenadır*
*Vətən torpağı doğmadır,*
*Yorulmayır ,usanmayır*
*O, istiqlal yolundadır.*
*O, irəli gedir hər an*
*Əsgərimin yanındadır,*
*Bir ürəkdən min ürəyə*
*Can olmaq türk qanındadır.*

*Dayan deməz kimsə ona*
*Onu susdura bilməz,*
*Hər xəbəri tağ edərək*
*Paylaşma söyləyə bilməz.*
*Diqqətlidir, o dəqiqdir*
*Canını fəda eləyir,*

*Haqqı uğrunda vuruşan*
*Elini nida eləyir.*

*İlk gündən,son günə qədər*
*Cəbhələr yuvası oldu,*
*Yurdumun doğma,əziz*
*Sevilən balası oldu.*

*Hər birimiz səni sevdik*
*Ön cəbhəni yaxın etdin,*
*İki dövlət bir millətin*
*Birliyini tağın etdin.*

*O ər igid,qəhrəmandır*
*Ona hər bir ad yaraşır,*
*Qarabağ Azərbaycan*
*İgid qızından danışır.*

*Qələbədə sənin payın*
*Sənin də,hünərin vardır,*
*Azərbaycan anan adlı*
*Elin, vətənin vardır.*

*Duasını aldın hər an*
*Sən müqəddəs torpağımın,*
*Sən də, bu gün bir qızısan,*
*Qarabağ Azərbaycanımın.*
*Gur yanan türk ocağımın,*
*Turan adlı ocağımın.*

*Qalibə Cəfərova*




*Türkiyə çocuqları Gəncə çocuqlarını bayraqla təsəlli etdi.*

Quzum, bu nə gözəllik belə. Bayrağın həmişə ucalarda dalğalansın. Biz də sizi çox sevirik.

*Xuraman Verdiyeva*

# GƏNCƏNİN KÖRPƏ QAZİLƏRİ





## “Şərq qəzeti” 44 gün və hələ də
## “Qarabağ Azərbaycandır!” mübarizə yolları əzmindədir



ŞƏRQ 13 oktyabr 2020-ci il № 131 (5227) (çərşənbə axşamı) Vətən

Qarabağ Azərbaycandır!

Bakı üç rəngli bayraqlara bürünüb



. Əsas odur ki, Qarabağ Azaddır!

## Hacı RÜFƏT



Kəndçim,sinif yoldaşım,dostum Hacı Rüfət müharibə zamanı əsgərlərimizə canla başla dəstək oldu. Hacı Allah səni qorusun. Kəndimizin bir çox sakinləri bu 44 gün ərzində nəinki əlindən gələni, hətta əllərindən gəlməyəni belə etdilər.

*Sabir Cabirzadə*

## Həsən HƏSƏNOV 🇦🇿 Vüqar HƏSƏNOV



Qəhrəman döyüşçülərimizdən iki qardaş: Mayor Həsənov Həsən və MAXE Çavuş Həsənov Vüqar Allahverdi oğlu birgə Cəbrayıl, Zəngilan, Qubadlı istiqamətlərində gedən qanlı döyüşlərdə iştirak etmişlər. Göyçə mahalının Cil kəndində doğulmuşlar. Ataları Allahverdi Həsənov I Qarabağ döyüşləri zamanı Murov dağı istiqamətində şəhid olmuşdur. Həsən 1998-ci ildə Türkiyə Quru Qoşunları Ali hərbi məktəbində təhsil almışdır. Hal-hazırda hər iki qardaş ön xətdə xidmətlərini davam etdirirlər. Hər ikisinə uğurlar və can sağlığı arzulayırıq!

*Azad Qurbanov*

## Hikmət MİRZƏYEV




*Züleyxa Nadir:*

Remboya baxırdıq həsəd aparırdıq – film olsa da. Yarızarafat, yarı-gerçək deyirdik ki, bu rembodan 3-4 dənə olsaydı, Qarabağı ermənilərdən təmizləyərdi.

Sən demə, özümüzün rembolarımız yetişirmiş – əfsanəvi rembolarımız, Şuşa dastanı yazan rembolarımız! Qurban olaram xüsüsi təyinatlılarımıza - başda Hikmət Mirzəyev olmaqla. PAŞAM, səni doğan ANAya da qurban olaram! Əfsanəvi Mirzəyev!

*"Onunla döyüşdə üz-üzə gəlmək intihardır"*

*Elçin Alıoğlu:* "Ona polkovnik rütbəsini ümummilli lider Heydər Əliyev şəxsən özü təqdim edib. 2002-ci ildə isə Heydər Əliyevin sərəncamı ilə general-mayor rütbəsini alıb. Bu il oktyabrın 17-də isə Ali Baş Komandan ona general-leytenant rütbəsi verib. Hikmət Mirzəyevin hər bir rütbəsində dövlətə dərin xidmət var, o, kabinetlərdə outraraq rütbə almayıb.O, 2016 və 2020-ci illərdə Qarabağda aparılan hərbi əməliyyatların əsas rəhbərlərindəndir. Cəbrayıl rayounun işğaldan azad edilməsi əməliyyatının başçısıdır. Şuşa şəhərinin işğaldan azad edilməsi əməliyyatının rəhbəridir. Onun yetişdirdiyi xüsusi təyinatlı qüvvələr digər qoşun növlərindən tamamilə fərqlənirlər. Xüsusi təyinatlı zabitlərimiz Ordumuzun görən gözü, vuran qolu, düşünən beyni hesab olunur. Yaralı XTQ zabitlərimizin müalicəsi zamanı iynədən istifadə mümkünsüz olurdu. Çünki dəmir kimi bədən, qol əzələləri iynəni qırırdı, iynə əzələyə daxil ola bilmirdi. Nə qədər qəribə görünsə də də,

xeyli belə faktlar var və biz onları görmüşük, bu barədə ətraflı izahata ehtiyac da yoxdur".



Elçin Alıoğlu qeyd edib ki, Hikmət Mirzəyev dünya miqyasında qəbul olunan əfsanəvi hərbçidir: "O, dünyanın istənilən bölgəsində, istənilən relyefdə (dağ, meşə, səhra, su və s.) mümkünsüz olan hərbi əməliyyatları həyata keçirə bilən sərkərdədir.Döyüşdə Hikmət Mirzəyevlə üz-üzə gəlmək rəsmən intihar deməkdir. Onun xüsusi əlbəyaxa döyüş bacarığı, soyuq və odlu silahlardan möcüzəvi şəkildə istifadə etmək məharəti sadəcə inanılmazıdır. Biz bütün bunları filmlərdə görmüşük. Şuşanın işğaldan azad edilməsi bunun təsdiqidir. Ali Baş Komandanımızın Hikmət Mirzəyevi Şuşanın işğaldan azad edilməsi münasibəti ilə təbrik etməsi təsadüf deyildi".

*Emin Səfərov*:40 gündən artıq davam edən Vətən müharibəsinin özəlliklərindən biri də, generalların da əsgərlərlə çiyin-çiyinə vuruşmasıdır. Bir yumruq olan Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirməklə torpaqlarımızı işğaldan azad edir. Bu generallarımızdan biri də Xüsusi Təyinatlı Qüvvələrin komandanı, general-leytenant Hikmət Mirzəyevdir. Təsadüfi deyil ki, bu gün Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Birlik komandiri Hikmət Mirzəyevə zəng edib. Ali Baş Komandan Şuşa şəhərinin işğaldan azad edilməsində qəhrəmancasına və rəşadətlə iştirak etmiş hərbi qulluqçulara, Silahlı Qüvvələrimizin bütün şəxsi heyətinə təbriklərini çatdırıb.



“Qafqazinfo” xəbər verir ki, Hikmət Mirzəyev müasir hərb tariximizin ən önəmli simalarından biridir. O, Ümummilli lider Heydər Əliyevin Prezident olduğu illərdə polkovnik-leytenant hərbi rütbəsini daşıyıb. Ona Polkovnik rütbəsini də məhz Heydər Əliyev təqdim edib. Hikmət Mirzəyev 19 yanvar 2002-ci ildə Ulu Öndər Heydər Əliyevin imzaladığı sərəncamla general-mayor ali hərbi rütbəsinə layiq görülüb. Bundan başqa, Hikmət Mirzəyev 24 iyun 2003-cü ildə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün müdafiəsində xüsusi xidmətlərinə, özünün xidməti vəzifələrini və hərbi hissəyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsində fərqləndiyinə görə Heydər Əliyevin fərmanı ilə “İgidliyə görə” medalı ilə təltif edilib. 24 iyun 2015-ci ildə isə Hikmət Mirzəyev Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunub.

Hikmət İzzət oğlu Mirzəyev Biləsuvar rayonunda doğulub. 2016-cı ilin aprelində və 2020-ci ildə Dağlıq Qarabağda aparılan hərbi əməliyyatların rəhbərlərindəndir. O, bundan öncə Cəbrayıl rayonunun 27 il davam edən işğaldan azad edilməsi

əməliyyatına başçılıq edib. Bu münasibətlə dövlət başçısı Mirzəyevə zəng edərək onu təbrik edib. Daha sonra isə Ali Baş Komandanın 17 oktyabrda imzaladığı sərəncamla ona general-leytenant ali hərbi rütbəsi verilib. Onu da bildirək ki, 2016-cı ilin aprel döyüşlərində işğal edilmiş torpaqların azad edilməsində əsas rol oynayan xüsusi təyinatlılar 2018-ci ildə Ordunun 100 illiyi münasibəti ilə keçirilən hərbi paradda general Hikmət Mirzəyevin başçılığı altında keçiblər.

## İ G İ D L Ə R İ M İ Z



## Hüseyn XƏLİLOV

İnsan üçün ən dəyərli sərvət öz canıdır. Xalqımız üçün candan daha əziz bir sərvət var ki, o da vətəndir, onun uğrunda şəhidlik və qazilikdir. Bakının Nardaran kəndinin igid oğlu, Füzuli, Zəngilan, Qubadlı, Şuşa döyüşlərində yaxından iştirak edən qazimiz Xəlilov Hüseyn, Rasim oğlu 2002-ci il martın 27-si anadan olmuşdur. Kiçik yaşlarından idmana olan həvəsi və istedadı hərbi xidmətə marağını daha da artırmışdır. 295 saylı məktəbdə 9 illik təhsilini bitirdikdən sonra peşə məktəbində dülgərlik ixtisası üzrə təhsil almışdır. Orta məktəb və peşə məktəbində oxuduğu vaxtlarda 4 il müddətində idmanla da məşğul olmuş I, II, III yerlər üzrə diplom qazanmışdır. Daha sonra hərbi xidmətə yollanmış orada da öz şücaətini ən möhtəşəm şəkildə göstərmişdir. Yoldaşları arasında böyük hörmət qazanmış, hamı tərəfindən sevilmişdir. Yaralı əsgər yoldaşlarını yorulmadan çiynində daşımış 18 yaşa sığmayan qəhrəmanlıq və şücaət göstərmişdir. Hüseyn Xəlilov bir nəfər də olsun yaralını döyüş bölməsində qoymayacağına and içmiş bunun üçün həyatı bahasına mübarizə aparmışdır. Yoldaşları arasında “Canavar” ləqəbi ilə tanınan qazimiz Hüseyn Füzuli, Zəngilan, Qubadlı və Şuşada gedən döyüşlərdə fəal iştirak etmiş noyabrın 8-dən 9-na keçən gecə Şuşa uğrunda gedən döyüşlərdə yaralanmışdır. Şuşanın işğaldan azad olunduğu gecə başından 3 qəlpə yarası alaraq çox ağır vəziyyətdə xəstəxanaya çatdırılmış, müəyyən fasilələrlə 2 dəfə əməliyyat olunmuşdur. 22 gün komada olmuş 23-cü gün yavaş-yavaş ayılmağa başlamış, anasının əlini sıxmışdır. Anası oğlunun qeyrətindən,



igidliyindən danışaraq deyir ki, Hüseynin karantin səbəbindən hərbi xidməti gecikdirildiyinə görə Hüseyn özü dəfələrlə hərbi çağırış mərkəzinə zəng vurmuş və vətən borcunu yerinə yetirmək üçün tezliklə hərbi xidmətə yollanmaq istədiyini bildirmişdir.Öz tərbiyəsi, mərifəti, mehribanlığı, insanlar üçün can yandırması, qorxmazlığı, igidliyi ilə qohumlarının da hörmətini qazanmışdır.

Hazırda Mərkəzi Hərbi Hospitalda müalicə alan Hüseynin vəziyyəti hələ də ağırdır (04.12.2020) və 3-cü əməliyyata girəcəyi gözlənilir. Allahdan qazimiz üçün şəfa diləyirik. Şəhidlərimiz və qazilərimiz qorxmadan, heç bir təhlükəyə göz qırpmadan, ölüm bahasına müqəddəs dəyərlərimiz uğrunda döyüşmüş, düşmənlə savaşmış, ölkəmizin müstəqilliyi, bölünməzliyi və millətimizin azadlığı üçün öz canlarını ortaya qoymuşlar. Haqqınız ödənməzdir, Azərbaycan igidləri!



*Aləmdə mənə cənnəti-rizvan vətənimdir,*
*Ruhum, bədənim, cismidə həm can vətənimdir,*
*Qoynunda göz açdım, böyüyüb ərsəyə yetdim,*
*İsminlə tanındım mənə ünvan vətənimdir.*
*Canım kimi rəftar edərəm mən vətənimlə,*
*Çünki bu damarlardan axan qan vətənimdir.*

*Səkinə Zeynalova*

## Elvin İNTİQAMOĞLU



Elvin İntiqam oğlu Məmmədli 1996-cı ildə Yardımlı rayonunun Horonu kəndində müəllim ailəsində anadan olmuşdur. 2014-cü ildə Sumqayıt şəhər 26 nömrəli tam orta məktəbi; 2018-ci ildə Sumqayıt Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir.

2008-ci ildən etibarən bədii yaradıcılıqla məşğul olmağa başlamışdır. 2009-cu ildə yazdığı “Ay qız, sevirəm, sevirəm mən səni” şeiri ilk qələm məhsulu; 2012-ci ildə “168 saat” qəzetində yer almış “Dünya” şeiri isə ilk mətbu nailiyyətidir.

“168 Saat”, “Oxu Məni”, “Haqqın Sədası”, “Sözün sehri”, “Ədalət”, “Talisman”, “Türküstan”, “525-ci qəzet” və s. ictimai-ədəbi qəzetlər; Azərbaycan Respublikası Təhsil Nazirliyinin aylıq “Təhsil” jurnalı, “Xəzan”, “Ulduz”, “Şəfəq”, “Azad qələm” və s. ədəbi-bədii jurnallar; “Zirvə”, “Xəzinə”, “Sevgi Damlası”, “Yeni Uğur”, “Yaşıl İşıq” şeir toplusu; Cənubi Azərbaycanda “Sancaq” dərgisi, “Mahde Bamdad” qəzeti; Türkiyədə “Şehir” dərgisi, “Sungurlu” qəzeti, “Türk dünyası şiir seçkisi” şeir toplusu və s. yerli və xarici mətbu orqanlar bədii-ədəbi yaradıcılığına müraciət etmişdir.

XXI əsr (2000-2020) Azərbaycan poeziyasını özündə əks etdirən “Xəzinə” poeziya antologiyasının, qədim və çağdaş poeziyanın müqayisəli təhlilinə həsr olunmuş “Əsrlərə Körpü” poeziya antologiyasının və gənc şairlərdən və şairələrdən (maksimum 40 yaş) ibarət “Yeni Uğur” poeziya antologiyasının tərtibçisi və baş redaktorudur. Redaksiya üzvü olduğu “Xəzan”ın (elmi-ədəbi jurnal) iyul-avqust (2020) və “Azad qələm”in (elmi-ədəbi jurnal) mart – 2020) redaktoru və

buraxılışa məsuludur. Həmçinin, "Haqqın Sədası" qəzetinin ədəbiyyat şöbəsinin müdiri vəzifəsində də fəaliyyət göstərib.

II Qarabağ Vətən Müharibəsi iştirakçısıdır.

Prezidentin müvafiq sərəncamı ilə "Füzulinin azad olunmasına görə" medalına layiq görülüb.

## "İKİNCİ QARABAĞ" şeirlər silsiləsi

### MÜHASİRƏ

*("Müharibə xatirələri"ndən)*

*Ölüm qorxusu deyil,*
*Əsir düşmək qorxusudur*
*Qorxusuz müharibənin dərd tərəfi –*
*On iki oktyabr,*
*Füzuli, İki daşın arasında tora düşdük*
*iki dağın arasında:*
*Ermənidir dörd tərəfi...*

*Rabitə xətlərindən aslı qalıb komandir:*
*Kömək edin, cənab palkovnik-leytenant,*
*Kömək göndərin bizə;*
*Etibarsız çıxdı rabitə daşı...*
*Təki Vətən sağ olsun,*
*Çıxarın daraqları –*
*İçindən hərə bir güllə götürsün atsın cibə:*
*Ola bilsin oldu bizlər üçün son müharibə;*
*Mən onda bildim güllənin tərifin –*
*Bir dəqiqəlik sükut,*
*Bir ömürlük göz yaşı...*
*Başımıza güllə yağdı, daş töküldü, qaya düşdü –*
*Səsimiz də çıxmadı,*
*Birdən eşidən olar...*
*Susuzluqdan can verən əsgərlərin*

*Arzuları suya düşdü...*
*Bu səhər oxşamır əvvəlkilərə,*
*Güllə Günəşdən seçilir...*
*Göydəki rəhmlidi –*
*O bizi görməsəydi,*
*Orda nələr olardı, Allah bilir...*

## YAĞIŞ SUYU

*Allahım,*
*Bizləri sən qorudun,*
*Yenə qoru –*
*Qoyma, suya uduzaq,*
*Əlinlə sıx suyun çıxart buludun...*

*Axır düşmənin qanı*
*Vətənin can yerinə –*
*Yerdən narahat olma,*
*Sən su tök göydən yerə qan yerinə...*

*Həsrətində olduğumuz torpağı daddırdı bizə*
*Palçıqlı gölməçələr...*
*Qoyma, yağış dayansın,*
*Qarabağ suyunu içənə qədər...*

## QAYA 11

*(Tağım komandirim Şəhid baş*
*leytenant Emil Əsədova ithafən)*

*Vətən səni şəhid etdi,*
*Öldürmədi...*
*Səndən qabaq şəhid oldu dostun, cənab leytenant...*
*O oldu öldürən səni –*
*O xəbəri eşitdiyin zamandan etibarən*

*Susdun, cənab leytenant!*

*Biz Füzulidə üç saat mərmi altda qalanda,*
*Anan deyirdi: Allahım,*
*Sağ-salamat gəlsin Emil;*
*Atan qurban boyun aldı,*
*Torpaq səni qurban boyun alanda!*

*Çıxartdın mühasirədən polkovniki,*
*Üzün güldü üzün əsgərlərə sarı dönəndə:*
*Oldun cənab baş leytenant –*
*Ulduzunun biri artdı,*
*Bəxt ulduzun sönəndə!*

*Noyabrın yeddisi,*
*Xocavənd ərazisi:*
*Bir tərəfdə əsgərlərin döyüşdən çıxardığı*
*Baş leytenant Əsədov...*
*Bir tərəfdə yerə düşmüş rabitə:*
*– Qaya on bir... Qaya on bir...*
*Qaya on bir eşitmir!*

## PƏNCƏRƏ

*Bakı dəhlizindən yaxşı görünmür*
*Laçın pəncərələri –*
*Havası çatmır Vətənin, boğulur,*
*Açın pəncərələri...*

*Otuz ildən sonra bağlaya bildik*
*Açıq pəncərələri –*
*Bitişdirdi torpağın şəhid qanı*
*Qırıq pəncərələri...*

*Qapıdan qovulan bir də gəlməsin,*
*Tutun pəncərələri –*

*Keçmişimiz təkrarlanmasın, örtün*
*Bütün pəncərələri...*

## ŞƏHİD ANASI

*“Laylay dedim yatasan,*
*Qızılgülə batasan...”*
*Qərənfil deməmişdi ki,*
*Qızılgül demişdi ana...*

*Yazan çox qısa yazdı –*
*İyirmi il çox azdı:*
*Oğlunun son ad günündə*
*Yüz yaş istəmişdi ana...*

*Ayın üçündə gəldi,*
*Bayraq içində gəldi –*
*Əli bayraqlı əsgərin*
*Yolun gözləmişdi ana.*

*Çətindi övlad qəmi,*
*Solğunlaşıb görkəmi –*
*Nəyin qarşılığıydı bu,*
*Göyə neyləmişdi ana?*

## ŞƏHİD QIZI

*Anan yalan danışır:*
*Atan evə qayıdanda oyuncaq almayacaq –*
*Anan gündə bir oyuncaq gətirəcək,*
*Deyəcək atan alıb:*
*Atan ancaq almayacaq...*

*Anan yalan danışır:*
*Atan işdən gəlməyəcək –*
*Gözün qalmasın qapıda səhərəcən,*

*Atan yatıb sən də yat –*
*İşdən gəlsin yuxuna,*
*Evə gəlməyənədək...*

*Anan yalan danışır:*
*Atanın qismətinə Əzrayıl elçi düşüb,*
*Sənin elçilərini*
*Qarşılaya bilməyəcək –*
*Toyunda qız atası*
*Ürəyindən keçənləri*
*Arzulaya bilməyəcək...*

*Anan yalan danışır:*
*Yalanlar da atan kimi bir gün yoxa çıxacaq –*
*Sinif yoldaşların sənə "Şəhid qızı" deyəcək...*
*Bilirsənmi nədi ən qəribəsi?*
*Tarix dərsində ağlaya-ağlaya*
*Yazacaqsan lövhəyə:*
*"İkinci Qarabağ müharibəsi..."*

## İTKİN ƏSGƏR ANASI

*– Çörək keçmir sualların boğazından:*
*İtən bəxtim, hardasan,*
*Nə yeyirsən, nə içirsən?*
*Şəhidlər də sağ-salamat gəldilər –*
*Sən nə vaxta çatarsan,*
*Hansı kəndi keçirsən?*

*– Mən də dözümlüyəm, bala,*
*Sən acsansa, mən də acam –*
*Sənə qurban olsun anan,*
*Sənə qurban olsun bütün çörək qırıntıları...*

*– Şəkillərin sildiyim əllərimi*
*açıram sənə, Allah:*

*Mən oğlumu bayrağa,*
*Oğlum məni torpağa*
*verməmiş öldürmə məni –*
*Ölüsünü, dirisini*
*Görməmiş öldürmə məni...*

*– Bircə əsir düşməsin –*
*Razıyam, qara olsun*
*Gözlərimin ümidli göy yaşları,*
*Əllərimin qırmızı duaları,*
*Ürəyimin yaşıl sıxıntıları...*



*Ay əsgər, bu nədir, qəm içindəsən,*
*Cahanın xiffəti, xiffətindədir.*
*Buludlar göylərdən gözünə çöküb,*
*Səmanın bozluğu sifətindədir.*

*Ay əsgər, baxışın de, nədən donub,*
*Mən orda gördüyüm qorxudu, nədir?*
*Baxıram, bayaqdan gözlərin dolub,*
*Bir kəlmə mehriban sözəcə bənddir.*

## Kənan HÜSEYNOV



*Elmar Salayev:* Ana, mən Laçınımızdan gəlmişəm. Döyüşdən qayıdan Kənan Hüseynov anasının məzarını ziyarət edib. Allah cəmi analara rəhmət eləsin!

## Mehralı MƏMMƏDOV



Cəbrayıldan məcburi köçkün olaraq çıxıb, döyüşlərdə tank belində qayıdan igidimiz Mehralı Məmmədov.



## Kənan ZEYNALOV

“Torpaqlarımızı işğaldan azad etdikcə daha da ruhlanırdıq” – cəbhədə qolunu itirən Qazimiz Kənan Zeynalov.



## Qazi ƏLİ



Uşaq vaxtı Laçına gedəndə ən qorxduğum sual: – Laçın yaxşıdı, Kəlbəcər? Kəlbəcəri çox istəsəm də, anama görə deyirdim ki, ikisi də! Dünən Əli Şuşadan Laçına gedib.

Yenə yurd sevgimi sorğulayırlar: Əlim Kəlbəcərin ovcunda, Əli Laçında!

## Qəşəm ƏLİYEV



Əliyev Qəşəm Madaralim oğlu. Əslən Göycə mahalı Nərimanlı kəndindəndir. Qəşəm də 5 ildən artıqdır ki, mənfur düşmənlə üzbəüz postda Vətənimizin keşiyindədir. Vətən uğrunda gedən müharibə zamanı da döyüşlərdə iştirak etmişdir.

Hal-hazırda da vəzifəsini şərəflə yerinə yetirməyə davam edir. İgidimizi Allah qorusun!

## Qazi RƏMZİ

*Qazi Rəmzinin dediklərindən: Anam* tabutu açdıranda görüb ki, mən deyiləm.

Yanımdakılar şəhid oldu. Mən də ağır yaralandım. Başım yaralı olsa da. səngərin içində qalıb yaralıları çıxarmağa çalışdım. Erməni snayperçi qız ayagımdan vurdu ki, səngərə düşüb, əsir götürülüm. Amma təslim olmadım. İki şəhid çıxartdım. Tək qalmışdım. Dedim yenə gedəcəm əsgərləri gətirəcəm. Gedəndə qarşıma erməni çıxdı, onu vurdum. Həmin an yoldaşlarım köməyə gəldilər. Dayana bilmirdim. İrəliləmək istəyirdim.



# QƏRİBƏ YUXULAR

O, ayağını dizdən yuxarı itirmişdi,.. Bu, pis idi, lap pis idi. Dizdən aşağıda olanda, yaxşı protez taxılanda, heç hiss olunmurdu. Ayağın dizdən qatlanırdı, rahat gəzmək, outrub-durmaq olurdu. Bir az enli şalvar geyirdin və kef edirdin... Hətta şəhərə çıxmaq, xoşun gələn qıza yaxınlaşmaq və söz demək olardı... Heç olmasa, bircə dəfə... Onun arzusu bu, deyildimi?! Amma o, ayağını dizdən yuxarı itirmişdi...



Doğrudur, əməliyyat etmişdilər, artıq babat (yüngül, rahat) protez də vermişdilər. Amma nə olsun ki... Ayağı dizdən qatlanmırdı və əsasız gəzmək olmurdu. O isə, bulvara çıxmaq, gözəl qızlara baxmaq istəyirdi. Nəhayət, əsgərdən xəbərsiz yazdığım bu yazı...Yaxşı yadındadır,.. Komandir köhnə erməni səngərinin içi ilə gedirdi. O isə, səngərə düşməkdən çəkinirdi, qıraqla gedirdi. Uşaqlar deyirdi ki, ermənilər qaçanda minaları səngərlərə basdırıblar. Komandir də israr etmirdi, səngərin içi ilə inamla gedirdi. Komandir təcrübəli, ondan 10 yaş böyükdü, 30 yaşı vardı... Bu zaman mina partladı... Səngərdən kənarda partladı... Bir ay vardı ki, evə qayıtmışdı. 44 günlük müharibə də qurtarmışdı. Tez-tez qəribə yuxular görürdü... Görürdü ki, ayağı yenidən bitir,.. Gül kimi, çiçək kimi... Sadəcə olaraq, ayağı tapmaq, əsgər batinkasının içində basdırmaq və hər gün sulamaq lazımdır,.. O, bir ay idi ki, cəbhədən qayıtmışdı, ayağı da, batinkası da orda qalmışdı... Amma hər gecə yuxuda ayağını tapırdı və əsgər batinkasında basdırırdı. Səhərə kimi ümidlə yatır, ümidlə yaşayırdı...

*Qalib Arif*

## Qoşqar  HƏSƏNİ





## Qürur duyduğumuz OĞULLARIMIZ!



## Qulu AĞAŞOV




Ağaşov Qulu Rövşən oğlu. İmişlidəndir. İlk günlərdən II Qarabağ müharibəsində iştirak edib. Füzuli, Cəbrayıl, Hadrut, Xocavənd ərazilərində döyüşdə olub və son olaraq 8 noyabrda Şuşada ürək nahiyəsindən və sağ ayağından ağır qəlpə yaraları alıb. İndiyədək 3 uzun əməliyyat keçirib və bundan sonra daha ikisi gözlənilir. Tez sağal, İgid oğul!



*Razi Nurullayev:* Şuşa uğrunda döyüşdə ağır yaralanan qazimiz Ağaşov Qulu Rövşən oğlunu və daha iki yaralını ziyarət etdim. Ayaq və ürək nahiyəsindən ağır yaralanıb. Gəncədə iki dəfə, Bakıda bir dəfə əməliyyat olunub. Bakı tədris cərrahiyyə xəstəxanasına təşəkkür edir ki, yüksək səviyyədə xidmət göstəriblər. İlk gün onun həyatını xilas edən Gəncə beynəlxalq xəstəxanasının həkimlərinə təşəkkürünü çatdırmağımı xahiş etdi. Mirəli, Elçin və Cahandar həkimlərə, qəbul şöbəsinin əməkdaşı Tərana xanıma, tibb bacısı Səbinə xanıma çox təşəkkür etdi. Deyir ki, onların qayğısı unudulmazdır. Halal olsun xalqımıza ki, əsgərlərimizə öz balaları, qardaşları və əzizləri kimi baxıblar.

Əziz əsgər və zabitlərimiz! Biz zəfərə görə sizə borcluyuq və haqqınız ödənməz!

## Məhəmməd ƏHMƏDOV

Suqovuşan və Talış kəndlərində, Ağdərə istiqamətindəki döyüşlərdə qəhrəmancasına vuruşub.

Valideynləri 1988-ci ildə Qərbi Azərbaycanın Qarakilsə (Kirovakan yox!) rayonunun Dzmanlı kəndindən Bakıya pənah gətirmişlər. Əsgər Məhəmməd inanır ki, bir gün Azərbaycan ordusu ilə birgə ata-baba yurduna gedəcəkdir.





## Məmməd KƏRİMLİ

*Ölümdən həyata doğru Hərbi həkim Məmməd Kərimlinin cəbhə hekayəsi:* İkinci Qarabağ müharibəsində şəxsi igidlik və şücaət nümayiş etdirmiş Tibb xidmətinin Baş leytenantı Məmməd Kərimli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə “Füzulinin azad olunmasına görə” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib. Hərbi həkim Məmməd Kərimli - hərbi hissədə tibb məntəqəsinin rəisidir. O, İkinci Qarabağ müharibəsi ərəfəsində cəbhənin Füzuli və Xocavənd istiqamətlərində çalışıb. Həyatını təhlükəyə ataraq, yüzlərlə yaralıları döyüş meydanından çıxarıb. Onun yaralılarla birlikdə getdiyi maşın minaya düşüb



partlayanda, o möcüzəvi şəkildə sağ qalmışdır. Sonra təklikdə cəhənnəmin bütün döngələrini keçərək, öz inancı sayəsində həyatda sağ qalmağı bacarmışdır. O, cəbhədən ikinci və üçüncü dərəcəli yanıq xəsarətləri alaraq, reanimasiyaya düşür. Elə həmin günlərdə onun ikinci qızı dünyaya gəlir və məhz bu hadisə ona yanıq xəsarətindən dərisinin hissələrlə qopmasının yaratdığı acıya dözəcək güc verir.

"Kaspi" qəzetinin müxbiri Məmməd Kərimli ilə onun təltif olunmasından əvvəl, xəstəxananı vaxtaşırı ziyarət edərək, ev şəraitində müalicə alan günlərdə söhbət edib. Beləliklə, hərbi həkim Məmməd Kərimlinin hekayəsini sizin diqqətinizə çatdırırıq.

– Mən artıq iki ildir ki, hərbi həkim kimi fəaliyyət göstərirəm. 21 oktyabr tarixində bizi Füzuli rayonuna göndərdilər və biz orada ermənilərin maldarlıq fermasına çevirdiyi keçmiş elektrik təchizatı idarəsinin binasında yerləşdik.

Orada saxlanılan ot tayalarından döşək kimi istifadə edirdik. Oktyabrın 21-dən 26-dək həmişə döyüş meydanında olaraq, hərbi hissənin öndə olan dəstələrini müşayiət etmişik. Bizim vəzifəmiz döyüş meydanından yaralıları çıxardaraq onlara ilkin tibbi yardım göstərmək idi. Adətən döyüşə 200-300 döyüşçü gedirdi və onlardan 20-30 nəfəri müxtəlif ağırlıqda olan xəsarətlər alırdı. Döyüş əməliyyatları başlayan ilk günündən şəxsən mən döyüş meydanından 400 nəfərə qədər yaralı çıxartmışam, baxmayaraq ki, həkim vəzifəsinə bu daxil deyildi. Məlumdur ki, yaranan qarışıqlıqda yaralılara göstərilən ilkin tibbi yardım bəzən qeyri-peşəkar olur və buna görə mən şəxsən həmin prosesdə iştirak etmək qərarına gəldim. Bundan

əlavə, döyüşçülər həkimin cəbhə bölgəsinə getməkdən qorxduğu, kənarda durduğu barədə düşünə bilərdi. Eyni zamanda, ağır yaralanan döyüşçülərin fiziki vəziyyətini və çəkdikləri əziyyətlərini görəndə başa düşürdüm ki, ilkin tibbi yardım peşəkar olmazsa onlar sağ qala bilməzlər, ölərlər. Bu səbəbdən daim sanitarların yanında, döyüş meydanında idim. Oktyabrın 26-sı səhər tezdən bizi yeni bir yaşayış məntəqəsinə qarşı hücum gözlənilməsi barədə xəbərdar etdilər. Demək lazımdır ki, Füzuli rayonunun ərazisi nadir düzənliklərin olduğu təpələrdən ibarətdir. Bir qayda olaraq, ermənilər təpənin zirvəsində möhkəmlənmişdilər, buna görə hücum zamanı biz onlar üçün əlverişli hədəf olurduq. Bizim itkilərimiz və yaralılarımız var idi. Biri var ki, dağa elə-belə qalxmaq, biridə var ki – döyüşərək, bilərək ki, düşmən öncədən qazdığı səngərdə gizlənərkən, sən onun üçün asan və görünən hədəfsən. Bizim əsgərlərimizə çətin olmasının səbəblərindən biri də, çəkini ağırlaşdıran, daxilində silah-sursat və əsgər qidası olan, çəkisi 20-30 kiloqrama çatan bel çantaları ilə həmin təpələrə qalxmaq idi.

Döyüşçülərimiz zirvəyə çatan kimi, dərhal şiddətli döyüşlər başlayırdı, bundan erməni əsgərləri təşvişə düşərək həlak olmuş əsgər yoldaşlarını döyüş meydanında qoyaraq qaçırdılar. Sağ qalanları isə dərhal yüksəkliklərdə öncədən hazırlanmış möhkəmləndirmə mövqelərinə yerləşirdilər. Elə gəlirdi ki, təpələrin sonsuz silsiləsi heç vaxt bitməyəcək. Bu, Xocavəndə qədər davam edirdi.

Çox sayda yaralımız var idi: kiminsə ayağı, başqasının qolu qopmuşdu. Mənim döyüş meydanından daşıdığım döyüşçülərin əksəriyyətinin bütün bədəni boyu qəlpə yaraları var idi. 26 oktyabrda üç ağır yaralı əsgəri atəş altından necə çıxartdığım yadımdadır. Onlardan biri mina atəşinin qəlpələrindən aldığı ağır qanayan yaralardan ölümcül vəziyyətdə idi. Çox təəssüf ki, onu xilas edə bilmədim. İkinci əsgər arxadan

kürəyindən yaralanmışdı, üçüncü əsgərin barmaqları qopmuşdu. Mən onları çətinliklə son təcili yardım maşınına mindirdim. Maşının qapısını bağlamağı unudub, sürücünü səslədim ki, gedə bilərik. Maşın sürətini yığıb hərəkətə başlayan kimi, mən ordan çölə yıxıldım və uzun müddət yerdə yuvarlandım. Bir anda sürücü arxaya döndü və orada həkimin olmadığını gördü. Məni götürmək üçün qeri qayıtmaq məcburiyyətində qaldı. Yaralılardan birinə sistem qoydum, digər ikisinin yaralarını təmizləyib sarıdım.

Biz yolu tanımırdıq, bu yolla birinci dəfə idi gedirdik. Yolu azdıq və ermənilərin yerləşdiyi neytral zonaya keçdik. Bu Xocavəndin ərazisi idi. Bir az getmişdik ki, döyüşçülərin birinin ayağındakı yarasının yenə qanadığını gördüm, onu jqutla bağlamaq lazım idi və mən sürücüdən arxaya keçmək üçün maşının saxlamasını xahiş etdim. On saniyə belə keçməmişdik ki, bizim maşınımız tank əleyhinə minaya düşdü. Partlayış dalğası nəticəsində özümü havada yuvarlanan hiss etdim. Mən tamamilə alova bürünmüşdüm və yerə düşdükdən sonra alovu söndürmək üçün yerdə yuvarlanmağa başladım. Ətrafımda güllələr vızıldayırdı, düşmən isə mənim sağ olduğumu görüb öldürənə qədər atəş açırdı. Mən atılıb aşağıya doğru əks tərəfə qaçdım və bundan bir neçə gün öncə partlamış maşının altında gizlənə bildim. Atəş açaraq, mənim tərəfimə beş erməni əsgəri gəlirdi. Aramızda olan məsafə 200 metrə yaxın idi. Mən silahı axtarmağa başladım, amma o yanan maşının içərisində qalmışdır. Silahsız qalaraq mən başa düşdüm ki, artıq xilas olunmayacam. Və birdən mən tibbi yardım maşınımda olan, ağrıdan inildəyən və bağıran, boynundan yaralanmış əsgərimizi gördüm. Mən ona gizlənsin deyə işarə etdim, özüm isə bir çiynim yıxılandan sonra çıxdığı üçün, digər əlimlə kömək edərək irəliyə doğru süründüm. Gördüm ki, bu oğlan hərəkət edə bilmir, mən isə ona nisbətən yaxşı vəziyyətdəyəm, ona görə də çalışırdım ki, yol boyunca sürü-

nüb irəliyərək erməniləri aşağı yola doğru aparım. Qətiyyən hansı ərazidə olduğumu bilməyərək, təxmin etdim ki, maşın o istiqamətdə gedirdisə, deməli, bizimkilər haradasa oralarda olmalıdır. Və fikirləşdim ki, yerimdə qalmaqdansa yaxşı olar ki sürünüm, yoxsa əks halda ermənilər ya ikimizi də öldürəcək, yada əsir götürəcək.

Təxminən 200 metr süründüm, onlar isə yollarından dönərək, arxamca düşüb atəş açırdılar. Güllələr ətrafımda vızıldayır, yanımdan, başımın üstündən uçurdular. Mən artıq sürünə bilmirdim, qolum çox bərk ağrıyırdı, üstəlik əlimin üzərindəki dəri qopmuşdu və yaralar çox qanayırdı. Birdən mən ağaclıqda xəlvət yer gördüm və ağacların altında gizlənməyə qərar verdim. Qalan gücümü toplayıb, qaçdım. Ermənilər dayanmadan atəş açırdı və növbəti güllənin mütləq mənə dəyəcəyini gözləyirdim. Süründüyüm 50-60 metr məsafə mənə bir kilometr kimi gəldi. Meşənin dərinliyində gizləndim, bir az qabağa irəlilədim və ağacların altında qaraltı gördüm. İrəliyə getdim və enməyimə işarə edən, silahlı bir adam gördüm. Mən qərar verdim ki, o ermənidir və məni əsir götürmək istəyir, onun üzündə qara maskası var idi. Təslim olub əsir düşməkdənsə, ölmək daha yaxşıdır!

Üzüm şişmişdir, demək olar ki, mən heç bir şey görmürdüm. Ətrafa baxanda üzü mənə tanış gələn maskasız adam gördüm. Bu bizim təlimçi-sanitarımız idi. Mənə əli ilə əyilmək üçün işarə elədi və mən bu dəfə ona tabe oldum. Bir neçə dəqiqədən sonra atışma başladı, məni iki tərəfimdən qolumdan tutdular və bu an dözülməz bir ağrı məni bürüdü, görünür, onurğama nəsə olub, düşündüm. Onlar mənim kim olduğumu soruşdular. Təəccüblənərək cavab verdim: “Briqadanızın həkimiyəm. Tanımadınız məni?” Yalnız sonra məni niyə dərhal tanımadıqlarını anladım: yanıqlardan üzüm tamamilə qaralmışdı, yanmışdı. Özüm bunu hələ görməmişdim axı. Mən onlara bildirdim ki, sürünüb gəldiyim yerdə yenə bir yaralı var

və onu oradan çıxarmaq lazımdır. Burada qalıb, təcili yardım maşınını gözləməyimi dedilər. “Xeyr, sizinlə gedəcəyəm” cavabını verdim və bu vəziyyətdə onlarla beş kilometr yol getdim. Qayıdan yolda qarşımıza bir maşın çıxdı. Mən minaya günorta saat üçdə düşmüşdüm, xəstəxanaya isə axşam saat səkkiz üçün çatdıq. Avtomobil kələ-kötür yollarda tullanırdı və bütün bunlar kürəyimdə əks olunurdu. Özümə gələn kimi, ağrı yenidən özünü hiss etdirdi, üç iynə vurulsada rahatlaşmadım, bədənimin yanması isə ağrıdan çəkdiyim əzab-əziyyətimi hədsiz dərəcədə artırırdı. Sürücüm şəhid oldu, mina düz onun oturduğu yerin altında partladı. Allah rəhmət eləsin!

Qeyd etməliyəm ki, yanımda çalışan bütün insanlar qəhrəmanlıq möcüzələrini göstərirdi. İndi düşünəndə anlayırsan ki, yüz faizindən doxsanı ölüm idi və biz oradan yaralıları çıxardırdıq. Lakin heç kimin ölə biləcəyi ağlına belə gəlmirdi. Bizim vəzifəmiz mümkün qədər çox insanların həyatını xilas etmək idi! Məni onurğamdan əməliyyat etdilər və hal-hazırda mən normal gəzirəm, baxmayaraq ki, şikəst də qala bilərdim, çünki yıxılanda belimin birinci fəqərəsi zədələnmişdi. Çox hallarda belə də olur, mənim sadəcə bəxtim gətirdi – bütün həkimlər təəccüblənirdi. Məmməd Kərimli ilə görüşümüzdən bir ay keçib. Qəhrəmanımızın hal-hazırki vəziyyətindən xəbər aldıq. Deyir ki, pis deyil, müalicəsindən razıdır, mütəmadi olaraq qospitala prosedurlara gedir, daim həkimlərin nəzarəti altındadır, amma baş nahiyyəsindəki yanıq yaraları sağalmır. Sağalmaq, dünyanı gəzmək, səyahət etmək kimi böyük arzuları var. Onu yeganə narahat edən – yuxularıdır: hər gecə yuxusunda cəbhədə həlak olmuş yoldaşlarını, onu hələ də cənginə alıb buraxmayan müharibəni görür. Mükafatlandırılması haqqında həkim Kərimli onun soyadını təltif olunanların siyasında görüb, dərhal ona xəbər verən dostlarından bilib.

*Frəngiz Xancabəyova*
*İlyana Məmmədova*

## “MƏNİ NİYƏ APARMIRSINIZ?"




Hələ o sondakı Göyçə gölü möhtəşəmdi.

Bu müharibədə ən çox diqqətimi çəkən məqamlardan biri də o oldu ki, demək olar fərarilik olmadı. Əksinə səfərbərlik xidmətlərinin qarşısında hər gün “məni niyə aparmırsınız?” üstündə dava düşürdü.

Bir dostum var, həm qohumdur, həm də sinif yoldaşı. Müharibənin ilk anından onun maşını ilə hərəkət edirdik. İki dəfə mərmi yağışına tuş gəldik. Birində hətta maşını da mərmidən nəsibini aldı. 3 dəfə səfərbərlik xidməti ilə dalaşdı. Dəmiryolçu olduğu üçün aparmırdılar. Dördüncü davadan sonra zəng etdi ki, ağızların cırdım, aparırlar.

Başqa bir dostum da dava elədi. Apardılar. Bir neçə gün idi getsə də, döyüşə aparmamışdılar. Zəng elədi ki, nə edirsən et, kimə çıxırsan çıx, elə elə məni irəli göndərsinlər. Dedim, bəs atan, bəs ailən? Cavabı belə oldu, arxada qalsam, əsəbdən kimisə vuracam, içəri düşəcəm, sən hərəkət elə. Xahiş, minnət etdik, bir də xəbər tutdum ki, Şuşadadır. Zəng edib, döyüşdüyü üçün təşəkkür edir.

İçində bir gülməlisi də var. Demək, bir qohum Dəniz qüvvələrində xidmət edib. 2 dəfə səfərbərlik xidmətinə gedib, dava

etmişdi. Üçüncü dəfə səfərbərlikdə itoynadanının biri çıxıb, buna deyib ki, qardaş, sən dənizdə xidmət etmisən, səni apara bilmərik, get hazırlaş, dəniz döyüşləri başlayanda, səni çağıracağıq. Sevincək zəng edib ki, mənə dedilər, hazırlaş, yaxında dəniz döyüşləri başlayacaq. Dedim, düz deyirlər, Göyçə gölü ətrafına gəmi yığırıq. Bu yaxınlarda ona çatıb ki, səfərbərlikdəki adam onunla məzələnib.

*Səxavət Məmməd*







## Mətin HƏSƏNOV



Mətin Bayram oğlu Həsənov 1978-ci ildə Bakıda ziyalı ailədə dünyaya göz açıb. 1994-cü ildə Bakıdakı Mikayıl Müşfiq adına orta məktəbi əla qiymətlərlə bitirib. 1995-ci ildə kiçik qardaşı Kənanla birlikdə Naxçıvan Dövlət Universitetinin "Hərbi və fiziki təlim" fakültəsinə daxil olublar.

1996-cı ilə ailə vəziyyəti ilə əlaqədar qardaşı ilə birgə N.Tusi adına ADPU-nun eyni adlı fakültəsinə köçürülüblər. 3-cü kursu bitirəndə 3 aylıq hərbi təlim keçərək hər ikisi leytenant rütbəsi alıblar. Mətin 19, Kənan 18 yaşında zabit rütbəsinə yiyələniblər. Sonra qardaşlar Bakı məktəblərində müəllim və hərbi işlər üzrə direktor müavini işləyiblər. 2003-cü ildə vətənsevər qardaşlar könüllü hərbi xidmətə gedirlər. Mətin Quzanlıda, Kənan Murovda vətən keşiyində dayanırlar. Atəskəsu pozan, əsgərlərimizin qanına susayan neçə erməni gəbərdirlər. Baş leytenant kimi fəxri fərman, mükafatlarla Bakıya qayıdırlar. Və….məktəbdə yerlərinə müəllim götürürlər. Vətən fədailəri uzun müddət işsiz qalırlar.Bir neçə il sonra Mətin özəl fabriklərin birində mühəndis kimi işə başlayır. Ötən il işlədiyi təşkilatda ixtisara düşür. İki övladı var. Qızı Afət Slavyan Universitetində 2-ci kursda (ödənişli), oğlu Murad isə orta məktəbdə təhsil alır. Həyat yoldaşı tibb bacısıdır. Anasını erkən itirən Mətinin atası uzun illərdir insult keçirtdikdən sonra yataq xəstəsidir. 27 sentyabrda çağırılmamış qonaqlar, işğalçı ermənilər məlum olduğu kimi atəşkəsi pozur. 2-ci Qarabağ savaşı başlayır. Hər iki qardaş Abşeron rayon Səfərbərlik və Hərbi Xidmətə Çagırış şöbəsinə yollanıb könüllü cəbhəyə

getmək ücün ərizə ilə müraciət edirlər. Hərbi komissarlıqdan deyirlər ki, bir ailədən iki zabit döyüşə gedə bilməz. Onlar dayıları tanınmış şair, professor Vüqar Əhmədə müraciət edirlər. Dayıları çox xahiş edir:

– Bunları ayırmayın.İdarədən qəti bildirirlər:

– Qanunu poza bilmərik.

Mətin cəbhəyə yollanır.Kənan isə növbə gözləyir. Mətin bölük (rota) komandiri kimi Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilanın işğaldan azad olunmasında əsgərləri ilə birgə qəhrəmanlıqla vuruşur, 100-lərlə erməni gəbərdirlər. Ağdərə döyüşlərində yaralanır. Əvvəlcə ata yurdu Füzulinin Bala Bəhmənli kəndinin hospitalında, sonra isə Biləsuvar rayon Mərkəzi Xəstəxanasında müalicə alır. Kəskin kontuziya, bel diskinin zədələnməsi, sol ayagının travması, əli, qolu və ayağında qəlpələrlə hələ də müalicəyə ehtiyacı var. Biləsuvarda şəxsən icra başçısı Faiq müəllim yaralılara hər gün baş çəkir. Baş həkim Xoşbəxt xanım yaralı əsgər – zabitlərə analıq qayğısı göstərir. Ehtiyac olmasa da insanlıq nümunəsi göstərərək Çaylı məktəbinin direktoru evdə xörək bişitdirib hər gün xəstələr üçün göndərir.

Ali Baş Komandanın onlara qaygısı göz qabağındadır. Mətini Bakı Hərbi Hospitalına gətirirlər. 10 Noyabr Qələbə günü münasibətilə Hospital Rəhbərliyi Mətini də iki həftəlik məzuniyyətə – evə buraxır. Qeyd edirlər ki, 15 gün sonra müalicən davam edəcək.Var ol Azərbaycan əsgəri!

Var ol, Ali Baş Komandanımız!

*Təhminə Vəliyeva*

# Mirsəfal SEYİDOV



İgidlərimizi tanıyaq və tanıdaq! İkinci Qarabağ Müharibəsi dövründə vətənin keşiyində dayanmış Seyidov Mirsəfal.

Seyidov Mirsəfal Mirəşrəf oğlu 1992-ci ildə Tərtərin Bəyimsarov kəndində doğulub. Əslən Qərbi Azərbaycanın Vedibasar mahalı Vedi rayonunun Yengicə kəndindəndir. Təhsilini ölkədən kənar alan həmyerlimiz vətənin keşiyində dayanmağı özünə borc bilir. 2019-cu ilin oktyabr ayından həqiqi hərbi xidmətə yollanır. Güləşçi olan Səfal xidməti dövründə dəfələrlə yarışlara çıxmış dərəcə və mükafatlara layiq görülmüşdür. Ailəli və bir qız övladı olan qardaşımız hazırda xidmətini davam etdirir. Komandamız adından Mirsəfala tezliklə ailəsinə, doğmalarına qovuşmağı arzu edirik.

**P.S.** İnformasiya dəstəyinə görə əsgərimizin atası birinci Qarabağ müharibəsi dövründə döyüşlərdə könüllü vuruşanlarından olan Seyidov Mirəşrəf müəllimə təşəkkürümüzü bildiririk.

*İnsafsızlar hörmət etmir yaşına,*
*Balta vurur vələsinə, şamına.*
*Qoca Qoşqar diz söykəyib başına,*
*Dərin-dərin fikrə dalıb meşələr.*

## Mirzə MEHDİYEV



Mehdiyev Mirzə Hafis oğlu 1983-cü ildə Göyçə Mahalı Kəsəmən kəndində anadan olub. 2005-ci ildə H.Əliyev adına Hərbi Ali Akademiyaya daxil olur. Təhsilini başa vurduqdan sonra Ağdam rayonunda hərbi tağım komandir vəzifəsində işə başlayır. 2008-ci ildə baş leytenat və bölük komandiri vəzifəsini icra etmiş, 2014-cü ildə şəxsi heyətlə tabor komandiri müavini vəzifəsinə layiq görülmüşdür. 2016-ci ildə "Aprel döyüşləri"ndə iştirak etmişdi. İgidliyinə görə 3-cü dərəcəli medal ilə təltif edilmişdir.

2-ci Vətən müharibəsində Mirzə Hafis oğlu Füzuli, Daşaltı kəndində və Şuşa şəhərində igidliklə, mərdliklə, şücaətlə döyüş meydanında vuruşub. Mirzə "Şücaət ordeni" ilə mükafatlandırılıb. Təbrik edir və can sağlığı arzulayırıq.

*Həqiqət B.*

*Dəli Alı sizi görsə kövrələr,*
*Yaraları sızıldaşar, qövr edər.*
*Bilirlərmi burda Aşıq Ələsgər,*
*Dövran açıb saz da çalıb, meşələr?*
*Kaş heç sizi görməyəydim belə bax,*
*Kəməri qırılmış incə belə bax,*
*Külüngə bax, mişara bax, belə bax,*
*Bəlkə vaxtdı, çox qocalıb meşələr?!*

# Murad İSMAYILOV



Göyçə Mahalı Kəsəmən kəndinin mərd oğulları!

Bizlərə Zəfər sevincin yaşatdığınız üçün təşəkkür edirik, Qazi qardaşım! 3 dostun igidliyi dastanlara yazıldı. İsmayılov Murad Hamlet oğlu (Qasımov Kalvayinin nəticəsi) 2001-ci il 14 oktyabr anadan olub. 2019-cu ildə əsgəri xidmətə gedib. 27 sentyabrdan müharibə bölgələrində iştirak edib. Cəbrayılda düşmənlə üzbəüz döyüşüb. Hadrut istiqamətində yaralanıb. Murad bəy dostları ilə 1 top, 1 müşahidə məntəqəsi, 5 tank, 33 erməni məhv ediblər. Qazimiz Murad düşəmənin atdığı mərmidən kəllə beyin traması alıb, eyni zamanda əlindən snayper yarası alıb. Allah kömək olsun.

*Həqiqət B.*

***

*İnsanlığın ilk addımı*
*odu tanımaq oldu.*
*Odu tanımağıyla insan,*
*vəhşilikdən uzaq oldu.*
*Pisi, yaxşını tanıdı.*
*bəlkə də od olubdu*
*İnsanlığın ilk andı.*

## Musa MEHDİYEV



II Qarabağ Müharibəsi iştirakçısı əslən Qafan rayonunun Qaraçimən kəndindən olan Musa Tahir oğlu Mehdiyev. Əmioğlu səninlə fəxr edirəm.

*Mehdi Mehdiyev*

## Mürşüd RƏSULZADƏ

Vətən müharibəsi istirakçısı Şirvan şəhər Çılpaqlı qəsəbə sakini Rəsulzadə Mürşüd Əmrah oğlu.

Mürşüd ailənin tək oğul övladıdır. Torpaqlarımızın işğaldan azad olunması uğrunda başlanan vətən müharibəsində Füzuli və Cəbrayıl istiqamətində gedən döyüşlərdə fəal iştirak edib. Hazırda xidməti borcunu Şuşa şəhərində davam etdirir.

Allah sizləri qorusun.





## Nadir CABBAROV



Nadir Cabbarov Mustafa oğlu torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərdə fədakarlıq göstərən, hal-hazırda Laçın rayonunda hərbi xidmətini davam etdirən əsgərimizdir və o, öz övladının ad gününü xidməti yerindən təbrik edir. Bütün əsgərlərimizə xidmətində uğurlar arzulayaq.

*Mayıs Abbasov*

## Nəriman ƏZİMOV



Kapitan Əzimov Nəriman döyüş zamanı yüngül xəsarət alıb. Həkim Binnətov Azadın Aslan oğlunun nəvəsi, Gülnarə doktorun oğludur.

*Həqiqət B.*

## Namiq ABBASOV

Abbasov Namiq Əli oğlu 1989-cu ildə Göyçə Mahalı Kəsəmən kəndində anadan olub (Musa əminin nəvəsidir). 2011-ci



ildən hərbidə qulluq edir. Bacarığı ilə bütün heyətdə hörmət qazanıb. “Aprel döyüşləri”ndə iştirak edib. 27 sentyabr 2020-ci ildən indiyə kimi ön cəbhədədir.

Namiq Ağdərə istiqamətində, Talışda, Suqovuşanda düşmənlə üzbəüz döyüşmüşdür. İdarə etdiyi sursat dolu maşını düşmən hədəfinə tuş gəlsə də, Namiq qəhrəmanlıqla zərər çəkmədən xilas olmuşdur. Təəssüf ki, ayağından qəlpə yarası almışdır.

Allah səni qorusun, igid oğlan. Fəxrimizsən!

*Həqiqət B.*



## Nicat SƏFƏROV

II Qarabağ Vətən Müharibəsində qəhrəmancasına vuruşan Qanlı kəndindən olan polkovnik Emin Səfərovun oğlu Nicat Səfərova Allahdan can sağlığı, xoş gələcək arzu edirik.

*Ramin Qəhrəmanov*

## Nəriman QƏRİBOV



Qəribov Nəriman İlham oğlu 1989-cu il 04 iyunda Sumqayıt şəhərində anadan olub. II Qarabağ muharibəsinə könüllü döyüşlərə qatılıb. Xocəvənd, Füzuli, Şuşa, Laçın dəhlizi və başqa rayonların alınmasında iştirak etmiş, Füzuli rayonunda gedən ağır döyüşlərdə düşmən tərəfindən atılan minamyot raketi nəticəsində yaralanmışdır. Sifət almacıq sümüyü, burun sümüyü sınmış, qulaq pərdəsi zədələnmişdir. Bunlara baxmayaraq geri çəkilməyib irəliyə getmiş, Şuşa şəhərində bayrağımızı dalğalandırmışlar. 2 saat sonra düşmən tərəfindən atılan raket nəticəsində yenidən ağır yaralanmışdır.

*Çayların suyu da durdu elə bil,*
*Torpağa baxırsan sanki qaynayır.*
*Təbiət bir sakit körpəcə deyil,*
*O da oynayanda belə oynayır.*



## Nicat CƏLALZADƏ

Göyçə Mahalının cəngavər oğlu Cəlalzadə Nicat Niyaz oğlu 1993-cü il mayın 31-də anadan olub Tərtər şəhərinin Bəyimsarov kəndində. Atası Satanaxac kəndindən, anası Kəsəmən kəndindən olan (Qasımov Davudun nəvəsi) Nicat Vətənə torpağa bağlı olan igidlərimizdəndir.



5 ildən çoxdur ki, (MAXE) hərbi hissədə xidmət edir. Kiçik çavuş vəzifəsində atıcıdır. Dostu Xaliqlə birlikdə bir maşın kolonyasını məhv ediblər.

Vətən Müharibəsi başlayandan indiyə kimi öz işini vicdanla, fəxrlə davam etdirir. Döyüş bölgələrində Tərtərdə, Ağdərədə, Suqovuşanda və digər döyüş bölgələrində rəşadətlə döyüşüb. Əsgərimiz döyüş bölgəsində olarkən çox sevincli gün yaşadı. Kəlbəcərin azad olunan günü dünyaya qız övladı göz açdı. Allah saxlasın.

*Həqiqət B*

## Rahid BAYRAMOV



Bayramov Rahid Bəhman oğlu 1968-ci ildə Göyçə Mahalı Aşağı Şorca kəndində anadan olub. Tələbə ikən Birinci Qarabağ döyüşlərində iştirak edib veteranıdır. 1994-cu ildən Qarabağ üzrə Məhkəmə Tibb Ekspert idarəsində ekspert kimi işləyir. Aprel döyüşlərində və İkinci Vətən Müharibəsində (44 günlük) iştirak edib.

Ehtiyatda olan podpolkovnikdir.

## Polad RZAYEV

## ŞƏHİD Tofiq OĞUZun oğludur

Mən gəldim, ata! Qazi mayor Polad Rzayev 30 il sonra Şuşada şəhid olan atasının – Tofiq Oguzun vuruşduğu son döyüş yerində. Ruhuna salam olsun, səssiz qəhrəman Tofiq Oguz!



## Ata Tofiq OĞUZ



Tofiq Qafar oğlu Rzayev 19 yanvar 1945, Oğuz rayonu- Yaqublu kəndi – 1992) Qarabağ müharibəsi vaxtı mövcud olmuş Azərbaycan Qarabağı batalyonunun komandiri. Oğuz rayonunun Yaqublu kəndindən olan Tofiq Rzayev Qarabağ müharibəsi vaxtı olduğu rayonun adı ilə Tofiq Oğuz kimi tanınıb. Şuşanın işğalından əvvəl Şuşada- yerləşən iri batalyonlardan biri – 500 nəfərlik "Azərbaycan Qarabağı batalyonu"nun komandiri Tofiq Oğuzun sağ qalıb-qalmaması haqqında bir məlumat yoxdur. Sonuncu dəfə Laçın dəhlizində başından yaralı vəziyyətdə görünüb.

# Qazi Polad RZAYEV

“Oktyabrın 19-da Qubadlının Dağtumas kəndində düşmənə növbəti hücumu icra edərkən, düşmənin pərakəndə



şəkildə qurduğu piyada əleyhinə minaya düşdüm. Birinci sağ ayağım düşdü, o partlayış atdı məni ikinci minanın üstünə, o minanın da partlayışı atdı məni dərənin dibinə”.

Polad Rzayev şəhid oğludur. Üç yaşında olarkən atası Tofiq Rzayevi Birinci Qarabağ müharibəsində itirib. 13 yaşından hərbi təhsil almağa başlayıb. 9 ildir ki, Xüsusi Təyinatlı Qüvvələrdə zabiti olaraq xidmət edir. Vətən müharibəsində Murovdağ yüksəkliklərinin alınmasından başlamış, ta Qubadlıya qədər döyüş yolu keçib. Oktyabrın 19-da Qubadlının Dağtumas kəndində piyada əleyhinə minaya düşüb, iki ayağını da topuqdan itirib. XTQ zabiti kapitan Polad Rzayev uzun sürən müalicədən sonra vətənə geri dönüb. Onu Heydər Əliyev adına Beynəlxalq Hava Limanında yaxınları qarşılayıb.



Murov dağı, Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində gedən döyüşlərdə iştiirak edən kapitan Polad Rzayev mina partlaması zamanı hər iki ayağını itirib. Uzun sürən müalicədən sonra Almaniyadan geri dönən qazi yüksək texnologiyalı protezlərlə təmin edilib. XTQ zabiti Polad Rzayev evə getmədən öz silahdaşlarının məzarını ziyarət edib.

O, Azərbaycan Bayrağı ordeni, "Füzulinin azad olunması", "Cəbrayılın azad olunması" və "Qubadlının azad olunması"na görə medalları ilə təltif edilib.

*APA TV*

**Ramin XIDIROV**









## Ramal ƏZİMOV



Ramal Adil oğlu Əzimov 5 fevral 1981-ci ildə Cəlilabad rayonunun Alar kəndində anadan olmuşdur.

Uşaqlıq illərindən hərbçi olmaq arzusu ilə yaşayan Ramal 1995-1998-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi liseydə təhsil almışdır. O, 2002-ci ildə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi Ümummilli lider H.Əliyevin imzalı təltifnaməsi ilə başa vurmuşdur. Ali Hərbi Məktəbdən məzun olduqdan sonra təyinatını Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəyə almış, xidmətə taqım komandiri kimi başlamışdır. Ramal Əzimov təhsilini Türkiyənin Ankara və İzmir şəhərlərində, daha sonra isə ABŞ-ın Texas ştatında davam etdirmişdir. O, 30-a yaxın NATO-ya üzv xarici dövlətlərdə təlim və seminarlarda iştirak etmiş, uzun müddət NATO tərəfdaşlıq proqramı çərçivəsində Əməliyyat İmkanları Konsepsiyası taborunda xidmət etmişdir. O, 2007-ci ildə ABŞ-ın Georgia ştatında yerləşən Quru Qoşunları Akademiyasında qərargah zabiti kursunu fərqlənmə ilə bitirmişdir. Ramal 2012-ci ildə Hollandiyada "Beynəlxalq hüquq", 2014-cü ildə isə Türkiyədə "Hərbi münaqişələr hüququ" üzrə kursda təhsil almışdır. Ramal Əzimov şərəfli bir döyüş yolu keçmişdir. O, 2018-ci ildə öz istəyi ilə cəbhə bölgəsində yerləşən hərbi hissələrin birində xidmətini davam etdirmiş, şiddətli döyüşlərdə qəhrəmancasına vuruşmuşdur. Ramal Əzimov cəsurluğu, igidliyi ilə yanaşı, qayğıkeşliyi ilə də əsgərlərin rəğbətini qazanmışdır. Mayor Ramal Əzimov

İkinci Qarabağ müharibəsinin ilk günlərindən ön cəbhədə şücaətlər göstərən, müzəffər ordumuzun ən ön sıralarında cəsarət və igidliklə xidmət göstərərək, şanlı tariximizə yeni səhifələr əlavə edir.

Ramal Əzimov ailəlidir, üç övladı var.

Qeyd edək ki, Ramal Əzimovun atası tanınmış polis zabiti Adil Mirzəbəy oğlu Əzimov da Birinci Qarabağ müharibəsində Qubadlı istiqamətində gedən döyüşlərdə şücaət göstərmişdir.

*Eşqanə Babayeva*

**Ramiz QASIMOV**



O, Cəbrayıl, Qubadlı, Füzuli istiqamətində gedən döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Qazimiz Qubadlı uğrunda gedən əks hücum əməliyyatlarının birində yaralı əsgər yoldaşlarına köməklik göstərmək məqsədi ilə yaralıları döyüş meydanından çıxararkən, düşmən tərəfindən mövqelərimizə atılan minamyot mərmisinin partlaması nəticəsində ağır xəsarət almışdır. Bir neçə gün komada qalmış, lakin həkimlərin səyi nəticəsində qazimiz həyata qayıtmışdır.

Ey vətənimin igid oğlu, bu gözəl təbəssümün heç vaxt üzündən əksik olmasın!

*Lamiyə Əliyeva*

## Ramin QASIMOV



Qasımov Ramin Elşən oğlu 1993-cü il iyunun 26-sı Göygöl rayonunun Çaykənd kəndində anadan olub. 1996-cı ildə Tərtər rayonunun Bəyimsarov kəndinə köçüblər. Evin tək oğludur. Evlidir. Yusif və Əli adında iki övladı var. Vətənpərvər ruhda böyüyən Yusif hər dəfə atası ilə danışanda atasından tank və bayraq istəyir. Rayonlarmız alındıqca "Atam aldı", – deyə sevinir. Könüllü döyüşə hazır olduğunu vətənə bildirən Ramin 21 sentyabrda Tərtər voinkomantına çağrılıb. 6 gün təlimlərdə ürəkdən iştirak edib və 27 sentyabrdan Ağdamın Əfətli kəndində 44 gün döyüşlərdə şücaətlə iştirak edib. Əsgərliyi Bakıda Nasosnuda xidmət edib. II Qarabağ döyüşlərində tank toplarına navotka veren manqa komandiri kimi xidmət edib. Hal-hazırda Ağdamın yeni alınmış Xıdırlı kəndində xidmətini davam etdirir.

*Həqiqət B.*

*Gülər, oynar mahnılar,*
*Daşar, qaynar mahnılar.*
*Yaxşı seçər, yaman seçər,*
*Nurdan şəhdi – şərbət içər.*
*Sərhədləri vurar keçər,*
*Sülh havalı mahnılar,*
*Süd mayalı mahnılar.*

## Kalvayı kişinin nəvəsi. Qasımov Elşənin oğlu RAMİN














## Rasim QASIMOV



Qasımov Rasim İlqar oğlu (Qasımov Vəli kirvəmizin nəvəsi) 1991-ci il yanvarın 20-də anadan olub. Müdafiə Nazirliyinin "N" saylı h/h-də (MAXE) müddətdən artıq xidmət edən hərbi qulluqçudur, artilleriya bölməsində xidmət edir. 2016-cı ildə "Aprel döyüşləri"ndə Tərtər və Goranboy istiqamətlərində döyüşüb. 27 sentyabr Vətən müharibəsində Suqovuşan, Tərtər şəhərinin Talış kəndində iştirak edib. Şükür Allaha heç bir xəsarət almayıb. Ailəlidir, bir oğlu, iki qızı var. Rasim əsgəri xidmətini davam etdirir.

Prezident İlham Əliyev bir qrup hərbi qulluqçunun səfərbərlik üzrə hərbi xidmətdən tərxis edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən: 3 uşaq olan atalar tərxis olunanlar sırasındadır.

*Həqiqət B.*

*Ən dərin dərələr, müdhiş yarğanlar,*
*Əlçatmaz dağların özülü olur.*
*Gülüşlər, haraylar, ahlar, amanlar,*
*Həmişə yan-yana düzülü olur.*

*Ən şirin dərmandı, ən qatı zəhər,*
*Bir gözdə uyuyur gülüşdə qəhər.*
*Qəribə təzaddı düşünsən, əgər,*
*Bülbülə xəyanət səsində gəlir.*

# Rauf YAQUBOV



Cəsur kəşfiyyatçı, Qubadlının Başarat kəndindən olan Qazimiz Rauf Yaqubovu tanıyaq! Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı, Xocavənd rayonlarının mənfur ermənilərdən azad olunması üçün gedən ağır döyüşlərdə iştirak etmiş, kəşfiyyatçı olaraq düşməndən xalqımızın intiqamını almışdır. Onun ən ağır və təhlükəli döyüşü Qubadlıda olub.

Rayonun kəndlərinin alınmasında xüsusi qəhrəmanlıq göstərmişdir. Ağır döyüşlərdə düşmənə gözlənilməz sarsıdıcı zərbələr vuran cəsur kəşfiyyatçı döyüş meydanından şəhid və yaralılarımızı çıxardaraq yenidən döyüşlərdə iştirak etmiş, düşmənin xeyli canlı qüvvəsini və ağır texnikasını məhv etmişdir. Cəsur kəşfiyyatçı Rauf Yaqubov Xocavənd rayonununda ağır yaralanmış, yataq şəraitində müalicə alır, ayağa qalxa bilmir. Allah şəfa versin.

*Bu niyə belədir, bu niyə belə,*
*Anlaya bilmirəm bu sirri hələ.*
*Ən ağır  böhtanlar görürsən elə,*
*Ən yaxın bildiyin kəsindən gəlir.*

*Umma bəd əmələ həyatdan imdad,*
*Hər şeydən əzizdir bircə təmiz ad.*
*Adamın başına nə gəlsə, heyhat,*
*Artıq tamahından, nəfsindən gəlir.*

## Rabil RÜSTƏMLİ



Ali Baş Komandanın Sərəncamı ilə Rabil Zaman oğlu Rüstəmliyə döyüşdə igidliyinə görə, medallarla təltif olunub. Allah bütün əsgərlərimizi qorusun. Göyçənin igid oğlu Rabil Zaman oğlu Rüstəmli (İsgəndər əminin qızı Pərvanənin oğlu) könüllü olaraq ilk çağırışdan vətənimizin ərazi bütövlüyünü qorumaq üçün hərbiyə yollandı. Döyüş bölgələrində Laçında, Cəbrayıldа, Qubadlida igidliklə döyüşüb.

Rabil Zaman oğlu Rustəmli xidmətini başa vurub sevdiklərinə qovuşdu. Gözünüz aydın olsun Şirxan Abbasov. Allah bütün əsgərlərimizi qorusun.

*Həqiqət B.*

## Rövşən ABBASOV



Abbasov Rövşən Zabit oğlu Şəmkir rayonunun Çənlibel kəndində doğulub. Babası İsmayıl Abbasov 1988-ci il məlum hadisələr zamanı ailəsi ilə Göyçə mahalının Kəsəmən kəndindən Çənlibelə gələrək burada məskunlaşıblar. Gənc Rövşən balamız Murovdağın və Kəlbəcərin alınması uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. O, hələ də Vətənin cəbhə xəttindədir.

*Həqiqət B.*

## Rövşən QƏDİMOV



Qədimov Rövşən Nurəddinoğlu 1990-cı il dekabrın 10-da anadan olub. Hərbi xidməti bitirdikdən (MAXE) sonra hərbi hissədə qalıb qulluq etdi. “Aprel döyüşləri”nin iştirakçısı olub.

Vətən müharibəsinin ilk günündə Tərtər istiqamətində gedən döyüşlərdə sürücu kimi igidliklə, mərdliklə xidmət edib.

Nurəddin ata oğlu ilə qürur duyur.

*Həqiqət B.*

## Sahil HƏSƏNLİ



Zəngəzur mahalı
Urud kəndi.

Qazimiz Sahil Rauf oğlu Həsənliyə Allahdan sağlıq-salamatçılıq arzulayaq.

## Ruslan İBRAHİMOV



İllərlə xilaskar ərənlərinin həsrətlə yolunu gözləyən əsir, viranə yurdlarımız azadlığına qovuşdu artıq. Əlbəttə ki, qəhrəman oğullarımızın bu dönməz, şərəfli mübarizə yolunda göstərdiyi misilsiz şücaəti, qanı, canı bahasına. Vətənimizin qeyrətli, mətin oğulları torpaqlarımızın ərazi bütövlüyü uğrunda odlardan, alovlardan keçərək igidlikləri ilə şanlı tarix yazdılar. Onlar hətta yüksək dözüm, iradə, hərbi güc, birlik, əzm və qeyrət, eləcə də böyük fədakarlıq nümunəsi göstərərək ordumuzun yenilməz qüdrətini dünya miqyasında nümayiş etdirməyə nail oldular. Bu çətin və şərəfli yolda sağlamlığından keçərək, hətta qızğındöyüşlərdə aldığı ağır yaraları belə unudaraq, müqəddəs, ulu torpağın bağrına zəfər bayrağını sancaraq qalib Azərbaycan əsgəri kimi qələbə müjdəsilə geri döndülər. Xalqımızın igid, vətənpərvər oğulları əsir Qarabağımızın mətin, xilaskar ərənləri kimi tarixin yaddaşında iz qoyaraq, qazanılan parlaq qələbəmizin mərdlik, qəhrəmanlıq simvoluna çevrildilər.

Haqqında qürur hissi ilə söhbət açacağım İkinci Qarabağ Vətən müharibəsinin qəhrəman qazisi Ruslan İbrahimov tarixi torpaqlarımızın azadlığı naminə döyüşlərdə üç dəfə yaralanaraq sağlamlığını bu yolda fəda edən qələbə carçılarımızdan biridir. Böyük Zəfərimizin təməlində dayanan “Qarabağ Azərbaycandır!” məğrur nidası yüzlərlə Vətən övladı kimi onu da könüllülər sırasına qoşulmağa sövq etdi. Qazimizin keçdiyi rəşadətli döyüş yolunun hər səhifəsi fədakarlıqla, mərdliklə, eyni zamanda qürur və heyrət doğuran məqamlarla doludur. Belə ki, o, Xankəndi uğrunda gedən gərgin döyüşlərdə və Şuşa əməliyyatında yalnız qollarındakı qüvvətə arxalanaraq düşmən önündə

əsl qəhrəmanlıq nümunəsi göstərmişdir. İgid Ruslan Vətən müharibəsinin son gününə kimi iştirak etdiyi döyüşlərdə fəallığı, çevikliyi və cəsurluğu ilə fərqlənərək öndə gedən nümunəvi əsgərlərdən biri olub. Qarabağımız uğrunda gedən döyüşlərdə BMP-piyada zirehli döyüş maşınından atəş dəstəyi verməklə yanaşı PK silahı ilə də tuşlayıcı vəzifəsini icra etmişdir. Ən müasir piyada silahlarının döyüş texnikası haqqında mükəmməl təcrübəyə və bacarığa malik olan qəhrəmanımız hərbçi yoldaşlarının dar məqamda xilası naminə dəfələrlə həyatını təhlükəyə ataraq bir neçə güllə yarası alıb. Belə ki, döyüş əməliyyatları zamanı cisminə tuşlanan güllələrdən biri kürəyindən girərək qolundan çıxıb. Həmçinin qəhrəman qazimiz hər iki ayağından güllə və qəlpə yaraları da alıb.

İbrahimov Ruslan Şamxal oğlu 1994-cü il mayın 29-da Ağstafada sadə və zəhmətkeş bir ailədə anadan olub. Ailənin yeganə övladıdır. 2000-ci ildə Ağstafa rayonu, Yenigün kəndi Elçin Mustafayev adına orta məktəbin 1-ci sinfinə getmiş, həmin məktəbi 2011-ci ildə bitirmişdir. 2012-ci ilin iyul ayında hərbi xidmətə yollanmışdır. Şəki,  Mingəçevir və Goranboy şəhərlərində hərbi xidmətdə olduğu müddətdə tuşlayıcı və tuşlayıcı operator vəzifəsini icra etmişdir. 2014-cü ildə ehtiyata buraxılaraq o zamandan bəri torpaqlarımızın azadlığı və müdafiəsi uğrunda döyüş əməliyyatlarına qoşulması üçün hər dəqiqə, hər an Ali Baş Komandanın əmrini səbirsizliklə gözləmişdir. 2020-ci il sentyabrın 27-də erməni silahlı birləşmələrinin atəşkəs rejimini pozaraq cəbhə boyu mövqelərimizə hərbi təcavüzü zamanı Azərbaycan ordusunun əks-hücum əməliyyatı nəticəsində işğal edilmiş ərazilərimiz uğrunda şiddətli döyüşlər başlamışdır. Döyüşlərin alovlandığı müddətdə Ruslan 2020-ci il sentyabrın 29-da könüllü surətdə orduya yazılaraq, cəbhə bölgəsinə yollanmışdır.

Ruslan bir ay müddətində Gəncədə yerləşən hərbi hissədə təlim keçəndən sonra Füzuliyə göndərilmişdir. O, Füzulinin iş-

ğal altında olan kəndlərinin azad edilməsi uğrunda bir neçə gün rəşadətlə döyüşmüş, sonra hərbi komandanlıq tərəfindən verilən növbəti döyüş əmrinə əsasən şücaətli dəstə ilə noyabrın 6-da Şuşaya doğru istiqamət almışdır. Ruslanın döyüşdüyü şücaətli dəstə noyabrın 7-də səhər tezdən Şuşanın içərisinə doğru hərəkətə keçərək kəndlərdən birinə daxil olub, oradan da axşama kimi Şuşanın mərkəzinə çatıb. Ruslangil ağır döyüş əməliyyatı prosesində Şuşanın bir neçə kəndinin alınmasında iştirak ediblər. Həmin gecəni Şuşanın dağlarında keşik çəkərkən düşmənin canlı qüvvələri tərəfindən pusquya düşüblər. Çox güclü, şiddətli, həlledici döyüş əməliyyatı şəraitində düşmənin canlı qüvvəsini məhv ediblər.



Noyabrın 8-də isə Şuşadan Xankəndinə tərəf irəliləyərkən Ruslanın döyüşdüyü dəstə iki hissəyə bölünüb. Döyüşçülərin yarısı qabağa keçib, yarısı isə arxada qalıb. Ruslan döyüş yoldaşları ilə irəliləyərək təhlükəsiz əraziyə çatsa da, Xankəndi tərəfdən ermənilər dağların arxasından onlara atəş açırlar. Nəticədə Ruslanla yanaşı 12 silahdaşı yaralanır. Döyüşçülər arasında onlara nisbətən yüngül yara alan Ruslan dörd tərəfdən düşmən atəşinə məruz qalmasına baxmayaraq silahı ilə bərabər yolun ortasına keçir. Döyüş yoldaşları təkid edəndə ki, “Ruslan, irəliyə getmə, yolun ortasına çıxsan, səni yenə vurarlar”. Qəhrəman döyüşçünün isə cavabı belə olur. “Qorxmayın, mənə heç nə olmaz. Mən bir nəfərəm siz isə çoxsunuz. Təki sizi xilas edə bilim. Biri var bir nəfər ölümə getsin, biri də var ki 12 nəfər. Odur ki, sizi ölümə verə bilmərəm”. Ruslan bunu söyləyərkən yaralı halda özünü qabağa verərək erməni silahlı birləşmələrinin qərar tutduğu mövqelərə tərəf atəş zərbələri endirməklə döyüş yoldaşlarının mühasirədən qurtulması üçün böyük şücaət gös-

tərir. Beləliklə, Ruslan özü də yaralandığı halda 12 nəfər yaralı silahdaşını həmin təhlükəli ərazidən düşmən mühasirəsindən xilas edə bilir. Əgər Ruslanın dəstəyi olmasaydı, yaralı döyüşçülər həmin təhlükəli ərazini heç cür tərk edə bilməzdilər. Qəhrəman Ruslan Şuşadan Xankəndinə tərəf irəliləyərkən dəfələrlə düşmənin pusqusuna düşsə də, ayıq-sayıqlığı, ehtiyatı əldən verməyərək mərdliklə döyüşür. Həmin gün güllə yarası alaraq komandirin əmri ilə geri çəkilməyə məcbur edilməsinə baxmayaraq yollarda pusqu quran düşmənin canlı qüvvəsinə qarşı yaralı halda müqavimət göstərməyə can atır. Belə ki, mənfur düşmənin hiyləgərcəsinə qurduğu pusqularıqüdrətli ordumuzun sərrast artilerriyası darmadağın edir. Xankəndidən Şuşaya yüz metr qalmış məsafədən düşmən yenə atəş açır. Ruslan ikinci dəfə yaralanır. Yoldaşlarına deyir ki, "Siz dağa çıxın və yolunuzun səmtini dəyişib başqa yolla gedin ki, düşmənin mühasirəsinə düşməyəsiniz". Onlar da Ruslanın dediyi kimi hərəkət edərək mühasirəyə düşməmək üçün başqa səmtə yol alırlar. Ruslandan bir müddət xəbər bilməyən döyüş yoldaşları elə zənn ediblər ki, o, şəhid olub. Ruslan xeyli müddət ərzində dağların ətəyində yaralı vəziyyətdə qalan-dan sonra bir möcüzə sayəsində özünə gələrək oradan xilas edilə bilib. Səhərisi gün Xankəndi və Şuşa arasındakı ərazidə gedən şiddətli döyüşlərdə üçüncü dəfə yaralanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları sırasında "Şuşanın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı ilə təltif edilənlərdən biri də Ruslan İbrahimovdur. Bundan əlavə Vətən qazimiz döyüş şəraitində tapşırıqların icrası zamanı fərqlilik, cəsarət və fədakarlıq, eyni zamanda bacarıqlı, təşəbbüskar və qətiyyətli hərəkətlər nümayiş etdirməklə Azərbaycan Respublikasının "Döyüşdə fərqlənməyə

görə” medalına layiq görülmüşdür.  Bu gün Ruslanın ailəsində iki övlad böyüyür. Atalarının gənc yaşında qəhrəman qazi adını qazanması bu körpə balalar üçün iftixar, şərəf və qürur mənbəyidir.

Qazi qardaşımız! Uğrunda şanlı mübarizəyə atıldığın bu Vətən, bu torpaq sənə oğul dedi, sənin əzminə, qüdrətinə arxalandı. Sən də göz bəbəyin kimi müdafiəsinə qalxdığın Şuşanın dağları tək öz əzəmətinlə, vüqarınla, qeyrətinlə, iti və sərrast döyüş qabiliyyətinlə yüksək, ali vətəndaşlıq nümunəsi göstərərək Vətənə layiqli oğul olduğunu sübuta yetirdin. Tanrı sənə yar olsun, Vətən oğlu! Vətənin uğuru və zəfəri naminə layiq görüldüyün fəxri adlar və mükafatlar sənin haqqındır, şərəfindir, əlbəttə. Vətən üçün belə ləyaqətli, qəhrəman oğul bəxş edən valideynlər qarşısında dərin minnətdarlıq hissi ilə baş əyirik. Ananın südü, atanın çörəyi halalın olsun, dağlar qədər mətin, bayraq kimi uca igid! İgidliyinlə, dönməzliyinlə, şərafətinlə, ucalığınla qazandığın Qazi adın mübarək!

*Sevinc Ədalətqızı*

## Sahib SƏMƏDOV



Sahib Səmədov Vətən müharibəsi uğrundan gedən döyüşlərdə əsl qəhrəmanlıq nümayiş etdirib. Sahib Səmədov Şuşada hərbi xidmət göstərmişdir. Bu şəkil Şuşaada çəkilib.

## Sabir DÜNYAMALIYEV



4 dekabr 2020-ci il...

Ağstafa rayonu Köşəsgər kənd sakini kəşfiyyatçı Qazimiz Dünyamalıyev Sabir Bəxtiyar oğlu Qubadlı uğrunda gedən döyüşdə igidlik göstərmişdir. Qazimiz ilk olaraq, doğma kəndində coşğu ilə qarşılandı. Şəhidlərimizi n xatirəsinə ucaldılmış abidəni ziyarət etdi.

## Sabit VƏLİYEV



Vəliyev Sabit Sabir oğlu (06.02.1978) 2003-cü ildə Naxçıvan Muxtar Respublikasında 216 saylı hissədə 1-ci karantinin komandiri, sonra döyüş komandiri, böyük soyuğun 1-ci postunda baş leytenant olub. İndi isə 707 hərbi hərbi hissəsinin 5-ci taborun 14-cü bölüyünün 2-ci tağım komandiridir.

*Sevil Əliyeva*

## Pərvin QASIMOVA

Gəncə terrorunda iki gözünü itirən 27 yaşlı Pərvin Qasımova!





# Sadiq İBRAHİMLİ



Səsim, özüm, qəlb sirdaşım, hay-haraylı məhər daşım, Vətən!

Anaların beşik səsi, sıldırım zirvələrin keşik sədası, Vətən!

Dilim, dinim, sazım, sözüm, saf ürəyin təmiz arzusu Vətən!

Pak müqəddəs ana sözüm, Ana Vətən! Sülh beşiyim, azad Azərbaycan!

Düşünürəm görəsən haradan başlanır Vətən? Sevimli şairəmiz Rahilə Nuralın vətənpərvərlik dolu, Vətənə sədaqət rəmzi olan bu misraları, doğrudan da, vətənə olan sevgimizi daha da riqqətə gətirir.

Bəli, bu gün ellərimiz hay-haraylı igidlərini öz müdafiəsinə səslədi. Düz otuz bahar, otuz yaz keçdi bu həsrət dolu ömürdən. Vətənin bir parçası inlədi acıdan, ağrıdan. Müqəddəs analarımızın şəhid qanları tökülmüş torpaqdan cücərən, boy atıb böyüyən, düşmən qalxanına sipər olan igidləri Vətən uğrunda mübarizəyə qalxdılar. Analar “Vətəni oğullar qoruyar!” şüarını övladlarına əzbər etdilər. “Səni bu Vətəni qoruyasan deyə böyütdüm!”, – deyərək döyüşə yolladılar. İllərlə həsrətdə qalan, düşmən tapdağında inləyən, igid, qəhrəman oğullarını köməyə çağıran, cığırlarını nisgil basan, şaqraq bulaqları həsrətdən susan, əsir ellərinə yol göründü. Qəhrəman oğullarımız silaha sarılıb Ali Baş Komandanın əmrini gözlədilər.

27 sentyabr 2020-ci il... Bu tarix azadlıq mübarizəsinin, qan yaddaşımızın əsir düşən ellərinə yazılan müqəddəs bir tarix oldu. Vətənpərvər oğullarımız Vətənin azadlığı, müstəqilliyi uğrunda ayağa qalxdılar. Silaha sarılıb hər an hazır dayanan oğullarımızdan biri də Sadiq idi. O, hər gün çağırılacağı anı

həsrətlə gözləyirdi. O an gəlib çatdı. 18 oktyabr 2020-ci il tarixdə döyüşə yollandı. Sevincindən ürəyi şiddətlə döyünən Sadiq döyüşə gedərkən "son nəfərimiz şəhid olana qədər, Vətənin hər bir qarış torpağını alana qədər, 30 illik həsrət qaldığımız Vətənimizi azad edənə qədər bir dəqiqə belə nəfəs almaq bizə haram olsun", – dedi:

*Çək qara pəncəni Qarabağımdan,*
*Vaqif müjdə versin Kür qırağından,*
*Yenə çiçək açsın Xarı bülbülüm*
*Sadiq qucaqlaşsın Şuşa Laçınla!*

Sadiqin Vətən sevgisi ilə dolu olan ürəyi qələbə çalacaqlarına inanırdı. Bu inam tək onun deyil, düşmənə qarşı kin və nifrətlə, qələbəyə doğru inamla addımlayan hər bir vətənpərvər Azərbaycan əsgərinin arzusu idi. I Qarabağ savaşında anaların düşmən pəncəsindən qoparıb xilas etdikləri, hələ dünyaya gəlməmiş bu körpə balalar bu gün cənnət qoxulu torpaqlarımızda cəsarət və igidlik göstərir, düşmənə qan uddurur, öz dastanlarını yazırdırlar. Kimi öz canı, kimisi göstərdiyi qəhrəmanlıqları ilə.

İbrahimli Sadiq Natiq oğlu da belə oğullardandır. "Qarabağım, dağ vüqarım, həsrət ahım", – deyərək döyüşə atılan Sadiq 1993-cü il yanvarın 1-də Şərur rayon Qarahəsənli kəndində dünyaya göz açıb.İlk təhsilini də həmin kənddəKərim Kərimov adına tam orta məktəbdə alıb. Məktəbdə oxuduğu müddətdə Vətənə olan məhəbbəti ilə seçilən Sadiqin hərb sənətinə olan marağı məktəbinin adını daşıyan igid Kərim Kərimovun adı ilə bağlı olmuşdur. Bu vətənpərvər insanın igidliyi hələ uşaqlıqdan Sadiqi özünə cəlb etmişdi. 2018-ci ildə bu arzusu gerçəkləşmiş, Kəngərli rayon Qıvraq qəsəbəsi "N" saylı hərbi hissədə hərbi qulluqçu kimi fəaliyyətə başlamışdır. Elə fəaliyyətə başladığı il Günnüt əməliyyatında fərqləndiyinə görə



yüksək rütbə ilə təltif olunmuşdur. Bu müddətdə hərb sənətini dərindən öyrənmiş, Türkiyə Cümhuriyyətinin İsparta şəhərində 3 aylıq komanda təməl kursu keçmişdir. Sadiq ilk dəfə Füzuli uğrunda gedən döyüşlər zamanı bir sıra ərazilərin, yüksəkliklərin alınmasında iştirak edir. Daha sonra Xocavənd istiqamətində irəliləməyə başlayır. Bu müddət ərzində Sadiq ailəsi ilə az ünsiyyətdə olur, danışanda isə deyir: "Hər şey yaxşıdır, qələbə bizimlədir, biz buradan ya şəhid, ya qazi, yada düşməndən qisas alan qəhrəman kimi dönəcəyik!". Noyabr ayının 4-ü döyüş daha da şiddətlənir. Səhər 10-11 radələrində döyüşdə qorxmadan, qəhrəmancasına vuruşan Sadiq Xocavənd uğrunda gedən döyüşlər zamanı namərd düşmənin gülləsinə tuş gəlir. Həmin döyüşlərdə Sadiqlə bərabər 2 yoldaşı da ağır yaralanır. Qəhrəman oğullarımızdan biri şəhidlik zirvəsinə ucalır. Xocavənd uğrunda gedən döyüşlər Sadiqin Vətən müharibəsində son döyüşü olur. Belə ki, mənfur düşmən onu baş nahiyəsindən nişan almaq istəyərkən Sadiqin düşməni görüb ayağa qalxması ilə düşmənin xain planı puç olur. Sadiq kürəyindən yaralanır, Sadiqin yaralandığını görən həkim onun köməyinə gedir, lakin bu zaman düşmən gülləsi onu yaralayır və o, şəhid olur. Digər silahdaşlarının köməyi ilə Sadiqi atəş nöqtəsindən çıxarırlar. Həmin anlar Sadiq xeyli qan itirməsinə baxmayaraq, yenidən döyüşə atılmaq istəyir, lakin komandirin və yoldaşlarının ciddi təkidi nəticəsində onu əvvəl Füzuli xəstəxanasına, sonra isə Bakıya müalicə-yə göndərirlər. Sadiq bu gündə Vətənimiz üçün, xoşbəxt sabahlarımız üçün döyüşlərə getməyə hazırdır. Döyüşə gedərkən özü ilə bərabər yanında bayraq aparan "Əgər şəhid olsam, məni bu bayrağa bükün!" – söyləyən Sadiq hər zaman şəhidlik zirvəsi arzulamışdı.

Şəhidlik elə bir zirvədir ki, hər kəs ora qalxa bilməz, o elə bir mərtəbədir ki, ölümsüzlük şərbətindən hər kəs dada bilməz. Hz. Peyğəmbərimiz buyurmuşdur: "Şəhidlər heç vaxt ölməz, onlara qüsul verilməz. Onlar bu qüsulu öz qanları ilə verərlər və

əbədilik yaşarlar”. Ürəyi yurd həsrəti ilə döyünən igidimiz şəhidlik zirvəsinə çata bilməsə də, qazilik mərtəbəsinə yüksəldi. 18 günlük döyüş zamanı bir an belə qorxmayan, qəhrəmanlıqla vuruşan Sadiq:“Bu gün vurulsam belə xoşbəxtəmki, Vətənin müdafiəsi zamanı qazi olmuşam. Qanım 30 illik həsrət qaldığım Vətən torpağına tökülüb”. Əbəs yerə deməyiblər ki, “Torpaq Vətənləşər tökülən qandan!” Bu savaş bir daha onu sübut etdi ki, qəhrəman Azərbaycan oğulları hər zaman Vətənə sadiq, torpaq, Vətən uğrunda canlarını qurban verməyə hazırdırlar. 30 illik həsrət 44 gündə bitdi. Bu günlər Şuşada qazanılan qələbə birbaşa Ali Baş Komandan Prezident İlham Əliyevin ağıllı, uzaqgörən siyasəti nəticəsi idi. Döyüşə gedən hər bir əsgər onun sözlərindən qüvvət aldı, inam dolu addımlarla irəlilədi. “Qarabağ Azərbaycandır!” kəlmələrini təkrar edərək canlarından keçdilər, sinələrini düşmən gülləsinə sipər etdilər. Döyüşlərdə qəhrəmancasına vuruşan hər bir əsgər Prezidentimiz cənab İlham Əliyevin “Azərbaycan Respublikası Silahlı qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında” sərəncamına əsasən orden və medallarla təltif olundular. Bu qərar dövlətimizin Vətən şəhidlərinə, qazilərinə, qəhrəmancasına döyüşmüş hər bir əsgərinə ehtiramının təzahürü idi. Bu igidlərin siyahısında Sadiqin də adı var. O, 18 oktyabrda “Cəsur döyüşçü”, 25 dekabr tarixində isə “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edildi. Bu qərar sübut etdi ki, Vətən onu sevənləri, qoruyanları unutmur.

Bu gün bizim Vətənimiz azaddır, bütövdür. Döyüşə oğul göndərən analarımız bu gün xoşbəxtdir. Oğul həsrəti ilə yansalar da, bu qəm yükünü çiyinlərində daşısalar da, düşünürlər ki, Vətən bölünməzdir. Nişanlı qızlarımızın intizarlı gözləri hələ də yollardan yığılmır, ata gözləyən körpələr ovunmur, lakin biz bilirik ki, itirdiyimiz bu xəzinəyə rəğmən Vətənimizi, bütöv Azərbaycanımızı qazanmışıq.

*Samirə Məmmədova*

## Samir SƏMƏDZADƏ



"Dörd gülləm qalmışdı, üçünü düşmənə, birini isə özümə saxlamışdım".

Hamının şəhid bildiyi qazi: “Dörd gülləm qalmışdı, üçünü düşmənə, birini özümə saxlamışdım”. Bu sözləri “Qafqaz-info”ya iki gün təmas xəttində yaralı vəziyyətdə qalan qazimiz Samir Səmədzadə deyib. Qax rayonunun Turaclı kəndində anadan olan 21 yaşlı Samir Səmədzadə 29 sentyabrda cəbhəyə yollanıb.

Samir elə müharibənin ilk günlərindən silahdaşları ilə birlikdə döyüşə atılıb. O, noyabrın 8-də Şuşa istiqamətində gedən döyüşlərdə ayağından yaralanıb.

Samir həmin anı belə xatırlayır: “Dostum yaralı idi. Onu çıxaranda ayağımdan vuruldum. Onun yarası yüngül idi. Mən isə özümdən getmişdim. Ayıldım ki, çox qan itirmişəm. Ayağımı bağladım, qan bir az azaldı. Hamı elə bildi ki, şəhid olmuşam. Bir qardaşımız da qolundan yaralanmışdı. O, gecə ayılıb məni vurulan düşmən maşınının içinə saldı. Onun da taqəti qalmamışdı. Ayın 8-i səhərə kimi orada qaldım. İstəyirdim su içib, sonra şəhid olum. Ayın 10-u günortadan sonra bizimkilər gəlib şəhidləri götürəndə gördülər ki, sağam”.

Samir evlidir və bir qız övladı var.

*Jalə Mustafayeva*

## Seymur TAĞIYEV

Şuşa fatehlərindən biri. Bu igid oğlan Seymur Tağıyevdir. Hərbirütbəsi zabitdir.Müharibə başlayandan bir neçə gün sonra səfərbərlikdən çağırılıb və birbaşa cəbhə bölgəsinə göndərilib. Seymur Tağıyev Gəncədə doğulub, boya-başa çatıb. Ali təhsilini də burada alıb. Ömründə Şuşanı görməyib. Məşhəd ziyarətində, Kərbəla ziyarətində olan bu inanclı oğlan müharibəyə yollananda dedim ki, ay oğul, üç qızın var, o uşaqları qoyub hara gedirsən? “Vətən dardadır, bizə ehtiyacı var, bəs kim getsin? Allahın köməyi ilə qələbə bizim olar”, – dedi. Üzərində zireh duası vardı. Müharibə başa çatdı, həm də bizim qələbəmizlə. Seymur qələbə günü zəng elədi ki, “xalacan, daha narahat olmayın, hər şey bizim xeyrimizədir. Mən ilk dəfə Şuşaya ayaq basanda elə sandım ki, Kərbəladayam, yəni o qədər müqəddəs torpaqdır. İnşallah dönəndən sonra bizim əsgərlərimizin Şuşada göstərdikləri sücaətdən danışacağam. İndi telefon söhbəti deyil...”. Allahın bu gününə min şükürlər olsun ki, Seymur kimi oğullarımız Zəfər paradını görməyi bizə nəsib etdilər. Seymurla ətraflı söhbəti, inşallah evinə dönəndən sonra yazacağam. Yəni cəbhə xatirələrini.



**P.S.** Seymur rəhmətlik bacımın oğludur. Dekabrın 28-də 40 yaşı tamam olur. Qürur duyuruq, səninlə Seymur Tağıyev! Zəfər gününüz, zəfər paradınız mübarək olsun.!

*Şəmsiyyə Kərimova*

## Seymur ATİLLA

Bura Laçının ən yüksəklikdə yürləşən kəndlərindən biridir. Laçının bir neçə adsız yüksəkliyi, hansı ki ermənilərin post qurduğu əsas yüksəklik və həmçinin Qaragöl bizim nəzarətimizə keçdi. Heç bir döyüş və müqavimət olmadı. Sadəcə taktiki gedişlə arxalarındakı yüksəklikləri götürdük məcbur olub çıxdılar. Çünki faktiki muhasirəyə düşmüş oldular.





*Bir əsgərin qeydlərindən:*



Bura mənim balaca evimdi. 10 il Bakıda kirayədə qaldım ayın axırı olmadan ev sahibi gəlib zəhləmi tökürdü. Heyif deyil Vətən torpağı. Nə yer pulu istəyir, nə qaz pulu, nə də ki, su pulu.

Adamı ağuşuna elə alır ki, nə soyuq hiss edirsən, nə də kirayə dərdin var.

Ən gözəl qoxu torpaq qoxusudur.- Əsgər Marşının bütün sətirlərini yaşamış oldum. Bizimki elə bu qara torpaqdı.

## Səbuhi HÜSEYNLİ



*Yaralı əsgər anasından xalqa müraciət:* Oğlum Hüseynli Səbuhi oktyabr ayının 27-si Xankəndi istiqamətində qəhramancasına döyüşüb və başından qəlpə yarası alıb. Hal-hazırda Əhmədlidə nevro-cərrahiyədə müalicə alır. Vəziyyəti ağırdır və komadadır və sağalması sadəcə möcüzə ola bilər. Sizlərdən tək istəyim balam üçün çoxlu dua edin.



Xankəndində döyüşlər zamanı yaralanan kəşfiyyatçımız Səbuhi Hüseynlinin vəziyyəti ağırdır. Çətin əməliyyat keçirən 23 yaşlı qazimiz hazırda koma vəziyyətindədir.Başından güllə yarası alan qazimiz Səbuhi Hüseynli 50 günə yaxındır ki, yaşamaq uğrunda mübarizə aparır. Vətən Müharibəsinin ilk günündən Ağdam, sonradan isə Füzuli istiqamətlərində döyüşlərdə iştirak edib. Son olaraq isə Xankəndi yaxınlığındakı döyüşlərdə başından güllə yarası alıb. Başına sol gicgah nahiyəsindən güllə girib və sol beyninin bir hissəsini dağıdıb. Hətta güllə beyin kökünün 7 millimetr yaxınlığında olub. Beynindən gülləni çıxarmaq üçün 8 saat əməliyyat aparıldı. Qazimizin anasından başqa heç kimi yoxdur. Səbuhinin xilas olması üçün çoxlu dualar edək. Bir ocaq daha sönməsin, bir can daha getməsin. Amin!

## Səməd, Elnur, Kamran və Afiq HÜSEYNOV QARDAŞLAR

*Qazilərimiz bizim fəxrimizdir!* 4 qardaş 44 günlük döyüşlərdə II Qarabağ Müharibəsində işğalçı düşmənə qarşı döyüşərək torpaqlarımızın azad edilməsində onların da böyük rolu olub. Azərbaycan Ordusunda xidmət edən hərbçi 4 qardaşdan gedir. Tovuz rayonundan olan Səməd, Elnur və Kamran Hüseynov qardaşları sentyabrın 27-dən başlayan döyüşlərdə fəallıq nümayiş etdiriblər. Onlardan üçü ixtisaslı zabit, biri müddətdən artıq hərbi xidmət edən (MAXE) kimi Vətən müharibəsinə qatılıb. Səməd, Elnur və Kamran Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbini bitiriblər. Onlardan ikisi hərbi təyyarəçi, Elnur isə hava hücumundan müdafiə üzrə mütəxəsisdir. Afiq isə MAXE-dir. Onların atası Mahir Hüseynov da Birinci Qarabağ döyüşlərinin fəaliştirakçısı olub, müharibə veteranı, ehtiyatda olan leytenantdır. Tovuz rayonunda Hüseynovlar ailəsinin dörd oğlu 44 günlük Vətən müharibəsində ön cəbhədə vuruşub. Onlar rayonun Dondar Quşçu kəndindən olan dörd qardaş – Səməd, Afiq, Elnur və Kamran Hüseynovlardır. Qardaşlardan üçü zabit, biri isə müddətdən artıq xidmət edən hərbçidir. “Oğlanlarım vətən uğrunda döyüşüblər, öz borclarını yerinə yetiriblər. Onlardan 3-ü zabit, 1-i isə MAXE-dir. Böyük oğlum Səməd Cəmşid Naxçıvanski adına hərbi liseydə təhsil alıb. Sonra Azərbaycan



Ali Hərbi Təyyarəçilik Məktəbində təhsilini davam etdirib, mayordur. İkinci oğlum Afiq MAXE-dir, 2014-cü ildən artilleriya sürücüsüdür. Üçüncü oğlum Elnur da əvvəlcə Cəmşid Naxçıvanski adına hərbi liseyi, sonra isə Ali Hərbi Təyyarəçilik Məktəbini bitirib. Döyüşlərə düşmən təyyarələrinin havada məhv edilməsində onun da xidmətləri



var, mayordur. Ən kiçik oğlum Kamran da qardaşları kimi Cəmşid Naxçıvanski adına hərbi liseyi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbini bitirib, leyte-nantdır. Hazırda helikopter pilotudur”. Mahir Hüseynovun sözlərinə görə, o özü 90-cı illərdə yaradılan Tovuz Batalyonunun üzvü olub. Oğullarının hərbçi kimi yetişməsində əsas rolu ata oynayıb: “Sovet ordusundan 3-cü qrup əlil kimi qayıtmışdım. Müharibə başlayanda könüllü olaraq başıma dəstə yığdım. Oğullarım da məni görüb hərbçi olublar. Bir ata kimi çox sevinirəm ki, Azərbaycanıma, xalqıma belə oğullar vermişəm. Bu oğullar təkcə mənim yox, Azərbaycan xalqının övladlarıdır. Fəxr edirəm ki, bir ailədən ata ilə birlikdə 5 hərbçi yetişib. Oğullarım hər dəfə evimizə gələndə onlara deyirdim ki, “ancaq irəli gedin! Əzin düşməni, atanıza oxşayın!”. Onların hər bir

işi bu 44 gündə mənim gözümün qabağında olub. Mən istədiyim kimi oğul olublar, zəhərli ilanların başını əziblər. Düşməni torpaqlarımızdan çıxarıblar". M.Hüseynov deyir ki, yaşı imkan versəydi, yenə də ordu sıralarına qatılardı: "İndi bu qələbəmizə görə hərbçi yoldaşlara paxıllığım tutur. Fikirləşirəm ki, niyə mən də döyüşlərdə iştirak edə bilmədim?! Gərək mən də döyüşəydim. Mən oğullarıma həmişə uğurlu yol arzulamışam. Doğrudur, ata kimi narahat olurdum. Amma özümə borc bilirdim ki, hərbi hissələrə baş çəkim".

*Gülnar Səma*



## SƏNİN TƏBRİKİNƏ GƏLMİŞİK, ŞUŞA!

*İgidlər cəbhədə göstərdi hünər,*
*Hər kəsin şuarı qələbə, zəfər,*
*Sərkərdə tədbirli, ordu müzəffər,*
*Düşmənin bağrını dəlmişik, Şuşa!*
*Sənin təbrikinə gəlmişik,Şuşa!*

*Daraşmışdı canına bit, birələr,*
*Çəkmək üçün saf bətnindən şirələr,*
*Silkələndin duruş gətirmədilər.*
*Nə tükənib, nə də ölmüşük, Şuşa!*
*Sənin təbrikinə gəlmişik, Şuşa!*

*Sənsiz ağı deyib hər bir anımız,*
*Mərd dayandıq tökülsə də qanımız,*
*Indi bəxtiyardı hər məkanımız,*
*Səni qeyrətimiz bilmişik, Şuşa!*
*Sənin təbrikinə gəlmişik, Şuşa!*

*Xar olub, düşmənin qırılıb beli,*
*Oyanır bağların xarı bülbülü,*
*Iyirmi səkkiz illik bir niskili,*
*Artıq ürəklərdən  silmişik, Şuşa!*
*Sənin təbrikinə gəlmişik, Şuşa!*
***Akif Elşir***




## Aynurə HİDAYƏTQIZI



*2010-cu ildə könüllü olaraq orduya yazılan, 2-ci Qarabağ müharibəsində özəl klinikada işini dondurub cəbhəyə gedən və müharibə bitdikdən sonra da qayırtmayıb uzun müddət yaralı əsgərlərə kömək edən Azərbaycan həkimi Aynurə Hidayətqızı ilə fəxr edirik.*

## SÖZSÜZ:

Müharibə zamanı hər iki qolunu itirmiş 20 yaşlı gənc və onun şirin çayını qarışdıran ata. Bu mənzərəyə pəncərə önündən pərişan halda baxan ana. Bu qazilərə nə etsək, haqqı ödənməz heç birinin!

*Aynur İbrahimova:*



## SÖZSÜZ:

Ürəyinizə qurban olum!
Sizi elə də anlayıram, belə də!

*Elman Tovuz*







## SÖZSÜZ

Bu soyuqda, boranda bizi qoruyan əsgərlərimizi Allah saxlasın! Amin!

# Simnar MƏMMƏDOV






Əslən Göycənin Zod kəndindən olan Qədim kişinin oğlu Simnar Məmmədov 1994-cü ildə 24 fevralında anadan olub. Simnar II Qarabağ Vətən muharibəsi başlayan gündən döyüş bölgələrində igidliyi ilə ad-san çıxarıb.

İnşallah sağlıqla ailəsinə qovuşar.

*Qaratel Quliyeva*





## SÖZSÜZ



Əsgərin qeydi: “Cəbhədə döyüşdən sonra şeir oxuyurduq”.

*Kirpiyimlə ötürmüşdüm mən odu,*
*Onu gördüm yenə qəlbim oddandı.*
*Yanan görüb, gülüb, deyib: bu odu!-*
*Ona deyin, bir eşq adlı oddandı.*

*Ta onu sev, sevməyirəm, sev, gidi...*
*Mən sevdiyim qəlbimdəki sevgidi…*
*Kimdə qaldı, kimə qaldı sevgi, di?!.*
*Sinəmdəki ürək deyil – oddandı.*

*Mən odlandım, o nə susdu, nə dindi,*
*Ürəksizlik, sevgisizlik nə dindi?!.*
*Deyir, sevgi nə dinsizlik, nə dindi,*
*Odlanmayan ürəkləri od dandı…*

*Əkbər Qoşalı*



## Şahkərəm HEYDƏROV



II Qarabağ Müharibəsinin iştirakçısı Şahkərəm Heydərov 14 noyabr 1999-cı ildə anadan olub. Şamaxının Məlhəm kəndindən Heydərov Şahkərəm Şaiq oğlu 2004-cü ildə 1-ci sinifə gedib. 2015-ci ildəhərbi xidmətdə olub. 2016-cı ildə əsgərlikdən qayıdan Şahkərəm hərbiyə hazırlaşırdı. 2020-ci il, 27 sentyabr tarixində müharibə başladı və o, könülü olaraq 2-ci Vətən Müharibəsinə yollandı. Çox yerdə döyüşüblər, indi də Zəngilanda xidmət göstərir.

Ailədə 2 uşaqdırlar – 1 bacı 1 qardaş. Ailənin böyük övladı olan Şahkərəm vətənə, doğma yurda qəlbən bağlıdır. Xidmətini başa vurub gələndən sonra hərbçi olmaq üçün təhsilini davam etdirəcək. İnşallah!

## Teymur BAĞIROV



Kalvayi əminin qızı Nəzaninin oğlu Bağırov Teymur Durar oğlu Şuşada Cəbrayılda, Füzulidə döyüş meydanında olub. 2 övladı var.

*Həqiqət B.*

## Taleh ƏLİYEV

Vətən Müharibəsində vətənə sədaqətini öz qüsursuz döyüş yolu ilə təsdiqləyən, qəhrəmanlığı, fədakarlığı ilə sınaqdan çıxan, Vətənə olan borcunu layiqincə yerinə yetirən Vətən oğullarından, tanımadığımız, lakin xalqımızın tanımalı olduğu qəhrəmanlarımızdan biri də peşəkar zabit, "N" saylı hərbi hissənin artilleriya rəisi, polkovnik leytenant, Vətən Müharibəsi qazisini, qəhrəmanını – Taleh Zaman oğlu Əliyevi siz də tanıyın!



"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyevin bacısı oğlu peşəkar zabit, polkovnik leytenant Əliyev Taleh Zaman oğlu Vətən müharibəsində erməni snayperinin gülləsindən başından ciddi xəsarət alıb və hazırda T.Əliyev müalicəsini davam etdirir. T.Əliyev Füzuli, Şuşa uğurunda gedən qanlı savaşda ön cəbhədə iştirak edib, başından xəsarət almasına baxmayaraq sona qədər döyüşməyi davam etdirib. Onu da bildirək ki, düşmən snayperindən atılan güllə qəhrəmanımızın dəbilqəsini deşib keçib, onu ölümdən dəbilqə xilas edib. Əgər başında dəbilqə olmasaydı, T.Əliyevin xilas olması mümkün deyildi. Hazır o, düşmən snayperindən deşilən dəbilqəsini saxlayır. 27 oktyabrda Hadrud, Tuğ, Daşaltı Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmanlığı ilə fərqlənən T.Əliyev noyabrın 4-də Daşaltınının azad olunmasında iştirak edib, noyabrın 5-i Şuşa-Lacın yolunun bağlanması tapşırığı yerinə yetirərkən yaralanıb, lakin ayın 7-də yenidən döyüşlərə qatılıb və öz bölmələrini bacarıqla idarə etməyə başlayıb, öz cəbhə yoldaşlarının sıralarına qayıdıtdıqdan sonra Şuşa-Xan-

kəndi yolunun baglanmasında iştirak edib. Qeyd edək ki, 1996-2000-ci illərdə Bakı Ali Birləşmiş Komandirlər məktəbini bitirib, Türkiyədə komta kurmay və karargah subayı kurslarını və Azərbaycanda Ali Hərbi Akademiyanın taktiki və əməliyyat kurslarını bitirən zabitimizə, Vətən müharibəsi qazisinə, qəhrəmanımıza Allahdan şəfa diləyirik və tezliklə sağalıb öz müqəddəs işinin başına qayıtmasını diləyirik.

*İradə Sarıyeva*

Tamara Muradova Vətən müharibəsində rabitəçi vəzifəsində çalışıb. Allah sağlıqlı ömür versin..







## Teyyub BAYRAMOV



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

*“Qarabağ” ordeni ilə*

Bayramov Teyyub Nurəli oğlu – polkovnik-leytenant

**İlham ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 9 dekabr 2020-ci il.*

Gözümüz aydın olsun! Məhəmməd Bayramlı, Nazilə Bayramova, Ceyhun Bayramlı və cəmi Bayramovlar ailəsi. Çox alqışa layiq bir təltif. 2-ci Vətən müharibəsi zaman fədakar

döyüşçümüz, qəhrəmanımız polkovnik-leytenant Teyyub Nurəli oğlu Bayramova "Qarabağ" ordeni ilə təltif olundu. Təbriklər!

*Həqiqət B.*



Sağ ol, əmioğlu. Babamın arzularını çin etdin. Nəslimizə başucalığı gətirdin. Bu Vətənin parçalarını bir araya toplayıb düşməndən geri almaqda sənin də danılmaz payın var. Sevincimin həddi-hüdudu yoxdur. Dünən gecə Göyçədəki baba ocağımız yuxuma girmişdi. İnşallah Göyçənin o üzündən sərhəd məftillərini çəkəcəyinə də inanıram. Səninlə fəxr edirəm, Teyyub. Yaşasın sənin kimi oğulları yetişdirən Azərbaycanımız!

Teyyub Bayramov müstəqil Azərbaycanımızın NATO sistemi üzrə yetişdirdiyi bacarıqlı və peşəkar Ordu zabitlərimizdəndir. Vətənin qorunması yolunda gördüyü işləri heç zaman reklam etməyib. Bütün savaş boyu ailəsindən və yaxınlarından kimsə haralarda olduğunu bilmirdi, sonradan öyrəndik ki, harda od-alov varsa, Teyyub orda imiş. Ən qızğın döyüşlər olan yerlərdə. Əvvəldən sona kimi tam bir döyüş yolu. Allah bu torpağın onun kimi oğullarına daim yar olsun!

*Ceyhun Bayramlı*

## Toğrul SƏFƏRLİ



İgidim, Toğrulum, qəhrəmanım. Qala fatehi. Qardaşım Zəfərin zəfərlər qazanan tək oğlu, pələng oğlu. Zəfər günün mübarək, İgidim! Bayraqlarımız daima yüksək olsun!

*Faiq Balabəyli*



# Tərlan HƏSƏNOV



Yanınıza qumbara atılsa və sadəcə bir neçə saniyə vaxtınız olsa, yaşamağı, yoxsa yaşatmağı seçərdiniz? O, öz canı bahasına da olsa, yaşatmağı seçdi və özünü qumbaranın üstünə atdı. Atdı ki, yanında olan 10-a yaxın döyüş yoldaşı şəhid olmasın. O, şir ürəkli, böyük iradəli vətən oğlu Tərlan Həsənovdur. O, döyüş yoldaşlarını xilas etmək üçün özünü qumbaranın üstünə atıb. Elə bu hərəkətinə görə döyüş yoldaşları Şəkinin Baş Zəyzid kəndində anadan olan 23 yaşlı Tərlan Həsənovu "Qumbara Tərlan" adlandırırlar. Çünki o, 10-a yaxın əsgər yoldaşı şəhid olmasın deyə düşmənin səngərə atdığı qumbaranın üstünə uzanaraq onların həyatını xilas edib. Qərar vermək üçün sadəcə bir neçə saniyəsinin olduğunu deyən Tərlan ya özü ilə birgə hər kəsi təhlükəyə atmalı, ya da ki özünü fəda edərək döyüş yoldaşlarını xilas etməli idi. Və o, ikinci yolu seçib.

Həmin an yanında olan döyüş yoldaşları Tərlanın daha çox xəsarət almaması üçün dərhal onun ayaqlarının üstünə oturaraq başını yuxarıya doğru qaldırıblar ki qəlpə onun üzünə girməsin. Partlayışdan sonra Tərlan saatlarla huşsuz vəziyyətdə qalıb. Hamı onun şəhid olduğunu düşünüb. Xoşbəxtlikdən bronjilet və sinəsində olan rabitə aparatı onu ölümdən xilas edib.

Tərlan bu qəhrəmanlığına görə "Fəxri fərman"la təltif olunub. Atası Rafiq Həsənov əlil olduğu üçün ailəni çətinliklə

dolandırsa da, oğlunun ali təhsil alması üçün şərait yaratdığını və övladlarına həmişə vətənpərvərliyi aşıladığını deyir. Tərlanın anası deyir ki, oğlunun çəkisi və gözlərində problem olduğu üçün hərbi komissiya onu xidmətdən azad etmək istəyib, lakin o, könüllü olaraq hərbi xidmətə gedib və döyüşlərə qatılıb.

"Bir şəhid olanda min dirilirik", – deyir Tərlan. Sənə və sənin kimi qorxmaz oğullara minnətdarıq. Var ol, Vətənimizin igid oğlu!

## Ticarət İBRAHİMOV





Qızıl yataqları deyə ad-san qazanmış Zod kəndinin sakini Yusif bətin oğlu İbrahimov Ticarət 1997-ci ilin 29 yanvarında anadan olub. Murov dağında döyüş bölgəsində olmuş və ayağından yaralanmışdır. Ayağının bir necə yerində qəlpələr var. Yaralı olmasına baxmayaraq, hələ də cəbhədədir. Allah qorusun.

*Qaratel Quliyeva*

**Təmkin**
**ALLAHVERDİYEV**



## Ülvi SÜLEYMANOV



Ülvi Elman oğlu Süleymanov (2001) Tovuz bölgəsində hərbi xidmətdədir.

## Uğur MƏMMƏDOV



Bu oğlan çox sevdiyim qonşumun oğlu Uğur baladır. O, Şuşa uğrunda döyüşlərdə qəhrəmancasınadöyüşüb, sağ ayağını itirib. İndi hospitalda müalicə alır. Gəlin, dua edək ki, tezliklə sağalıb evinə dönsün.

*Şölə Zakir*

## Toğrul ƏNSƏRLİ



Ənsərli Toğrul Mirzə oğlu 1994-cü ildə Bakıda anadan olub. 2012-ci ildə 96 saylı məktəbi bitirib. 2012-2016-cı illərdə Bakı İslam Universitetində təhsil alıb. 2017-ci ildə Aprel ayında hərbi xidmətə yollanıb. Füzuli rayonunda ön xəttdə hərbi xidmət keçib. 2018-ci il aprel ayında tərxis olunub.

2020-ci il sentyabr ayının 27-si könüllü olaraq müharibəyə yola düşmüş, Füzuli, Cəbrayıl, Zəngilan uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

*Həqiqət B.*



*Nur sacırsan hər yana*
*Azadlığın nəğməsi.*
*Yol acırsan sabaha*
*Azadlığın nəğməsi.*
*Hamı şəndir, xoşbəxtdir,*
*Bu dovran nə qəşəngdir.*
*Qəhrəman bir şəhərdir,*
*Azadlığın nəğməsi.*
*Saysız duşmən məhv elədin,*
*Xalqa xoşbəxtlik gətirdin.*
*"Sağ ol" sədası eşitdin,*
*Azadlığın nəğməsi.*

## Vaqif ƏLİZADƏ

Əlizadə Vaqif Azər oğlu 1989-cu il may ayının 31-də Daşkəsən şəhərində anadan olub 21 sentyabr 2020-ci ildə hərbi hissədə təlimdə olub (Əslən Göyçə mahalının Kəsəmən kəndindəndir). 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayanda Vaqif də "torpaq bizimdir" deyərək könüllü olaraq torpaqlarımızı işğaldan azad etmək üçün döyüşə yollanır. Vaqif Füzuli, Cəbrayıl, Hadrut və Şuşa döyüşlərində iştirak edib. 44 gün ərzində igid, mərd, müzəffər ordumuzun qazandığı qələbəmiz nəticəsində Ali Baş Komandan İlham Əliyev cənablarının sərəncamında evin tək oğulları, 3 və ya daha çox körpə uşağı olan ataların təxliyə olunması haqqında verdiyi qərara əsasən, həm evin tək oğlu, həm də 3 uşaq atası olduğuna görə qələbəmizdən Vaqif döyüşdən təxliyə olundu. Hazırda evlərindədir.





Vaqif Əlizadə Azər oğlu! Vaqif Sarıtelin və Əliyev Orucun oğlu Azərin və İsfəndiyar müəllim ilə Gülsüm bibinin qızı Dürdanənin oğludur.

*Həqiqət B.*

# Vasif və Rasif
# ALIYEV QARDAŞLARI



Atama məktub.

Salam, ata. Necəsən? Mən yaxşıyam. Biz evdə isti otaqdayıq, amma siz soyuq çadırlardasız. Mən ona görə də pis oluram. Sən vətənimiz uğrunda döyüşürsən. Bilirəmki gələcəksən. Mən sənin dediyini edərəm, dərslərimi yaxşı oxuyaram. Amma inşallah tez gələrsiz. Mən səni çox sevirəm.

İmza: Oğlun, Murad.
İmza:

Müharibə davam edir. Usaqlarım hələ dönməyiblər... Muradikim atasına məktub göndərib, onu çox sevdiyini, çox darıxdığını yazıb. Lənətə gəlsin müharibələri. Ata yolu gözləyən uşaqların ürəyı bir tikə olub. Şəhid övladları paramparçadırlar. Dönün, oğullarım. Gözümüzü yollardan çəkin.

## "SAĞ-SALAMAT DÖNSÜNLƏR, ONLARIN AYAĞI DƏYƏN TORPAQLARI ÖPƏCƏM"



"Qardaşım döyüşə gedibsə, mən də gedəcəm. O harada, mən də orada". Alıyev Vasif və Rasif qardaşları Vətən Müharibəsi başlayan kimi könüllü olaraq döyüşə yollanıblar. Torpaqlarımızın alınmasında, Azərbaycana qələbə sevincini yaşadanların arasında onların da adı var. Azərbaycanın Ordu sıralarında təmsil olunan bu igidlər hazırda da Vətənin keşiyindədirlər.

"Yeni Müsavat"a onlar haqqında qürurla bəhs edən, hərbçilərin anası (bibisi), tanınmış jurnalist Züleyxa Nadir bunu deyib.

Vasifə kiçik yaşlarından analıq etdiyini deyən jurnalist onun qayıdacağı günü səbirsizliklə gözləyir:

“Vasiflə Rasifin atası onlar hələ uşaq ikən rəhmətə gedib. Məndən böyük olan qardaşımın övladlarıdır. Vasif ilk olduğuna görə onu hamıdan çox istəyirdim. O anadan olanda gənc idim, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini yeni bitirmişdim. Özümüz Tovuz rayonundanıq. Universiteti bitirdikdən sonra məni təyinatla Tovuzda işləməyə göndərdilər. Vasifə görə mən ailə qurmurdum, çox deyirdilər ailə qur, deyirdim yox, mənim oğlum var. Bəlkə də ona görə mən gec ailə qurdum.

Vasifi böyütdüm, məktəbə getdi, əsgərliyə yola saldım. Sonra hərbi sahəyə yönəldi, indi gizirdir. Özümün də bir oğlum var. Amma Vasifi ondan çox istəyirəm. O mənim ilkimdir, ona görə. Müharibənin ilk günündən Vasif getdi, kiçik qardaşı gördü böyük qardaşı gedib, dedi ki, mən də getməliyəm, qardaşım harda mən də orda. Düz bir həftə Hərbi Kommisarlığa getdi, gəldi. Nəhayət könüllü olaraq döyüşə yollandı. Hər iki qardaş hazırda oradadılar, dönməyiblər...”.

Gözü yolda qalan ananın bir arzusu var:

“Onlar müharibəyə gedəndə özümə söz vermişdim ki, uşaqlarım döyüşsün, sağ-salamat dönsünlər onların ayağı dəyən torpaqları öpəcəm. Vasif indi Qubadlıdadır, Rasifsə Şuşada. O gün danışanda deyirəm ki, Rasif, ayağınız dəyən yerləri öpəcəm. Deyir mama, Füzulidən Laçına qədər ayaq izlərim çoxdur. Dedim, hamısını öpəcəm. Hər bir azərbaycanlı anası kimi necə qürurlanıram, necə fəxr edirəm. Mən özümü döyüşçü anası sayıram, bətnimdə gəzdirməsəm belə. Övladlarımla fəxr edirəm. Vasif olduqca nizam-intizamlıdır. Rasif qoçaqdır. Hər ikisi tankçıdırlar. Vasif Azərbaycan Ordusuna xidmət edir, Təlim Tədris Mərkəzində işləyir. Müharibədən sonra Rasif də qardaşı kimi hərbi sahədə xidmətini davam etdirmək istəyir. Döyüşün ilk vaxt-larında Rasif ermənilərdən qalan tankları təmir edirmiş, həmin tankları da döyüşə göndərirdilər. Amma o, narazılığını bildirib. Döyüşmək istədiyini deyib və döyüşlərə

qatılıb. Rasif çox qoçaqdır. Havalar xoş olanda Vasifdən soruşurdum, harda yatırsız? “Əsgər harda yatmalıdı, yastığımız daşdır, yorğanımız da buludlar. Səngərdə yatırıq”, – deyirdi. Heç biri şəhidlikdən qorxmur. “Biz hamımız bura gələndə döyüşməyə gəlmişik, şəhid olmağı da alnımıza yazmışıq. Şəhid olmaqdan qorxmaq yox, onun üstünə getməliyik”, - deyirlər. Onlarla necə fəxr etməmək olar. Biz bir zamanlar filmlərdə görürdük, indi realdır, oğullarımız vətən uğrunda şəhid olurlar. Öz oğullarımdan görürəm ki, şəhid olmaq onlar üçün fəxrdir, müqəddəs bir hissdir. Kövrək olduğunu deyən Züleyxa xanım 44 gün ərzində olmazın həyəcanlar keçirib: “Qardaşım 10 ildir ki, rəhmətə gedib, oğullarının bu gününü görmədi. Bu 44 gündə mənim göz yaşlarım qurumayıb. Hamısı sevinc göz yaşlarıdır. Şəhidlərə baxanda göz yaşlarına hakim ola bilmirsən. Amma bir qarış torpaq alınanda sevincimizin həddi-hüdudu olmurdu. 1-2 gün Vasif telefona cavab verməyəndə dəli olurdum, Rasifə zəng vurudum o da cavab vermirdi. İlahi nə hiss edirdim, bir Allah bilir. Uşaqlarımdan xəbər gəlməyəndə keçirdiyim hisslərlə, onları itirmək qorxusu ilə bərabər bir qürur hissi həmişə məni müşaiyət edib. Hər bir əsgər bizim üçün doğmadır, amma qanı qanımdan olan Vasiflə Rasif mənim üçün artıq müqəddəsdir, bir tabudurlar. Həsrətlə gözləyirəm ki, gəlsinlər. Öz-özümə ssenarilər də qurmuşam, gələndə belə deyəcəm, bunu edəcəm... Hər ikisinin iki oğlu var. Atası doyüşə gedəndə nəvəm Nihat demişdi ki, “Ata, 15, ya da 25 əsgər öldürüb gələrsən”. Dünən də telefonda danışarkən atasına tapşırıq verib ki, gələndə erməni bayrağı gətirməyi unutmasın. Əvvəlcə ayağının altına sərəcək,



sonra isə yandıracaq. İndi uşaqlar atalarının yolunu gözləyirlər...”. Jurnalist oğlu Məcidin də könüllü olaraq döyüşlərə yollanmaq istədiyini deyib: “Hətta Tovuzda döyüşlər başlayanda gedib könüllü yazılmışdı. Bilirdim qəbul etməyəcəklər. Oğlumun 3 yaşında həyat yoldaşım rəhmətə gedib, oğlumla mən hazırda ikimiz yaşayırıq. Hərbi Komisarlığa nə qədər getdisə, onu aparmadılar. Amma məndən də çox qürurludur, hər gün danışır qardaşları ilə. Deyir Vasiflə Rasifə paxıllığım tutur, Şuşaya qədər getdilər, mən kənarda qaldım”. Züleyxa xanımın sözlərinə görə, uşaqlarının vətənpərvər böyüməsi üçün əlindən gələni edib: “Uşaqlarım gözlərini açandan analarını yazı yazan, işləyən görüblər. Müharibə bitsə də, ürəyimin bir küncündə narahatlıq var, tam ordan gəlməyincə rahat ola bilmirəm”.

*Züleyxa Nadir*

## Vüqar ƏHMƏDOV



Vüqar Əhmədov Vəli oğlu Daxili qoşunlarında xidmət edir. Şuşanın azad edilməsində qəhrəmancasına xidmət göstərib, hal-hazırda Şuşadadır.

*Məhəmməd Əhmədov*

## Vəliəhd VƏLİYEV



Allahın möcüzələrindən biri də II Qarabağ müharibəsində Lənkəranlı dostumuz Şakir müəllimin başına gəlib. 28 oktyabr tarixində SQ zabiti ailənin tək övladı olan Vəliyev Vəliəhd Şakir oğlu Zəngilan istiqamətində Şəhid olduğu xəbəri gəldi və Lənkəran rayon sakinləri Şəhidimizi aparıb dəfn ediblər, yas məclisi qurublar.

8 dekabrda qırx mərasiminə hazırlaşan Vəliəhdin valideynlərinə oğlunun yaralı olub, huşsuz halda əsir düşdüyü xəbərini aldılar. Dünən Lənkəranın Bala Şürük kənd sakini Vəliəhd Vəliyev Şakir oğlu ailəsinə zəng edərək salamat olduğunu bildirib. Komada imiş, ayılıb. Dünən əsir və girovların dəyişdirilməsi nəticəsində Bakıya gətirilən Vəliyev Vəliəhd Şakir oğlu sağ-salamatdır, hazırda karantinə alınıb.

Şakir müəllimə və ailəsinə övladının sağ-salamat olması münasibətilə göz aydınlığı verirəm. Allahım, şükürlər olsun!

*Qılman İman*

## Vüqar MEHDİYEV



Mehdiyev Vüqar Polad oğlu 18 avqust 1992-ci ildə Bakı şəhərində anadan olub. 1999-cu il 49 saylı intellekt liseyində 1-ci sinfə qədəm qoyub və 2010-cu ildə həmin liseyi bitirdikdən sonra Ali Məktəbə – Azərbaycan Respublikasının İqtisad Universitetinə daxil olub. 2014-cü ildə Universiteti bitirib həmin ilin oktyabr ayında hərbi xidmətə gedib. 2015-ci ildə hərbi xidmətini başa vurduqdan sonra Asan Xidmətdə könüllülər tərkibində isə başlayır. Həmin ərəfədə Dövlət qulluğundan imtahan verib yüksək nəticə əldə edir. Elə həmin vaxtda da Vüqarın işdəki savadına, davranışına, çalışqanlılığını, göstərdiyi fəallığını nəzərə alaraq Asan Xidmətdə Azərbaycan Respublikası Prezidentinin yanında xidmət və sosial innovasiyalar texnologiyası şöbəsinin aparıcı məsləhətçisi vəzifəsinə layiq görülür. 2020-ci ilin fevral ayında magistraturaya imtahan verərək yüksək nəticə ilə Azərbaycan Respublikası Prezidentinin yanında İdarəetmə Akademiyasının elektron idarəetmə fakültəsinin tələbəsi adını qazanır. Hal-hazırda magistr tələbəsidir. Əyani təhsil alır. 2020-ci il sentyabr ayının 27-də digər mərd oğullarımız kimi Vüqar da Vətənin işğaldan azad olunması üçün təhsilini və işini yarımçıq qoyub kö-nüllü olaraq hərbi hissəyə yazılır və 29 sentyabrda Vətənin müdafiəsinə döyüş bölgələrinə gedir. Vüqar Vətən torpaqlarında qəhrəmancasına vuruşur. Füzuli, Cəbrayıl, Hadrut və Şuşa döyüşlərində iştirak edir. 44 gün

ərzində qazanılmış Qələbəmiz nəticəsində ölkə başçımız, Ali Baş Komandamız cənab İlham Əliyevin sərəncamı ilə 6 dekabr 2020-ci il təxliyə olunaraq evə dönür. Hal-hazırda işini və təhsilini davam etdirir. Vüqarın atası Mehdiyev Polad Möhsüm oğlu 1992-ci ildə I Qarabağ Müharibəsi qazisidir. Vüqarin atası Polad Ağdam və Ağdərə döyüşlərində iştirak edib.

Mehdiyev Vüqar Polad oğlu Ələkbərov Həmidin qızı Təranənin oğlu və Mövsum nəvəsidir.

*Həqiqət B.*

## Vüsal HƏSƏNZADƏ



İgid atanın igid oğlu.Vasif müəllim özü I Qarabağ müharibəsində şərəfli döyüş yolu keçmişdir. Dünyaya gəlişinə neçə qurbanlar kəsdiyi oğlu Həsənzadə Vüsal İnstitutu bitirib əsgərliyini çəkib Gəncə şəhərində artıq işə başlamışdı. Musayev Həsən müəllimin nəvəsi Həsənzadə Vüsal Vasif oğlu da döyüşlər başlayanda könüllü olaraq atası kimi vətən uğrunda mübarizəyə getdi. Şərəfli döyüş yolu keçdi. Hal hazırda cəbhə bölgəsindədi. Göyçənin – Kəsəmənin igid oğlu. Sağ-salamat qayıtsın inşallah.

*Sevil Qurbanova*

## MEHMETCİK GƏLİR

*Bu şanlı günlərdə, zəfər ilində,*
*Yarpaqlar solmasın şimal yelində.*
*Lalələr açacaq Gəncə çölündə,*
*Alqışlar bu günə, mehmetcik gəlir.*

*Ayağı altında halalca torpaq,*
*Başının üstündə hilallı bayraq,*
*Bir dəfə gəlmişdi düz yüz il qabaq,*
*Yüz il sonra yenə mehmetcik gəlir.*

*Diləklər dil açır, çönür xəyallar,*
*Kinli ürəklərdə sönür xəyallar.*
*Dönür həqiqətə, dönür xəyallar;*
*Ruh kimi bədənə mehmetcik gəlir.*

*Xanın axşamüstü xoş səsi gəldi,*
*Könlümə yaşamaq həvəsi gəldi.*
*Şuşadan qələbə müjdəsi gəldi,-*
*Bu səsə, bu ünə mehmetcik gəlir.*

*Dikəldir belini qoca qarılar,*
*Namərdə, nakəsə dünya dar olar.*
*Qorxudan yağının bağlı yarılar;*
*Bürünüb kəfənə mehmetcik gəlir.*

*Son verək ağrıya, son verək aha,*
*Ümidlə, inamla baxaq sabaha.*
*Nöqtələr, nidalar yığışsın daha,*
*Son sözün yerinə mehmetcik gəlir.*

*Zəki Bayram*

## Vüsal KAZIMOV



“Qarabağı ana qucağında tərk edən körpələr böyüyərək 28 ildən sonra torpaqlarımızı düşməndən azad etdilər”. Bu ifadəni son zamanlar tez-tez eşidirik. Doğrudan da belədir. Ötən il sentyabrın 27-də başlayan Vətən müharibəsinin əksər iştirakçıları 90-cı illərdə doğulan uşaqlar idi. Onlardan biri də Kəlbəcər rayonundan məcburi köçkün, hazırda Gəncə şəhərindəki 2 nömrəli poliklinikanın uşaq həkimi işləyən Vüsal Kazımovdur.

Kazımov Vüsal Allahverdi oğlu 1990-cı ildə Kəlbəcər rayonunun Başlıbel kəndində anadan olub. Vüsalın 3 yaşı olanda doğma yurdu Kəlbəcər düşmən işğalına məruz qaldı. Ailənin ağsaqqalı, 93 yaşlı Ələsgər baba oğlu Allahverdiyə uşaqları da götürüb kəndi tərk etməyi məsləhət gördü. Allahverdi isə tərəddüd edərək ailənin bütün üzvləri – atası Ələsgər kişinin, qardaşı Ələkbər və onun uşaqları ilə birlikdə yola çıxmalarını təkid edirdi. Axşamdan belə qərara gəldilər ki, Allahverdi öz uşaqlarını götürüb qonşularla birlikdə yola düşsün, Ələkbər isə hələlik atası və uşaqları ilə bir qədər gözləsin. Vəziyyət gərginləşərsə, onlar da Murov yolu ilə Gəncəyə gələrlər.

1993-cü il aprelin 2-də Allahverdi və həyat yoldaşı Naibə övladları – 3 yaşlı Vüsalı və 8 aylıq Fərqanəni qucaqlarında götürərək piyada çətin və ağır bir səfərə çıxdılar. Allahverdinin əmisi oğlu Məhəmməd Tağıyev və başqaları da onlarla yol yoldaşı idilər. Başlıbeldən Kəlbəcərə gedən dağ yolunda qarlı “Ağcaqız” yaylağından piyada getmək yolçuları əldən salmışdı. Dağ yolunda Başlıbel kəndindən çıxan bir neçə ailələrlə birləşib yol yoldaşı oldular. Kəlbəcər şəhərini keçib Tərtər çayının kənarı ilə üzü Murova tərəf addım-addım irəliləyir, qarşıda isə

onları nələr gözlədiyindən xəbərsiz idilər. Nadirxanlı kəndinə çatanda qarşılarına üzü Kəlbəcərə tərəf gedən bir tank çıxdı. Tankla döngədə qəflətən qarşılaşmışdılar. Hərbi texnika ilə aralarında 20 metr məsafə olanda tank dayandı. Tankın üstündə hərbi geyimli bir neçə nəfər vardı. Otuz beş kilometrdən çox yolu piyada gəlib əldən düşmüş dəstə də dayandı. Dəstədəki adamların arasında nisbətən yaşlı olan Məhəmməd "Deyəsən, ermənilərdir", – deyə yanındakılara xəbərdarlıq edib. O, tankın üzərindəki hərbçilərin danışığını eşitmişdi. Bu zaman tankın üstündəki hərbçilərdən biri azərbaycanca "Qorxmayın, gəlin!", – dedi. Onun danışığından dərhal başa düşdülər ki, ermənilərdir. Məhəmməd ətrafı diqqətlə nəzərdən keçirdikdən sonra yalnız sol tərəfdəki sıldırımlı dağlara qaçmaqla canlarını qurtara biləcəklərini düşünürdü. Odur ki, pıçıltı ilə dəstədəkilərə "hərəniz uşaqlarınızın birini götürüb sol tərəfə, güneyə dırmaşın. O təpəni aşa bilsək, canımızı qurtara bilərik", – deyə söyləmişdi. Dəstədə uşaq çox idi, hər kəs bir uşaq götürüb soldakı sıldırım güneyə dırmaşdı. Tankın üstündəki hərbçi "Qayıdın, qayıdın!", – deyə bir neçə dəfə bağırdısa da, hamı qayalıq güneylə yuxarı dırmaşmaqda davam etdi. Bu zaman tankın yanından avtomatla atəş açdılar. Kolluq əraziyə çatdıqlarından atılan atəşlərdən yalnız Allahverdinin həyat yoldaşı – iki uşaq anası Naibə Kazımova ağır yaralandı. Artıq təpəni aşa bilmişdilər. Yara isti olduğundan Naibə təpəni öz gücü ilə aşa bildi. Ancaq daha yeriyə bilmirdi. O, həyat yoldaşı Allahverdiyə "Mən gedə bilməyəcəyəm, uşaqları da götür qaç. Ermənilər buraya çıxa bilməzlər. Uşaqları o tayda görünən kənddə qoyub qayıdarsan", – dedi. Başqa çarə yox idi, Allahverdi yaralı halda olan Naibəni bir kolun dibində uzadıb yola düşdülər. Murovun ətəyindəki Yanşaq kəndinə çatanda Allahverdi uşaqları əmisi oğlu Məhəmmədə tapşırıb geri qayıtdı. Yolda Azərbaycan əsgərləri onun qabağını

kəsdilər: "Getmək olmaz! Ermənilər Kəlbəcəri işğal edib". Allahverdi nə qədər yalvardısa da, onu yaralı vəziy-
yətdə geridə qalan həyat yoldaşının yanına qayıtmağa razı olmadılar.Allahverdinin qardaşı Ələkbər, atası Ələsgər kişi, ailə üzvləri, Başlıbel kəndinin 100-dək sakini mühasirədə qaldı. Onun həyat yoldaşı Kazımova Naibə Alzaman qızı isə yolda şəhid oldu. Həmin hadisə zamanı atasının fədakarlığı sayəsində xilas edilən 3 yaşlı Vüsal böyüdükcə bu faciə barədə daha çox eşidir, doğmalarının ağrılı-açılı söhbətlərinə qulaq asırdı. O, anasının ölümündə ermənilərin günahkar olması qənaətinə gəldiyindən uşaqlıqdan işğalçılara qarşı nifrət hissi ilə böyüdü.

2020-ci il sentyabr ayının 27-də Vətən müharibəsi başlayanda hərbi səfərbərli xidmətinə ilk müraciət edənlərdən biri də Vüsal oldu. "Sən həkim kimi arxa cəbhədə daha çox xeyir verə bilərsən", – deyib onu ön cəbhəyə aparmaq istəmirdilər. Bu səbəbdən də Vüsal Müdafiə Nazirliyinə zəng edib onu cəbhəyə göndərməyi xahiş etdi. Zəngdən bir gün sonra hərbi komissarlıqdan onu dəvət edirlər və cəbhəyə göndərirlər.

Laçın rayonunda xidmət edərkən qələbə sorağını eşitdi. Bütün əsgərlərimiz kimi Vüsalın da sevincinin həddi-hüdudu yox idi. Torpaqlarımızın düşmən tapdağı altındakı otuz illik əsirliyinə son qoyulmuş, bütün şəhidlərimizin, o cümlədən Kəlbəcər rayonunun Çovdar kəndində doğulmuş, qonşu Başlıbel kəndinə gəlin köçmüş, böyük bir elin xətir-hörmətini qazanmış Naibə Kazımovanın da qisası alınmışdı. Vüsalın qəlbində dərin kök atmış ağır bir yük 27 il 7 aydan sonra birdən-birə götürülmüşdü. Özünü çox gümrah hiss edirdi, "Şükür Allaha, anamın qisasını aldım", – deyə qəhər qarışıq qürurla az qalırdı ki, qanadlanıb doğulduğu Başlıbel kəndinə uçsun. Bir qədər sonra Vüsal Kazımov daha bir qürurlu günün sevincini ömürlük həyatına yazdı. "Laçının azad olunmasına görə" medalı ilə təltif olunmuşdu. İndi Vüsal ordudan tərxis

olunmuş, Gəncədəki sevimli peşəsini davam etdirməklə doğma Kəlbəcərə dönəcəyi günü səbirsizliklə gözləyir.

*Oktay Salahlı*

## Vüsal NƏSİBOV



27 sentyabr Azərbaycan xalqının unutmayacağı, 44 günlük müqəddəs Vətən müharibəsi, zəfər müharibəsinin tarixidir. İgid vətən oğullarının qəhrəmanlıq hekayələri hələ çox danışılacaq, çox dastanlar yazılacaq. Bu günki qəhrəmanımız Vətən müharibəsinin odundan alovundan keçmiş qazi Vüsal Qiyas oğlu Nəsibov haqqında məlumatdır (Şəmistan əminin nəvəsi). 1995-cı il 8 apreldə anadan olub. 2020-ci ilin 27 sentyabrından Vətən müharibəsində iştirak edib, BTR tankçı olub. Tərtər rayonunun Talış kəndi, Suqovuşanın alınmasında iştirak etmişdir. Sentyabrın 29-da qəlpə yaraları almşdır. Xəstəxanaya gətirmişlər sinəsindən və ayağından yaralanıb. O, ağır yara almasına baxmayaraq müalicə alır və yenidən cəbhəyə qayıdır. Ağdamda da xidmət etmişdir. Hal-hazırda yaralı olsa da, öz xidmətini davam etdirir.

*Həqiqət B.*

*Ağrıdağ, Murovdağ, dönüm başına,*
*Qanımız qarışmış hər qarışına.*
*Yallını qatarıq Mehtər marşına,*
*Bu toya, düyünə mehmetcik gəlir.*

*Zəki Bayram*

## Vüsal RƏHİMLİ



Tarixi ədalətin təmin edildiyi 44 günlük bir müddəti əhatə edən Vətən müharibəsi onun səhhətində dərin, ağır izlər qoysa da, igidimiz son damla qanını belə Anamız Vətən üçün əsirgəməyəcəyinə kişi sözü verib, övlad andı içib. Dünyada heç nə ilə əvəz olunmayan ilahi Vətən sevgisi onu alovlu cəbhələr qoynuna könüllü surətdə çəkib aparıb. Vətənin özü tək müqəddəs sayılan şanlı üçrəngli bayrağımızı əsir torpaqlarımızda ucaltmaq olub ən ali məramı, ən ümdə məqsədi. Ancaq heç bir qüvvə, heç bir maneə onu tutduğu şərəfli yolundan və uca məsləkindən döndərə bilməyib. Çünki onun qəlbindəVətən, torpaq, yurd sevgisi dünyada hər şeydən əzizdir, üstündür, ucadır, müqəddəsdir, əvəzedilməzdir

Şanlı qələbəmizdə payı, haqqı, əməyi olan qəhrəman qazilərimizdən biri də Rəhimli Vüsal Tağı oğludur. 1991-ci il dekabrın 12-də Lənkəran şəhərində anadan olub. 1998-ci ildə Lənkəran şəhər XDT – Xarici Dillər Təmayüllü Gimnaziyasına daxil olub. Həmin təhsil ocağını 2009-cu ildə müvəffəqiyyətlə başa vurub. 2010-2011-ci illərdə Naxçıvan Sərhəd Diviziyasının Culfa Komendantlığında baş atıcı kimi xidmət edib.

Vüsal olduqca zəhmətkeş bir ailədə böyüyüb, boya-başa çatıb. Ailədə iki qardaşdırlar. Vüsal bu zəhmətkeş ailənin ilk nübarıdır. Atası Tağı müəllim 2018-ci il sentyabrın 24-də haqq dünyasına köçüb. Bu gün Vüsalı doğulduğu Lənkəran torpağında hər kəs tərbiyəli, mərifətli, ağıllı, işgüzar, böyüyə, kiçiyə hörmət qoyan, sayılıb-seçilən bir gənc kimi, xüsusən də Vətənimizin düşmən tapdağından azad edilməsi uğrunda öz oğul bor-

cunu layiqincə yerinə yetirən qələbə qazimiz kimi tanıyır. Vüsal Rəhimli 2020-ci il sentyabrın 29-da Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda başlayan döyüşlərə könüllü surətdə yollanıb. Müharibəni əhatə edən ərazinin ilk nöqtəsindən Şuşanın Daşaltı kəndinə  kimi gedib çıxıb. Onun ilk döyüş yolu cəbhə boyu Beyləqan-Füzuli istiqamətindən başlayıb. Murovdağdan Füzuliyə kimi qızğın döyüş yolu keçib. Füzuli uğrunda gedən şiddətli döyüşlərin on birinci günündə düşmənə müqavimət göstərərkən güllə yarası alıb. Biləsuvar Mərkəzi Xəstəxanasında müalicə aldıqdan sonra  yenidən könüllü şəkildə cəbhəyə qayıdıb. Döyüşçü yoldaşlarıyla Şuşaya daxil olan zaman ikinci dəfə düşmən gülləsinə tuş gəlib. Atılan minomyot nəticəsində ayağından qəlpə yarası, beynindən ağır zədə almaqla yanaşı qulağının hər iki pərdəsi zədələnib. Bütün bu ağır zərbələr Vüsalın görmə qabiliyyətinə də mənfi  təsir edib. Hərbi  xəstəxanada müalicə alandan sonra növbəti döyüş tapşırığını yerinə yetirmək üçün Ağdamdan Xocavəndin Tuğ kəndinə tərəf ilk dəfə Xüsusi Təyinatlı dəstə ilə birgə yol alan əsgərlərdən biri də Vüsal olur. Xocavəndin Hadrut (Ağoğlan) qəsəbəsinin azad edilməsi uğrunda keçirilən ağır hərbi əməliyyatlar zamanı şücaətlə döyüşür. Beləliklə, Vətən müharibəsi müzəffər ordumuzun şanlı qələbəsi ilə başa çatandan sonra azad edilmiş ərazilərimizdə hərbçilərimiz tərəfindən müdafiə sistemi qurulmağa başlayır. Dekabrın 6-da Vüsal 3 döyüşçü yoldaşı ilə bərabər Xocavənd və Xankəndi istiqamətinə tərəf Qırmızı Bazar ərazisinə əsgərlərimiz üçün təminat dalınca yollanır. Ərazi qarlı olduğundan yol, iz aydın nəzərə çarpmır.Elə bu zaman yaxınlıqda mina partlayır. Nəticədə Vüsal üçüncü dəfə çox ağır yara alır.Silahlı Qüvvələrin Baş Klinik Hospitalı ortopediya şöbəsinə yerləşdirilən Vüsalın sağ ayağı dizdən aşağı amputasiya olunur. Qardaşı Ülvinin söylədiklərindən: “Vüsal xəstəxanada müalicə alırdı. Zəng vurub, halını soruşmaq istədim. Kefi yox idi. Soruşdum

ki, nə olub? Dedi ki, bilirsən, bizim dəstənin yaralı əsgərlərinin hamısı sağalıb cəbhəyə qayıdıblar. Təkcə mən qalmışam. Döyüşə vaxtında qayıda bilmədiyi üçün narahatçılıq hissləri keçirirdi. Hətta çəkməsi belə yaraları tam sağalmadığından ayağına olmurdu. Döyüşlərdə yaralanarkən bir hərbçi yoldaşı onu xilas edib. Sonra isə vəziyyət elə gətirib ki, Vüsalın həmin döyüşçü yoldaşı yaralanıb, bu dəfə Vüsal onu xilas edib. Mən bilmirdim ki, qardaşım bu qədər gözü qaradır, fədakardır.”



Yazıçı, dramaturq, Əməkdar mədəniyyət işçisi Rafiq Rəhimli müzəffər Azərbaycan əsgərinin şücaətli döyüş əzmi ilə fəxr edərək, bu gün qardaşı oğlu Vüsal haqqında da ağızdolusu danışarkən eyni qürur hisslərini keçirir: “Biz çox qəddar bir düşmənlə üz-üzə olmuşuq. Onlar 30 il ərzində Qarabağ ərazisində müxtəlif müdafiə sistemləri, çoxsaylı bunkerlər qurublar. Və həmin müdafiə sistemləri də çox ağır keçiləsi sədlərdən ibarət olub.Bildiyimiz kimi Dağlıq Qarabağ ərazisi də adından göründüyü kimi dağlarla əhatə olunmuşdur. Və bizim ordumuz həmişə çətin mövqedən, aşağı hissələrdən irəliləyərək təpələrin, yüksəkliklərin alınmasında iştirak ediblər. Burada müxtəlif silahlardan istifadə edilməklə yanaşı əlbəyaxa döyüşlər də olub. Bizim Azərbaycan əsgərləri nə qədər qüdrətli, nə qədər məğrur, nə qədər güclü olduğunu bütün dünyaya sübut edib. Döyüş əməliyyatlarında çoxsaylı əsgərlərimiz Şəhid olub, çoxsaylı Qazilərimiz qəhrəmanlıq göstərib.Qürur duyuram ki, həmin qəhrəman qazilərimizdən biri də bizim Vüsaldır”.

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş, düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə döyüşlərdə fərqlənmiş Azərbaycan Respublikası Silahlı Qüvvələ-

rinin bir sıra hərbi qulluqçuları Azərbaycan Respublikasının Prezidenti tərəfindən müxtəlif dərəcəli medallarla təltif edilmişdir. Belə rəşadətli oğullar sırasında Vüsal Rəhimlinin də adı vardır. Belə ki, o, Vətənimizin ərazi bütövlüyü uğrunda göstərdiyi xüsusi səy və nəticələrə görə üç medala layiq görülmüşdür. Yüksək dərəcəli döyüş əzmi nümayiş etdirən Vüsal Rəhimli Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən Xocavənd və Füzuli rayonlarının işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları sırasında "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Bu gün qazimizin anası Fərqayə xanım oğlunun Vətən qarşısında etdiyi xidmətlərlə qürur duyur. Onun üçün ki, min cür əzab-əziyyətlə, halal zəhmətlə böyüdüb boya-başa çatdırdığı övladı doğma Qarabağımızın azadlığı uğrunda hər bir vətəndaşa örnək olası böyük fədakarlıq nümunəsi göstərərək həlledici döyüşlərdə igidliyi ilə fərqlənib. Xalqımıza qələbə sevincini yaşadanlardan biri kimi qəhrəman oğullar sırasında öz qanı, canı bahasına, itirdiyi əzası bahasına öz yerini tutub. Belə qeyrətli, qəhrəman oğulların varsa, yenilməzsən, Vətən! Qazi qardaşımız, Vətənimizin ərazi bütövülüyü uğrunda gedən döyüşlərdə itirdiyin sağ ayağın bu gün bizim azadlığına qovuşmuş Qarabağımızın bir parçasıdır. Sən, Vətənimiz üçün özünü fəda etdiyin, sağlamlığını qurban verdiyin qəhrəman qazimiz, ananın başının ucalığı, ailənin, iki övladının qürur mənbəyi, qardaşının ağızdolusu öyündüyü igid, bir sözlə əzizlərinin fəxr yerisən! Varlığına hər zaman duaçıyıq, Qələbə Qazimiz!

*Sevinc Ədalətqızı*

## Vüsal ŞAHKƏRİMOV




19 yaşlı Vüsal Şahkərimov... Bu, nə Hollivud filminin, nə də döyüş oyunlarının posteri deyil. Bu, Azərbaycan əsgəridir. Atası danışır ki, dostlardan biri zəng edərək, internetdə Vüsalın şəklinin yayıldığını deyib: “Ürəyim düşdü. Nə şəkil, nə foto, deyə soruşdum. Dedilər ki, İslam, qorxub eləmə, salamatçılıqdır.Bütün Azərbaycan sənin oğlundan danışır”.Bütün Azərbaycanın danışdığı topçumuz Vüsal Şahkərimov. 19 yaşı var! Vüsalın atası İslam kişi deyir ki, bu şəkli ona göstərəndə gözlərinin yaşını saxlaya bilməyib: “Dedim, qurban olum sənə, sən necə böyümüsən ki, xəbərim olmayıb. “Qəhrəman balam”, – dedim, telefonu qucaqlayıb öpdüm. Mən fəxr edirəm ki, belə bir oğul böyütmüşəm. Şükürlər olsun ki, belə oğullarımız sayəsində əsgərlərimiz erməni-ləri iti qovan kimi qovub çıxarır işğal olunmuş kəndlərimizdən. Qoy, qısa müddətdə qələbəmizlə bitsin müharibə. Bütün oğullarımız salamat qayıtsın. Amin!” Mərdanə duruşu ilə düşmənə gözdağı olan 19 yaşlı topçu qardaşımız Vüsal Şahkərimov 2001-ci il iyunun 29-da



Xaçmaz rayonunun Qusarçay kəndində anadan olub. Arif Məmmədov adına Qusarçay tam orta məktəbini bitirdikdən sonra, ötən ilin iyul ayında hərbi xidmətə yollanıb.

*Məhəmməd Əhmədov*

*İldən bir gün ayrıldı, əlində yanar məşəl,*
*İldən bir gün ayrıldı, bütün günlərdən gözəl.*
*Çiynində yaşıl əba, gözlərində təbəssüm,*
*Sinəsində çiçəklər düzülüb düzüm-düzüm.*

*Yeriyir min naz ilə göylərin şamı gəlir,*
*Ay ellər, pişvaz edin, Novruz bayramı gəlir.*
*Hanı yaşıl səməni, deyin, pişvaza çıxsın,*
*Hanı qızıl kəməri, belini bərk-bərk sıxsın.*

*Deyin, gülün, bu gün, hey, kədər nədi, qəm nədi?!*
*Qarı nənəm aş asıb köz üstündə dəmdədi.*
*Göylər durulan gündü, sular bulanan gündü,*
*Tonqallar ulduz kimi bir-bir qalanan gündü.*

*Bu bayramdan başlayır ilimizin baharı,*
*Arzumuzun baharı, elimizin baharı.*
*Bu bayramın eşqiylə qoy bəzənsin əsrimiz,*
*Bu bayramın oduna yansın dərdi - sərimiz.*
*Bu bayramın gözüylə gələcəyə baxağın,*
*Bu bayramı gül kimi döşümüzə taxağın.*

## Yasin QASIMOV



Yasin İlqar oğlu Qasımovla fəxr edirik. Yasin Qasımovun özü ilə üzbəüz söhbət etməsək də, telefonla qısa da olsa, məlumat aldım: “Mən Daxili qoşunların Xüsusi Təyinatlı dəstəsində xidmət edirəm. Döyüş başlayan kimi bizim dəstəmiz Göygöl istiqamətindən Kəlbəcərin Susuzluğuna qədər döyüşdük. Beş gün sonra bizi Füzuli istiqamətinə apardılar. Lələtəpədən keçib Hadrut istiqamətində döyüşə başladıq. Hadrudu bizim komanda aldı. Xankəndinə gedən yolun bütün yüksəkliklərini tutduq. Tuğ kəndindən Talavar, Qırmızı Bazar, Şuşaya qədər döyüşə-döyüşə getdik. Noyabrın 3-də Şuşanın girişində düşmən tərəfindən atdığı mərminin yanımda partlaması nəticəsində travma alıb hospitala göndərildim. Müalicə aldım. Şükürlər olsun ki, indi yaxşıyam. Bütün şəhidlərimizə Allah rəhmət eləsin. Qazilərimzə da can sağlığı. Qələbəni Azərbaycan əsgəri qazandı. Var olsun, Milli ordumuz!”

*Həqiqət B.*



## Yaşar HÜSEYNOV



Şuşada düşmən bayrağını yerə atıb müqəddəs bayrağımızı dalğalandıran igidimiz Yaşar Hüseynov.

1981-ci ildə Ağdamda dünyaya göz açan Yaşar Hüseynov 2000-ci ildən ömrünü hərbə bağlayıb. Həyatda ən böyük amalı şəhid qardaşı Füzuli Hüseynovun qisasını almaq və işğal altında olan torpaqlarda Azərbaycan bayrağını dalğalandırmaq idi. O bu müqəddəs arzusuna məhz Şuşa şəhərində çatdı. Füzulidən Şuşa qalasına qədər yeridi. Silahla atəş aça-aça düşmən leşlərinin üzəri ilə yeriyib qayalarla qalaya dırmandı. Qalib ordunun zəfər müjdəçisi oldu qəhrəman Yaşar Hüseynov. Onun bu igidliyi Ali Baş Komandan tərəfindən "Vətən Müharibəsi Qəhrəmanı" medalı ilə qiymətləndirildi.

*Rövşən Məmmədov*

## Xəyal QASIMOV



Şanlı əsgərimiz Xəyal bəy. Gözün aydın olsun, əsgər, Uğur adlı oğlun dünyaya gəldi. Qasımov Xəyal Sahib oğlu 1995 ci il Yanvarın 8-i anadan olub. 27 sentyabr Vətən Müharibəsində səfərbərliklə çağırılıb. Döyüş bölgələrində – Suqovuşanda iştirak edib.

*Həqiqət B.*

**Xəyal KƏRİMOV**



Bu igid qardaşımız Xəyal İlqar oğlu Kərimovdur. Naxçıvandandır. Füzuli şəhəri uğrunda döyüşlərdə ağır yaralanıb. Qardaşımıza dua edək. Şərhlərinizi özü şəxsən oxuyacaq.

*Şıxəli Şərif*

**İSMAYIL BABA   *                    *  SÖZSÜZ**





## Xəzər NƏSİBLİ



İgidlərimizi tanıyaq! Allah can sağlığı versin Qazimizə. Döyüş meydanında böyük şücaət göstərərək 43 ermənini öldürən leytenant – Nəsibli Xəzər İntiqam oğlu Dağlıq Qarabağda gedən döyüşlərdə torpaqlarımızın bütövlüyü uğrunda şücaətlə, mərdliklə mübarizə aparmış, dövlətçiliyimizin, xalqımızın adını yüksəkdə tutan hərbçilərimizdən olmuşdur.

Döyüşlərdə yüksək fədakarlıq göstərən Xəzər Nəsibli ona verilən tapşırığı böyük həvəslə və qürurla icra etmiş, döyüş meydanında Azərbaycan əsgərinin adını, üçrəngli bayrağımızı şərəflə zirvələrə daşımışdır. Şuşa uğrunda gedən döyüşlərdə böyük şücaət göstərərək yoldaşlarını mühasirədən çıxardıqdan sonra tək vuruşmalı olan tağım komandiri Xəzər Nəsibli 1 balta 2 bıçaqla əlbəyaxa döyüşmüş, 43 erməni əsgərini məhv etmişdir. Üçrəngli bayrağımızın Şuşa şəhərində sancılmasından sonra Xankəndi istiqamətində gedən döyüşlərdə sağ qolundan yaralanmışdır. Xəzər Nəsibli özü yaralı olmasına baxmayaraq yaralı əsgərlərini tərk etməmiş, onları təkbaşına döyüş meydanından çıxarmağı bacarmışdır. Xəzər Nəsiblinin atası İntiqam Nəsibov da Birinci Qarabağ müharibəsində iştirak etmiş, iki dəfə yaralanmışdır. Müharibə veteranıdır. Nəsibli Xəzər İntiqam oğlu 28 oktyabr 1999-cu ildə Bakı şəhərində anadan olmuş, Biləcəri qəsəbəsi Vüqar Əvəzov adına 300 saylı orta məktəbi bitirmişdir. 2014-2017-ci illərdə Cəmşid Naxçıvanski adına hərbi liseyi kurs birincisi olaraq ba-

şa vurmuş və 2017-2020-ci illərdə Azərbaycan Ali Hərbi məktəbində təhsil almışdır. Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq 03 oktyabr 2020-ci il tarixdə leytenant rütbəsi alaraq Gəncədə "N" saylı hərbi hissəyə tağım komandiri vəzifəsinə təyin olunmuşdur.



29 oktyabr tarixində xüsusi tapşırıqla Füzuli rayonu Hadrut qəsəbəsinə göndərilmiş və oradan da noyabr ayının 6-da Şuşa istiqamətində döyüşlərə qatılmışdır. Topxana meşəsindən Şuşanın Daşaltı kəndini aldıqdan sonra Xankəndi istiqamətinə yollanmışdır.

Noyabr ayının 7 tarixində 5 nəfərlik şəxsi heyətlə dozor şəklində Şuşa Xankəndi istiqamətində hərəkət edən zaman 40-50 nəfərlik erməni kəşfiyyat dəstəsi ilə qarşılaşmışdır. Təyin olunmuş parolu soruşduqda və cavab almadıqda erməni diversiyası ilə 20-30 metrlik məsafədən üzbəüz atışmaya girişmişdir. Qeyri-bərabər döyüşdə erməni gülləsini nəzərə almadan özünü yola atmış və yaralı əsgərini oradan çıxarmağa nail olmuşdur. Vəziyyətin ağırlığını dərk edərək yaxın məsafədən olsa da, qumbaraatan mərmisindən istifadə etmiş və düşmənin bir qismini məhv etməyə nail olmuşdur. Beş dəqiqə sonra sağ qalan düşmən qüvvələri yenidən atəş açmağa başlamış və son qalan F-1 əl qumbarasını çəkərək düşmən üzərinə yerimiş, üst-üstə yığılmış 5,45 mm erməni sursatlarının üzərinə əl qumbarasını tullamış, hərbi sursatı patladaraq 40-50 nəfərlik düşmən kəşfiyyatçısını məhv etməyə nail olmuşdur. Öldürülən erməni leşlərinin sayı 43 nəfər olmuşdur. Bu atışmadan beş yaralı əsgərini sağ olaraq çıxarda bilmişdir.

8 noyabr tarixində Xankəndi istiqamətində hücuma keçən zaman pusquya düşmüş və yaralı zabit yoldaşı leytenant Mobil

Əhmədzadəni çıxaran zaman ayağından qəlpə yarası almış və qolundan erməni snayper gülləsinə tuş gəlmişdir.12 saat meşədə yaralı vəziyyətdə qaldıqdan sonra sağ çıxmağı bacarmışdır. Ona Şuşada oteldə ilkin tibbi yardım göstərilmiş və oradan Füzuli Hadrud hospitalına təxliyyə olunmuş,daha sonra Füzulinin Əhmədbəyli mərkəzi hospitalına gətirilmiş, orada tibbi yardım göstərildikdən sonra Gəncə şəhər mərkəzi hospitalına təxliyyə olunmuşdur. Pandemiya ilə bağlı olaraq oradan Ağcabədi hospitalına göndərilmişdir. Yarasının ağırlığı ilə bağlı olaraq üç gün sonra Bakı şəhər Quru Qoşunlarının mərkəzi hospitalına təxliyyə olunmuşdur. Orada sağ bazu sümüyünün odlu silah yaralanması diaqnozu ilə əməliyyat olunmuşdur. Hazırda həmin hospitalda müalicəsi davam edir.

Xəzər Nəsiblinin cəmi 21 yaşı olsa da, Vətən müharibəsində gördüyü od alov onu qorxutmur. Vətən sənə canım fəda deyən gənc leytenant gələcəkdə bu sahədə irəliləmək fikrindədir.

*Xuraman Ağayeva*

# Zaur RƏHİMOV

Şuşanın azad edilməsi barədə Ali Baş Komandana məruzə edən xüsusi təyinatlı! 44 günlük Vətən müharibəsi neçə-neçə qəhrəmanı bizlərə tanıtdı, sevdirdi. Onlardan biri-Şuşanın azad edilməsi barədə Ali Baş Komandan məruzə edən xüsusi təyinatlı, mayor Zaur Şirinbəy oğlu Rəhimovdur. Zaur müharibənin ilk günlərindən cəbhəyə yollanıb. Murovdağ silsiləsi,



Cəbrayıl, Füzuli, Qubadlının kəndləri, Xocavəndin Hadrut qəsəbəsinin işğaldan azad olunmasında böyük şücaət göstərib. İlk dəfə Murovdağ silsiləsində gedən döyüşlərdə boynundan qəlpə yarası alıb. Xəstəxanaya yerləşdirilən Rəhimov əməliyyat olunub, qəlpəsi çıxarılıb. Lakin yarası sağalmadan təkidlə yenidən cəbhəyə qayıdıb, döyüşü davam etdirib. "Zauru xəstəxanada saxlamaq mümkün olmurdu. Şuşa uğrunda döyüşlərə qatılmaq istəyirdi, Şuşanın azad edilməsini görmək arzusundaydı, bu arzusuna çatdı. Yaralarının sağalmasını gözləmədən hospitaldan çıxıb yenidən döyüşə getdi". Yaxınları sosial şəbəkələrdə onun haqqında yazıblar. Zaur ikinci dəfə Şuşa uğrunda döyüşlərdə yaralanıb. Şuşanın alınmasını Prezidentə məruzə edib və yenidən xəstəxanaya qayıdıb. Hazırda müalicəsini davam etdirir. Ali Baş Komandan tərəfindən "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunub. Lerik rayonu, Veri-Əliabad kəndindən olan Rəhimovları hamı tanıyır. Ailənin 10 övladı – 7 oğlu, 3 qızı var. Qardaşlardan üçü birinci Qarabağ savaşında iştirak edib və yaralanıblar. Zaurun əmisinin oğlu, Valeh Rəhimov isə şəhid olub. Zaurun

bacısının iki oğlu da Vətən müharibəsində qəhrəmanlıqla döyüşüb, onlardan biri şəhid olub. Zaur Rəhimov ailəlidir, övladları var.

*Lamiyə Əliyeva*

## ŞUŞA

*Dünyanın müqəddəs günüdür, bu gün,*
*Xoş müjdə qəlbləri gətirib cuşa.*
*Gözlər bulaq kimi coşub-çağlayır,*
*Azadlıq eşqiylə yaşayıb Şuşa.*
*Bu gün anasına qovuşur Şuşa.*

*Daşını,adını Pənahxan qoyub,*
*Zirvəyə Qaranquş yuvası qonub,*
*Düşməni göynədən göz dağı olub,*
*Neçə yol gəlibdi bədd gözlə tuşa,*
*Hər vaxt qalib çıxıb döyüşdə Şuşa.*

*Nə qədər qəlbləri sevgisi sarmış,*
*Ali Baş Komandan bəxtini yazmış,*
*Bütov Azərbaycan Şuşaya yarmış,*
*Hamısı bir olub qalxdı vuruşa,*
*Vəhşi caynağından qurtuldu Şuşa!*

*Şuşa!- qeyrət,şərəf,qürur şəhəri,*
*Şəfəqə dönəcək hər bir səhəri,*
*Dünyaya səs salıb dönüş zəfəri,*
*Xoş müjdə qəlbləri gətirib cuşa,*
*Bu gün anasına qovuşur Şuşa!*

*İbrahim Yusifoğlu*
*08.11.2020*

# İŞĞAL OLUNMUŞ ƏRAZİLƏR

## ERMƏNİSTANIN HƏRBİ TƏCAVÜZÜNÜN NƏTİCƏLƏRİ

| | |
|---|---|
| **Cəbhə xəttinin uzunluğu** | **246 km** |
| **Dağlıq Qarabağ** | **(1989)** |
| Ərazi | 4 388 kv.km |
| Əhali | 189 085 |
| Ermənilər | 145 450 (76.9 %) |
| Azərbaycanlılar | 40 688 (21.5 %) |
| Sair | 2 947 (1.6 %) |
| Sərhədin uzunluğu | 485 km |
| **O cümlədən:ŞUŞA rayonu** | |
| Ərazi | 312 kv.km |
| Əhali | 20 579 |
| Azərbaycanlılar | 19 036 (92.5%) |
| Ermənilər | 1 377 (6.7%) |
| İşğal olunmuşdur | 1992-ci il, 8 may |

## DAĞLIQ QARABAĞIN ƏTRAFINDAKI RAYONLAR

| Ərazi adı | İşğal olunmuşdur | Əhalisi - 2015 |
|---|---|---|
| Laçın rayonu | 1992-ci il, 18 may | 74 100 |
| Kəlbəcər rayonu | 1993-cü il, 2 aprel | 88 300 |
| Ağdam rayonu | 1993-cü il, 23 iyul | 191 700 |
| Füzuli rayonu | 1993-cü il, 23 avqust | 125 400 |
| Cəbrayıl rayonu | 1993-cü il, 23 avqust | 76 600 |
| Qubadlı rayonu | 1993-cü il, 31 avqust | 38 900 |
| Zəngilan rayonu | 1993-cü il, 29 oktyabr | 42 700 |
| QEYD: Ermənistanla və işğal olunmuş ərazilərlə həmsərhəd yaşayış məntəqələrindən olan məcburi köçkünlərin sayı (2015) – 110.612 nəfərdir. | | |

## QAZAX RAYONU

| | |
|---|---|
| Bağanis Ayrım | 24.03.1990 |
| Xeyrimli | 08.03.1992 |
| Aşağı Əskipara | 12.03.1992 |
| Barxudarlı | 27.04.1992 |
| Sofulu | 27.04.1992 |
| Qızılhacılı | 11.05.1992 |
| Yuxarı Əskipara | 08.06.1992 |

## SƏDƏRƏK RAYONY, NAXÇIVAN MR

| | |
|---|---|
| Aşağı Kərki kəndi | 15.01.1990 əhalisinin sayı – 333 azərbaycanlılar 100 % |
| | |

## HƏRBİ TƏCAVÜZÜN QURBANLARI

| | |
|---|---|
| Həlak olmuşdur | 20 000 |
| Əlil olmuşdur | 50 000 |
| İtkin düşmüşdür (2015) | 4 011 |

Qeyd: Münaqişə müddətində 6000-dən çox Azərbaycan vətəndaşı itkin düşmüş, əsir-girov götürülmüşdür.

## DAĞINTILAR VƏ ZİYANLAR (1988-1993-cü illər)

| | |
|---|---|
| Yaşayış məntəqələri | 900 |
| Evlər | 150 000 |
| İctimai binalar | 7 000 |
| Məktəblər | 693 |
| Uşaq bağçaları | 855 |
| Tibb müəssisələri | 695 |
| Kitabxanalar | 927 |

| | |
|---|---|
| Məbədlər | 44 |
| Məscidlər | 9 |
| Tarixi abidələr, saraylar və muzeylər | 473 |
| Muzey eksponatları | 40 000 |
| Sənaye və kənd təsərrüfatı müəssisələri | 6 000 |
| Avtomobil yolları | 2 670 |
| Körpülər | 160 |
| Su kommunikasiyaları | 2 300 km |
| Qaz kommunikasiyaları | 2 000 km |
| Elektrik xətləri | 15 000 km |
| Meşələr | 280 000 ha |
| Kənd təsərrüfatı üçün yaralı torpaqlar | 1 000 000 ha |
| İrriqasiya sistemləri | 1 200 km |
| **İşğal altında dəyən ziyan təxminən 300 milyard ABŞ dollarından çox həcmdə dəyərləndirilir.** | |
| **QAÇQIN, MƏCBURİ KÖÇKÜN VƏ SIĞINACAQ AXTARAN ŞƏXSLƏR (2015)** | |
| Ermənistandan qaçqınlar | 350 000 |
| Azərbaycanın işğal olunmuş ərazilərdən məcburi köçkünlər | 789 000 |
| Orta Asiyadan qaçqınlar (Axısxa türkləri) | 60 000 |
| Digər ölkələrdən olan qaçqın və sığınacaq axtaran şəxslər (2003-cü ilə qədər onların sayı 11 000 nəfər olmuşdur) | 1 500 |
| Cəmi: | 1 200 500 |
| | |
| **Məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı ərazilər** | |
| Çadır düşərgələri | 12 (1993-2007 |
| Dəmir yolu üzərindəki yük vaqonların-dan ibarət qəsəbələr | 3 (1993-2007) |

| | |
|---|---|
| Fin tipli qəsəbələr | 16 (1993-2015) |
| Məcburi köçkünlər müvəqqəti olaraq 62 şəhər və rayon ərazisində əsasən 1600-dən çox obyektdə məskunlaşmışdır. | |
| | |
| **İşğal edilmiş ərazilərdə olan Ermənistan hərbi qüvvələri (2015)** | |
| Tank | 350 |
| Artileriya | 425 |
| ACV | 398 |
| Şəxsi heyət | 45 000 nəfər |
| | |
| **İşğal edilmiş ərazilərə qanunsuz köçürülən əhali (2015)** | |
| ƏRAZİ | ƏHALİ |
| Dağlıq Qarabağ | 8 500 |
| Laçın | 13 000 |
| Kəlbəcər | 700 |
| Zəngilan | 520 |
| Cəbrayıl | 280 |
| Cəmi: | 23 000 nəfər |
| **Məlumatı rəsmi olaraq bu linkdə görmək olar:** **https://nmdk.gov.az/page/post/195/Isgal-olunmus-eraziler** | |




| TARİX | ƏRAZİLƏR |
|---|---|
| 1722 – ci il | Dərbənd Rusiyaya verilib |
| 1736– ci il | Borçalı Gürcüstana verilib |
| 1828– ci il | Azərbaycan 2 (iki) yerə bölünərək, Cənubi Azərbaycan İrana verilib |
| 1918– ci il | İrəvan, Göyçə ermənilərə verilib |
| 1921– ci il | Zəngəzur, Dərələyəz mahalları ermənilərə verilib |
| 1992-1994– ci illər | Qarabağ ermənilərə verilib |
| Azərbaycan dünyada yeganə dövlətdir ki, öz halal topraqları ilə həmsərhəddir | |

# İŞĞALDAN AZAD OLUNAN ŞƏHƏR, QƏSƏBƏ VƏ KƏNDLƏRİMİZ

Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib.

İndiyədək Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik azad olunub.

Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalayıblar.

Bəyanata əsasən 2020-ci il dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana qaytarılmalıdır.

Bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verilib.

Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri azad olunub.

Üçtərəfli bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verilib.

Kəlbəcər şəhəri də daxil olmaqla, 147 yaşayış məntəqəsi işğaldan azad edilib.

Dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verilib. Bununla da üçtərəfli bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşıb.

# DÜŞMƏN İŞĞALINDAN AZAD OLUNMUŞ ŞƏHƏR, QƏSƏBƏ VƏ KƏNDLƏRIMIZIN SIYAHISI:

**27 sentyabr 2020-ci il**

•Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri

•Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri

•Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər

**3 oktyabr 2020-ci il**

•Tərtər rayonunun Suqovuşan və Talış kəndləri

•Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri

•Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi

**4 oktyabr 2020-ci il**

•Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri

**5 oktyabr 2020-ci il**

•Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri

**9 oktyabr 2020-ci il**

•Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi

•Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri

•Füzuli rayonunun Yuxarı Güzlək, Gorazıllı kəndləri Tərtər rayonunun Çaylı kəndi

**14 oktyabr 2020-ci il**

•Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri

•Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri

**15 oktyabr 2020-ci il**

•Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri

•Füzuli rayonunun Arış kəndi

•Cəbrayıl rayonunun Doşulu kəndi

**16 oktyabr 2020-ci il**

•Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri

**17 oktyabr 2020-ci il**

•Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri

**18 oktyabr 2020-ci il**

•Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı

**19 oktyabr 2020-ci il**

•Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqulular, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri

**20 oktyabr 2020-ci il**

•Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri

•Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri

•Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri

•Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndləri

**21 oktyabr 2020-ci il**

•Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri

•Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri

•Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri

**22 oktyabr 2020-ci il**

•Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi

•Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri

•Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri

**23 oktyabr 2020-ci il**

•Xocavənd rayonunun Dolanlar və Bünyadlı kəndləri
•Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri

•Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri
•Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri

**25-26 oktyabr 2020-ci il**

•Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri

•Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri

•Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çay-tumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri

**28 oktyabr 2020-ci il**

•Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri

•Füzuli rayonunun Mandılı kəndi

•Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri

•Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndləri

**30 oktyabr 2020-ci il**

•Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri

•Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri

•Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri

**2 noyabr 2020-ci il**

•Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri

•Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri

•Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri

**4 noyabr 2020-ci il**

•Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri

•Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri

•Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri

**7 noyabr 2020-ci il**

•Füzuli rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar kəndləri

•Cəbrayıl rayonunun Yuxarı Məzrə, Yanarhac kəndləri

•Qubadlı rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı kəndləri

•Zəngilan rayonunun Beşdəli kəndi

•Xocalı rayonunun Qarabulaq, Moşxmaat kəndləri

•Xocavənd rayonunun Ataqut, Tsakuri kəndləri

**8 noyabr 2020-ci il**

**•ŞUŞA şəhəri**

**9 noyabr 2020-ci il**

•Füzuli rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli,

Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq kəndləri

•Xocalı rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Şuşakənd, Muxtar, Daşaltı kəndləri

•Xocavənd rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər kəndləri

•Cəbrayıl rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər kəndləri

•Qubadlı rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli kəndləri

•Zəngilan rayonunun Keçikli, Ördəkli, Sobu, Qaragöz, Isgəndərbəyli kəndləri, Bartaz qəsəbəsi

•Laçın rayonunun Güləbürd, Səfiyan, Türklər kəndləri.

**10 noyabr 2020-ci il**

•Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatına əsasən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunub.

•Bəyanata əsasən 2020-ci il noyabrın 15-dək Kəlbəcər rayonu, noyabrın 20-dək Ağdam rayonu, dekabrın 1-dək isə Laçın rayonu Azərbaycana qaytarılacaq.

**20 noyabr 2020-ci il**

•Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata uyğun olaraq, Ağdam rayonu Azərbaycana təhvil verilib. Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi azad olunub. Xatırladaq ki, Ağdam işğal edilmiş rayonlarımızın arasında əhalinin sayına görə ən böyük rayondur. Rayonda 138 yaşayış məntəqəsi var.

**25 noyabr 2020-ci il**

•Üçtərəfli bəyanata əsasən, Kəlbəcər rayonu da Azərbaycana təhvil verilib.

Qeyd edək ki, Kəlbəcər ərazi baxımından respublikamızın ən böyük rayonlarından biridir.2020-ci il yanvarın 1-nə olan məlumata görə, əhalisi 77 min nəfərdən çoxdur. İşğaldan əvvəl rayonda 147 yaşayış məntəqəsi olub.

**1 dekabr 2020-ci il**

•Üçtərəfli bəyanata uyğun olaraq, Ermənistan silahlı birləşmələri Laçın rayonundan çıxıblar. Rayon Azərbaycan Silahlı Qüvvələrinə təhvil verilib.Qeyd edək ki, ərazisi 1800 kvadratkilometr olan Laçın rayonunda bir şəhər, bir qəsəbə və 125 kənd olmaqla, ümumlikdə 127 yaşayış məntəqəsi var.

| **Məlumatı rəsmi olaraq bu linkdə görmək olar:** |
|---|
| **https://mod.gov.az/az/news/isgaldan-azad-olunan-seher-qesebe-ve-kendlerimiz-28583.html** |

**1 DEKABR 2020**

Yığışdı başıma qohum-qonşular,
Hərənin gəlişi bir toy, bir fərəh.
Boyumu sevdilər, qürrələndilər…

- Ay bala, bir sənsən
  ömrümə dirək,
- Dayı , mənə şapka…
- Mənəsə ulduz…
- Əmi, dediklərim
  yadda qalacaq?

Hərə öz könlündən gələni dedi,
Sevindi babamdan qalma bu ocaq.
Bir elin xeyri-bərəkətiylə,
Sənin nəfəsinlə, ay doğma kəndim,
Vətənə borcumu verməyə gəldim.

Anam alqış dedi, öpdü alnımdan,
Həsrətlə başımı köksünə sıxdı.
Arxamca su səpdi, dondu bircə an
İslandı kirpikləri…

***

Süzüldü axdı…
Səndən ayrılsam da, ana, ay ana,
Mən sənə borcumu
verməyə gəldim.
Vətənə borcumu verməyə gəldim.

Bu bahar görüşüb sevişdiyim qız,
Darıxma, vaxt ötər dönüb gələrəm.
Sənin çiçək kimi tər yanağından,
Həsrəti, hicranı özüm silərəm.

Bilirəm ən ağır günümdə, gülüm,
Həyata sən məni səsləyəcəksən,
Bilirəm, sevgilim, yolumu mənim,
Gecə də, gündüz də gözləyəcəksən.

Ulu anamızdan qalan mirasa –
Bu böyük inama
bir də baş əydim.
Vətənə borcumu verməyə gəldim.
Vətənə borcumu verməyə gəldim.

## AZƏRBAYCAN RESPUBLIKASININ PREZIDENTI, ALI BAŞ KOMANDAN İLHAM ƏLIYEV:

Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir. Bizim tarixi torpaqlarımız təkcə Dağlıq Qarabağın ərazisi deyil. İrəvan, Göyçə, Zəngəzur bizim tarixi coğrafiyamızdır, tarixi torpaqlarımızdır. Ermənistan vaxtilə bizim o torpaqlarda qanunsuz olaraq dövlət qurub, indi də bizim torpağımızda ikinci dövlət qurmaq istəyir. Azərbaycan xalqı heç vaxt buna imkan verməyəcək…

### HƏLƏ SƏBR EDİRƏM

Göyçənin keçmişi müdhiş olubdu,
Əgər araşdırsan qoca tarixi.
Köhnə daşları var, üstü yazılı,
Gah alban hərfi, gah da ki, mixi.

Hələ oxunmayıb onların biri,
Bəlkə də oxunub, sonra gizlənib.
Amma yaddaşlarda qalan tarixdən,
Görürəm həmişə Göyçə gizlənib.

Bir tarix danışdı bir yaşlı kişi,
Uşaq yaddaşıma hopdu su kimi,
Onun söhbətləri indi də belə
Qalıb qulağımda bir yuxu kimi.

…O vaxt bir general Selikov adlı,
Göyçəni quldurtək çalıb-çapırdı.
Yazıq göyçəlilər hara qaçsa da,
Selikov axtarıb, gəzib tapırdı.

"Mənim şanlı ordum, müzəffər ordum,
Gərək ərzaqdan da korluq çəkməsin.

Ordu tanımıram, mənim önümdə
O təslim olmasın, o diz çökməsin".

Zodda oturmuşdu o quldur daşnak,
Dinənin boynunu vururdu dərhal.
Göyçə qan içində çabalayırdı,
Matəm içindəydi bu qədim mahal.

Bax, onda yığışdı hamı bir yerə,
Hamı ürəyində bir and içirdi.
Fikirli gəzirdi Məşədi İsə,
Fikirində yüz ölçüb, bir də biçirdi.

Sonra ehtiyatla açdı fikrini,
Qorxmaz oğullardan seçdi köməkçi.
Getdi generalın yanına birbaş
Soldatla doluydu həyətin içi.

Nələr düşünürdü bu çətin anda,
Gəldi göz önünə eli-obası.
Axı bu yurdda qorxaq olmayıb,
Belə danışıbdı ata-babası.

Oturdu söhbətə Məşədi İsə,
Deyəsən general ona inandı,
Söhbət qurtaranda istədi onu,
Durub yola salsın birdən dayandı.

Deyirlər general bic adam idi,
Hamının qəlbini görürdü guya.
Amma dayanmadı: çıxdı həyətə -
Baxdı məğrur-məğrur ulduzlu göyə.

Həyət boşalmışdı, yəqin soldatlar,
Yatmağa getmişdi, gecə yarıydı.

Onlar dayandılar qapı ağzında,
Həyətin dörd yanı qəlbi barıydı.

Bu axsaq qocaya hardan güc gəldi ,
Bir anda hoppanıb barını aşdı.
General özünə  gəlməmiş gördü
Gözündən od çaxdı, ildırım şaxdı.

Zoddular qəflətən üstünü alıb,
Kəsdilər başını – qan çanağını.
Ona göstərdilər qisas gününü,
Ona göstərdilər Göyçə dağını.

Beləcə məhv oldu qanlı general,
Susdurmaq olmazmış haqqın səsini.
O olub qalsa da o uzaq gündə,
Yenə eşidirəm xalqın səsini.

Bəlkə unudubdu Zori Balayan,
Qan içən babası qanda boğulub.
Başqa torpağına göz dikən zaman,
Bax onda, bax onda, boğulub.

Hələ ulu Göyçə bir vaxt gələcək,
Cavab istəyəcək tutub yaxandan.
Haraya qaçsan da məzar olacaq,
Qarabağ sənə də  "hinger Poqosyan".

Bax, onda gedəcəm  Göyçə elinə,
Qanlı tarixini yazacam bir-bir.
Yəqin çatacağam o xöşbəxt günə,
Hələ səbr edirəm, mən hələ səbr.

# ZƏFƏR BAYRAMI:
# VƏTƏN ANDI, OĞUL ANDI




30 ildir ki, ana torpaqlarımız qonşu xalqın – daşnak törtöküntüləri olan ermənilərin işğalı altında idi. Bu 30 ili bütün xalqımız dərd yükü, ürək ağrısı, üz-gözünün kədəri, gərilmiş əsəbləri ilə yaşayıb. Amma həm də ötən illərin təcrübəsinə əsaslanaraq yetişəcək məqamı gözləmək məcburiyyətində idi. Ən əsas məqam isə xalq və dövlət rəhbərinin birliyinə inanmaq, bir olmaq, birlikdə olmaq idi.

Budur, o məqam yetişdi. 2020-ci ilin 27 sentyabrından 10 noyabrına kimi – 44 günlük ağır İkinci Qarabağ Müharibəsi günlərini yaşadıq (Birinci Qarabağ Müharibəsi 1990-1994). Məğrur əsgərlərimiz Qarabağ torpaqlarında Vətən Müharibəsində son damla qanlarına qədər vuruşmağa and içdilər və

qeyd etdiyimiz kimi, 44 günə şərəfli döyüşlərini başa vurdular. Vətənimin hər bölgəsindən Qarabağa yollanan oğullar Ali Baş Komandanın rəhbərliyi altında Zəfər qazandılar. Qarabağ torpaqlarımızın böyük bir hissəsini ağır hərb yolu düşmən tapdağından qurtardılar, qalan hissənin isə azad olunması haqqında Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin imzaladığı Bəyanatla, yəni siyasi-diplomatik çərçivədə həyata keçirilməsi nəzərdə tutuldu. Bəyanatın beşinci maddəsində göstərildiyi kimi, "münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə yaradılmış sülhməramlı mərkəz"in tərəfdaşları Rusiya-Türkiyə arasında bağlanmış Müqavilə əsasında həyata keçiriləcəkdir. Artıq həmin mərkəz fəaliyyətdədir.

Torpaq, Vətən namusu bizi 44 günlük tarixi gündə bir xalq olaraq doğmalaşdırdı, bir olduq, sevincimiz də, kədərimiz də bir oldu.

11 noyabrda, Zəfər Qələbəmizin səhəri günü Ali Baş Komandan İlham Əliyev cənabları 1 saylı Kliniki Tibbi Mərkəzdə yaralı hərbçilərin görüşünə gəldi.

Ali Baş Komandan həmin görüşdə bildirdi ki, Zəfərdən sonrakı ilk görüşü onlarladır: "Qələbə bizim hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı hesabına qazanılıb. Onlar torpağımızı düşməndən qarış-qarış azad edib, bu zəfəri xalqımıza nəsib ediblər. Gəlmişəm deyim ki, mən hər zaman sizinlə bir yerdə olacağam. Mənə arxalana bilərsiniz. Bizim qəhrəman döyüşçülərimiz gələcək həyatda da daim mənim nəzarətimdə olacaqlar". Bəli, Qələbəmizin qazanılmasında Ali Baş Komandan ilə xalq, əsgərlər arasındakı bu səmimiyyətin böyük, danılmaz rolu vardı.

Ali Baş Komandanın bu qələbəni qazanan şəhidlərimizin ruhu qarşısında, onları böyüdən valideynlər haqqında dedikləri hamının qəlbindən keçən sözlər idi. Azərbaycan əsgəri ötən 44 günlük müharibə ərzində 5 şəhər, 4 qəsəbə, 300-ə yaxın kənd,


cəngavərlərimiz!

onlarla strateji yüksəklik düşmən işğalından azad etdilər, Ermənistan faktiki məğlubiyyətə düçar edildi.

Vətən Müharibəsi günlərində sanki bir xalq olaraq yenidən, öz içimizdən, öz daxili vüqarımızdan yenidən doğulduq.

Qədim Şuşanın – Qala Şuşanın düşməndən azad edilməsindən (8 noyabr) sonra Şəhidlər Xiyabanından xalqa edilən müraciət hamımızın həyatında yeni bir səhifə açdı: "Mən xoşbəxt insanam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu böyük Qələbədir! Bu gün Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan!"

Bu etiraf müraciətdə Vətən Andına əməli cavab, övladın ata sözlərinin-vəsiyyətinin yerinə yetirilməsinə əxlaqi-mənəvi borcu və Vətəndaş sevincini görürük!

Biz canlı sərkərdə kim olduğunu gözümüzlə gördük, gündəlik müharibə ağrıları, acıları şəraitində müşahidə etdik. Bu böyük bir tale qismətidir, bu bir alın yazısıdır. Biz bu dövrü yaşayıb, şahidi olduq. Allah Azərbaycan və Türkiyə xalqlarını, bizim məğrur millətimizi qorusun. İllər öncə Ümum-milli lider Heydər Əliyevin kitablardan oxuduğum sözlərini xatırladım: "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə Azərbaycan yoxdur!"

Bu gün Şuşanın yerləşdiyi Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

*Atilla Süleymanlı,*
*jurnalist*

# KİTABIN İÇİNDƏKİLƏR

27 sentyabr 2020-ci il.................................................... 3
44 günlük hərbi əməliyyatın adı – Dəmir Yumruq olub... 3
Almaz Ülvi. 44 günün əfsanəsi (ön söz əvəzi).................. 4

## ŞƏHİDLƏR

Ayaz Abbasov.................................................... 16
Abbas Qasımov .................................................. 18
Adil İbrahimli.................................................... 20
Alı Həsənli........................................................ 28
Alim Yoldaşov.................................................... 29
Amil Rüstəmov.................................................... 32
Amin Gülməmmədov............................................. 33
Anar Əliyev........................................................ 35
Anar Əmirov........................................................ 36
Anar Şükürov...................................................... 483
Ağa Əmi Heybətov ............................................... 37
Ağəli Ağayev...................................................... 39
Aqil Əliyev ........................................................ 22
Aqşin Ənvərli...................................................... 24
Aqşin İbadov ...................................................... 25
Aqşin Novruzov................................................... 27
Arəstə Baxışova .................................................. 41
Arif Süleymanov.................................................. 43
Aslan Rzayev...................................................... 44
Aşur Cəmiyev..................................................... 46
Ataməli Musaoğlu................................................ 48
Azad Şirinov...................................................... 50
Azər Mikayılov................................................... 52
Azər Musazadə.................................................... 55
Azər Yusifli........................................................ 57
Balaş Cəfərov..................................................... 533
Beyrək Fezullayev ............................................... 62
Bəhram Məmmədzadə........................................... 64
Bəhruz Tağızadə.................................................. 67

Bəxtiyar Aslanov............................................................ 68
Bəxtiyar İslamov............................................................ 69
Bəxtiyar Mayilov............................................................ 71
Bilal Rzayev.................................................................... 72
Cahangir Qurbanov......................................................... 73
Cavid Hüseynov............................................................. 74
Ceyhun Şalıyev.............................................................. 76
Cəbrayıl Dövlətzadə...................................................... 95
Cəlil Xeyrullayev............................................................ 102
Coşqun Səfərov.............................................................. 103
Denis Əliyev (Денис Пронин)......................................... 105
Dmitriy A.Solnsev.......................................................... 106
Elçin İsmayılov .............................................................. 108
Elçin Mansurov.............................................................. 112
Elfaq Nağıyev................................................................ 114
Elxan Ramazanov........................................................... 115
Elxan Rzayev................................................................. 117
Elxan Rzayev................................................................. 118
Elgün Səmədov.............................................................. 119
Elmar İbrahimov............................................................ 120
Elməddin Vəkilov.......................................................... 122
Elnur  Bəylərov............................................................. 123
Elnur Cabbarov.............................................................. 124
Elnur Qafarov ............................................................... 127
Elnur Qarayev ............................................................... 129
Elnur Mustafayev .......................................................... 130
Elnur Vəliyev................................................................. 131
Elşən Orucov.................................................................. 133
Elsevər Əhədzadə........................................................... 137
Ərini və qardaşını şəhid verən Azərbaycan xanımı........ 141
Elton Qənbərli .............................................................. 142
Eltun Əliyev ................................................................. 144
Elvin Abdurahmanov..................................................... 147
Elvin İslamov................................................................ 149
Elvin İskəndərov........................................................... 148
Elvin Məlikov................................................................ 151

Elvin Məmmədov........................................................................ 151
Elvin İsmayılov......................................................................... 152
Elvin Mirzəyev.......................................................................... 183
Elşad Yəhyayev......................................................................... 153
Emil Əhmədov........................................................................... 160
Emil Kərimov............................................................................ 166
Emil Şamilov............................................................................. 168
Emil Qurbanov.......................................................................... 169
Emin Məmmədov........................................................................ 172
Əbdülrza Rəfibəyli .................................................................... 174
Əbdülməcid Axundov.................................................... 183
Əbülfəz Rəhmətov ...................................................... 184
Əhməd Abdullayev..................................................................... 185
Əfqan Axundov......................................................................... 190
Əkbər Hüseynli ......................................................................... 186
Əkbər Hüseynov........................................................................ 187
Əkbər Məsimov......................................................................... 251
Ələkbər Ələsgərov..................................................................... 189
Ələddin Səidov.......................................................................... 191
Əli İbrahimov............................................................................ 192
Əli Əsədli.................................................................................. 193
Əli Quliyev................................................................................ 194
Əli Quliyev................................................................................ 195
Əli Yusifov................................................................................ 196
Əlizamin Mustafayev.................................................................. 197
Əmrah Əkbərov.......................................................................... 199
Əmrah Həmidov ........................................................................ 200
Əmrah Rəcəbov.......................................................................... 201
Faiq Qasımov............................................................................. 203
Famil Əlizadə ............................................................................ 206
Fədail Nadirov........................................................................... 208
Fərid Əhmədov........................................................................... 209
Fəqan Zalov .............................................................................. 213
Fərman Yaqublu........................................................................ 214
Fərrux Abbasov.......................................................................... 215
Fərrux Həşimov.......................................................................... 217

Fuad Əlizadə................................................................ 219
Fuad Məmmədov ............................................................ 221
Fuad Nəcəfov................................................................ 222
General Polad Həşimov.................................................. 224
Həmid Abbasbəyli ......................................................... 230
Həmidağa Hüseynzadə .................................................. 231
Həndi Əliyev ................................................................ 233
Hikmət Səfərov............................................................. 233
Həsən Məmmədli .......................................................... 234
Həsən Həsənov.............................................................. 236
Həsən Quliyev............................................................... 238
Həsən Cəlilov................................................................ 241
Həsən Rzazadə.............................................................. 243
Hüseyn İsmayilov ......................................................... 244
İbrahim Hüseynli........................................................... 245
İbrahim Sadıqlı.............................................................. 247
İlkin Ağaquliyev............................................................ 250
İlkin Rzayev.................................................................. 252
İlqar Bürcəliyev............................................................ 256
İlyas Nəsirov................................................................ 260
İman Məmmədzadə........................................................ 64
İmran Əliyev................................................................. 262
İntiqam Abdullayev....................................................... 263
İsmayıl İrapov............................................................... 264
İsmayıl Qədirli .............................................................. 264
İsmət Qurbanov............................................................. 265
İsrafil İbrahimov............................................................ 266
Kamran Məmmədov...................................................... 268
Kamil Məmmədov......................................................... 269
Kamil Şirinov................................................................ 273
Kənan Əhmədov............................................................ 272
Kəlbəcər rayonunun Ağcakənd Şəhidləri ......................... 274
Mahir Mirzəyev............................................................. 183
Mahmud Cavadov.......................................................... 275
Mansur Teymurov.......................................................... 278
Mehti Şixəliyev............................................................. 283

Mehrab Niftəliyev........................................................................ 286
Mədət Qənbərov........................................................................ 288
Məhəmməd Hüseynov.................................................................. 290
Məhəmməd Məmmədov................................................................ 533
Məhəmmədəli Həsənzadə............................................................ 291
Məhəmmədəli İbrahimli............................................................... 292
Mətləb Zamanov......................................................................... 292
Muxtar Qasımlı........................................................................... 293
Murad Nağıyev........................................................................... 295
Murad Vəliyev............................................................................ 298
Mustafa Babayev....................................................................... 301
Mürsəl Kazımlı........................................................................... 302
Nahid Məmmədov...................................................................... 304
Namaz Muradov.......................................................................... 305
Natiq Əhmədov........................................................................... 306
Nicat Atayev............................................................................... 308
Nicat Hüseynov........................................................................... 310
Nicat Qasımzadə......................................................................... 312
Nicat Salahov.............................................................................. 309
Nicat Şükürlü.............................................................................. 313
Nicat Tanrıverdiyev.................................................................... 317
Nihad Abbasov............................................................................ 319
Nihat Rzaxanov........................................................................... 321
Nihat Seyidov.............................................................................. 323
Nizami Aydəmirov...................................................................... 322
Nurlan Ağakişiyev....................................................................... 327
Nurlan Mustafayev...................................................................... 328
Nurlan Qasımov........................................................................... 329
Nurlan Quliyev............................................................................ 330
Oqtay Məmmədov....................................................................... 331
Orxan Balayevv........................................................................... 333
Orxan Şirinov.............................................................................. 334
Orxan Avdiyev............................................................................. 336
Pərviz Nağıyev............................................................................ 348
Pərviz Tağıyev............................................................................. 350
Qədir Məmişov............................................................................ 340

Qorxmaz Sadıqov.............................................................. 342
Qorxmaz Əlizadə............................................................... 343
Qoşqar Qasımov................................................................ 344
Qoşqar Ömərov................................................................. 345
Qənbər Qənbərli................................................................ 348
Qərib Baxşəliyev............................................................... 341
Raquf Orucov.................................................................... 351
Ramin Bayramov............................................................... 358
Ramiz Ağayev.................................................................... 359
Ramiz Ağayev.................................................................... 362
Ramiz Mustafayev............................................................. 363
Rasim Abdullayev............................................................. 364
Rasim Ramazanov............................................................. 365
Rauf Əliyev ...................................................................... 369
Rauf Əsgərov.................................................................... 372
Rauf Qurbanov.................................................................. 373
Rəhilə Orucova................................................................. 375
Rəhim Hüseynov............................................................... 376
Rəşad Ağayev .................................................................. 378
Rəşad Atakişiyev.............................................................. 379
Rəşad Ələkbərov.............................................................. 381
Rəşad Məmmədov............................................................. 386
Rəşad Quliyev ................................................................. 388
Rəşid Tahirov.................................................................... 390
Rəvan Əliyev ................................................................... 392
Rövşən Pənahov............................................................... 394
Röyad Məmmədov............................................................. 396
Ruslan Cəfərli................................................................... 398
Ruslan Hümbətov ............................................................. 404
Ruslan Qəhrəmanov.......................................................... 405
Rüfət Əliyev...................................................................... 407
Rüfət Məmmədli................................................................ 409
Rüfət Musayev.................................................................. 414
Rüfət Nəbizadə................................................................. 415
Sadiq Bağırzadə................................................................ 417
Sadiq Rəhimov.................................................................. 420

Sadiq Məmmədov.......................................................................... 422
Sahil Rəsulov............................................................................... 423
Saleh Səfərov ............................................................................... 423
Samir Məmmədov.......................................................................... 424
Seymur Hüseynoğlu...................................................................... 425
Səbuhi Həsənquliyev..................................................................... 429
Səbuhi Hüseyli.............................................................................. 430
Səbuhi Süleymanov....................................................................... 432
Sərxan Mustafayev........................................................................ 436
Sərxan Salahov.............................................................................. 437
Səməd Rzayev............................................................................... 439
Səməndər İmanov.......................................................................... 440
Sənan Abdullayev.......................................................................... 442
Soltan Məmmədov………………………………………… 445
Sultan İbrahimov .......................................................................... 447
Sübhan Həsənov ........................................................................... 448
Sübhi Mirzəliyev........................................................................... 449
Şahgündüz Cabbarov.................................................................... 450
Şəhidin təzə kostyumu.................................................................. 451
Şahin Tahirli.................................................................................. 416
Şahmar Səfərov............................................................................. 452
Şəhid qanı...................................................................................... 455
Şamil Babayev............................................................................... 456
Şamil Əliyev ................................................................................. 457
Şəhriyar Abdullayev ..................................................................... 461
Tacir Cəfərov................................................................................. 462
Tacəddin Əzizli.............................................................................. 467
Tahir Əlizadə................................................................................. 463
Taleh Əlizadə ................................................................................ 464
Taleh Yusifov ................................................................................ 465
Tamerlan Mahmudov..................................................................... 466
Telman Kəlbiyev ........................................................................... 468
Təbriz İbrahimov........................................................................... 469
Təhmiraz Cavadov......................................................................... 471
Tərlan Atakişiyev ......................................................................... 477
Tərlan Məmmədov......................................................................... 482

Tofiq Oğuz........................................................................ 729
Tural Abdullayev ................................................................. 488
Tural Aslanov...................................................................... 491
Tural Cəlilov ........................................................................ 492
Tural Məmmədov.................................................................. 493
Tural Rəhimli ........................................................................ 495
Tural Şixəliyev ..................................................................... 499
Turqut Xəlilbəyli .................................................................. 500
Ümid Novruzov..................................................................... 503
Valeh Məmiyev..................................................................... 507
Vüsal Allahverdiyev ............................................................ 508
Vüsal Kazımov...................................................................... 510
Vüsal Vəliyev.......................................................... 512, 514
Vüqar Ağayev ....................................................................... 515
Vüqar Zamanov..................................................................... 517
Xalid Hassan.......................................................................... 518
Xalid Gözəlov ....................................................................... 520
Xansu Qurbanov.................................................................... 525
Xəyal Balakişiyev.................................................................. 526
Xəyyam Daşdəmirov............................................................ 527
Xocalı soyqırımı, Xocalı şəhidləri...................................... 528
Xudayar Yusifzadə................................................................ 529
Xudayar təsnifi...................................................................... 532
Yalçın Osmanov.................................................................... 533
Yalçın Rəhimov .................................................................... 534
Yusif Budaqov....................................................................... 533
Yunis Əliyev.......................................................................... 541
Yüksəl Əlizadə ..................................................................... 542
Zamin Rüstəmov .................................................................. 543
Zaur Əsədzadə....................................................................... 544
Zaur Ələsgərli........................................................................ 213
Zaur Ələsgərli........................................................................ 545
Zaur Cəfərov.......................................................................... 549
Zeynal Şahhüseynov............................................................. 549
Ülvi Bünyadzadə................................................................... 550
2881 igid gənc ömürləri ilə tarix yazdılar........................ 553

İtkin düşmüş hərbi qulluqçuların siyahısı........................... 594
0c337e5d5d01e5aae1ec5c5cd052ea54.pdf
(2881 şəhid adlarının PDF)........................................... 594

## HƏLƏ DƏ VƏTƏNİN KEŞİYİNDƏDİRLƏR

Səlcuq Bayraktar........................................................... 595
Şahid igidlər, mərd oğullar............................................ 596
"44 gün"ün möcüzəsi: Səbəblər və Qəhrəmanlar............ 597
Elxan Ələkbərov........................................................... 604
Bu müharibədə canlı olaraq nələri gördük?.................... 605
Abbas Abbaslı və Nurlan Abbaszadə - qardaşlar............ 607
Afiq Qasımov................................................................ 609
Alik Məmmədov ........................................................... 612
Araz Ağaməmmədov ..................................................... 613
Aqil Tahirli.................................................................... 614
Aslan Allahverdiyev....................................................... 614
Aslan Əliyev.................................................................. 615
Ayaz Abbasov ............................................................... 617
Aynurə Hidayətqızı........................................................ 759
Azər Abdullazadə .......................................................... 617
Bayram Vəliyev ............................................................ 618
Bir bacının qazi qardaşı................................................. 618
Camal Alxasov............................................................... 619
Cavanşir Qurbanov ........................................................ 624
Cavid Hüseynov ............................................................ 625
Cavidan Hüseynli ......................................................... 626
Cəlal Akimov ............................................................... 627
Ceyhun Aliyev............................................................... 629
Çingiz Qəhrəmanov ....................................................... 629
Daməd İbrahimli............................................................ 630
Daşqın Xudiyev............................................................. 633
Elgiz qardaşım!.............................................................. 635
Elgün Səmədov ............................................................. 636
Elməddin Tarverdili........................................................ 641
Elnur Əhmədli. ...................... ..................................... 642
Elnur Rəsulov.. ...................... ..................................... 644

Elşən Şahəliyev ............................................................ 645
Eltəkin Abbasov.............................................................. 645
Elvin İntiqam........................................................... 664, 698
Elvin Məmmədov.......................................................... 646
Emin Piri ................................................................ 657, 664
Eyyub Dadaşov............................................................... 675
Əbülfət Qurbanov ........................................................... 676
Əbülfət Həmidov.............................................................. 758
Əhliman Süleymanov ...................................................... 644
Əhliyət Mehdiyev.......................................................... 731
Əli Əliyev ........................................................................ 677
Əli Kəlbəcərli ................................................................ 677
Əli Qasımov .................................................................... 678
Əli Səfərov ...................................................................... 678
Əmrah Əliyev.................................................................. 679
Əsgərə məktub! .............................................................. 679
Əzizağa Bəşirov ............................................................. 680
Fərid Əlirzayev............................................................... 683
Fuad Hədisov .................................................................. 686
Fuad İbrahimov............................................................... 686
Fuad Hüseynov ............................................................... 687
Fülya Öztürk ................................................................... 688
Gəncənin körpə qaziləri ................................................ 690
Şərq qəzeti və Bəxtiyar ................................................. 690
Hacı Rüfət ....................................................................... 691
Həsən Həsənov............................................................... 691
Hikmət Mirzəyev ............................................................ 692
İnqilab Qayıbov............................................................... 687
Hüseyn Xəlilov ............................................................... 696
İsmail Baba ..................................................................... 794
Kənan Hüseynov ............................................................ 705
Kənan Zeynalov ............................................................. 705
Qazi Əli ........................................................................... 706
Qəşəm Əliyev ................................................................. 706
Qazi Rəmzi ..................................................................... 707
Qəribə yuxular................................................................. 708

Qoşqar Həsəni ............................................................................ 709
Qürur duyduğumuz oğullarımız!..................................... 709
Qulu Ağaşov ................................................................. 710
Mehralı Məmmədov ...................................................... 705
Məhəmməd Əhmədov .................................................... 711
Məmməd Kərimli............................................................ 711
Məni niyə aparmırsınız? ................................................ 717
Mətin Həsənov................................................................. 719
Mirsəfal Seyidov ........................................................... 721
Mirzə Mehdiyev ............................................................ 722
Murad İsmayılov ............................................................ 723
Musa Mehdiyev ............................................................. 724
Mürşüd Rəsulzadə.......................................................... 724
Nadir Cabbarov ............................................................. 725
Nəriman Əzimov............................................................. 725
Namiq Abbasov ............................................................. 726
Nəriman Qəribov ........................................................... 727
Nicat Cəlalzadə............................................................... 728
Nicat Səfərov ................................................................. 726
Oğuz Alparslan................................................................ 664
Polad Rzayev................................................................... 729
Rahid Bayramov ............................................................ 728
Ramin Xıdırov ................................................................ 731
Ramal Əzimov................................................................. 732
Ramin Qasımov .............................................................. 734
Ramiz Qasımov................................................................. 733
Ramiz Mehdiyev............................................................... 731
Rasim Qasımov ................................................................ 736
Rauf Yaqubov ................................................................ 737
Rabil Rüstəmli ................................................................ 738
Rəhman Mustafayev......................................................... 731
Rövşən Abbasov ............................................................. 738
Rövşən Qədimov ............................................................ 739
Roza Əliqızı..................................................................... 635
Ruslan İbrahimov............................................................ 740
Sabir Dünyamaliyev ...................................................... 745

Sahib Səmədov.............................................................. 745
Sahil Həsənli................................................................. 739
Sabit Vəliyev .............................................................. 746
Pərvin Qasımova........................................................... 746
Sadiq İbrahimli........................................................... 747
Samir Səmədzadə ......................................................... 751
Seymur Tağiyev ........................................................... 752
Seymur Atilla............................................................... 753
Səbuhi Hüseynli ........................................................... 754
Səməd, Elnur, Kamran və Afiq Hüseynov qardaşları......... 755
Sənin təbrikinə gəlmişik, Şuşa!...................................... 758
Simnar Məmmədov ....................................................... 761
Sözsüz! ......................................................................... 760
Sözsüz! ......................................................................... 760
Sözsüz! ......................................................................... 760
Sözsüz! ......................................................................... 762
Sözsüz! ......................................................................... 794
Şahkərəm Heydərov ...................................................... 763
Teymur Bağırov ........................................................... 763
Taleh Əliyev................................................................. 764
Tamara Muradova.......................................................... 765
Teyyub Bayramov ......................................................... 766
Tofiq Oğuz.................................................................... 729
Toğrul Səfərli .............................................................. 768
Toğrul Ənsərli.............................................................. 772
Tərlan Həsənov ........................................................... 769
Ticarət İbrahimov ........................................................ 770
Təmkin Allahverdiyev .................................................. 771
Ülvi Süleymanov ......................................................... 771
Uğur Məmmədov ......................................................... 771
Vaqif Əlizadə .............................................................. 773
Vasif və Rasif Alıyev qardaşları.................................... 774
Vəliəhd Vəliyev .......................................................... 778
Vüqar Həsənov............................................................ 691
Vüqar Mehdiyev .......................................................... 779
Vüqar Əhmədov........................................................... 777

Vüsal Həsənzadə ............................................................ 780
Mehmetcik gəlir ............................................................ 781
Vüsal  Kazımov ............................................................ 782
Vüsal Nəsibov............................................................ 785
Vüsal Rəhimli ............................................................ 786
Vüsal Şahkərimov............................................................ 790
Yasin Qasımov............................................................ 792
Yaşar Hüseynov ............................................................ 793
Xəyal Qasımov ............................................................ 793
Xəyal Kərimov ............................................................ 794
Xəzər Nəsibli ............................................................ 795
Zaur Rəhimov ............................................................ 798
Şuşa ............................................................ 799
Işğal olunmuş ərazilər : Ermənistanın hərbi təcavüzünün nəticələri............................................................ 800
Işğaldan azad olunan şəhər, qəsəbə və kəndlərimizin siyahısı............................................................ 805
https://mod.gov.az/az/news/isgaldan-azad-olunan-seher-qesebe-ve-kendlerimiz-28583.html.................... 811
İrəvan, Göyçə, Zəngəzur bizim tarixi coğrafiyamızdır 813
Zəfər bayramı: Vətən andı, oğul andı............................. 816

## MÜƏLLİFLƏR *( Əlifba sırası ilə)*

Akif Aşırlı............................................................ 618
Akif Əsədullayev............................................................ 159
Akif Elşir............................................................ 758
Almaz Ülvi Binnətova............................................................ 15
Almaz Qasımova............................................................ 640
Analoq.az............................................................ 51
Atilla Süleymanlı............................................................ 819
Aynur İbrahimova ............................................................ 760
APA TV............................................................ 731
Aytac Aslan ............................................................ 408
Aytən Məmmədova ............................................................ 460
Aytən Sakitqızı ............................................................ 494
Azad Qurbanov............................................................ 629, 691

Banu Nəcəfova .......................................................... 447
Camalə İbrahimova .................................................. 107, 117
Ceyhun Bayramlı ...................................................... 767
Cəmilə Babayeva ...................................................... 303
Çinarə Nüsrətli .......................................................... 140
Dilarə Məmmədova .................................................... 526
Dünya Şəmilova .............................. 111, 321, 444, 498, 548
Elgün Gəncimsoy.......................................................... 626
Elman Tovuz................................................................ 760
Elnarə Akimova............................................................ 663
Elnur Eltürk ................................................................ 42
Elnurə Tahir..........................................................34, 220
Elşad Barat .................................. 71, 270, 322, 349, 446, 519
Elşən Məmmədov ........................................................ 129
Elvin Aslanov ...................................................... 616, 682
Elvin İntiqamoğlu.......................................................... 699
Elxan Salahov ............................................................ 357
Elyar İslamoğlu............................................................ 513
Eşqanə Babayev.. 102, 113,186, 358, 389, 464, 507, 733
Eyvaz Əyyub...................................................... 35, 364, 549
Ələmdar Cabbarlı .......................................... 130, 274, 309
Əli Nəcəfxanlı ............................................................ 680
Əliağa Vahid................................................................ 532
Əlövsət Ağalarov.......................................................... 249
Əkbər Qoşalı................................................................ 762
Əminə Elaydın.............................................................. 66
Əntiqə Qonaq .............................................................. 431
Əsmər Abbasova.............................................. 263, 268
Əziz Əzizov ................................................................ 423
Faiq Balabəyli ............................................................ 768
Fatimə Adgözəlli .......................................................... 128
Fatimə Əlixanlı ............................................................ 56
Femida.az .................................................................. 213
Fəridə Qədimova.......................... 259, 273, 372, 380, 387
Fərqiyyə Həşimova ...................................................... 218
Fidan Əhmədli ............................................................ 116

Fikrət Tahirli............................................................... 614
Frəngiz Xancabəyova.................................................... 716
Firəngiz Zeynallı ......................................................... 305
Firuzə Yunusova .................................... 29, 67, 517, 525, 542
Füzuli Abbasov............................................................ 17
Gülbəniz Babaxanlı....................................................... 454
Gülnar Səma............................................................ 611, 757
Gülnarə Hüseynova.................................................. 107, 117
Gülnarə Kazımova .................................................. 173, 261
Gülnarə Rövşən Mirzəyeva ........................................ 49
Gülşən Kəngərlinskaya......... 27, 28, 36, 105, 107, 117, 191, 193, 342, 343, 344, 350, 362, 363, 378, 403, 685
Günay İbadova ........................................................... 391
Hamaya Əliyeva ........................................................... 645
Haldun Novruzzadə ...................................................... 294
Həqiqət Binnətova.......... 24, 26, 118, 146, 152, 195, 265, 328, 416, 492, 494, 502, 543, 613, 617, 624, 625, 678, 679, 687, 722, 723, 725, 726, 728, 734, 736, 738, 739, 763, 767, 773, 780, 785, 792, 793
Hicran Alıyeva............................................................. 509
Xatirə Bəşirli................................................................ 616
Xatirə Rəhimbəyli ........................................................ 300
Xəqani Həbiboğlu......................................................... 677
Xuraman Ağayeva ........................................................ 797
Xuraman Etibarlı.......................................................... 267
Xuraman Verdiyeva...................................................... 689
İbrahim Yusifoğlu......................................................... 799
İqbal Nəhmət................................................................ 491
İlkin Muradov............................................................... 51
İlyana Məmmədova....................................................... 716
İradə Cəlil ............................................................ 182, 248
İradə Musayeva............................................................ 121
İradə Sarıyeva...................................... 339, 340, 385, 524, 765
Jalə Mustafayeva.......................................................... 751
Jalə Hacıyeva.......................................................... 190, 251

Jalə Mütəllimova........................................................ 532
Jasmin Abbasova......................................................... 216
Kamala Rahmatullayeva ............................................... 685
Kəmalə Abiyeva ..................................................... 277, 419
Kult.az........................................................................ 335
Könül Ağayeva............................................................ 312
Kübra Vəliyeva ........................................................... 506
Qalib Arif ........................................................... 451, 708
Qalibə Cəfərova ......................................................... 689
Qaratel Quliyeva................. 449, 451, 456, 462, 463, 761, 770
Qənirə Paşayeva......................................................... 75
Qərbi Azərbaycan TV.................................................. 118
Qılman İman.............................................................. 778
Qorxmaz A. ............................................................... 229
Qurban Yaquboğlu ...................................................... 481
Lalə Ələkbərova ............................................. 318, 330, 604
Lamiyə Əhmədova...................................................... 47
Lamiyə Əliyeva................................................. 733, 799
Lamiyə Sultanova ....................................................... 377
Ləman Dadaş Mövlanova ............................................. 371
Lütfiyyə Əsgərzadə ..................................................... 656
Mahirə İsmayılova....................................................... 264
Mayıs Abbasov........................................................... 725
Mehdi Mehdiyev......................................................... 724
Mehriban Əliyeva........................................................ 393
"Mədəniyyət" qəzeti .................................................... 422
Məhəmməd Əhmədov.......................................... 777, 791
Məleykə Mirzəli .............................................. 255, 374, 438
Mərziyyə Nəcəfova (Səlahəddin)........................... 282, 675
Mətanət Ağamirli......................................................... 150
Mətanət İsmayılova ..................................................... 317
Mirvari Mustafayeva ................................................... 395
Modern.az.................................................................. 229
Mübariz Ağalarlı ...................................................... 54, 136
Müqədəs Mehdiyev..................................................... 272
Nənəxanım Ağayeva ................................................... 516

Nənəxanım Nəsibova ...................................................... 167
Nəsir İmanov.................................................................. 441
Nigar Babaxanova........ ............................................ 202, 232
Nigar Həmidli ................................................................ 68
Nigar Hüseynova ........................................... 221, 264, 342
Nizami Məmmədov Tağısoy.................................... 435, 476
Nuray Bəbirli ..................................................123, 429, 541
Nuridə Mirhüseynli ........................................................ 304
Oktay Salahlı ................................................................. 785
Orxan Rahimzadə .......................................................... 303
Oxu.az ..........................................................................608, 623
Rafiq Rəhimli ................................................................. 165
Ramin Qəhrəmanov........................................................ 726
Ramiyyə Əkbərova ..................................................240, 242
Ramiz Əskər .................................................................. 198
Report.az......................................................................... 146
Rəna Məmmədova .......................................................... 94
Rəsmiyyə Sabir.......................................................... 207, 632
Rəsul Həsən.................................................................... 375
Rövşən Əlisoy........................................................ 32, 332, 482
Rövşən Məmmədov ................................ 213, 462, 686, 793
Ruhiyyə Daşsalahlı........................................... 101, 171, 347
Ruslan Həsənov ............................................................. 676
Rübabə Şirinova.............................................................. 43
Rüstəm Behrudi.............................................................. 470
Sabah.az.......................................................................... 623
Sabir Cabirzadə............................................................... 691
Sahab Əliyeva ........................................................... 326, 428
Sahib İbrahimli............................................................... 455
Samirə Məmmədova ....................................................... 750
Sevil Əliyeva .................................................................. 745
Sevil Qurbanova....................................................... 208, 230
Sevinc Ədalətqızı ............................................... 61, 744, 789
Sevinc Əliyeva ............................................................... 188
Səbuhi Məmmədli ............. .......................................... 361
Sədaqət Akimova...................................................... 627, 628

Səxavət Məmməd ........................................................... 718
Səkinə Zeynalova...... 104, 114, 262, 307, 406, 413, 540, 697
Səlcuq Bayraktar............................................................. 564
Simranə Məmmədova ..................................................... 45
Solmaz Elqızı................................................................. 320
Şahlar İsmayıl ............................................................... 686
Şahnaz Şahin.................................................................. 237
Şeyx Teymur.................................................................. 285
Şəbnəm Babayeva.... 19, 119, 122, 141, 148, 151, 168, 184, 185, 194, 199, 200, 214, 244, 297, 327, 329, 465, 467, 468, 511, 527
Şəhrəbanu Allahverdiyeva............................................. 436
Şəhla Məcidova ........................................................... 70, 311
Şəmsiyyə Kərimova ...................................................... 752
Şəmsiyyə Mustafayeva .................................................. 677
Şərqiyyə Həsənova ........................ 23, 40, 132, 147, 259, 424
Şıxəli Şərif .................................................................... 793
Şölə Zakir ..................................................................... 770
Şücaət Qənbərov ........................................................... 126
Tahir Ağaməmmədov..................................................... 289
Telli Pənahqızı ........................................................ 423, 439
Təhminə Vəliyeva.......................................................... 720
Tofiq  İsmayılzadə.......................................................... 606
Tofiq Şahmuradov.......................................................... 487
Sevil Qurbanova ............................................................ 780
Tural Adışirin .......................................................... 63, 415
Ülvi Qədir...................................................................... 635
Ülviyyə Heydərova ........................................................ 675
Ülviyyə Novruzova............................. 143, 235, 290, 333, 499
Ümbülbəni Musayeva..................................................... 514
Vəliyəddin Süleymanov.................................................. 38
Vəzufə Xudiyeva............................................................ 634
Vikipediya ............................................... 196, 205, 490, 552
Yeganə Hüseynova......................................................... 289
Zenfira Əliyeva.............................................................. 444
Zeynəb Əliyeva ............................................................. 287

Zeynəb Fərhadlı ............................................................ 223
Zəhra Nəzərli ...................................................... 174, 243, 448
Zəki Bayram.............................................................. 781, 785
Zəminə Hüseynova ............................. 21, 72, 73, 397, 404, 544
Züleyxa Nadir ............................................................... 777
Kitabın içindəkilər......................................................... 819

Toplayıb nəşrə hazırlayan və ön sözün müəllifi
**Almaz Ülvi (BİNNƏTOVA)**
*filologiya elmləri doktoru*

Məsul katib: **Şəbnəm BABAYEVA**
Korrektor: **Gülşən KƏNGƏRLİNSKAYA**

Kompyuter dizaynı**: Atilla SÜLEYMANLI**

**VƏTƏN SİMURQLARI** (II Qarabağ Vətən Müharibəsinin Qəhrəmanları) / Toplayıb nəşrə hazırlayan, redaktor və ön sözün müəllifi: Almaz Ülvi (Binnətova) I cild, 2-ci kitab. – Bakı, 2022. – 840 səh. [şəkilli]

